Q.Ş.KAZIMOV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

Q.Ş.KAZIMOV

SEÇİLMİŞ ƏSƏRLƏRİ
10 CİLDDƏ

Q.Ş.KAZIMOV

SEÇİLMİŞ ƏSƏRLƏRİ
VII CİLD

Atam Şirin Kazım oğlunun (1904-1943) 100 illiyinə İthaf edirəm.

Q.Ş.Kazımov. Seçilmiş əsərləri, VII cild, Bakı, "Nurlan", 2009, 576 səh.

Bu cildə prof.Q.Ş.Kazımovun "Dil, tarix, poeziya" (Bakı, "Nurlan", 2005, 600 səh.) kitabı və bir sıra yeni məqalələri daxildir.

www.qkazimov. gen. az

DİL, TARİX, POEZİYA

Rəyçilər: **S.A.Sadıqova,**
filologiya elmləri doktoru

Z.Ş.Əsgərli,
filologiya elmləri doktoru

Elmi redaktoru: **R.H.Eyvazova,**
filologiya elmləri doktoru

Beş fəsildən ibarət olan bu kitabda müəllifin dilimizin tarixi, dialektologiya, türkologiya, müasir dil və dilin tədrisi problemlərinə dair məqalələri toplanmışdır. Burada oxucu, eyni zamanda, bir sıra müsahibələrlə, dilçilik ədəbiyyatının, yazıçılarımızın əsərlərinin ədəbi-estetik və linqvistik təhlili ilə, görkəmli adamların həyatından bəhs edən xatirə-yazılarla da tanış olacaqdır.

Kitab mütəxəssislərlə yanaşı, geniş oxucu kütləsi üçün də nəzərdə tutulur.

BİR NEÇƏ SÖZ

Ulu dil bəşərin sübh çağından nəhəng bir varlıq kimi boylanır. Öz törəmələrini hesaba almaq istəsə, təəccüb edər, çaşıb qalar. Onun ilk övladlarından – protodillərdən törəyən, bir dil ailəsi tərkibində birləşən qəbilə, tayfa, xalq dilləri, xalq dilləri daxilində ədəbi dil, dialekt və şivə qolları... – bunlar sanki on-on beş min il ərzində həndəsi silsilə ilə artıb-çoxalıb. Ən maraqlısı da budur ki, bütün bunlarda böyük bir nizam var, poeziya var, son dərəcə böyük qanuna-uyğunluqlar var. Dərinliklərə baş vurduqca, keçmişini öyrəndikcə insan özündə mənəvi yüksəklik duyur...

«Sənət düşüncələri»nə (1997) daxil olmayan xeyli məqaləm qalmışdı. Son illərdə daha ardıcıl işləmək imkanım olub. Keçən beş ildə ali məktəblər üçün «Müasir Azərbaycan dili (sintaksis)» dərsliyi, (2000, 2004), «Azərbaycan dilinin tarixi (ən qədim dövrlərdən XIII əsrə qədər)» (2003) adlı monoqrafiya yazıb çap etdirmişəm, rus dilində «Komizm nəzəriyyəsi» kitabım (2004) nəşr olunub. Dilin yaranması, dil tarixi, dialektologiya, türkologiya, söz birləşməsi, cümlə və mətn problemlərinə dair xeyli məqalə yazmışam. Yazıçı dilinə, bədii əsərlərin təhlilinə, görkəmli elm və sənət adamlarının portret cizgilərinə, metodika məsələlərinə həsr olunmuş məqalələrim var. Bunların, demək olar ki, hamısı mərkəzi qəzet və jurnallarda çap olunub. Kitaba daxil edərkən mən onların üzərində yenidən işləmədim, yalnız redaktə xarakterli düzəlişlər etdim.

Məqalələrdə keçmiş quruluşa münasibətim olduğu kimi qalmaqdadır.

Mövzudan və üslubdan asılı olaraq, məqalələr müxtəlif keyfiyyətdədir. Bunların içərisində ilk qələm təcrübələrim də var, yaxın vaxtlarda yazdıqlarım da.

Hörmətli oxucu üçün xoş duyğular yaradan faydalı və isti bir söz tapılan anlarda mən də ruhən şad olacağam.

Qəzənfər Kazımov
12.11.2004

I
DİLİN MƏNŞƏYİ VƏ TARİXİ. DİALEKTOLOGİYA, TÜRKOLOGİYA

Kİ-SİKİL, yoxsa QIZOĞUL
və ya
QƏDİM ABİDƏNİN DİLİNİN TƏDQİQİ

Oxuyub təhlil etdikcə alimlərimiz deyirdilər ki, İzzəddin Şeyx Həsənoğlunun «Apardı könlümü bir xoş qəmər yüz, canfəza dilbər» misrası ilə başlayan qəzəli lüğət tərkibi, morfoloji və sintaktik quruluşu, poetik səviyyəsinin yüksəkliyi etibarilə elə bir kamil bədii sənət nümunəsidir ki, Azərbaycan yazılı ədəbi dilinin bizə gəlib çatan ilk və yeganə nümunəsi ola bilməz, gec-tez dövrün başqa sənət abidələri də inci parıltısı üzərini örtmüş qalın tozdan təmizlənməli və uzaq keçmişin qaranlıqları içərisindən işıq saçmalıdır. Çox keçmədi, Həsənoğlunun başqa şeirləri də tapıldı. Çox keçmədi, «Dastani-Əhməd Hərami» kimi xalq dilinin təbiilik və şirinliyini özündə cəmləmiş gözəl bir məsnəvi meydana çıxdı.

Mütəxəssis olmayan bir çoxları dilin tarixi ilə bağlı bir sıra terminləri eyni səviyyəli anlayışların ifadəçiləri kimi qəbul edirlər. «Ümumxalq Azərbaycan dili», «Azərbaycan şifahi ədəbi dili», «Azərbaycan yazılı ədəbi dili» terminləri dilin biri digərinin içərisində yetişən müxtəlif inkişaf mərhələ və səviyyələrini əks etdirir və təbii ki, bu inkişaf qeyd etdiyimiz termin ardıcıllığı ilədir: əvvəl ümumxalq dili, sonra şifahi ədəbi dil, daha sonra yazılı ədəbi dil təşəkkül tapır. Ümumxalq dili formalaşmadan şifahi ədəbi dil yarana bilməz. Şifahi ədəbi dil olmadan yazılı ədəbi dil yaranmaz. Həm də bunlardan hər biri özündən əvvəlkinin içərisində, əvvəlkinin zəminində normalaşır. Bu, dilin xəlqi-təbii inkişaf yoludur, demokratik yoldur. Başqa hallar da var. Məsələn, türk alimi Ziya

Göyalp türk ədəbi dilinin yazılı və şifahi qolları haqqında yazır: «Türkiyenin milli lisanı İstanbul türkcesidir; buna şüphe yok! Fakat, İstanbulda iki türkce var: biri konuşulup da yazılmıyan İstanbul lehcesi, digeri yazılıp da konuşılmıyan Osmanlı lisanıdır. Acaba, milli lisanımız bunlardan hangısı olacaktır?» (1;72) Ziya Göyalp bu təzadlı halı düzgün mühakimə edərək belə qərara gəlir ki, «bu ikilik lisanı bir hastalıktır», «İstanbulda yazılan lisan tabii bir dil degil, Esperanto kibi süni bir dildir», buna görə də ya yazı dilini «konuşma dili haline getirmek, yahut konuşma dilini aynı zamanda yazı dili haline koymak». Müəllif çox düzgün qərar çıxarır, süni dili böyük bir xalqa zorla necə sırımaq olar: «İstanbul ahalisi bu acaip yazı diliyle konuşmaya başlamış olsaydı bile, yine bu yazı dili, gerçekten milli lisan olamazdı. Çünkü onu konuşma dili olarak yalnız İstanbulun degil, bütün Türküyenin kabul etmesi lazım gelirdi. Bu kadar büyük bir cemiyete ise zorla hiç bir şey kabul ettirilemezdi». (1;73)

Həmin sözləri və türk dilinin bu vəziyyətini qeyd etməkdə məqsədimiz odur ki, dilə süni müdaxilə, onu xalqdan, onun təbii ifadə vasitələrindən ayırmaq, Esperanto kimi süni bir ədəbi dil yaratmaq gec-tez öz zərərli bəhrəsini verməlidir. Azərbaycan dilinin xoşbəxtliyi orasındadır ki, daim təbii inkişaf yolunda olub, purizm təsirlərini öz içərilərinə buraxmayıb – zorla öz yolundan sapdırılmayıb. Amma xarici təsirlər altında inlədiyi vaxtlar çox olub: ərəb, fars söz və tərkibləri ilə yükləndiyi yüzilliklər var; lakin o da var ki, tədricən silkələnib onların bütün yararsızlarını, lazımsızlarını onların öz mülkünə səpələyib, özünə lazım olanları saxlayıb. Amma ona divan tutulduğu, onun ağlar qaldığı çağlar da olub: işğalçılar – ərəblər, farslar, ələlxüsus bizim əbədi düşmənimiz ermənilər onun qələmə alınmış abidələrini şələ-şələ çaylara töküb, oda qalaq edib. Ona görə də o zəngin xəzinədən qırağa düşüb od tutub yanmayan «Dastani-Əhməd Hərami»yə, Həsənoğlunun yarımçıq divanına rast gəldikcə gözümüzə işıq gəlir. Məcbur olub ordan-burdan işıq saçan bir qrup antroponim, toponim və etnonim əsasında, tarixin ümumi gedişi əsasında, məntiqin gücü ilə dilimizin tarixini öyrənirik. Tarixi prosesin özü artıq V əsrdə ümumxalq Azərbaycan dilinin mövcud olduğunu sübut edir. Yaxşı ki, «Dədə Qorqud»u təbiət mühafizə edib saxlayıb, yoxsa heç sübut

edə bilməzdik ki, artıq VI–VIII əsrlərdə şifahi ədəbi dilimiz var idi. Nizami özü desə də ki, şah ona «Leyli və Məcnun» kimi məsnəvini türkcə (azərbaycanca) qələmə almağı məsləhət görməyib və buradan aydın məntiqlə XII əsrdə türk-Azərbaycan dilində «Leyli və Məcnun» kimi nəhəng bir dastan yazılması mümkünlüyü ortaya çıxsa da, biz hələ XII yüzillikdə də yazılı ədəbi dilimizin tam təşəkkülündən ehtiyatla danışırıq. Amma ermənilərin 1-ci minilliyin ortalarına aid onlarca kitabları var. Halbuki Azərbaycan dövlətçilik tarixinin 4700, ermənilərin 2400 il tarixi məlumdur.

Xülasə, indi gəlib bu «Dastani-Əhməd Hərami» çatıb əlimizə. Lakin bu günə qədər həmin əsəri də kifayət qədər öyrənməmişik. Mütəxəssislər bilirlər ki, hələ də bu əsərin dilimizin tarixində roluna dair sanballı bir əsər yazılmayıb, onun elmi, ədəbi, estetik və xüsusilə linqvistik qiyməti kifayət qədər aşkarlanmayıb.

Vaxtilə türk alimi Tələt Onay tərəfindən tapılıb 40-cı illərdə iki dəfə çap olunmuş bu əsəri Azərbaycan oxucularına Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, filologiya elmləri doktoru, professor Əlyar Səfərli çatdırmışdır. Müəllif əsərə dəyərli bir ön söz yazaraq onu 1978-ci ildə çap etdirmişdir. Əsərin adındakı ***dastan*** sözü janr bildirmir, 'əhvalat', 'nağıl', 'qissə' mənasında başa düşülür və təsadüfi deyildir ki, T.Onay əsəri «Dastani-Ahmet Harami nakılı» adlandırmışdır.

Tələt Onay «Dastani-Əhməd Hərami»nin Azərbaycan dilində yazıldığını xüsusi qeyd etmişdir: «Eserin lisanı umumiyyet itibariyle Oğuz Türkcesi, Azeri lehcesidir». (3;10) Bu fikir real dil materialından doğmuşdur. Tələt Onay aydın Azərbaycan dili faktları əsasında «Azeri lisanındadır» demiş, həqiqəti heç bir milli hissə qapılmadan düzgün söyləmişdir. Bu fakt dilimizin tarixi ilə bağlı yersiz bir mübahisəyə son qoymaq üçün çox əhəmiyyətlidir (bu barədə bir qədər sonra danışacağıq). Lakin T.Onay Azərbaycan dilinə, görünür, az bələd olduğu üçün «Ön söz»dəki bir sıra qeydlərində yanlışlığa yol vermiş, XIII yüzilliyin ayrıcında meydana çıxan fərqli cəhətləri müasir Azərbaycan ədəbi dili əsasında deyil, türk ədəbi dili baxımından izah etmişdir.

T.Onay yazır: «Eserde hemen her kelime müellifin keyfine göre mana almış kibidir. Bugünkü manayı verirsek, müellifin Türkceyi iyi bilmedigine hükmolunabilir; o mısralardan dürüst bir

mana çıkmaz. Çıksa da, çarpık düşer. Fakat şairin o zamankı Türkceyi iyi bildigi, kelimeleri yerli yerinde kullandığı, hatta Farscaya da tam vukufu olduğu söylenebilir.» (3;13) Müəllif bu ziddiyyətli sözləri söyləyərək dastanın dilindəki bir sıra söz və ifadələrin izahına çalışmışdır.

Türk alimi dilin müasir səviyyəsi üçün təbii saymadığına görə dastanın dilində köməkçi fellər əvəzinə, bir sıra hallarda «ədat» (şəkilçi) işləndiyini ('kande olduğu' əvəzinə 'kandeliği' şəklində) qeyd etmişdir. Müəllif bunu türk dili baxımından təəccüb doğurduğu üçün söyləmişdir. Azərbaycan canlı danışıq dilində, xüsusən məişət ünsiyyətində «O haradadır?» sualının cavabında, haqqında danışılana mənfi münasibət məqamında «Onun harada olduğu məni maraqlandırmır» yox (bu, ədəbi formadır), «Onun hardalığı məni maraqlandırmır» deyilir. Bu cür ifadə tərzi azərbaycanlı nitqinin təbii və bir qədər məhəlli ifadə formalarındandır.

Müəllifi təəccübləndirən başqa faktlar da vardır: «mübaliğəni – çoxaltma dərəcəsini» yaratmaq üçün sifətlərin sonuna ***-rak,-rək*** artırılmışdır: büyükrek. Məlumdur ki, XX əsrə qədər bu şəkilçi Azərbaycan dilində ən işlək şəkilçilərdən olmuşdur. Müəllifin fikrincə, bəzi ifadələr, məsələn, 'acıq eləmək' fars dilindən tərcümədir. Əslində isə bu cür ifadələr Azərbaycan dilinin ruhi ifadələrindəndir, qanında, canındadır. Bir sıra mürəkkəb fellərin hazırkı formasını da türk ədəbi dilində axtarmaqla mürəkkəb fel yaradıcılığının da müasir dildən fərqləndiyini göstərən müəllif: 'söyleyi getmək', 'köşk eyləmək', 'pərdə götürmək', 'turu getmək' fellərinin əslini 'söyleyip durmak', 'köşk yapmaq', 'perdeyi kaldırmaq', 'ayağa kalkmak' şəkillərində düşünür. Birinci qrup ifadələrdə arxaik elementlər olsa da, onlar Azərbaycan dilinin ruhuna daha yaxındır. 'Söyleyi', 'turu' sözləri «Dədə Qorqud»da çox işlənən feli bağlama formasıdır; türk dilindən fərqli olaraq, Azərbaycan dilində 'yapmaq' sözü məhdud şəkildə ('çörək yapmaq', 'təzək yapmaq' kimi bir sıra ifadələrdə) işlənir; 'pərdə götürmək' – 'aranı açmaq' mənasında ən çox işlətdiyimiz ifadədir; 'durub getmək' ayrı şeydir, 'ayağa qalxmaq' ayrı – ayağa qalxıb getməmək də olar. Bunlar göstərir ki, şair leksik materialı seçərkən «keyfinə görə» seçməmiş, canlı Azərbaycan xalq dili materialına əsaslanmışdır.

T.Onayın əldə etdiyi əlyazması, təbii ki, ərəb əlifbası ilə idi,

ona görə də o, əlifbanın oxunuşu, imlası ilə bağlı bəzi qeydlər etmişdir. Qeydlər prosesində də bir sıra sözləri türk tələffüzünə müvafiq izah etmişdir.

Söz önündə (anlautda) işlənən «x» səsi, bir qayda olaraq, türk tələffüzünə müvafiq şəkildə «h» ilə əvəz edilmişdir: ***xatunu*** – 'hatunu', ***xoca*** – 'hoce'; təbii olaraq, türk tələffüzü ilə «ə» səsini bildirən işarələri də «e» və «a» ilə vermişdir: ***getmək*** əvəzinə 'gitmek', ***zəhm*** əvəzinə 'zahm' və s. kimi.

Azərbaycan dilində «a», türk dilində «e» ilə tələffüz edilən səslər «əlif»lə yazıldığı halda, müəllif türk tələffüzü ilə «e» hərfinə üstünlük vermiş, sözlərin 'söyleyelüm', 'eyleyelüm', 'edelüm' kimi yazılışını bir növ təəccüblə qarşılamışdır. Məsələ burasındadır ki, bu cür sözlərdə «lam» hərfindən əvvəl «əlif» yazılmışdır, ona görə də «a» və ya «ə» kimi («al», «əl» şəklində) oxunmalıdır, lakin müəllif «lam» hərfindən əvvəlki «əlif»in «e» kimi («el» şəklində) oxunuşunda israrlıdır. Ona görə də bu sözlərin heç birini düzgün oxuya bilməmişdir. Bu sözlər azərbaycanca yazılmışdır və bu gün də (***-alım, -əlim*** şəkilçisinin arxaikləşməsi istisna olmaqla) 'söyliyəlim', 'eyliyəlim', 'edəlim' (qədim yazılışı ilə 'söyliyəlüm', 'eyliyəlüm', 'edəlüm') kimi tələffüz olunur. «Əlif»in həm də «ə» yerində «kullandığını» qeyd edə-edə, ***nə əcəb*** sözünü 'naceb' (neacep), ***dilərüm*** sözünü 'dilerüm', ***dövlətli*** sözünü 'devletlü' şəklində oxumuşdur. Bu minvalla müəllif azərbaycanca «əlif» və «lam»la yazılmış ***yola*** sözünü «eski imlamıza mühalif» hesab edərək 'yole' şəklində transkripsiya etmişdir. Əsərin yenidən tərtibi zamanı Ə.Səfərli bunları əksəriyyət etibarilə düzəltmişdir.

Dastanın dilində «ü» bağlayıcısı «və»nin vəzifəsini yerinə yetirmişdir. Məs.: ***İraqü İsfahan, Novruzü Şahnaz Edərdi bir-birinə iki şah naz***. ***Ü*** bağlayıcısı bəzən həmcinslər arasında təkrar olunmuşdur: ***Dolu reyhanü nəsrinü çəmənlər, Bitibdir dürlü nərgizlər, səmənlər.*** Qoşulduğu söz saitlə qurtardıqda «v» bitişdiricisindən istifadə edilmiş, bağlayıcı ***vü*** şəklinə düşmüşdür: ***Tamaşavü dügün söhbətlər oldu; Bunu dedivü xadim durdu getdi***. ***Və*** bağlayıcısı ***vü*** ilə paralel işlənmişdir: ***Gözətmədi sağını və solunu***; ***Və bir tər gül solub torpağa düşdü***.

T.Onay maraqlı bir xüsusiyyət müşahidə etmişdir. Yazır ki, iki ərəb, yaxud iki fars və ya bir ərəb, bir fars kəlməsi həmcinsləşdi-

rildikdə «vav» («v») hərfindən, yəni «və» bağlayıcısından istifadə edilmişdir; lakin iki türk sözü bu cür həmcinsləşdirildikdə «ya» hərfi (*«ı»*) işlənmişdir: ***turmağ-ı gitmek***. Görünür, burada həm də köklü bir şey duyduğu üçün əlavə etmişdir: «Her halde, qramer noktasından dikkate deger». (3;12) Bu, həqiqətən, köklü məsələdir. Məsələ burasındadır ki, bizim dilçilər «və» bağlayıcısını da, «ü» bağlayıcısını da alınma hesab edirlər və ərəb dilindən alındığını göstərirlər. Ərəblərin isə bizimlə sıx əlaqəsi ən tezi VII əsrdən hesab olunur. Bəs nə cür olur ki, alınma kəlmələrdə «və», xalis türk sözlərində «ü» bağlayıcısı işlənir? «Və» də, «ü» də ərəb mənşəli sinonim bağlayıcılar sayılır (bax: 4; 603;633). Bunların Azərbaycan dilində işlənmə tarixi bu vaxta qədər diqqətlə araşdırılmayıb. «Və» bağlayıcısı, güman ki, həqiqətən islam dininin yayılmağa başladığı dövrdən yazılı ədəbi dilimizdə yer eləməyə başlayıb. Amma onun sinonimi olan «ü» bağlayıcısının tarixi çox qədimdir. Biz bu bağlayıcıya hələ e.ə. III minilliyin sonlarında şumer və akkad yazılarında rast gəlirik. Şumerlərin isə bilavasitə varisi Azərbaycan türkləri sayılır. Beləliklə, bu bağlayıcının dilimizdə 1500 illik yox, azı 4000 illik tarixi vardır və müasir ədəbiyyatımızda sıradan çıxsa da, uzun müddət Azərbaycan dili daşıyıcıları bu bağlayıcını özününki kimi işlətmişdir. Onun xalis Azərbaycan-türk sözləri arasında özünə yer eləməsi də bununla bağlıdır. Ona görə dastanın dilində hətta variantlaşmışdır da:

Qova-qova könül dünyaya irdi,
Ömür keçdi, saqal-ı saç ağardı.
Cəbə cövşən silahı geydi anlar,
Qəza yoluna qoyub baş-ı canlar.

Poemanın dilində müvafiq nümunələrdə elə belə də işlənmişdir ('saqal-ü saç' yox, 'saqal-ı saç' kimi, 'baş-ü can' yox, 'baş-ı can' kimi).

T.Onay bir sıra sözlərin mənasına da diqqət yetirmiş və həmin sözləri müasir türk leksikası ilə müqayisə edərək yazmışdır: «Bir çoq kelimeler bugünkü manadan başka bir mana taşımaktadır. İnsanlar doğar, yaşar, nesil bırakar, ölürler. Kelimeler de böyledir. Doğarlar, yaşarlar, ürerler, birçok mana alırlar, ölürler. Ya-

hut bir-iki mana ile ebedi kalırlar.» (3;13) Müəllif «Ulular a geyürdi xəl'ət-i ton» misrasında 'xəl'ət' sözünü 'hil'at' kimi yazmaqla yanaşı, 'ton' (don) sözünün müasir türkcədə «iç pantalonu» mənasında işləndiyini, lakin əsərdə «iç camaşırı» mənasında olduğunu qeyd etmişdir. Ümumən 'paltar' mənasında olan 'don' sözü hazırda bizim dilimizdə qadın üst geyiminin bir növünü bildirir. Dastandakı mənası tarixən dilimizdə işlənmiş mənasına tam müvafiqdir.

Misallardan aydın olur ki, T.Onay əsərin aşkar şəkildə Azərbaycan dilində yazıldığını görüb etiraf etsə də, bir sıra söz və ifadələrin müasir dildən fərqini türk dili əsasında izah etməklə yanlışlığa yol vermişdir. Lakin bizi burada maraqlandıran bu bir neçə tərtib qüsuru deyildir. Bizi maraqlandıran, bir az əvvəl qeyd etdiyimiz kimi, mühüm bir prinsipial məsələdir: Azərbaycan tarixçi, dilçi və ədəbiyyatşünaslarının bir çoxu iddia edirlər ki, Azərbaycan və türk dilləri XII–XIII əsrlərdə bir kökdən ayrılmışdır və hətta XVI əsrə qədər fərqlənməmiş, yalnız XVI əsrdən bu dillərdə diferensiasiya başlamışdır. Biz bu fikrə daim etiraz etmişik. Məsələn, Yunus Əmrənin «Güldeste» (Ankara,1990) kitabına ön sözdə Sevgi və Ayvaz Gögdəmirlərin eyni səciyyəli fikrinə polemik qeydlərimiz buna misal ola bilər: «Ərəb əlifbası Yunus Əmrəni bütün islam türkləri üçün «türkcələşdirsə» də, Yunusun dili «ortak» mədəniyyət dilinin bir çox elementlərini özündə cəmləşdirsə də, türk və Azərbaycan dillərinin hər birinin müstəqil inkişaf yolunda olduğunu aydın şəkildə əks etdirəcək dərəcədə türk milli dilidir». Gögdəmirlərin düşündüyü kimi düşünənlər çoxdur. Doktor Cavad Heyət yazır: «Bildiyimiz kimi, Azərbaycan və İranın digər yerlərində, hətta Anadoluda daha çox Oğuz türkləri yerləşdikləri üçün buralarda Oğuz türkcəsi yayılmış və 13-cü miladi əsrindən sonra azəri və Anadolu ləhcələri və ya türkcələri zühur etmişdir. Bu iki türk ləhcələri əslində bir dildən nəşət etdikləri halda, sonralar iki müstəqil dilə çevrilib, iki müstəqil ədəbiyyata sahib olmuşlar» (7;16).

Burada söylənilən fikir Anadolu türkləri üçün müəyyən mənada məqbul ola bilər. Cənubi və Şimali Azərbaycan ərazilərində Azərbaycan dilinin formalaşma və inkişafını bu yerlərə XIII əsrdən oğuzların gəlişi ilə bağlamaq olmaz. Azərbaycan ərazisin-

də türk tayfaları çox qədimdən mövcud olmuş, türk mənşəli ümumxalq Azərbaycan dili hələ oğuzlardan çox-çox əvvəl formalaşmışdır». (5; 16)

Tələt Onay əsərin dilindəki bir sıra leksik vahidlərin ekvivalentlərini də axtarmalı olmuşdur: ***yügürmək, qaqmaq (qaxmaq), düşmək, yan, toy, ağa, buyruq, daş, ər, öz, ulu, yaxşı, yaman, yaş, yazı, etmək, yumaq*** və s. Bunlar Azərbaycan dilinin ən işlək leksik vahidlərindəndir.

Qeyd edilənlər dastanın yarandığı XIII əsrdə türk və Azərbaycan dillərinin fərqli və müstəqil inkişaf yolunda olduğunu sübut edir.

Ümumişlək, terminoloji, məhəlli və arxaik sözlərin, alınmaların, morfoloji və üslubi-sintaktik xüsusiyyətlərin sistemli təhlili dastanın dilinin «Kitabi-Dədə Qorqud»un dilinə yaxın olmaqla yanaşı, artıq yazılı təşəkkülünü xeyli əvvəl başa çatdırmış, müstəqil inkişaf yolunda olan bir ədəbi dilin qiymətli bədii nümunəsi olduğunu təsdiq edir.

Ruh etibarilə «Dədə Qorqud»a yaxın olan «Əhməd Hərami» «Dədə Qorqud»la müqayisə üçün geniş imkanlar verir. Əsərdə elə nitq detalları mühafizə olunmuşdur ki, olduğu kimi bu gün də bizim şivələrimizdə işlənməkdədir. Lüğət tərkibindəki sözlərin əsas kütləsi ümumxalq dilində, ədəbi dilimizdə sabitləşmiş sözlərdir.

Məsnəvidə elə dil faktları da var ki, onun dilini özündən üç min-dörd min il əvvələ – Şumerə bağlayır, yanlış bir ideyanın ənənəvi və kortəbii davamı kimi, bir çoxları tərəfindən etirazla qarşılanan daha böyük bir problemə işıq salır. Görünür, şumerşünas türkoloqların Azərbaycan türklərinin dilinin şumerin varisi olduğu barədə fikirləri getdikcə daha inandırıcı dil faktları ilə təsdiq olunacaqdır. İşi dolaşdıran ən mühüm çətinlik orasındadır ki, bütün şumer tədqiqatçıları qeyd edirlər ki, Şumer dilinin oxunmuş mətnlərində sözlərin necə tələffüz edildiyini müəyyənləşdirmək hələlik mümkün olmamışdır. Şumer sözləri Akkad tələffüzü əsasında müəyyənləşdirilmişdir. Başqa sözlə desək, Şumer dilinin samitlər sistemi qənaətbəxş şəkildə müəyyən edilmiş olsa da, saitlərin tələffüzündə böyük təqribilik qalmaqdadır. Bu məsə-

lənin üzərində uzun dayanmadan konkret bir misalla kifayətlənəcəyik.

Şumer dilində «Kİ-SİKİL» sözü var və bu söz çox işlənən mürəkkəb sözlərdəndir. Mənası 'qız' deməkdir. İ.M.Dyakonov bu sözü vurğusu ilk hecaya düşən mürəkkəb sözlər sırasında vermiş və mənasını 'çistoe mesto', 'devuşka' şəklində izah etmişdir. (6,53) Təkcə bu misaldan başa düşmək olur ki, mixi yazıları oxuyanlar – görkəmli şumerşünaslar çox zaman sözün mənasını cümlənin ümumi məzmunu əsasında dəqiqləşdirmişlər. Çox maraqlıdır: 'təmiz yer' birləşməsinin ifadə etdiyi məna ilə 'qız' sözünün nə əlaqəsi ola bilərdi? Əslində, insanın ilkin dünyagörüşünü, bəsit təfəkkürünü düşündükdə əlaqə mümkündür: ***təmiz yer*** – 'toxunulmamış, bakirə' mənasındadır. Bu mənanı 'ki-sikil' sözü ilə necə müəyyən etmişlər? Adi məntiqlə: ***ki*** – yer deməkdir, indi dilimizdə işlətdiyimiz 'kir' (çirk, pas, torpaq) sözü də buradandır və əslində ***k>y*** keçidi ilə 'yer' sözü də buradandır; ***sikil*** sözü isə şumercə 'təmiz' deməkdir. Mətn imkan verib ki, 'təmiz yer' sözləri 'bakirə' mənasını ifadə etsin. 'Qız' sözü də metaforik yolla bu əsasda düşünülüb: 'bakirə' – qız olar.

Bizim fikrimizcə, sözün bu cür izahı uydurmadır. Söz düzgün mənalandırılmışdır, həqiqətən mənası 'bakirə' deməkdir, lakin ***ki*** və ***sikil*** sözləri əsasında izah düz deyil. Samitlər düzgün müəyyənləşdirilib, hətta oğuz tələffüzünə görə vurğunun birinci hecaya düşməsi də düz müəyyən edilib, lakin söz mürəkkəb söz kimi doğru bölünməyib və başlıcası, sait səslər düzgün müəyyən edilməyib. Sözün tələffüz şəklini müəyyən etmək üçün «Dastani-Əhməd Hərami» bizə fakt verir. Dastanda iki dəfə ***qızoğlanlar*** sözü işlənmişdir (bu sözə *kızoğul* şəklində türk dillərinin qədim abidələrində də rast gəlmək olur; bax: «Qədim türk abidələrinin sözlüyü», s.65):

*Dəxi aldı **qızoğlanlar** xəlayiq,*
Huri sanır görən bunları bayıq. (2;28)
*Yedi dəxi **qızoğlanlar** ay üzlü,*
Dişi inci kibi, gül şəhd sözlü. (2; 31)

Məlumdur ki, ***-an*** cəm şəkilçisidir. Sözün əsası **qızoğul**'dur. Şumerdə 'ki-sikil' sözü 'bakirə', 'qız' mənasında işləndiyi kimi, bu söz

də məsnəvidə 'bakirə', 'qız' mənasındadır. Əsərin ilk naşiri T.Onay sözü 'kızoglan' şəklində vermiş və 'bakir', 'düşize' (***düşize*** – hersoq qızı, varlı qızı) şəklində izah etmişdir (3;108) Abidələrin dilində də 'kızoğul' eyni mənadadır.

Sözlərin samitlər sisteminə diqqət yetirək:

K i – S i K i L K ı Z-o Ğ u L

Ümumiyyətlə, dünya dillərində «S» və «Z» dilönü samitlər kimi bir-birini daim əvəz etməkdədir. «K(a)», «Q», «Ğ» samitləri də yaxın məxrəcli olmaqla partlayan samitdən sürtünən-novlu samitə doğru inkişaf yolu keçmişdir və bu samitlərdən sonrakıların əvvəlkiləri əvəz etməsində qeyri-real heç bir şey yoxdur. Belə olduqda, 'qızoğul' (daha qədim abidədəki 'kızoğul') sözünün saitlərini 'ki-sikil' sözünə köçürək:

KıSoKuL

Bu, elə bizim həmin ***qızoğul*** sözüdür və sözün tələffüzünün nə qədər təhrif edildiyini və eyni zamanda, mənası düz olsa da, yanlış olaraq, tamamilə başqa söz köklərində axtarıldığını çox aydın göstərən tutarlı bir dəlildir.

Şumer – türk varisliyinin tədqiqi üçün bu cür faktlara böyük ehtiyac vardır.

«Dastani-Əhməd Hərami» bir məsnəvi olmaq etibarilə Həsənoğludan sonrakı dövrdə meydana çıxan klassik ədəbiyyat nümunələrinə bənzəmir. Dastanın dilinin mühüm bir keyfiyyəti onun dilini təkcə həmin dövrdə yaranmış əsərlərin dilindən deyil, sonrakı dövrdə meydana çıxan əsərlərdən də fərqləndirir. Dastanın müəllifi klassik məsnəvi janrında əsər yazsa da, onun əsərinin dili xalq şerinin dili qədər xalq dilinə yaxındır. Bu elə bir xəlqi ölçüdə yazılmış əsərdir ki, sonrakı dövrlərdə Nəsiminin, Füzulinin yaradıcılığında rast gəldiyimiz bol-bol izafət tərkiblərinə, qəliz alınmalara burada rast gəlmirik. Əsər elə bir dövrdə qələmə alınmışdır ki, hələ ərəb, fars dilləri anadilli ədəbiyyatı tam şəkildə öz təzyiqi, təsiri altına ala bilməmiş, əsir etməmişdir. Heç şübhəsiz, dastan müəllifinin demokratizminin, xalq ruhlu bir şəxs olmasının, ana dilinə məhəbbətinin, milli mübarizliyinin də bu sahədə mühüm ro-

lu olmuşdur. Məsnəvinin dili «Dədə Qorqud»un dilinə daha yaxındır. «Dədə Qorqud»un dilindəki saflıq, xəlqilik eyni dərəcədə bu əsərin dilində də müşahidə olunur. Deməli, bu elə bir dövrdür ki, ərəb, fars dillərinə geniş yer vermək «böyüklük», «dərinlik», «savadlılıq» əlaməti kimi beyinlərdə yer tapmayıb, hələ ərəb və fars dillərinə meyil edənlər xalq poeziyasının haqqını əlindən ala bilməyib və heç ona hələ cəhd eləmir də, «yad olanla» «özününkü» aydın seçilən çağlardır. Vaxt gələcək, «alınmalar» axınının qarşısını almaq mümkün olmayacaq. O zaman Bürhanəddinin, Nəsiminin, Füzulinin əsərləri yaranacaq. Lakin yenə vaxt gələcək, özünəqayıdış olacaq, Qurbaninin, Xətainin, Vaqifin, Vidadinin, Zakirin simasında xalq dili ədəbiyyatda öz imkanları, öz daxili enerjisi ilə çıxış edəcəkdir və inkarı inkar kimi ədəbiyyatın dili yenə də özünə, özününkünə qayıdacaqdır.

«Dastani-Əhməd Hərami» də, Həsənoğlunun qəzəlləri də kamil bir ədəbi dilin bədii nümunələridir. Ona görə də bunları Azərbaycan yazılı ədəbi dilinin təşəkkül dövrünün nümunələri hesab etmirik. Bu əsərlərdə işlədilən dil təşəkkül mərhələsini çoxdan keçib. ***Bunları Azərbaycan xalq dili və şifahi ədəbi dil əsasında təşəkkül tapmış yazılı ədəbi dilimizin ilkin inkişaf mərhələsinin abidələri sayırıq.***

«Dastani-Əhməd Hərami» Azərbaycan yazılı ədəbi dilinin ilkin inkişaf mərhələsinin dil və üslub mənzərəsini tədqiq edib öyrənmək baxımından ona görə daha qiymətlidir ki, bu əsər dilin struktur xüsusiyyətlərini geniş əhatə etməklə öz dil materialının zənginliyi ilə daha ətraflı tədqiqata imkan verir.

«Dastan»ın dil və üslub xüsusiyyətləri müxtəlif zamanlarda müxtəlif alimlər tərəfindən bu və ya digər məqsədlə, əksərən kateqorial tədqiqat prosesində əsərdən nümunələr verilməklə araşdırılmışdır. Məsnəvinin fonetik, leksik, morfoloji və sintaktik-üslubi xüsusiyyətləri ilk dəfə **Vüqar İkram oğlu Məmmədovun** «Dastani-Əhməd Hərami» poemasının dili və üslubu» adlı monoqrafiyasında xüsusi tədqiqat obyektinə çevrilmişdir.

Təbii ki, hər hansı bir əsərin yarandığı tarixi şəraiti, ümumi dil mühitini nəzərə almadan onun bədii-linqvistik qiymətini vermək qeyri-mümkündür. Ona görə də V.İ.Məmmədov hərtərəfli araş-

dırmalar aparmış, «Dastan»ın dil materialını ədəbi dilimizin ilkin inkişaf mərhələsinin tarixi-ədəbi səciyyəsi fonunda tədqiq edib öyrənmişdir.

«Dastani-Əhməd Hərami»nin yarandığı dövr yazılı ədəbi dilimizin geniş fəaliyyətə başladığı dövrün ərəfəsidir. V.Məmmədov, yaranma tarixi qədim olsa da, elmi-kütləvi arenaya çıxma tarixi nisbətən gənc olan bu əsər haqqında faydalı tədqiqat əsəri meydana çıxarmış, əsərin dil xüsusiyyətlərinin tarixi-linqvistik təhlili ilə bir sıra mühüm məsələlərə aydınlıq gətirmişdir.

Tədqiqatın nəticələrindən bir daha belə bir aydın qənaətə gəlmək olur ki, Azərbaycan ədəbi dili, tarixə çox səthi yanaşan bir sıra alimlərin cəfəng iddialarının əksinə olaraq, hələ o dövrdə qədim tarixi olan bitkin və bişkin bir dildir, uydurma konsepsiyada deyilən şəkildə Oğuzların XI əsr gəlişi ilə birdən-birə təşəkkül tapan dil deyil; bu, yeni gələnlərin bir sıra dil elementlərini də özünə çəkmiş yerli aborigen türklərin qədim dilidir. Bu cəhət fonetik sistemdə, lüğət tərkibi və qrammatik quruluşda özünü sabit şəkildə göstərir. Əsərin dilinin «Dədə Qorqud» dilinə yaxınlığı, əsərdəki leksik və morfoloji müvaziliklər də bununla bağlıdır. Tədqiqatın müəllifini müqayisələr prosesində «Dədə Qorqud»a daha çox çəkən də bu cəhətdir. Lakin müəllif bununla kifayətlənməyib, bir çox kateqoriyaların XIII əsrdən sonrakı taleyi ilə də maraqlanıb, dastanın dil xüsusiyyətlərini ədəbi dilimizin təkmilləşmə, zənginləşmə istiqamətində sonrakı inkişaf mərhələləri ilə əlaqəli izləyib. Araşdırmaların bu istiqaməti müəllifi ədəbi dilimizin tədqiqinə həsr olunmuş əsərlərdəki fikir və mülahizələrlə polemikaya aparıb, əlaqədar Azərbaycan, rus və xarici dilçilik ədəbiyyatını diqqətlə öyrənməyə sövq edib. Bunların nəticəsidir ki, müəllif tədqiqat prosesində düzgün yol tutmuş, dilçiliyimizin son nailiyyətləri əsasında obyektiv meyil və münasibətlərə istinad edərək faktlardan düzgün nəticələr çıxara bilmişdir.

Yəqin ki, vaxt gələcək, biz ədəbi dilimizin birinci minilliyə dair yazılı nümunələri ilə də tanış olacağıq. O zaman uzun müddət yazılı ədəbi dilimizi Həsənoğludan başlamağımıza təəccüb edəcəyik. Bunu «Əhməd Hərami» də, elə Həsənoğlunun öz qəzəlləri də israrla bizə deyir. Gənc tədqiqatçının «Dastani-Əhməd Hərami»-

nin dili və üslubu» adlı bu əsərində gəldiyi nəticələr də bizdə bu inamı gücləndirir.

Əminik ki, Vüqar Məmmədovun bu əsəri ədəbi dilimizin uzaq keçmişi barədə təsəvvürləri genişləndirəcək və zənginləşdirəcəkdir.

2001

ƏDƏBİYYAT

1. Ziya Gögalp. Türkçülügün esasları. Ankara caddesi, İstanbul, İkinci basılış, 1955.
2. Dastani-Əhməd Hərami. Bakı, «Gənclik», 1978.
3. Dastani-Ahmet Harami, İstanbul, 1946.
4. [illegible], [illegible], [illegible], «[illegible]», 1969.
5. Q.Kazımov. Qurbani və poetikası. Bakı, APİ nəşri,1996.
6. [illegible]. [illegible], 1967.
7. C.Heyət. Azərbaycan şifahi xalq ədəbiyyatı, 1990.

NÜVƏDİ YANĞISI
və ya
TOPONİMLƏRİN YENİ ÖMRÜ

İndi haqqında danışacağımız torpaq bir vaxtlar dünyanın ən bəxtəvər torpaqlarından idi. Üzərində oğuz igidləri at çapır, çiçəkli dağlarına oğuz gözəlləri seyrə çıxır, bol məhsullu çöllərinə oğuz təri qarışırdı. İndi bu yerlər dünyanın ən bədbəxt guşələrindəndir – xeyli vaxtdır, erməni tapdağı altında inləyir, cəhənnəm əzabı içində qovrulur.

O torpaqlarda 1929-cu ildə birdən-birə «Meğri rayonu» peyda oldu. Sovet hökumətinin rəhbərləri Zəngəzur ərazilərini zorla ermənilərə verib respublika yaratdıqları kimi, Naxçıvanla Azərbaycan arasında İrana çıxış üçün balaca bir dəhliz də düzəltmiş, Azərbaycanla Naxçıvanın əlaqəsini kəsmişdilər. Bunlar Azərbaycan üçün gələcək faciə və fəlakətlərin bünövrəsi idi. Üstəlik, 29-cu ildə min illərlə ulularımızın baş daşlarını mühafizə edən yeni torpaqlar da Vətən torpağına məhəbbətin olmaması, laqeyd münasibət,

məsuliyyətsizlik, vəzifəpərəstlik ucbatından düşmənə hədiyyə edildi: Nüvədi, Tuğut, Ernəzir kəndləri Zəngilan ərazilərindən qoparılıb əhalinin iradəsinin əksinə olaraq, zorla Ermənistana qatıldı. Səssiz-küysüz. Fərmansız, filansız. Koridor böyüdü. Ermənilər üçün əməlli çıxış yeri və gələcək hücumlar üçün dayaq məntəqələri yaradıldı. Uzun özbaşınalıqdan sonra 1969-cu ildə Azərbaycan SSR Ali Sovetinin mənfur fərmanı ilə bu kəndlərin Ermənistana birləşdirilməsi rəsmiləşdirildi.

Beləliklə, bir sıra başqa kəndlər də daxil olmaqla Naxçıvanla Qarabağ arasında Meğri rayonu yaradıldı. Vətəndən zorla qoparılması yerli əhalinin ürəyini parçalayırdı. O dərəcədə ki, rayon mərkəzi edilmiş doğma kəndləri və onun «Meğri» adı da günahkarmış kimi, az qala, nifrət obyektinə çevrilmişdi.

Amma yaxşı bilirdilər ki, Meğri ərazisində tarixən erməni yaşamayıb və bu yerlərdə erməni toponimi ola bilməz. Uşaqdan böyüyə hamı bilirdi ki, Zəngilanla Ordubad arasındakı 45 km-lik ərazidə bir dənə erməni abidəsi, bir dənə erməni toponimi yoxdur. Ermənilərin sonralar məskunlaşdığı bir neçə kənd müstəsna olmaqla, bütün kənd adları – Aldərə, Ernəzir, Maralzəmi, Tuğut, Nüvədi və s. türkmənşəlidir. Daha yəqinlik üçün oxucu bizimlə birlikdə bu kənd adlarının etimoloji xülasəsinə nəzər sala bilər.

Aldərə toponimi elmi ədəbiyyatda 'Alı dərəsi' (1;119) kimi izah olunur. Yerli əhalinin fikrinə görə, güllü-çiçəkli olduğu üçün ***al*** sözü həm də 'qırmızı' mənasındadır. ***Ernəzir*** sözü, əslində, 'yer nəzir'dir – 'nəzər yeri' mənasında. ***Maralzəmi*** toponimi aydındır – maralların qışlaq yeri olmuşdur (***zəmin*** – «yer» sözü ilə). ***Tuğut*** sözü qıpçaqların ***tuğ*** tayfasının adından və ***-ut*** cəm şəkilçisindən ibarətdir. (1;391) ***Nüvədi*** toponimini B.Budaqov və Q.Qeybullayev fars mənşəli hesab etmiş, 'Yenikənd', 'Təzəkənd' mənasında izah etmişlər.(1;348) Cənublu-şimallı Azərbaycan ərazisində Nüvədi kəndləri çoxdur və bu toponim müxtəlif variantlarda (***Nüvədi, Nügədi, Nöyədi*** və s.) işlənir. Meğri ərazisindəki Nüvədi kəndi çay vadisində yerləşir: sıldırım dağlardan axıb gələn çayın hər iki sahilində çaya yaxın ərazidə evlər elə tikilib ki, kənd və onun arasından axıb gedən çay evlərin üstündən tökülən suyun axdığı novları xatırladır, ona görə də kəndin yaşlı və savadlı adamları ***Nüvədi*** sözünü 'nov vadi' (nov şəklində olan vadi) kimi

düşünürlər. Nüvədi çox yerdə olsa da, hamısı Azərbaycan ərazisindədir və bu sözün fars mənşəli olması inandırıcı deyildir.

Bu kəndlərin əhalisinin başına XX əsrdə min müsibət açılıb. Maralzəmi və Tuğut kəndlərinin əhalisi 1918-ci ildə ermənilər tərəfindən didərgin salınıb, 1922-ci ildə geri qayıdıblar. 1929-cu ildə Tuğut kəndi ləğv olunub, əhalisi erməni kəndi Şivanidzora birləşdirilib. Ermənistanda Azərbaycan toponimlərinə həsr olunmuş yuxarıda qeyd etdiyimiz kitabda nüvədililərin 1968-ci ildə Nüvədidən qovulduğu göstərilir. Lakin nüvədililər Ermənistan ərazisindəki bütün Azərbaycan kəndləri boşaldıqdan sonra – 8 avqust 1991-ci ildə öz doğma kəndlərini tərk etməli olmuşlar.

Meğri sözünə gəlincə, qeyd etməliyik ki, ermənilərin də dilinə yatan bu söz xalis türk sözüdür, Zəngəzurun qədim kəndlərindən birinin adıdır.

Məlum mənbələrdə ***Meğri*** sözü ilk dəfə 1576-cı ildə qeydə alınmışdır. Sözün əslini tarixçilər ***Miğri*** şəklində bərpa etmişlər. Meğri toponimi ilə bağlı Meğri ərazisində ***Miqridağ*** oronimi də vardır. Araza tökülən Meğriçay da bu ərazidən keçir (XV əsrə aid bir mənbədə bu ərazidə fars dilində Mehri çayı qeydə alınmışdır – 2;256). Bunlar bu yerlərə erməni ayağı dəymədiyi ən qədim dövrlərin yadigarıdır.

B.Budaqov və Q.Qeybullayev ***Meğri*** sözünün ***miqir, mukir, muxor*** şəkillərində 'yarğan', 'uçurum' mənasında qədim türk sözü olduğunu söyləmişlər (1;337-338). K.M.Murzayev də «Kürdüstanda monqol toponimləri» (3;213) əsərində bu sözü 'çoxsaylı qobu, yarğanlı yer` mənasında izah etmişdir.

Sözün hazırda saysız türk toponimlərində işləndiyi müəyyən edilmişdir. Borçalıda ***Miqarlı*** kəndi, Zaqatala ərazisində ***Mikirli*** çayı, Qars əyalətində ***Meqre-Qazma*** kəndi, Zəngəzurun özündə ***Böyük Miqri, Kiçik Miqri*** kənd adlarının müvafiq komponenti bu sözlə eyniköklüdür. İmişli ərazisində ***Muxurtəpə***, XIX əsr Ağcabədi ərazisində ***Muxur*** obası, Zəngəzur qəzasında dağ adı – ***Muxurtovlayan*** və s. də bu sözlə eynimənalı sayılır. (1;345) Qeyd edilən toponim və hidronimlər sözün köklü qədim türk sözü olduğunu bir daha təsdiq edir.

Bəzən Meqrini 'Mehri' kimi düşünənlər var. Hətta belə bir əfsanə də söylənilir ki, Meğri ilə üzbəüz Aşağı Azərbaycan tərəfdə

vaxtilə Kürdaş və Duzal ərazilərini birləşdirən kiçik şəhər dövləti var imiş, Meğri əraziləri onların yaylaq yeri imiş və hakimin arvadının şərəfinə ***Mehri*** adlanırmış. Lakin araşdırmalar göstərir ki, ***Meğri*** sözünün bu əfsanə ilə və 'gün', 'günəş', 'sevgi', 'məhəbbət' mənalarında fars mənşəli ***mehr*** sözü ilə heç bir əlaqəsi yoxdur.

Yerli əhalinin bir qisminin dilində ***Meğri*** sözü ***Mırğı*** şəklində işlənmişdir (***Mığrı*** ilə bu sözün fərqi metateza əsasındadır). Qədim türk abidələrində ***mır*** 'bal', ***mırlığ*** 'ballı' deməkdir. (1;345) ***Mır*** sözünün kökü ***mi*** çin dilindən alınma sayılır. Lakin nəzərə almaq lazımdır ki, ***bal*** sözü və onun müxtəlif dil ailələrinə məxsus tələffüz variantları sözün əksər dünya dillərində işlənən nostratik söz olduğunu göstərir: latın dilində ***mel, mellis,*** fransızca ***miel,*** monqol dilində ***bal,*** rus dilində □□□, xakas dilində ***möət*** və s. eyniköklü sözlərdir. Sait variantlarını nəzərə almasaq, bu sözlər yalnız ***b>m*** keçidi ilə fərqlənir. ***B>m*** keçidi türk dillərinin xarakterik səs keçidlərindəndir. Dilimizdə ***m*** əksərən qıpçaq elementi kimi çıxış edir. Bəlkə, ***Miğri*** bu sözdəndir – ***mır*** (***bal)*** sözündən? Bu barədə də düşünməyə dəyər. Bu cür olduqda da söz türk dilləri bazasında izah olunur. B.Budaqov və Q.Qeybullayevin yuxarıdakı izahları ilə yanaşı, bu da düşündürücüdür – hər iki etimoloji izah inandırıcı detallara malikdir. ***Bal*** və ya ***arı*** sözü erməni dilində də ola bilər, lakin bunlar sözün erməni mənşəyini tam istisna edir və bu sarıdan ehtiyatlanmaq üçün heç bir əsas yoxdur.

Bizim fikrimizcə, ***Meğri*** sözü başqa bir sözlə bağlıdır: bu ərazinin özündə – Ernəzir şivəsində (və bir çox Azərbaycan şivələrində) ***muxuri*** – 'üstü və yanları keçə ilə örtülü kiçik alaçıq' sözü işlənir. Əslində, 'alaçıq' mənasında olan bu söz 'yarğan, qobu' mənalı ***miqir, mukir*** sözləri ilə bir kökdəndir. Bir qədər diqqət yetirilsə, keçə, dəri və s.-dən düzəldilən alaçıq quruluş etibarilə yarğan tipli bir yaşayış yeridir. Sözlər bir kökdən ayrılıb, tədricən müstəqilləşib. Və həm də yerli əhalinin təsəvvürünə görə, muxuri təmtəraqlı alaçıqlara deyil, ağac budaqlarından, müxtəlif əşyalardan qurulmuş ibtidai kasıb alaçıqlara deyilir. Oxucu bilir ki, yarğan ibtidai insanın məskənidir. Lakin çadır, alaçıq köçəri türklərin «Dədə Qorqud»da 'otaq' adlandırdıqları yaşayış yeridir. Aydındır ki, ***Meğri*** sözünün ilkin forması yarğanla deyil, bu ərazidə köç salıb alaçıq quran türklərin ***muxuri*** sözü ilə bağlıdır və bu sözün ifadə

etdiyi məna əsasında yaranmışdır. Yarğan və ya bal məfhumları ilə yaşayış məskəninin adı muxuri-alaçıq qədər inandırıcı deyil. Amma o da doğrudur ki, Meğrini sevənlər onun güllü-çiçəkli bal təbiətini, dərəli-təpəli, uca dağlar arasında saysız yarğanlarla dolu təbiətini görüb duymadan sevə bilməzdilər. Lakin Meğrinin təbiətinə keçməzdən əvvəl, bu torpağın fədakar övladlarından Əhmədəli müəllimlə tanış olaq.

* * *

Əhmədəli İsmayıl oğlu Əliyev 1921-ci ilin gözəl yaz günlərindən birində – martın 13-də Nüvədi kəndində dünyaya göz açıb. Bütün xoşbəxt saatları da, ağrılı-acılı günləri də Nüvədi ilə bağlıdır. Ordubadda orta təhsilini başa vuraraq, Naxçıvanda ikiillik Müəllimlər İnstitutuna daxil olub. 41-ci ildə Müəllimlər İnstitutunu bitirərkən artıq İkinci Dünya müharibəsi başlamışdı. Bir müddət Nüvədidə dərs hissə müdiri işləyib cəbhəyə getmiş, müharibənin ağır nöqtələrində – Şimali Qafqaz döyüşlərində ağır yara və kontuziya alaraq tərxis olunduqdan sonra (1943) yenidən Nüvədiyə qayıtmış, dil və ədəbiyyat müəllimi, dərs hissə müdiri vəzifələrini davam etdirmişdir. 1957-ci ildə Nüvədidə kolxoz partiya təşkilatının katibi seçilmiş, bir neçə il kolxoz təsərrüfatına rəhbərlik etmişdir. Eyni zamanda, təhsilini davam etdirərək 1955-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun qiyabi dil-ədəbiyyat fakültəsini bitirmişdir. Sonra ömür boyu Nüvədidə müəllim işləmiş, 1968 – 1981-ci illər arasında məktəbin direktoru olmuşdur.

Bir neçə gündən sonra Əhmədəli müəllimin 81 yaşı tamam olur, lakin o, 60 ildən artıq bir müddətdə məşğul olduğu sevimli müəllimlik peşəsindən ayrılmamışdır – hazırda Bakıda Zəngilan qaçqınlar məktəbinin müəllimidir. Böyük bir ailənin başçısı, ağsaqqalıdır. Elmin və vətənin qədrini bilən övladlar, nəvə-nəticələr yetirmişdir.

Əhmədəli kişi sadə kənd müəllimi olmayıb. 1961-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Dilçilik institutunun aspiranturasına daxil olub, «Azərbaycan dilinin Meğri şivələri» mövzusunda dissertasiya üzərində işləyib. İş hazır olanda, tribu-

naya çıxmaq məqamında Əhmədəli müəllim bəzi adamların soyuq münasibətlərindən xoşlanmayaraq müdafiədən imtina edib, əsərini götürüb Nüvədiyə qayıdıb.

Baxıram, əsərin üzərində «1967-ci il» yazılıb. Saralmış vərəqlərdən hiss edirəm ki, o vaxtdan bu əsərə əl dəyməyib. Hər şeyi – girişi də, nəticəsi də, ədəbiyyatı da qaydasında. Demək, Əhmədəli mən namizədlik müdafiə etdiyim günlərdə müdafiə edə bilərmiş, o yaddaşla, o dünyagörüşlə, özünə, elminə o böyük tələbkarlıqla gördüklərindən daha böyük işlər görə bilərmiş..

Redaktə üçün mənə verilmiş bu əsəri («Azərbaycan dilinin Meğri şivələri») oxuyub müəllifinin müdafiə etmədiyini öyrəndikdə son dərəcə təəccüb və təəssüf etdim. Makina yazısı ilə 400 səhifəyə yaxın olan bu əsərdə Meğri rayonuna daxil olan Aldərə, Ernəzir, Lehvaz, Maralzəmi, Nüvədi, Tuğut və s. kənd şivələri böyük zəhmət və məhəbbətlə öyrənilmiş, son dərəcə zəngin materialın təhlili əsasında qiymətli bir tədqiqat əsəri ortaya çıxarılmışdır. Dissertasiya indi mənim müdir olduğum Azərbaycan dialektologiyası şöbəsində hazırlanmış olduğundan institutun veteran dilçiləri bildirdilər ki, dissertasiyanı makinada Əhmədəli müəllim özü yazıb, şərti işarələr çox olduğundan makinaçılara etibar etməyib. Odur ki bütün dissertasiya boyu bir hərf səhvinə belə rast gəlmək olmur. Düzəlişlər də yoxdur. Əsərin təkcə yazılışı nə qədər zəhmət və diqqət tələb edib, göz önündədir. Əhmədəli müəllim müdafiə etməsə də, bir alim, bir publisist kimi öz sözünü deyib. Mövzu ilə bağlı kifayət qədər məqalə çap etdirib. Bir publisist kimi, 80-ci illərdən «qardaş» ermənilərin yaramaz əməllərinin ifşası ilə məşğul olub. Onun publisist yazılarından keçən əsrin ikinci yarısında haqqında danışılan ərazilərdə millətlərarası münasibətlərə dair daha real məlumatlar almaq olur.

Əhmədəli İsmayıl oğlunun «Nüvədi axıracan vuruşdu...» (1998) məqaləsindən aydın olur ki, 18 fevral 1929-cu ildən bu günə qədər, indi bu üç-dörd ili də üstünə gəlsək, 73 ildir, Nüvədi kəndi, onun əhalisi öz ürəyində əzablı, son dərəcə ağır və dəhşətli yük gəzdirir. Nüvədililər rəsmi olaraq Ermənistana calansalar da, heç vaxt doğma Azərbaycanı, min illərlə bir parçası olduqları Azərbaycan torpaqlarını unutmamış, əlaqələrini kəsməmiş, Azərbaycanla bağlı izləri itirməmişlər. 70 ilə qədər bir müddətdə erməni

«əraziləri»nə qatılsalar da, məktəblərində «Azərbacan Şura Cümhuriyyəti Cəbrayıl qəzası Zəngilan rayonunun Nüvədi kənd ibtidai məktəbi» yazılmış möhür və ştampla işləmişlər. Rayon ərazisindəki Şahabbas karvansarasını, Sultan Səlim məbədini, İmam Rza əleyhüssəlamın qardaşı Seyid Əhməd ağa və onun bacısının məqbərə və məzarları olan Buğakar pirini Nüvədidən çıxan günəcən qorumuşlar. Çünki bunlar – bu dəlil-abidələr ermənilərin bu yerlərə çox sonralar gəlmə olduğunu göstərən çox mühüm sübutlardır; ermənilərin bu ərazilərdə heç bir abidəsinin olmaması onların sözünü kəsən tarixi faktlardandır. Amma ermənilər daim Nüvədi eşqilə yanmış, Nüvədini ermənilləşdirməkdən ötrü yuxu yatmamışlar. Oğrun-oğrun, bəzən açıq-aşkar türk abidələrinin məhvinə çalışmışlar. Təntənəli 45-ci il bayramında izdihamın önündə aparılan Ermənistan xəritəsində «böyük şəhər» ifadəsinin qarşısına ***Yerevan,*** «böyük rayon» ifadəsinin qarşısına ***Leninakan***, «böyük kənd» ifadəsinin qarşısına özününküləşdirmək üçün ***Nüvədi*** yazmışlar. Bunun mənasını hələ gəncliyindən anlamaqda olan Əhmədəli müəllim Nüvədini bir tərəfdən də ermənilər üçün «təbii qala, səngər» hesab etmişdir. Lakin bu qalaya nüvədililərin deyil, qeyrətsiz, vətən xaini yaramaz adamların ucbatından erməni soxula bildi. Ermənileri şövqə gətirən Azərbaycan hökumətinin başında oturanların məsuliyyətsizliyindən doğan fürsət və Nüvədinin məhsuldar torpaqları, əkin-biçini, mal-qarası, misilsiz təbiəti, təbii sərvətləri idi. Əhmədəli müəllimin yazdıqlarından aydın olur ki, Nüvədi kəndi bir ildə erməni dövlətinə (haramları olacaq?) 1000 ton nar, 600 ton üzüm, 100 ton əncir, 16 ton yun, 90 ton ət, hər gün 2 ton süd verirmiş. Son vaxtlar əhalini məhsul təhvili zamanı incidir, həm də bu mübariz camaatdan ehtiyat edirmişlər; nüvədililərdən təhvil götürdükləri südü «zəhərlidir» deyə özlərinə içirməmiş təhvil almırmışlar.

Hər şeyə əvvəlcədən hazırlıq görən ayıq və kəmfürsət düşmən kənd məktəbinə verilmiş tədris silahlarını hələ 1981-ci ildə yığmışdır. Buna görə də üç il – 1988 -1991-ci illərdə nüvədililər ermənilərə qarşı yalnız ov tüfəngləri ilə vuruşmuşlar. Ermənilərlə birlikdə hərdən Sovet ordusu da nüvədililəri atəşə tuturmuş. Hər yerdən əli üzülən nüvədililərə yenə Zəngilan camaatı havadarlıq etmiş,

onlara ardıcıl olaraq ərzaq göndərmiş, kəndin qorunmasına yardım göstərmişdir. 8 avqust 1991-ci ildə formal olaraq hay-haray edən Sovet ordusu da bu yerlərdən çəkildikdən sonra tam tək qalan əliyalın nüvədililər kəndi tərk etməli olurlar. Vejnəliyə köçürlər.

Əhmədəli müəllim çox maraqlı bir detal qeyd etmişdir: Azərbaycan rəhbərliyi, eyni zamanda, hakimiyyət uğrunda aşkar və gizli vuruşanlar belə günlərdə nüvədililərə kömək etmir, onların kənddən çıxmasını istəyirlər: «Yuxarının göstərişi var, Nüvədi kəndinin əhalisi çıxmalıdır, çünki bir azərbaycanlı kəndinin əhalisinin Ermənistanda qalması Azərbaycan Respublikası üçün müsbət hal deyil, ermənilər Nüvədini əldə əsas tutaraq deyəcəklər ki, biz Ermənistandan azərbaycanlıları qovmamışıq, onlar özləri yer-yurdlarından çıxıblar». Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonları da bu «prinsip» əsasında ermənilərə verildi.

Bu günlərdə Əhmədəli müəllimlə tanış olduq: türkün tarixinə vurğun, Nüvədini, onun təbiətini – dərələrini, dağlarını, çiçəkli düzlərini, əkin-biçinini, Nüvədi abidələrini böyük məhəbbətlə sevən, Nüvədi yanğısı ilə qovrulan, dərdinin dərmanı görünməyən, sinəsində ağır və dəhşətli yük gəzdirən Əhmədəli müəllim!

Nüvədinin dağları Nüvədi abidələrini tarix boyu işğalçılardan mühafizə edib. İndi bu yerlər xain qonşuların və xəyanətkar insanların ucbatından zəbun olub. O torpaqlar öz adamlarını istəyir – əl çatmır, ün yetmir, işıq görünmür.

Əhmədəli müəllim tarixi çox gözəl başa düşür, kimin haqlı, kimin haqsız olduğunu, ermənilərin özlərini «qədimləşdirməyə» çalışdıqlarını, azərbaycanlıların öz qədimliyinə laqeyd və məsuliyyətsiz yanaşdıqlarını çox yaxşı analiz edir. Ona görə də Qalina Staravoytovanın – haqsız ermənilərin müəyyən «haqla» tərəfini saxlayan bu qadının aşağıdakı sözlərini qiymətləndirərək can dəftərinə köçürüb saxlamışdır: Ermənilər «öz qədimliyinə görə özlərindən çox, tarixçilərə minnətdar olmalıdırlar». Azərbaycanlılar haqda: «Əfsuslar olsun ki, yazıq bu millətə ki, bu cür sübutlarla öz tarixini müdafiə edə bilmir. Mən həmişə bu tənbəlliyə məəttəl qalmışam». Amma nəzərə almaq lazımdır ki, bu, tənbəllik deyil, çox ağır söz deməyə imkan verən bir psixologiyadır. Əhmədəli

müəllim söhbət zamanı sanki haray qopararaq deyir: Hər şey axıb gedir, batır. Ermənistan ərazisindəki saysız Azərbaycan toponimləri böyük sürətlə axan çayda adi bir yeşik kimidir – bir an sonra daha görünməyəcək, daha görə bilməyəcəksiniz.

Doğrudur, B.Budaqov və Q.Qeybullayev «Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti»ndə (1998) böyük miqdarda Azərbaycan türk toponimlərini əhatə etmişlər. Lakin bu ərazilərin həqiqətən qədim oğuz yurdu olduğunu sübut edən on minlərlə təpə, dərə, aşırım, yarğan, keçid, bulaq, meşə... adları batıb gedir. Bunları o yerlərə qarış-qarış bələd olan yerli qocalardan toplamaq üçün vaxt azdır və olan vaxtdan da istifadə olunmur. Hər halda, o torpaqlar erməni tapdağı altındadır, yaşlılar da dünyanı tutub qalmır. Onun türk mənşəli saysız toponimləri, etnonimləri, antroponimləri unudulur. Bir tək Əhmədəli müəllim Zəngəzurun cənub ətəklərinə – Nüvədiyə, ümumən Meğri ərazilərinə ölməz bir abidə yaradıb, çapını hazırladığı bu əsərlə Azərbaycanın bu qədim torpaqlarının kiçik çökəkliklərindən uca dağlarına qədər, kiçik bulaqlarından iri çaylarına, balaca bir kolundan böyük meşələrinə, daşlı-kəsəkli yarğanlarından böyük dərələrinə, əlçatmaz yamaclarından məhsuldar çöllərinə qədər bütün varlığını 40 il bundan qabaq olduğu kimi, hətta ədəbiləşdirmədən qələmə alıb, qoruyub, saxlayıb. Özü bu əsərlə bir mənsəbə çata bilməsə də, Azərbaycanın Meğri torpaqlarına əbədi həyat verib, onlara yeni ömür bəxş edib.

Əhmədəli Əliyev 1961 – 1967-ci illər arasında Meğrinin 7 azərbaycanlı kəndini qarış-qarış gəzərək, Meğri Azərbaycan şivələrinin fonetik, leksik, morfoloji və sintaktik xüsusiyyətlərinə dair zəngin material toplamışdır. Ən mühüm məsələ də budur ki, sanki Əhmədəli müəllim hələ 20-30 il sonra baş verəcək fəlakətləri əvvəlcədən duyurmuş, ona görə də dissertasiya müdafiə etmək üçün yox, yerli toponim, oronim, hidronim, etnonimləri əbədi mühafizə etmək üçün öyrənmişdir. Əhmədəli müəllim Sovet dövründəki arxayınçılığın təəssüratı altında A.B.Şapirodan misal gətirərək: «...Bir neçə on illər keçəndən sonra artıq ədəbi nitq ilə dialekt nitqinin nəinki qarşılaşdırılmasından, hətta bunların arasında olan mühüm fərqlərdən belə bəhs etmək mümkün olmayacaqdır, məhz buna görə də dialekt nitqini onun ən müxtəlif cəhətləri ilə, xüsu-

sən sintaktik nöqteyi-nəzərdən öyrənməyə tələsmək lazımdır» – deyə, bu ümumi proseslə erməni təhlükəsini birləşdirərək, əllərində gizli xəncər tutan kəmfürsət qonşuya bel bağlamağın mümkünsüzlüyünü vaxtında dərk etmişdir.

Beləliklə, mövzunun aktuallığı daha gözlənilməz bir hadisəyə mənəvi qələbə üçün əsas olmuşdur. Ən əhəmiyyətlisi bir də budur ki, tədqiqat prosesində bir sahə deyil, dilin tərkib hissələri tam əhatə olunmuş, şivələrin fonetik sistemi, lüğət tərkibi, qrammatik quruluşu sistemli öyrənilməklə, ərazi azərbaycanlılarının mənəvi dünyası, təfəkkür və düşüncə tərzi, danışıq və nitq xüsusiyyətləri, toponimlər aləmi, etnoqrafik ənənələri barədə bitkin bir əsər yaradılmışdır. Ona görə də bu əsərlə diqqətlə tanış olan hər kəs qədim Meğrini addım-addım gəzmiş kimi olacaqdır.

Şivələr içərisində Nüvədi şivəsi, bəlkə də, analoqu olmayan bir şivədir. O qədər qəribə və qədim izlərə malikdir ki, nüvədililərin nitqindən şumer iyi gəlir (bəlkə də, Tariel Nüvədilini şumerə çəkən budur). Bu cəhət şivələrin həm fonetikasında – saitlər və samitlər sistemində, həm də lüğət tərkibində, qrammatik quruluşunda müşahidə olunur. Əhmədəli müəllim son dərəcə dəqiq transkripsiya əsasında sanki nüvədili nitqinin şəklini çəkmişdir (Kaş çap zamanı bunları olduğu kimi saxlamaq mümkün olaydı!). Səs əvəzlənmələri, sait və samit variantları, ahəng qanunu və onun pozulma halları, səsartımı, səsdüşümü, metateza, səs uyuşmaları kimi fonetik hadisə və qanunlar bir çox hallarda nitq yanlışlıqları ilə deyil, tayfa dilləri ilə bağlı olub, qədim abidələri yada salır. Ümumən nüvədililərin nitqi qədim bir muzeyi xatırladır.

Əsərdə morfoloji və sintaktik kateqoriyalar şivə materialı əsasında sistemli şəkildə əhatə olunmuşdur. Müəllif nitq hissələri, söz birləşmələri və cümlə tiplərini ədəbi normalar əsasında izah etməklə vaxt almamış, ən zəruri şivə materiallarını üzə çıxarmaq yolu ilə irəliləmişdir.

Əgər bu əsərin əvvəlki iki hissəsi olmasaydı belə, müəllif yenə qazanmış olardı – yalnız leksika bəhsi yüzlərlə türk toponimini yaşatmaq naminə qiymətli bir xəzinədir. Əslində, Əhmədəli müəllimi bu əsəri çap etməyə vadar edən də uzun daxili düşüncələr, daxili təlatümlər əsasında Meğri toponimlərini itirməmək, xalqın yaddaşında hələlik heç olmasa kitab şəklində əbədiləşdirmək ar-

zusudur (Vaxt gələr, torpaqlara qayıdış da olar!). Tayfa, köhnə əşya, alət, çəki, ölçü adları, ailə və qohumluq münasibətlərini bildirən sözlər, köhnə vergi, silah, ay, gün, fəsil, dağ, dərə, çay, düz, bulaq, daş, qaya adları, əkin yerləri, güney, quzey, düşərgə, yaylaq, yurd, qışlaq, gədik adları, ev şeylərinin, bitki və tərəvəz məhsullarının, müxtəlif heyvan növlərinin, geyim və bəzək şeylərinin, xörək və çörək, toxuculuq alətləri, naxış adları, baramaçılığa aid sözlər, uşaq oyunları, arıçılıq terminləri, müxtəlif xəstəliklərin, müalicə otlarının, ət və ət məhsullarının adları... – bütün bunlar qədim və unudulmaz vətən torpağı haqqında bu əsəri ensiklopedik bir əsərə çevirmişdir. Odur ki hər bir vətənsevər oxucu bu əsəri oxuduqdan sonra qəlbində Əhmədəli müəllimə böyük minnətdarlıq duyğuları hiss edəcəkdir.

Bütün gələcək oxucuları kimi, biz də Əhmədəli müəllimə minnətdarlıq hissi ilə təşəkkür edir, deyə bilmədiklərini demək üçün sağlamlıq və uzun ömür arzulayırıq.

Əsərin özü getdikcə aktuallığını artırdığı halda, o vaxtlar yazılmış səhifə yarımlıq müqəddimə bir çox cəhətdən köhnəldiyindən bir yana qoyub, yalnız müəllifin aşağıdakı sözlərini olduğu kimi saxlamağı lazım bildik:

«Əsərin yazılmasında dissertanta dəyərli məsləhətlər verən dosent A.Həsənova, filologiya elmləri namizədləri M.İslamova, Q.Mehtiyevə, K.Ramazanova, B.Tağıyevə, T.Həmzəyevə, S.Behbudova, Azərbaycan dialektologiyası şöbəsinin bütün işçilərinə, həmçinin dialektoloji material toplamaqda müəllifə kömək edən Meğri rayonu ziyalılarına dərin minnətdarlığımı bildirirəm».

Əhmədəli müəllimin özünü də bu siyahıya daxil etməklə biz də bu minnətdarlığa qoşuluruq.

27.02.2002

ƏDƏBİYYAT

1. B.Budaqov, Q.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, «Oğuz eli» nəşriyyatı, 1998.

2. Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə. Bakı, «Elm», 1998. Tərcümə edəni və şərhlərin müəllifi Rahilə Şükürova.

3. K.M.Murzayev. Kürdüstanda monqol toponimləri. «Toponimika Vostoka», 1964.
4. [illegible]. [illegible]-[illegible] «[illegible]», [illegible], 1969.

AZƏRBAYCAN DİLİNİN AZƏRBAYCANIN QƏRBİNDƏ YERLƏŞƏN QƏRİB LƏHCƏSİ

O torpaqlar ki onun adamları, adamlarının vətən dili, məhəbbətlə yaşatdıqları ana dili haqqında danışacağıq, qədim Azərbaycanın qərb qurtaracağıdır. Akademik Z.Bünyadovun qeyd etdiyi kimi, Şimaldan cənuba doğru Naxçıvan, Ordubad, Mərənd, Təbriz, Marağa, Ərbil, Kərkük şəhərləri bir xətt üzrə yerləşib və Naxçıvanla Kərkükün arası 500 km-dən də azdır. Cənub-qərbi Azərbaycanla Kərkükün, Ərbilin arası daha yaxındır və cəmi bir neçə saatlıq yoldur. Urmiya gölünün ətrafı – cənub, qərb və şərq həndəvəri türklərin qədim məskənidir. Şumerlər yeni torpaq və otlaqlar axtarışı ilə İkiçayarasına bu yerlərdən enmiş, e.ə.VI minillikdə cənubi İkiçayarasında məskunlaşaraq tədricən misilsiz tərəqqiyə nail olmuşlar. (1;115) 3-cü minilliyin axırlarında – e.ə.XXII əsrdə akkadlar Mesopotamiyanı işğal edərək şərqə doğru irəliləmiş və o vaxtdan türk mənşəli əhali ərəblərlə birgə yaşayışa uyğunlaşmış, şərqdən daim Qərbi Azərbaycanla birlikdə olmuşdur. Lullubi, Kuti, Manna, Maday, Atropatena, Atabəylər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövlətləri gəlib-gedib, Əhəməni, Parfiya, Sasani, ərəb, monqol istilaları baş verib, lakin bu yerlərin əhalisi öz yurdunda möhkəm durub, öz yurdunu başqa yurda dəyişməyib.

Tarixçilər İraq ərazisində türk-tayfalarının varlığını bu əraziyə sonralar köçüb gələnlərlə əlaqələndirirlər. Filologiyamızda İraq-türkman mədəniyyəti və folkloru ilə 40 ilə yaxın bir müddətdə ardıcıl məşğul olan professor Qəzənfər Paşayev tarixçilərin dediklərini nəzərdən keçirərək yazır: «İraq türkmanlarının nə zaman və haradan köçərək bu torpaqları vətən etdiklərinə dair bəzi tarixi mənbələrə rast gəlirik. Tarixçilərin böyük əksəriyyəti onların Azərbaycandan gəldikləri fikrini söyləməkdədir». (2,21) Q.Paşayev bu tarixin hicrətin 32 və ya 54-cü ilindən başladığını qeyd edənlərin fikirlərini ön plana çəkərək keçən 1400 ilin müddətində zaman-zaman bu əraziyə azəri türklərinin daxil olduğunu göstərən fikirləri aşağıdakı kimi xülasə etmişdir: «Ərəb tarixçisi Təbəri

türklərin İraqa ilk gəlmə tarixinin hicri tarixin 54-cü ilinə təsadüf etdiyini yazır. Türk alimi prof.S.Buluç bu məsələyə toxunaraq «Hicrətin ilk yüzilliklərində Azərbaycan türkləri Təbrizdən – Sultaniyyədən keçib Kərkük ətrafında yerləşmişlər» deyir. Kərküklü araşdırıcı Şakir Sabir türkmanların İraqda VII yüzillikdə göründüyünü və miladi 745-də Bağdadda türkman məhəllələrinin olduğunu yazır. Ünlü iraqlı araşdırıcı Mustafa Cavad «İraqdakı türklərin tarixi» kitabında türklərin İraqa ilk gəlişlərini hicri 32-ci illə əlaqələndirir və bu gəlişi 7 mərhələyə bölür...» (2;24) Doç.Dr.Mahir Nakip Qəzənfər Paşayevin İstanbulda çap olunmuş «İrak-Türkmen Folkloru» monoqrafiyasına ön sözündə türklərin, türk dövlətçiliyinin tarixini bir qədər də uzatmağa çalışaraq yazmışdır: «Milattan takriben 220 yıl önce ilk Türk devletini kuran Hunlar'dan bu yana Türkler hiç bir zaman ciddi manada devletsiz kalmamışlardır». (2; 9) Beləliklə, ictimai elmlər aləmində məşhur olan köksüz bir nəzəriyyə – türklərin hun dövründən meydana çıxması nəzəriyyəsi İraq-türkman mədəniyyət tarixi ilə məşğul olanlara da sirayət etmişdir. Yuxarıda sitat verdiklərimizin heç birində deyilmir ki, qeyd etdikləri dövrə qədər bu ərazilərdə türk tayfaları olmamışdır. Müşahidə etdikləri «ilk köç» bir halda hicri tarixin 54, başqa halda 32-ci ilinə aid edilir. Miladi tarixin 745-ci ilində Bağdadda türkman məhəllələrinin olduğu müşahidə edilib və s. Əgər bu dövrdə Bağdadda türkman məhəllələri varsa, deməli, onların tarixi daha qədimdir. Bu tipli müşahidələr qeydə alınmış olsa idi, miladdan neçə min il əvvəl də türklər bu ərazidə müşahidə olunardı.

Böyük Füzulinin tayfasının da bir vaxtlar Yuxarı Azərbaycanın Ərəş mahalından köçüb gəldiyini göstərirlər: «Tədqiqatçıların fikrincə, ailəsi feodal çəkişmələri nəticəsində bir hissəsi Azərbaycandan İraqa köçmüş Bayat tayfasına mənsub olmuşdur». (3;14.) Həmid Araslı VII əsrdən sonra, xüsusilə Abbasilər dövründə azərbaycanlıların Bağdad ətrafına köçürülməsini və bu köçürmənin səbəblərini belə izah edir: «Bu zaman Abbasi xəlifələri hər hansı bir ərəb sülaləsinin, yaxud ərəb qəbiləsinin qaldıra biləcəyi üsyandan mühafizə olunmaq məqsədilə Azərbaycanın müxtəlif yerlərindən, xüsusən şimal əyalətlərindən bir çox qəbilələri buraya köçürtdülər. Bağdada köçürülmüş olan bu qəbilələr Bağdad ətra-

fında yerləşdirildi və paytaxtı müdafiə edə bilmək üçün bir növ qarovul vəzifəsini görməyə başladılar». (4;77) Burada düşündürücü cəhətlər vardır: ərəb Abbasi sülaləsi nə üçün azəri türklərinə etibar edir? Əgər azəri türkləri VII yüzilliyin ortalarından ilk gəlişlərini nümayiş etdirmişlərsə, nə tez ərəblərin etimadını qazanmışlar?

Bu köçürmələr həqiqətdə mümkündür və olmuşdur. Bir sıra ərəb qəbilələri də eyni vaxtlarda Yuxarı Azərbaycan ərazilərinə köçürülmüşdür. Lakin azəri türklərinə bu münasibət, özlərini özlərindən onların vasitəsilə qorumaq üsulu göstərir ki, ərəblərlə türklər 20–30 ilin deyil, minilliklərin qonşusudur – ərəblər İkiçayarasını işğal etdikləri dövrdən türklərə bələddir və onların mərdlik keyfiyyətlərinə inanmışlar.

1258-ci ildə Hülakilər son Abbasi xəlifəsini edam edib xilafətə son qoyduqdan sonra Bağdadı və ətraf əraziləri yenidən Azərbaycana birləşdirirlər. Adətən, işğalçılar əvvəlki işğalçıların səhv inzibati qurumlarını qaydaya salmağa çalışmışlar. Qədim türk torpaqları olduğu üçün Hülakilər bu cür bölgü aparmışlar. Bu hal Qaraqoyunlular, Ağqoyunlular dövründə də olmuş, Bağdad və ətrafı Azərbaycanın təbii əyalətləri sırasına daxil edilmişdir. Şah İsmayıl da 1508-ci ildə eyni işi görmüş, Bağdadı Azərbaycana birləşdirmişdir. Vaxtaşırı ərəblər irəliləmiş və türklər öz müstəqilliklərini yenidən bərpa etməli olmuşlar. Keçmiş tariximizin öyrənilməsində naqislik və zəiflikdir ki, H.Araslı Bağdad və ətraf ərazilərdə yaşayan azərbaycanlıları «əsl vətən torpağında yaşamayan» azərbaycanlılar kimi təsəvvür edirdi: «...Bağdad ətrafında yaşayan azərbaycanlılar ilə əsl vətən torpağında yaşayan azərbaycanlılar uzun tarix boyu siyasi-iqtisadi və mədəni əlaqədə olub, getdikcə bu əlaqəni artırmış və möhkəmləndirmişlər. Təsadüfi deyildir ki, Şah İsmayıl öz şeirlərindən birində deyir:

Getdikcə tükənir ərəbin kuhü məskəni,
Bağdad içində hər necə kim türkman qopar.

Bu şeirdən aydın olduğu kimi, Səfəvilər Bağdadın yerli əhalisi olan ərəbləri getdikcə sıxışdırmaq və oranı azərbaycanlılaşdırmaq siyasəti yürüdürdülər». (4;79) Erməni öz murdar ayağı dəyməyən yerləri də öz yurdu sayır, bizim bədbəxtliyimiz oradadır ki, öz yurdumuzu özgənin yurdu hesab edirik. Tarix yaxşı öyrənilmiş olsa

idi, aydın olardı ki, «Bağdadın yerli əhalisi» ərəblər deyil, babalarımız türklərdir. İndi bu yerlərin iddiasına ehtiyac olmasa da, tarixi həqiqəti danmağa da ehtiyac yoxdur. Şah İsmayıl tarixi bizdən daha yaxşı bilmişdir. Ona görə də ərəbləri sıxışdırmamış, türkləri öz yurdunda oturtmağa çalışmışdır.

Yenə deyirik: tarixçilərin dediklərində həqiqət də var – zamanzaman yeni türk tayfalarının bu əraziyə, öz qohumlarının yanına axınları olub, artıb-çoxalıblar, amma ilkin köklərini saxlayıblar. Hələ tariximizin daha dumanlı olduğu Sovet dövründə Q.Paşayev bu həqiqəti müəyyən dərəcə düşünmüş və yazmışdır: «Füzuli yaradıcılığına qol-qanad verən, onu azərbaycanca ölməz əsərlər yazmağa sövq edən, ona söz sənətinin şəffaf çeşməsindən su içirən, Füzulini dahi edən bu elatın folklorunun zənginliyi məni heyrətə gətirdi... Tədqiqatlar apardım. Bəzi kitabların təsiri ilə az qalmışdı həqiqətdən yan keçim. Xoşbəxtlikdən, başqalarının səhvi bəzən həqiqəti daha tez üzə çıxarmağa kömək edir. O. Gerasimovun «Sincar dağlarından Rub-əl-Xali səhrasınadək» kitabında (s.256) dediyi: «Kərkük bir də ona görə məşhurdur ki, burada böyük bir türkmən koloniyası yaşayır. Onlar türkdilli xalqların yaşadığı yerlərdən min kilometrlərlə uzaq olan bu yerlərdə necə məskən salmışlar?» sözləri, elə bil, məni yuxudan oyatdı. Xəritəyə nəzər saldım. Böyük ingilis yazıçısı C.Oldricin «ikiyə bölünmüş bir ürək» adlandırdığı Sovet Azərbaycanı ilə Cənubi Azərbaycanı... sərhəd adlandırılan Araz çayı böldüyü kimi, Cənubi Azərbaycanla İraqda azərbaycanlıların qədimdən yaşamış olduqları və indi də yaşadıqları ərazini beləcə bir sərhəd bölür». (5;55–56) Q.Paşayev son nəticədə əsas məsələni düzgün qeyd etmişdir: «Həqiqət budur ki, Quzey Azərbaycanla Güney Azərbaycanı bir-birindən ayıran Araz çayına bənzər bir xətt də Güney Azərbaycanla İraq türkmanlarının əskidən bəri yaşadığı torpaqları bir-birindən ayırır». (6;21) Elə buna görə də müəllif İraq-türkman soyunu səlcuqlarla bağlamağa çalışanlara etiraz edir, buradakı türk əhalinin səlcuqlardan çox-çox əvvəl burada olduqlarını, onların oğuz qəbilələri ilə bağlı olduğunu, İç Oğuzla Dış Oğuzun tarixinin isə çox qədim olduğunu göstərir. Təkcə bayat qəbiləsi ilə bağlı 64 kəndin olması da bu ərazilərin qədimdən oğuzların yurdu olduğunu təsdiq edir.

Şah İsmayıl xeyli müddət bu yerlərin əhalisini onların öz doğma elinə qatıb, Aşağı Azərbaycanla birləşdirib. Lakin sonrakı qəti sərhədlər onları Azərbaycan torpağından ayrı salıb, XVIII əsrin ortalarından (1746) Azərbaycanla əlaqələri daha çox kəsilib. Tarixi saxtalaşdıranlar gəncliyi, gənc nəsli daim aldatmaqla məşğuldur, ona öz keçmiş sərhədlərini göstərməkdə acizdir. İraq ərazisindəki türklərin kiminsə tərəfindən bura köçürüldüyünü, gəlmə olduqlarını fəhm edənlər tarixçilərimiz tərəfindən yaradılmış yanlış təsəvvürün mexaniki daşıyıcılarıdır. Tarix kitablarımızın elmi obyektivlikdən uzaq olması nəticəsidir ki, insanların öz tarixi barədə təsəvvürləri də yanlışdır. İraqın türk əhalisindən danışarkən elə bilirlər ki, onlar qürbətdədir. Düşünmürlər və mövcud tarix kitabları düşünməyə imkan vermir ki, onlar qürbətdə deyil, öz vətənlərindədir. Kök oradır, tarix ilk türkləri – turukkiləri, suları, lulluları, kutiləri Urmiya gölü ətrafında təsvir edir (7; 60–86). Türkmanların əcdadları bu yerlərin çox qədim sakinləridir. Əgər bir möcüzə ilə onların 7 min il əvvəlki babalarını müəyyənləşdirmək mümkün olsa idi, biz onların arasında qarapapaqları görə bilərdik. Onlar böyük rəşadətlə o yerlərdə neçə min il duruş gətirə bilmiş, vətənlərini tərk etməmişlər. Onların tarixi bizim tariximizdir. Biz tariximizi onların hesabına dərinləşdirə bilirik. Onların babaları hələ e.ə.XXVIII əsrdə Arattanı yaratmışlar, qohum şumerlərlə əlaqədə dastanlar meydana gətirmişlər. Qədim «Enmerkar və Aratta kahini» onların və onların vasitəsilə bizim babalarımız haqqında yaranmış əfsanəvi və şirin bir dastandır.

* * *

Türkmanların zəngin folkloru vardır. Nağıllar, dastanlar, atalar sözləri, məsəllər, lətifələr, xoyratlar onların tarixinə dair qeyd etdiyimiz həqiqətləri bədii sənət nümunələrinin dili ilə əks etdirir. Folklor nümunələrində kərküklü qürbətdən deyil, ayrılıqdan şikayətlənir, vətənin böyük əraziləri ilə əlaqələrinin kəsilmələrini özlərinə dərd bilirlər. Buna görə də daim kömək gözləyib, birləşmək arzusu ilə çırpınıblar:

Qurut göz yaşın, Kərkük,
Altunlu daşın, Kərkük.

Birləş qardaşlarınla,
Yüksələr başın, Kərkük.
Ağlamağı bilirəm,
Öyrət məni, gülüm mən.
Mən o yara qurbanam,
Qoyar diz üstə məni. (8;126,136;142)

Diz üstə qoymaq ümumxalq Azərbaycan dilində 'çökdürmək, oturtmaq' mənasındadır. Lakin burada 'qaldırmaq, ayağa durquzmaq, dirçəltmək' mənasını verir. Kərküklü üzünün gülməsini, «ya Allah» deyib dizi üstə qalxmasını Vətənin birliyində görür:

Yandı Kərkük,
Ataşa yandı Kərkük.
Onunçun mən ağlaram,
Dostlardan yandı Kərkük.

Bir ölkə viran olsun,
Qalmasın yad əlində. (8;133)

Elə buna görə də gündə bir imperiya asılılığında özünü bədbəxt sayır, daim dərd yükü altında əzilən görür kərküklü:

Heç bilməm hayandayam,
Bir talesiz bəndəyəm.
Yuvasız bayquş kimi
Gündə bir vətəndəyəm. (8;149)

Tarixçilərin köçmələr, köçürmələr barədə məlumatları doğrudur: şimallı-cənublu Azərbaycanın türk əhalisi müxtəlif vaxtlarda bu yerlərə, öz qohumlarının yanına köç etmişlər. Xoyratlar təsdiq edir ki, Azərbaycanın hər yerindən köçüb gələnlər olub; yeni gələnlərin içərisində qarabağlılar da olub, gəncəlilər də. Kərkükdə Qarabağlı məhəlləsi yaradıblar. Əlaqələr sıx olub. Qərib durnalar birbaş Şimaldan Bağdada, Bağdaddan Şimali Azərbaycana üz tutub və hər dəfə onların gəlişinə müştaq olublar:

Sənə müştaq durur Bağdad elləri,

Gözləyə-gözləyə qalıb yolları.

(M.P.Vaqif)

Köçüb gələnlər də öz yurdlarını unutmayıb, öz bayatılarını yerli həmqəbilələrinin bayatılarına qatıblar:

Bağdad yolu Gəncədi,
Gülü pəncə-pəncədi.
Demə sizdən irağam,
Bu sevda ölüncədi.

Əslim qarabağlıdı,
Sinəm çarpaz dağlıdı.

Harda bir qərib görsən,
Elə bil, gəncəlidi. (8;117, 131;139)

Beləliklə, İkiçayarasının şərqi – Urmiya gölü ətrafı, Aşağı Azərbaycanın qərb torpaqları və indiki İraq ərazisinin bir hissəsi türkün qədim və ilkin beşiyidir. İraq-türkman elatı Kərkük və Ərbil ətrafı ərazilərin əbədi sakinləri olmuşdur. Onlar qürbətdə deyil, səddədir, ayrılıqdadır, səddi-İskəndərin o tayındadır, ona görə də birlik arzusu ilə çırpınırlar. Bu xalq eramızın V əsrində təşəkkül tapmış vahid ümumxalq Azərbaycan dilinin səs sistemini, leksikasını, qrammatik quruluşunu qoruyub saxlaya bilmişdir. İraq-türkman xoyratlarından birində deyilir:

Məndilimnən,
Sil gözün məndilimnən.
Əslimi inkar etməm,
Güvənnəm mən dilimnən. (8;144)

Məndil qadın baş örtüyüdür. Deməli, bu sözlər qadın sözüdür. Əgər qadın öz ana dilini bu cür qoruyursa, o dil min illər yad dillərin təzyiq və təsiri altında olsa da, ona zaval yoxdur. Bu xalq öz dili ilə fəxr edib, öz dilini heç bir dilə dəyişməyib, öz dilinin şirinliyini heç bir dildə görməyib:

Nə deyirsə yad desin,

Öz dilimdi şirin dil.

Dilim var,
Qovun üstə dilim var.
Əslində kərküklüyəm,
Gör nə şirin dilim var.

Dilimdi,
Alma dilim-dilimdi.
Məni xoşbəxt eyləyən
Öz sevimli dilimdi. (8;129, 151)

Kərküklü bununla, bu dilin şirinliyini duymaqla, öz dili ilə yaxşı mənada qürrələnməklə kifayətlənməyib. Bu dil ərəb və kürd dilləri əhatəsində neçə min il öz gözəlliyini, milliliyini, təbiiliyini əhalinin öz dilinə məhəbbəti və yad təsirləri öz içinə buraxmaması nəticəsində mühafizə edib saxlaya bilib. Kərküklü daim ana dilini qorumaq üçün canından keçməyə hazır olub:

Dilim-dilim,
Kəs qovun dilim-dilim.
Mən dilimnən vaz keçməm,
Olursam dilim-dilim. (8;129)

Bunlar bir kərküklünün deyil, İraq-türkman elatının sözüdür, bütöv bir elin həmrəylik ifadəsi olan fikridir. Elatın az-çox qələm tutan ziyalıları daim ana dilinin keşiyində olmuşlar. Kərküklü İrmağ hələ 1962-ci ildə «Qardaşlıq» jurnalında qeyd edirdi ki, dil və folklor adlandırılan iki varlıq vardır ki, həyat yaşadıqca yaşayır, xalqın keçmişi haqda danışa bilən təkzibolunmaz tarixi sənədə çevrilir.

* * *

Türkmanların qapıları Sovet hökumətinin hələ güclü çağlarında – 60-cı illərin ortalarında üzümüzə açıldı. Q.Paşayevin «İraq-türkman folkloru» monoqrafiyasına ön sözündə türk alimi Mahir

Nakip bu xeyirxah işin başlanğıcını düzgün müəyyən etmişdir: «Aslinda Azarbeycan aydını (yəni Q.Paşayev – *Q.K.*) İrak Türklerini 1959 yılında bir tesadüf eseri Kerkük'ü ziyaret eden Azeri şair ve edebiyyatçılar Resul Rza, Bahtiyar Vahapzade ve Kasim Kasimzade ile tanımıştır. Ayrıca 1960'larda uzun yıllar Bakü'de yaşayan Kerküklü Sinan Said'in de bu tanışmada büyük rolu olmuştur. Ama hiç birisinin Paşayev'in çalışmaları kadar derin iz bırakmadığı açıktır». (2;11)

Qəzənfər Paşayevin 1962–1966 və 1972–1975-ci illər arasında səfirlik xətti ilə İraqa ezam olunması İraq-türkman elatının dil və folklor qapılarını, iraqlılarla ünsiyyət qapılarını daha geniş açdı. Qəzənfər müəllim türkmanların yaşadığı əraziləri qarış-qarış gəzərək bu yerlər ilə ölkəmiz arasında körpü yaratdı. O vaxtdan başlayaraq vətənpərvər alim İraq-türkman ləhcəsini öyrənməklə yanaşı, İraq azərilərinin folklorunun toplanması, onların çap olunub Azərbaycanda, Türkiyədə, İraqda və İranda yayılması sahəsində böyük işlər gördü. Adətən, İraq-türkman folklor və ədəbiyyatı, onun tədqiqi və öyrənilməsi ilə əlaqədar Q.Paşayevin çap etdirdiyi əsərləri xronoloji ardıcıllıqla bu cür sıralayırlar: «Kərkük bayatıları» (R.Rza ilə birlikdə, 1968), «Arzu-Qənbər dastanı» (1971), «Kərkük mahnıları» (1973), «Kərkük atalar sözləri» (1978), «Kərkük tapmacaları» (1984), «Nəsiminin İraq divanı» (1985), «Azərbaycan folkloru antologiyası. İraq-türkman cildi» (Ə.Bəndəroğlu ilə birgə, 1999), «Altı il Dəclə və Fərat sahillərində» (1985,1987, Bağdad,1995, ərəbcə), «İraq-türkman folkloru» (Bakı,1992, Bağdad,1995,İstanbul,1998, türkcə) və s. (9;7)

Bu son kitab – «İraq–türkman folkloru» monoqrafiyası Azərbaycan, türk və İraq ədəbiyyatşünaslığında İraq-türkman folklorunun tədqiqinə həsr olunmuş qiymətli əsər sayılır. Ə.Bəndəroğlu yazır: «Ağlasığmayan yorğunluqların məhsulu olan bu misilsiz əsəri İraq türkmanları arasında folklor çərçivəsində bir şah əsər kimi qiymətləndirmək daha doğrudur. Bu günə qədər bizdə – İraq türkmanlarında, Türkiyədə və Azərbaycanda folklorumuzun bu biçimdə tədqiqi, incələnməsi və araşdırılması olmamışdır». (6;4) Bu kitabı Qəzənfər Paşayevin «ömür kitabı» adlandırırlar. (9;7) Bütün bu cəhətləri ümumiləşdirərək professor Yaşar Qarayev yazmışdır: «...Azərbaycana İraqdan yayılan türkman folklorunun

mətn və janr coğrafiyası Bakıda hamıdan çox məhz Qəzənfər müəllimin elmi irsində sabitlik və bütövlük təşkil edir». (9;165)

«İraq-türkman folkloru» kitabı türkmanlara xüsusi sevinc bəxş etmişdir. Sanki İraq-türkman ziyalılarının düşüncəsini ümumiləşdirərək Ə.Bəndəroğlu yenə yazır: «Qəzənfər Paşayevin İraq türkmanları ilə əlaqəli çap etdirdiyi qiymətli folklor kitabları, Oğuz kökündən və soyundan olan azərbaycanlılarla İraq türkmanlarının nə qədər bir-birlərinə dil və folklor baxımından bağlı olduqlarını – yüzillər boyunca zamanın qopartdığı qanlı və dumanlı qasırğalara baxmayaraq, genə də dədə mirasına, Dədə Qorquda, əzabkeş Nəsimiyə, Kərbalanın müqəddəs torpağında uyuyan böyük Füzuliyə olan bağlılıqlarını göstərmək üçün ölümsüz bir tarixdir». (6,3) Ürəyindən olduğu üçün türkman ziyalılarından Əta Tərzibaşı da bu sözləri Qəzənfər Paşayev haqqında məqaləsinə köçürmüş və bu fikirlərlə tam şərik olduğunu bildirmişdir.(9,63)

Nəsimi divanının İraq nüsxəsi, «İraq-türkman folkloru» və «Azərbaycan folkloru antologiyası»nın İraq-türkman cildi, İraq bayatıları, İraq-azəri ləhcəsinin və folklorunun tədqiqinə dair saysız elmi və elmi publisistik məqalələr, İraq-azəri ziyalıları ilə tanışlıq və görüşlər ədəbi-mədəni əlaqələrin, xalqımızın qan yaddaşının bərpasında misilsiz rol oynadı. Xalq şairi B.Vahabzadə hələ 1988-ci ildə Qəzənfər Paşayevə üz tutaraq demişdir: «Sən İraqda 6 il rəsmi vəzifə yerinə yetirdin. Lakin bununla kifayətlənmədin. İçindəki digər bir vətənsevərlik hissi səni başqa işlər də görməyə səslədi. Bu bir səsdi. Sənin damarlarında hayqıran səs. Kərküklü qardaşların əsrlərdən bəri qanlarında mühafizə edib saxladıqları əcdadın, soyun səsinə uydu və səni mənəvi borcunu ödəməyə yönəltdi. Sən mənəvi borcunu şərəflə yerinə yetirdin». Bu mənəvi borc damarlarında türk qanı olan hər bir şəxsin borcudur. Əcdadlar qədim olduğundan biz bu borcu ödəmək üçün daha dərinlərə baş vurmalıyıq.

Q.Paşayev bu işi təkbaşına görməmiş, əksərən İraq-azəri ziyalılarını – Ə.Bəndəroğlu və başqalarını da bu elin yaradıcılıq nümunələrinin xalqımıza çatdırılmasında iştiraka cəlb etmişdir. Bizim çapa hazırladığımız bu kitab da («İraq-türkman ləhcəsi»)

onun şəxsi əl yazılarına və illərlə toplayıb çap etdirdiyi materiallara əsaslanır.

* * *

Artıq 80-ci illərdə Q.Paşayevin səmərəli əməyi sayəsində ölkəmizdə İraq-türkman folkloruna dair zəngin material toplanmışdı. «Azərbaycan folkloru antologiyası»nın II cildi (Bakı,1999) bütövlükdə İraq–türkman folkloruna həsr olunmuşdur. Antologiyanın tərtibçiləri prof.Q.Paşayev və d-r Ə.Bəndəroğludur. Bu kitab və buna qədər Q.Paşayevin çap etdirdiyi əsərlər, onun İraqda rəsmi vəzifə daşıdığı illərdə topladığı materiallar, öyrənib əl xətti ilə yazdığı zəngin dil faktlarını əhatə edən iri dəftərlər İraq-türkman ləhcəsinin ətraflı öyrənilməsi üçün geniş imkanlar yaradırdı. Ona görə də bu materiallar hələ 90-cı illərin ikinci yarısında alimlərimizin diqqətini cəlb etmiş, professor Səyyarə Mollazadə, filologiya elmləri namizədləri Şövkət Kərimov, Sefi Behbudov və b. ləhcənin fonetik, leksik və qrammatik xüsusiyyətlərinin tədqiqinə həsr olunmuş bir sıra qiymətli məqalələr çap etdirmişlər. (10)

İraq-türkman ləhcəsinin monoqrafik tədqiqinə böyük ehtiyac duyulurdu. Bu ehtiyacı hiss edən Nəsimi adına Dilçilik institutunun direktoru, Əməkdar elm xadimi, MEA-nın müxbir üzvü Ağamusa Axundov belə bir tədqiqatın aparılmasını vaxtı çatmış bir təşəbbüs kimi irəli sürmüş, institutun Azərbaycan dialektologiyası şöbəsinin sabiq müdiri, mərhum professor Musa İslamov şöbənin elmi yaradıcılığını bu istiqamətə yönəltməklə son dərəcə faydalı bir iş görmüşdür.

«İraq-türkman ləhcəsi» adlı bu əsər qeyd etdiyimiz təşəbbüsün nəticəsidir. Əsər Azərbaycan dialektologiyası şöbəsinin əməkdaşları – S.Behbudov, K.Quliyeva, K.İmamquliyeva tərəfindən yazılmışdır. Əsərin «Giriş» və «Fonetika» bölmələri bilavasitə prof. Q.Paşayevin öz qələminin məhsuludur. Müəllif girişdə etnosun yayıldığı ərazi, ləhcənin müasir ədəbi dilimizlə bir kökdən olduğunu şərtləndirən amillər, İraq-türkman ləhcəsinin daha çox Azərbaycan dilinin şərq və cənub şivələri ilə səsləşməsi, etnosun adı və bu adın terminoloji səciyyəsi, İraq-türkman ləhcəsini müasir türk və türkmən dillərindən fərqləndirən fonetik, leksik və qrammatik

əlamətlər və s. barədə maraqlı məlumat vermişdir. Bu məlumat ciddi elmi araşdırmalara əsaslanır. Türkmanlar İraqın Kərkük və Diyala vilayətlərində bir çox qəza, nahiyə, kənd və şəhərlərdə məskunlaşaraq say etibarilə artaraq üç milyona yaxınlaşmışlar. Əsaslısı da budur ki, ərəb və kürd dilləri əhatəsində öz toponim, etnonim və antroponimlərini əksəriyyət etibarilə mühafizə edib saxlamışlar. Girişdən aydın olur ki, kərküklülər məktəbləri, ardıcıl mətbuatları olmasa da, Əli Tərzibaşı, Şakir Sabir Zabit, İbrahim Daquqi, Ə.Bəndəroğlu, Rza Dəmirçi, Sinan Səid, Məhəmməd Xurşid, Süphi Saatçı, Mahir Nakib, İhsan Vəsfi, Həbib Hürmüzlü, Erşad Hürmüzlü, Hidayət Kamal Ba- yatlı, Çoban Xıdır, Mövlud Taha Qayaçı kimi ziyalılar yetirmişlər. Ərəb dilində təhsil alsalar da, onlar öz dillərinin, ədəbiyyatlarının, xalqın mədəni inkişaf yolunun öyrənilməsi ilə məşğuldurlar. Q.Paşayevin AMEA-nın N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində yaratdığı «İraq-Türkman Ədəbiyyatı və Mədəniyyəti» adlı daimi Ekspozisiya zalında bu şəxsləri xalqımıza daha yaxşı tanıtmaq üçün guşələr ayrılmışdır.

Tədqiqata başlayarkən şöbə əməkdaşlarını bir sıra məsələlər düşündürməli olmuşdur. Hazırkı İraq ərazisində yaşayan bu xalq parçalanıb uzun müddət vətənindən ayrı düşmüş, bütövlükdə vətənlə əlaqələri kəsilmiş bir xalqdır. Onlpr özlərini necə adlandırırlar? Bu elin danışdığı dili necə adlandırmaq düzgün olar? «Türkman» sözü nə deməkdir və hazırkı Türkmənistan Respublikasında yaşayan türkmənlərlə, eyni zamanda, Osmanlı türkləri ilə əlaqələri necədir?

Qeyd etdiyimiz kimi, Azərbaycan MEA-nın nəfis şəkildə çap etdiyi Azərbaycan folkloru antologiyasının 2-ci cildi İraq-türkman folkloruna həsr edilmiş, «İraq-türkman cildi» adlandırılmışdır. Heç şübhəsiz, bu ad yerli ziyalıların məsləhət və razılığı əsasındadır. Antologiyanın bir müəllifi neçə yerə bölünmüş bu xalqın Yuxarı Azərbaycan ərazisindən, digəri – Əbdüllətif Bəndəroğlu Kərkükdəndir. 1987-ci ildə Qəzənfər Paşayev bu əsərləri az fərqlə «Kərkük folkloru antologiyası» adı altında çap etdirmiş, girişdə bu elatın özlərini də, bizi də «türkman» adlandırdıqlarını qeyd etmişdir. Tədqiqatçılar ***türkman*** sözünü müxtəlif şəkildə izah etmişlər (Bu barədə «Giriş»ə bax). Onların fikirləri üzərində day-

anmadan bu sözün, fikrimizcə, ***türk*** və ***man/mən*** sözlərinə ayrıldığını qeyd etmək istərdik. Türk – aydındır; ***man/mən*** sözü 'adam' deməkdir və ulu dildən gələn bir söz kimi özünü bir sıra müasir dillərdə (ingilis və s.) daha işlək formada saxlamışdır. Lakin sonralar ***man*** sözü 'ulu, cəsur, igid adam' mənalarını da qazanmışdır. Həm də maraqlıdır ki, onlar bizi də türkman adlandırırlar. Deməli, bu söz tarixin dərinliklərindən gəlir.

Əlavəli «İraq-türkman» birləşməsində İraq sözü də müasir ərazi bölgüsünə əsasən yerindədir. Bu söz iki cəhətdən: həm əhalinin yerləşdiyi ərazini göstərmək, həm də bu eli Xəzərin cənub-şərqində yerləşən türkmənlərlə qarışdırmamaq baxımından faydalıdır. Bizim üçün müasir dövrdə ***İraq*** sözü təbii, ***türkman*** sözü bir qədər qeyri-təbii görünsə də, elatın özü haqqında özünü adlandırmasını nəzərə almaq baxımından zəruri olub, bu ərazinin çox qədim türk yurdu olduğunu, bəlkə də, ilk türk adamı burada görənlərin bu adı verdiyini hifz etdiyi üçün gərəklidir. Odur ki biz də Azərbaycanın bu ən qədim məskəninin əhalisini «İraq-türkman elatı, İraq-türkman xalqı» adlandırmağı münasib saydıq. Parçalanmış, ikiyə bölünmüş xalqlar çoxdur. Lakin Azərbaycan xalqı Aşağı Azərbaycanı, Yuxarı Azərbaycanı, İraqı, Dərbəndi, Gürcüstanı nəzərə aldıqda saysız parçalanmalara məruz qalıb ki, İraq türkmanları da bu qollardan biridir.

İraq-türkman elatının dili şivə fərqləri ilə bugünkü Azərbaycan dilidir. Bunu biz təəssübkeşlik naminə yox, yerli əhalinin dilinin fonetik, leksik və qrammatik xüsusiyyətlərinin tədqiqi əsasında deyirik. Oxucu «Giriş»dən başlayaraq bütün əsər boyu İraq-türkman ləhcəsi ilə Azərbaycan dili arasındakı eyniyyət, türkmən və türk dilləri ilə fərqli cəhətlər barədə geniş məlumat alacaqdır. Faktların təhlili əsasında bu ləhcənin Azərbaycan dilinin bir qolu kimi inkişaf etdiyini görəcəkdir. Bunun səbəbi yalnız dil varisliyi ilə deyil, ictimai-siyasi və tarixi şərait, ərazi münasibətləri ilə də şərtlənir: son bir neçə əsrdə yaranmış ciddi sərhədləri nəzərə almasaq, Qərbi Azərbaycan dedikdə daim bu ərazilər, bu yerlərin əhalisi də nəzərdə tutulmuş, İraq türkmanları geniş Azərbaycanla əksərən birlikdə olmuşlar. XX yüzilliyin əvvəllərində İraqda Osmanlı hakimiyyəti başa çatdıqdan sonra Mosul problemi ilə əlaqədar Türkiyə hökuməti İraq türkman əhalisini türk kimi qəbul etmiş,

İngiltərə hökuməti isə türkman olduqlarını israr etmişdir. İngiltərə hökuməti onların Osmanlı türkü olmadığını, azəri türkcəsində danışdıqlarını, həqiqətdə türkman olduqlarını və Osmanlı imperatorluğundan daha əvvəl İrandan qopub İraqda yerləşdiklərini göstərmişlər.(11;93 – 99) Buradakı «İrandan qopub» sözlərini ərazi ilə birlikdə Cənubi Azərbaycanın qərbindən qopmaq, ayrılmaq kimi anlamaq lazımdır.

Lakin təbii ki, həm çox qədim kök olmaq etibarilə, həm daim qohum türk tayfalarını qəbul etdikləri, çarpazlaşmalar baş verdiyi, artıb çoxaldıqları üçün, həm də Yuxarı Azərbaycanla əlaqələri son əsrlərdə daha çox zəiflədiyinə görə Azərbaycan ədəbi dilindən, Yuxarı Azərbaycanın dialekt və şivələrindən fərqli xüsusiyyətlər yaranmışdır. O dərəcədə ki, bunları şivə qrupu və ya dialekt deyil, ləhcə adlandırmaq olar. Odur ki biz əhalinin danışdığı dili «Azərbaycan dilinin İraq-türkman ləhcəsi» adlandırmağı daha düzgün bildik.

İraq-türkman əhalisi Kərküklə şöhrət tapmışdır. Bu şəhər bir növ bu elin baş şəhəridir. Q.Paşayev ilk tanışlıq dövrləri ilə əlaqədar folklor materiallarını «Kərkük folkloru» adlandırmışdır. Bu onunla əlaqədar idi ki, türkmanların əsas kütləsi ilk anlar bu şəhərdə və onun ətrafında gözə dəymişdi. Lakin sonrakı araşdırmalar əhalinin məskun olduğu ərazilərin genişliyi ilə yanaşı, folklor və dil materiallarının rəngarəngliyini də üzə çıxardı. Ona görə də antologiya «İraq-türkmən folkloru» kimi tərtib edilmişdir. Bunlara baxmayaraq, bir çox hallarda «Kərkük folkloru», «Kərkük ləhcəsi» ifadələri də caiz sayılmışdır. Hətta bəzən «kərküklərin dili» ifadəsi də qaçılmaz olmuşdur. «Kərküklərin dili» ifadəsində Kərkük sözü həm yerin, həm də əhalinin etnik adı kimi nəzərdə tutulur – *mannaların dili, madayların dili* ifadələrində olduğu kimi.

İraq-türkman ləhcəsi həm fonetik xüsusiyyətləri, həm lüğət tərkibi, həm də qrammatik quruluşu ilə Azərbaycan dilinin digər ləhcələrindən (bax:12; 282 – 295) fərqli keyfiyyətlərə malikdir.

İraqa açılan pəncərə ilk növbədə İraq-türkman ləhcəsinin fonetik xüsusiyyətlərinin tədqiqindən başladı. Q.M.Paşayev İraqda tərcüməçi işləyərkən topladığı materiallar əsasında 1969-cu ildə «Kərkük dialektinin fonetikası» mövzusunda namizədlik dissertasiyası müdafiə etdi. Q.M.Paşayev akad.M.Ş.Şirəliyevin rəhbərliyi

ilə ləhcənin daha çox seçilən Kərkük dialektinin fonetik xüsusiyyətlərini üzə çıxarmış, saitlər və samitlər sistemi, müxtəlif səs əvəzlənmələri, səsartımı, səsdüşümü halları, metateza, ahəng qanunu, vurğu və s. fonetik hadisə və qanunlar haqqında sistemli məlumat vermişdir. Lakin çapa hazırladığımız bu kitaba daxil olan «Fonetika» bölməsi yalnız Kərkük dialekti ilə məhdudlaşmır. Müəllif əsər üzərində yenidən işləmiş, digər şivələri də əhatə etmişdir. Hələ o zaman (1969) prof. Ə.Dəmirçizadə ilə biz müəllifin namizədlik dissertasiyası haqqında yazmışdıq: «Dissertasiya yüksək elmi səviyyədə yazılmışdır. Əlaqədar ədəbiyyata müəllifin elmi-tənqidi münasibəti onun gənc bir alim kimi yetişdiyini göstərir. Əsərdə dialektologiya məsələlərinə həsr olunmuş ədəbiyyat diqqətlə nəzərdən keçirilmiş, azəri dilinin digər dialektləri, qohum türk dilləri, türk dillərinin qədim yazılı abidələri ilə yeri gəldikcə lazımi müqayisələr aparılmış, dialektdən götürülmüş faktlar bir çox hallarda tarixi-müqayisəli izah edilmişdir ki, bu da müəllifin dialekt faktlarını yalnız təsviri üsulla ədəbi dil ilə müqayisədə vermək üsulundan imkan daxilində qaçdığını göstərir». (9; 66 – 67)

Ləhcə ümumxalq Azərbaycan dilinin ədəbi normalarına da malikdir. Bu ədəbi normaların ilkin tədqiqatçıları, təbii ki, yerli ziyalılardır. Bu sahədə ən qiymətli əsər Əbdüllətif Bəndəroğlunun «İraq-türkman dili» əsəridir. Əsər Bağdadda iki dəfə çap olunmuşdur. Müəllif bu əsərdə kərküklülərin və İraqın digər ərazilərindəki Azərbaycan türklərinin dilinin fonetik və morfoloji xüsusiyyətlərini öyrənmişdir. Əsər orijinal quruluşu və tədqiqat üsulu ilə diqqəti cəlb edir. Bəndəroğlunun elmi üslubu xüsusi maraq doğurur. Müəllif elmi-terminoloji məsələlərin müqayisəli öyrənilməsi üçün zəngin faktlar vermişdir. Şöbənin hazırladığı bu əsərdə isə müəllifləri ədəbi normalar deyil, şivə xüsusiyyətləri, ləhcəni səciyyələndirən əlamətlər daha çox maraqlandırmış, ona görə də monoqrafiyada ədəbi normalar deyil, natural qapalı təsərrüfatla əlaqədar yaranmış, eyni zamanda, qədim tayfa dillərinin qalığı kimi mühafizə olunmuş spesifik dil xüsusiyyətləri tədqiq olunmuşdur.

İraq-türkman ləhcəsinin lüğət tərkibi dilimizin tarixini öyrənmək baxımından çox maraqlı material verir. Bizə elə gəlir ki, bir növ zorla ədəbiləşdirmə meyli, ləhcəyə elmi-nəzəri təzyiq, sabit or-

foqrafiya və orfoepiya tələbləri olmadığından iraqlıların nitqində maraqlı arxaik formalar daha çox mühafizə olunmuşdur. Bunlar insanı xəyalən eradan əvvəlki minilliklərə çəkir, qədim izlər oxucunu axtarışlara sövq edir. Hər şeydən əvvəl, sözlərdəki metateza etimoloji axtarış üçün fikir oyadır. Kök hansıdır – bizim işlətdiyimiz, yoxsa onların dediyi? ***Küncüt – kündic, sarımsaq – samırsağ, ənnə– nənə, çıplax – çılpaq, çimrəməg – çirməmək, öksürmək – öskürmək, xərbil – xəlbir, üskək – yüksək*** və s. ***Xərbil*** sözündəki metateza onu *Ərbil* şəhər adına oxşadır. Görünür, bir çox toponimlərin mənşəyini metatezasız araşdırmaq qeyri-mümkündür. ***Bəran*** sözü 'qoç' mənasında onların dilinə hardan düşüb? Bəlkə, ulu dildən gəlir? Bir tərəfdən də *qoyun* sözünün «Dədə Qorqud»da da izini saxlamış ***qo*** forması: ***qoun***. ***Turac*** sözünün 'durrac' şəklində tələffüzü bu sözün təqlidi sözdən yarandığını göstərmirmi? Bu cəhəti ***hacılağlağ*** quş adında da görmək mümkündür. Bu elat 'kəklik' əvəzinə ***kərklük*** deyir. Bəlkə, ***Kərkük*** şəhər adının bu köklə bağlılığı var? Ümumən əsas kütləsi dilimizin lüğət tərkibindəki sözlərlə struktur-semantik cəhətdən eyniyyət təşkil edən bu ləhcədə ayrılıq nəticəsində yaranmış bir sıra maraqlı fərqli sözlər var. Belə sözlərin bir qisminin ləhcədəki mənasını ikinci cərgədə veririk: ***yaz*** – yay, ***teşt*** **–** nəlbəki, ***subay*** **–** zabit, ***tənəkə*** – dəmir, ***cingənə*** – əslsiz, ***atə*** – bibi, ***bacı*** – baldız, ***boğuşmaq*** – mübahisə etmək, dalaşmaq, ***xurda*** – kəsək, ***bibi*** – ana, ***bay*** – oğlan, ***bayan*** – qız, ***bekar*** – subay, ***əsnəmək*** – sərxoş olmaq, ***hoqqa*** – çəki vahidi, ***civildəmək*** – səs salmaq, ***gəbə*** **–** hamilə və s. Qohumluq bildirən sözlər əsasən ədəbi dilimizdə olduğu kimidir: ***ata*** – ata, ***nənə*** – nənə, ***baba*** - ata, baba və s. Lakin bizim el dilində ***bibi, xala, ana, bacı, əmi*** və s. sözlər bir-birini əvəz etdiyi kimi, İraq ləhcəsində də bu cür semantik dəyişmələr mövcuddur. ***Əkə*** sözü ləhcənin 'yiyə' mənasında işlək sözlərindəndir; ***adaməkə*** sözü 'adam' mənasındadır və buna yaxın mənada şumer dilində də işlənmişdir. ***Hoqqa*** sözü qədim midiyalılarda 'qanun' mənasında işlənmişdir, söz burada qanuniləşib müəyyən çəki vahidini bildirir. Biz ***boğuşmaq, civildəmək*** tipli sözləri heyvanlara, quşlara aid edirik, lakin ləhcədəki bir sıra sözlərin mənası daha genişdir və ilkin semantikada daralma getməmişdir. Bir maraqlı söz də ***mada*** sözüdür – 'sac çörəyi'. ***Dizə*** sözü 'küpə, saxsı qab', ***paya*** sözü 'pillə' mənasındadır – qədim Al-

baniya ərazisindəki ***Dizəpaya*** yer adını bunlarla izah etmək olarmı? Alban dövründə Çola keçidi böyük inzibati rola malik olub. Bu şivələrdə ***çola*** – 'məhəllə' mənasındadır. Alban dövrü adlarında olduğu kimi, İraq türkmanlarının adlarında da qədim türk elementi ***-ay*** geniş işlənməkdədir: ***Sonay, Gülay*** və s.

Heyvan, quş və bəzi bitki adları maraqlı fonetik tərkibdə tələffüz olunur: ***qırğılığ*** – qırqovul, ***qallanquc*** – qaranquş, ***qillic*** – qırğı, ***qolbağa*** – qurbağa, ***quçək/quçən*** – küçük, ***seyran*** – ceyran, ***soğurcağ*** – soxulcan, ***douzanqurtağı*** – dozanqurdu, ***miçək*** – milçək, ***fərik*** – fərə, ***çüküntür*** – qırmızı çuğundur, ***leymun/limi*** – limon, ***məcmək*** – mərcimək, ***sumbağ*** – sumax, ***bəqlə*** – paxla, ***çevirgə*** – çəyirdək, ***turşəgə*** – turşəng və s. Bəzi başqa sözlərdə də bu cür fərqlər var: ***şoxum*** – şum, ***buxçi*** – bıçqı, ***feyləsuf*** – filosof, ***bögürək*** – böyrək, ***çənəkə*** – çənə və s. Əşyaların bir qisminin terminoloji adlarından fərqli perifrastik adları da var: ***şat – çay, qızbazı – dozanqurdu, keçaman/koçman – koramal, qızlaryoldaşı – kərtənkələ, tarıdevesi – parabözən, biçin quşi – bildirçin***.

Ləhcədə səs keçidləri çox rəngarəngdir. Lakin qədim mixi yazılarda rast gəldiyimiz bir sıra səs keçidləri daha maraqlıdır: ***z-s:*** (qədim ***Zikirtu/Saqarti*** sözlərində olduğu kimi) ***singil - ziyil; s-z: zalxın – salxım; c-z: zağal – cığal; z-ş: zillə – şillə; t-d: tay – dayça, tanışmaq – danışmaq; q-k: kurt – qurd, kapar – qapar*** və s. Əslində, bunlar mahiyyətcə səs keçidləri olsa da, daha qədim variantın ləhcədə mühafizəsi kimi anlaşılır.

Ləhcənin leksikası «Kitabi-Dədə Qorqud»un leksikası ilə daha möhkəm səsləşir. («Giriş»ə bax) Bu hal «Dədə Qorqud»u yaradan oğuzların da qədimliyini sübut edir. İraq-türkman ləhcəsi diqqətlə öyrənilərsə, «Dədə Qorqud»da mənası anlaşılmayan və ya mübahisəli olan bir sıra sözlər də izah oluna bilər. Məsələn, ləhcədə 'əclaf' mənasında ***qəvvad*** sözü işlənməkdədir. Fikrimizcə, bu söz dastanlardakı ***qavat*** sözüdür: *Qavat oğlu qavat.* Yaxud dastanların 1988-ci il çapında 'ön', 'qarşı' mənasında ***ög*** sözü əsas götürülmüşdür: *Sənin ögünə gələr.* Bu söz İraq ləhcəsində həmin mənada ***ög*** və ***öng*** şəkillərində geniş işlənməkdədir. Aydın olur ki, qovuşuq ***ng*** səslərindən birincisi ədəbi dilimizdə, ikincisi İraq ləhcəsində inkişaf edib. Bu ləhcədə şumerdə çox işlənən və bir sıra toponim və antroponimlərin kökündə qalmış olan ***os*** – 'ağıl',

eş/eyş/əyiş – 'dost, yoldaş, həyat yoldaşı' sözləri də qalmışdır. Biz bu şivələrdə ***dör-döşək*** qoşa sözünün tərkibində işlədilən və mənasız söz hesab etdiyimiz ***dör*** sözünün 'baş ev, qonaq otağı' mənasında olduğunu öyrənirik: *Ev sənin, eşik sənin, Dördəki beşik sənin.*

Qazax şivəsində işlənən ***təngildəmək*** sözü bizim başqa şivələrimizdə nisbətən az müşahidə olunduğu halda, ləhcədə təqribən eyni mənadadır: ***tüngüldəmək*** – 'atılıb-düşmək'. Türkmanların söz yaradıcılığında xalqımıza məxsus yumor da özünü göstərir: ***sıçan oynağı*** – 'çopurluq', ***vayvaya yumurtası*** – 'tez inciyən' və s. ifadələr əşyanın mühüm bir xüsusiyyəti (birincidə çala-çökək olması, ikincidə tez sınması) nəzərə alınmaqla düzəldilmişdir. Bəzi fərqli sözlərdə ərəb dili fleksiyasının təsiri də vardır: ***hüsküt-hüsküt*** sözü 'sakit-sakit' sözünün fleksiyaya uğramış formasıdır.

Ləhcənin morfoloji və sintaktik quruluşu ədəbi dilimizdən elə də fərqlənmir. Mövcud fərqlər qapalılığın-ayrılığın doğurduğu ləhcə fərqləridir. Əsərin «Qrammatik xüsusiyyətlər» fəslində bu barədə ilk dəfə geniş məlumat verilir. Bu xüsusiyyətlər göstərir ki, əlaqələrin qırıldığı bir neçə yüz il ərzində inkişaf meyillərində maraqlı dəyişmələr ola bilir. Lakin əksər hallarda tədqiqatçılar həmin meyillərin köklərini Yuxarı Azərbaycanın öz ərazisi daxilindəki dialekt və şivələrdə də müşahidə etmişlər. Bunlardan aydın olur ki, yeni meyillər ümumən dilin öz potensiyasında mövcud olan imkanlardan doğur. Bütün morfoloji kateqoriyalar ümumxalq Azərbaycan dilində olduğu kimidir. Maraq doğuran səciyyəvi fərqli cəhətlər də vardır.

Morfoloji göstəricilər daha çox hal, mənsubiyyət, xəbərlik və şəxs şəkilçilərinə aiddir. İsmin yiyəlik halı ***-ın,-in,-ün*** şəkilçisi ilə yanaşı, ***-ıy,-iy,-üy*** və uzun ***-u (u:)*** şəkilçisi ilə də formalaşır: ***Səniy*** *ömriy nə qədərdi?* ***Sənu: camalu:*** *gördim.* Maraqlıdır ki, hal şəkilçisi ilə eyni istiqamətdə mənsubiyyət şəkilçisi də dəyişir. İkinci misalda ***camalu:*** sözündəki uzun ***-u*** həm mənsubiyyət, həm də təsirlik hal şəkilçisini əvəz edir. Fellər təsirlik halda obyekt bildirən sözü ***-ı,-i*** şəkilçisi ilə yanaşı,***-yı,-yi,-yui*** şəkilçisi ilə də idarə edir: ***yımırtayı, suyui.*** III şəxs təkin mənsubiyyət şəkilçisi çox rəngarəng variantlarda özünü göstərir: ***-ı,-n,-v,-ın,-in,-ıy,-iy,-üi,-ıw,-ıv,-iv*** və s.: ***boyuwa*** *qurban*, *yeri* ***işüwə,*** *səniy* ***ömriy,*** *sür* ***hökmüi,*** *səniy* ***babay,*** *qaşıwın* ***tüki*** və s. Çox maraqlıdır ki, təsirlik halın və

mənsubiyyət mənasının danışıq dilində geniş yayılmış ***-n*** şəkilçisi ilə birgə ifadəsi halları ləhcədə də fəal və işləkdir: *Mərd* ***qapısın*** *namərd açar.* ***Kimi*** qoşması ləhcədə üç vəziyyətdə – ***kimi, kimin, gibi*** şəkillərində işlənir. Bu qoşma şumerlərin çox işlətdiyi (***gimi, gim*** şəkillərində) qoşmalardandır: *Dərdim var dağlar* ***kimin***. Oxucu İraq-türkman şivələrində yalnız bu ləhcədə saxlanmış olan ***aynamaq*** – 'anlamaq', ***baynamaq*** – 'banlamaq', ***binməg*** – 'islanmaq', ***kişiməg*** – 'dazımaq', ***mavılmağ*** – 'özündən getmək', ***saynamağ*** – 'oxumaq, ötmək' kimi fellərə rast gələcəkdir. Fellərə artırılan ***-ı,-i,-u,-ü*** şəkilçisi həm feli bağlama kimi işlənir, həm də indiki və gələcək zaman anlayışlarının ifadəsinə xidmət edir: ***Digirləni*** *daş* ***gəli*** (Diyirlənərək daş gəlir). *Həpi dərdlər* ***sağalı,*** *Sağalmaz bala dərdi.* Bu hal göstərir ki, dialekt və şivələrimiz arasında Təbriz dialekti üçün daha səciyyəvi olan (12; 220) ***-ı*** şəkilçisi bir tərəfdən feli bağlama şəkilçisi kimi tam təcrid olunmayıb, digər tərəfdən də indiki və gələcək zaman anlayışlarının birgə ifadəsindən qurtara bilməyib. III şəxsin təkində indiki zamanın ifadəsi üçün ***-iri*** şəkilçisindən (dörd variantda) istifadə olunur. Tədqiqatçılar bu şəkilçinin sonundakı ***-i*** ünsürünü ***ol*** əvəzliyinin törəməsi hesab edirlər. ***Ol*** sözü ***an*** formasından, ***an*** isə şumerdəki eyni vəzifəli ***anə*** əvəzliyindən yaranmış və tədricən müasir vəziyyətini almışdır.

İraq-turkman ləhcəsində əksər kateqoriyaların ifadə vasitələri müasir ədəbi dil normalarına müvafiq qurulmuşdur. Qeyd edilən spesifik hallar təbiidir və elə də təəccüb doğurmur. Lakin İraq-türkman ləhcəsində fellərlə bağlı elə bir xüsusiyyət meydana çıxmışdır ki, türkoloqların hamısında maraq doğura bilər. Bu, ***-anda*** şəkilçili feli bağlamaların təsriflənməsi, şəxs şəkilçiləri formalaşdıraraq işlənməsidir:

Mən gələndəm	***Biz gələndəx***
Sən gələndou	***Siz gələndəvüz***
O gələndə	***Olar gələndələr.***

Biz hələ 1969-cu ildə Q.Paşayevin namizədlik dissertasiyasında gördükdə bunların çox qiymətli faktlar olduğunu müəllifə bildirmişdik. Məlumdur ki, türkoloqlar feli birləşmələrin sintaktik funksiyasına münasibətdə üç böyük qrupa bölünür. Alimlərin bir qrupu

(A.N.Kononov, Ə.M.Dəmirçizadə və b.) bütün feli birləşmələri budaq cümlə hesab edirlər. İkinci qrup (N.Dmitriev, N.Hacıyeva, Z.Tağızadə və b.) bütün feli birləşmələri deyil, ayrıca subyekti (mübtədası) olanları budaq cümlə qəbul edirlər. Dilçilərin böyük bir qrupu (M.Şirəliyev, M.Hüseynzadə, Ə.Abdullayev, Y.Seyidov, Z.Budaqova, N.Baskakov və b.) feli birləşmələri cümlənin bir mürəkkəb üzvü kimi təhlil etməyi düzgün hesab etmişlər. 3-cü qrupun feli birləşmələri budaq cümlə hesab etməməkdə əsas dəlilləri feli bağlamanın (o cümlədən feli sifət və məsdərin) təsriflənməməsi, zamana və şəxsə görə dəyişə bilməməsidir. Budur, İraq-türkman ləhcəsi bu bəhanəni də kəsir. Lakin qeyd etməliyik ki, bu proses bütün feli bağlamalara aid deyildir və yalnız ***-anda,-əndə*** şəkilçisində özünü göstərir. Həm də hələ az öyrənilmiş İraq-türkman ləhcəsində müşahidə olunur.

Ləhcənin digər xüsusiyyətləri barədə oxucu ayrı-ayrı fəsillərdə ətraflı məlumat alacaqdır.

Güman edirik ki, prof.A.Axundovun təşəbbüsü, prof. M.İslamovun rəhbərliyi, prof.Q.Paşayevin maddi və mənəvi köməyi, Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsinin əməkdaşları - filologiya elmləri namizədləri S.Behbudov, K.Quliyeva və K.İmamquliyevanın əməyi ilə meydana çıxan «İraq-türkman ləhcəsi» adlı bu əsər gələcək tədqiqatlar üçün əsaslı zəmin yaradacaq, xalqımızın bir parçası olan İraq türkmanları və onların dil xüsusiyyətləri ilə maraqlanan hər bir oxucu üçün faydalı olacaqdır.

16.07.2002

ƏDƏBİYYAT

1. [illegible]. [illegible]1, [illegible], 1985.
2. Prof.Dr.Qazenfer Paşayev. İrak Türkmen Folkloru, İstanbul, 1998
3. Azərbaycan Sovet Ensiklopediyası. X., Bakı,1987.
4. H.Araslı. Böyük Azərbaycan şairi Füzuli. Bakı,1958.
5. Q.Paşayev.Altı il Dəclə və Fərat sahillərində. Bakı, 1987.
6. İraq Türkman Folkloru. Bakı,1992.
7. Azərbaycan tarixi. Bakı,1994.
8. Azərbaycan folkloru antologiyası. İraq-türkman cildi, II, Bakı, 1999.
9. Bu sevda ölüncədi. Bakı, 2001.

10. Bax: **S.M.Mollazadə.** Kərkük dilində mənsubiyyət kateqoriyasının ifadəsi. Filoloji araşdırmalar. Bakı, 2000, s.3-8; **Ş.Kərimov**. Kərkük folklorunun bəzi dil xüsusiyyətləri. Filologiya məsələləri: nəzəriyyə və metodika, III buraxılış, Bakı,1995; **yenə onun:** Kərkük folklorunda arxaik fellərin mənaca genişlənməsi. Loqos, Bakı,1997; Kərkük folklorunda antonimlər. – Filologiya məsələləri: nəzəriyyə və metodika,VII buraxılış, Bakı,1996; Kərkük folklorunda ismin üslubi-semantik təkamülü. Texniki konfransın materialları, Bakı,1998; Kərkük folklorunda termin səciyyəsi daşımayan sözlər. Elmi axtarışlar,1 toplu, Dil, tarix, incəsənət, Bakı, 2000; Füzuli dilinin folklor qaynağı. (M.Hüseynovla), Tədqiqlər, Bakı,1998; Kərkük folklorunun lüğət tərkibi haqqında. Filoloji araşdırmalar. Bakı, 2000; **Sefi Behbudov.** Kərkük dialektində felin əmr şəklinin ifadəsi. Tədqiqlər, Bakı,2002,s.95-96 və s.

11. Fazil Hüseyn.Mosul problemi, Bağdad, 1955.

12. E.Əzizov.Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı, 1999.

TƏDQİQİ MÜMKÜN OLMAYAN ŞİVƏLƏRİN TƏDQİQİ

Azərbaycan dilinin Çəmbərək və Karvansaray şivələri

Taleyin qismətidir ki, Şövkət müəllim o yerlərdə doğulub. Doğulub və göz açıb o insanları, o yerləri, o şivələri gözləyən təhlükəni görüb, kənd-kənd, oba-oba, oymaq-oymaq gəzərək gördüklərini qələmə alıb. Nəsimi adına Dilçilik İnstitutu qayğı göstərib, akademik M.Ş.Şirəliyev mövzunun dəyərini qiymətləndirib, rəhbərlik

və kömək edib. Nəticədə qiymətli bir əsər meydana çıxıb – indi mümkünsüz olan vaxtında mümkün olub.

Şövkət müəllim əsərdə indiki zamanın dili ilə danışır, o yerlərin gördüyü, müşahidə etdiyi qədim sakinlərini, həmvətənlərini, onların danışıq tərzini təsvir edir. Lakin indi o yerlərdə nə o insanlar var, nə də onların canlı və qədim oğuz ləhcəsinin sədaları eşidilir.

Yalnız həqiqi vətən sevgisi onların doğma səsini qeydə alıb sonrakı nəsillərə çatdırmaq gücünə malik olmuşdur.

Tədqiq olunan şivələr xalqın Çəmbərək və Karvansaray, ermənilərin İcevan və Krasnoselo adlandırdıqları rayonların ərazilərində yaşamış insanların şivələridir. Ötən əsrin 89-cu ilinə qədər bu insanlar neçə minillik öz dədə-baba yurdlarında yaşayıb-yaradır, əkib-biçirdilər. İndi o torpaqlar mənhus qonşularımızın tapdağına çevrilib, vətən övladlarının üzünə həsrətdir. Beynəlxalq irticanın zorakılıq qolu çox güclüdür.

Şövkət Kərimov ömrünün 60 ildən çoxunu bu ərazinin havasında nəfəs alıb, öyrəndiyi insanlarla birgə ömür sürüb. Mövzu üzərində 60-cı illərdə işləyib (1972-ci ildə bu mövzuda namizədlik dissertasiyası müdafiə edib), Ünsiyyətə girdiyi adamların nitq xüsusiyyətlərinə həddsiz dərəcədə bələd olduğundan bir ziyalı, bir alim kimi, torpaqların zəhmətsevər bir övladı kimi, şivələri o qədər dərindən vərəqləyib ki, elə bil, onların tomoqrafını çəkməyə çalışıb. O qədər maraqlı xüsusiyyətlər var ki, düşünürsən ki, yerli əhali sonralar bu yerlərə ayaq basan ermənilərin düşüncələrindəki sinizmə baxmayaraq, öz dədə-baba nitq üslubunu arxayın-arxayın, heç bir şeydən pəysinmədən qoruyurmuş. Sözlər arasında əlaqə nəticəsində yaranan fonetik dəyişmələr, səsdüşümü, səsartımı, metateza, uyuşma halları yalnız şivələrlə ədəbi dilin fərqlərini deyil, dildə sözün inkişaf yolunu, sözün fonetik quruluşunun göz önündə necə dəyişdiyini öyrənmək və ümumiləşdirmək üçün də geniş material verir.

Ş.Kərimov 1964-1968-ci illərin Çəmbərəyi, bu illərin Karvansarayı ərazilərində yerləşən 18 kənddən material toplamışdır. Bu 18 kəndin şivələrini fonetik, leksik və qrammatik xüsusiyyətlərinin yaxınlığına görə ümumiləşdirərək Qaraqoyunlu, Göyçə və Ayrım şivələri kimi üç qrupa ayırmışdır. Əsərlə tanışlıq göstərir ki,

bu ərazilərdə yaşayan insanların nitqi həqiqi mənada bir sıra xüsusiyyətləri ilə fərqlənmişdir. Qaraqoyunlu şivələrində müşahidə olunan dişarası ***z (d)*** səsi, sifətin azaltma dərəcəsinin ***-rınqı (-ırınqı)*** şəkilçisi, Göyçə şivələrində sağır ***n***-in güclü mövqeyi, əmr şəklinin 2-ci şəxs təkində qədim ***-ayın, -ağın*** şəkilçisinin işlənməsi, xəbər şəklinin indiki zamanının 2-ci şəxs təkdə ***-an*** (***alır-an***) şəkilçisi, Ayrım şivələrində 1-ci şəxs cəmdə ***-ax*** xəbərlik şəkilçisinin (***alır-ax***), 2-ci şəxs cəmdə ***-sanız*** şəkilçisinin (***alır-sanız***) işlənməsi, nəqli keçmişin 1-ci və 2-ci şəxslərin təkində şəxs şəkilçisinin qapalı saitli olması (***almış-ım, alıf-sın***)... dil tarixi üçün maraqlı faktlardır və əhali quş kimi öz yuvasından uçurulsa da, bunların vaxtında qeydə alınması gələcək tədqiqatlar üçün geniş material verəcəkdir. Təbii ki, doğma yurdundan didərgin düşən və hərəsi bir diyarda, bir mühitdə yaşayan, xüsusilə dağınıq şəhər mühitində yaşayan insanlardan bu cür faktlar toplamaq çətin olardı. Açıq saitlər əvəzinə qapalı saitlərin işlənməsi «Dədə Qorqud»u və daha qədim dövrləri yada salır. Çox qəribədir ki, qapalı saitlilik sözdə hər bir mövqedə özünü göstərir: söz əvvəlində – ***incil, ilac, uyax, uğuz (oğuz), uanda (o yanda);*** söz ortasında – ***şikil, yihər, zincir, zuğ (zoğ), quala (qovala), yıxalamax (yaxalamaq), cıvan (cavan), çırpışmax (çarpışmaq), yu(v)aş, yu(v)an, Gühər (Gövhər), güərmək;*** söz sonunda – ***mığmığı, Ağabalı, falaqqı*** və s. Bunlar o deməkdir ki, bəzi dilçilərin Quba dialektindən danışarkən ləzgi dilinin təsiri ilə bağlamağa çalışdığı bu xüsusiyyət ləzgi dilindən uzaq olan bu ərazi şivələrinin təsdiq etdiyi kimi, ləzgi dil əlaməti deyil, türk dillərinin qədim tarixindən gələn canlı izlərdir. ***Zükut – sükut, zərraf – sərraf, zoncuxlamax – soncuxlamaq*** kimi səs keçidlərinin türk tayfa dillərində neçə minillik tarixi vardır – Manna dövründə ***Saqarti – Zikurtu*** vilayət adında olduğu kimi. ***D>t*** tipli əvəzlənmələr (***tüşməx, tufar, tüşüncə, tişi*** və s.) indi «**d**» ilə başlanan bir çox sözlərdə «Dədə Qorqud»da da belədir. ***Bağman*** (bağban), ***eyməcər*** (eybəcər), ***balaman*** (balaban) tipli sözlərdə ***b>m*** keçidi bu xüsusiyyətin təsadüfi olmadığını, sözlərin ortasında da özünü göstərən sistemli tayfa dil əlamətləri olduğunu sübut edir. Sözlərin ortasına heç bir zərurət olmadan ***r, t, l*** samitlərinin artımı (***gorvut – gobud, mırtıx – mırıx; ulalmax – ulamaq, çəlpinə – çəpinə; başqaltı – başaltı*** və s.) göstərir ki, sözün fonetik qurulu-

şunun genişlənməsi bir çox hallarda mənalı morfemlər hesabına deyil, tələffüz vərdişləri ilə də bağlıdır. ***Yoxsam, hələm, bəlkəm, dəfəm*** tipli sözlərdə son ***m*** səsi də bu qəbildəndir. ***Yanıncax, ermənicəx`, kəsdikcəx`*** tipli sözlərdə son ***x, x`, gəldikcən, verdikcən*** sözlərində son ***n***, ***xahişd, noxsand*** sözlərində son ***d*** səsi də belədir. Hiss olunur ki, bunlar başqa səslərin interferesiyası nəticəsidir. Sözlərin ilk səslərinin düşümü – ***örüx`, örməx`, örümçəx`, örgü, ohalamax; umax, umuşax, oxarı, uxa,*** yaxud söz daxilində səs düşümü – ***oxantı*** (ovxantı), ***qaçı*** (qayçı), ***qurux*** (quyruq), heca düşümü – ***gətdi*** (gətirdi), ***qardalı*** (qarğıdalı) halları bir daha təsdiq edir ki, vahid dövlətin olmadığı, vahid təsərrüfat, iqtisadiyyat və əlaqələrin zəif olduğu, məktəbin, maarifin hamıya müyəssər olmadığı min illər ərzində dilin təbii, natural inkişafı prosesində sözlərin fonetik qabığının dəyişməsində fonetik hadisələr çox böyük rola malik olur. ***Alfatın – Əflatun, bayda – badya, yalnış – yanlış, zıpır – zırpı, dorğa – doğra, arğımax – ağrımaq, xarmalı – xamralı, yamşax – yaşmaq, həməccər – məhəccər, xosulmax – soxulmax, xuncur – xurcun, fəsarət – fərasət, təlpəx` – pəltək, arcıd -ardıc, Məhalət*** – Məlahət... kimi çoxsaylı sözlərdə metatezanın rolu sözün tarixi inkişafında səslərin yerdəyişməsinin əhəmiyyətini xüsusi qiymətləndirməyi tələb edir.

Şivələrdə yalnız damaq ahəngi deyil, dodaq ahəngi də güclü olmuşdur. Vurğunun çoxhecalı sözlərdə çox zamani ilk hecaya düşməsi də qədimlik, ilkinlik əlamətlərindəndir. Bu şivələrdə hətta arxa sıra qalın ***ı*** saiti də söz başında möhkəmdir: ***ıldırım, ıldız, ışıltı, ılıx, ırızqı*** (ərzaq), ***ılxı*** və s. ***Bu*** sözündə ***b>m*** əvəzlənməsi (***munun, muna, munu, munda, munnan***) karluk tayfa dil xüsusiyyəti kimi başqa şivələrimizdə də geniş yayılmışdır.

Şivələrin morfoloji quruluşunun tədqiqi dilimizin tarixi ilə bağlı maraqlı xüsusiyyətlər üzə çıxarır. Qeyri-qəti gələcək zamanın inkarının 1-ci şəxs təkindən danışarkən müəllif yazır: «Azərbaycan dili dialekt və şivələrinin tədqiqi göstərir ki, ***-manam, -mənəm*** forması hələ də müəyyən dialekt və şivələrimizdə işlənməkdədir. Lakin Ağbulaq kəndində səciyyəvi bir şəkilçi kimi işlənən ***-mam, -məm*** forması hələlik başqa dialekt və şivələrimizdə müşahidə olunmamışdır». Əsərdə nitq hissələrinin hər birinin morfoloji quruluşundan ayrıca bəhs edilmiş, sözdüzəldicilik vasitələri, sözlə-

rin mürəkkəbləşmə üsulları barədə xüsusi məlumat verilmişdir. Müəyyən edilən morfoloji göstəricilər – sözdüzəldici şəkilçilər ədəbi dilimizdəki şəkilçilərin variantları ilə yanaşı, ilkin və ya qədim qrammatik semantikası barədə də fikrimizi genişləndirir. ***Yatalğa*** (gecələmək yeri), ***qaçalğa*** (qaçıb dayanmaq yeri), ***duralğa*** (durmaq yeri), ***düşəlyə*** (gəlir, mədaxil), ***görəlyə*** (gəlini görmək üçün düzəldilmiş məclis), ***könəlyə*** (yığıncaq) sözlərində əksərən feldən isim düzəldən ***-alğa,*** ***-əlyə*** şəkilçisinin, deyəsən, ədəbi dilimizdə heç prototipi də yoxdur; ***-anaq, -ənək*** şəkilçisi indi nisbətən o qədər də məhsuldar deyildir, lakin qeyd edilən şivələrdəki ***bərkənəx`*** (bərk yer), ***əkənəx`*** (əkin yeri), ***əsənəx`*** (xəstəlik adı), ***görənəx`*** (dəcəl uşaq) kimi sözlər göstərir ki, bu cür şəkilçilərin bir vaxtlar işlənmə imkanları geniş olmuşdur. Yaxud: ***tıxlamac*** (çoxlu çörək doğranmış xörək), ***burmanc*** (buruq toğlu), ***addamaş*** (kiçik körpü), ***tırtdamac*** (qatı xörək) sözlərində ***-mac*** şəkilçisinin; ***əydi*** (ağacdan qaşıq hazırlamaq üçün alət), ***düydü*** (yaylıq) kimi sözlərdə ***-dı*** şəkilçisinin; ***suat*** (su götürülən yer), ***yuat*** (sürünü çimizdirmək üçün göl) kimi sözlərdə ***-at*** şəkilçisinin fəallığı maraq doğurur. Bu cür şəkilçilərin qeydə alınması istiqamətində görülmüş işlər çox faydalıdır.

Ş.Kərimov sözün quruluşundan danışarkən verdiyi nümunə-misalların özləri də şivə leksikasını öyrənmək üçün maraqlı materialdır: ***cəhrəpəri*** (ağac növü), ***qoyungözü*** (naxış), ***qoyunqulağı*** (ot növü), ***çilix`burnu*** (ot növü), ***əbbəx`şorvası*** (duru xörək), ***doşanalması*** (xırda kol), ***pişix`cıynağı*** (bitki), ***itağacı*** (ağac növü) və s. mürəkkəb sözlər yanaşma-uzlaşma əlaqəli birləşmə modelinin mürəkkəb söz yaradıcılığı üçün şivələrdə geniş imkanlar yaratdığını göstərir. ***Motmotu*** (bitki), ***maşmaşı*** (ot növü), ***mığmığı*** (ağcaqanad) kimi tərəfləri ayrılıqda məna verməyən sözlərin necə yarandığı da düşündürücüdür.

Ayrım şivələrində 1 və 2-ci şəxslərin cəmini bildirən xəbərlik şəkilçilərinin açıq saitli olması (1-ci şəxs cəmdə ***-ax,-əx`, –adamax, insanax, oyçuyax, tütünçüyəx`***; 2-ci şəxs cəmdə ***-san,ız, -sən,iz – qonşusan,ız, səbirsizsən,iz)*** həmin şivələri tədqiq olunan digər şivələrdən daha çox fərqləndirir. İşarə əvəzliklərinin ***otana, butana, odrana, budrana, odra*** şəkillərində işlənməsi, görünür, cümlənin ilkin polipredikativ inkişaf dövrünün qalıqlarıdır. Azərbaycan

dilinin ədəbi qolunda çoxdan sıradan çıxdığı halda, bu şivələrdə hələ də ***kəndi*** əvəzliyinə təsadüf edilmişdir. Lakin yalnız qocaların dilində müşahidə edilməsi bu sözün şivələrdə də məhdudlaşdığına dəlalət edir. ***Həncəri, həsi, nağartana*** kimi sual əvəzlikləri şivələrin ədəbi dil təsirindən uzaq düşdüyünü düşünməyə əsas verir; «bir kimsə», «bir adam» mənasında ***kimsənə*** əvəzliyi «Dədə Qorqud»dan bu yana xalq dilində, onun şivələrində yaşamaqdadır. ***Dalamırtdanmax*** (nahar etmək), ***sumbatdanmax*** (yaxşılaşmaq, gözəlləşmək), ***xüdüx `lənməx`*** (meyillənmək), ***qaralanmax*** (fikirləşmək), ***qurğazdanmax*** (azca qurumaq), ***boğazdaşmax*** (mübahisə aparmaq), ***əyaxlaşmax*** (sağalmaq, yaxşılaşmaq), ***yollaşmax*** (razılaşmaq) tipli fellərin hamısı təbii yolla – ***-la+-n, -la+-ş*** şəkilçilərinin adlara artırılması ilə düzəlib və hər birində ilkin məna ilə əlaqə işartıları yenə qalmaqdadır. Hətta bir çoxu fərqli mənalarda ədəbi dildə də işlənir. ***Cilməx`*** (çalmaq – oğurlamaq) feli nə qədər dəyişikliyə uğrasa da, yenə əslindən tam uzaqlaşmayıb. Qəribədir ki, «oğurlamaq» mənasında ***cilməx`*** feli ilə yanaşı, şivələrdə ot biçmək, yaylıq ilə başı bağlamaq, süpürmək, ağaca mismar vurmaq və nəhayət, oğurlamaq mənasında ***çalmaq*** feli də vardır. Hələ də bu şivələrdə ***qarala qalmax*** (qaralaraq qalmaq), ***qurula qalmax*** (qurularaq, nizamlanaraq qalmaq), ***səvərə yatmax*** (uzanıb yatmaq) kimi birləşmələrin birinci komponentində qədim ***-a,-ə*** feli bağlama şəkilçisi qalmaqdadır. «Dədə Qorqud» ənənələri ilə ***üz üzdəməx`, ot otdamax, dən dənnəməx`, saf saflamax*** (balta, bel saplamaq), ***qar qarramax, yağ yağlamax, xotma xotmalamax*** (kiçik ot tayası düzəltmək) kimi saysız daxili obyektli fellər işlənməkdədir; bunların ***biçin biçməx`, qorux qorumax, əkin əkməx`*** tipi də vardır. Əmr şəkli birinci şəxs təkin ***gəle:m, gede:m, görö:m*** şəklində işlənməsi bir sıra yerli tayfaların qədim osmanlı tayfaları ilə bir kökdən olduğunu güman etməyə əsas verir. Tarixən o ərazilərdən bu yerlərə köçürmələr olmuşdur. Ayrım şivəsində və Haqqıxlı kəndində indiki zaman şəkilçilərinin ***e:r, o:r, ö:r*** şəkillərində işlənməsi də eyni izlərlə bağlıdır. Mürəkkəb zərflərin sözün təkrarı ilə yaranan forması – ***korun-korun*** (az-az), ***əfil-əfil*** (tez-tez), ***qırt-qırt*** (hissə-hissə), ***mısdır-mısdır*** (lovğa-lovğa) və s. kəmiyyəti, əlaməti artırmağın, çoxaltmağın çox qədim üsuludur. Şivələrdə səciyyəvi köməkçi nitq hissələri vardır. Məsələn, nümunələrdən aydın olur

ki, ***həngi*** sözü «kimi» qoşması məqamında (***Əhməd həngi, Telli həngi, mən həngi)*** işlək olmuşdur. Hətta bu şivələrdə ***ki*** bağlayıcısı ***kın, kin, kun, kün*** şəklində ahəngə də uyğunlaşırmış. Bu bağlayıcının ***kına, kinə, kuna, künə*** forması da diqqəti cəlb edir. Şivələrdə maraqlı bir ədat – ***qa*** ədatı müşahidə edilmişdir – müəllifin fikrincə, ***-mı*** ədatının sinonimidir və kinayə məqsədilə işlədilir: *Hər afdoya ot gətiməə onca manat* ***verdişqa?*** (Yəni: Hər maşina ot gətirmək üçün on manat verdinmi – verməli oldunmu?) Fikrimizcə, bu ***qa*** sonrakı dövrdəki ***hə*** ədatıdır, çox qədim formadır, hələ Füzuli dövründəki formasını saxlamışdır. ***Oruc biçibbi taxılı?*** – cümləsindən göründüyü kimi, dilin inkişafında əks proseslər baş verə bilir: adətən, ***b*** samiti ***m***-ə keçdiyi haldı, burada ***m>b*** keçidi vardır.

Ş.Kərimov sözlərin canlı şivə nitqində necə birləşdiyini şərti işarələrin köməyi ilə ustalıqla əks etdirə bilmişdir: ***yağannığ olduğunö:rə, qoyun sağmağe:tdilər, bö:ynnəri, gedirdix` köme:ləməyə, bizə:ldi.*** Sürətli nitq prosesində sözlər birləşərkən müxtəlif səslərin düşümü tarixən etimoloji izahı çətin olan çoxhecalı sözlərin yaranma mənbəyi olmuşdur. Min illər proses bu cür getmişdir.

Şivələr çox qədim sintaktik əlaqə formalarını da saxlamışdır. Bir sıra fellərin yerlik hal əvəzinə yönlük halı (*Keçən ilin* ***yazına getdix`***), təsirlik hal əvəzinə yönlük halı (***Cijimə çağırdım*** *kin…*), yerlik hal əvəzinə təsirlik halı (***Payızı*** *dırmadırış* ***yığırax***) tələb etməsinin neçə min illik tarixi vardır. Təyinin təyinlənəndən sonra işlənməsi halları da (*Hürü* ***yazıx,*** *Əli* ***yekəlməmiş***) Hind-Avropa dilləri üçün səciyyəvi sayılsa da, keçən əsrlərə qədər dilimizdə fəal olmuşdur. ***İl on iki ayda*** (ilin on iki ayında) tipli birləşmələrdən görünür ki, bu şivələr ən qədim analitik formaları da mühafizə etmişdir. Aşkar üçüncü növ ismi birləşmə kimi təsəvvür olunan birləşmələrin birinci tərəfinin şəkilçisiz işlənməsi əvvəlkindən bir qədər sintetikdir: ***Qoyunnar beşi*** *də doğuf.* ***Uşaxlar üçü*** *də bizə:ldi.* ***Ya – ya*** bağlayıcısı bu şivələrdə ***ye – ye*** şəklinə düşür: *Sana* ***ye*** *mən köme:liyəjəm,* ***ye*** *Hasanalı.* ***Gah*** bağlayıcısı məqamında ***ara*** sözünün işlənməsi: ***Ara*** *çən yerə çökür,* ***ara*** *gün düşür…* Mürəkkəb cümlə komponentlərinin daha çox intonasiya ilə əlaqələnməsi, şərt budaq cümləsinin asindetik tipinin işləkliyi – bütün bunlar eyni mənbə ilə – qədimlik və xalq dili ilə bağlıdır.

Ş.Kərimov leksika məsələlərini şivələrin lüğət tərkibinə daxil olan nadir sözlərin təsviri ilə məhdudlaşdırmamış, tayfa adları, köhnə çəki, ölçü, zaman məfhumları, köhnə vergi, vəzifə və rütbə bildirən sözlər, termin səciyyəli sözlər, kənd təsərrüfatı alətləri və onların hissələrinin adları, maldarlıq terminləri, arıçılıq, toxuculuq, xörək, çörək növləri, geyim və bəzək şeyləri, xəstəlik növləri, quş, it, ağac, meyvə, ev əşyaları adları və s. kimi müxtəlif qruplara ayırmış, bu qruplar haqqında məlumat vermiş və şivə leksikasının indi artıq unudulmaqda olan böyük bir layını mühafizə edib saxlaya bilmişdir. Müəllifin topladığı materialdan aydın olur ki, ***tirə, coyğa, son, toxum, basalax, kəryə, ələmə*** (törəmə), ***baldırbayı*** (övlad) sözlərindən tayfa, nəsil, törəmə bildirmək üçün geniş istifadə edən Çənbərək və Karvansaray əhalisi kəndlərin daxili tirələrini də daim hesaba almışlar. Təkcə Gölkənd kəndində ***Cıvıxlı, Gödəlli, Zeynallı, Pirilər, Pəmbəx`li, Malxarrı, Tağlar, Qıcırrı, Qojalar, Perənni, Zəryarrı, Vələnni, Noyruzlu, Nağlar, Zağarrı, Pontallar, Avışdı, Qahrılar, Kazımlı, Fışqarrı, Qəşədərri*** kimi tirə adları bir kökdən olan əhalinin tədricən tirələrlə necə parçalandığını, artıb çoxaldığını təsəvvür etməyə imkan verir. Türk elləri tarixən bu cür çoxalmışdır. Tayfa adları içərisində ***Qaramannı, Ayrımlar, Qələndərri, Mancannı, Koruşdu, Ozannı, Kələşdi, Qoturru, Girdivan*** və s. qədim tayfa və yer adları ilə bağlı toponimlər vardır.

Biz əsərdə şivələrdəki səciyyəvi qadın və kişi adlarının tipik nümunələri ilə də tanış oluruq. Bu şivələrdə ***Şəmən, Aşa, Narın, Qutu, Tulum, Otyığan, Comuşsağan, Yolçu, Malçı, Dölçü, Binəçi, Arançı, Danaçı, İlxıçı, Yığan, Qaytaran, Oynaqan, Anası, Qarası, Maması, Vəlçə, Alaşqa, Çaylar, Xuvlar, Ovlar*** kimi çox maraqlı insan adları vardır. Müəllif bunların ləqəb olmadığını göstərir, lakin hiss olunur ki, bunların çoxu ləqəblər əsasında əmələ gəlmişdir. Azərbaycanın başqa kəndləri kimi, bu kəndlərin camaatı da qəribə ayamalar qoymaqdan ləzzət alırmış: ***Ölü Qurvan, Qırt-qırt Tamam, Dıdı Şəmşi, Dındılı Xasməmmət, Zağar Səmət, Mantyor Qara, Qarağat Yedyar, Pişix` Avdılla, Bəki Alı, Doşan İrvahım, Pasdoy Mübariz, Amanoy Nəsif...***

Hazırkı gənc nəslin bilmədiyi, əhalinin əsrlər boyu işlətdiyi: ***batman*** (8 kq), ***girvənkə*** (400 qr.), ***tağar*** (25 pud), ***çanax*** (8 kq.),

uruf (200 qr.), ***xalvar*** (25 pud), ***misqal*** (4 qr.), ***isdil*** (300 qr.), ***çərəx`*** (2 kq.), ***pud*** (16 kq.), ***tutam*** (bir qarış) çəki, ölçü adları; ***quyrux doğan ay, qora bişirən ay, maral böyürən ay, elbaşı qayıdan ay, oylax qıran ay, comuş qıran ay, döl ayı*** və s. kimi etnoqrafik zaman adları insanların hər şeyi necə misqal-misqal, zamanı əkin-biçinə, maldarlığa uyğun şəkildə necə dəqiq böldüyünə heyrət doğurur. Kotan, xış və onların hissələrinin adları, xırman və xırmanla bağlı sözlər, araba, boyunduruq, təkər və onların hissələrinin adları, əkin sahələri ilə bağlı sözlər, tütünçülük leksikası, zəngin maldarlıq, bağçılıq, arıçılıq, toxuculuq terminləri… – bütün bunlar müəllifin o vaxtkı zəhmətinin bəhrəsi olub şivə əhalisinin etnoqrafik leksikasının unudulmaqda olan qatlarını əhatə edir. Keçmişi öyrənmək istəyən gələcək nəslə bunların böyük köməyi olacaqdır.

Əsərdə sözün semantik cəhəti – şivə leksikasının sinonim, omonim və antonimliyi haqqında məlumat verilmiş, şivə sözlərinin omonimliyi lüğətdə xüsusi əks olunmuşdur.

Ş.Kərimov zəhmətə qatlaşaraq, xeyli folklor materialı – atalar sözləri, tapmacalar, nağıllar, bayatılar, söhbətlər, uşaq mahnıları toplamışdır. Bunlar müəllifin ümumiləşdirdiyi və nəticə çıxardığı fikirləri əsaslandırmaq üçün etibarlı mənbədir.

Əsər şivələrdə işlənən səciyyəvi sözlərin lüğəti ilə tamamlanır. Hər bir söz nümunə-cümlə içərisində verilmişdir. Bunlar sözün mənşəyini və mənasını daha düzgün başa düşməyə imkan yaradır. Məsələn, ***ağartmaq*** sözü ədəbi dilimizdəki açıb-ağartmaq ifadəsindən fərqli olaraq, heç bir mənfi çalara malik olmadan bilavasitə «bildirmək», «söyləmək» mənasını ifadə edir; ***ajımax*** (acımaq) adətən birinin halına acımaq, yazığı gəlmək mənasını bildirir, şivələrdə «acığı tutmaq» mənasındadır; ***atmacalamax*** – atmacalı sözlər deməkdir, şivələrdə «dağıtmaq», «paltarını yırtmaq» mənasındadır. Eləcə də: ***bozarmaq*** – böyümək, ***bozdamax*** – qorxutmaq, ***vasqılamax*** – özünü səliqəyə salmaq, ***vıjımax*** – cəld getmək, ***qımılmax*** – gizlicə qaçmaq, ***qonqumax*** – oturmaq, ***daylaxlamax*** – qaçmaq, ***əvdiməx`*** – yemək, ***yabban*** – alçaq, ***yoncumax*** – yalvarmaq, ***gilif*** – baca, ***mejdin*** – fərsiz, ***muzu*** – xəsis, ***on,almax*** – sağalmaq, yaxşılaşmaq, ***ön,ür*** – yaxa, ***sarma*** – gərmə, ***tejannamax*** – böyümək, genəlmək, ***çöz*** – bağırsaq, ***çözüməx`*** – ərimək, ***cürüm*** – bir parça, ***şöhləməx`*** – kəsmək… mənalarındadır. Burada hər mənbə-

dən hər cür söz vardır və bunların hamısını izah etmək mümkündür: ***bozdamax*** – «Dədə Qorqud»dan gələn sözdür: ağlamaq, bozlamaq mənasında; söz qəfil haray-həşir salmaqla qarşıdakını qorxutmaq mənası qazanmışdır; ***vasqılamaq*** – rus dilindən alınmış ***vaksa*** (çəkmə yağı) sözündəndir: çəkməsini silmək, təmizləmək, yağlamaq mənasından bütövlükdə özünü səliqəyə salmaq mənasına keçmişdir; ***vıjımax*** – təqlidi sözdəndir, vıjıltı ilə getmək, qaçmaq mənasındadır; ***qımılmax*** – çox yavaş tərpənmək mənasında *qımıldamaq* sözü ilə bir kökdəndir; ***qonqumaq*** – «Dədə Qorqud»dakı «qonmaq» (oturmaq, sakin olmaq) sözündəndir; ***daylaxlamax*** – dəvə balası kimi götürülmək, qaçmaq; ***əvdiməx`*** – birbir yığmaq mənasındadır, şivədə yeməyin hamısını bir-bir yemək mənası verir; ***yabban*** – arxaik «yaban» sözüdür («Dədə Qorqud»dakı «yazıda, yabanda» sözləri); ***yoncumax*** – yön çevirmək, acizanə müraciət etmək (Qurbanidə); ***kağan*** – koğ (əyri) sözü ilə bağlı olmalıdır; ***gilif – ki/qu*** sözündəndir, çuxur yer, quyu deməkdir; ***mejdin*** – məcnun sözüdür, dəli, avara; ***muzu*** – mızı, xırdaçı mənasındadır; ***on,almax – «***Dədə Qorqud»dakı ***on,maq, on,əlmək*** (yaxşılaşmaq, sağalmaq) sözüdür; ***ön,ür – ön, yaxa*** sözündəndir; ***sarma*** – *sərmək* felindən sərilən, qurudulan deməkdir; ***tejannamax*** – genəlmək deməkdir, qoyun qarnından olan və asanlıqla genələn yağ, pendir, motal qabları ilə müqayisə əsasında yaranmışdır; *çöz* sözü acı bağırsağın çözülməsi ilə bağlıdır, ***çözüməx*** sözü də eyni kökdən olub çözülüb qurtarmaq, ərimək mənası almışdır; ***cürüm*** (Qarabağ şivələrində ***cırım***) «cırmaq» felindəndir, cırılmış, kəsilmiş kiçik bir parça; ***şöhləmək*** – şaxlamaq, şax-budağı doğramaq mənasındadır.

Bu sözlər sırasında ***Karvansaray*** və ***Çəmbərəx`*** toponimlərini də araşdırmaq olar. ***Karvansaray*** sözünün mənası məlumdur: «karvan saxlanan yer, bina, tikili» deməkdir. ***Çəmbərəx`*** sözünün müxtəlif yozumları vardır. B.Budaqov və Q.Qeybullayev «dağ döşündə hamar yer» mənasında (*çəmbərə* şəklində) izah etmişlər. (1;420) Lakin heç şübhəsiz, şivələrin özündə işlənən ***çəmbərə*** sözü ilə bağlıdır. Müəllifin öz lüğətində bu sözə iki dəfə rast gəlmək olur: ***çəmbərə*** – içərisinə qatıq yığılan tuluğun ağzına tikilən dairəvi çubuq; ***kağan*** – boyunduruğu arabaya bağlamaq üçün gəndən hazırlanmış ***çəmbərə***. ***Çəmbər (çənbər)*** sözü klassik ədəbiyya-

tımızda fars dilindəki ***çərx*** sözü ilə birlikdə ***çərxi-çənbər*** şəklində, «dairəvi səma» mənasında işlənmişdir. Şivələrdən verdiyimiz həmin misallar da göstərir ki, ***çəmbərə*** dairəvilik bildirən addır. Müəllifin dediyinə görə, Çəmbərək ərazisi qövsvarı yerləşməsi ilə seçilən bir ərazidir.

Bəlkə də, dumanın, çənin daha tez bürüdüyü yer, çən bərəsidir bu yerlər. Sözün sonundakı ***x`*** bu şivələrin səciyyəvi səsartımı hallarındandır.

Kənd adlarına diqqət yetirək: ***Göyçə, Şorca, Toxluca, Cil, Ayıbulax*** (Göyçə şivələri); ***Qaraqoyunlu, Cıvıxlı, Gölkənd, Çaykənd, Qaraqaya, Yanıxpəyə*** (Qaraqoyunlu şivələri); ***Polad, Alaçıqqaya, Haqqıxlı*** (Ayrım şivələri) və s. Bu toponimlərin türk mənşəli olduğunu izah etməyə ehtiyac yoxdur. Bunlar əksəriyyət etibarilə etimologiyası göz önündə olan kənd adlarıdır. Etnoqrafik cəhətdən öyrənmək olar ki, nə münasibətlə yaranmışlar, lakin dilçilik baxımından axtarışlara o qədər də güc tələb olunmur. Bir qədər Göyçə dairəsindəki ***Ardanış,*** Qaraqoyunlu ərazisindəki ***Əmirxeyir, Bəryabad, Salah,*** Ayrım dairəsində ***Ağkilsə*** kənd adları barədə düşünmək olar. ***Salah*** – xüsusi addır və bu adla ölkəmizin ərazisində Salahlı kəndləri var. Toponimin qazax türk tayfasına məxsus salahlı etnonimindən yarandığı qeyd edilir.(2;505) ***Əmirxeyir*** toponiminin də birinci komponenti ***Əmir*** xüsusi addan ibarətdir; ikinci komponent isə türkcə «vadinin suvarılan hissəsi» mənasında ***kair*** sözü ilə əlaqələndirilir. (1;253) Başqa bir fikrə görə, ikinci komponentdə «sıldırım qaya» mənasında ***kayır, kair*** kökü vardır. (2;316)

Hər halda, sıldırım qaya yox, Əmirə suvarılan sahə məxsus olardı. ***Ağkilsə*** xristianlığın Ermənistan və Gürcüstandan daha tez yayıldığı Albaniya ərazisindəki kilsə ətrafında salınmış kəndin adıdır və bunun katolik erməni kilsəsi ilə heç bir əlaqəsi yoxdur.

Kənd adları içərisində ***Ardanış*** toponimi daha maraqlıdır. 1728-ci ilə aid mənbədə ***Ardaniç*** kimi qeydə alınmışdır.(3;17, 1;126) Etimologiyası haqqında müxtəlif fikirlər vardır. Bir fikrə görə, «dağ», «dağlıq», «dağ kəndi» mənasında ***art*** sözündən, məkan bildirən ***-an*** və sözdüzəldici ***-ış*** şəkilçisindən ibarətdir.(2,73) B.Budaqov və Q.Qeybullayev isə əhali ilə birlikdə Türkiyə ərazisindən gətirilmə ad olduğunu (Ərzrum və Batum əyalətlərində də

Ardanuç adlı kəndlər vardır) qeyd etmiş, mənasını dəqiqləşdirmək mümkün olmasa da, iki fərziyyə söyləmişlər. Bir fərziyyəyə görə, İran dillərindəki ***arta/arda*** - «müqəddəs» sözü ilə bağlı ola bilər. ***Arta/arda*** sözü «pozulmaq», «pisləşmək» mənasında qədim türk lüğətində də vardır.(4;56)

Fikrimizcə, müəlliflərin sonrakı yozumu daha ağlabatandır: ***art*** – türk dillərində «dağ», «dağ keçidi», «aşırım», ***anış*** – «eniş» sözüdür (1;126) – ümumi mənası «dağ enişi», «dağ ətəyi» deməkdir.

Cıvıxlı toponiminin əsli ***cibikli*** (başqa adı ***Çinarlu***) hesab olunur və ***cibikli*** türk tayfa adını yaşatdığı göstərilir. (1;431–433) ***Çubuxlu*** etnoniminin şivə variantı hesab olunur.(2; 635–636)

Gölkənd sözünü yerli əhali kəndin ərazisində göllərin çoxluğu ilə izah edir. Toponim qədim qul tayfa adı ilə də əlaqələndirilmişdir (Qulkənd). (1; 323) İrəvan əyalətinin Novobayazid və Şirakel nahiyələrində ***Gölkənd*** adlı kəndlərin olması da bu fikrin ağlabatan olduğunu göstərir.

Göyçə toponimi, şübhəsiz, Göyçə gölünün adındandır. Göyçə gölünə isə bu ad suyunun mavi rəngə çalması ilə əlaqədar verilmişdir. ***Şorca*** toponimi «şor yer» mənasındadır. ***Ağbulaq*** sözü «içməyə yararlı su» mənasında *ağ* sözü ilə *bulaq* sözündəndir. (1;104; 2,27)

Toxluca kənd adının əsli *Tukluca* hesab olunur və qıpçaqların ***tuk*** tayfasının adını yaşatdığı göstərilir. (1;390)

Qaraqoyunlu toponiminin Qaraqoyunlu türk tayfa birləşməsinin və birləşmənin yaratdığı dövlətin (1410–1468) adını əks etdirdiyinə heç bir şübhə yoxdur. ***Bəryabad*** toponimini isə B.Budaqov və Q.Qeybullayev monqolca ***bayri*** – «düşərgə» və ***abad*** – «kənd» sözlərinə ayırmışlar.(1;156)

Qaraqaya – «böyük, hündür» mənasında *qara* sözü ilə *qaya* sözünün birləşməsindən əmələ gəlmişdir.

Ayrım kənd adı ayrım (ayrum) tayfasının adını daşıyır. Əhalinin Əmir Teymur tərəfindən Türkiyədən bu yerlərə köçürüldüyü və sözün *El-Rum* sözünün təhrifi ola biləcəyi güman edilir. (1;115)

Polad kəndinin əhalisi Ayrımların bir qolu olub, Poladçayı ətrafında məskunlaşanlardır. ***Alaçıqqaya*** toponiminin birinci kom-

ponenti ***Alaciki*** dağ adının təhrifi hesab olunur. ***Alaciki*** – *ala* və *ciki* sözlərindən «ala dağ dərəsi» mənasını verir.(1;119)

Haqqıxlı toponimi isə *haqqıxlı* etnonimindən yaranmış etnotoponim sayılır. (2;124)

Hamısı əsilli-köklü Azərbaycan kəndlərinin ən qədim sakinləri olan belə bir xalqın öz yurdunu məcburi şəkildə tərk etməsi, doğma torpaqların doğma insanların nəfəsinə həsrət qalması barədə düşündükcə daxilində səni mənhus bir boşluğa sürükləyən, adına «insan» deyilən qonşularımızın yaramazlığına qəzəb doğuran hisslər baş qaldırır.

* * *

Beləliklə, biz keçən əsrin 60-cı illərinin elmi tələbatı əsasında yaranmış bu əsəri diqqətlə nəzərdən keçirdik və onun böyük zəhmətin bəhrəsi olduğunu, irtica selinin qurbanı olan və bundan sonra tədqiqi mümkün olmayan şivələrin faktları ilə zənginliyini nəzərə alaraq çap olunmasını faydalı və zəruri bildik.

Qeyd etdiyimiz kimi, Şövkət Manaf oğlu Kərimov bu aləmin öz yetirməsidir, Gölkənd kəndində anadan olmuşdur. Qazax müəllimlər institutunu (1951–1952), Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsini (1953–1957) bitirmişdir. Gölkənd orta məktəbində müəllim, tədris işləri üzrə direktor müavini, direktor, Karvansaray Maarif Şöbəsində inspektor, Yerevan Dövlət Pedaqoji İnstitutunda müəllim vəzifələrində işləmişdir. 1989-cu ildən Azərbaycan Texniki Universitetinin dosentidir. 1972-ci ildə dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 50-dən artıq elmi məqalənin, bir sıra metodiki ədəbiyyatın müəllifidir.

Gölkənd böyük ziyalılar ordusu yetirmişdir. Ona görə də vaxtilə «kiçik akademiya» adlandırılmışdır: «Gölkənd kəndinin məzunlarından 20-dən çox elmlər doktoru, 100-dən çox elmlər namizədi yetişmişdir. Tarix elmləri doktoru Həmid Əliyev (mənim də sevimli müəllimim olmuşdur – *Q.K.*), iqtisad elmləri doktoru Həsən Allahverdiyev, kimya elmləri doktoru Qayıbverdi İskəndərov, tibb elmləri doktoru Sabir Əliyev, kimya elmləri doktoru Firdovsi Seyidov Gölkənd orta məktəbinin yetirmələrindəndir. Göl-

kənd orta məktəbi Şövkət Kərimovun rəhbərlik etdiyi dövrdə (1964 –1988), xüsusilə böyük müvəffəqiyyətlər əldə etmişdir». (5)

Bu sözlər Şövkət müəllimin bir alim, bir tədqiqatçı, həqiqi bir pedaqoq olmaqla yanaşı, bacarıqlı təşkilatçı, vətənsevər bir insan olduğunu bir daha təsdiq edir.

İndi Şövkət müəllim ömrünün müdrik çağlarını yaşayır. Bir il sonra 75-ə çatacaq. Biz bu kitabı onun 75 illiyinə hədiyyə kimi çapa hazırladıq, ona cansağlığı və daha dolğun yaradıcılıq arzuladıq.

11.02.2004

ƏDƏBİYYAT

1. B.Ə.Budaqov, Q.Ə.Qeybullayev. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, «Oğuz eli», 1998.
2. İ.Bayramov. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, «Elm», 2002.
3. Başbakanlık Arşivi. Qapu tahrir defterleri 808. 1728-ye tarihi. Revan eyaleti Defteri.
4. [illegible]. [illegible], «[illegible]»,1969.
5. «Xalq qəzeti»,11 mart 1998-ci il.

DİLÇİ-ETİMOLOQ

Prof.Ə.Dəmirçizadə filologiya aləmində hərtərəfli biliyə malik bir alim, bir yenilikçidir. Dilçiliyimizdə bir sıra məsələlərin ilkin uğurlu həlli onun adı ilə bağlıdır. 20-ci illərin sonlarından başlayaraq çap etdirdiyi çoxsaylı məqalələri, müasir dil, dil tarixi və dilçiliyimizin mühüm və müxtəlif problemlərinə həsr etdiyi onlarca monoqrafik əsərləri ilə o, dilimizin çox az toxunulmuş və ya heç toxunulmamış sahələrinin tədqiqi ilə məşğul olmuş, daha çox ehtiyac duyulan hədəfi vaxtında görə bilmişdir. Bu cəhətləri nəzərə aldıqda, onun etimologiya sahəsindəki işini ümumi yaradıcılığının təbii bir qolu kimi qiymətləndirmək olar.

Etimologiya dilçiliyin çətin, lakin maraqlı sahələrindəndir. Qədim tarixi və mədəniyyəti olan hər bir xalq öx tarixinin uzaq keçmişdən gələn izlərini, qədim adət-ənənələrini, təsərrüfat həyatını, məişətini, qonşu xalqlarla əlaqə və münasibətini, mənsub olduğu xalqın təfəkkürünün bəsitdən mürəkkəbə doğru inkişafını hərtərəfli öyrənmək üçün etimoloji araşdırmalardan da bir vasitə kimi istifadə edə bilir. Etimoloji tədqiqat bir elm kimi, xalqa onun keçmişini, qədim mədəniyyətini, ictimai həyatını və məişətini öyrənmək üçün geniş imkanlar yaradır. Elə buna görə də bir çox başqa xalqların görkəmli dilçi alimləri indi bu sahəyə daha çox fikir verirlər.

Prof.Ə.Dəmirçizadə «Azərbaycan dilinin tarixi» adlı doktorluq dissertasiyası üzərində işləyərkən yalnız dil tarixçisi kimi deyil, həm də, ümumiyyətlə, bir tarixçi kimi, qədim yunan, ərəb, fars, erməni, müasir rus və Avropa tarixçi və etnoqraflarının əlaqədar əsərlərini diqqətlə nəzərdən keçirmiş, Azərbaycan ərazisində yaşayan qədim babalarımızın – aborigenlərin hansı qəbilə və tayfalardan ibarət olduğunu, onların dil quruluşunu, həmin qəbilə və tayfa dillərinin inkişaf yolunu, qohum və qohum olmayan dillərlə qarşılıqlı əlaqəsini, xüsusən qonşu ərazilərdə yaşayan qədim xalqların dilləri ilə necə təmasda olduğunu, Azərbaycan dilinin

necə və nə zamandan təşəkkül tapmağa başladığını, tarixi sənədlər, faktlar və materiallar son dərəcə az olduğundan, bəzi məsələləri bir çox çətinliklərlə üzləşərək öyrənməyə, aydınlaşdırmağa müvəffəq olmuşdur. Görkəmli alim dilimizin tarixini öyrənmək üçün əvvəlcə xalqımızın tarixini öyrənməli olmuş və tədqiqat prosesində bir çox sözlərin törəniş yolunu əks etdirən qiymətli faktlar toplamışdır. Uzaq keçmişimizin yadigarı olan «Azərbaycan», «Alban», «Midiya», «Xəzər», «Qafqaz», «Ağvan», «Muğan» və s. sözlərin tarixinə dair ayrı-ayrı dəyərli məqalələri uzun axtarışların nəticəsidir. Bunlar elə sözlərdir ki, keçmişi öyrənmədən onların barəsində heç bir ağlabatan fikir söyləmək olmazdı.

Prof.Ə.Dəmirçizadə son zamanlar etimologiya sahəsində boşluğu daha aydın hiss edərək, bu sahədə yaradıcılıq işini xeyli genişləndirmiş, uzun illərdən bəri apardığı müşahidələrin nəticələrini ümumiləşdirmiş və bütün bunları «50 SÖZ» adlı kitabında toplamaqla bəzi başqa məsələlərdə olduğu kimi, dilçilərimizi bu məsələdə də qabaqlamışdır.

Əsərin «İlk söz» adlanan hissəsində etimoloji tədqiqat və onun əhəmiyyəti barədə yığcam məlumat verilmişdir. «50 söz» ilk etimoloji tədqiqat kitabı olduğundan müəllif müxtəlif sahələrə dair sözlər nəzərdən keçirməli olmuşdur. Son iki bölmədə bəzi fellər və saylar haqqında verilmiş məlumat istisna edilərsə, kitabda əsas yeri isimlərin tədqiqi tutur. Doğrudur, müəllif ad bildirən sözlər sırasında bəzi qab-qacaq, alət, quş, bitki adlarını, yaxınlıq, qohumluq, qanun və vergi münasibətləri bildirən sözləri də nəzərdən keçirmişdir, lakin yer və tayfa adlarının tədqiqinə həsr edilmiş ilk bölmə daha zəngin və daha maraqlıdır. Professor bu bölmədə «Azərbaycan», «Alban», «Ağvan», «Qaspi» («Kaspi»), «Xəzər», «Qafqaz», «Midiya», «Muğan» sözlərinin etimoloji təhlilini vermişdir. Bunlar elə lazımlı və uzun axtarış tələb edən sözlərdir ki, əgər sonrakı altı bölmə olmasaydı belə, bu sözlərin izahı ilə kitab qiymətli bir kitab olaraq qalardı. Burada, heç şübhəsiz, müəllifin inandırıcı şərhi, dərin məntiqi mühakimələri, ayrı-ayrı sözləri zəngin faktlar fonunda izah etməsi əsasdır.

İndi ədəbi dilimizdə xüsusi isimlər kimi işlənən yer adları çoxdur. Bunlar dildə ayrı-ayrı tarixi dövrlərdə müxtəlif yollarla, müxtəlif səbəblərlə yaranmışdır. Prof.Ə.Dəmirçizadə belə xüsusi yer

adlarının hələlik beş qrupunu müəyyənləşdirmiş, onları beş əsasda – coğrafi-təsviri əsasda («Qarabağlı», «Uzunoba», «Ağdərə», «Çuxuryurd», «Üçtəpə»…), tayfa, xalq adları əsasında («Xaldan», «Qıpçaq», «Bayat», «Çığatay»…), şəxs və nəsil adları əsasında («Məlikkənd», «Soltanlı», «Qarğullar»…), məhsula, təsərrüfata görə («Dəvəçi», «Dəmirçi», «Zəylik»…) və nəhayət, məkanla əlaqədar əlamətdar bir hadisə və xüsusiyyətə görə («Lökbatan», «Ağköynək», «Qızılağac», «Qılıclı», «Sarıbaş») qruplaşdırmışdır.

Dilimizdə toponimlər çoxdur və bunlar müxtəlif yollarla əmələ gəlmişdir. Bunların bir çoxunun necə formalaşdığı əksəriyyətə məlumdur. Lakin bunların içərisində elə sözlər də var ki, həmin sözlər xalqın özünün təşəkkül və inkişaf tarixi ilə bağlı olub, uzun yol keçmişdir. Müəllif ilk növbədə məhz belə sözləri diqqət mərkəzinə qoymuşdur.

«A z ə r b a y c a n» sözünün törəniş yolu haqqında keçən əsrin ortalarından başlayaraq müxtəlif fikirlər söylənmişdir. Görkəmli alim A.Bakıxanov bu sözün «Azər-Babəkan» sözlərindən yarandığını, «Babəkin odu» mənasında işlənən bir söz olduğunu qeyd etmişdir. Bu fikir Babəkin qəhrəmanlığından bəhs edilən anlarda özünə tərəfdarlar da tapmışdır:

Alovu, atəşi yalnız yerdə yox,
Qanında bəsləyir bu el, bu məkan.
Babəklər yetirmiş Azərbaycanın
Başqa bir adı da AZƏRBABƏKAN! (X.Rza)

Prof. Ə.Dəmirçizadə bu fikirlə – A.Bakıxanovun fikri ilə razılaşmamaqda haqlıdır, çünki hələ Babəkdən çox-çox əvvəllər qədim yunan, erməni, gürcü, fars mənbələrində «Azərbaycan» sözünə müxtəlif sövti tərkiblərdə (***Atropatene, Atırpatakan, Adrabadaqani, Adzarbadagan, Adzərbaygan, Adzərbaycan, Atırbaykan***) rast gəlmək olur. Hələ vaxtilə Herodot bu sözü «Atrapaten» şəklində işlətmişdir. Avropa tarixçiləri bu sözü «Atrap» adlı bir valinin adı ilə bağlamış, Şərq tarixçiləri isə bunun «od», «atəş» mənasında olan «adzər» sözü ilə bağlı olduğunu söyləmişlər. Fin-Uqor dilləri sahəsində tədqiqat aparan A.R.Zifeldt «Azərbaycan»

sözünün mənşəyini Ural-Altay dillərində «kişi», «adam», «tayfa», «xalq» mənalarında olan ***ad/at, ar/ər*** sözləri ilə əlaqələndirməyə çalışmışdır. Prof.Ə.Dəmirçizadə bu mülahizələrin yanlış olduğunu elmi dəlillərlə qeyd edərək, «Azərbaycan» sözünün qədim babalarımız olan atəşpərəst midiyalıların yeni dövlət yaratmalarında qabaqcıl olan mağların (muğların) başçılarına məxsus ictimai bir ləqəb (titul) bildirən və Midiya dövlətinin yarandığı dövrdə artıq mürəkkəb bir söz kimi formalaşmış olan «a t u r b a t» kəlməsi ilə «məkan», «ölkə» mənalarında işlənən «k a n» sözünün birləşməsindən düzəlmiş coğrafi bir ad olduğunu göstərmişdir.

«Azərbaycan» sözü və bu sözün qədim formaları olan «Atrapataqan», «Atrapaten» sözləri müxtəlif dövrlərdə müxtəlif mənalı sözlərin birləşməsindən əmələ gəlmişdir. Bu sözün «A t a r» hissəsi Şərq tarixçilərinin güman etdiyi kimi, «od», «atəş» mənasında olan «adzər» sözündən ibarət deyildir. Prof.Ə.Dəmirçizadə göstərir ki, «A t a r» sözü də iki hissədən – ***a-tar*** hissələrindən ibarətdir. Akademik N.Y.Marr bu sözdəki «a» ünsürünü ön şəkilçi hesab edirdi. Prof. Ə.Dəmirçizadə bu qəbildən olan bəzi başqa sözləri də nəzərdən keçirərək, «a» ünsürünün ön şəkilçi deyil, «Allah» mənasında işlənən bir sözün – «An» sözünün qalığı olduğunu müəyyənləşdirmişdir. Məsələn, elam mixi yazılarında «Ahuramazda» sözü «Anhuramazda» şəklində yazılmışdır ki, burada: «an» – göy allahı, «hur» – günəş, işıq, «mazda» – Midiya eli sözlərinin birləşməsindən ibarət olub, «Midiya elinin göy allahı işıq» mənasını verən mürəkkəb sözdür. «Ahuramazda» sözü daha əvvəllər «Anhuramazda» şəklində işləndiyi kimi, ***Atarpatakan*** sözünün «Atar» hissəsi də «antar» («an-tar») şəklində iki sözdən ibarət olmuşdur. «Antar» sözünün ikinci hissəsi isə «hur» (işıq)>(«tur») kimi inkişaf yolu keçmiş, «od, işıq allahı» mənasında «antar» sözü yaranmışdır. Bu sözdən isə «odallahlılar, atəşpərəstlər ölkəsi» mənasında «atarpat/aturbat» sözü düzəlmişdir. Sonralar ***Kiçik Midiya*** adı ilə yeni Midiya dövlətinin yaranmasında qabaqcıl rol oynamış və atəşpərəstlərin qibləgahında mərkəzləşmiş m u q l a r (m a ğ l a r) A t u r v a n (A t u r b a t) ləqəbi daşımışlar. Elə həmin dövrdə bu sözə məkan mənası bildirən «k a n» sözü də birləşmiş, «atəşpərəstlər yurdu», «aturpatlar məskəni» mənasında olan «A t u r p a t k a n» sözü yaranmışdır. Uzun ta-

rixi inkişaf prosesində səs əvəzlənmələri nəticəsidə «Aturpatkan» sözü indiki şəklə, yəni «Azərbaycan» şəklinə düşmüşdür.

Çox maraqlı tarixi olan «A l b a n» sözü haqqında professor yazır: «Alban» sözü «al-ban» olmaq üzrə iki sözdən düzəlmişdir. Bu sözün birinci hissəsi «al» qədim dillərdən bəzilərində, bu cümlədən Ural-Altay, Xald-Urart və bir sıra Qafqaz dillərində «yüksək», «yuxarı», «şimal», daha əvvəllər isə «yüksək yer», «dağ» mənalarında işlənmiş bir sözdür».

Burada prof.Ə.Dəmirçizadənin etimoloji tədqiqat sahəsində böyük imkanlara malik olduğunu göstərən çox maraqlı bir cəhət də onun «Alban» əvəzinə, bir sıra erməni mənbələrində işlənmiş «Qarqar», bəzi gürcü mənbələrində işlənmiş «Hereti», XIV əsr tarixçisi Xetuminin işlətdiyi «Holoyen» sözləri ilə «Alban» sözü arasında oxşarlıq tapmasıdır. Prof. Ə.Dəmirçizadə müəyyənləşdirə bilmişdir ki, «Alban» sözünün «al» hissəsi daha əvvəllər örtülü hecalı olmuş və sondakı sonor «l» çox vaxt sonor «r» samiti ilə əvəzlənmişdir. Buna görə də «Alban» əvəzinə işlənmiş «Qarqar», «Hereti», «Holoyen» sözlərinin «…ilk hissələrini təşkil edən «qar/her/hol» hecaları məhz «al» sözünün müxtəlif qohum tayfa dillərinə məxsus fonetik qanunauyğun qarşılığıdır». «Alban» sözünün ikinci hissəsini təşkil edən «b a n» sözü isə «ölkə», «əyalət», «yer» mənalarında olan bir dil vahididir ki, bunu gürcücə «ölkə», «şəhər», «kənd», «meydan» mənasında işlədilən «u b a n i», «dabani», xaldca «ölkə» mənasında «e l b a n i», ermənicə «ev», «yurd» mənasında «ban» , «van» sözləri və s. də təsdiq edir. Ə.Dəmirçizadə bu nəticəyə gəlir ki, «Alban» sözü qəbilə, tayfa adı olmamış, «yuxarı ölkə», «şimali əyalət», «dağyeri», yəni «dağıstan» mənalarında formalaşmış bir söz olmuşdur. «Alban» adlanan yerdə – Qafqazın şimal-şərqində çoxlu müxtəlif tayfalar yarandığından onları yalnız yaşadıqları yerin adı ilə ümumiləşdirib adlandırmaq lazım gəlmiş, buna görə də həmin söz bu tayfalar ittifaqını birləşdirən dövlətin adı kimi işlənməyə başlamışdır. «Alban» adlanan yer Dağıstanın cənubdan bir az hissəsini, Azərbaycanın Kürdən şimala doğru böyük bir sahəsini əhatə etmişdir.

Prof.Ə.Dəmirçizadə «Qaspi», «Xəzər», «Qafqaz», «Muğan» sözlərinin etimoloji izahını da elmi faktlar üzərində qurmuşdur. Bəzən adama elə gəlir ki, «Kaspi» rus, «Xəzər» isə azəri dilində

işlənən fərqli sözlərdir. Ə.Dəmirçizadənin tədqiqatı bu cür yanlış təsəvvürü aradan qaldırır və hər iki sözün eyni bir kökdən – ***qas/xaz*** tayfa adından və bu adlara cəmlik anlayışı bildirən iki müxtəlif şəkilçinin – ***-pi*** və ***-ar*** şəkilçilərinin birləşməsindən əmələ gəldiyini aydınlaşdırır.

«**Q a f q a z**» sözü ilk latın mənbələrində «kavkasos» şəklində yazılmış, bəzi yunan tarixçiləri bu sözün əvəzinə, bu mənada «Qasios» sözü işlətmişlər. Bəzən bu sözün «qaf» hissəsini slavyan dillərində «döymək» mənasında işlənən «□□□□□□» feli ilə əlaqələndirmiş və «Qafqaz» sözünü «qasların metal döyən dağ ölkəsi» mənasında izah etmişlər. Bu sözü «ağ qarlı» mənasında izah edənlər də olmuşdur. Ə.Dəmirçizadə A.Bakıxanovun bu barədə mülahizəsini daha düzgün saymış, dəqiq faktlar əsasında həmin sözün tayfa adı bildirən «qas» sözü ilə qədim fars dilində *dağ* mənasında işlənən «qaufa» sözü əsasında yaranmış bir söz olduğunu göstərmişdir. «Kitabi-Dədə Qorqud»da işlənmiş «Qazlıq dağı» sözləri həmin sözün Azərbaycan dilinə tərcüməsi olub, bu fikri bir daha təsdiq edir.

Prof. Ə.Dəmirçizadənin etimologiya məsələlərinə həsr olunmuş əsərlərindən «Midiya» sözünün «mağ ölkəsi» mənasında olan «mağday» tərkibindən, «Muğan» sözünün «maq/muğ» tayfa adı ilə cəmlik bildirən ***-an*** şəkilçisindən törəmiş sözlər olduğunu da öyrənirik.

Professorun tədqiqatında oxucunu inandıran mühüm bir cəhət budur ki, o, ayrı-ayrı sözləri izah edərkən həmin sözə müvafiq şəkildə formalaşmış digər sözlərə də istinad etmiş, fikrini paralel faktlar fonunda əsaslandırmışdır. Beləliklə, oxucu əsas sözün izahı prosesində bir çox başqa sözlərin törəmə yolu haqqında da məlumat alır. «Azərbaycan» sözü ilə əlaqədar «Ahuramazda», «Muğan» sözü ilə əlaqədar «İran» sözlərinin izahı belə faktalrdandır. Belə sözlərin bəzilərinin etimologiyası elm aləminə məlum olsa da, əsas sözlərin izahı ilə əlaqədar bunların köməkçi vasitələr kimi tədqiqata daxil edilməsi mülahizəni təsdiq edən faktlar kimi çox qiymətlidir. Bu qəbildən olan sözlər sırasında yeni dövrdə rus dilindən alınmış «□□□□□□□», «□□□□□□» kimi sözlər də verilmiş və bunların türk mənşəli sözlər olduğu göstərilmişdir. Bu cür sözlərin sayını müəllif artıra bilərdi, lakin qarşıya belə məqsəd qoymamış,

yalnız əlaqədar sözlərin izahı prosesində zəruri olaraq bəzi sözlərin törəmə və inkişaf yoluna nəzər salmalı olmuşdur.

Aydındır ki, sözlərin etimologyasını müəyyənləşdirmək məsələsi dilçilikdə nisbi xarakter daşıyır. Doğrudur, elə sözlər vardır ki, onların necə və hansı mənada təşəkkül tapdığı tam təfərrüatı ilə dəqiq şəkildə müəyyən edilə bilər, lakin elə sözlər də mövcuddur ki, onların tərkib hissələrinin nələrdən ibarət olduğunu aydınlaşdırmaq əsasən mümkün olsa da, yenə bir sıra məchul cəhətlər qala bilir. Məsələn, «tovariş» sözünün mal, malikanə, əşya, hətta qara mal mənalarında işlənən «tovar/davar» sözü ilə «qarın» sözündən olan «iş» ünsüründən düzəlib, «mal ortağı» mənasını verən bir dil vahidi olması bizdə şübhə yaratmır. Eləcə də V–VI əsrlərdən qədim türk abidələrində işlənsə də, daha əvvəllər formalaşmış olan «qardaş» sözünün «qarın-da-eş» şəklində, «qarında ortaq, şərik olan şəxs» mənasında təşəkkür tapması daha ağlabatan və inandırıcıdır. Etimoloji iş bununla məhdudlaşmış olur və biz kifayətlənirik, çünki axtarılan məchül cəhət artıq tapılmışdır: bu sözlər müasir türk dillərində işlədilən, mənaları hamı tərəfindən başa düşülən «davar» və «qarın» sözlərindən əmələ gəlmişdir. Bu məsələdə bir az da irəli gedərək, «davar» və «qarın» sözlərinin necə əmələ gəldiyini öyrənməyə çalışsaq, çətin olsa da, bu sözlərin tərkib hissələrini müəyyənləşdirə bilərik, lakin həmin tərkib hissələrin necə və nə vaxt yaranması məsələsi yenə də məchul nöqtə kimi qalar. Yazılı abidələr belə bir tədqiq üçün imkan vermədiyinə görə, bu məqsədlə aparılan axtarışlar da nəticəsiz qalar və səmərə verməz. Ona görə sözün etimologiyasının öyrənilməsi çox vaxt mütləq mənada deyil, nisbi mənada başa düşülür. Etimoloji tədqiqat indiki şəraitdə, başlıca olaraq, bundan ibarətdir ki, ya necə və nə zaman, hansı dilin materialı əsasında təşəkkül tapdığı məlum olmayan sözlərin ilkin mənası və mənşəyi müəyyən edilir, yaxud da tarixən törəmə yol ilə əmələ gəlmiş düzəltmə və mürəkkəb sözlər mənalı morfemlərə ayrılır və sözün göstərilən qayda ilə törəmiş oluğu əlavə faktlarla (bəzən əlavə fakt da olmur) təsbit edilir. Bəzən də sözün ilk mənası qədim abidələr əsasında müəyyənləşdirilir və müasir dildə həmin sözlərin qalmış məna izləri tutuşdurulur.

Bütün bu cəhətləri nəzərə alaraq, prof Ə.Dəmirçizadənin tədqiq etdiyi sözləri iki qrupa ayırmaq olar:

1.İlkin formaya malik olduğu tədqiq edilmiş sözlər;

2.Törəmə yol ilə düzəldiyi müəyyən edilmiş sözlər.

Birinci qrup sözlərin ilkin formaya malik olması da şərti mənadadır. Belə sözlər tədqiqatın baş vura biləcəyi son həddə görə ilkin söz hesab olunur. Şübhəsiz, daha qədim dövrlərə aid mənbələr olsa idi, həmin sözlərin necə yaranmış olduğu barədə daha dürüst fikir söyləmək olardı. Prof. Ə.Dəmirçizadənin tədqiqatında bu səpkidən olan aşağıdakı sözlər vardır: ***hoqqa*** (qədim elam dilində «ayin», «qanun» mənalarında olan *huqqu* sözündən), ***manat*** (qədim elam dilində «vergi», «xərac» mənasında *mannat* sözündən), ***tum*** (qədim pars dilində çəyirdək və nəsil mənalarında *tuma* sözündən), ***beş*** (türk dillərində «əl» mənasında *bil/biş/miş* sözlərindən). ***Zoğ, pambıq, pampax, tüfəng*** və s. sözlərin izahı da bu sıradandır.

İkinci qrupa daxil olan sözləri də iki növə ayırmaq olar:

a) düzəltmə sözlər;

b) mürəkkəb sözlər.

Prof.Ə.Dəmirçizadə yalnız xüsusi tədqiqat əsasında müəyyənləşdirilə bilən bir sıra sözlərin düzəltmə olduğunu göstərmiş və bu sözləri kök və şəkilçilərə ayırmışdır. Həmin kök və şəkilçilərin müəyyən dövrdə bu və ya digər bir dildə işlənmiş olduğunu və öz izlərini bu günə qədər saxladığını göstərə bilən çox qiymətli dil materialı əsasında müqayisələr aparmış və bir az əvvəl qeyd etdiyimiz sözlərdən əlavə, aşağıdakı sözlərin də tarixən düzəltmə olduğunu müəyyənləşdirmişdir: ***qulp*** (qədim azəri tayfa dillərində «əl» mənasında işlənən *qar/qur/qol/qul* sözü ilə cəmlik bildirən ***-pi*** şəkilçisindən), ***ütü*** (qədim türk dillərində oda tutmaq, qarsalamaq, odla hamarlamaq mənasında «ütmək» feli ilə ***-ük*** şəkilçisindən, isidici, hamarlayıcı adı kimi), ***qarpmaq*** («əl» mənasında «qar» sözü ilə cəmlik bildirən ***-pi*** şəkilçisinin birləşməsindən, əllərin fəal iştirakı ilə baş verən prosesi bildirən söz kimi), ***qarış*** («əl» mənasında «qar» sözü ilə ***-ış*** şəkilçisindən, «əl uzunu» mənasını bildirən ölçü adı kimi), ***qaşımaq*** (qədim türk dillərində «barmaq» və ya «dırnaq» mənasında «qaş» sözü il ***-ı*** şəkilçisindən), ***qalamaq*** (monqol dilində «od» mənasında «qal/ğal» sözü ilə ***-la*** şəkilçisindən: ***qal-la – qal-a)*** və s.

Tarixən mürəkkəb, hal-hazırda isə sadə söz kimi tanınan bir

sıra sözlərin tərkibində ən azı iki müxtəlif sözün işlənmiş olduğu müəyyən edilmiş, tərkib hissələrin ilkin mənası və forması imkan daxilində dəqiqləşdirilmişdir. Belə sözlərdən aşağıdakıları qeyd etmək olar: ***bacanaq*** (türk dillərində «bacı» və dost, yoldaş, mötəbər şəxs mənasında «inaq» sözündən), hoqqabaz (qədim elam dilində *hüquq*, fars dilində *oyun* mənasında «baz» sözlərinin birləşməsindən, oyunbaz mənasında), ***bardaq*** (qədim türk dillərində üzüm şirəsi, mey, şərab mənasında «bor» sözü ilə qab mənasında «daq» sözlərindən, mey qabı mənasında), ***cürdək*** (ermənicə su mənasında «cür» sözü ilə türk dillərində qab mənasında «daq» sözündən, su qabı mənasında), ***şadara*** (udin dilində toz, qum mənalarında «şa» sözü ilə «daramaq» felindən), ***göyərçin*** (türk dillərində göy rəng mənasında «göy» sözü ilə quş mənasında işlədilmiş «uçqan» sözünün «çın/çin» şəklinə düşmüş formasından, göy çalarlı quş mənasında), ***sığırçın*** («sığır» sözü ilə «çın» ünsüründən, sığır içərisində olan quş mənasında), ***balıqçın*** (türk dillərində «balıq» sözü ilə «çın» ünsüründən, balıqlarla dolanan quş mənasında), ***bayırçın, daraxçın*** («bayır», «daraq» və «çın» ilə), ***darçın*** (fars dilində dərman mənasında «daru» sözü ilə «Çin» sözlərindən, Çin dərmanı mənasında) və s. Ə.Dəmirçizadə ***iyirmi, altmış, yetmiş*** saylarının da tarixən mürəkkəb söz şəklində formalaşmış olduğunu göstərmişdir.

Ə.Dəmirçizadənin etimologiya sahəsində tədqiqatı bunlarla məhdudlaşmır. Şübhəsiz, görkəmli alimin imkanları onu gələcəkdə də bu sahəyə sövq edəcəkdir. Bu gün yaradıcılığının bu qolundan danışarkən, onun tədqiq etmiş olduğu bəzi sözlərin izahı ilə, bəzi mülahizə və fikirləri ilə əlaqədar mübahisəyə girmək, başqa cür mülahizə və fikirlər də söyləmək olardı, lakin bunun üçün qədim yazı abidələrinə, bir çox materiallara və sənədlərə, müxtəlif dillərin təbiətindən doğan qanunauyğun nəticələrə, dilimizin tarixinə və zəngin dil faktlarına onun özü qədər dərindən bələd olmaq, bütün bunlara onun özü qədər səbrlə və həssaslıqla qiymət vermək, mühakimə yürütmək lazımdır.

Onun bu sahədəki işi dilçiliyimizdə etimoloji tədqiqat işinin uğurlu bünövrə daşlarındandır.

MÜASİR AXISQA DİLİNİN TƏDQİQİ

Tarixin dərinliklərindən zəmanəmizə qədər yol gələn, etnolinqvistik xüsusiyyətləri ilə başqa türk xalqlarından seçilən, hazırkı Gürcüstan ərazisində nə qədər ömür sürdüyü bilinməyən, indi o yerlərə əliuzalı qalan bir türk xalqı var – AXISQA TÜRKLƏRİ. Qafqaz ən qədim dövrlərdən insan məskəni olduğu kimi, həm də ən qədim dövrlərdən türklərin məskənidir. İnsandan türk qolu ayrılmağa başladığı gündən türklər Qafqazın da payına düşmüşdür. Axısqalılar türkün güclü tayfalarından olmuş, neçə min illik yol gələrək, tarixin amansız və dəhşətli burulğanlarından çıxa bilmişlər. Daimi məskənləri cənub-qərbi Gürcüstan ərazisi – ***Mesxetiya*** və ya ***Axısqa*** adlanan bölgə olmuşdur. «Mesxet» də, «Axısqa» da toponimik adlardır. Lakin ***Axısqa*** toponimi bu xalqın ruhuna daha yaxındır. Bəlkə, bu ad onların ayrıldığı tayfanın adını yaşadır özündə? Doğma olmasa, ruhlarında, qanlarında, genlərində yaşamasa, bu addan havayı qürur duymazlar.

Axısqalılar son dərəcə qədim tarixə malik olub azəri türkləri ilə yaşıddırlar. Şərqindəki və qərbindəki türk xalqlarına qarışmasalar da, daim hər iki xalq ilə mənəvi əlaqədə olmuş, iynənin gözündən keçərək öz müstəqilliklərini mühafizə etmişlər. Daha çox XIX əsrdən başlayan tarixi tədqiqat əksəriyyət etibarilə hindavropalıların əlində olmuş, türk xalqlarının tarixinə qısqanclıqla yanaşmışlar. Ekvator boyu Yer kürəsini əhatə edən türk xalqlarının tarixi əksərən saxtalaşdırılmış, onların əbədi və daimi məskənləri birinci minilliyin sonlarındakı istilalarla əlaqələndirilmişdir. Mirzə Fətəli demişkən, bunlar puç və əfsanə söhbətlərdir. Bütün maddi-mədəniyyət abidələri, tarixin beş min il əvvəlki qaranlıq səhifələrindən xəbər verən mənbələr, bu mənbələrdə xəsisliklə qeydə alınmış toponim, etnonim və antroponimlər Qafqazın, Yaxın və Orta Şərqin çox qədim dövrlərdən türklərin məskəni olduğunu sübut edir. Tarixin həmin qaranlıq səhifələrindən zəif bir şüa kimi süzülüb gələn axısqalılar və onların tarixi, bu tarixin hansı dərinliklərdən keçdiyi, tayfa-şüanın neçə dəfə və hansı maneələrlə üzləşdiyi, əyildiyi, lakin qırılmadığı hələ də öyrənilməmişdir. İlk dəfə olaraq, filologiya elmləri namizədi, Nəsimi adına Dilçilik

İnstitutunun baş elmi işçisi İsmayıl Babaş oğlı Kazımov belə bir xeyirxah işə qədəm qoymuş, Axısqa türklərinin dilini, bu dilin fonetik, leksik, morfoloji və sintaktik xüsusiyyətlərini toplu halda öyrənməyi qarşısına məqsəd qoymuşdur. Onun belə bir mövzunu seçməsi filoloji axtarışlar və xeyirxahlıq baxımından faydalı olmaqla, böyük ərazilərdə yayılmış türk xalqlarının dilinin, qədim abidələrinin, tarix və mədəniyyətinin keçən əsrin 90-cı illərində və əsrimizin əvvəllərində öyrənilməsi ilə məşğul olan rus misionerlərinin işini xatırladır.

İ.Kazımov da, ilk növbədə, tarixin məchul və dumanlı səhifələrini araşdırmaqla məşğul olmuş, axısqalıların min illərlə yaşadığı, lakin hazırda tarixin günahları ucbatından aralı düşdükləri Mesxet-Axısqa ərazisinin qədim toponim və etnonimlərinin tədqiqi fonunda dəfələrlə köçkünlüyə məruz qalmış bu xalqın tarixini öyrənmək üçün mümkün mənbələri tədqiqata cəlb etmişdir. 1944-cü ildə uzaq Fərqanəyə sürülmüş bu xalq 1980-ci illərin sonlarında da öz yurdlarına toplaşa bilmədilər, öz dilini, dinini itirmək qorxusu ilə rus çöllərinə səpələndilər. Gələnlərə yenə də Azərbaycan arxa durdu, Azərbaycan öz doğma torpağında yer verdi. Buradan yaxındır – heç olmasa, doğma yurdlarına boylana bilirlər. Burda onlara dilini unutmaq, adını, soy adını və dinini dəyişmək tələb olunmur – dilini də qoruyur, dinini də və bütün tarixi-milli keyfiyyətlərini də. Mətbuatları yaranır, ana dilində təhsil sistemi formalaşır, dərsliklər tərtib edilir. Azərbaycan xalqı həmişə açıqürəkli olub. Qanı it qanından olanlar qanımızı qaraltdığı, müstəqilliyin sevincini belə dadmaq imkanı vermədiyi halda, qan qardaşlarımızı bağrımıza basırıq, əzizləyirik, özümüzdən ayırmırıq. Kaş azğın və yaramaz qonşularımız da dünyaya bu cür baxa biləydilər. Onda həyat nə qədər gözəl olardı...

Bu xalqın tədqiqi onun dilinin tədqiqindən başladı. Bu, uğurlu başlanğıcdır, çünki dil xalqın milli varlığını şərtləndirən ən əsas amildir. Bir də ki bütün poeziya, nəsr və publisistika nümunələrindən aydın olur ki, Yer üzündə yaranmış canlı varlıq öz balasını sevdiyi, qoruduğu, əzizlədiyi kimi, bu xalq da hansı girdabda olur-olsun, öz dilini qorumuş, onun üzərində əsmiş, onu iflic olmağa, yad təsirlər içərisində əriyib-itməyə qoymamışdır. Bu xalqın öz dilinə istəyində bir od var, güclü bir hərarət var, yanğı var.

Bu yanğı o qədər güclüdür ki, qızdırmalı adamın yanğısına bənzəyir. Bu hal haqsızlıq dünyasının yaratdığı dağılmaq, yox olmaq, öz varlığını itirmək qorxusundan yaranmışdır.

«Axısqa» sözü çox qədim tarixi yada salır. Hələ eradan əvvəl üçüncü minillikdə şimali İtaliyada böyük çarlıq yaratmış, min ilə qədər hakimiyyət sürmüş etruskları – tursakaları yada salır. Etrusk-Tursaka çarlığı güclü çarlıq olmuş, qədim latınlar mədəniyyət sirlərini onlardan öyrənmişlər. Onlar həmin ərazilərə Anadolu xəttilə keçmişlər. Axısqalılar həmin sakaların varislərindən olmalıdır. Axısqalılar indi «Mesxet» sözündən xoşlanmasalar da, bizim fikrimizcə, bu söz gürcü mənşəli deyil, türk sözüdür. Miladdan əvvəl ikinci minillikdə Qara dənizin cənub-şərq sahillərində hökmranlıq etmiş mosxlar, Tövratda ***mosox*** və ya ***mosx*** şəklində yad edilən xalq, qədim misirlilərin ***müşek*** dedikləri əhali eyni əhalidir və çox maraqlıdır ki, tamamilə bir-birindən fərqli görünən ***Axısqa*** və ***Mosox – Mesx*** sözləri eyni köklü sözlərdir və hər ikisinin əsasında SAK sözü durur: mo-SAK, Aq-SAK-a. İndi az görünən bu xalq parçalanıb, qarışıb, əriyib, azalıb. Parçalanmış olsalar da, hələ bir çox ərazilərdə dil və etnik uyğunluqlarını olduğu kimi saxlamışlar: «Bu gün doğu Anadolu bölgəsində (Ərzurum – Oltu), Nadman, Artvin-Şavşat (Yusifeli, Ardahan, Qars kimi şəhərlərdə) dağınıq olaraq yaşayan Axısqa türklərinin danışdığı türkcə vaxtilə Gürcüstan sərhədləri daxilində yaşamış Axısqa türklərinin danışdığı türkcə ilə eynidir». Müəllif bu yerlərə türklərin sonrakı gəlişini eramızın ilk əsrlərində hunların gəlişi ilə əlaqələndirir, VI–VII əsrlərdə savirlərin, onoğurların, VII–VIII əsrlərdə xəzərlərin, qıpçaqların, oğuzların məskunlaşdığını, XI–XII əsrlərdə Kartlidə türklərin üstünlük təşkil etdiyini və hələ VII əsrdə Kartlidə bütün çarların, bütün kişi və qadınların xəzər dilini bildiyini qeyd edir. Şübhəsiz, müəllifin hunlardan başladığı bu proses hunlardan çox-çox əvvəllərə aiddir. Hər halda, hələ bizim minilliyin əvvəllərində bu yerlərdə xəzərlərin dili gürcü, erməni, yəhudi dilləri ilə paralel işlənirmiş. Heç şübhəsiz, axısqalıların tarixi təşəkküründə bütün aborigen və gəlmə türklərin rolu olmuşdur. Buna görə də müəllif Mesxet ərazisindəki tarixi toponimləri nəzərdən keçirərək belə bir qənaətə gəlir ki, axısqalıların ən qədim coğrafi adlarının əksəriyyəti etnik müxtəlifliyin mövcud olduğu

bir situasiyada, əsasən də, ayrı-ayrı etnosların (barsil, onoqur, udi, abdal, sabir, tubal, abar, bun, bozal, tolos, qanqlı və s.) qarışması ilə formalaşmışdır: «Qeyd edilən tayfa adlarının axısqalıların coğrafi adlarında qorunub saxlanması həmin qanunauyğun prosesin təzahürüdür». Səlcuqlar dövründə oğuzların Gürcüstan ərazisinə kütləvi axını və onların oturaq həyata keçməyə başlaması bütün Gürcüstanın türkləşməsi qorxusunu yaradır. Monqol istilası, Qaraqoyunlular və Ağqoyunlular dövründə də bu yerlərdə türk təsirləri genişlənir. Bütün bu gəlişləri və qarışmaları nəzərdən keçirən bəzi tədqiqatçıların fikrincə, Axısqa türklərinin ulu babaları qıpçaqlar olmuşdur. Lakin onlar başqa tayfalarla, xüsusən oğuzlarla qarışmalı, qovuşmalı olmuşlar. Ona görə də Axısqa türklərinin təşəkkül tarixi bir növ azəri türklərinin təşəkkül tarixini xatırladır. Fərq burasındadır ki, azərilərin təşəkkülündə qədim oğuzlar daha üstün olmuşlar. Axısqalılar XV əsrin sonlarından xeyli müddət osmanlı imperiyasının idarəsi altına düşmüş, 1828-ci ildən Gürcüstanla birlikdə rusların asılılığında olmuşlar. Onların bizə bəlli olan faciəli həyatı da daha çox bundan sonra başlamışdır. Bunları qeyd etməklə belə bir nəticə çıxarmaq olur ki, türklər Qafqazda nə zamandan olmuşsa, axısqalılar da o zamandan mövcuddur və türklərin – türk tayfalarının şərqdən və ya qərbdən Azərbaycana hansı gəlişləri olmuşsa, Axısqa ərazisinə də eyni gəlişlər olmuşdur. Azərbaycan dilinin təşəkkülündə hansı tayfalar aparıcı rol oynamışsa, axısqalılar da eyni amillər əsasında təşəkkül tapmışdır. Azərbaycan dilinə hansı ekstralinqvistik amillər təsir etmişsə, onlar eyni dərəcədə axısqalıların dilinə də təsir etmişdir. Lakin bir xalq kimi azlığı, məhdud ərazidə məskunlaşması, daha çox yad təsirlər əhatəsində olması, dəfələrlə baş verən təzyiq və köçürmələr, daim öz müstəqilliyini mühafizə etmək cəhdi, yazılı və şifahi ədəbi dilinin inkişafı üçün əlverişli zəmin olmaması axısqalıların dilində qədim tayfa dillərindən gələn arxaik formaların qalmasına və ümumilikdə Axısqa dilinin bir türk dili kimi, Azərbaycan və türk-Osmanlı dillərindən fərqlənməsinə səbəb olmuşdur. Ona görə də onların dilini Azərbaycan və ya türk dili ilə qarışdırmaq və ya həmin dillərdən birinin dialekti kimi mənalandırmaq olmaz. Axısqalılar müstəqil bir xalq, Axısqa dili müstəqil bir türk dilidir. Elə buna görə də İ.Kazımov Axısqa dili-

ni, doğru olaraq, müstəqil bir türk dili kimi tədqiq etməyi qarşısına məqsəd qoymuş, bütün dil yaruslarının tədqiqində Azərbaycan və türk dilləri ilə müqayisələr aparmaqla Axısqa türklərinin dilindəki milli və orijinal keyfiyyətləri üzə çıxarmışdır.

Monoqrafiyada Axısqa dilinin fonetik xüsusiyyətlərinin tədqiqinə geniş yer verilmiş, müəllif dilin səs sisteminin aydın mənzərəsini yarada bilmişdir. Fonetik sistemin ətraflı tədqiqi göstərir ki, müxtəlif quruluşlu, müxtəlif sistemli dillərin əhatə və təsiri altında olmasına baxmayaraq, bu dil milli və orijinal xüsusiyyətlərini qorumuş, uzun bir mübarizə yolu keçərək başqa dillərin assimilyativ təsirindən özünü xilas edə bilmişdir. Əksəriyyət etibarilə öz varlığını qorumaqla bəzi yad təsirlərə də məruz qalmışdır. Fonetik xüsusiyyətlər bütövlükdə dilin özünə məxsusdur və onu yalnız Qafqaz dillərindən deyil, şərqində, qərbində və cənubunda yerləşən qohum türk dillərindən də fərqləndirir. Bu dildə P, G, K, T, Ç səslərindən ibarət maraqlı abruptiv-nəfəsli səslər vardır və bunların mənşəyinin öyrənilməsi maraqlı elmi nəticələr çıxarmağa imkan verərdi. Lakin, nədənsə, müəllif həmin səslərin mənşəyini, onların haradan gəldiyini, hansı proseslərlə və ya hansı tayfa dilləri ilə bağlı olduğunu araşdırmağa fikir verməmişdir. Fiziki, fizioloji və etnik-psixoloji kökləri izah edilməli olan samit keçidləri: ***n>v*** (könül – ***kövül***), ***q>x*** (eşq – ***aşx***), ***y>q*** (***söqüt, iqnə***), ***s>z*** (***zarxoş, zanki***), ***c>j*** (***janavar, jamuş***), samit qoşalıqları (***həppimiz, təqqət, doxxuz, aşşaqi, ottuz*** və s.), qonşu türk dillərində cingiltili ***d*** ilə tələffüz edilən bir çox sözlərin KDQ-da olduğu kimi ***t*** ilə tələffüzü (***dağ – tağ, daş – taş***), aydın nəzərə çarpan ***h***-laşma (***haçar, harx***), bizim üçün arxaikləşmiş olan söz önündə ***y*** səsi (***yigit, yuca, yüz-üz***), bir sıra sözlərdə labiallaşma (***xoroz, savux, avuç***), oğuz qrupunda sonralar ***o***-laşmaqda olan bir çox sözlərdə əks prosesin – qədim formanın saxlanması (***av, avçi, tavux***), sağır ***n*** və qovuşuq ***nq*** səslərinin dildə sabitliyi – bütün bünlar dilin fonosemantik sisteminin müəyyənləşməsində, təşəkkülündə fonetik qanun və hadisələrin həlledici rolunu üzə çıxarır. Bu dildə 10 saitin olması məsələsini müəllif bir qədər ətraflı izah edə bilərdi, ***e*** və ***g*** hərflərinin hansı səsləri ifadə etdiyini fərqləndirmək üçün nümunələr verə bilərdi. Söz əvvəlində *ğ* səsinin bol-bol işləndiyi müşahidə olunur (***Ğalib, Ğənimət, Ğafil***). Bunun təsir mənbəyi, güman ki, yalnız semit dilləri deyildir. Müəl-

lifin, türk dilindən fərqli olaraq, axısqalıların dilində intensiv şəkildə işlənən ***x*** səsini (***xasır, xarman, maxas, çaxal***) Qafqaz dillərinin təsiri nəticəsi kimi izah etməsi ağlabatan deyil. Əsərdə ahəng qanunu, assimilyasiya, dissimilyasiya, səsartımı, səsdüşümü və s. fonetik hadisə və qanunların tədqiqinə geniş yer verilmiş, söz köklərində saitlər ahəngi zəngin nümunələr əsasında nəzərdən keçirilmişdir. Birvariantlı ***-i, -li, -lux*** şəkilçiləri ahəng qanununun morfoloji məqamda pozulmasına səbəb olur. Müəllif bu sahədə axısqalıların dilinə uyğun olmayan, lakin onların xeyli müddət məcburi istifadə etməli olduqları gürcü əlifbasının müəyyən rola malik olduğunu da unutmamışdır.

İ.Kazımovun Axısqa dilinin leksikasına dair araşdırmalarından belə qənaətə gəlmək olur ki, bu dilin lüğət tərkibi öyrənilərsə, türkoloji dilçilik üçün çox zəngin və maraqlı material əldə oluna bilər. Çünki bu dil bütün təsir və təzyiqlərə baxmayaraq, bir çox arxaik formaları qoruyub saxlamış, yad təsirlərə daim güclü müqavimət göstərmişdir. Bu sahədə ilk addım kimi, İ.Kazımov da az iş görməmiş, axısqalıların zəngin lüğət ehtiyatının, demək olar ki, bütün laylarını tərpədə, hərəkətə gətirə bilmişdir. Ona görə də monoqrafiyanın birinci fəsli kimi, ikinci fəsli də maraqla oxunur və yaxşı təəssürat yaradır. Mənbə azlığının törətdiyi çətinliklərə baxmayaraq, müəllif folklor materiallarından, canlı danışıqdan, el şairlərinin əsərlərindən, «Vətən eşqi» qəzetindən böyük zəhmətlə kifayət qədər söz toplayıb tədqiqata cəlb edə bilmişdir. Əkinçiliklə, kənd təsərrüfatı, bağçılıq, heyvandarlıqla bağlı sözlər, zəngin məişət leksikası, geyim, xörək adları, toy mərasimləri ilə bağlı leksika, qohumluq anlayışlarını, bədən üzvlərinin adlarını bildirən terminoloji sözlər, ay, həftə adları, xalq təbabətinə aid leksik vahidlər əksərən türk dillərinə məxsus ümumi kökdən gələn qədim leksik layı mühafizə edib saxlamışdır. Bütün hallarda lüğəvi vahidlərin fonoloji quruluşunda özünəməxsusluq var. Bu barədə: ***dirqəm*** – yaba, ***tırpan*** – dəryaz, ***cəb*** – otun yerdə qalanı, ***nuş oti*** – otun artığı (muşqurt), ***lazut*** – qarğıdalı, ***patlican*** – pomidor, ***laxana*** – kələm, ***cancur*** – gavalı, ***avi*** – ayı, ***kərinxə*** – qarışqa, ***kingilə*** – ağcaqanad, ***çatxi*** – şor, ***yazlux*** – şüşəbənd, ***kəpçə*** – çömçə, ***çötal*** – çəngəl, ***boyunlux*** – şarf, ***urba götürmax*** – paltar aparmaq, ***boncuq*** – muncuq, ***küfə*** – sırğa və s. kimi beş-on nümunə ilə də kifayətlən-

mək olardı. Lakin müəllif hər bir məsələyə dair kifayət qədər nümunə toplayıb vermişdir. Bir qədər irəli getməklə bunların əsasında ilkin bir sözlük yaratmaq olardı. Onlarca alma, armud növü, neçə cür süd məhsullarının adları, xörək adları, xalq təbabətinə aid sözlər qeydə alınmışdır. Axısqalıların ay (zəmhəri, qücük, mart, aprel, mayis, kirəz, oraq, xarman, vökrüm, şarap, koç, karakış) və həftə (bazarertəsi, sali, çersamba, cuma, persamba, cumaertəsi, bazar) adları da özünəməxsusluğu ilə türk və Azərbaycan dillərinin ay və həftə adlarından fərqlənir. Müəllif Axısqa dilinin bir sıra lüğəvi vahidləri ilə (ev və çöl heyvanlarının, təsərrüfat və məişət əşyalarının, geyim şeyləri və bədən üzvlərinin adları) türk və Azərbaycan dilinin lüğəvi vahidlərini müqayisə etmiş, üç dilin müqayisəsi əsasında fərqli cəhətləri əyaniləşdirə bilmişdir. Axısqa dili ilə «Kitabi-Dədə Qorqud»un dil əlaqələrinə yığcam şəkildə nəzər salınmış, leksik, morfoloji və sintaktik uyğunluqlar barədə ilkin məlumat verilmişdir. Bu dilə məxsus Zeqan, Savaelya, Axalsıx, Sur-Boqa, Aspindz, Axalkələk şivələrinin olduğu və bunların hələ tam qaydaya salınmamış ədəbi dildən fərqləndiyi göstərilir. Müəllif bəzi alimlərin Axısqa dilini türk dilinin «Mesxet dialekti» adlandırdığını qeyd etsə də, Axısqa dilinin fonetik, leksik, morfoloji və sintaktik quruluşunun elmi-nəzəri təsvirini verməklə kifayətlənmiş, bu cür iddialara münasibətini ətraflı bildirməmişdir. Əsərdə alınma sözlərə münasibət də bir qədər məhdud şəkildə, daha çox məişət leksikası zəminində şərh edilmişdir. Bu dildə təbii olaraq, ərəb. fars, rus dillərindən, türk dilindən, Azərbaycan və Qafqaz dillərindən alınmalar olduğu, regional təsirlər, kənara çıxma halları daha ətraflı şərh oluna bilərdi.

Onomastik leksikanın tədqiqinə əsərdə xüsusi yer verilmişdir. Kişi və qadlın adlarının təsvirindən də görünür ki, bu xalq milli ənənələrini hər sahədə qorumuşdur. Fəzli, Usman, Taci, Şahismayıl, Canxanım, Bağdaqül, Təhərmirzə, Şahvələd kimi xüsusi adlar xəyalı keçmiş tarixə aparır. Şübhəsiz, axısqalıların adları da hazırda müsəlmanlığın meydana çıxmasından sonra geniş vüsət qazanmış adlardan ibarətdir. Lakin bu dildə ***xan, mirzə, bəy, şah, can, aqa, dar*** (Təhmindar, Bayraqdar), x***anım, qul*** tərkibli adlar daha çox müşahidə olunur və bir səciyyəvi keyfiyyət kimi, adverməni də milli zəminlə bağlayır. ***Köşəli, Bəhri, Meyyar, Vətən, Qı-***

nali, İlim, Toraman, Şəhri, Qoçali, Çəlik, Başad kimi spesifik kişi adları da bu qənaəti gücləndirir. Soy-köklər əksəriyyət etibarilə ***-lı, -li*** şəkilçisi və ***oqli*** sözü vasitəsilə müəyyənləşsə də, ***-i*** (***Bayram Müslimi, Əli Səbri***), ***-ov, -yev, -zadə, -dze, -şvili*** formantlarından da istifadə olunur. Kiçiltmə, əzizləmə, qısaltma məqamlarında ***-oş*** (***İloş, Xadoş***), ***-iş (İbiş, Diliş), -ir (Kibir – Kəbirə, Fikir -Fikriyyə), -ik (Sürik – Süreyya, Mizik – Mizayya), -o (Sabo – Səbriyyə)*** kimi morfoloji göstəricilərdən istifadə olunur.

Əsərdə Axısqa toponimlərinin sistemli şəkildə gürcüləşdirilməsinə dair verilən məlumat haqsızlıq dünyasının əməllərinə nifrət yaradır.

Axısqa türklərinin dili öz morfoloji quruluşuna görə də qonşu türk dillərindən fərqlənir. Əsas və köməkçi nitq hissələri sistemi, hal, kəmiyyət, mənsubiyyət, zaman, şəxs kateqoriyaları dillərin mövcudluq əlamətləridir, ona görə də bu və ya digər bir dili başqasından fərqləndirmək üçün bunların varlığı və ya yoxluğu deyil, hansı formada, hansı vasitələrlə reallaşması əsasdır. Bu cəhətdən qonşu türk dilləri ilə müqayisədə Axısqa dilində bir sıra morfoloji proseslərin «ləngiməsi» müşahidə olunur. Belə ki türk və Azərbaycan dillərindəki bir çox dördvariantlı şəkilçilər bu dildə özünü yalnız bir variantda göstərir. Üçüncü şəxsin mənsubiyyət şəkilçisi ***-i (quzusi, atasi),*** birinci şəxs cəmin xəbərlik şəkilçisi ***-ux (adamux, gəlinux),*** əmr şəklinin birinci şəxs təkinin şəkilçisi ***-em (şəkil çəkem)***, xəbər şəkli birinci şəxs cəmin şəkilçisi ***-ax (gedax, edax),*** indiki zamanın şəkilçisi ***-iyer (gəliyer, baxiyer***), keçmiş zamanın şəkilçiləri ***-di, miş (baxdiz, yapdurmişiz)*** və s. birvariantlı olub, ahəng qanununun tələblərinə cavab verəcək şəkildə variantlaşmamışdır.

Bəzi formaların ikivariantlılığı da eyni proseslə izah oluna bilər: isimlərin cəmlənməsində ***-lar,-lər*** şəkilçisi ilə yanaşı,***-lux*** şəkilçisindən istifadə (***adamlux – adamlar, onnux – onlar, gəlinnux – gəlinlər***), əmr şəklinin birinci şəxs təkində ***-em*** şəkilçisi ilə yanaşı, arxaik ***-əyim, -ayım*** şəkilçisindən (***varayım, gətirəyim***) istifadə, üçüncü şəxsin cəmini bildirən şəxs əvəzlikləri (***onnar/unnar, onnux/unnux***) və s. Morfoloji əlamətlərin bir çoxunda qapalı saitlilik: xəbərlik şəkilçiləri ***-ım, -sın*** (***türküm*** – türkəm***, adamsın*** – adamsan), zaman şəkilçilərindən sonra işlənən şəxs şəkilçiləri ***-im,***

-ux, -sin (***qoymuş-im, gediyer-ux, demiş-sin***), ***-ır*** və ***-ar*** şəkilçilərinin indiki və qeyri-qəti gələcək zaman kimi sabitləşməməsi, bir sıra arxaik morfoloji vahidlərin (isimlərdə birgəlik halın, ***-qa, -gə*** yönlük hal şəkilçisinin, ***-ibən, -uban, -übən*** feli bağlama şəkilçilərinin) fəal mövqeyi, ***ulaşmaq*** (çatmaq), ***qonmaq*** (oturmaq, sakin olmaq, düşmək), ***tütümək*** (yanmaq, tüstüləmək) və s. arxaik fellərin müasir Axısqa dilində işləkliyi, saitlə qurtaran qohumluq bildirən bəzi sözlərə adlıq və təsirlik hallarında ***-y, -ay*** formantlarının artırılması (***Babay*** *hani?,* ***Qapiy*** *yüzümə bir oğlan açdi)*, söz sonunda ***i***-ləşmə (***qoxi, qapi***) bu dilin fərqləndirici morfoloji əlamətlərindəndir.

Növ və təsirlik kateqoriyalarının, feli bağlama və feli sifətlərin, zərflərin və köməkçi nitq hissələrinin inkişaf vəziyyətinə bir qədər ətraflı nəzər yetirmək mümkün idi. Xüsusən növ və təsirlik şəkilçiləri felin struktur-semantik inkişafında mühüm rol oynamaqla daim tədqiqat üçün maraqlı material verir.

Monoqrafiya Axısqa dilinin sintaktik quruluşunun ilkin tədqiqi ilə tamamlanır. Müəllif folklor nümunələrindən, qəzet materiallarından, el şairlərinin əsərlərindən topladığı nümunələr əsasında feli və ismi birləşmələr, cümlənin məqsədə görə növləri, cümlə üzvləri, onların əlavəsi, xüsusiləşməsi, təktərkibli və cüttərkibli, müxtəsər və geniş, bütöv və yarımçıq cümlələr, qrammatik cəhətdən cümlə üzvləri ilə bağlana bilməyən sözlər və birləşmələr, tabesiz mürəkkəb cümlələrdə məna əlaqələri, budaq cümlə və onun növləri, söz sırası və cümlə üzvlərinin aktuallaşması, inversiya və komponentlərin yerdəyişməsi məsələlərinə dair araşdırmalar aparmış, bu qədim etnosun dil sistemində sintaktik quruluşun milli və orijinal qanunlarını üzə çıxarmaqla Axısqa türk dilinin müstəqil bir dil kimi mövcudluğunu təmin edən struktur xüsusiyyətlərin icmalını vermişdir. Aydın hiss olunur ki, Axısqa dilinin cümlə sintaksisində nisbi sərbəstlik vardır.

İ.B.Kazımov bu əsər üzərində işləyərkən türkoloji ədəbiyyatı diqqətlə nəzərdən keçirmiş, zəngin elmi mənbələrə əsaslanmışdır. Tədqiqat prosesində türk dillərinin qədim abidələrinə, müasir türk dillərinə, xüsusilə oğuz qrupu dillərinin materiallarına müraciət edilmiş, ardıcıl olaraq türk və Azərbaycan dilləri ilə müqayisələr aparılmışdır. Axısqa dilinin qohum və qonşu dillər əhatəsində məruz qala biləcəyi təsir, bu

təsirin əhatə dairəsi tədqiqatçının daim diqqət mərkəzində olmuşdur. Şübhəsiz, bir əsərlə, – o nə cür qiymətə malik olur-olsun, – müəyyən bir dilin tədqiqinə nöqtə qoymaq olmaz. İ.B.Kazımovun bu əsəri Axısqa dilinin elmi arenaya çıxarılması, onun fonetik, leksik və qrammatik xüsusiyyətlərinin sistemli tədqiqi baxımından qiymətlidir və biz bu əsərdən aldığımız təəssürat əsasında Oğuz dillərinin cənub-qərb yarımqrupundan danışarkən Azərbaycan, türk, türkmən, qaqauz, cənubi Krım tatarlarının dilləri ilə yanaşı, Axısqa türklərinin dilini də nəzərdə tuta bilərik.

07.09.99

M.KAŞĞARİ "DİVAN"ININ ONOMASTİK LEKSİKASI

"Heç bir şey izsiz yox olmur" müdrik kəlamı Mahmud Kaşğarinin "Divanü lüğət-it-türk" əsəri ilə də təsdiq olunur. XI əsrdə belə bir lüğətin meydana çıxması təsadüfi deyil. Qərbdən Şərqə böyük ərazilərdə məskunlaşmış turk xalqlarının yaratdıqları, qurduqları, ad verdikləri izsiz yox ola bilməzdi. Kaşğari olmasa da, başqa bir türk ortaya çıxmalı və bunları əbədiləşdirməli idi. Bu vəzifə tarixdə "Mahmud Kaşğari" adını daşıyan, həqiqi şəklini belə görə bilmədiyimiz bir türkün öhdəsinə düşmüş, o bu vəzifənin məsuliyyətini dərk edərək böyük bir xəzinə yaratmışdır. Minlərlə tədqiqatçı bu xəzinədən pay götürür. O cümlədən haqqında bir neçə söz demək istədiyimiz "XI yüzilliyin tarixi onomastik leksikası" əsərinin müəllifi Cahid İsmayıloğlu da.

Cahid İsmayıloğlu istedadlı bir gəncdir. Namizədlik mövzusu götürənə qədər türk tarixinə, Azərbaycan türk dilinin inkişaf yoluna dair xeyli məqalə yazmışdır. Yazıları burada və Türkiyədə çap olunmuşdur. İstiqaməti xəlqi və millidir. Vətənsevər bir gəncdir.

C.İsmayıloğlunun seçdiyi mövzu bu yaxınlarda avtoreferatı ilə tanış olduğum, lakin adını demək istəmədiyim bir "doktorluq dis-

sertasiyası"ndan on dəfə faydalı və maraqlıdır. Cahid M.Kaşğaridən başlasa da, əsərin məzmunu yalnız Kaşğari "Divan"ının materialları ilə məhdudlaşmır. Müəllif düzgün yol tutmuş, birinci minillikdən və sonrakı dövrlərdən keçib gələ bilmiş başqa mənbələrə də - qədim türk yazılı abidələrinə, "Oğuznamələr"ə, Yusif Balasaqunlunun "Kutadqu bilik" əsərinə yeri gəldikcə nəzər salmalı olmuşdur.

Onomastik leksika terminoloji advermə baxımından bəzən çox xırdalanır. Əslində, cəmiyyətin və dilin inkişaf tarixini öyrənmək istiqamətində antroponimlər, etnonim və toponimlər kifayət qədər material verir. Müəllif də öz tədqiqatını, başlıca olaraq, bunların üzərində qurmuşdur.

Kaşğari "Divan"ının onomastik leksikası zəngindir və bu əsasda bir tarix yaratmaq olar. Elə buna görə də müəllif tədqiqat prosesində yeri gəldikcə o dövrün cəmiyyət tarixinə də diqqət yetirməli olmuşdur. Lakin bir dilçi kimi, təbii ki, məqsəd xüsusi adların linqvistik təhlili, dilçilik baxımından tədqiqidir. Müəllif fakt və hadisələri sadalamaqla vəzifəsini yerinə yetirə bilməzdi. Odur ki əsər bütövlükdə faktların təhlili, etimoloji araşdırmalar üzərində qurulmuşdur.

Türk tarixi bilərəkdən və ya bilməyərəkdən daim təhrif edilmişdir və bu proses hələ də davam etməkdədir. Türk xalqlarının tamamilə gənc olduğunu, dünən, srağagün yarandığını güman və iddia edənlər var. Müəllifin tədqiqatının nəticələri, topladığı dəlillər və faktlar saxta və yanlış "tarixləri" təkzib edir. Bəzilərinin fikirlərinə görə, bizim birinci minilliyin ortalarından ikinci minilliyin ortalarına və hətta XVIII əsrə qədər Yer üzündə vahid ümumtürk ədəbi dili ("türki" adlanan dil) olub. Müəllifin Kaşğari lüğəti əsasında apardığı hələ ilkin araşdırmalar bu cür konsepsiyanın uydurma, yanlış və zərərli olduğunu təsdiq edir: "Qaraxanlı islam dövləti idi. Kaşğar bu dövlətin mərkəzi sayılırdı. Həmin dövlətin şərqdə Koçu dövlətində yaşayan, buddizm dininə sitayiş edən uyğurlarla münasibət və əlaqələri çox da yaxşı olmamışdır. Maraqlı budur ki, adları çəkilən əsərlərin meydana gəldiyi dövrdə həmin bölgələrdə bir-birindən mahiyyət etibarilə fərqlənən iki mədəniyyət və iki ədəbi dil mövcud idi. Kaşğar türklərinin dilinə ərəb-fars elementləri, uyğur türklərinin dilinə

isə çin və sanskrit dillərinə məxsus olan leksik-terminoloji vahidlər daxil olmağa başlayırdı". Hələ bu tərəfdə - qərbdə həmin dövrdə "Dədə Qorqud" kimi misilsiz abidəsi olan, ümumxalq dili kimi III -V əsrlərdə formalaşmış Azərbaycan dilini demirik.

Buradakı fikir tam doğrudur. Müəllif bütün türk dünyasından deyil, bir bölgədə mövcud olan iki ədəbi dildən danışır. Müəllifin qeyd etdiyi bu məlumat əsaslıdır. Deməli, o dövrə məxsus başqa ədəbi dillər haqqında da danışmaq mümkündür.

Məlumdur ki, hər bir əsərdə ondan əvvəl deyilmiş fikirlərə istinad edilməli və doğru olanlar ortaya çıxarılmalıdır. Bəzən bizim elmi ədəbiyyatda belə fikirlərə rast gəlirik (müəllif kimə istinad etdiyini bildirməsə də): "Qədim ana türk yurdundan durmadan ***Orta və Ön Asiyaya doğru axına başlayan köçəri tayfalar*** (kursiv bizimdir - Q.K.) yerləşdikləri, məskunlaşdıqları yeni-yeni coğrafi ərazilərdə mədəni həyata qatılmış və qısa zaman kəsiyində sənət və əkinçilikdə irəliləyiş əldə etmişlər". Hələ də bizim tədqiqatçılar (tarixçilər, dilçilər və s.) tarixin gedişini əksinə izah edir, nəzərə almırlar ki, Türklərin ana yurdu Kaşğar və ya Altay deyil, Ön Asiyadır. Bu cəhətdən Cahid həm bu əsəri, həm də bu vaxta qədər yazdığı bir sıra məqalələri ilə düzgün yoldadır. Türkün beşiyi Ön Asiyadır.

Cahid Kazımov araşdırmalar əsasında bu qənaətə gəlir ki, M.Kaşğari daha çox Xaqanlıq türkcəsini, Çigilcə və Oğuzcanı canlandıra bilmiş, bununla yanaşı: "…Bizans hüdudlarından Çin sərhədlərinə qədər uzanan türk ellərində yaşayan türk qəbilə və tayfalarının ləhcə və dillərindən də nümunələr vermişdir. Kitabda türklərin yaşadığı yerlərə, türk etnoqrafiyasına, onların toplum həyatına, inanclarına dair də məlumatlar tapmaq olar". Müəllifin meyil və istəyi doğrudur, şərqdən qərbə demir, Bizansdan şərqə doğru nəzərdə tutur. Bu, türklərin yayılma istiqamətini düzgün əks etdirir (sonrakı geri qayıtmaları istisna etmirik). Bu dövrdə feodalizmin min ilə yaxın yaşı vardı və artıq xalqlar mövcud idi. Kaşğari təsadüfi hallarda kiçik qəbilələri araşdırmağı çatdıra bilərdi.

Lüğətdəki antroponimlərin tədqiqi bir çox cəhətdən maraqlı və faydalıdır. Ərəb işğalı nəticəsində islam dinini qəbul etmiş türk xalqları istifadə etdikləri xüsusi şəxs adlarını bir çox hallarda

unutmuş, ərəb mənşəli xüsusi adlara keçmişlər. Lakin Kaşğari dövründə hələ islam dini insanların beyninə, qanına o dərəcədə yeriməmişdi, qədim türk ad ənənəsi müəyyən nisbətdə davam etməkdə idi. Monoqrafiya müəllifi bu cəhəti nəzərə almış və yazmışdır: "Şəxs adları türklərin qədim tarixini - islamdan əvvəlki dövrünü, onların adqoyma ənənələrini, dünyagörüşünü, dini-mifoloji təsəvvürlərini, psixologiyasını, qohumluq münasibətlərini, məşğuliyyətini və s. əks etdirir".

Müəllif özündən əvvəlki tədqiqatçıları düzgün tənqid edir ki, onlar "Divan"dakı adların mənşəyindən danışarkən türk mənşəli xüsusi adlara - antroponimlərə az diqqət yetirmişlər Odur ki əsərdə bu cür antroponimlərə xüsusi yer vermişdir. Türk mənşəli antroponimlərdən danışarkən türkləri elmi ədəbiyyata əsasən iki qrupa - şimal və cənub türk xalqlarına ayırmışdır: "Tədqiqatlar göstərir ki, Mahmud Kaşğarlı dövründə bütün türk xalqları iki - şimal və cənub qrupuna ayrılmışdı. Şimal qrupunu qıpçaqlar, peçeneqlər, tatarlar, qırğızlar təşkil etdiyi halda, cənub qrupunu uyğurlar, tabğaclar, çigillər, tuxsilər, yağmalar, cumullar, çaruklar və digərləri təşkil edirdi". Müəllif N.A.Baskakovdan götürdüyü bu bölgünü təbii olaraq təkmilləşdirməli olmuşdur.

C.İsmayıloğlu türk mənşəli xüsusi adların (antroponimlərin) şərhini də bu istiqamətdə aparmalı olmuşdur. Türk mənşəli adlarla yanaşı, əsərdə fars mənşəli antroponimlərə də geniş yer verilmişdir. "Divan"dakı Alp Ər Tonqa adı haqqında, təbii olaraq, bir qədər geniş bəhs edilmişdir Tonqanın, onun qızı Kazın, oğlu Barsğanın adları Qaraxanilərdən 1700 il əvvəlin hadisələri ilə bağlıdır və deməli, müəllif onların adlarından danışmaqla M.Kaşğaridən 1700 il əvvəlin hadisələrini və dil-nitq xüsusiyyətlərini nəzərdən keçirməli, Midiya dövlətindən, Midiya imperiyasının son çarı Astiaqdan, böyük Turan imperatorundan danışmalı olmuşdur. Nə qədər böyük hadisələrdir ki, iki min ilə yaxın bir dövrdə xalqın yaddaşınqdan silinməmişdir.

"İsadan öncə VII əsrdə yaşayan Saka hökmdarı Alp Ər Tunğa (Əfrasiyab) Edil (= Volqa) çayı tərəfindən gələrək Dəmirqapı üzərindən Ön Asiyaya keçmiş…" - sözlərindən oxucu belə nəticə çıxarmamalıdır ki, Tonqa Orta Asiyalıdır. Bunlar

onun son döyüşləri dövrünə aiddir. Alp Ər Tonqa Ön Asiyalıdır - Azərbaycan türk Midiya dövlətinin son çarıdır.

Müəllif qeyd edir ki, Mahmud Kaşğari türklərin Rumdan Maçinədək olan geniş bir ərazidə yaşadığını və əsl türklərin 22 tayfadan ibarət olduğunu göstərir. Onun verdiyi bilgilərə görə, hər bir tayfanın çoxlu uruğları (qəbilələri) var ki, onların sayını yalnız tanrı bilir. Böyük türkoloq bunlardan əsasən ana uruğları yazmış, kiçik tayfalardan bəhs etməmişdir. Amma o, oğuz türklərinin kiçik uruğlarını, mal-qaralarının damğalarını da yaddan çıxarmamış, insanların bu məlumatı bilmələrinin ehtiyacdan irəli gəldiyinə işarə vurmuşdur.

"Divan"da ən mühüm məsələlərdən biri Azərbaycanla, Azərbaycan türkləri ilə bağlı fikirlərin araşdırılmasıdır. Bu cəhətə az fikir verilməyib. Məsələn, müəllif qeyd edir ki, Mahiud Kaşğari 5 oğuz şəhərinin adını çəkir: Sepren, Sitkün, Suğnak, Karnak, Karacuk. Bunlardan Seprenin Şabran olduğu müəyyənləşdirilir. Şabran Azərbaycan şəhəridir, o biri şəhərləri də axtarmaq lazım idi.

M.Kaşğarinin "Divan"ında işlənmiş antroponim, etnonim və toponimlər yalnız Kaşğari dövrünün məhsulu deyildir. Bu adlardan eləsi var ki, Kaşğaridən iki min il əvvələ aiddir. Eyni zamanda, Kaşğarinin toplayıb təqdim etdiyi xüsusi adlar 11-ci yüzilliklə məhdudlaşmır. Sonrakı yüzilliklərdə də işlənməkdə davam edir. Odur ki C.İsmayıloğlu Kaşğarinin "Divan"da verdiyi adları sistemli şəkildə üzə çıxarıb təhlil etməklə çox böyük bir dövrün xüsusi ad sistemini nəzərdən keçirməli olmuşdur. Həm də nəzərə alsaq ki, burada yalnız insan adları deyil, etnonimlər, geniş mənada toponimlər (şəhər, dağ, dərə, meşə, çay adları və s.) öyrənilmişdir, o zaman bu əsərin dəyəri daha da artmış olur. Həqiqətdə də C.İsmayıloğlu böyük zəhmətə qatlaşmış, xüsusi adların "Divan"a səpələnmiş böyük bir layını türkü və onun tarixini sevən bir tədqiqatçı kimi üzə çıxarmış, təhlil etmişdir.

Əsərdə onomastik leksikanın linqvistik təhlili ön plandadır. Müəllif çalışmışdır ki, Kaşğarinin öz qeydləri və ya müasir elmi ədəbiyyat əsasında imkan daxilində hər bir xüsusi adın mənşəyi ilə bağlı fikir söyləsin, etnonimin, toponim və ya antroponimin necə yarandığı barədə ən ağlabatan şərhlərlə oxucunu inandırsın

və əksərən də bu istəyinə nail olmuşdur. Əlbəttə, elə sözlər var ki, onların məna və mənşəyini insanlar artıq unutmuşlar, ona görə də neçə yerə yozmaq mümkündür. Bu əsərdə də belə faktlar var, müəllif gənc olmasına baxmayaraq, əksərən onlara dair ağlabatan fikirləri seçib götürmüşdür. Bu cəhətdən əsər yaxşı təəssürvat yaradır. Oxucu türkün keçmişi ilə tanış olur, onun advermə adət-ənənələrini öyrənə bilir.

Lakin təhlil bunlarla bitmir. Hər bir xüsusi adın arxasında bir cəmiyyət durur. Odur ki linqvistik təhlil prosesində oxucu o dövrün adət-ənənələri, ictimai-siyasi vəziyyəti, quruluş xüsusiyyətləri, yaşayış tərzi, mədəni inkişaf səviyyəsi ilə də tanış ola bilir, bütövlükdə türk aləminin bir neçə əsrlik mənzərəsi göz önünə gəlir.

Müəllif tədqiqat prosesində mümkün olan çoxsaylı elmi ədəbiyyata kifayət qədər baş vura bilmiş, fikirlərinin isbatı üçün onlardan lazımi şəkildə istifadə edə bilmişdir. Kitab türkoloji aləm üçün faydalı olacaqdır.

Monoqrafiya göstərir ki, belə bir çətin mövzunun öhdəsindən bacarıqla gəldiyi üçün Cahid İsmayıloğlu tədqiqat işlərini davam etdirərsə, türkologiyada uğurlar qazana bilər.

04.10.2008

II
DİLİMİZİN QURULUŞU: FONETİKA, ORFOQRAFİYA, ORFOEPİYA, LEKSİKA, MORFOLOGİYA, CÜMLƏ VƏ MƏTN PROBLEMLƏRİ

ORFOEPİYAMIZ ÖYRƏNİLİR

Dilçilik elmimizin müxtəlif sahələri üzrə tədqiqat yazılı ədəbi dilin öyrənilməsinə doğru daha çox istiqamətləndirilmişdir. Ədəbi dilin şifahi qolu yazılı ədəbi dilə nisbətən az tədqiq edilmişdir. Bunu iki konkret sahənin – orfoqrafiya və orfoepiya məsələlərinin tədqiqi ilə əlaqədar görülmüş işlərin müqayisəsi əsasında da söyləmək mümkündür. Sovet dövründə bir neçə dəfə imla konfransı çağrıldığı, yazı qaydaları dəfələrlə geniş müzakirə edildiyi, düzgün, vahid yazı prinsip və qaydaları müəyyənləşdirildiyi, orfoqrafiya lüğətləri nəşr olunduğu halda, ədəbi tələffüzün öyrənilməsi sahəsində çox az iş görülmüşdür. Azərbaycan SSR xalq artisti Kazım Ziyanın daha çox səhnə sənəti ilə bağlı olan «Səhnə dili haqqında» kitabçası istisna edilməklə, hələlik prof.Ə.Dəmirçizadənin «Ədəbi tələffüz (orfoepiya)», filologiya elmləri namizədi Ə.Əfəndizadənin «Ədəbi tələffüz haqqında» məqalələri bu sahəyə dair əsas mənbələr hesab olunur. Ədəbi tələffüz məsələlərinə həsr edilmiş müşavirə və ya konfrans xatırlamırıq. Doğrudur, Ə.Dəmirçizadənin təşəbbüsü ilə tələffüz məsələləri bir müddət respublika radio verilişləri sırasına daxil edilmişdi. Lakin bu sahədə söhbətlər çox vaxt ali məktəb auditoriyaları ilə məhdudlaşmışdır. Bunlara baxmayaraq, elm və mədəniyyətin inkişafı, yazılı ədəbi dilə məxsus qaydaların dəqiq öyrənilməsi, xalqın mədəni səviyyəsinin daha sürətlə yüksəlməsi, icbari orta təhsil, ali təhsilin genişlənməsi, qurultay və konfranslarda söylənilən nümunəvi nitqlər və s. ədəbi tələffüzün formalaşmasına, düzgün qaydaların sabitləşməsinə daha çox təsir göstərmiş və bu sahənin nəzəri şəkildə öyrənilməsini günün zəruri problemləri sırasına çıxarmışdır. Şübhəsiz, Ə.Dəmirçizadənin keçən il çapdan çıxmış «Azərbaycan dili orfoepiyasının əsasları» (V.İ.Lenin adına APİ nəşriyyatı,1969) kitabı belə bir ehtiyacın nəticəsidir.

Ə.Dəmirçizadə bu əsərdə Azərbaycan dili orfoepiyasının bir sıra məsələlərini ilk dəfə sistem halında, ətraflı tədqiq etmişdir.

Kitab «Ədəbi tələffüz» bölməsi ilə başlanır. Müəllif burada tələffüz, orfoepiya, tələffüz üslubları kimi mühüm məsələləri əhatə etmişdir. «Tələffüz» çox geniş anlayışdır. Tələffüz vasitələri və tələffüz şəraiti ilə bağlı olan vurğu, intonasiya, fasilə-durğu kimi hadisələr də müəllif tərəfindən geniş mənada tələffüz anlayışına da-

xil edilir. Bundan əlavə, tələffüz həm normalaşmış dilə, həm də dilin qollarına – dialekt və şivələrə aid olduğundan anlayışı konkretləşdirmək üçün bu və ya digər bir müəyyənləşdirici sözə ehtiyac olur: ***ədəbi tələffüz, məhəlli tələffüz*** və s. Çünki alimin fikrincə, «…hərflərin dəqiq yazılıb-yazılmaması, bir-birinə düzgün bitişdirilib-bitişdirilməməsi, xəttin aydınlığı və eybəcərliyi, sözlərin aydın və bitişik yazılması kimi hallar yazı üçün nədirsə, sözün, ifadənin tərkibindəki fonetik vahidlərin ümumiləşmiş normalara müvafiq tələffüz edilib-edilməməsi şifahi nitq üçün eyni mahiyyətli bir haldır».

Müəllif, ümumiyyətlə, tələffüz haqqında məlumat verdikdən sonra mövzu ilə daha çox bağlı olan orfoepik tələffüz məsələlərinə keçir və orfoepiyanı ədəbi dilin şifahi qolunu ümumi normalar əsasında formalaşdıran qayda-qanunların sistemli məcmusu kimi şərh edir, orfoepik tələffüzün dilin müxtəlif üslubları, nitqin sürəti və sairə kimi amillərlə əlaqədar olduğunu, nitq nöqsanlılığının bura daxil olmadığını yazır. Professor göstərir ki, ünsiyyətin şəraiti, tərzi, məzmunu, danışıqda iştirak edənlərin sayı, kimin danışması və kimə müraciət etməsi, danışanın və dinləyənin yaş xüsusiyyətləri, ixtisası və s. kimi cəhətlərin hamısı tələffüzə təsir edir və dil vahidlərinin tələffüzdə müxtəlif çalarda formalaşmasına, beləliklə, müxtəlif tələffüz üslublarının əmələ gəlməsinə səbəb olur. «Tələffüz üslubları» həm geniş, həm də dar mənada başa düşülür. Dilin fonetik imkanlarının hər bir növü, hətta vurğu, intonasiya, sürət, natiqlik, səhnə dili kimi məsələlərin də geniş mənada tələffüz üslubuna daxil olduğu göstərilir. «Tələffüz üslubları» anlayışı dar mənada «orfoepik üslublar» terminə uyğun gəlir və bu mənada səslərin məxrəcəuyğun, ədəbi dil normalarına müvafiq tələffüzü, qismən də vurğu, ton nəzərdə tutulur. Professor buradaca L.V.Şerba, R.İ.Avanesov və bu sahə ilə məşğul olmuş başqa alimlərin tələffüz üslubları barədə fikirlərini nəzərdən keçirərək, həmin məsələdə dilçilər arasında vahid rəy olmadığını göstərmiş və orfoepik üslubu «tam üslub», «sərbəst üslub» kimi iki növə ayırmışdır.

Kitabın ən maraqlı hissələrindən biri ədəbi tələffüzün mənbələrinə həsr edilmiş bölmədir. Bizcə, müəllifin qırxıncı illərdən başlayaraq qeyd etdiyi bu qənaəti yeganə doğru qənaətdir ki, «ədəbi

dil seçmə və əvəzetmə yolu ilə formalaşdırıldığı kimi, onun təzahür vasitələrinin, xüsusən şifahi ədəbi dilin təzahür vasitəsi olan tələffüzün normaları, qayda-qanunları da məhz seçmə və əvəzetmə yolu ilə müəyyənləşdirilir». Belə seçmə və əvəzetmə əməliyyatının aparılması üçün üç mənbə olduğu (şivələr, yazı, ənənəvi və əcnəbi mənbələr), bu mənbələrdən isə şivələrin daha böyük rola malik olduğu göstərilmişdir. Müəllifin bu nöqtədə də məntiqi nəticələri heç bir şübhə doğurmur: ədəbi dil normaları baxımından hər bir şivədə düzgün cəhətlər olduğu kimi, düzgün olmayan cəhətlər də vardır; buna görə də təklikdə heç bir şivə ədəbi tələffüz normalarını müəyyənləşdirmək üçün yeganə, nümunəvi mənbə sayıla bilməz. Doğrudan da, nə qazaxlıların ***murtda, gəle:rəm, gözdö:r***; nə şəkililərin ***gəlitdi, yimax, gəlcik;*** nə naxçıvanlıların ***həylə dəyil, əvə***; nə qubalıların ***udun, gidəduğ, gələtdi***; nə qarabağlıların ***bajı, alıf, gələjəm*** və nə də bakılıların ***qərdeş, nöş, nödü, diyan***… şəklində tələffüzü ədəbi tələffüzün əsasında dura bilməz. Ədəbi dilimizin əsasında heç bir dialekt yeganə nümunəvi vahid kimi əsas ola bilmədiyi üçün təklikdə heç bir dialekt və ya şivə orfoepik tələffüz üçün nümunə ola bilməz.

Ədəbi tələffüz normalarının müəyyənləşdirilməsi üçün bu və ya digər dərəcə dialekt və şivələrimizin hamısı iştirak edir. Ə.Dəmirçizadə seçmə və əvəzetmə əməliyyatı əsasında ədəbi tələffüz normalarının iki pillədə formalaşdığını müəyyənləşdirmişdir. Birinci pillə bu və ya digər rayon mərkəzi olan şəhərin, qəsəbənin ətrafındakı kənd şivələrinin rayon mərkəzində qovuşma və mərkəzləşmə pilləsi hesab olunur və bu sahədə Naxçıvan, Şuşa, Gəncə, Qazax, Şəki, Şamaxı, Bakı, Lənkəran kimi şəhərlərin rolu xüsusi qeyd edilir; ikinci pillə isə «… əsasən şivə qruplarının ümumi mərkəzdə – paytaxtda qovuşma və ümumiləşmə pilləsidir». Müəllif bunu da qeyd edir ki, Bakıda mərkəzləşən, formalaşan paytaxt tələffüzü ilə məhəlli Bakı tələffüzü, yerli bakılıların şivə xüsusiyyətləri başqabaşqa anlayışlardır. Paytaxt tələffüzü dedikdə, qurultaylarda, konfranslarda, məktəb və idarələrdə, auditoriyalarda ümumiləşmiş tələffüz nəzərdə tutulur ki, burada respublikamızın bütün rayonlarını təmsil edən ziyalıların, fəhlə və qulluqçuların danışığı, ifadə tərzi əsas rol oynayır.

Şivələr əsas olsa da, ədəbi tələffüz üçün yeganə mənbə deyildir.

Bu sahədə yazının, yazılı ədəbi dilin də rolu böyükdür. İndiki orfoqrafiya qaydaları tələffüz normalarının müəyyənləşməsinə ciddi təsir edir. Orfoqrafiya ilə orfoepiya sıx əlaqədar olduğundan bir çox sözlərin yazılışı onların tələffüzünə əsaslandığı kimi, bir çox sözlərin düzgün tələffüzü də yazıya əsaslanır. Bir sıra alınma sözlərin, terminlərin və qısaltmaların tələffüzü isə onların yazılışına uyğunlaşdırılmışdır. Alınmaların bir qismi mənşə dildəki kimi tələffüz edilir. Bu cür sözlər «ənənəvi və əcnəbi mənbələr» əsasında tələffüz adlandırılmışdır.

Kitabdakı «Tələffüz şəraiti haqqında» adlı bölmə də maraqlı və dilçiliyimiz üçün yenidir. Bu bölmədən səslərin üç şəraitdə – lüğəvi, qrafik və qrammatik şəraitdə tələffüzü barədə məlumat alırıq. «Lüğəvi şərait» dedikdə müəllif sait və samitlərin söz daxilindəki yeri, məqamı ilə əlaqədar tələffüz qaydalarını; «qrafik şərait» dedikdə müxtəlif əsasda yaranmış qısaltma sözlərin, «qrammatik şərait» dedikdə isə sözlərin morfoloji vasitələrlə dəyişməsi, sintaktik yol ilə birləşməsi prosesindəki tələffüzünü nəzərdə tutmuşdur.

Tələffüz vasitələrinin əsasını saitlərin və samitlərin tələffüzü təşkil edir. Ona görə də müəllif saitlərin və samitlərin lüğəvi şəraitdə – sözün tərkib hissəsi halında tələffüzünü daha diqqətlə öyrənmişdir. Bu hissə ilə ilk tanışlıqdan aydın olur ki, səslərin düzgün tələffüzünü müəyyənləşdirmək üçün çox zəngin lüğət materialı nəzərdən keçirilmişdir. Saitlərin və samitlərin sözlərin tərkibində tələffüzü qaydalarına aid bu bölmə, demək olar ki, orfoepik qaydalardan bəhs edən bu əsərin canı, bel sütunudur.

Kitabın sonuncu iki bölməsi – qrafik və qrammatik şəraitdə tələffüz bölmələri tədqiqatın xarakterinə görə fərqlənir. Sonuncu bölmədə yalnız tam üsluba aid tələffüzdən deyil, paralel şəkildə sərbəst üsluba məxsus tələffüzdən də danışılır. Bu, mövzunun dairəsini xeyli genişləndirir. Qrafik şəraitdə tələffüz qaydalarının izahı dilçiliyimiz üçün yeni olduğundan daha çox öyrədici xarakter daşıyır. Burada müxtəlif əsasda düzəldilmiş qısaltma sözlərin əmələgəlmə yolları və onların qanuni olaraq necə tələffüz edilmələri barədə qaydalar verilmişdir. Göstərilən qaydalar əslində qısaltma sözlərin öz təbiətindən doğur. Qısaltmaların bəziləri hərflərin adları ilə («***BK»-BeKa***), bəziləri hərflərin yaratdığı heca ilə («***APİ» – A-Pİ)***, bəziləri sözlərin ilk hissələrinin qovuşdurulması

əsasında düzələn sözlər ilə (məs.: «*rayon komitəsi*» sözlərindən «*raykom*» qısaltması kimi), bəziləri isə qarışıq halda, bir neçə əsasda (məsələn: *UİLKGİ* qısaltması *UİLKAGİ* şəklində) tələffüz edilir. Kitabda bu tələffüz formalarının hər birinin müxtəlif variantları da verilmişdir

Qısaltmaların düzgün tələffüzündə əksəriyyət çətinlik çəkir. Ona görə də qısaltma sözlərin tələffüz qaydalarının tədrisini genişləndirmək, məktəb qrammatikasında bu məsələyə daha geniş yer vermək lazımdır.

Sözlərin qrammatik şəkilçilər qəbul edərkən necə tələffüz olunmalarına, yəni qrammatik şəraitdə tələffüzə dair bu əsərdə geniş məlumat vardır.

Son vaxtlar radio verilişlərini dinləyərkən, ***-sınız (-siniz, -sunuz, -sünüz***) şəkilçisi əvəzinə, guya ədəbi və düzgün tələffüz kimi, ikinci şəxs cəmi bildirmək üçün ***-siz*** şəkilçisinin işləndiyini müşahidə edirik. Şəkilçinin bu cür tələffüzü hər dəfə diqqətin yayınmasına, məzmunun unudulmasına və tələffüz haqqında düşünməyə səbəb olur. Şübhəsiz, professor Ə.Dəmirçizadənin ikinci şəxsin cəmini bildirmək üçün işlədilən ***-siz*** şəkilçisini (məs.: ***alır-sız, deyir-siz*** və s.) tam üsluba deyil, sərbəst üsluba aid etməsi tamamilə düzgündür.

Ə.Dəmirçizadənin «Azərbaycan dili orfoepiyasının əsasları» kitabı orfoepik tələffüz məsələlərinə həsr edilmiş ilk həcmli çap əsəridir. Əhatəli olmasına baxmayaraq, bu kitabda ədəbi tələffüzlə əlaqədar hər şeyi axtarmaq cəhdi düzgün olmazdı. Kitab, əsasən, orfoepik tələffüz qaydalarını, düzgün və nümunəvi tələffüz prinsiplərini özündə cəmləşdirmişdir. Əsərdə bəzi qüsurlar da vardır. Lakin əminik ki, ədəbi və mədəni tələffüz vərdişlərinin yayılma və inkişafında, düzgün tələffüz normalarının təlim və tədrisində onun mühüm rolu olacaqdır. Bu kitabdan yalnız filologiya fakültələrinin müəllim və tələbələri deyil, düzgün tələffüz qaydalarını öyrənmək və öyrətmək istəyən hər kəs istifadə edə bilər.

13.09.70

BİR DƏRSLİK HAQQINDA

Son 30 ildə ədəbi dilimizin fonetik sistemi, lüğət tərkibi və qrammatik quruluşunun hərtərəfli tədqiqi sahəsində qiymətli elmi əsərlər, namizədlik və doktorluq dissertasiyaları, dəyərli monoqrafiyalar yaranmışdır. Professor Ə.Dəmirçizadənin bu günlərdə çapdan çıxmış «Müasir Azərbaycan dili» («Maarif» nəşriyyatı, Bakı, 1972) kitabı da belə əlamətdar hadisələrdəndir.

Ədəbi dilimizin fonetik quruluşuna, tələffüz və orfoqrafiya məsələlərinə həsr olunmuş bu ilk dərslik nitq zəncirinin həlqəciklərini təşkil edən dil vahidlərindən ən kiçiyinin – səslərin tədqiqi ilə başlanır. Ona görə də əsərin birinci hissəsi «Müasir Azərbaycan dilinin fonetikası» adlandırılmışdır.

Dərsliyin ümumi fonetika məsələlərindən bəhs edən bölməsində fonetikanın mövzusu, fonetik tədqiqatın üsulları, əhəmiyyəti, fonetikanın növləri və fonetik transkripsiya haqqında yığcam məlumat verilmiş, danışıq səslərinin fiziki və fizioloji cəhətlərinin tədqiqinə xüsusi diqqət yetirilmişdir. Səsin törəmə mənbələri, müəyyən mühitdə yayılması, qulaq vasitəsilə qəbul olunması və beyində müəy-yən təəssürat yaratması, səs zərbələri, küylü-gurultulu və tonlu-musiqili səslər, səsin gücü, ucalığı, uzunluğu, tembri və s. haqqında məlumat lazımi təsəvvür yaradır, danışıq səslərinin filoloq üçün daha maraqlı olan dilçilik cəhətlərinin öyrənilməsinə əsaslı zəmin hazırlayır.

Tədqiqat fonetik hadisə və qanunların dərin qatlarına işlədikcə, onların arasındakı zəruri əlaqələr də istər-istəməz üzə çıxır. Ahəng qanunu, assimilyasiya, səsartımı, səsdüşümü dilimizin təbiətindən doğan qanun və hadisələr kimi izah edilir.

Kitabda heca və vurğu mövzuları da yenidən işlənmişdir. Müəllif lüğət tərkibindəki sözləri diqqətlə nəzərdən keçirməklə, ədəbi dilimizdə 17-yə qədər heca tipi işləndiyini müəyyənləşdirmişdir.

Dərsliyin ikinci hissəsi «Müasir Azərbaycan dilinin orfoepiyası» adlanır. Məlumdur ki, orfoepiya haqqında ilk məqaləni 40-cı illərdə məhz professor Ə.Dəmirçizadə yazmışdır. Bu sahə ilə əlaqədar son vaxtlar çap olunmuş geniş tədqiqat əsəri də onun qələminin məhsuludur. Məhz buna görə də dərslikdən orfoepik normalar haqqında kifayət qədər məlumat almaq mümkündür. Ümumiyyətlə tələffüz və xüsusən orfoepik tələffüz, ədəbi tələffüzün mənbələri və pozulma səbəbləri, tələffüz üslubları, lüğəvi, qrafik

və qrammatik şəraitdə tələffüz haqqında müəllifin qeydləri yeni və orijinaldır. Vahid tələffüz qaydalarına əməl etməyin zəruriliyi hələ hamıya eyni dərəcədə aydın olmadığından dərsliyin bu hissəsi yalnız dar ixtisas sahibləri üçün deyil, hər bir mədəni şəxs üçün faydalıdır. Artıq orfoepiya məsələlərinə orta və ali məktəb proqramlarında geniş yer vermək vaxtı çatmışdır.

Üçüncü hissə yazı və orfoqrafiya məsələlərinə həsr olunmuşdur. Bu hissənin əsasını orfoqrafiya və onun prinsiplərinin şərhi təşkil edir. Yazının ictimai mahiyyəti, insan cəmiyyətində rolu, Azərbaycan əlifbası, əlifbamızdakı hərflərlə səslərin nisbəti, bitişik və ayrı yazılan sözlər, defis və onun orfoqrafik mahiyyəti, şəkilçilərin yazılışı, apostrof və s. haqqında qeydlər professor Ə.Dəmirçizadənin uzun illərdən bəri apardığı dərin elmi axtarışların nəticəsidir.

Şübhəsiz, bu qiymətli əsər nöqsansız da deyildir. Doğrudur, kitabın girişində Azərbaycan dili, bu dilin türk dilləri ailəsində yeri, şifahi və yazılı ədəbi dilimizin inkişaf tarixi, «Müasir Azərbaycan dili» fənni və bu fənnin tədrisi prosesində hansı məsələlərə diqqət yetiriləcəyi yığcam şəkildə qeyd olunmuşdur. Lakin bu əsər dördcildliyin ilk kitabı olduğu üçün burada Azərbaycan dili anlayışından əlavə, «Müasir Azərbaycan dili» fənninin mövzusu, məqsədi, mənbələri, başqa elmlərlə əlaqəsi, metodologiyası haqqında müəllifin ətraflı məlumat vermək imkanı var idi. Professor Ə.Dəmirçizadənin «Tarixi qrammatika» və «Ədəbi dil tarixi» fənləri ilə əlaqədar belə tutarlı giriş kursları hazırlayıb çap etdirdiyi məlumdur.

Müəllif ***balıq, papaq, yataq, otaq*** tipli sözlərin sonunda tarixi-ənənəvi prinsipə əsasən «q» hərfi yazılmasına baxmayaraq, əslində, ümumxalq tələffüzündə «x» səsi işləndiyini, orfoepik cəhətdən bu cür tələffüzün tam doğru olduğunu və buna görə də əlverişli şəraitə – iki sait arasına düşdükdə «x» səsinin təbii olaraq «ğ» səsinə çevrildiyini göstərsə də (94,136, 264 və s.), bəzən məktəb dərsliklərindəki yanlışlığı təkrar edərək, karlaşmış «q» səsinin «ğ»-ya keçməsindən də (137) danışır. Halbuki müəllif özü dəfələrlə qeyd edir ki, «q» və «ğ» ayrı-ayrı məxrəcli səslərdir və bir məxrəcdən olan səsin digər məxrəcdən olan səsə çevrilməsi qeyri-mümkündür. 147-ci səhifədə «tramvay» sözünün «tranvay» şək-

lində dissimilyasiyaya uğramasından danışılarkən «v» qoşadodaq samiti kimi izah edilir. «Tranvay» sözündə «mv» samitlərini həmcinsləşdirən qoşadodaqlılıq əlamətinin aradan qalxdığı göstərilir. Əslində, burada dodaq səslərindən birinin dil səsinə çevrildiyi (mv əvəzinə nv) göstərmək kifayət edərdi və «v» samitinin dodaq-diş samiti kimi izahı (69) öz hökmündə qalardı.

Dərslikdə bu cür nöqsanlar olsa da, bunlar prinsipial, ciddi mübahisə doğuran, tədris işinə mane olan nöqsanlar deyildir. Lakin oxucunu narazı salan başqa şeydir. Əgər «Maarif» nəşriyyatının müasir dilə dair ilk dəfə dörd cilddə dərslik çap etmək işini alqışlamaq lazım gəlirsə, haqqında danışdığımız dərsliyin tərtibatı, texniki cəhətləri tamamilə təəssüf doğurur. Bir dərslik kimi uzun müddət istifadə ediləcək bu əsər aşağı keyfiyyətli kağızda, çoxlu texniki qüsurlarla çap olunmuşdur, korrektor xətalarına yol verilmişdir.

Professor Ə.Dəmirçizadənin «Müasir Azərbaycan dili» kitabı fonetika, orfoepiya və orfoqrafiya məsələlərinə həsr olunmuş ilk dərslik olmasına baxmayaraq, yüksək elmi səviyyədə yazılmışdır. Filoloji fakültələrin tələbələrinə, aspirant və müəllimlərə, dilimizin səs və yazı qanunları ilə maraqlanan hər bir şəxsə bu əsərin faydalı bir dərslik kimi layiqincə xidmət edəcəyi şübhəsizdir.

05.12.72

«ƏSAS»IN İŞLƏNMƏSİNƏ ƏSAS VARDIR

Dos.A.Hüseynov «Gənc müəllim» qəzetinin 10 yanvar 1974-cü il tarixli nömrəsində dərc olunmuş «Kök və əsas nədir?» məqaləsində maraqlı və müzakirəyə ehtiyacı olan bir məsələyə toxunmuşdur. Ona görə biz də bu barədə fikir söyləməyi lazım bilirik.

Əslində, söz kökü anlayışı mübahisə doğurmur. Məsələ əsasın nədən ibarət olduğunu və Azərbaycan dili üçün belə bir terminə ehtiyac olub-olmadığını müəyyən etməkdir.

Məktəb qrammatikasında sözün kök və sözdüzəldici şəkilçidən ibarət olan hissəsi ***əsas*** adlandırılır. Müəyyən mənada buradakı fikir doğrudur. Lakin ***əsas*** haqqında söhbətlərin nisbətən çoxaldığı bu günlərdə bir daha diqqətlə nəzər saldıqda müəyyən etmək olur ki, bu fikir bir qədər məhduddur. Burada ***əsas*** anlayışı «düzəltmə söz» anlayışına uyğun gəlir, lakin düzəltmə sözdən kök məfhumunu da özündə cəmləşdirməklə fərqlənir.

Bir halda ki bu sözdən bir termin kimi istifadə edirik, fikrimizcə, onu bir qədər geniş mənada işlətmək faydalı olardı. Əsasa «sözün kök və sözdüzəldici şəkilçidən ibarət olan hissəsi» kimi deyil, «sözün sözdəyişdirici (və ya bəzən deyildiyi kimi, *formadüzəldici*) şəkilçilər atıldıqdan sonra yerdə qalan və maddi-əşyavi məna ifadə edən hissəsi» kimi baxmaq daha düzgün olardı.

Şübhəsiz, hər bir termin zəruri ehtiyac nəticəsində işlədilir. Tələbat olmasa, hər hansı bir termini işlətmək də lazım gəlməz. Həm tarixi-etimoloji, həm də müasir dil baxımından ***əsas*** sözü tədqiqatda və tədrisdə lazım olur. Məsələn, ***yüksəl*** sözü etimoloji baxımdan bizə məlum olan bir kök və üç şəkilçidən ibarətdir. Sözün kökü «yüksəlmək, yuxarı qalxmaq» mənasında bir fel (***yu//yü***) olmuş, bu sözdən ***-k*** şəkilçisi ilə isim düzəlmişdir (dilimizdə ***yük*** sözü indi də işlənir); kök arxaikləşdiyi üçün *yük* sözündən «yuxar qalxmaq» mənasında ***yüksə(mək)*** feli (*susamaq, qəribsəmək* sözlərində olduğu kimi) formalaşmış, nəhayət, qayıdış növ mənası yaradan ***-l*** şəkilçisi də bu sözə daşlaşmışdır. Üst-üstə üç şəkilçisi olan bu sözü yenə kök adlandırmalıyıq? Sözün sonundakı ***-l*** şəkilçisi

tam mütəhərrik olduğu, ***-sə*** şəkilçisi müstəqil işləndiyi dövrdə bu sözdən ***-k*** şəkilçisi ilə ***yüksək*** sifəti də düzəlmişdir. ***Əsas*** anlayışını nəzərə almadıqda belə çıxır ki, *yüksəl* və *yüksək* ayrı-ayrı müstəqil köklər imiş. Halbuki hər iki söz ***yüksə(mək)*** əsasından düzəlib.

Elmi və tədris-metodiki əhəmiyyəti olduğu üçün Azərbaycan dilinə aid ilk elmi qrammatikada ***əsas*** sözü geniş şəkildə izah olunmuş (bax: «Azərbaycan dilinin qrammatikası»,1951,s.78 -79), bu termin son vaxtlar hətta məktəb dərsliklərinə də daxil edilmişdir (S.Cəfərov, Ə.Fərəcov, «Azərbaycan dili», 1972, s. 3).

Rus dilçilik ədəbiyyatında və adi lüğətlərdə də ***əsas*** sözü qeyd etdiyimiz kimi şərh olunur. Məsələn: «***Əsas – sözün sözdəyişdirici və formadüzəldici şəkilçilər atıldıqdan sonra qalan hissəsi***» (□.□.□□□□□□□□□, «□□□□□□□ □□□□□□□□□□□□□□□□□ □□□□□□□□□», □□□□□□, 1966, □.296); «***Kök – sözün ilkin, düzəltmə olmayan əsası***» (□.□.□□-□□□□□.«□□□□□□□□□...», 1973, □.126) və s.

Türkoloji ədəbiyyatda da əsasa bu cür baxılır. E.V.Sevortyanın Azərbaycan dili materialları əsasında yazdığı məlum əsərlərinin, demək olar ki, hər səhifəsində: «□□□□□□ □□□□□□□□□, □□□ □□□□□ □□□□□□□□□□□□□□□□ □□□□ □ □□□□□□□ □□ □□□□□□□ □□ □□□□□ □□□□□□-□□□□ □□□□□□□□□□ □□□□□ □□ – □□, □□□ -□□.» («□□□□□□□ □□□□□□□□□□□□□-□□□□□□□ □ □□□□□□□□□□□□□□□□□□ □□□□□», □., 1962, □.197) kimi cümlələrə rast gəlirik. Şerbak da bu termindən məhdudiyyət bilmədən istifadə edir: «□□□□□□□□□□□□□ □□□□□ – □□□□□□□□□□□□□ □□□□□□□ □□-□□□□□□□□□□□□□□□ □□□□□□□□□□□□□ □□□□□□□□□□ □ □ □ □ □» («□□□□□□□□□-□□ □□□□□□□□□□□□□□□□□ □□□□□», □.177). N.A.Baskakov yazır: «□□□-□□□□□, □□□ □ □□□□□□□ □□□□□ □□□□ □□□□□ □□□□□□□□□□□□□□□ □ □□□□□□□□□-□□□ □□□□□□» («□□□□□□□ □□□□□□□□ □□□□□», □.41). □.□.□□□□□□□□□□ «□□□□□□□□□□□□□□□□ □□□□» əsərində «□□□□□□□ □□□□□□», «□□□□□□□□-□□□ □□□□□□», «□□□□□□□□□□□□ □□□□□□□ □□□□□» kimi başlıqlar vardır (Maraqlıdır ki, bu kitabda qədim uyğur dilindəki ***tünker*** sözünün «tün» hissəsi «□□□□□□ (□□□□□□)» şəklində izah edilmişdir). L.N.Xaritonovun «□□□□ □□□□□□□□□□□ □□□□□□ □ □□□□□□□□□ □□□□□» adlı əsəri vardır və s.

Məqsədimiz əsası tədqiq etmək deyil, bu barədə münasibətimizi bildirməkdir. Ona görə də qəzet sütunlarını bu cür faktlarla doldurmağı lazım bilmirik. Başa düşmək üçün bunlar da kifayət edir ki, çox qiymətli tədqiqat əsərlərinin müəllifləri olan görkəmli

türkoloqların fikirlərini hesaba almadan «dilçiliyə (?) məlumdur», «sübuta ehtiyacı yoxdur», «daha gecdir» kimi ifadələrlə asanlıqla əsasın «axırına çıxmaq», ona «yekun vurmaq» olmaz. Bu, marksist dialektik metodun qanunları baxımından da düzgün olmazdı.

Həm də yuxarıdakı faktlardan aydın olur ki, bəzi dil hadisələrini (və ya dilin maddi-material hissəsini təşkil edən elementləri) hər dəfə yenidən «kəşf etmək» lazım gəlmir; belələrini hər dəfə «kəşf» hesab etmək dilçilik ədəbiyyatına yuxarıdan baxmağın və ya, ən azı, bu ədəbiyyatı ardıcıl izləməməyin nəticəsidir. Halbuki «elmin nailiyyətlərinə hörmət» yalnız həmin elmə dair ədəbiyyatı öyrənmək və hər kəsin xidmətini düzgün qiymətləndirmək yolu ilə ola bilər.

Əgər bizim dilimizdə əsas flektiv dillərdəki əsasdan fərqli xüsusiyyətlərə malikdirsə, bu heç də o demək deyildir ki, biz əsasdan danışa bilmərik. Belə düşünülsə, yuxarıdakı fikirlər bir yana, biz məktəblilərin də bildiyi və işlətdiyi bir çox terminlərdən əl çəkməli olardıq. Söz sırası çin dilində bizim dildəkindən fərqli səciyyəyə malikdir. Yapon dilində intonasiya sözün, ifadənin mənasını kəskin surətdə dəyişir. Məsələn, həmin dildə intonasiyadan asılı olaraq, ***hi*** sözü «gün» və «od», ***ku*** sözü «qüssə» və «doqquz» mənalarını ifadə edir. Bizim dildə intonasiyanın bu cür xüsusiyyətə malik olmadığı məlumdur. Lakin hər iki dildən danışılarkən intonasiyadan da bəhs olunur. Elə götürək «kök» sözünü. Flektiv və iltisaqi dillərdə söz kökünün necə fərqləndiyi indi ümumi dilçilik məsələlərinə dair hər bir kitabda qeyd edilir. Belə misallar, şübhəsiz, çoxdur.

Deməli, eyni bir termin dilin tipindən və quruluşundan asılı olaraq, az-çox fərqli mənada başa düşülə bilər. «Dilçiliyə giriş» fənni tədris edilərkən tələbələrə bu barədə məlumat verilməlidir.

29.03.74

BAĞLAYICISIZ TABELİ MÜRƏKKƏB CÜMLƏLƏRİN STRUKTUR-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Azərbaycan dilçiliyində mürəkkəb cümlələrin struktur-semantik və qrammatik xüsusiyyətləri xeyli öyrənilmiş, son 20 -30 ildə bu sahəyə dair qiymətli tədqiqaqt əsərləri, monoqrafiya və dərs vəsaitləri meydana çıxmışdır. Bu işdə M.Şirəliyev və Ə.Abdullayevin xüsusi xidməti vardır. Ə.Abdullayevin «Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr» əsəri yalnız Azərbaycan dilçiliyində deyil, ümumən türkologiyada mürəkkəb cümlə sintaksisinin tədqiqi baxımından yüksək qiymətləndirilir.

Lakin bunu da qeyd etməliyik ki, mürəkkəb cümlə ilə bağlı tədqiq və araşdırmalarda daha çox bağlayıcılı mürəkkəb cümlələrə diqqət verilmiş, bağlayıcısız mürəkkəb cümlələr haqqında məlumat əksərən bəsit və ötəri xarakter daşımışdır. Əslində isə bağlayıcısız forma daha qədim olmaqla yanaşı, ünsiyyətin mühüm vasitəsi kimi, canlı dildə daha çox işlənir və rəngarəng xüsusiyyətləri ilə diqqəti daha çox cəlb edir. Bağlayıcısız formanın tədqiqi bağlayıcılı formaya nisbətən çətin və mürəkkəbdir. Elə buna görə də rus dilçiliyində (ali və orta məktəb qrammatikalarında, bir sıra tədqiqat əsərlərində) mürəkkəb cümlələr: 1) tabesiz mürəkkəb cümlələr, 2) tabeli mürəkkəb cümlələr və 3) bağlayıcısız mürəkkəb cümlələr adı altında üç növə ayrılır və bunların əvvəlki ikisində yalnız bağlayıcılı formadan danışılır. Bizim dilçilikdə bağlayıcısız mürəkkəb cümlələrin tabesiz və tabeli olmaqla iki növə ayrılması və bunlardan müvafiq bölmələrdə (birincidən tabesiz, ikincidən tabeli mürəkkəb cümlə bölməsində) danışılması filoloji fikrin uğurlarındandır. Lakin bağlayıcısız formanın az öyrənilməsi və adətən, bağlayıcılı formanın sonunda bir-iki cümlə ilə xatırlanması tədris işində çətinliklərə səbəb olur. Dilin müasir quruluşunun öyrənilməsi, ali məktəblərin filologiya fakültələrində «Müasir Azərbaycan dili» fənninin elmi əsasda hərtərəfli tədrisi, orta məktəb şagirdlərinə sintaksisin məktəblə bağlı məsələlərinin düzgün mənimsədilməsi baxımından bu sahənin elmi-nəzəri aspektdə tədqiqi dilçiliyimizin qarşısında duran mühüm və zəruri problemlərdən

idi. Bütün bunları nəzərə aldıqda aydın olur ki, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin dosenti Firudin Cəlilov bağlayıcısız tabeli mürəkkəb cümlələr üzərində araşdırmalar aparmaqla həm nəzəri, həm də praktik cəhətdən faydalı bir işlə məşğul olmuşdur.

Mövzu ilə əlaqədar yaranan bu xoş təəssüratı müəllifin iş üsulu və nəticələri də tamamlayır. F.Cəlilov elmi-nəzəri ədəbiyyatı diqqətlə öyrənmiş, ümumxalq dilinin müxtəlif qollarından, xüsusən ədəbi dildən mövzu ilə əlaqədar zəngin material toplamış və həmin materialı elmi əsasda ümumiləşdirmişdir.

Yığcam girişdən və iki fəsildən ibarət olan bu əsərdə, ilk dəfə olaraq, bağlayıcısız tabeli mürəkkəb cümlələrin sistemli və hərtərəfli tədqiqinə rast gəlirik. Müəllifin tədqiqat planı lazım və zəruri olan bütün əsas istiqamətlərə şaxələnə bilmişdir; ona görə də əsərdən bağlayıcısız tabeli mürəkkəb cümlələrin növləri, struktur və intonasiya xüsusiyyətləri, yaranma və transformasiyaya uğrama yolları barədə lazımi məlumat almaq mümkündür. Əsərdə tabeli mürəkkəb cümlələrin komponentlərini əlaqələndirən fonetik, leksik-qrammatik və struktur-semantik vasitələrin rolundan ətraflı bəhs edilmişdir. Müəllif bağlayıcı vasitələrin qrammatik və funksional xüsusiyyətlərini diqqətlə öyrənmiş və faktlardan obyektiv nəticələr çıxarmağa çalışmışdır. Bu sahədə eksperiment materialı da xeyli kömək etmişdir. Məsələn, müəllif eksperiment əsasında müəyyənləşdirə bilmişdir ki, başqa bağlayıcı vasitələr olmadıqda, tabeli mürəkkəb cümlənin komponentləri yalnız intonasiya ilə əlaqələndikdə intonasiyanın melodiya, pauza kimi tərkib elementlərinə nisbətən, tempin rolu daha böyük olur və əsas işi temp icra edir: birinci komponentdə son hecanın tempi azalmaqla həmin hecanın tələffüzünə sərf olunun zaman çoxalır və bu hal ikinci komponentin birinciyə bağlanmasında mühüm rol oynayır.

Əsərdə intonasiya ilə yanaşı, modal sözlərin, ədatların, əvəzliklərin, zərflərin, komponentlərin sırasının, sintaktik quruluşun və informasiya özəyinin bağlayıcısız tabeli mürəkkəb cümlələrin tərkib hissələrini əlaqələndirməkdə roluna xüsusi yer verilmişdir. Bunlar bağlayıcı vasitələrin ümumi mənzərəsini təsəvvür etməkdə xüsusi əhəmiyyətə malikdir. Baş və budaq cümlələrin xəbərlərinin forma xüsusiyyətləri barədə dəqiq hesablamalar və sxemlər də

bağlayıcısız tabeli mürəkkəb cümlələrin bəzi xüsusiyyətləri barədə anlayışın genişlənməsinə kömək edir.

Əsərdəki «bağlayıcısız» sözünü şərti mənada başa düşmək lazım gəlir. Aydındır ki, bağlayıcısız tabeli mürəkkəb cümlələr bağlayıcısız (bağlayıcı vasitəsiz) deyildir. Burada «bağlayıcısız» sözü komponentləri əlaqələndirmək üçün «bağlayıcı» adlanan köməkçi nitq hissəsinin işlənməməsi mənasındadır. Bağlayıcı olmadığı üçün belə cümlələrdə başqa bağlayıcı vasitələr – intonasiya, ədatlar, modal sözlər, əvəzliklər, şəkilçilər və s. üstünlük qazanmış olur.

Əsərdə mübahisə doğura bilən məsələlər də vardır. Hazırkı dövrdə elmi fikrin inkişafı üçün faydalı olduğundan biz onları olduğu kimi saxlamağı lazım bildik.

Məlumdur ki, «budaq cümlə+baş cümlə» quruluşlu tabeli mürəkkəb cümlələrin bir qismində budaq cümlənin növü baş cümlədə işlənən (və ya təsəvvür edilən) qarşılıq bildirən sözlərlə (korrelyatla) müəyyənləşir; məs.:

o, *qalibdir.*

Kim birinci yeri tutdu, *qalib* ***odur.***

onu *qalib hesab edəcəklər.*

Qarşılıq bildirən «***o***» sözü birinci misalda mübtəda, ikincidə xəbər, üçüncüdə tamamlıqdır; ona görə də birinci cümlə mübtəda, ikincisi xəbər, üçüncüsü tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədir.

Bəzən qarşılıq bildirən söz yiyəlik halda olur. Yiyəlik haldakı söz isə təklikdə yalnız xəbər ola bilir və xəbər budaq cümləli tabeli mürəkkəb cümlə əmələ gətirir: *Kim birinci yeri tutdu, qələbə* ***onundur****.* Qalan hallarda yiyəlik haldakı söz başqa bir sözlə birlikdə III növ ismi birləşmə əmələ gətirir və belə birləşmələrin tərəfləri birlikdə cümlənin bir üzvü olur: *1.Kim birinci yeri tutdu,* ***onun adı*** *şərəf lövhəsinə yazılacaq. 2.Kim birinci yeri tutdu,* ***onun adını*** *şərəf lövhəsinə yazacaqlar.*

Birinci misalın baş cümləsində ***onun adı*** mübtəda, ikincidə ***onun adını*** tamamlıqdır; ona görə də ənənəvi qayda üzrə birinci

misal mübtəda, ikincisi tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlə hesab olunur.

Prof.Ə.Abdullayevin son dövrdə gəldiyi fikrə əsasən (bax: Ə.Abdullayev.Azərbaycan dilində yiyəlik halın sintaktik vəzifəsi. ADU-nun «Elmi əsərləri», 1978, № 4), yiyəlik halda olan sözü cümlədə müstəqil təyin kimi götürmək mümkündür; belə olduqda sonrakı misallarda qarşılıq bildirən ***onun*** sözü təyin vəzifəsində çıxış etmiş olur və hər iki cümlə təyin budaq cümləli tabeli mürəkkəb cümlə kimi izah edilməlidir. Bunları ona görə qeyd edirik ki, F.Cəlilov da bir sıra cümlələrdə həmin mövqedən çıxış edir və bu cür cümlələri təyin budaq cümləli tabeli mürəkkəb cümlələr kimi izah edir. Lakin bu məsələ barədə Azərbaycan dilçiliyində hələlik vahid rəy yoxdur. Ona görə də müəllifin qeydlərini saxlamaqla, məsələni mütəxəssislərin ixtiyarına buraxırıq.

F.Cəlilovun fikrincə, bağlayıcısız tabeli mürəkkəb cümlələr yeddi mərhələdən ibarət inkişaf yolu keçmişdir. Müəllif bu inkişaf yolunu əks etdirən sxem tərtib etmişdir. Bağlayıcısız tabeli mürəkkəb cümlələrin inkişaf mərhələləri barədə həmin sxem və mülahizələr, mübahisə doğura bilən cəhətlərə malik olsa da, elmi fikrin inkişafı xeyrinədir.

F.Cəlilov Azərbaycan dilçiliyinin müxtəlif sahələrinə aid 20-dən artıq elmi məqalənin və «Azərbaycan dilindən çalışmalar» (1977), «Azərbaycan dilinin səs quruluşu» (1983) adlı kitabların müəllifidir. Onun «Mürəkkəb cümlə sintaksisi» adlı bu əsəri filologiyamız üçün daha faydalı olacaqdır.

1983

XALQ POEZİYASINDA DAŞLAŞAN TARİXİMİZ

Professor Həsən Mirzəyev filologiyamızda müasir ədəbi dilimizin morfologiyasını, dilin quruluş xüsusiyyətlərini həm sinxron, həm də diaxron aspektlərdə araşdırmaqda, o cümlədən xalqın qədim tarixini, dilini, milli orijinal xüsusiyyətlərini daha yaxşı mühafizə edib saxlayan fellərin tədqiqatçısı kimi məşhurdur. Lakin professor, bir filoloq kimi, el sənətinə – aşıq ədəbiyyatına da dərindən bələddir və bu sahənin vurğunudur. Sinəsində Qurbaninin, Xəstə Qasımın, Tufarqanlı Abbasın, Valehin, Alının, Ələsgərin, Şəmşirin, Bozalqanlı Hüseynin, Dilqəmin yaratdığı neçə-neçə qoşmalar, qıfılbəndlər, məhəbbət və qəhrəmanlıq dastanları yatır. Saz-söz məclislərində aşıqları, folklorşünasları heyrətdə qoya bilir. Saz havalarını onun qədər duyan az-az adama rast gəlmək olar.

H.Mirzəyevin çox sevdiyi el ədəbiyyatı ilk baxışda dil baxımından bir qədər sadə və bəsit görünür. Lakin əslində sadəliklə dahiliyin birləşməsindən ibarət olan el ədəbiyyatında – xalq dastanlarında, aşıq poeziyasında zərif və tutarlı sənət sirləri içərisində xalqımızın tarixini, soy-kökünü, ölkəmizin ərazisində və bu ərazinin hüdudlarından çox-çox uzaqlarda yaşamış qədim aborigen etnosların qorunub saxlanmış nəfəsini, miflərini, adət-ənənələrini, geyim və yaşayış tərzini, yadellilərə qarşı mübarizə və mədəni inkişaf səviyyəsini üzə çıxarmaq olur. Heç şübhəsiz, hər bir dastan, hər bir deyişmə, qoşma, bayatı yaradıcı insanın bir düşüncəsini, bir nisginlini, bir dərdini, bir qəlb çırpıntısını mühafizə edir, daşıdığı mənəvi yükü sonrakı əsrlərə, sonrakı nəsillərə aparır. Şübhəsiz, el ədəbiyyatında folklor yaradıcısının duyğu və düşüncələri aşınmalarla yaşayır. Lakin xalq dastanları, aşıq poeziyası aşığın istedad və savad dərəcəsindən asılı olmayaraq, sənətkarın içərisindən çıxdığı və ya ünsiyyətdə olduğu etnosların, addım-addım gəzdiyi yerlərin, döyüşdüyü, deyişdiyi insanların adlarını dəyişməyə o qədər də ehtiyac duymur. Xüsusi adlar yaşayır, sənət dili ilə tarixi də yaşadır və əbədiləşdirir.

«Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz» kitabı H.Mirzəyevin el ədəbiyyatı ilə bağlı düşüncələrinin bir qismini əhatə edir. Müəllif əsasən onomastik leksikanın tədqiqi ilə məşğul olmuş və xüsusi adları bir küll halında bütün sahələr üzrə nəzərdən keçirmişdir.

Beş fəsildən ibarət olan bu əsərdə hər biri bir fəsli təşkil edən toponim və antroponimlərin kəmiyyət və keyfiyyət göstəriciləri, struktur-semantik imkanları folklor janrlarının poetik, tarixi, mifoloji araşdırmalar üçün geniş imkanlara malik olduğunu göstərir. Dini və mifoloji tarixə bələd olan müəllif xalq poeziyasında cəmləşmiş xüsusi adların – toponim və antroponimlərin ətraflı təhlilini vermiş, qala, kənd, şəhər, mahal, ölkə, vilayət adlarının tarixi-etimoloji tədqiqi əsasında xalqımızın təşəkkülündə mühüm rolu olan etnosların el sənətində daşlaşmış izlərini üzə çıxarmışdır. Dini və mifoloji adların, dini titul və ləqəblərin elmi şərhi əsərin dəyərini artırır. Etnonimləri müəllif daha çox yaylaq, dağ, çay, göl, bulaq, qala, şəhər, kənd adlarının ilkin strukturunu bərpa etmək, tarixi aşınmaları aradan qaldırmaq yolu ilə müəyyənləşdirmiş, çox zaman diqqəti o qədər də cəlb etməyən xüsusi adlarda min illərlə ömür sürmüş etnosların izlərini görə bilmişdir.

İnsan adlarının törəmə mənbələri çox və rəngarəngdir: quş, heyvan, bitki, daş-qaş, səma cisimləri adları əsasında təşəkkül tapmış antroponimlərin aşıq poeziyasında zəngin qalereyasına rast gəlirik. Kosmonim, hidronim, zoonim, ktematonimlər aşıq poeziyasında xüsusi ad sisteminin dairəsini qapayır, müəllif bu günə qədər çap olunmuş aşıq ədəbiyyatından topladığı zəngin materialı hərtərəfli qruplaşdırmaq və elmi şəkildə təhlil etməklə oxucuda aydın təəssürat və maraq yarada bilir.

Aşığın sözü elin sözüdür. Ona görə də aşıq poeziyasında yaşayan adlar xalqın təbii tələffüz şəklini hifz etmiş olur. Onların yazılı mənbələrlə müqayisə və tutuşdurulması elmi araşdırmalar və tarixin düzgün dərki yolunda böyük perspektivlər açır. Qədim türk dastanlarının, xalq nağıllarının, miflərin, əfsanə və lətifələrin bu şəkildə öyrənilməsi xalqın tədrici inkişaf və kamilləşmə yolu onun əzəli milli keyfiyyətləri, vətən və yurd mənsubiyyəti, adət-ənənələri, arzu və istəkləri barədə misilsiz material verir.

Kitabın adındakı «adlarımız və tariximiz» sözləri göstərir ki,

müəllif aşıq poeziyasında adlarımızın tədqiqi fonunda mədəni, siyasi, iqtisadi, dini və ictimai tariximizin, xüsusilə qədim oğuz yurdu olan indiki Ermənistan torpaqları tarixinin tədqiqinə daha çox istiqamət almışdır.

Müəllif kitabın II fəslində Dərələyəzə həsr olunmuş qoşmalara, bu qoşmalarda sadalanan onomastik vahidlərin izahına xüsusi diqqət yetirmişdir. Dərələyəzdə olan bütün kənd (Hors, Arpa, Sallı, Cul, Çivə, Herher, Cığatay, Kotanlı, Şorca, Çanaqçı, Axta, Zeytə, Quşçu, Dəmirçilər, Yayçı, Gülüstan, Almalı, Əmağu, Qurdqulaq, Ələyəz, Ərgəz, Qoytul, Gendərə, Ortakənd, Başkənd, Ağkənd, Həsənkənd, Qozulca, Ardaraz, Qabaxlı, Qovuşuq, Aysəsi...), dağ, yaylaq, yurd (Xalaclar, Əyricə, Vers, Muradtəpə, Soğanlı, Qırx bulaq, Təpəsidəlik, Dəmirtəpə), çay (Arpaçay), bulaq (Bolbulaq, Yastıbulaq), körpü (Dədəli körpüsü), pir (Ərkəzpiri), Vəng (Qaravəng, Güneyvəng, Qoşavəng, Şadıvəng...) adları bu yerlərin Azərbaycan xalqına məxsus olduğunu, yuxarıda sadalanan onomastik vahidlərin əksəriyyətinin türk-oğuz tayfa adlarından götürüldüyünü göstərir. Qədim türk-oğuz yurdu Ermənistanda yer adlarını dəyişən, tarixi saxtalaşdıran erməni millətçilərinə elmi dəlillər əsasında tutarlı cavab verir.

Kitabda Dərələyəz mahalında Qaçaq Nəbinin iki döyüşü haqqında verilən məlumat da, Göyçə, Dərələyəz, Borçalı aşıqları ilə bağlı yeni hekayətlər də, Aşıq Valeh ilə Zərnigarın indiyədək mətbuat üzü görməyən 10 bəndlik qıfılbənd də xüsusi maraq doğurur. Bu cür tədqiqat əsərləri keçmişi öyrənməklə yanaşı, gələcək tədqiqatlar üçün də geniş yol açır.

20.04.97

MƏTN DİLÇİLİYİ PROBLEMLƏRİ

Aktual üzvlənmə və mətn məsələsi sintaksisin ən mühüm problemlərindəndir. Lakin çox təəssüf ki, bu məsələ hələ bizim dərsliklərə daxil ola bilməyib. Problem bütün sintaktik quruluşu əhatə edir və əgər kommunikativlik imkanları, dil və nitq arasında mövcud olan sintaqmatik və paradiqmatik münasibətlər tədqiq olunarsa, müasir Azərbaycan ədəbi dilinin sintaksisi tamamilə yenidən işlənmiş olar.

Bəlkə də, dil haqqında elmin ən qədim və ilk yaradıcıları hər bir nitq faktının, hər bir söyləmin kommunikativlik imkanlarını nəzərə almış və bu cəhətə xüsusi fikir vermişlər. Ona görə də e.ə. II yüzillikdə frakiyalı Dionisi «Sözlərin bitmiş fikir ifadə edən birləşməsi nitqdir» demişdir. Lakin sonrakı tədqiqatlar prosesində «nitq» əvəzinə «dil» üstünləşdiyi kimi, nitqin kommunikativ cəhəti də ikinci, üçüncü plana keçirilmiş, söyləm əvəzinə cümlə öyrənilmiş, ona görə də Dionisinin nitqə aid etdiyi cümləyə aid edilmişdir.

Daim belə bir paradoks meydana çıxır: cümləni bu qədər mübtəda və xəbərə ayırmağın, heç bir praktik əhəmiyyəti olmayan, insanın maddi-mənəvi inkişafında heç bir əməli rolu olmayan baş və ikinci dərəcəli üzvlər bölgüsünün yaradılması və ikinci sinifdən başlayaraq şagirdlərə öyrədilməsi hansı məntiqi zəminlə bağlıdır? İnsan bunun faydasını harada, nə zaman görməlidir?

Lakin nitqin kommunikativ mahiyyəti nəzərə alındıqda dilin bütün elementləri hərəkətə gəlir və öz əhəmiyyətini göstərir. Bizim fikrimizcə, Azərbaycan dilinin sintaksisinə aid tədqiq və araşdırmaları, xüsusən sintaksis dərsliklərini bu istiqamətə yönəltməyin vaxtı çatmışdır. Bəzi dilçilərin dil sistemini potensial (sintaktik) və aktual (suprasintaktik) yaruslara ayırması, aktual sintaksisi ayrıca bir səviyyə kimi nəzərdə tutmaları təsadüfi deyildir. Bu cəhəti əsas götürdükdə, biz bu vaxta qədər yalnız potensial sintaksislə məşğul olmuşuq. K.Abdullayev, K.Vəliyev, F.Əlizadə, Q.Bəyzadə, N.Abbasova, N.Novruzova və başqalarının bəzi yazıları istisna olmaqla, bu sahəyə sistem şəklində diqqət yetirilməmiş, sintak-

sis kitablarımız başlıca olaraq dilimizin potensial imkanlarının tədqiqindən ibarət olmuşdur. Suprasintaktik səviyyənin, aktual səviyyənin öyrənilməsi çox vacibdir və yalnız bu yolla dilin kommunikativlik imkanları, dialoji və monoloji nitqin nə üçün bu və ya digər şəkildə qurulduğu açıla, aydınlaşdırıla bilər.

Tədqiq və araşdırmalardan aydın olur ki, bu məsələ yeni dövrdə sistemli şəkildə fransız alimi A.Veyli düşündürmüş, o, 1844-cü ildə hazırladığı «Qədim dillərdə söz sırası (müasir dillərlə müqayisədə)» adlı doktorluq dissertasiyasında bu sahədə özünə qədər meydana çıxan fikirləri ümumiləşdirmiş və bir sıra maraqlı nəticələrə gəlmişdir. A.Veyl danışan və dinləyən üçün daha maraqlı fikirlərin cümlənin əvvəlində, ikinci dərəcəli fikrin cümlənin sonunda gəlməsi barədə iddialara etiraz edərək, normal nitqdə əvvəlcə söyləmin çıxış nöqtəsinin, sonra əsas məqsədin verildiyini isbat etmişdir.

Çex dilçisi V.Matezius aktual üzvlənmə problemini linqvistik zəminə endirmişdir. O, söyləmin kommunikativ funksiyasını ön plana çəkməklə aktual üzvlənmə barədə müasir təlimin yaradıcısı kimi şöhrət tapmışdır. V.Matezius aktual üzvlənmənin dil hadisəsi olduğunu sübut etməklə, cümlənin qrammatik üzvlənməsi ilə söyləmin aktual üzvlənməsinin oxşar və fərqli cəhətlərini, bir çox hallarda qarşı-qarşıya durduğunu izah etdi.

Hər bir söyləm az-çox bitmiş fikir ifadə etsə də, onun ifadə etdiyi fikir bitkinliyi nisbi xarakter daşıyır. Cümlə yalnız mətn daxilində bütün struktur-semantik xüsusiyyətlərini üzə çıxara bilir. Müəyyən fikir ətrafında cümlələrin əlaqəli birliyi mətnin yaranmasına səbəb olur. Mətnin təşkili, qurulması isə ayrı-ayrı əlaqəli cümlələrdə aktual üzvlənmənin gedişi ilə bağlıdır.

Mətn daxilində söyləmlər arasında sintaqmatik və paradiqmatik bağlılıq olur. Sintaqmatik bağlılıq söyləmlərin ardıcıl düzülüşü ilə yaranır. Paradiqmatik əlaqə semantik bağlılıqdır və intonasiya ilə formalaşır. Söyləmlər arasında fərq mətndə reallaşan ümumi fikrin hər bir söyləmdəki semantik həcmi ilə bağlı olur. Bu isə hər bir söyləmdə tema və remanın gedişindən – nəyi nə nisbətdə əhatə etməsindən asılıdır.

Tema və remanın hər bir söyləmdə formal əlaməti söz sırası və intonasiyadan ibarətdir. Ədəbi dil normalarına müvafiq qurul-

muş sadə nəqli cümlələrdə adətən tema əvvəl, rema sonra gəlir; temada ton nisbətən yüksək olur, rema isə məntiqi vurğu ilə tələffüz edilir.

Lakin mətn daxilindəki söyləmlərin də hamısı mətndən eyni dərəcədə asılı olmur. Bəzi söyləmlərdə müstəqillik, bəzilərində isə asılılıq çox olur. Dilçilər müstəqilliyi çox olan söyləmləri paradiqmatik cəhətdən güclü, sintaqmatik cəhətdən zəif söyləm hesab edirlər. Söyləmin mətndən asılılığı çox olduqda vəziyyət əksinə olur – söyləm paradiqmatik cəhətdən zəif, sintaqmatik cəhətdən güclü hesab edilir.

Ədəbi dil normalarına uyğun qurulmuş cümlələrdə mübtəda və ya mübtəda zonası temadan, xəbər, xəbər zonası remadan ibarət olur. Yəni mübtəda zonası «məlum olanı», xəbər zonası «yenini» bildirir. Tema danışana və dinləyənə məlum olanı, söhbətin predmetini ifadə edir.

Mətnin qurulma texnikası belədir ki, hər bir nitq aktı temadan remaya doğru irəliləyir, çünki danışıqda, yazıda məqsəd tema deyil və qeyd etdiyimiz kimi, tema danışana da, dinləyənə də məlumdur. Əsl məqsəd temanı nəzərə çarpdırmaqla həmin tema haqqında yeni məlumat verməkdir. Bu yeni məlumat cümlənin kommunikativ əsasıdır, nüvəsidir, məqsəd onu çatdırmaqdır. Rema («predikat» deməkdir) adlanan bu hissə fikrin inkişafına, irəliləməsinə, dərinləşməsinə, dinləyicinin, oxucunun yeni məlumatla təmin edilməsinə səbəb olur və nəticədə situasiyadan, danışanın, yazanın məqsədindən asılı olaraq, temanın yeni əlamətləri açılmış olur. Tema ətrafında toplanan söyləmlər bu cəhətdən birbirilə bağlı olub mətnin yaranmasını şərtləndirir. Aşağıdakı misala diqqət yetirək:

«Mehbalı kişinin Məşədi Möhsünlə haqq-salamı vardı. Onu zəmanənin təmiz və doğru adamlarından sayırdı. Mehbalı kişi bir inəyinin məhsulunu ancaq ona satardı.

Qış gecəsinin ayazında donmuş və qalınlaşmış qaymağı mis kasaya tökər, kasanın ağzını dəsmalla örtər, ovcuna alıb vağzala, Məşədi Möhsünun dükanına yollanardı.

Hər səhər Mehbalı kişinin vacib işi bu idi.»

(Mir Cəlal. «Qaymaq»)

Mir Cəlal «Qaymaq» hekayəsini belə başlayır. İlk cümlədə

söhbətin predmeti – məlum olan, yəni tema «Mehbalı kişinin Məşədi Möhsünlə haqq-salamı»dır. Bir adamın başqa bir adamla haqq-salamı ola da bilər, olmaya da bilər. Bu, hamıya məlumdur. Yazıçının bu cümlədə verdiyi yeni məlumat odur ki, onların haqq-salamı «var». Bu cümlə paradiqmatik cəhətdən güclü cümlədir, mətndən o qədər də asılı deyil. İlk dayaq cümlə olduğundan biz burada, eyni zamanda, iki şəxslə də tanış oluruq: Mehbalı kişi ilə və Məşədi Möhsünlə. Həm də yazıçı bunları bizim tanıdığımız adamlar kimi təsvir edir. Əslində də hər birimiz onları tanıyırıq. Çünki nə fərqi var: Mehbalı olmasın, Möhsun olmasın, başqaları olsun, – bunlar müstəsna adamlar deyil, tipik obrazlardır.

Oxucu düşünə bilər ki, axı bu haqq-salamın səbəbi nədir? Bu cəhəti yazıçı soruşmur, soruşsa idi, o, yeni tema olardı və əslində, yeni tema kimi ikinci cümləni o doğurur, lakin müəllif bu temanı presuppozisional şəkildə (yəni ixtisar edərək) oxucunun öhdəsinə buraxır, onun remasını verir: «Onu zəmanəsinin təmiz və doğru adamlarından sayırdı». Yenə oxucunun gözündə sual görünməlidir: «Bu haqq-salam nədə özünü göstərir?» Müəllif bu sualı da oxucunun ixtiyarına buraxır və sualın remasını verir: «Mehbalı kişi bir inəyinin məhsulunu ancaq ona satardı».

Şübhəsiz, bunlarla iş qurtarmaz. Yazıçı hekayə yazır və onun nə isə deyilməli sözü, söylənməli fikri var. Görək hadisələri necə düzəcək, nə cür dərinləşdirəcək. Biz Mehbalı kişi ilə Məşədi Möhsünün haqq-salamı olduğunu, Mehbalı kişinin öz məhsullarını yalnız Məşədi Möhsüna satdığını bildik. Bəs sonra?

Sonrası da budur ki, oxucu «məhsul» anlayışını, «bir inəyin məhsulu» anlayışını düşünməlidir: inəyin südü, qatığı, ayranı, pendiri, yağı, şoru ola bilər, – Mehbalı kişi Məşədi Möhsünə nə aparır, nə satır? Yazıçı bu sualı da oxucunun daxili düşüncəsinə buraxır, inəyin məhsulları içərisində ən ləzizini, ən dadlı və qiymətlisini seçir: «qış gecəsinin ayazında donmuş və qalınlaşmış qaymaq». «Məhsul» sözü sonrakı paradiqmada «qaymaq» şəklində konkretləşir. Beləliklə, «qaymaq» temadır, yoxsa rema? «İnəyin məhsulu» olmaqla temadır, lakin «inəyin məhsulları»ndan ən ləzizi kimi seçilmiş olduğundan, həm də remalıq xüsusiyyətinə malikdir. Ona görə də informasiya axınının bir neçə tərəfə genişləndiyi – qaymağın necə, hansı səliqə ilə aparıldığı və hara aparıl-

dığı barədə yeni məlumat verilən bu cümlə paradiqmanın yenə müstəqilliyi çox olan cümlələrindəndir.

Mehbalı kişinin işi çox ola bilər və bunların vacibi də ola bilər, qeyri-vacibi də – bunu bilirik, bunun özü də bizim üçün temadır. Ən vacib işi qaymağın Məşədi Möhsünə çatdırılması barədə məntiqi vurğu altında söylənən «bu idi» sözləri ilə ifadə olunur ki, biz bu sözlərlə yenə yeni məlumat alırıq.

Aydın şəkildə görünür ki, verdiyimiz bu kiçik mətndə yazıçı söyləmləri çox ustalıqla əlaqələndirə bilmişdir. Söyləmlərdə məntiqi-semantik bağlılıq, mətnin ümumi intonasiyası ilə yaranan əlaqə aydın və güclüdür. Lap ilk cümlə ilə son cümlə arasında əlaqəyə diqqət yetirmək kifayətdir: arada olan haqq-salam bir şəxsin ən əziz azuqəsini haqq-salam sahibinə çatdırmasını ən vacib iş etmişdir.

Bu mətndə paradiqmatik əlaqə daha güclüdür. Zəncirvarı sintaqmatik əlaqə bir növ hər bir abzasda kəsilir. Hətta ilk abzasdakı əlaqə də paradiqmatik, məntiqi-semantik əlaqədir.

Söyləmlərin tema və rema axını bu cür davam edir, tədricən bir cümlənin remasından sonra gələn rema sonrakı cümlənin teması kimi çıxış edir.

Verdiyimiz mətnin bütün cümlələri sadə quruluşludur. Potensial sintaksisdə cümlə mürəkkəb quruluşlu da ola bilər.

Müəllif həmin mətni belə davam etdirir:

«***Yolda birisi, şəhərdən gəlmiş bir qaymaq tamarzısı çıxıb desəydi ki:***

– Ay Mehbalı dayı, neçə istəyirsən al, o qaymağı məndən eləmə, – Mehbalı kişi qulaq verməzdi. Kasa dolusu qızıl da versən, sözündən dönməzdi və:

- Qaymağ Məşədi Möhsünündür! – deyərdi».

Bəlkə, Mehbalı kişi dostluqda səbatsız adamdır? Bəlkə sözünün üstündə duran deyil? Bəlkə, onu Məşədi Möhsünlə alverdən yayındırmaq olar? – oxucunun bu cür düşüncələrinə imkan verməmək üçün yazıçı yeni məlumatla Mehbalı kişinin haqq-salamda möhkəmliyini xüsusi qeyd edir, aydın olur ki, Mehbalı kişi, haqq-salam xatirinə kasa dolusu qaymağı kasa dolusu qızıla da dəyişməz və o, heç cür təsəvvür etmir ki, Məşədi Möhsündən başqa, bu qaymağı ayrı adama vermək olar. Bu fikirləri ifadə edən

abzas yuxarıda verdiyimiz mətnin davamı olub, iki mürəkkəb cümlədən ibarətdir. Birinci cümlə qarışıq tipli şərt budaq cümləli tabeli mürəkkəb cümlədən ibarətdir və bu cümlədə «Mehbalı kişi qulaq verməzdi» ikinci komponent, bura qədərki hissə birinci komponentdir. Birinci komponent tema, ikincisi remadır – həmin komponentdə Mehbalı kişinin haqqsalamda sabitliyi, möhkəmliyi ifadə olunur və haqqında danışılan şəxsin dəyanəti barədə oxucuya yeni məlumat verilir. Birinci tərkibin özü də mürəkkəb cümlə şəklindədir, həm də qarışıq tipli tabeli mürəkkəb cümlə şəklindədir – əvvəl baş cümlə, sonra tamamlıq budaq cümləsi işlənmişdir; tamamlıq budaq cümləsinin özü də («neçə istəyirsən al, o qaymağı məndən eləmə») qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə şəklindədir və onun da ikinci tərəfi sadə quruluşlu, birinci tərəfi mürəkkəb quruluşludur – kəmiyyət budaq cümləli tabeli mürəkkəb cümlədən ibarətdir («neçə istəyirsən, o qədər al»).

Birinci cümlə yenə presuppozisional xarakterdədir: Mehbalı kişi bir gün getmir, beş gün getmir, hər gün qaymaq kasası əlində vağzala yollanır və bunu kəndlilər də görür, şəhərdən gələnlər də. Bir gün, iki gün... Hamı bilməlidir ki, Mehbalı kişi hər səhər kəhrəba kimi qaymaq daşıyır Məşədi Möhsünə. Bir Məşədi Möhsün deyil ki! Hamı qaymaq yemək istəyər. Ona görə də bu qaymağı başqa istəyənlər də meydana çıxa bilər və bu, çox təbiidir. Yazıçı bu barədə uzun-uzadı məlumat vermir, – birinci cümlənin birinci komponentində tamamlıq budaq cümləsinin baş cümləsi temadır, yeni fikir ifadə etmir. Tamamlıq budaq cümləsinin özü də təzə fikir ifadə etmir, bütövlükdə fikir budur ki, «bir adam çıxıb qaymağı istəsəydi». Amma bununla yanaşı, budaq cümlənin birinci komponentindəki «neçə istəyirsən, o qədər al» sözləri, hər halda, rematik xüsusiyyətə malikdir və bu sözlər də məntiqi-semantik cəhətdən əvvəldən gələn tematik proseslə bağlıdır: kişinin sədaqətini ən baha qiymətlə də sarsıtmaq, pozmaq mümkün deyil.

İkinci cümlə Mehbalı kişinin möhkəmliyini, sədaqətini yeni misalla irəlilədir və bu cümlə sadalama intonasiyası ilə əvvəlki cümlə ilə bağlanır. Bunun da quruluşu mürəkkəbdir: budaq cümlə sadə, baş cümlə mürəkkəb quruluşludur. Əvvəlki mürəkkəb cümlə Mehbalı kişinin sədaqətini göstərirsə, bu cümlə Mehbalı kişinin haqq-salamda bir misqal tərəddüdə malik olmadığını hökm kimi

səsləndirir: «Qaymaq Məşədi Möhsünündür!» Madam belədir, nə təklif edirsən et (baxmayaraq ki, bir kasa qızılla bir kasa qaymağı müqayisə etmək olmaz – dəyərinə görə), kişini əymək, döndərmək olmaz; odur ki budaq cümlə temanın, baş cümlə əvvəlki cümlədəki remanın daha da dərinləşdirilməsinə, möhkəmləndirilməsinə səbəb olur.

Beləliklə, bu hekayədə tema Mehbalı kişinin Məşədi Möhsünə münasibətindən başlayır, öz inəyinin məhsulunu yalnız Məşədi Möhsünə çatdırmasına keçilir, sonra qaymaq üzərində bu sədaqətin möhkəmliyi yoxlanılır. Hadisələr bu şəkildə davam edir və qəflətən hekayənin sonunda Mehbalı kişi ayılır ki, nahaq yerə o, ailəsini, uşağını qoyub, əlinin zəhmətini bir möhtəkirə yedirdir. Bu isə bütövlükdə kəndlinin şüurunda təbəddülatdır. Bütün bu fikirlər ya sintaqmatik, ya da paradiqmatik əlaqələrlə, ya zəncir həlqəcikləri kimi dalbadal düzülmüş, ya da məsafəli, məntiqi-semantik bağlılıqla üzə çıxan cümlələrlə ifadə olunmuşdur. Mətnin qurulmasının əsas səbəbi hər bir söyləmin tema və remaya ayrılmasıdır, hər bir söyləmin aktual üzvlənməsidir. Mətni istiqamətləndirən əsas vasitə temadır. Mətni irəlilədən, yeni fikir ifadə edərək mövzunu genişləndirən, dərinləşdirən vasitə isə remadır.

Aktual üzvlənməyə məzmun və forma baxımından yanaşanlar var. Məzmunca yanaşma o deməkdir ki, mətnin hər bir cümləsində aktual üzvlənmə nəzərə alınır. Əgər cümlə bir fikir ifadə edirsə, orada yeni fikir olduğu, aktual üzvlənmənin mövcudluğu nəzərə alınır. Formal yanaşmanın mahiyyəti ondan ibarətdir ki, aktual üzvlənmə tema və remanın aydın müşahidə olunduğu cümlələrdə axtarılır. Bizcə, əvvəlki mövqe doğrudur. Ola bilər ki, intonasiyadan asılı olaraq, cümlə tema və remaya ayrılmasın, üzvlənməsin. Bunlar paradiqma və ya sintaqmatika üçün özül, başlanğıc cümlələr ola bilər, mətnə giriş üçün lazım olar, lakin onun özünün də yeni məlumat bildirmə imkanlarından məhrum olduğunu iddia etmək olmaz. Bu cür cümlələr ən ümumi cümlələr olsa belə, yenə modal münasibətə malik olmaqla yeni bir şey ifadə etməlidir.

Tema və remanın hər ikisinin ifadəsi və ya bunlardan birinin ifadəsi mümkündür. Bu cür hallarda, yəqin ki, remanın ifadəsi vacibdir. Tema isə nəzərdə tutula bilər, təkrara yol verməmək üçün ixtisar edilə bilər. Bu hal yarımçıq cümlələrin yaranmasına səbəb

olur və nitqin sürətliliyini, axıcılığını, fikrin daha asan anlaşılmasını, rasional fikrin daha tez çatdırılmasını təmin edir. Digər tərəfdən, temanın hər dəfə təkrarı yazılı və ya şifahi nitqi ağırlaşdırmaqla yanaşı, ətalətə, oxucunun kütləşməsinə səbəb olur. Halbuki presuppozisional cəhətlər – bir çox məsələlərin birbaşa deyilməməsi, həmin hadisələrin məntiqi təfəkkürlə bərpasına imkan yaradılması təkcə mətnin yox, oxucunun özünün də aktuallaşmasına səbəb olur.

Verdiyimiz mətnin təhlilindən gördük ki, mətni təşkil edən söyləmlər arasında əlaqə, bağlılıq əsas şərtdir. Bu əlaqə çox müxtəlif vasitələrlə yaradılır. Mətndaxili əlaqələr xətti şəkildə və ya qlobal ola bilər, yəni bağlılıq həm ardıcıl gələn cümlələrdə, həm də məsafəli cümlələr arasında mövcud olur. Bağlılıq özü də iki cür olur: semantik və qrammatik bağlılıq. Semantik bağlılıq əsas və həlledicidir. Semantik bağlılıq tematik inkişafa səbəb olur. Bu olmasa, mətnin kommunikativ funksiyası təmin edilə bilməz və semantik əlaqə olmadan mətnin mümkünlüyü də irrealdır. Qrammatik əlaqə isə əsas və köməkçi nitq hissələri, söz sırası və prosodik vasitələrlə – vurğu, fasilə, intonasiya ilə təmin edilir. Bu sahədə əvəzliklərin, bağlayıcıların, intonasiyanın rolu daha böyükdür. Potensial sintaksisin tədqiqi və tədrisi prosesində bu vaxta qədər mətnin qurulmasına xidmət edən qrammatik və eləcə də semantik vasitələrə bizim dilçilikdə əsaslı diqqət yetirilməmiş, ali və orta məktəb sintaksisi bu cəhətdən daim boş buraxılmışdır.

Faktlar göstərir ki, tema və remanın təzahürü həmişə eyni xarakterdə deyildir. Paradiqmanın daha müstəqil cümlələrində tema və rema ayrılması sıfır vəziyyətdə olur. Əksərən normal sıra ilə əvvəl tema, sonra rema dərk olunur. Bir çox hallarda isə rema cümlənin hər hansı bir nöqtəsində məntiqi vurğu ilə fərqləndirilir. Məsələn, Sabirin:

Bu sözləri insan yazıb i n s a n ə , a Molla!
Noxta yaraşır f i r q e y i - h e y v a n ə , a Molla! –

misralarında məntiqi vurğu fərqləndirilmiş sözün və birləşmənin üzərinə düşür. Həmin hissələr rematik hissələrdir. Şair demək istəyir ki, bu sözləri insan qanan adam üçün, insan üçün yazıb və

noxta heyvan üçün yaranıb, onu insan başına vurmaq olmaz (bu son fikir presuppozisionaldır – məntiqi şəkildə düşünülür).

Məntiqi vurğu və intonasiya tema və remanın yerini dəyişə bilər. Məsələn: ***Atam gəldi! – Gəldi atam!*** – cümlələrində olduğu kimi.

Qədim dövrlərdə – hələ dilin sintaktik quruluşu (potensial sintaksis) dəqiq öyrənilmədiyi, tədris və təbliğ edilmədiyi zaman fikrin ifadəsi fikrin təfəkkürdə formalaşma gedişi ilə daha çox uyğun gələ bilərdi. Məsələn:

«***Xanım, hey!***

Qamğan oğlu xan Bayındır yerindən durmuşdu. Qara yerin üstünə ağ ban evin tikdirmişdi». («Kitabi-Dədə Qorqud»)

Burada hər şey təbiidir. Dədə Qorqud boy boylayır, «Xanım hey» deyə müraciətlə başlayır. Məlum olan – «Qamğan oğlu xan Bayındır»dır; yeni isə onun tərpənməsi, hərəkət etməsi, yerindən durmasıdır. İkinci cümlədə «Qamğan oğlu xan Bayındır» təsəvvür olunur – presuppozisionaldır, temadır, yeni – onun yer üzündə ev tikdirməsidir. Bu söyləmdə ideyaların sırası da təbiidir: müşahidəçinin – Dədə Qorqudun gözü əvvəlcə qara torpağa, sonra ağ ban evə istiqamətlənmişdir. İdeyaların ifadəsi sintaktik quruluşa, söz sırasının gedişinə müvafiqdir. Lakin bu gün təfəkkür də mürəkkəbləşmiş, bu barədə biliyimiz də müxtəlif ifadə üsullarına yol açmışdır. Məsələn:

«Əlbəttə, Gicbəsər o yarpaq xışıltısını eşidirdi, amma ağaclara tərəf baxmırdı; qarovulçu Əflatunun köşkünün damında dal ayaqlarını altına yığıb, qabaq ayaqlarını irəli uzadıb, o yüngül yaz mehinin əsdiyi səmtə – axşamüstü uzaqda qaralmağa başlayan dənizə tərəf baxırdı...» (Elçin. «Ölüm hökmü»).

Bu cümlədə obyektiv müşahidə ilə fikirlərin, müşahidələrin təsvirindəki sıra uyğun deyil. Müşahidə obyektinin sırasına görə Əflatunun köşkü, köşkün üzərində it və onun aldığı vəziyyət və sonra onun baxdığı sahə (qaralmağa başlayan dəniz) və baxmadığı sahə (yarpaqları xışıldayan ağac) təsvir edilməli idi. Lakin potensial sintaksisin müasir zəngin imkanları, ideyalarla onların ifadəsindəki sıra arasında fərqli cəhətlərə baxmayaraq, temanın yeni məlumat istiqamətində bir neçə cəhətə şaxələnməsinə imkan verir: «Gicbəsər» adlandırılmış bu itin yarpaqların xışıltısını eşitməsi,

lakin onlara məhəl qoymaması, harada yatması, necə vəziyyətdə yatması, hansı tərəfə baxması yeni məlumatı çoxaldır və bütün bunların ümumiləşdirilməsi əsasında tədricən itin kədərli vəziyyəti barədə yeni bilik verilir.

Rema vasitəsilə tema – təbiət hadisələri, müxtəlif proseslər, şəxs və əşyalar, ayrı-ayrı faktlar, şərait, zaman və s. haqqında yeni məlumat verilir, müxtəlif məsələlər aydınlaşdırılır, dəqiqləşdirilir.

Potensial sintaksis ilə aktual sintaksis üzvi şəkildə bağlıdır. Buna görə də qrammatik üzvlənmə ilə aktual üzvlənmə arasında əlaqə və yaxınlıq güclüdür. Qrammatik üzvlənmənin vahidi olan mübtəda ilə xəbər arasında mövcud olan əlaqə və münasibətlə söyləm vahidi olan tema və rema arasındakı əlaqə və münasibətlər yaxındır. Müxtəsər cüttərkibli cümlələrdə mübtəda temaya, xəbər remaya uyğun gələ bilər; məsələn, ***Əhməd danışır!*** Əgər bu cür cümlələrdə tema ilə rema yerini dəyişərsə (məsələn, *Danışır Əhməd!)***,** qrammatik və aktual üzvlənmə uyğun gəlməz. Geniş cümlələrdə qrammatik və aktual üzvlənmənin münasibəti daha mürəkkəb olur. Cümlənin beş üzvü vardır və geniş cümlələrdə qrammatik üzvlənmə cümlədə həmin üzvlərin müəyyənləşdirilməsinə imkan verir. Aktual üzvlənmədə isə söyləm hökmün üzvlərinə – subyekt və predikata müvafiq olaraq iki üzvə – tema və remaya ayrılır. Lakin bu cür fərqli münasibətlərin müəyyənləşdirilməsində hələ də dəqiqləşdirilməli məsələlər çoxdur.

Hər bir cümlə, məntiqi vurğunun hansı sözün üzərinə düşməsindən asılı olmayaraq, qrammatik cəhətdən eyni cür üzvlənir; məsələn: ***Mən bu gün yataqxanada növbətçi idim*** – cümləsində məntiqi vurğu məqsəddən asılı olaraq ayrı-ayrılıqda bütün sözlərin üzərinə düşə bilər**:** ***M ə n bü gün yataqxanada növbətçi idim. Mən b u g ü n yataqxanada növbətçi idim. Mən bu gün y a t a q x a n a d a növbətçi idim. Mən bu gün yataqxanada n ö v b ə t çi i d i m***. Lakin bu cümlə bütün bu dəyişmələrə baxmayaraq, qrammatik sintaksisdə mübtəda, zaman zərfliyi, yer zərfliyi və xəbərdən ibarət olacaqdır. Aktual üzvlənməyə gəldikdə, vəziyyət tamamilə başqadır: məntiqi vurğunun hansı sözün üzərinə düşməsindən asılı olaraq hökm dəyişir, müxtəlif hökmlər ifadə olunur və nəticədə

tema ilə remanın da yeri dəyişir, qrammatik və aktual üzvlənmədə kəskin fərq əmələ gəlir. Bu halda aktual üzvlənmə qrammatik üzvlənməyə mane olmur, əksinə, onun dil materialına əsaslanır. Aktual üzvlənmə söylənmiş fikrin bitkinliyini təmin etməklə qrammatik üzvlənmənin tamamlanmasına səbəb olur. Dilçilərin fikrincə, aktual üzvlənmə cümlənin dil semantikasından fərqli olaraq, nitq semantikasına məxsusdur.

Hər bir cümlə mətn daxilində tam düzgün dərk oluna bilər. Biz ümumi biliyimiz əsasında ayrı-ayrı cümlələri ətraflı təhlil edə bilərik. Mətn daxilində cümlələr özündən əvvəlki cümlələrlə məntiqi-semantik və qrammatik əlaqədə olmaqla yanaşı, sonrakı cümlələr üçün də zəmin yaradır. Bütün bunlar mətnin əlaqəliliyini, bağlılığını təmin edir, onu bütöv bir vahidə çevirir.

Mətn və onun hüdudu məsələsi dilçilikdə mübahisəlidir. Bəzən bitmiş fikir ifadə edən iki söyləm də mətn sayılır, bütöv bir bədii əsər də. Biz hər hansı bir əsərdən ayırıb götürdüyümüz bir parçanı da mətn adlandırırıq. *Mətn müəyyən semantik bağlılığa malik olan cümlələrin qaydaya düşmüş ardıcıllığı olub morfoloji, sintaktik və prosodik vasitələrin köməyi ilə qurulur.* Anaforik və kataforik əlaqə və münasibətlər mətnin təşkilində həlledici əhəmiyyətə malikdir. Hər bir bitkin mətn giriş, əsas hissə və nəticədən ibarət olur. Mətn adətən səbəb-nəticə istiqamətində qurulur, bəzi söyləmlərin presuppozisional vəziyyəti – buraxılması və təfəkkürdə bərpası halları da mətnin bağlılığını təmin edən vasitələrdəndir. Mətnin özünəməxsus ümumi intonasiyası olur.

Yazılı mətnin ayrı-ayrı cümlələrinin suprasintaksis baxımından (aktual üzvlənmə) necə üzvləndiyini mətnin ümumi intonasiyası ilə müəyyənləşdirmək olar. Şifahi nitqdə isə aktual üzvlənmə hər bir cümlənin öz intonasiyası ilə müəyyənləşir. Lakin qrammatik üzvlənmənin intonasiya ilə bu cür əlaqəsi yoxdur.

Sintaktik vahidlərin sadədən mürəkkəbə inkişaf düzülüşü aşağıdakı kimidir: *söz birləşmələri – müxtəsər cümlə – geniş cümlə – polipredaktiv (həmcins üzvlü) cümlə – mürəkkəb cümlə – qarışıq tipli mürəkkəb cümlə – mətn.* Bu sırada «cümlə» mərkəzi mövqe tutur, lakin öz həcm və quruluş xüsusiyyətləri ilə söz birləşməsi ilə mətn arasında bir neçə şəkildə özünü göstərir. Aktual üzvlənmə məqsədli nitqin analizi üçün nə qədər böyük rola malik olsa da,

onun rolunu həddindən artıq şişirtmək, cümləni nisbi bitmiş fikir ifadə edən dil vasitəsi kimi heçə endirmək olmaz. Cümlə – cümlədir, mətnin əsas hüceyrəsidir.

Mətn sintaksisinin rolunu şişirtməklə tabesiz mürəkkəb cümlələri də inkar etmək olmaz: «...mətn sintaksisi mürəkkəb cümlənin ənənəvi təsnifatını inkar edərək «tabesiz mürəkkəb cümlə»ni şübhə altına almış oldu. Bu istiqamətdə aparılan tədqiqat, ümumiyyətlə, belə bir terminin – bölümün əsassızlığını sübut edərək «tabesiz mürəkkəb cümlə» ilə sintaktik bütöv və ya «period» arasında müəyyən bir oxşarlığın olması kimi nəticəyə gətirib çıxartdı. Və cəsarətlə deyə bilərik ki, bu tipli mürəkkəb cümləni tədqiq edənlər əslində sintaktik bütövü və ya periodu yazıçının öz üslubuna, deyim tərzinə uyğun bir neçə cümlənin şərti işarə ilə qapanmasını əsas götürərək tədqiqat obyektinə çevirmişlər. Bu sadə cümlələrsə, heç vaxt (tabesiz mürəkkəb cümlə adı altında verilmiş) mürəkkəb fikir ifadə edə bilməz. Halbuki yazıçının şərti işarəsinin qapanmasını yox, fikrin məntiqi qapanmasını əsas götürmək lazımdır» (Q.M.Bəyzadə. Mətn dilçiliyi. Bakı, «Qorqud», 1997, s.40).

Bu sitatda müəllif mövqeyi bir neçə istiqamətdə fərqləndirici xüsusiyyətə malikdir. Aydın olur ki, müəllif mürəkkəb sintaktik bütövlə periodu uyğun sintaktik strukturlardan sayır və mətnin hissələri hesab edir. Dilçilikdə bu sahədə fikir ayrılığı vardır və bir çoxları «mətn» termini ilə «mürəkkəb sintaktik bütöv» terminini sinonim kimi işlədirlər. Sitat verdiyimiz müəllif isə indiyə qədər öyrəndiyimiz tabesiz mürəkkəb cümlələri də mürəkkəb cümlə növü deyil, «müəllifin durğu işarələrinin şərti qapanması ilə» meydana çıxan mürəkkəb sintaktik bütöv və ya period hesab edir. Qeyd edə bilərik ki, yazıçı dilində elə tabesiz mürəkkəb cümlələr olur ki, həqiqətən, durğu işarəsi – nöqtə ilə cümlənin sərhəd qapanması başqa cür də ola bilər və bu halda tabesiz mürəkkəb cümlə ləğv edilmiş olar, lakin bu halda intonasiyada keyfiyyət dəyişikliyi olacaqdır. Əlaqəli mətndə fikrin müəllif istəyinə müvafiq qurulması bu cür hallarda da mümkündür. Lakin bütün bunlar tabesiz mürəkkəb cümlələri bütövlükdə inkar etməyə əsas vermir. Bu, bir neçə cəhətlə bağlıdır:

Əvvələn, dilin quruluşu cəmiyyətin quruluşuna müvafiq şəkil-

dədir. Cəmiyyət ibtidai icma quruluşundan quldarlıq quruluşuna keçmişdir. Dildə də «bərabərhüquqlu quruluş»la «tabeli quruluş» hökm sürməkdədir.

İkincisi, bütün dilçilikdə sübut olunmuşdur ki, tabeli mürəkkəb cümlələrin bir qismi tabesiz mürəkkəb cümlələrdən əmələ gəlir.

Üçüncüsü, tabesiz mürəkkəb cümlənin qarışıq tipi də var və qarışıq tipli tabesiz mürəkkəb cümlələri inkar etmək olmaz. «*Deyirdilər fırıldaqçısan, inanmırdım*» – cümləsi qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlədir; ikinci tərkib hissəsi sadə quruluşlu, birinci tərkib hissəsi mürəkkəb quruluşludur – tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədən ibarətdir. Birinci tərkibdən sonra «müəllifin durğu qapanması» necə ola bilər? Ola bilər, amma əvvəlki effekti verməz.

Və, nəhayət, tabesiz mürəkkəb cümlələrin tərkib hissələrini əlaqələndirən vasitələr vardır – intonasiya, bağlayıcılar, zaman uyuşmaları, tərkib hissələrin paralelliyi, ellipsis, ortaq sözlər, ortaq üzvlər və s. «***Lalə çiçəklərin ətrini sinəsinə çəkdikcə yarası sağalır, ayrılığın acıları canından çıxırdı***» (Ə.Vəliyev) – cümləsində axırıncı tərkibdən əvvəl nöqtə ilə durğu qapanması müəllif istəyini indiki şəkildə ifadə edə bilməz.

Bütün bunlar göstərir ki, tabesiz mürəkkəb cümləni mürəkkəb sintaktik bütövlərə qurban vermək, inkar etmək olmaz. «Tabesiz mürəkkəb cümlə» termini şərti termindir, tabesizlik – əlaqəsizlik deyildir. Tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasında da asılılıq vardır, lakin bu asılılıq tabeli mürəkkəb cümlədə olduğu kimi birtərəfli deyildir. Tabesiz mürəkkəb cümlələrin tərkib hissələri bir-birindən eyni dərəcədə, bərabər şəkildə asılı olur.

Həmin sitatda müəllifin bir qeydi ilə də razılaşmaq olmaz: «Bu sadə cümlələrsə heç vaxt mürəkkəb fikir ifadə edə bilməz». Müəllif «bu sadə cümlələr» dedikdə bizim öyrəndiyimiz tabesiz mürəkkəb cümlələrin ayrı-ayrı komponentlərini nəzərdə tutur. Tabesiz mürəkkəb cümlələrin hər bir komponentində fikir birbaşa, müstəqim şəkildə ortaya çıxır, tabelilikdə isə bir komponent o birini aydınlaşdırmaqla fikrin ifadəsində iştirak edir. Elə tabesizlik və tabelilik də budur. «Mürəkkəb fikir» məsələsinə gəldikdə, mürəkkəb fikir sadə cümlə ilə də ifadə oluna bilir: daxilində feli sifət, fe-

li bağlama, məsdər tərkibi olan sadə cümlələr mürəkkəb fikir ifadə edir.

Aktual üzvlənmə və mətn sintaksisinin öyrənilməsi həm mətnin konkret kəsiyində, həm də onun bütün təşkili ərzində «məlum»un və «yeni»nin vəziyyətini, mətnin digər linqvistik əlamətlərini araşdırmağa, xüsusiləşmə, parselyasiya, referensiya, ellipsis və yarımçıq cümlə kimi mühüm sintaktik hadisələrin, bədii əsərlərin müəllif və janr xüsusiyyətlərini, funksional üslubların ən səciyyəvi əlamətlərini öyrənməyə imkan verir.

Aktual sintaksisin tədqiqi sahəsində çox iş görülməlidir. Hələ də bu sahə ilə bağlı bir çox terminlər sinonim şəkildə işlədilməkdədir. «Aktual üzvlənmə» ilə yanaşı, «kontekstual üzvlənmə», «kommunikativ üzvlənmə», «tema və rema üzrə üzvlənmə», «cümlənin aktual perspektivi», «cümlənin funksional perspektivi» və s., «tema» və «rema» əvəzinə, «mətnin subyekt və psixoloji predikatı», «anlam subyekti və anlam predikatı», «əsas (çıxış nöqtəsi) və nüvə», «tematik hissə və yeni» və s. terminlərdən də istifadə edilir. Tədqiqat artdıqca sinonim müvaziliklərdən biri üstünləşir. Şübhəsiz, bu sahədə Əfqan Abdullayevin «Aktual üzvlənmə və mətn» adlı bu əsərinin xüsusi rolu olacaqdır.

* * *

Əfqan Əli oğlu Abdullayev 1956-cı ildə anadan olub. İngilis dili fakültəsini bitirib. On ilə yaxın bir müddətdə Azərbaycan Dövlət Dillər İnstitutunun ingilis dilinin qrammatikası kafedrasında işləyib. 1995/1996-cı tədris ilində ABŞ-da magistratura təhsili alıb, magistr elmi dərəcəsinə layiq görülüb. 1997-ci ildə dissertasiya müdafiə edərək dilçilik nəzəriyyəsi üzrə filologiya elmləri namizədi alimlik dərəcəsi alıb. 30-dan çox elmi məqalənin müəllifidir. ABŞ-da, İranda, Rusiyada, İngiltərədə müxtəlif beynəlxalq konfranslarda iştirak və çıxış edib. Hazırda Xəzər Universitetində Humanitar elmlər fakültəsinin dekanıdır.

Oxuculara təqdim etdiyimiz bu əsər Əfqan Abdullayevin ilk kitabıdır. Göründüyü kimi, əsər dilçiliyin yeni, çətin və mürəkkəb bir sahəsinə həsr olunmuşdur. Başlıca olaraq, Azərbaycan dili materiallarına əsaslanan müəllif, yeri gəldikcə, Azərbaycan və

ingilis dili faktlarını qarşılaşdırmış, dillərin spesifik xüsusiyyətlərini üzə çıxarmağa çalışmışdır.

Ümid edirik ki, hörmətli oxucu bu əsərdən aktual üzvlənmənin mətnyaratma imkanları barədə kifayət qədər məlumat alacaq, aktual sintaksisə dair bilik və təsəvvürlərini genişləndirəcəkdir.

01.03.1998

TARİXİMİZƏ, DİLİMİZƏ MƏHƏBBƏTLƏ

Minaxanım Nuriyeva prof. Ə.Dəmirçizadə məktəbinin yetirmələrindəndir. Yaradıcılığa 80-ci illərdən başlamışdır və o vaxtdan bəri respublika mətbuatında ardıcıl çıxış edir, ədəbiyyatın, incəsənətin, dilçiliyin müxtəlif sahələrinə dair yazılar dərc etdirir.

Bir vətənpərvər alim kimi, Minaxanım Nuriyevanı daha çox düşündürən, narahat edən ölkəmizin və qonşu respublikaların ərazisindəki türk mənşəli qədim yer adlarının insafsızcasına dəyişdirilməsidir. Qədim toponimlər özündə müxtəlif etnosların tarixini yaşadır, xalqın dilini mühafizə edir. Faktlar göstərir ki, biz içərisində olduğumuz yüzillikdə türk mənşəli qədim toponimlərin «yeniləşdirilməsində» ermənilərdən az iş görməmişik. Bu hal keçmiş tarixi izlərin üzərinə ağır bir daş qoymaq kimidir.

Təkcə iri şəhərlərin, qəsəbə və kəndlərin, müxtəlif yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi deyil, qədim şəhərlərimizə məxsus məhəllə, meydan, küçə adlarının dəyişdirilməsi də tarixi izlərin itib-batmasına, keçmişin unudulmasına, babalarımızın halal zəhmətlə yaratdıqlarının onların əllərindən alınmasına səbəb olmuşdur. Bu cür tarixi adların çox zaman millət fədailəri əvəzinə, bu ölkəyə düşmən olanların adına yazılması tədqiqatçının qəlb üsyanına səbəb olur. Bu cəhətdən M.Nuriyevanın Bakı küçə və meydan adlarının dəyişdirilməsi, həm də çox zaman haqsız olaraq dəyişdirilməsi barədə etiraz dolu yazısı oxucunu ayıq olmağa, daşlar üzərindəki yazıları, daş kitabələri öyrənməyə, onlara hörmətlə yanaşmağa səsləyir: «Qarşımda Bakı daş kitab səhifələri kimi açıq qalıb. O, bizi sinəsindəki yazıları oxumağa, düşünməyə, bir də yaddan çıxardığımız sev-giyə çağırır». Müəllif eyni hərarətlə xarabazarlığa çevrilmiş bəzi Bakı məscidləri haqqında da danışır, Hacı Cavad məscidinin taleyini düşünür, vətənpərvər insanları köməyə çağırır.

İndi Bakıda kafelərə, restoran və dükanlara qəribə adlar verilir, şəhərə qəribə şəkillər vurulur – Amerika savannalarına yaraşan vəhşi at və mustanger şəkilləri. Bu, əslində, sovet dövründə çox yüksək inkişaf səviyyəsinə qalxmış, hər cəhətdən müasir dünyanın qabaqcıl ölkələri ilə yarışa bilən respublikamız üçün təhqirdir – bunu gətirənlər və şəhərin «bəzənməsinə» imkan verənlər istəsələr də, istəməsələr də respublikaya ən geridə qalmış bir əyalət nəzəri ilə baxırlar. Müəllif düz deyir, zahiri vətənpərvərlik duyğuları ilə verilən bir çox adlar da yerində deyildir: «Bakı və çevrəsindəki yer adları tarixlə bağlıdır. Burada ***Göyçə, Kəlbəcər, Vedi*** sözləri süni səslənir, çünki Göyçə Göyçəgülü havasıyla, aşığı ilə Göyçədir. Bakı və ətrafının da öz tarixi yer adları var: Salxım təpələri, Dərəqılınc bağları, Çənbərəkənd, Güldər dərəsi, Qanlı göl, Qanlı təpə məhəllələri, Pirvənzəri, Təmənnis düzəngahı, Dərnəgül, Hacı Həsən gölü, Badamdar, Şağanbağ (Bayıl burnuna yaxın), Od dağı, Bibi Heybət, Qırx qızlar, Şubanı, Yasamal və s».

Minaxanım Nuriyevanın araşdırmaları göstərir ki, onu ümumən millətin varlığını şərtləndirən amillər – onun dili, dini, ərazisi, qədim soy adları, toponim və etnonimləri, antroponimlərimiz,

milli və gözəl geyim və bəzək nümunələri, onların qorunması, mühafizəsi məsələləri maraqlandırır.

Müəllif azğın qonşumuz ermənilərin xəyanətkar niyyətlərini qədimlərlə – tarixin məkrli günləri ilə bağlayır, rus imperatoru I Pyotrun onların hərəkətlərinə necə rəvac verdiyini, xristian siyasətinin Qafqazda necə mənhus və murdar şəkil aldığını tarixi faktlarla izah edir, rus mədəniyyətinin görkəmli nümayəndələrinin – A.S.Puşkin, A.S.Qriboyedov kimi şəxslərin belə bu siyasətdən kənarda qalmadıqlarını açıb göstərir. Bu yazılar bir daha göstərir ki, rus imperiyasının bir gözü daim Qafqazda – Azərbaycanda olub. Minaxanımın bu yazıları təkcə tarixin verdiyi faktların vətən sevgisi ilə şərhindən ibarət deyildir; bu yazılarda keçmiş ədəbiyyatımızın, keçmiş böyük sənətkarlarımızın, ictimai xadimlərimizin aldanışları, geniş planlı düşmənin dəhşətli qurğuları qarşısında təbii beynəlmiləl-insani hisslərlə döyünən saf Azərbaycan qəlbi və bu dəhşətli mübarizədə sonsuz çıxılmazlıqlar ifadə olunmuşdur. Azərbaycan torpaqları bir çox hallarda güclü qüvvənin əli ilə «erməni torpaqları» kimi bölüşdürülmüşdür.

Yadımdadır ki, 64-cü ildə rus alimi N.A.Baskakovun iştirak etdiyi bir məclisdə misilsiz filoloq alimimiz Əkrəm Cəfər deyirdi: «Biz həmişə deyirik ki, Azərbaycan dilinə rus dilindən «papal», amma bir dəfə demirik ki, bəs rus dilinə hardan «papal»? Çox yaxşı cəhətdir ki, son onilliklərdə həm rus dilçiləri, həm də bizim öz dilçilərimiz tərəfindən türk mənşəli xüsusi və apelyativ sözlərin rus dilində rolu da ətraflı araşdırılmaqdadır. Bu baxımdan M.Nuriyevanın «Türk mənşəli rus təxəllüsləri» məqaləsi maraq doğurur. Minaxanım rus mənbələrinin köməyi ilə bir çox görkəmli rus ziyalılarının, rus sənət adamlarının adlarının və onların etnik mənşəyinin türklərlə, türk dili ilə bağlı olduğunu və türklərin dünya sivilizasiyasında böyük tarixi xidmətini qiymətli faktlarla qeyd edir.

Əgər rus dilindəki türk mənşəli təxəllüslər, ümumi-apelyativ leksika ümumtürk xarakteri daşıyırsa, burada Balkandan Altaya qədər böyük bir ərazidə yerləşmiş bütün türk xalqlarının payı varsa, nankor qonşumuzun – ermənilərin lüğət tərkibində işlənən, həm də bol-bol işlənən sözlərin əksəriyyəti bilavasitə Azərbaycan türk dilindən keçmişdir, azərbaycanlıların tarix boyu öz qapıla-

rında işlədib çörək verdikləri ermənilərin öyrəndikləri sözlərdir. Müəllif qonşuluq əlaqələrinin bu cəhətini xüsusi nəzərə çarpdırır.

Minaxanım Nuriyeva ixtisas etibarı ilə dilçidir, lakin yazıları göstərir ki, o, hərtərəfli bir alim kimi, xalqımızın və dilimizin tarixi, xalqımızın təşəkkülündə iştirak edən etnosların inkişaf yolu, adət-ənənələrimiz, kino sənəti, incəsənətin digər sahələri, xüsusilə bədii söz ustalarımız, görkəmli alimlərimiz, sənət adamlarımız barədə orijinal düşüncələrə malikdir. Bu cəhətdən onun Fatma xanım Kəminə, Aşıq İman haqqında yazıları, hörmətli şairimiz Nəriman Həsənzadənin yaradıcılıq yolu barədə qeydləri zəhmətli axtarışların nəticəsidir. Fatma xanım Kəminə haqqında qələmə aldığı canlı xatirələr şairənin tərcümeyi-halı üçün maraqlı material verir. Müəllif bədii ədəbiyyatın bir çox problematik məsələləri ilə maraqlanır. Bədii və elmi tərcümə prinsipləri, xüsusi adların düzgün tərcüməsii, komizm nəzəriyyəsi, satira və yumor dili – müəllifin fikir qaynaqlarına daxil olan mühüm məsələlərdir.

Üslub – müəllif qələminin keyfiyyətidir. Bu yazılarda filologiya elmləri namizədi, dosent Minaxanım Nuriyevanın özünəməxsus səmimi, sevgi dolu üslubu seçilməkdədir. Ona görə də topluya daxil olan məqalələrin oxuculara xoş təsir bağışlayacağına şübhə etmirik.

16.06.98

ƏDƏBİ DİLİMİZİN SİNTAKSİSİNƏ YENİ BAXIŞ

«Maarif» nəşriyyatı bu günlərdə filologiya elmləri doktoru, professor Kamal Abdullayevin «Azərbaycan dili sintaksisinin nəzəri problemləri» (Bakı, «Maarif»,1998) adlı kitabını çapdan buraxmışdır.

Sadə və mürəkkəb cümlənin, mətn sintaksisinin tədqiqindən ibarət olan bu kitabda müəllifin irəli sürdüyü problemlər çoxdur. Kitab Azərbaycan dili sintaksisinin tədqiqi sahəsində yeni mərhələ sayıla bilər.

Müəllif bir çox məsələlərə müasir dil və ya dilimizin tarixi baxımından deyil, ümumən dilin (dünya dillərinə məxsus ilk ana dili də düşünmək olar) təşəkkül və inkişafı baxımından yanaşdığından biz əsərdə bir sıra yeni problemlərlə qarşılaşırıq.

Kitabda cümlə üçün ən mühüm əlamət hesab olunan predikativliyin inkişaf yolu üç mərhələyə ayrılmışdır. Ən qədim birinci mərhələdə, müəllifin fikrincə, hər bir nitq elementi predikativlik imkanlarına malik olmuş, cümlə eynigüclü predikativ nöqtələrlə səciyyələnmişdir. Bu dövrü müəllif «tam predikativ struktur» dövrü adlandırmışdır. İkinci dövrdə cümlə tədricən tam predikativ quruluşdan azad olmağa, kvazi (zəif) predikativ quruluşa keçməyə başlamışdır. Dilimizdəki «var», «yox», «hə» tipli sözlər tam predikativ quruluşun, feli sifət, feli bağlama tərkibləri kvazipredikativ quruluşun yadigarları hesab olunur. Məsələn, vaxtilə öz subyekti ilə predikativ əlaqədə olmuş ***-mış*** şəkilçisi tədricən predikativlik imkanlarını itirərək tərkiblərin yaranmasına səbəb olmuşdur. Bunu «Kitabi-Dədə Qorqud»un ilk cümləsi də sübüt edir: «Peyğəmbər əleyhüssəlam dövrünə yaxın Bayat boyundan Qorqud Ata derlər bir ər qopdu» cümləsindəki «derlər» sözünü biz müasir dildə «deyilən» şəklində təsəvvür edirik.

Beləliklə, ikinci mərhələdə zəif predikativ quruluşa malik olan cümlə üçüncü mərhələdə predikativlik əlamətini yalnız cümlənin sonunda saxlayaraq monopredikativ quruluşa keçmiş, predikativlik əlaməti təkcə bir nöqtədə qalmışdır. Subyekt-mübtəda hərə-

kət əlamətlərindən tam təmizlənmiş olsa da, xəbər subyekt damğasını – şəxs sonluqlarını saxlamalı olmuşdur.

Bir sıra dilçilərimiz, o cümlədən K.Abdullayev də tamamlığı baş üzv hesab edir, ikinci dərəcəli üzvlərə yalnız təyin və zərfliyi daxil edir, zərfliyi təyinin bir növü kimi götürməyi məsləhət görür. Müəllif baş üzvlərdən hansının dominant olması barədə fikir yürüdərək mübtədanın üzərində dayanır: «… mübtəda cümlənin həm leksik başlanğıcı, həm də morfoloji sonudur». Cümlə strukturunda xəbər – ferz, mübtəda isə şahdır». «Əmələgəlmə və mövcud olma səbəbinə görə, heç şübhəsiz, cümlə mübtədaya borcludur».

Müəllif tamamlığı ona görə baş üzv hesab edir ki, o, yəni tamamlıq «potensial mübtədadır».

Tabesiz mürəkkəb cümlələrin komponentləri, parsellər və determinantlar barədə də müəllifin maraqlı fikirləri vardır. Mətn dilçiliyinin bir sıra başqa nümayəndələri kimi, K.Abdullayev də tabesiz mürəkkəb cümlənin komponentlərini müstəqil cümlələr hesab edir və «tabesiz mürəkkəb cümlə» adlandırılan dil vahidlərinin mətn sintaksisində öyrənilməsini düzgün hesab edir. Hətta «O acıqlı, qaradinməz adam hara, bu qədər incə hisslərin sahibi hara» tipli paralel tərkibli tabesiz mürəkkəb cümlələri də tabesiz mürəkkəb cümlə saymağı lazım bilməyən müəllif həmcins xəbərli cümlələrin də varlığını qəbul etmir: «Əgər hər hansı cümlədə iki tam hüquqlu müstəqil xəbər olarsa, biz, deməli, bir cümlə ilə deyil, iki cümlə ilə rastlaşmış oluruq». Ənənəvi dilçiliyimizdə həmcins xəbərli cümlələrin nə zaman tabesiz mürəkkəb cümlə həddinə çata bildiyi barədə mübahisə vardır, müəllif isə bu pillədən keçərək belələrini tam müstəqil cümlələr hesab edir. Bizim fikrimizcə, bunlar öyrənilməlidir. Xüsusilə tabesiz mürəkkəb cümlələrin komponentlərini bir çox hallarda durğu işarəsi ilə fərqlənən sadə cümlələr kimi götürmək olmur və bu cür cümlələr vahid bir tam kimi özünü göstərir.

Əsərdə ellipsis hadisəsinə və onun mətnin, situasiyanın köməyi ilə bərpası məsələlərinə, aktuallaşdırma baxımından dildə roluna geniş yer verilmişdir.

Ənənəvi sintaksis kitablarından fərqli olaraq, K.Abdullayevin bu əsərində potensial və aktual sintaksis birlikdə öyrənilmişdir.

Aktual üzvlənmə nəzəriyyəsinin G.Paul, A.Potebnya, S.Veyl, V.Matezius və başqa görkəmli nümayəndələri haqqında yığcam məlumat verən müəllif cümlədə informativliyin əhəmiyyətini xüsusi qeyd edərək, tematik proqressiyanın, tema və rema əvəzlənməsinin bir proses kimi özünü necə göstərdiyini dil faktları ilə ətraflı şərh etmişdir.

Aktuallaşmanın xəbərdən ön və son mövqeyi, postpozitiv mövqeyin daha güclü səciyyəsi barədə fikirlər konkret və dəqiq nümunələrlə izah edilmişdir. Bizim dilçilik üçün əksəriyyət etibarilə yeni olan bu məsələlər gənc tədqiqatçılar və tələbələrimiz üçün faydalı olacaqdır. Mübtəda, tamamlıq, təyin, yer zərfliyi və xəbərin aktuallaşma imkanlarını nəzərdən keçirən müəllif zərfliyin digər növlərinə münasibət bildirməmişdir.

«Sadə cümlə - tərkibində həmcins üzvlər olan sadə cümlə - tabesiz mürəkkəb cümlə» inkişaf xəttini düzgün hesab etməyən müəllif: «…mürəkkəb cümlə termini yalnız o zaman yerində sayıla bilər ki, o məhz tabeli mürəkkəb cümlə anlayışına işarə etsin» qənaətinə gəlir və buna görə də «tabeli mürəkkəb cümlə» terminə də etiraz edir: tabesiz mürəkkəb cümlə yoxdursa, "tabeli mürəkkəb cümlə" termininə də ehtiyac yoxdur. Əsas məqsəd informasiya yükünün paylanma nisbətinin, mürəkkəb cümlənin aktuallaşma imkanlarının öyrənilməsi olduğundan müəllif ilk növbədə baş və budaq cümlənin semantik tutumunu araşdırmalı olmuş və belə bir nəticəyə gəlmişdir ki, əsas informasiya budaq cümlə vasitəsilə verilir. Bu cəhət «baş cümlə + budaq cümlə» quruluşlu tabeli mürəkkəb cümlələrə aiddir. Əks quruluşlu tabeli mürəkkəb cümlələrə münasibət ətraflı şərh edilməmişdir.

Mürəkkəb cümlənin inkişaf yolu barədə də müəllifin fikri maraqlıdır. Müəllifin fikrincə, dilin ilkin təşəkkülü dövründə hər bir cümlədə mürəkkəblik olmuş, sonralar mürəkkəb cümlələr transformasiyaya uğramış, sadələşmişdir. Hazırkı mürəkkəb cümlələr sonrakı hadisədir: «Hər bir sadə quruluş mürəkkəb quruluşun içindən sıyrılıb çıxmışdır».

Əsərdə mürəkkəbləşmənin iki yolu – sadə cümlələrin birləşməsi, sadə cümlədən tərkibin kənara çıxıb müstəqilləşməsi yolları qəbul edilir. Müəllif tərkib və budaq cümlə məsələsini ətraflı araşdıraraq, daxilində tərkib olan cümlələrin quruluşca sadə, semantik

cəhətdən mürəkkəb olduğunu qəbul edir. Bağlayıcısız mürəkkəb cümlələrin ilkinliyi qeyd edilir və tədris prosesində bağlayıcısız mürəkkəb cümlələrin mürəkkəb cümlənin bir növü kimi ayrıca öyrənilməsi düzgün hesab olunur.

Kitabın III hissəsi «Mətn sintaksisi» adlanır. Müəllif ilk növbədə dilçiliyin tədqiq obyekti olan mətnlə mətn dilçiliyinin obyekti olan mətni fərqləndirmiş, sintaktik bütövü «ümumi semantik və formal əlaqələrlə birləşən iki və daha artıq cümlənin birliyi» kimi qəbul etmiş, mətn və abzas məsələlərini ətraflı izah etmişdir. Müəllifin fikrincə, düzgün qurulmuş nitqdə sintaktik bütöv bir abzasda yerləşdirilməlidir. Çox zaman sadə cümlədə subyekt və predikat hissələrinin ifadəsindəki eynilik sadə cümlənin müstəqil informativ yükə malik olmadığını göstərir. Buna görə də sadə cümlənin mətn sferasında öyrənilməsi zəruri sayılır.

Dilçilikdə sintaktik bütövlərin sərhədi müxtəlif alimlər tərəfindən müxtəlif meyarla müəyyən edilir. Mətnin son cümləsinin uzunluğu, pauzanın həcmi, mərkəzi cümlə əsasında mətnin sərhədini müəyyənləşdirmək və s. kimi prinsiplər mövcuddur. K.Abdullayev başqa bir meyardan istifadə etmişdir. Cümlə ilə sintaktik bütöv arasında paralellik, uyğunluq görən müəllif cümlənin başlanğıc, orta hissə və sonluqdan ibarət olduğunu əsas tutaraq, mətni də eyni şəkildə təhlil edir. Cümlə mübtəda ilə başlayıb şəxs sonluqları ilə, yəni mübtədanın xəbərdəki göstəriciləri ilə bitdiyi kimi, mətnin də ümumi giriş cümləsi olur, həmin giriş cümlənin izahından sonra implisit və ya eksplisit şəkildə ümumi giriş cümlə təsdiq edilir və bu hal mətnin bütövlüyünə dəlalət edir.

Müəllifin fikrincə, hər bir sintaktik bütöv emik, yəni dilə aid və etik – nitqə aid səviyyələrdə fərqlənir; dil faktı kimi özünü göstərən mətndə invariant mahiyyəti gizlənmiş olur; nitq faktı kimi özünü göstərən mətndə isə variant mahiyyəti özünü göstərir. Variantla invariantın qarşılıqlı münasibəti allafonla fonemin münasibəti kimidir. Sintaktik bütövlər bəzən abstrakt başlanğıcdan konkret sonluğa, bəzən də əksinə qurulur.

K.Abdullayevin bu əsəri sadə cümlə, mürəkkəb cümlə və mətn sintaksisi məsələlərini bütövlükdə əhatə edən ilk əsərdir. Kitab potensial sintaksisdən aktual sintaksisə iri bir addımdır və mətn dilçiliyinin inkişafına təkan olacaqdır.

18.12.1998

MƏTN DİLÇİLİYİNİN AKTUAL PROBLEMLƏRİ

Qənirə Musa qızı Bəyzadə qəflətən özünün iki cildlik «Mətn sintaksisinin problemlərinə bir nəzər» (Bakı, Patronat, 1999,1264 səh.) əsəri ilə dilçilik aləmində peyda oldu. «Qəflətən» deyəndə hələ bu kitabları görməmiş, bir neçə il əvvəl televiziya, radio və mətbuat vasitəsilə bir dilçi xanımın 400 müəllif vərəqi həcmində 5 cildlik əsəri olduğu barədə təəccüb və heyrətlə məlumat almışdıq. Kimdir bu xanım? Dilçilik aləmində tanınmayan bir şəxs birdənbirə bu qədər əsəri necə yaza bilib?

Yalnız bu yaxınlarda müəllif və onun iki cildlik əsəri ilə tanış ola bildik və işin mahiyyətindən xəbər tutduq.

Məlum oldu ki, Q.Bəyzadə 400 müəllif vərəqi həcmində 5 kitabı (deməli, hər biri 80 m.v.) ixtisar edib və birincisi 50, ikincisi 20 çap vərəqi həcmində olan iki kitaba sığışdırmalı olub.

Kitabların həcmi böyük ola bilərdi. Çünki müəllifin tədqiqat obyekti səs, söz, söz birləşməsi deyil, hətta cümlə, mürəkkəb cümlə də deyil, mətndir. Mətnin struktur-sintaktik xüsusiyyətlərini öyrənmək üçün iri nümunələrə ehtiyac olur, həm də hər bir konkret məsələnin izahı üçün çox və rəngarəng nümunələr vermək lazım gəlir. Lakin kitablarla tanışlıq nəticəsində aydın oldu ki, əsər yaxşı redaktə olunsaydı, birinci kitabın özünü 25-30 ç.v. həcmində oxunmalı, faydalı və məzmunlu bir kitaba çevirmək olardı.

Avropa və rus dilçiliyində mətn sintaksisi ilə keçən əsrdən məşğul olurlar. Bizim dilçilikdə isə bu sahə çox cavandır. Hələ də ali və orta məktəb dərsliklərimizdə bu sahə ilə bağlı məlumat cüzidir və ya yox dərəcəsindədir. Dilçiliyimizdə mətn sintaksisi ilə az-çox Ə.Xəlilov, K.Abdullayev, K.Vəliyev, F.Əlizadə və bizim iki aspirantımız – Ə.Abdullayev və N.Novruzova məşğul olmuşlar. Lakin Qənirə Musa qızı bunların hamısından fərqli olaraq, problemi bütün əhatə dairəsi ilə birgə ağır və zəhmli bir iş kimi ortaya çıxarmağa çalışmışdır.

I kitabın ilk fəsli «Mətndaxili vahidlər və mətnin məna növləri problemi» adlanır. Müəllif məsələni düz qoyur – buradan başlamaq lazım idi – mətn, onun quruluşu, daxili vahidləri, mənası, məna növləri problemlərini araşdırmadan digər məsələləri nizama salmaq qeyri-mümkün olardı. Ona görə də müəllif kitabın böyük bir hissəsini (ön sözlə birlikdə 120 səhifə) bu məsələyə həsr etmişdir.

Müəllif ilk növbədə sintaktik bütövü ona yaxın olan dil hadisələrindən fərqləndirməyə çalışmışdır. Bu cəhətdən sintaktik bütövlə periodun əlaqəsi maraqlıdır. Tədqiqatdan belə bir qənaət hasil olur ki, sintaktik bütövlər periodu da öz daxilinə ala bilir; bunlar mahiyyət etibarilə yaxındır, lakin period dairəvi qapanma ilə sintaktik bütövlərdən fərqlənir, belə ki sintaktik bütöv «yalnız bir ucdan düyün nöqtəsi vurmaqla digər uc nöqtədən açıq şəkildə mətn komponentləri ilə əlaqələnir».

Onu da qeyd edək ki, yeni sahə olduğu üçün bizim dilçilikdə mətn sintaksisi ilə bağlı bir sıra terminlər hələ də dəqiqləşdirilməmişdir. «Sintaktik bütövlər», «mürəkkəb sintaktik bütövlər» və s. kimi sinonim terminlərdən istifadə olunur. Cümlə var – mürəkkəb cümlə var. Buna müvafiq olaraq, sintaktik bütöv var və mürəkkəb sintaktik bütöv var – bu sonuncu bir neçə sintaktik bütövü ehtiva edir. Q.Bəyzadə mətn vahidi kimi əksərən «sintaktik bütöv» terminindən istifadə etməklə düzgün mövqe tutmuşdur.

Müəllifin fikrincə, mətn vahidlərindən sayılan frazafövqi vahidlərin vahid və sabit quruluşu yoxdur; «Frazafövqi vahid dil yarusunun bütöv qatlarının ifadə vasitəsi olmaqla «gəzərgi vahid» durumu ilə mətndaxili vahid səviyyəsində çıxışı mütləqdir və ekstralinqvistik vahidləri də ehtiva etməsinə görə digər vahidlər fövqündə durmaq qabiliyyətindədir». Müəllif əmindir ki, o, frazafövqi vahidləri tamamilə yeni keyfiyyətli vahid kimi ilk dəfə qeydiyyatdan keçirir. Ona görə bu vahidi «gəzərgi vahid» adlandırır ki, bunun sabit nitq vahidi forması yoxdur; fonem şəklində də çıxış edə bilər, morfem, leksem, söz birləşməsi, cümlə, hətta sintaktik bütöv şəklində də. Anlaşılmazlıq da elə buradan irəli gəlir. Deyəsən, burada nəsə qarışır. Frazafövqi vahid digər vahidlər fövqündə durmaqla hamısından fərqlənməlidir. Bu, artıq mətnin qurulma texnikası deyil, məntiqi vurğu və semantik yüksəlişlə

bağlı məsələdir, mətnin semantik özəyi mətn proqressiyasına imkan yaradan semantik gücdür, enerjidir. Odur ki bunu mətnin daxili vahidləri sırasına daxil etmək şübhə do- ğurur. Bir fonemdən, bir morfem və ya leksemdən ibarət vahidi mətn vahidi adlandırmaq nə dərəcə doğru olar? Müəllifin bu sahədəki izahları mücərrəddir.

«Mətn sintaksisinin hərtərəfli tədqiqi tələb edir ki, mətnin məna növlərinin araşdırılması real faktlarla əsaslandırılmış olsun». Tamamilə doğru fikirdir. Odur ki müəllif mətnin daxili məna növlərini araşdırmış və 26 müxtəlif məna növü müəyyənləşdirmişdir. Fikirlərimiz, düşüncələrimiz qədər rəngarəng və al-əlvan olan mətnlər, o cümlədən bədii mətnlər belə bir dar təsnifat çərçivəsinə sığası deyil. Başqa bölgülərindən fərqli olaraq, müəllif burada heç «və s.» sözünü də işlətməmişdir. Verilmiş mətn növlərinin bir neçəsinə diqqət yetirək: ***müqəddimə mətnlər, ritorik mətnlər, təsviri mətnlər, nəticə mətnlər, bölgülü mətnlər, şəxsi mətnlər*** və s. Bölgüdə vahid prinsip yoxdur. Müqəddimə mətnlər mətnin nə məqsədlə qurulması, ritorik mətnlər mətnin hansı üsulla qurulması, «şəxsi mətnlər» isə mətnin tərkib elementləri ilə bağlıdır və bölgüdə vahid prinsip yoxdur.

Müəllif yazır: «Frazafövqi vahidin təzahürü fonemdən tutmuş ta mürəkkəb mətnə qədər baş alıb gedir, daha doğrusu, bu o deməkdir ki, bu vahid dil yarusunun bütün qatlarının alt qatını təşkil etməklə dilçilik tədqiqatının hərtərəfliliyini təmin etmək niyyətini güdür». Müəllif öz sözünü aydın deyir: deməli, frazafövqi vahidlər bütün dil yaruslarına aiddir, lakin bilavasitə onların özünə, görünən tərəfinə deyil, «alt qatına» aiddir. Bu o deməkdir ki, frazafövqi vahidlər fikir özəyi, fikir nüvəsidir və mətn bunların üzərində, bunların əsasında qurulur. Deməli, frazafövqi vahid mətnin semantik təşkilində əsas amildir, yəni mətn buna əsasən qurulur. Müəllif özü də deyir: «Və onu da əlavə etməyi lazım bilirik ki, biz frazafövqi vahidin «təşkiledicilik» kimi bir funksiyasını qabardaraq özünü mətn yaradıcısı kimi, hətta sistem yaradıcısı kimi təqdim etməkdən çəkinməməyi qarşımıza məqsəd qoymuşuq».

Demək, frazafövqi vahid ayırarkən müəllif mətnin semantik özəyini nəzərdə tutur. V.S.Yurçenkonun dediyi bir fikri xatırlasaq – «Təfəkkür vahidi hökm, dil vahidi cümlə, nitq vahidi isə məlum-

dur ki, fraza adlanır», – onda məsələyə aydınlıq gətirmək olar: nitq vahidi frazadır. Fraza bir səsdən, morfemdən, bir leksemdən, sintaqmdan, söyləmdən də ibarət ola bilər. Daha bu fraza təklikdə sintaktik bütövdən ibarət ola bilməz. Əslində, ola bilər. Amma bunlar sadəcə frazalar yığını olar, frazafövqi vahid olmaz. «Frazafövqi» sözünün isə ilk anlaşılan mənası o deməkdir ki, o, semantik tutumuna görə mətndə olan bütün frazaların fövqündə olmalıdır. Period, sintaktik bütöv, bütöv mətn bu cür bütün frazaların fövqündə dayanan frazalardan ibarət ola bilməz. Bəlkə də, ola bilər, lakin o, bir frazafövqi vahiddən yox, frazafövqi vahidlər silsiləsindən, toplusundan ibarət ola bilər.

Kitabın III fəsli «Mətn komponentləri» adlanır. Prinsip etibarilə fəslin qoyuluşu doğrudur. Müəllif əvvəlcə mətn və onun daxili vahidlərindən, mətnin semantik növlərindən başlamış, sonra mətnin qurulmasında mühüm semantik gücə malik olan frazafövqi vahidlərdən (II fəsil) bəhs etmiş və nəhayət, mətnin komponentləri barədə araşdırmalar aparmışdır.

Biz adətən «komponent» dedikdə bir vahidin iki qütbünü, iki tərəfini nəzərdə tuturuq: söz birləşməsinin komponentləri, mürəkkəb cümlənin komponentləri. Amma bu da var ki, mürəkkəb cümlə ikidən artıq komponentdən də ibarət ola bilir. Mətn dilçiliyində isə mətnin bitkin fasilə ilə ayrılan daxili tərkib hissələri – cümlə (söyləmlər) onun komponentləri sayılır.

Məlumdur ki, mətn komponenti olan hər bir cümlə ayrılıqda da müəyyən məna ifadə edir. Lakin mətn daxilində cümlənin mənası daha dolğun, daha aydın və konkret olur. Cümlənin avtosemantik və sinsemantik xüsusiyyətləri vardır ki, bunlardan ikincisi onu mətnin digər cümlələri ilə əlaqələndirir. Sinsemantik xüsusiyyət o deməkdir ki, cümlənin mənası kontekstin köməyi ilə açılır. Cümlə fonemdən başlamış mətnə qədər bütün dil sisteminə xidmət edir.

Mətnin komponentləri cümlələrdir və cümlələr mətn daxilində bir-biri ilə müxtəlif cəhətdən bağlı olur. Söz, söz birləşməsi cümlə üçün, cümlə isə mətn üçün tikinti materialıdır. Lakin mətnin cümlələri də eynimənalı olmur. Mətnin əvvəlində gələn cümlə ilə mətn daxilində olan cümlələr fərqli səciyyəyə malik olur. Mətnin

əvvəlində gələn cümlələr mətn daxilindəki cümlələrdən xeyli müstəqil olur. Birincilərin mətndən asılılığı birtərəflidir.

Müəllif bu nöqtədə söyləmə də münasibət bildirir, intonasiya və situasiyanın söyləmin formalaşmasında mühüm rolu olduğunu göstərir, cümlənin söyləm şəklində konkret məzmun, dəqiq məna aldığını qeyd edir.

Əsərin bu fəslində cümlə mətnin mənasının açılmasında roluna görə birinci və ikinci dərəcəli olmaqla iki qrupa ayrılmışdır. Birinci dərəcəli cümlələr «baş cümlə» və «aparıcı cümlə» şəklində, ikinci dərəcəli cümlələr isə «əlaqələndirici cümlələr» və «yardımçı cümlələr» şəklində fərqləndirilmişdir.

«Baş cümlə» o cümlədir ki, mətn mütləq onunla başlandığı kimi, onunla da bitir, «baş cümlə mətn boyu dönə-dönə göz önünə gətirilir», «..deyə bilərik ki, aktual üzvlənmədə aparıcı söz olduğu kimi, mətndə də «aparıcı» cümlələr olur. Aparıcı cümlə o cümlədir ki, mətn boyu ya onun özünün, ya da ayrı-ayrı üzvlərinin izahı əsas məsələdir» (333). Aparıcı cümlənin baş cümlədən fərqi ondan ibarətdir ki, mətn onunla başlayıb qurtarmaya da bilər və «baş» cümlənin özünün də izahı «aparıcı» cümlədən asılı olur. (333) «...aktual üzvlənmədə məntiqi vurğu əsas rol oynadığı kimi, mətn komponentlərinin fərqlənməsində də seçilən məntiqi pauza (intonasiya) əsas rol oynayır». (338)

Müəllif cümlədən mətn komponenti kimi danışarkən istər-istəməz «mürəkkəb cümlə» probleminə də toxunmalı olmuş, tabesiz mürəkkəb cümlələri mürəkkəb cümlə sintaksisinə deyil, mətn sintaksisinə daxil etməyi lazım bilmişdir: «Əgər cümlənin bitməsi üçün predikativliyin olması vacibdirsə və bundan istifadə edib həmin cümlənin sərhədini müəyyənləşdiririksə, o zaman bir neçə cümlənin tabesiz mürəkkəb cümlə adı altında öyrənilməsini əsassız saymaq lazımdır».(677) Belə çıxır ki, tabesiz mürəkkəb cümlələrin komponentləri tam müstəqil cümlələrdir.

Tabesiz mürəkkəb cümlələr mürəkkəb cümlə tipinin ilkin, lakin tabeliyə nisbətən zəif tipidir. Müəllifin: «...tabesiz mürəkkəb cümlənin varlığının olmadığını və onun sintaktik bütöv və mətnin məntiqsiz ayrılmış bir hissəsi kimi olduğunu mütləq sübut etmək lazımdır» (679) fikrində zorakılıq vardır (Bu fikrin tənqidi barədə «Mətn dilçiliyi problemləri» məqaləsinə baxmaq olar).

Kitabda cümlənin «və s.» ilə 22 növü verilmişdir. Bunların – bu bölgünün də prinsipi yoxdur. Məsələn: işarələyici, təsdiqləyici, arzu məzmunlu cümlələr başqa şey, yarımçıq, qovuşuq, cərgəli, silsilə cümlələr başqa şeydir. Müəllif mürəkkəb cümlənin mürəkkəb cümlə, modal cümlə və silsilə mürəkkəb cümlə kimi üç növünü göstərir. Bu bölgünün də məntiqsizliyi göz qabağındadır.

IV fəsil – «Mətn komponentlərinin əlaqələnmə üsulları» adlandırılmışdır. Başqa bir yerdə (s.682) bu fəslin adı «Mətn komponentlərinin əlaqələnmə növləri» şəklində verilmişdir. Bizcə, bunların heç biri doğru deyil. Müəllif vasitə ilə üsulları fərqləndirməli idi. Faktik olaraq, bu fəsildə mətn komponentləri arasında əlaqələndirici vasitələrdən danışılır. Əsərdə ilk növbədə mətn komponentləri arasında «sintaktik əlaqələnmə» ilə «məntiqi əlaqələnmə» fərqləndirilmişdir. Mətn komponentlərinin sintaktik cəhətdən əlaqələnməsi üçün təkrarların, əvəzliklərin, söz sırasının, bağlayıcıların, modal sözlərin rolu xüsusi tədqiq edilmişdir. Bunlar mətn komponentlərini əlaqələndirən vasitələrdir.

Mətn komponentləri arasında əlaqənin ikinci növü – məntiqi əlaqə üç şəkildə – «zəncirvarı əlaqələnmə», «paralel əlaqələnmə» və «qarışıq əlaqələnmə» şəkillərində özünü göstərir. Burada artıq vasitədən deyil, komponentlərin əlaqələnmə üsullarından danışılır və ona görə də IV fəsil «Mətn komponentlərini əlaqələndirən vasitə və üsullar» adlandırılmalı idi.

Mətn komponentlərinin əlaqələnməsində söz sırası çox mühüm vasitədir. Söz sırasından söz düşəndə aktual üzvlənmə yada düşür. Aktual üzvlənmə, hər şeydən əvvəl, söyləmin söz və birləşmələrinin sırasından asılıdır. O da məlumdur ki, qrammatik üzvlənmə cümlənin informativ yükünü açа bilmir. Cümlənin informativ yükünün açılışı əsas kateqoriyaları tema və remadan ibarət olan aktual üzvlənmə əsasında mümkündür. Bu sahəyə kitabda o qədər də yer verilməmişdir.

Digər vasitələri (bağlayıcılar, ara sözlər və s.) yığcam şəkildə nəzərdən keçirən müəllif mətn komponentləri arasında zəncirvarı əlaqə üsulu üzərində xüsusi dayanmış və bu üsulu üç növə ayırmışdır. Zəncirvarı əlaqə cümlələrin ardıcıl əlaqəsinə əsaslanır. Müəllif bu əlaqənin bir tipini «determinant tipi» adlandırmışdır.

İkinci əlaqə mətn komponentləri arasında paralel əlaqədir. Bu

üsulün xətti, silsilə, simmetrik, cüt qütblü, çarpaz şəbəkəli, xiazm, silsilə xiazm, simmetrik xiazm, frazafövqi vahidli paralelizm, şəbəkəli xiazm, çarpaz xiazm və s. növləri olduğu qeyd edilmişdir. Çarpaz əlaqələnmə ilə paralel əlaqələnmənin fərqlərini müəllif belə izah etmişdir. «Əgər zəncirvarı birləşmələr subyekt-predikat, yaxud naməlum-məlumun zəncirvarı şəkildə bir-biri ilə ardıcıl əlaqələnən komponentlər çoxluğudursa, paralel birləşmələrin komponentləri ya bir-birinə bərabər olur, ya ortaq üzvlə birləşir, ya da xiazm tipli birləşmədə olurlar» (470) (*xiazm* dedikdə əksinə qurulmuş birləşmə və cümlələr nəzərdə tutulur: *Dəryalar olurdu cümlə səhra, Səhralar olurdu cümlə dərya.* Füzuli). Aydındır ki, paralelizm tam və yarımçıq ola bilər. Müəllif elliptik cümlələri yarımçıq hesab etməyin əleyhinədir.

Heç şübhəsiz, daim dilçilik tədqiqatında yazıçının təhkiyə dili bu və ya digər şəkildə monoloji, dialoji nitqdən, dram dilindən fərqləndirilib. Ona görə də Q.Bəyzadə doğru olaraq son fəsli monoloji, dialoji nitqin mövzu ilə bağlı məsələlərinin tədqiqinə həsr etmişdir. Bu, onun beş kitabının sonuncusu və deməli, kitabının son fəslidir. Burada xeyli bölgü verilmişdir. Məsələn, remarkalar təzahür hallarına görə «və s.» ilə birlikdə 12 növə ayrılmışdır: ixtisaredici remarka, yekunlaşdırıcı, təəccüb əlamətli, iç-içə geydirilmiş, qovuşuq, ikinci dərəcəli remarka və s. Bunların bir qismi məzmuna, bir qismi quruluşa görə bölgüdür. Müəllif remarkaların əhəmiyyətindən daha çox danışmış, onları «daxili», «xarici» və «ikinci dərəcəli» olmaqla fərqləndirmişdir. Dialoq nitqində frazafövqi vahidlərin hesaba alınması da vacib sayılmalıdır.

Kitabın I cildində verilmiş məsələləri müəllif yığcam şəkildə II cilddə də əhatə etmişdir. II cild beş kitabın bir növ nəzəri tezisləridir, misallara istinad etmədən verilmiş konspektləridir və bu kitabdan da müəyyən fayda almaq mümkündür.

Nəticə olaraq qeyd edə bilərik ki, Qənirə Musa qızı Bəyzadə çox böyük zəhmət çəkmiş, mövzu ilə bağlı saysız əsərlər nəzərdən keçirmiş, bu əsərlərdən bol-bol istifadə etmiş, öz fikirlərini rus, Avropa və Azərbaycan dilçilərinin fikirləri ilə əsaslandırmağa çalışmışdır. Müəllifin saysız elmi ədəbiyyata müraciəti onun zəhmətli axtarışlar etdiyini, elmi ədəbiyyatı səbr və təmkinlə öyrəndiyini göstərir. Seçdiyi zəngin nümunə-mətnlər əksəriyyət etibarilə uğurlu və münasibdir. Əsərin (I

kitabın) sonunda nəticələr, ingilis və rus dillərində xülasələr verilməsi də faydalıdır.

Bütün bunları söyləməklə, təəssüf hissi ilə onu da qeyd edirik ki, Q.Bəyzadəyə kömək edən, istiqamət verən olmamışdır. Əslində, özü öz qüvvəsi ilə istiqaməti düz götürsə də, məsələlərin həllində ziddiyyətli fikir və nəticələr mövcuddur. Texniki qüsurlar, üslub səhvləri, təkrarlar, artıq təhlil və izahlar müəllif fikrinin anlaşılmasına mane olur. Diqqətli və məsul redaktə ilə dilçiliyin yeni sahəsi üçün ilk sanballı çaplar olan bu əsərləri həqiqi maraqlı monoqrafiyalara çevirmək mümkün idi.

04.07.1999

-SA, -SƏ ŞƏKİLÇİSİ, ONUN PRAFORMA VƏ DERİVATLARININ, QRAMMATİK VƏ ÜSLUBİ XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ

İnsan ictimai həyata göz açdığı ilk gündən onu əhatə edən hadisələrin bir-biri ilə bağlı olduğunu, birinin digəri üçün şərt olduğunu, bir hadisənin digərinə səbəb olduğunu anlamağa başlamış, tarixi təcrübədə dərk etmişdir ki, şərt, şərtilik, şərtlilik təbii və ictimai həyatın ən zəruri qanunauyğunluqlarındandır. Bu cür təbii əlaqələrin ifadəsi dildə bir sıra spesifik leksik və qrammatik vasitələrin yaranmasına səbəb olmuşdur. Həmin vasitələrin ümumiləşmiş qrammatik mənasını həyatın şərtlə bağlı hər bir sahəsinə yönəltmək mümkün olmuşdur. 1300 illiyini qeyd etdiyimiiz, lakin kökləri çox-çox dərinlərə gedən «Kitabi-Dədə Qorqud» qəhrəmanları ictimai həyatın, ağ gün, xoşbəxtlik və səadətin həqiqi şərtlərini övlad böyütməkdə, vətənə xidmətdə görmüşlər: «Qazan aydır: «Məqsudın bumıdır, Baybörə bəg?» Aydır: «Bəli, budır. Mənim dəxi oğlım olsa, xan Bayındırın qarşusın alsa-dursa, qulluq eyləsə, mən dəxi baqsam, sevinsəm, qıvansayum, güvənsəyim...» – dedi». Burada şərt əlaməti *-sa, -sə*-dir. Bu şəkilçi «Kitabi-Dədə Qorqud»un dilində bugünkü ədəbi dilimizdən daha məhsuldar, daha intensiv işlənmişdir. Ona görə də dastanın boylarında əksərən bütöv poetik təhkiyədə aparıcı motiv diriliyin şərtli təzahürüdür, ictimai həyatın şərtiliyi, şərtliliyidir.

-sa,-sə türk dillərinin hamısına məxsus olan, ümumtürkoloji səciyyə daşıyan bir şəkilçidir. Şəkilçinin funksiya dairəsi çox genişdir – leksik, morfoloji, sintaktik və üslubi yük daşıyır, nitqin ən zəruri məntiqi kateqoriyasının ifadəsinə xidmət edir. Tarix etibarilə çox qədimdir, – ilk izləri minilliklər arxasından boylanır. Bunlar göstərir ki, *-sa,-sə* sonralar yaranmış, bu və ya digər türk dilinə məxsus olan spesifik şəkilçilərdən olmayıb, türk praformasından, türk dillərinin hamısına məxsus ilk ulu dildən və bəlkə də türk praformasının ayrıldığı ilk ana dildən gələn bir qrammatik vasitədir.

Əldə olan ən qədim yazılı mənbələrdə bu funksiyanı – şərt mənasını *-sa,-sə*-nin əcdadı sayılan *-sar,-sər* şəkilçisi yerinə yetirmiş-

dir. Milli abidələrimizin – «Kitabi-Dədə Qorqud»un, klassiklərimizin dilində *-sar,-sər* müşahidə olunmur. Lakin XIV–XVI əsr mənbələrində ara-sıra təsadüflərlə görünən, gələcək zamanın *-ac - aq, -əcək* şəkilçisi ilə sinonim kimi işlənmiş *-isər* şəkilçisinin həmin şəkilçi ilə bağlı olduğunu güman edənlər vardır. Bir qədər o tərəfə üz tutduqda – Orxon-Yenisey kitabələrində bol-bol işlənmişdir: ***Türk kağan Ötükən yış olursar, iltə bun yok – Türk xaqanı Ötükən meşəsində otursa, eldə qəm (kədər) yoxdur.*** («Gül tigin» abidəsi) ***Sünüs bolsar, çərik itər erti – Döyüş olsa, qoşun göndərərdi.***(«Güli çor» abidəsi) və s. Şəkilçinin bu forması uyğur mətnlərinin, X-XIII əsrlərə aid cənubi Türküstan abidələrinin, hətta XII-XIII əsrlərə aid monqol yazılı mənbələrinin dilində də işlənmişdir. Monqol abidələrinin dilində görünməsi bir daha təsdiq edir ki, şəkilçinin kökü uzaqlara gedir – türk dairəsindən kənara çıxır, azı türk-monqol praforması ilə bağlanır.

Türkoloqlar *-sar,-sər* şəkilçisinin tarixi funksiyasına diqqət yetirmişlər. Çuvaş dilinin tarixi materialları əsasında L.S.Levitskayanın araşdırmaları göstərir ki, bu şəkilçi feli sifət xarakterli olmuş, bir vaxtlar cümlənin müstəqil xəbəri vəzifəsində işlənmişdir. Bununla yanaşı, feli bağlama kimi işləndiyi də müşahidə edilmiş və hətta bu məqamda müasir feli bağlamalardan fərqli olaraq, şəxs şəkilçiləri qəbul etdiyi hallar da olmuşdur: ***oqusarmin – mən oxuyanda, görsərmin – mən görəndə*** və s. Beləliklə, bu şəkilçi tarixən feli sifət, feli bağlama, zaman şəkilçisi funksiyalarını yerinə yetirmiş, bütün bu hallarda şərt çalarını saxlamış və nəhayətdə şərt kateqoriyasının əsas ifadə vasitəsi kimi sabitləşmişdir.

Güman etmək olur ki, *-sar* bir zamanlar həm müstəqil söz, həm də şəkilçi kimi işlənmişdir. Şübhəsiz, şəkilçi variantı sözün son mövqedə tədricən müstəqilliyini itirməsi və variantlaşması əsasında yaranmışdır. Hiss olunur ki, *-sar,-sər* həqiqətən çox qədim dövrlərin yadigarıdır. Elə bir dövrün yadigarıdır ki, müstəqil söz kimi öz izlərini qohum olmayan dillərdə də saxlamışdır. Bizim fikrimizcə, rus dilindəki □□□□□□□ sözünün kökündəki «*s*» ***sar*** sözünün ilk elementidir. Şəkilçi forması bütün türk dillərində dərin kök saldığı halda, kateqoriyanın adını bildirən «şərt» sözünü ərəb dilindən almışıq: ***ş ~ s*** əvəzlənməsi ilə özünü ərəb dilində ***şərt*** və bu sözün cəm variantı kimi ***şürut*** sözlərində saxlamışdır.

Lakin bu da aydındır ki, türk dillərində ilkin söz köklərinin bir samit və bir saitdən ibarət quruluşu əsasında *sar* kökünün CVC quruluşu onun düzəltmə olduğunu, ***sa*** kökünə şəkilçi əlavə olunduğunu göstərir. Bir sıra alimlər *sar* kökünün sonundakı ***r*** ünsürünü indiki-gələcək zamanı bildirən ***-ır*** şəkilçisinin daşlaşmış forması hesab etmişlər. Ümumən sürüşkən bir samit olan ***r*** səsinin sonralar düşdüyü barədə fikirlə razılaşmamağa o qədər də əsas yoxdur.

Dilçilər *-sar,-sər* şəkilçisini praforma saymışlar. Lakin qeyd etdiyimiz kimi, faktlar göstərir ki, *-sar* sözünün özü də düzəltmədir. Maraqlı cəhət bir də budur ki, *-sar* sözünün şəkilçi kimi işləndiyi dövrdə – qədim abidələr mərhələsində həm *-sa,-sə* şəkilçisi, həm də saymaq, hesablamaq, hesab etmək, arzulamaq mənasında ***sa*** feli olmuşdur. M.Kaşğarinin fikrincə, *-sa* şəkilçisi həmin bu ***sa*** felindən törəmişdir. Deməli, eyni vaxtda həm *sa* feli, həm *-sa* şəkilçisi, həm də *-sar* şəkilçisi işlənmişdir. Hər iki şəkilçi *sa* kökü ilə izah edilir. Belə nəticə çıxarmaq olur ki, çox qədim *sa* kökündən hələ Orxon-Yenisey mərhələsindən çox-çox qabaq «şərt» mənasında *sar* sözü yaranmış, sonralar bu söz şəkilçiləşməklə (*-sar,-sər* şəklində) yanaşı, tədricən – Orxon-Yenisey mərhələsinə yaxın bir dövrdə yenidən son samitini itirməyə başlamış, *-sar, -sər* və *-sa,-sə* paralelləri yaranmışdır. Bir müddət – min ildən artıq bir dövr ərzində söz kökü və onun törəmələri paralel fəaliyyət göstərmiş, sonralar söz kökünün *sa* forması arxaikləşərək öz izlərini başqa formalarda saxlamış, *-sar* şəkilçisi isə son ünsürünü itirməklə yenidən öz yerini əvvəlki qısa formasına verməli olmuş, *-sa* forması birdəfəlik üstünlük qazanmışdır. Lakin *sar* forması izsiz yox olmamış, qədim **i** feli ilə birləşərək *isər* şəklində xeyli işlənmiş və görünür, *-sar,-sər* son ünsürünü itirdiyi mərhələdə *isər* də *isə* şəklində sabitləşmişdir. Bu sabitləşmə də nisbi olmuşdur, çünki *-sa,-sə* şəkilçisi *isə* hissəciyində də daim müstəqilliyə can atır və öndəki **i** elementindən yaxa qurtarmağa çalışır. Bütün bunlar göstərir ki, qədim *-sa,-sə* şəkilçisi mübarizələrlə dolu bir yol keçmiş, ön və son mövqelərdən artımları özündən uzaqlaşdırmağa, daim müstəqilliyini qorumağa çalışmış, bir müddət başqa kateqoriyalara (feli bağlama, feli sifət, zaman və s.) xidmət etsə də, çox mühüm təbii, ictimai-siyasi kateqoriya olan şərt reallığının ifadə vasitəsi olmaq

qüdrətini – özünün ilkin və əsas mənasını ardıcıl olaraq qoruyub saxlaya bilmişdir.

Bunlar həm də onu göstərir ki, *-sa,-sə* şəkilçisi dilimizin (və eləcə də digər qohum dillərin) tarixi inkişaf yolunda və müasir həyatında zəif və fövqəladə gücsüz bir element olmamış, daim fəal və aparıcı mövqedə durmuşdur.

-sar şəkilçisinin qapalı saitli *-sır*, *-sa*, *-sə* şəkilçisinin qapalı saitli *-sı,-si,-su,-sü* forması da vardır. *-sar* şəkilçisi də, *-sır,-sir* də,-*sa,* *-sə* şəkilçisi də, *-sı,-si,-su,-sü* də qrammatik şəkilçilərdir, eyni mənşədəndir, Lakin bunların qrammatik funksiyalarında fərq də vardır: *-sar,-sər* şəkilçisinin praforması və ya ixtisarı şəklində formalaşmış *-sa,-sə* konkret işlənmə məkanına malikdir – fel kökü və əsasına artırılır, felin şərt şəklinin yaranmasına xidmət edir. Bu şəkilçidən əvvəl yalnız təsirlik, növ və inkarlıq şəkilçiləri işlənə bilir: *qaç-sa – qaç-ır-sa – qaç-ır-ıl-sa – qaç-ır-ıl-ma-sa, köç-sə – köç-ür-sə – köç-ür-ül-sə – köç-ür-ül-mə-sə* və s. *İmək* kökünün törəməsi olan ***isə*** və onun ixtisarı (*-sa,-sə*) felin kökünə və ya əsasına deyil, bir sıra fel şəkillərinin (xəbər, vacib, lazım, davam və s.) üzərinə artırılır: *yaz-ır-am-sa, yaz-malı-yam-sa, yaz-ası-yam-sa* və s. Lakin bu cür vəzifə bölgüsünə baxmayaraq, mühüm bir sintaktik funksiyanın yerinə yetirilməsində – budaq cümlələrin baş cümləyə bağlanmasında ilkin *-sa, -sə* ilə *isə* hissəciyinin ixtisar forması əlbir işləyir, hər ikisi «budaq cümlə + baş cümlə» quruluşlu tabeli mürəkkəb cümlələrə xidmət edir.

Böyük bir inkişaf yolu keçmiş bu şəkilçinin türk dillərinin tarixində və müasir dillərdə mövqeyi bu və ya digər türk dilindən danışan bütün türkoloq alimləri maraqlandırmışdır. S.Y.Malov, V.M.Nasilov, N.Z.Hacıyeva, B.A.Serebrennikov, İ.Batmanov, A.N.Kononov, İ.P.Pavlov, L.S.Levitskaya, N.A.Baskakov, H.Mirzəzadə, V.M.Nadelyayev, H.K.Quliyev, J.Deni, Q.İ.Ramstedt, Ə.Dəmirçizadə, Fon Qaben, B.Atalay, Z.Budaqova, R.Rüstəmov, E.V.Sevortyan, Ə.Şükürlü, B.Oruzbayeva, O.N.Bötlinq, M.Ş.Rəhimov, Y.M.Seyidov, N.P.Dırenkova, A.Qulamov, H.İ.Mirzəyev, P.İ.Kuznetsov, A.Q.Əzizova, A.M.Şerbak, Q.Ş.Kazımov və b. iki istiqamətdə – tarixi və müasir aspektlərdə araşdırmalar aparmış,*-sa, -sə* şəkilçisinin inkişaf yolu, leksik-semantik və qrammatik funksiyaları barədə fikir söy-

ləmişlər. Hələ bunlardan min il əvvəl bu şəkilçi böyük türkoloq M.Kaşğarini maraqlandırmış, o bu şəkilçinin leksik-semantik xüsusiyyətlərindən bəhs etmiş, *-sa,-sə* şəkilçisi vasitəsilə türk dillərində «istəmək» mənalı fellər yarandığını bildirmişdir. Hələ 700 il əvvəl Əsirəddin əbu Həyyan əl-Əndəlusi «Kitab əl-idrak li-lisan əl-ətrak» əsərində «Şərt» başlığı altında şərt ədatı *-sa* haqqında xeyli məlumat vermiş, ərəb dilindən fərqli olaraq, türk dillərində şərt mənasının xüsusi şərt ədatı ilə yarandığını qeyd etmiş, maraqlı şərhlər vermişdir: «Ərəblərdə şərt ədatı mənası ismin özündən aydın olduğu halda, türklər şərt mənasını bildirmək üçün şərt ədatı ilə ismi birgə işlədirlər, çünki türkcədə isim mücərrəd şəkildə işlədilir, şərt mənası isə şərt ədatı ilə aydınlaşdırılır». Müəllif şərhinə davam edərək yazır: «Burada şərtdən və şərt ədatının ehkamından söhbət gedəcəkdir. Şərt ədatı ***sa***-dır. Bu ədat əsl vəsfində şərt üçün düzəldilmişdir. Lakin ***sa*** iki cür işlənir. Biri gələcəkdə, ikincisi də keçmişdə şərt mənasını ifadə etmək üçün. Əgər *sa* ərəbcədəki *in* ədatı mənasında olursa, gələcəkdə şərt mənasını ifadə edər. Əgər başqa bir şeyin halından dolayı vaqe olacaq olanı ifadə üçündürsə, ərəbcədəki *lav* ədatına müradif olub keçmişdə şərt mənasını ifadə edir. Gələcəkdə şərt olan *sa*-nın misalı: «*Səncər durarsa, Sunqur durar»* əvəzində söylənən *Səncər tursa Sonqur turqay* kimidir. Şərti cavabı şərti qabaqlayaraq *Sonqur turğay Səncər tursa* demək də olar». Müəllif «keçmişdə şərt mənasının ifadəsi üçün» «*Səncər qalxmış olsa idi, Sunqur qalxmış idi»* mənasında *Səncər turmışmıssa, Sonqur turmışdı* – cümləsini vermişdir. Misaldan və izahatdan aydın olur ki, işin keçmişdə icrasının şərtlə bağlılığı *idi* köməkçi sözünün iştirakı ilə yaranır. Hələ o vaxt əbu Həyyan fellərə artırılan *-sa* ilə ismi xəbərli cümlələrdə işlənən ***-sa***-nı fərqləndirmiş, sonrakı hal üçün *isə* köməkçi sözündən istifadə edildiyini, *isə* sözünün «olmaq» mənasında keçmiş zaman feli *i* və *-sə*-nin birləşməsindən əmələ gəldiyini göstərmişdir. Müəllif ilkin *-sa* ədatı ilə fel kökü arasına başqa şəkilçilərin girə bilmədiyini, yalnız cavab inkar olduqda *-sa*-dan əvvəl inkar ədatından istifadə edildiyini də müşahidə etmişdir: «Şərt ədatı və bu ədatı qəbul edən fel arasını heç bir şeylə bölmək olmaz... Əgər şərti fel inkardadırsa, inkar ədatını şərt ədatına qabaq qoyaraq *turmasa Sonqur* deyilir». Müəllif şərt ədatından sonra işlənən şəxs şəkilçilərini də nə-

zərdən keçirmişdir: «Əgər şərt birinci şəxsə aiddirsə, *tursam urğaymən*, ikinci şəxsə aid isə *tursan urğaysən* deyilir». Şərt haqqında bu balaca, lakin çox dəyərli məqalədə şəxs şəkilçilərinin feldə «xitab üçün» işləndiyi qeyd edilmişdir. Bu o mənadadır ki, feldə şəxs şəkilçiləri dəyişdikcə kimdən söhbət getdiyi, kimə üz tutulduğu da bilinir: «Beləliklə, «***Hər gəldikcə sənə ikram edərəm»*** mənasında *Təymə gəldügüncə ağırlağamən səni* deyilir. *Təymə* «hər» mənasında, *gəldü* – keçmiş zaman feli, axırındakı *k* isə əlavədir. *K* hərfindən sonrakı *n* xitab üçündür. Birinci şəxsin təkində bu *n* hərfinin yerinə *m* gəlir. Buna əsasən *təymə gəldügümcə, gəldügünüzcə, gəldüklərincə, gəldükcə* və *gəldügümüzcə* deyilir. İkinci və birinci şəxs üçün olan məzkur əlamətlər *k* ilə *çə* arasında vaqe olur və felin sonundakı *-dükcə* ərəbcədəki məhma mənasını ifadə edir.» Müəllif *gəldügüncə* sözünün təhlili əsasında bir sıra dil faktlarına münasibətini bildirmişdir: *-di* – keçmiş zaman şəkilçisi, *k* – əlavə (bitişdirici samit), *in* – xitab üçün (şəxs şəkilçisi). *-çə* şəkilçisi isə çağ sözünün ixtisar şəklidir və türkcədə «zaman» mənasını ifadə edir».

* * *

Qeyd etdiyimiz alimlərin bu sahəyə dair tarixi araşdırmaları olsa da, onların heç biri şərt əlamətinin monoqrafik tədqiqi ilə məşğul olmamış,***-sa,-sə*** şəkilçisi, onun praforma və derivatları, tarixi inkişaf yolu, müasir Azərbaycan dilinin qrammatik quruluşunda mövqeyi ilk dəfə G.A.Abdullayevanın «Azərbaycan dilində *-sa,-sə* şəkilçisi, onun qrammatik və üslubi xüsusiyyətləri» əsərində sistemli şəkildə tədqiq edilmişdir.

Əsər giriş, üç fəsil, nəticə və ədəbiyyatdan ibarətdir. Əsərin quruluşu, yenilikləri, nəzəri və praktik əhəmiyyəti, mövzunun aktuallığı, müəllifin qarşısında duran məqsəd və vəzifələr barədə qeydlər müəllifin mövzuya tam aydın nəzərlə yanaşdığını, tədqiqatı haradan başlayıb harada bitirəcəyini aydın dərk etdiyini göstərir.

Şübhəsiz, *-sa,-sə* şəkilçisinin tarixi inkişaf yolunu, genezisini, keçən iki min il ərzində uğradığı dəyişiklikləri, praforma və derivatlarını, dilimizin (və qohum türk dillərinin) inkişafı prosesində daşıdığı əlavə vəzifələri dəqiqləşdirmədən onun müasir dildə leksik-morfoloji və sintaktik xüsusiyyətlərini araşdırmaq bu şəkilçinin tarixi inkişaf yolu barədə bitkin və dürüst təsəvvür əldə etməyə

imkan verməzdi. Ona görə də müəllif düzgün olaraq əsərin ilk fəslini «*-sa, -sə şəkilçisi, onun praforma və derivatları*» adlandırmış, əldə olan ən qədim mənbələr əsasında şəkilçinin inkişaf yolunu ardıcıl şəkildə izləmişdir. Bunun üçün müəllif yalnız dil materialına – «Kitabi-Dədə Qorqud»un, Orxon-Yenisey abidələrinin, uyğur yazılarının, Mahmud Kaşğarinin «Divanü-lüğatit türk» kitabının, Həsənoğludan bu tərəfə bizim zəngin klassik ədəbiyyatın verdiyi dil faktlarına deyil, həm də bir sıra qohum dillərin materiallarına, şivələrimizin leksik-morfoloji xüsusiyyətlərinə və eyni zamanda, yuxarıda adlarını qeyd etdiyimiz saysız türkoloq alimlərin əsərlərinə əsaslanmışdır. «Türkoloji ədəbiyyatda məsələnin qoyuluşu», «*-sa,-sə* şəkilçisinin praforması haqqında», «Şəkilçinin genezisi, derivatları və Azərbaycan dilində inkişaf yolu» bölmələri müəllifin tədqiqat istiqamətinin düzgün olduğunu göstərir, bu bölmələr şəkilçinin inkişaf yolu barədə aydın təəssürat yaradır. Müəllif mövcud mülahizələri və şəxsi müşahidələrini ümumiləşdirərək yazır: «Bu şəkilçi (*-sa,-sə* şəkilçisi – *Q.K.*) omonim şəkilçilərdəndir: dilimizdə (və eləcə də digər türk dillərində) həm leksik-sözdüzəldici şəkilçi kimi, həm də ümumiləşmiş şərt mənası yaradan qrammatik şəkilçi kimi işlənməkdədir. Tarixən də hər iki funksiyanı yerinə yetirib. Onu da qeyd etməliyik ki, *-sa,-sə* sözdüzəldicilik vasitəsi kimi tarixən o qədər məhsuldar olmamış, məhdud söz qrupundan fel düzəltməyə xidmət etmişdir. Lakin qrammatik şəkilçi kimi daim fəal olmuş və bu gün də öz intensiv işlənmə imkanları ilə seçilir.»

G.Abdullayeva qeyd edilən omonim şəkilçilərin mənşəyi barədə fikirləri ümumiləşdirərək onların arasında təsadüfi-tarixi uyğunluq yaranmış olduğu, leksik və qrammatik şəkilçilərin başqa-başqa mənşədən törədiyi qənaətindədir: «Leksik və qrammatik *-sa,-sə* şəkilçilərinin mənşəyi də fərqlidir. Qrammatik (şərt mənalı) *-sa,-sə* şəkilçisi tarixən *-sar,-sər* şəkilçisindən *-r* ünsürünün düşməsi ilə əmələ gəlmişdir. Leksik (sözdüzəldici) *-sa,-sə* şəkilçisinin isə türkoloqlar tərəfindən istəmək, arzulamaq mənalı «sa» felindən yarandığı göstərilir». Bizcə, müəllifin bu qənati də doğrudur ki, «leksik *-sı,-si,-su, -sü* şəkilçisi leksik *-sa,-sə* şəkilçisinin qapalı saitli variantıdır». «Leksik *-sa,-sə* şəkilçisinin praforması «sa» fe-

li, sinonimi -*sı,-si,-su,* -*sü* şəkilçisi, derivatları -*saq, -ımsa, -sın, -sıra* və s.-dir».

Hələ ilk fəsildə müəyyən edilmişdir ki, felin şərt şəklini əmələ gətirən -*sa,-sə* ilə fel şəkillərinin şərtini yaradan -*sa,-sə (isə)* mahiyyətcə bir kökdən olsa da, fərqli inkişaf yolu keçmişdir və bunlardan birincisi daha qədimdir – fel əsası ilə bağlıdır; *isə* modal hissəciyinin ixtisarı -*sa, -sə* sanki bu şəkilçini geniş arenaya çıxarmaq, onu fel formalarından əlavə, həm də adlarla bağlamaq üçün yaranmışdır. Adlarla əlaqə prosesində *isə* həm də tədricən bağlayıcılaşmışdır– bəzən ***da, də*** bağlayıcısının, bəzən *amma* bağlayıcısının sinonimi kimi tabesiz mürəkkəb cümlələrin tərəflərini əlaqələndirir.

Bu vaxta qədər dilimizin morfoloji quruluşundan bəhs edən əsərlərdə də felin şərt şəkli ilə fel şəkillərinin şərti az-çox fərqləndirilmişdir. Lakin ilk dəfə olaraq bu əsərdə felin şərt şəkli ilə fel şəkillərinin şərtinin oxşar və fərqli cəhətləri sistemli şəkildə öyrənilmişdir. Bunların hər ikisinin artırıldığı sözlər budaq cümlənin asılı xəbəri olur, hər ikisi müxtəlif budaq cümlə növlərinin baş cümləyə bağlanmasına xidmət edir, hər ikisi ə***gər, hərgah*** bağlayıcı sözləri ilə birgə işlənə bilir, hər ikisində şərt mənası üstünlük təşkil edir. Lakin bunların əsaslı fərqləri də vardır və həmin fərqlər onları eyniləşdirməyə imkan vermir. Əbu Həyyanın vaxtilə müəyyənləşdirdiyi cəhət – şərt şəklinin əlamətindən əvvəl fel əsasına digər şəkilçilərin əlavə oluna bilməməsi (təsirlik, növ, inkarlıq şəkilçilərindən başqa) müasir dildə də öz hökmünü saxlamaqdadır. Lakin fel şəkillərinin şərtini bildirən -*sa,-sə* şəkilçisindən (*isə* hissəciyindən) əvvəl zaman, şəxs şəkilçiləri, hətta *idi, imiş* köməkçi sözlərinin ixtisarı da işlənə bilir: *yaz-ır-am-sa, yaz-ır-dı-m-sa, yaz-ır-mış-am-sa* və s. Bunların inkarı da fərqli qurulur: birinci halda (şərt şəklində) -*ma,-mə* şəkilçisindən (*gəl-sə-m – gəl-mə-sə-m*), ikinci halda (şəkillərin şərtində) həm -*ma,-mə*-dən, həm də ***deyil*** köməkçi sözündən (*yazmamalıyamsa*, *yazmalı deyiləmsə*) istifadə edilir. Birinci halda sırf şərt məzmunu ifadə edilir, ikinci halda vaciblik, lazımlılıq, zaman keyfiyyətləri də şərt məzmununa qarışır. Qeyd etdiyimiz kimi, birinci halda -*sa,-sə* fellərlə məhdudlaşır, *isə* və onun ixtisarı fellərlə yanaşı, adlarla da işlənir.

Hər iki halda -*sa,-sə* şəkilçisi fellərə artırıldıqda adətən şərt

qarışıq gələcək zaman mənası ifadə edir, lakin mətn daxilində başqa vasitələrin iştirakı ilə hadisələri indiki və keçmiş zamanla da bağlaya bilir.

Şəkilçinin leksik omonimi – adlardan fel düzəldən *-sa,-sə* şəkilçisi müasir dilimizdə cəmi bir neçə sözdə özünü göstərir. Müəllif şəkilçinin qapalı saitli variantı əsasında dilimizdə tarixən *umsu(n)maq, ağlam-sı(n)maq, yam-sı(la)maq, qax-sımaq, tamsı(n)maq, qar-sımaq, quraq-sımaq, çiy-simək,əf-simək, diysi(n)mək* kimi xeyli sözün yaranmış olduğunu müəyyənləşdirmişdir. *-sa,-sə* variantı əsasında da şivə çalarlı bir sıra sözlər yaranmışdır: *ov-samaq, qay-samaq, yem-səmək, ax-samaq, yelin-səmək, küp-səmək* və s.– müasir dildə bunların bir çoxunu kök və şəkilçiyə ayırmaq olmur. *Kimsə, heç kimsə, nəsə, yoxsa* tipli əvəzlik və bağlayıcıların yaranması da bu şəkilçinin ümumi və qeyrimüəyyən şərt çalarının saxlanması ilə mümkün olmuşdur.

Əsərdə şəkilçinin minilliklər boyu inkişaf prosesində başqa kateqoriyalara xidmətinə də diqqət yetirilmişdir. Tarix boyu bəzən *-sa, -sə* bir sıra şəkillərin yükünü öz üzərinə götürmüş, bəzən də onun yükünü başqa şəkillər daşımışdır, – bunların qalıqları hazırda üslubi məqam kimi öyrənilir. Müəllif morfoloji xüsusiyyətlərdən danışarkən şərt şəkilçisinin üslubi-sinonimlik imkanlarını da unutmamışdır.

Felin şərt şəklini və fel şəkillərinin şərtini əmələ gətirən *-sa, -sə* şəkilçisi zəngin və rəngarəng sintaktik funksiyalar yerinə yetirir. Mürəkkəb cümlə sintaksisinin formalaşmasında – «budaq cümlə + baş cümlə» quruluşlu tabeli mürəkkəb cümlələrin təşəkkülündə bu şəkilçilərin misilsiz rolu vardır.

Hazırkı dövrdə sadə quruluşlu mürəkkəb cümlələr iki quruluş tipi – «baş cümlə + budaq cümlə» və əksinə, «budaq cümlə + baş cümlə» quruluşu ilə səciyyələnir. İkinci tip budaq cümlələr türk dillərinin təbiətinə daha uyğun, milli və qədim hesab olunur. Həmin tipi formalaşdıran əsas vasitələr bağlayıcı sözlər, *ki, da, belə* ədatları, intonasiya və *-sa, -sə* şəkilçisidir. Bağlayıcı söz bu tipdə əsas vasitədir. Ədatlarla *-sa,-sə* şəkilçisi növbəli işlənir. Eyni cümlədə bağlayıcı sözün, ədatın və *-sa,-sə* şəkilçisinin işlənməsi nitqi ağırlaşdırır, ona görə də adətən ya ədat, ya da *-sa, -sə* ixtisar edilir. Məsələn:

Hər kim bir buğda boyu addım atdı, o, azad olacaq.

(bağlayıcı söz və intonasiya)

Hər kim ki bir buğda boyu addım atdı, o, azad olacaq.

(bağlayıcı söz, ədat və intonasiya)

Hər kim bir buğda boyu addım at*sa*****, o, azad olacaq.***

(bağlayıcı söz, -*sa,* intonasiya)

Bağlayıcı vasitələrin hamısının iştirak etdiyi aşağıdakı forma da mümkündür:

Hər kim *ki* ***bir buğda boyu addım at****sa*****, o, azad olacaq.***

(bağlayıcı söz, ədat, -*sa*, intonasiya)

Nümunələrdən göründüyü kimi, vasitələrin sayı artdıqca cümlənin tələffüzü ağırlaşır, ona görə də şifahi nitqdə bağlayıcı söz qalmaqla, digər vasitələr növbələşir. Bu strukturda -*sa* şəkilçisinin hədəfi bağlayıcı söz deyil, *ki* ədatıdır.

Başqa variantda da ***-sa,-sə*** şəkilçisi ədatlarla növbələşə bilir:

Koroğlu *nə qədər* ***çalışdı, Dəmirçioğlunu başından aşıra bilmədi.***

Koroğlu *nə qədər* ***çalışdı****sa,* ***Dəmirçioğlunu başından aşıra bilmədi.***

Koroğlu nə qəd*ər* ***çalışdı****sa da,* ***Dəmirçioğlunu başından aşıra bilmədi.***

Koroğlu *nə qədər* ***çalışdı****sa da belə,* ***Dəmirçioğlunu başından aşıra bilmədi.***

Birinci misalda budaq cümlə baş cümləyə bağlayıcı söz və intonasiya ilə, ikinci cümlədə bağlayıcı söz, -*sa* şəkilçisi və intonasiya ilə, üçüncü misalda bağlayıcı söz, -*sa* şəkilçisi, *da* ədatı və intonasiya ilə bağlanmış, dördüncü cümlədə bunlara ***belə*** ədatı da əlavə olunmuşdur. Bu qədər bağlayıcı vasitənin bir yerə toplanması son cümləni ağırlaşdırmışdır. Lakin nə yuxarıdakı cümlədə, nə də bu son cümlədə bağlayıcı vasitələrin artıb-azalması budaq cümlənin növünə təsir edə bilməmişdir. Çünki budaq cümlənin növü baş cümləyə əsasən müəyyənləşir. Birinci misalın baş cümləsində qarşılıq bildirən «o» sözü həmin cümlələrin mübtəda budaq cümləli tabeli mürəkkəb cümlə kimi formalaşmasına səbəb olmuşdur. İkinci misalda isə budaq cümlələr bütün hallarda baş cümlə ilə qarşılaşdırma münasibətindədir.

Tabeli mürəkkəb cümlə strukturunun bütöv bir layı qeyd et-

diyimiz quruluş əsasında formalaşır. *-sa,-sə* şəkilçisi bu strukturda bütün budaq cümlələrin baş cümləyə bağlanmasına xidmət edir. *-sa,-sə* şəkilçisinin bu sahədə funksiyasını öyrənməklə biz budaq cümlə növlərinin formalaşdığı iki strukturdan birini tam şəkildə öyrənmiş oluruq. Elə buna görə də G.Abdullayeva əsərinin son fəslini şəkilçinin sintaktik funksiyasına – «budaq cümlə + baş cümlə» quruluşlu tabeli mürəkkəb cümlələrin tədqiqinə həsr etmişdir. Fikrini aydın modellərlə əsaslandıran müəllif qarışıq tipli mürəkkəb cümlə komponentlərinin əlaqələnməsində *-sa,-sə* şəkilçisinin rolunu da unutmamışdır. Əsərdə hər bir məsələ zəngin faktlar və nümunələrlə əsaslandırılmış, yeri gəldikcə qohum dillərlə zəruri müqayisələr aparılmışdır.

Dilimizin tarixinin, müasir dilin quruluşunun öyrənilməsində bu əsərin faydalı olacağına söz yoxdur. Türk dillərinin müqayisəli qrammatikasının yaradılmasında, ixtisas kursları və seminarlarının təşkili və tədrisində də bu əsərdən geniş istifadə oluna bilər. Əsər müəllifin elmi mənbələrə yaxşı bələd olduğunu göstərir.

* * *

Gülarə Abdurahman qızı Abdullayeva 1970-ci ildə Şəkinin Qoxmuq kəndində doğulmuşdur. 1987-ci ildə orta məktəbi, 1992-ci ildə N.Tusi adına Pedaqoji Universitetin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Təyinatla Şəkiyə qayıdıb orta məktəbdə dil və ədəbiyyat müəllimi vəzifəsində işə başlasa da, filologiya fakültəsinin ən nümunəvi məzunu kimi, universiteti bitirdiyi ilin oktyabrında bu sətirlərin müəllifi tərəfindən aspiranturaya dəvət edilmiş, 1992–1995-ci illərdə Pedaqoji Universitetin müasir Azərbaycan dili kafedrasının aspirantı olmuşdur. 1995-ci ildən M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin Şəki filialında baş müəllim vəzifəsində işləyir. Bir sıra məqalə və tezislərin müəllifidir. «Azərbaycan dilində *-sa,-sə* şəkilçisi, onun qrammatik və üslubi xüsusiyyətləri» kitabı onun ilk kitabıdır.

Gülarə tələbələrinin sevimlisidir. İnanırıq ki, o, yaradıcılığını davam etdirəcək, yeni əsərləri ilə tələbələrini sevindirəcəkdir.

15.04.2000

MƏTNİN QURULMA TEXNİKASI VƏ SEMANTİK STRUKTURU

Mətnin tarixi «ağıllı adam»ın – homo sapiensin yaşı qədərdir. O zaman ki insan iki və ya dörd misralı bir əmək nəğməsi yaradıb, o gündən də mətn yaranıb. Qədim müəlliflər daha çox cümləyə diqqət yetirmiş, keçən 2500 ilin müddətində alimlər daha çox cümlənin tərifi üzərində çalışmış, cümləni insan nitqinin kamil və bitkin vahidi saymışlar. Lakin bu heç də o demək deyildir ki, quldarlıq quruluşundan bu yana, yəni elmin yarandığı və inkişaf etdiyi sivil pillələrdə mətn heç kəsi düşündürməyib. Aristoteldən başlayaraq çoxları mətn üzərində düşüncələrə dalıb. Lakin mətnin strukturu, semantikası elm aləmini XX əsrdə daha ciddi və daha sistemli maraqlandırıb. Dünya dilçilik elmində çox görkəmli alimlərin adları mətn tədqiqatçıları sırasındadır. Bunların içərisində çex alimi V.Matezius mətnin mühüm bir kateqoriyası olan aktual üzvlənmə probleminin köklü qoyuluşu və istiqamətvericisi kimi zirvə sayılır. Azərbaycan dilçiliyində mətn sintaksisinin tədqiqatçılarını barmaqla saymaq olar. Ə.Ə.Xəlilov və Ə.M.Cavadov keçən əsrin 60-cı illərinin sonlarından başlayaraq problemin tədqiqi zəruriliyini ortaya çıxarmış, bir sıra aktual cəhətləri barədə ilkin fikirlər söyləmişlər. 70-ci illərdə K.M.Abdullayev Azərbaycan dili materialları əsasında mətnin qurulmasında aktual üzvlənmənin rolunu xüsusi tədqiqat obyektinə çevirmiş, mətnin sərhədlərini müəyyənləşdirmək üçün öz metodunu təklif etmişdir. 80-ci illərdə K.N.Vəliyev, F.F.Əlizadə, 90-cı illərdə Ə.Ə.Abdullayev, N.S.Novruzova, Q.M.Bəyzadə və b. mətn sintaksisinin tədqiqi sahəsində xeyli iş görmüşlər. Nuridə Səməd qızı Novruzovanın «Mətn sintaksisi» adlı əsəri də 90-cı illərin məhsulu olub, kitab şəklində işıq üzü görməklə yeni əsrin başlanğıcında dilçiliyimizə qiymətli hədiyyədir.

Əslində, mətnin ümumi semantikası və qurulma texnikası yazılı nitq üzərində düşünən hər bir kəsi daim özünə cəlb etməkdədir. Hər bir yazıçı, hər bir jurnalist, hər bir elm xadimi əvvəlcədən quracağı mətnin strukturu, texnikası üzərində sövqi-təbii dü-

şünür. Onların qurduğu hər bir mətn qələm işlətməzdən əvvəlki düşüncələrinin praktik məhsuludur. Semantik, məntiqi və psixoloji cəhətləri əsas tutan hər bir qələm sahibi cümlələri sintaktik bütöv daxilində bacarıqla əlaqələndirdiyi kimi, sintaktik bütövləri də ustalıqla bir-birinə calaya bilir. N.Novruzovanın bu əsəri mətndaxili zərif əlaqələrin anatomiyasının təşrihinə həsr olunmuşdur.

Yazıçı düşüncəsi, yazıçı istəyi ilə onun ifadə tərzi arasındakı əlaqəni müşahidə etmək üçün bir nümunəyə diqqət yetirək:

Quraqlıq olduğu üçün hələ əkin işinə başlanmamışdı. Neçə gün idi ki, göy üzünü bulud alır və çəkilirdi. Kəndlilər peyinliyin başına toplanır, hərəsi bir fikir söyləyirdi. Bəzisi deyirdi ki, inşallah, yağacaqdır, bəzisi də deyirdi ki, heç yağan ruzigara oxşamır. Demi çəkən ağ saqqallı Allahverdi dayı qabaqdakı başıdumanlı dağı göstərir və ümidlə deyirdi ki, bu yaxınlarda narın bir çiskin başlayacaqdır. Çiskin narın-narın torpağın canına işləyir.

Bu mətn xalq yazıçısı S.Rəhimovun «Malyeməz» hekayəsinin ilk abzasıdır. İndiki halda mətn saysız suallar doğurur: İlin hansı fəslidir, «quraqlıq» hansı dövrə aiddir? Hansı əkindən söhbət gedir – yaz əkinindən, yoxsa payız əkinindən? Kəndlilər niyə işləmir, nə üçün boş-boş gəzir, lağlağı ilə məşğul olurlar? Hava niyə tutulub-açılır, yaz aylarıdır, yoxsa payız? Nə üçün kəndlilər yağışın, çiskinin başlayacağını belə əminliklə qeyd edirlər?

Biz bu mətnin birinci cümləsini qəsdən ixtisar etmişik. Əgər həmin cümləni yerinə qoysaq, bu sualların heç birinə ehtiyac qalmaz. Qeyd etdiyimiz mətn üçün açar-cümlə olan həmin söyləm belədir: «***Payız düşmüşdü, biçin tamamilə qurtarmışdı»***. Deməli, elə bir dövrdür ki, kəndlilər yay işlərini qurtarsalar da, payız işlərinə hələ başlamamışlar. Heç payız da özünü hələ əməlli göstərə bilmir – ilkin payızdır, hava tutulub-açılır, amma yağa bilmir. Lakin getdikcə yağışlı günlərə yaxınlaşır. Bütün bunlar göstərir ki, sonrakı cümlələrin semantik cəhətdən düzgün anlaşılması bu cümlədən asılıdır, bu cümlənin daxili genişliyi isə sonrakı cümlələrdən asılıdır və həmin cümlələr ilk cümlənin izahına, aydınlaşdırılmasına xidmət edir. Diqqət edilsə, ilk cümlənin mənası ümumi şəkildə aydındır və həmin cümlə təklikdə də nisbi müstəqilliyə malikdir. Sonrakı cümlələrdə isə bu cür müstəqillik yoxdur. Müxtəlif suallar

doğurmaları da bununla əlaqədardır. İlk cümlə nə qədər müstəqildirsə, sonrakı cümlələr o qədər asılıdır, qeyri-müstəqildir. Asılı cümlələr müstəqil cümlənin daxili təfərrüatına, aydınlaşdırılmasına xidmət edir. Ona görə də birinci cümlədən sonra qoşa nöqtə də qoymaq olar.

Bütövlükdə mətnin məzmununu bir cümlə ilə vermək olardı: ***Payız yenicə başlamışdı***. Yazıçı da belə edib: *Payız düşmüşdü...* Lakin bizim dediyimiz bədii cəhətdən o qədər də rəngli olmadığı kimi, yazıçının dediyi də çox səlis deyil. Xalq dilində ***Payız təzəcə girmişdi*** deyilir, ***Payızın əvvəli idi*** deyilir.

Qeyd etdiyimiz bu parça ümumilik bildirən bir cümlənin açılışına xidmət edir. Mətn içərisində başqa bir məzmuna keçilməmişdir. Ona görə də bu parça «payızın əvvəli» teması əsasında qurulmuş bitkin bir sintaktik bütövdən ibarətdir. Sonrakı cümlələr ümumilik bildirənin əsas xüsusiyyətlərini əhatə etməklə tədricən mikromətnin qapanmasına səbəb olmuşdur. Sintaktik bütövlərin qeyri-müəyyənlikdən, ümumilikdən müəyyənliyə doğru bu cür inkişafını əksər görkəmli alimlər müşahidə etmişlər. Alman alimi Karl Boost «Cümləyə nitqin tam müstəqil vahidi kimi baxmaq olmaz, çünki o daha böyük birliyə – «cümlələr birliyinə» daxildir» dedikdə bu cəhəti nəzərdə tuturdu. N.S.Pospelov rus dili materialları əsasında «Kontekstdə cümlələr seriyası nisbətən qeyri-müstəqil olaraq fikrin qapanmasına xidmət edir» dedikdə eyni keyfiyyətləri düşünmüşdür və s.

Yuxarıdakı mətndə bir sintaktik bütöv bir abzasda verilmişdir. İkinci sintaktik bütövü müəllif yeni abzasdan başlamışdır:

Yağış və çiskin barəsində açılan söhbət gəlib ət üstünə çıxdı. Bir aydan da yuxarı idi ki, kənddə bir heyvanın da burnu qanamırdı, kənd isə uşaqdan böyüyə ətsizləmişdi. Payız məhsulundan sonra kabab yemək bu kəndin qədim adəti idi.

Burada da birinci cümlədən sonra qoşa nöqtə qoymaq olar. Payızın başlaması ilə, ağır və üzüntülü yay işlərindən sonra sərinlik başlayarkən kəndlilərin könlünə kabab düşməsi ikinci temadır və ikinci sintaktik bütövün təşəkkülünə səbəb olmuşdur. Lakin müəllifin ifadələrində səlis olmayan cəhətlər vardır. «***Bir aydan da yuxarı idi ki, kənddə bir heyvanın da burnu qanamırdı»*** cümləsi müəllif fikrini dəqiq ifadə etmir, belə çıxır ki, mal-heyvanın və-

ziyyəti yaxşı idi və ölüm-itim yox idi. Müəllif isə bunu demək istəmir, demək istəyir ki, heç kəs öz heyvanının burnunu qanatmırdı, yəni heyvan kəsən yox idi. Digər tərəfdən, müəllif birinci sintaktik bütövdə «payızın düşdüyünü», yəni təzəcə başladığını qeyd edir, bu sintaktik bütövdə isə «payız məhsulundan sonra» ifadəsini işlədir. Fikrimizcə, birinci sintaktik bütöv doğrudur, çünki biçini payıza saxlamazlar – biçin yayda qurtarar.

Bu iki sintaktik bütövdən sonrakı söhbət belədir:

- Siz öləsiniz, ay uşaq, bulutlu gününkü bir yağlı kababdır.

- Hə, sizin canınız üçün, yeyib kəlləni atasan yerə, yayın istisi canından çıxa, -deyə Allahverən dayı təsdiq etdi.

Bu sintaktik bütövün mövzusu «yeyib-içib dincəlmək, istirahət etmək»dir. Qızğın yay işlərindən sonra yaxşı yemək və dincəlmək. Mövzuları lap konkretləşdirə bilərik: «payız», «kabab» və «istirahət». Bunların hər biri bir sintaktik bütövdür. Üçü birlikdə mürəkkəb sintaktik bütövdür. Göründüyü kimi, problem çoxcəhətli və mürəkkəbdir. Filologiya elmləri namizədi N.S.Novruzova bu çətinlikdən çəkinməmiş, o qədər də asan olmayan bir məsələnin həllinə girişmiş, sintaktik bütövlərin sərhədini müəyyənləşdirməyə çalışaraq onları mürəkkəb sintaktik bütövlərdən fərqləndirmiş, bunun üçün çoxsaylı müqayisələr aparmışdır. Tədqiqat obyekti kimi sintaktik bütövləri əsas götürən müəllif yazır: «Sintaktik bütöv» və «mürəkkəb sintaktik bütöv» anlayışları fərqlidir. Sintaktik bütövlər bölünməzdir, mürəkkəb sintaktik bütövlər isə özündə bir neçə sintaktik bütövü (iki və daha artıq SB-ni) birləşdirir. Biz tədqiq və araşdırma obyekti kimi SB-ni əsas götürürük».

Beləliklə, müəllifin əsas tədqiq obyekti çox zaman son dərəcə yayğın bir termin kimi işlədilən «mətn» deyil, xüsusi sərhədləri olan, cümlədən böyük sintaktik vahid sayılan sintaktik bütövlərdir. Sintaktik bütövlər mikromətnlərdir. Bunlar bir-biri ilə calaqlanaraq makromətnləri yaradır. Hər hansı bir bədii əsərin struktur və məntiqi-semantik keyfiyyətlərini yoxlamaq, sənətkarın ustalığını üzə çıxarmaq üçün sintaktik bütövlər, onların məna və quruluş xüsusiyyətlərinin öyrənilməsi son dərəcə geniş imkanlar yaradır. Lakin indiki halda monoqrafiyanın məqsədi bu və ya digər konkret sənətkarın üslubunun analizi deyil, müxtəlif üslublardan seçilmiş dil materialı əsasında mətnin qurulma texnikası, mətn

komponentlərini əlaqələndirən vasitələr barədə təsəvvürləri dərinləşdirmək və genişləndirməkdir. Çünki mətn sintaksisi problemləri hələ də dilçiliyimizdə öz layiqli yerini tuta bilməmişdir. Ali və orta məktəb dərsliklərində indi-indi özünə yer tapmaqdadır. Bu sahədə aparılan işlər hələ də qaydasında deyildir. Mətnin qurulma texnikası barədə filoloq və jurnalistlərə bilik verilməsi işinə hələ lazımi şəkildə başlanmamışdır. Halbuki kamil üslubun təşəkkülü üçün sövqi-təbii imkanlarla yanaşı, elmi biliklər əsasında yaranan səlis vərdişlərin misilsiz rolu ola bilər.

Bitkin fikir sintaktik bütövlərdə ifadə oluna bilir. Mətn ümumi sintaktik mexanizmdə xüsusi avtonom quruluş təşkil edir, nitq vahidlərinin aşağıdan yuxarıya düzülüşündə bitkin fikir ifadəsinin əsas vahidi sayılır. Lakin tam bitkin fikir makromətnlərdə ifadə olunur. Mikromətnlər makromətnlərin əsas hüceyrəsini təşkil edir. Mikromətnlərin hüceyrələri cümlələrdən, cümlələrin hüceyrələri sözlərdən və birləşmələrdən, sözlərin hüceyrələri morfem və fonemlərdən ibarətdir. Bu cür düzülüş sintaktik bütövləri, onları bir-birilə əlaqələndirən vasitələri, mətnin qurulma texnikasını sintaksisin tədqiq obyektləri sırasına daxil edir.

Əksər dilçilər sintaktik bütövlərin daha müstəqil olan ***başlanğıc, izahedici və fikri qapayan*** cümlələrdən ibarət olduğunu söyləsə də, ümumən sintaktik bütövlərin sərhədlərini müəyyənləşdirmək o qədər də asan deyildir. Həm də bir çox hallarda bir sintaktik bütöv o birinin içərisində doğulur, çalaqlı inkişaf yolu keçir. Ona görə də N.Novruzova tədqiqat prosesində konkret nümunələr əsasında sintaktik bütövlərin sərhədlərini müəyyənləşdirmək üçün alimlərimizin təklif etdiyi prinsiplər əsasında xeyli mətnin analizini vermişdir. Özlüyündə də aydındır ki, sintaktik bütövlərin mürəkkəb cümlədən böyük sintaktik vahid kimi müəyyənləşdirilməsi bu vaxta qədər hər hansı bir mətn kəsiyini «mətn» adlandırma prinsipi ilə uyğun gəlmir və artıq mətn anlayışı – makro və mikro olmaqla spesifik quruluş xüsusiyyət və sərhədləri olan sintaktik vahidlər kimi səciyyələnir.

Sintaktik bütövləri cümlə ilə, abzas, period, diskurs və s.-lə müqayisə etmək, fərqləndirmək mümkündür və müəllif maraqlı nümunələr əsasında bu cür müqayisələr aparmışdır. Frazafövqi vahidlə də müqayisələr aparılmışdır. Lakin dilçilikdə frazafövqi

vahidlər haqqında müxtəlif fikirlər vardır və bunlar əksərən birbiri ilə ziddiyyət təşkil edir. Müəllif əlaqədar tədqiqatları araşdıraraq yazır: «Frazafövqi vahid bəzən mətnə sinonim kimi, bəzən abzasa bərabər, bəzən abzasın hissəsi, bəzən sintaktik bütövlər, bəzən də mürəkkəb sintaktik bütövlərə bərabər nitq aktı kimi təqdim edilmişdir». Bunların heç biri frazafövqi vahid anlayışına uyğun deyildir. Bu əsərdə də konkret bir qənaətə gəlmək mümkün olmamışdır. Bu onunla əlaqədardır ki, elmin bu sahəsi gənc olduğundan, hər bir tədqiqatçı yeni bir termin işlətdiyindən termin müvaziliyi, termin sinonimliyi baş alıb gedir; çox zaman eyni məfhum müxtəlif və müvazi terminoloji vasitələrlə ifadə edilir.

N.Novruzova sintaktik bütövlərin daxili quruluşundan danışarkən cümlələr arasında semantik əlaqənin zəncirvarı, paralel və qarışıq şəkildə qurulan üç tipini qəbul etmişdir. Bunlar ümumən mətn tərtibində müşahidə olunan ən mühüm əlaqə tipləridir.

Əsərdə mətnin bir sıra kateqoriyaları barədə ilk dəfə sistemli məlumat verilmişdir.

Mətnin ***bağlılığı – koheziya*** mətn daxilində cümlələr arasında formal-qrammatik bağlılığı, məzmun-semantik əlaqəni və məntiqi ardıcıllığı əhatə edir. ***Prospeksiya*** da əlaqəlilikdir, lakin mətndəki informasiyanın gələcəkdə veriləcək informasiya ilə əlaqəsini nəzərdə tutan bağlılıqdır. ***Retrospeksiya*** (xatırlama) prospeksiyanın əksinədir: verilən məlumat keçmiş bilik və təsəvvürlər üzərində qurulur. ***İnteqrasiya*** sintaktik bütövlərin struktur-semantik əlaqəsidir. Makromətnlər mikromətnlərdən bu əsasda yaranır. ***Aktual üzvlənmə*** isə mətnin semantik inkişafını təmin edir. Bunlar mətnin kateqoriyaları sayılır. N.Novruzova ilk dəfə olaraq bu kateqoriyaların dil faktları əsasında şərhini vermişdir. Bunları anlamadan mətnin qurulma texnikasından baş açmaq çətin olardı.

Sözlər və söz birləşmələri cümlənin əsas tikinti materialıdır. Bağlayıcılar, qoşmalar, şəkilçilər cümlədaxili əlaqə vasitələridir. Modal sözlər, ədatlar cümlənin rəng çalarını yaradır. Sintaktik bütövlərin yaranmasında və bir-biri ilə əlaqəsində bu cür nitq vasitələri daha geniş fəaliyyət dairəsinə malikdir. Sintaktik bütövlərdə bunlarla yanaşı, komponentlər arasında semantik əlaqələr, ümumilik bildirən müstəqil cümlənin tərkibindəki sözlərin izahedici cümlələrdə semantik cəhətdən açılışı həlledicidir. Mürəkkəb

cümlədə ikinci komponentdə işlənən bir əvəzlik yalnız əvvəlki komponenti əvəz edə bildiyi halda, sintaktik bütövlərin təşkilində əvəzlik yalnız mikromətnləri deyil, böyük makro mətnləri də ehtiva edə bilir. Bir kəlmə ilə, kiçik bir ədatın köməyi əsasında iki böyük abzas arasında semantik əlaqə yaratmaq mümkün olur. Beləliklə, bütövlükdə mətn strukturunda əsas və köməkçi nitq hissələrinin funksiyası son dərəcə genişlənir. Bağlayıcılar, ədatlar, modal sözlər cümlə daxilində ayrı-ayrı üzvlərin, mürəkkəb cümlə və qarışıq tipli mürəkkəb cümlə komponentlərinin əlaqəsinə xidmət etdiyi halda, mətn daxilində söyləmlərin, sintaktik bütövlərin, abzasların, mürəkkəb sintaktik quruluşların, makromətnlərin əlaqəsinə xidmət edir. Eyni zamanda, qeyd edilən morfoloji vasitələr presuppozisional əlaqə əsasında mətnin ikiqat zənginləşməsinə səbəb olur. Mətnin bu imkanlarının az tədqiq edildiyini nəzərə aldığı üçün N.Novruzova əsərdə mətnin təşkili mexanizminin şərhinə – sintaktik bütövlərin komponentlərini əlaqələndirən leksik vasitələrin, xüsusilə əvəzliklərin, omonim sözlərin, köməkçi nitq hissələri və morfoloji əlamətlərin, bağlayıcılar və bağlayıcı sözlərin, ədat və modal sözlərin, sintaktik və prosodik vasitələrin roluna xüsusi diqqət yetirmiş, anaforik və kataforik münasibətlər, söz sırası və onun aktual üzvlənmədə rolu, sinonimlik və paralellik barədə geniş məlumat vermişdir. Mətnin qurulması üçün lazım olan bütün vasitələr fikrin semantik açılışının lazımi səviyyədə təmin edilməsi üçündür.

Mətndaxili semantik proseslər maraqlı xüsusiyyətləri ilə diqqəti cəlb edir. Sintaktik bütövlərin mövzusunun müəyyən edilməsində tema-rema ardıcıllığı həlledici amil kimi çıxış edir. Sintaktik bütövlərin semantik sərhədlərinin müəyyən olunması da tema-rema əlaqəsi əsasında mümkün olur. Tema-rema əvəzlənməsi mətnin sintaktik bağlılığını üzə çıxarır. Rema vasitəsilə hər dəfə yeni məlumat verilməklə mövzu getdikcə dərinləşdirilir, tematik proqressiya yazıçı istəyinin dil vasitələri ilə reallaşmasını, praktik şüura çevrilməsini təmin edir. Buna görə də N.Novruzova monoqrafiyada mətnin semantikası problemi üzərində xüsusi dayanmış, tema-rema əvəzlənməsi ilə fikrin qeyri-müəyyənlikdən müəyyənliyə doğru inkişafı imkanlarını ətraflı şərh etmişdir. Sintaktik bütövlərdə ümumiləşdirici, izahedici və mətnin qapanmasına səbəb olan cümlə tipləri barədə fikir və mülahizələr, aktual üzvlənmə barədə araşdırmalar bu əsərdə bədii və elmi ədəbiyyatdan təqdim edilmiş zəngin nümunələr əsasında daha da genişləndirilmiş-

dir. ***Nəqli, təsviri və psixoloji mətnlər***, sintaktik bütöv daxilində cümlələr arasında ***zəncirvarı, paralel və qarışıq əlaqə tipləri***, mətnin modal quruluşu və intonasiyası barədə geniş məlumat verilmiş bu əsər mətnin qurulma texnikasını, zəngin semantik aləmini öyrənmək üçün faydalı və gərəkli olacaqdır.

Nuridə xanım Novruzova uğurlu yoldadır. Bu yolda ona yeni yaradıcılıq və işıqlı günlər arzulayırıq.

13.04.02

DİLİMİZİN BU GÜNÜ

– Qəzənfər müəllim, son vaxtlar dil məsələləri cəmiyyəti daha çox düşündürür. Keçən il dilimizin tədqiqi, öyrənilməsi, xüsusilə dövlət idarələrində tətbiqi, mühafizəsi ilə bağlı prezident fərmanı da oldu. İndiki vəziyyətlə əlaqədar nə deyə bilərsiniz?

– Dilimizin hazırkı vəziyyəti ilə əlaqədar tələş keçirməyə heç bir əsas yoxdur. Bütün xalq bu dildə danışır, kitablarımız bu dildə nəşr olunur, konfranslar, müşavirələr bu dildə aparılır, ali məktəb auditoriyalarında bu dildə mühazirə oxuyurlar. Sovet dövründə ədəbi dilimiz o qədər cilalanıb ki, bir çox başqa dil daşıyıcıları onun gözəlliyinə, səlisliyinə köks ötürə bilərlər. Lakin, əlbəttə, dövrün özünün mühüm problemləri var. Ədəbi dilin dövlət idarələrində tətbiqi məsələsi, mətbuat dili, radio və televiziya dili, reklamlar, xarici dildə olan məktəblər, ziyalıların ana dilinə münasibəti və s. düşündürücü detallara malikdir. Üstəlik, yeni əlifbaya keçilməsi, orfoqrafiya qaydalarının olmaması, apostrofla bağlı anarxiya... Bunların hər birinə ayrılıqda nəzər salmaqla dilimizin hazırkı vəziyyəti barədə təsəvvürü konkretləşdirmək olar.

XX əsrin əvvəllərində ana dili üç müxtəlif təmayülə – ərəb-fars dillərinə, rus və türk dillərinə meyil edənlərə qarşı mübarizə şəraitində inkişaf edirdi. Mirzə Cəlil «Anamın kitabı» əsərində bu üç təmayülün ifşasını vermişdir. Prof.T.İ.Hacıyev XX əsrin əvvəllərində ziyalıların bir qisminin türk dilinə məxsus hər cür söz və ifadələri yerli-yersiz dilimizə gətirmələri barədə danışarkən 60–70-ci illər tədqiqatında obrazlı şəkildə qeyd edirdi ki, bir sıra ziyalılar tarixi diferensiasiya prosesində qonşu türk dilinin payına düşənləri zorla bizim dilə gətirmək istəyirdilər. Qeyd edək ki, əsrin sonun-

da bu proses yenə bir neçə il təkrar olundu – 90-cı illərin əvvəllərində bu mənada türkçülük meyli xeyli güclənmişdi. Yaxşı ki, uzun sürmədi və hər şey qaydasına düşdü. Keçici hallar yenə də vardır. Hər bir dil başqasından, xüsusilə qohum dillər bir-birindən öyrənə bilər, lakin zərurət nəzərə alınmalıdır. Məsələn, bir çoxlarının bəyəndiyi ***çağdaş*** sözü mənə o qədər də xoş gəlmir. ***Müasir*** sözündəki sanbalı, əzəməti o sözdə görə bilmirəm. «***Müasirlik ruhu güclüdür***» əvəzinə, «***Çağdaşlıq ruhu güclüdür***» demirik, yəni sözün törəmələri də eyni səviyyədə fikrin ifadəsinə xidmət edə bilmir. Və ya ***mühümdür, faydalıdır, əhəmiyyətlidir*** kimi sözlərin əvəzində bu xalqa təzədən ***önəmli*** sözünü nə təhər öyrətmək mümkün olacaqdır? Heç təsəvvür etmirəm ki, Azərbaycan kəndlisi danışarkən «***Xeyri var, əhəmiyyəti var, əhəmiyyətlidir***» və s. əvəzinə desin ki, «***Qoyun saxlamaq çox önəmlidir***». Dili xalq yox, az savadlı kütlə yox, həmişə ziyalılar korlayıblar. Doğrudur, onun keşiyində duranlar, onu elmi-nəzəri baxımdan qoruyanlar da ziyalılardır, lakin korlandığı məqamda korlayanlar da onlardır. Odur ki qələm sahibləri öz kökü üzərində yüksəlməli, təsadüfi və lazımsız meyillərə uymamalıdır. Yalnız faydalı sözləri dilə gətirmək faydalıdır. Məsələn, ***nöqteyi-nəzər*** əvəzinə, ***baxım*** sözü uğurlu tapıntı oldu.

90-cı illərin əvvəllərində türk dilinə meyil edənlərdə bir canlanma əmələ gəlmişdi. Bu proses mətbuat orqanlarına, televiziyaya güclü yol tapmışdı. Həmin illərdə «Bəs mənim ölkəmin varlığı hanı?» başlıqlı bir yazıda deyilirdi: «...bizim milli televiziyamız diktor və aparıcılarına Azərbaycan dilində danışmağı öyrətmək əvəzinə, osmanlı dilinin təbliğinə geniş meydan verir». Hətta bir vaxtlar latın qrafikalı yeni əlifba tərtib edilərkən bir sıra yoldaşlar milli səslərimizi də türkləşdirməyə çalışmışlar. Dilimizdəki «ə» səsini «e» ilə əvəz etmək istəyənlər vardı. Yuxarıdakı məqalədə bu münasibətlə oxuyuruq: «Hörmətli şairimiz (S.Rüstəmxanlı nəzərdə tutulur – *Q.K.*) deyirdi ki, «ə» səsini «e» hərfi ilə işarə etməklə heç bir azərbaycanlı «ə» əvəzinə «e» tələffüz etməyəcək. ...heç əlifbanın qəbul edilməsindən bir il keçməyib ki! Hələ heç bir nəsil yox, bir dərs ili də dəyişməyib! Bəs nə oldu? Nə tez «axma» – «akma», «çaxmaz» – «çakmaz», «ulduz» – «yıldız», «mənə» – «bana» oldu görəsən?.. Əgər o zaman «ə» əvəzinə «e» qəbul edilsəydi,

mən inanıram ki, belə ziyalılarımızın, müğənnilərimizin kərəmətindən «ə» ilə deyilən bütün sözlərimiz tezliklə «e»ləşəcəkdi. Yaxşı ki, Siz onda azlıqda qaldınız». Sonralar dosent Hava Abdullayeva tərəfindən yazıldığını öyrənə bildiyim bu məqalədə müəllif yana-yana yazırdı: «Əgər biz türküksə, onda niyə axtarış yollarındayıq? İndi öz doğma türk dilimizdə, Azərbaycan türkcəsində danışmırıq? Niyə kəlmələrimizi, tələffüz xüsusiyyətlərimizi Anadolu türklərininkinə oxşatmaqla süni surətdə «türkləşmək» istəyirik? Axı kim sübut edib ki, türk adını qəbul etmək Anadolu türklərinə daha çox türk olmaq hüququ verir?»

Dövlət idarələrində ana dilinin tətbiqi vəziyyəti hələ də qənaətbəxş deyildir. Bu məsələ dilçi işi deyil, dövlət işidir: dövlət öz məmurlarını bu işə məcbur etməlidir. Şəhər reklamları da qaydasında deyildir. Bu sahədə xüsusi bir əməliyyata böyük ehtiyac var. Müəssisənin, şirkətin adı birinci növbədə ana dilində yazılmalıdır. Əlifbalar bir-birinə o qədər qarışıb ki, hərdən düşünürsən ki, insan beş-altı min il əvvəlki mixi yazıları oxuya bildi, amma gələcəkdə bu yazıları düzgün oxumaq mümkün olmayacaqdır. Təsəvvür edin ki, məsələn, APTEK sözündə bir ***p*** hərfi kirildən fərqli oxunur, ona görə də bu sözü hər dəfə ARTEK (kirildəki kimi – AeRTeK) kimi oxumaq lazım gəlir. Gələcəkdə yer altından daş üzərində belə bir yazı tapılsa, mütəxəssislər deyəcəklər ki, Azərbaycanın Arteklə (Artek adlanan yerlə) əlaqələri möhkəm imiş. Yadımdadır ki, 60-cı illərdə bir dissertasiya müzakirəsində prof. Y.Seyidov deyirdi ki, idarə adları çox mürəkkəbləşib, gərək idarənin qarşısında xeyli müddət dayanıb bir neçə dəfə oxuyasan ki, onun adının mənasını başa düşəsən. Prof.Ə.Dəmirçizadə əlavə etdi ki, hələ o da kifayət deyil. Gərək idarənin içinə girib gəzəsən.

O dövrün bəlaları ayrı idi, indiki ayrı. O dövrdə reklamlar Azərbaycan və rus dillərində yazılırdı – cəmi iki dildə. İndi hansı dildə olduğunu və nə yazıldığını yalnız birtəhər şəkillərdən fəhm etmək olur. Görünür, getdikcə şəkli yazı fonetik yazını üstələməkdədir.

Qəzet dilinə cavabdehlikdə məsuliyyətsizlik əmələ gəlib. Keçmişdə mərkəzi qəzetlərdən birində bir imla səhvinə rast gəlmək çox böyük təəccübə səbəb olardı. Amma indi qəzet sütunlarında tələsik çap olunmuş, üslub və imla xətaları ilə dolu məqalələr, elə

bil, heç kəsdə təəccüb doğurmur. Keçən illərdə qəzetlərdən biri mənim bir yazımı o qədər təhriflərlə vermişdi ki, yazını çap etdirməyimə peşman oldum. Hər bir qələm sahibi qələminə hörmət etməlidir. Qəzetlərin bir çoxu mütəxəssis əlində deyil. Qəzet çıxarmaq olar, amma oxucu zövqünü korlamamaq, dilin estetik tələblərinə əməl etmək şərtilə.

Televiziya dilinə nəzər salaq. Məsuliyyət hissi ilə çıxış edən ziyalılarımız çoxdur. Lakin iki kəlməni deyincə dilin intonasiyasını on dəfə pozan vəzifə sahiblərinin bu dildə təhsil almadığını və bəlkə də, heç təhsil almadığını, bu dilin ruhunu duymadığını düşünməli olursan. İcmalçılar, verilişlərin aparıcıları xeyli kamilləşmiş, nitqlərini səlisləşdirmişlər. Təəccüblüsü də odur ki, əksər diktor və aparıcılar son sözlərini xalqa qarğışla tamamlayırlar:

Sabaha qədər salamat qalın!
Gələn görüşlərədək salamat qalın!
Gələn şənbəyədək salamat qalın!
Salamat qalın sabaha qədər! Və s.

Başa düşmürlər ki, burada bir yox, iki müstəqil ifadə var: biri «Sabaha qədər» ifadəsidir, gərək müstəqil intonasiya ilə tələffüz edəsən, fikir bitə, sonra «Salamat qalın!» cümləsi işlənə. Yazıda bunlar azı vergüllə ayrılmalıdır. Amma bizim televiziya aparıcılarının bir qismi bu iki cümləni nöqtəsiz-vergülsüz birbaşa – «Sabaha qədər salamat qalın!» şəklində işlətməklə düşünmürlər ki, dinləyicilərə nə qədər qısa ömür arzulayırlar. Bunların hamısı jurnalistin dil duyumu, savadı, dilimizin intonasiyasına bələd olma səviyyəsi ilə bağlıdır. İrad da tutulmur, çünki, görünür, redaksiya və rəhbərlik də belə düşünür. Yaxud fasilə lazım gəlmədiyi yerdə fasilə edirlər: «İndi də, sözsüz, mahnını dinləyin». Demək istəyir ki, «İndi də sözsüz mahnıya qulaq asın».

– Bəs bədii əsərlərin dili barədə nə deyə bilərsiniz?

– Son vaxtlar əməlli bədii əsər ya az yazılır, yaxud da yaza bilənlər çap etdirə bilmirlər. 90-cı illərdə yadda qalacaq bir ədəbi hadisə müşahidə olunmur. Amma ümumən yazıçılarımızda milli ruh güclüdür. Az-çox yazılan poeziya və nəsr nümunələri milliliyə, milli dilə məhəbbətlə yüklüdür.

– Dediniz ki, əlifba, orfoqrafiya məsələləri xüsusi baxılmalı məsələlərdir.

– Bəli, indi bunlar cəmiyyəti ən çox narahat edən məsələlərdir. Bir əsrdə dörd dəfə əlifba dəyişmişik, heç bir günahı olmayan zəhmətkeş insanı dörd dəfə əlifba öyrənməyə məcbur etmişik. Bu qədər qədim tariximiz, mədəniyyətimiz ola-ola, belə çıxır ki, biz hər şeyi hələ təzə öyrənirik, ona görə də hər şeyi təzədən başlayırıq və başlayanda da yüz ölçüb bir biçmədiyimiz üçün azı dörd dəfə təkrar edirik. Əziyyəti çəkən isə xalq olur.

Əlifbanı dəyişdik. Nəticələri nə olacaq, bunu gələcək göstərər. Bununla guya asılılıqdan qurtarırıq. Amma bir asılılıqdan qurtarmamış, özünü başqa asılılığa dürtmək istəyənlər var. Yeni əlifbanın tərtibi o qədər qüsurludur ki, az qala, düşünürsən ki... Fonetik əlifbaya keçdiyimiz gündən biz daim kar samitləri yazmış, diakratik işarələri cingiltili samitlərdə qoymuşuq. İndiki əlifba bu cəhətdən xalqın 70 illik vərdişinin əleyhinədir. Çox yöndəmsiz bir düzülüşü var. Kopirovkadır. *Ge*-dən sonra *ğe*-nin tələffüzünə heç danışıq üzvləri də dözmür.

Xeyli vaxtdır, yeni əlifbaya keçilib, amma hələ də orfoqrafiya qaydaları yoxdur. Əlifba və orfoqrafiya bir-biri ilə sıx bağlıdır. Əlifba dəyişilən kimi yeni orfoqrafiya qaydaları yaradılmalıdır. Lakin bu sahədə hələ də Respublika Dil komissiyasının fəaliyyəti görünmür. Əslində, yeni əlifbaya keçilərkən uzağı bir ayın müddətində orfoqrafiya qaydaları hazırlanıb xalqın müzakirəsinə verilməli idi və müzakirəni dərhal yekunlaşdırıb «Qaydalar»ı böyük tirajla xalqa çatdırmaq lazım idi. Hələ də heç bir səs-soraq yoxdur. 1958-ci ilin orfoqrafiya qaydaları çox kamil idi. Lakin keçən müddət ərzində onun da bir sıra müddəaları köhnəlmişdir. Məsələn, «Qaydalar»da deyilir ki, ***idi, imiş*** köməkçi sözləri sait səslə qurtaran sözdən sonra ayrı yazılmalıdır: ***gərək oxuya idi, gəlməli idi, gərək oxuya imiş, gəlməli imiş*** və s. Lakin bu qaydaya bədii dildə və mətbuat dilində əməl olunmur, ***y*** bitişdiricisi ilə bu köməkçi sözlər əksərən bitişik yazılır.

– Apostrof haqqında fikriniz necədir? Siz onun saxlanmağının tərəfdarısınız?

– Bizim məktəb dərsliklərimiz onun əsasında qurulub. Apostrof

sözün düzgün və mənalı tələffüzü üçündür. Bir işarənin saxlanması xalqın minillik vərdişini qorumaqla yanaşı, elmi-metodiki baxımdan da faydalıdır. Əksər dünya əlifbalarında bizim işlətdiyimiz apostrof işarəsindən müxtəlif məqsədlərlə istifadə edilir və heç bir artıqlıq, ağırlıq törətmir. Bu vaxta qədər ***fe'l*** yazmışıq, ***şe'r*** yazmışıq. Apostrofu atdıq. Eybəcər sözlər qalır: ***fel, şer***. Apostrofun işlənmədiyi dövrlər olub və həmin dövrlərdə bu cür sözlər ***feil, şeir*** şəklində yazılıb. Hansı asandır?

Biz işimizi asanlaşdırırıq, yoxsa çətinləşdiririk?

Bir sıra görkəmli alimlər də apostrofun yazımızda qalmasını vacib bilirlər. A.Quliyev «Bir daha apostrof haqqında» («Azərbaycan müəllimi», 3–8 may 2002) məqaləsində prof.T.İ.Hacıyevə istinad edərək apostrofun vacibliyini ətraflı əsaslandırmışdır. Müəllif T.Hacıyevin dediklərini belə ümumiləşdirmişdir: «Mən nə üçün israr edirəm ki, sözlərdə apostrof olmalıdır? Birinci ona görə ki, apostrof sözlərə məna fərqi verir. Məsələn, «bə'zən» sözü, bir də «bəzən» sözü var. «Nərə» başqadır, «nə'rə» başqa. «Səy» və «sə'y» sözləri tamamilə başqa-başqa mənalarda işlənir. Apostrofla yazılmayanda bu tipli sözlər qarışıq düşür.

İkincisi, apostrofsuz yazılanda sözlərin tələffüzü pozulur. Apostrof olmayanda, məsələn, «ə'la» sözü «əla» kimi tələffüz edilir. «Sür'ət» «sürət» oxunur, «mə'bəd»ə «məbəd» deyirlər...

Üçüncüsü, klassik ədəbiyyatımızın dərk olunması, başa düşülməsi çətinləşir... Füzuli deyir ki, «Fələklər yandı ahimdən, muradım şəm'i yanmazmı?», «muradım şəmi» deyilsə, ahəng pozular». T.İ.Hacıyev apostrofun ciddi siyasi əhəmiyyətə də malik olduğunu qeyd etmişdir. Apostrof ərəb mənşəli sözlərdə işlənir və Cənubi Azərbaycan əhalisi bu məqamda ərəb əlifbasında eyn və ya həmzədən istifadə edir. Bizdə bunları apostrof əvəz edir. Apostrof atıldıqda cənubla əlaqə daha çox qırılmış olur. İngilislər, türklər bizim işlətdiyimiz apostrof işarəsindən müxtəlif məqsədlərlə (söz köklərini, xüsusi adların sərhədini ayırmaq üçün) istifadə edirlər, kompyuter üçün heç bir çətinliyi yoxdur və «işi asanlaşdırmaq» naminə apostrofu atmaq çox cəhətdən zərərlidir. Vaxt gəldikcə özü tədricən silinə bilər.

Qeyd etməliyik ki, Fikrət Qoca, Qabil, Qılman İlkin, Əzizə

Cəfərzadə və başqaları da mətbuatda çıxış edərək apostrofun ləğv olunmasını zərərli hesab etmişlər.

– Keçən ilin iyul-avqust aylarında dilimizin mənşəyi ilə əlaqədar «Təzadlar» qəzetində 8 nömrə dalbadal Sizin məqalələrinizi oxuduq. Prezident fərmanı dilimizin mənşəyini öyrənməyə imkan verirmi?

– Müstəqillik dövründə dilimizin praktik məsələlərinin kamilləşməsinə, onun tarixinin, mənşəyinin öyrənilməsinə daha çox diqqət yetirilməlidir. Buna prezidentin dil haqqında məlum fərmanı da imkan verir. Və son zamanlarda – 80-ci illərdən başlayaraq bu sahədə iş xeyli canlanmış, bir sıra alimlərimiz (prof.Y.B.Yusifov, prof.T.İ.Hacıyev, tarix elmləri doktoru Q.Qeybullayev, prof. Q.Ş.Kazımov və b.) dilimizin mənşəyinin daha uzaq keçmişlə bağlı olduğunu böyük zəhmətlə üzə çıxarmışlar. Lakin ictimai mühit kəskin müqavimət göstərməkdədir. Hər bir xalq, hər bir dövlət öz mənşəyini, o cümlədən dilinin mənşəyini öyrənməlidir. Lakin bizim ölkəmizdə buna qarşı çox böyük müqavimət vardır. Əlində ixtiyar olanlar həqiqi tarixi üzə çıxarıb xalqın tarixini, dilini öyrənmək istəyənləri min cür təzyiqlə qarşılayırlar. Dilimizin mənşəyini uzaq keçmişdə görənlər heç də türk hegemonluğu iddiasında deyildir. Mühafizəkar qüvvənin gümanına görə, Azərbaycan ərazisinə və ümumən ekvator boyunca Yer kürəsinə türklər birdən-birə bizim eranın əvvəllərindən tökülməyə başlayıblar. Qəsdən başa düşmək istəmirlər ki, İnsan Ön Asiya hüdudlarında təşəkkül tapıb, İnsanın müxtəlif dil ailələrinə parçalanması da burada baş verib və İnsan şərqə, qərbə, şimala və cənuba buradan yayılıb. Hindavropalılar da, semitlər də, türklər də öz dil inkişafını burada tapıb, flektiv, analitik, aqqlütinativ inkişaf yoluna burada düşüb, eyni vaxtda buradan miqrasiyalar başlayıb və bu dil ailələrinə məxsus protodillər (bir çox başqa dil ailələrinin protodilləri də) əsasən yaşıddırlar. Əgər hindavropalılar Ön Asiyadan müxtəlif ərazilərə yayılıb, yalnız e.ə. IX–VIII əsrlərdə İran yaylasına dönüblərsə, semitlər İkiçayarasının qərbindən uzaqlaşmayıblar. Türklər isə daim Urmiya gölü həndəvərində, indiki Cənubi Azərbaycan ərazilərində məskən salıblar, köklü surətdə buranı tərk etməyiblər, lakin bir qismi şərqdə Altaya, qərbdə İtaliya hüdudlarına qədər yayılıblar. Sabir demişkən, biz bu tarixi həqiqəti söylədikdə çoxları təbdən çıxır. Ona görə də gərək dövlət səviyyəsində alimlərdən tələb oluna ki,

xalqın tarixini, dilinin mənşəyini düzgün öyrənsinlər. Neçə ki bu tələb yoxdur, bu iş çarpışmalarla gün keçirən tək-tək alimlərin işi olaraq qalacaqdır. Çarpışmalı olsaq da, bu iş faydalıdır: lazım olanları oyadır və gələcək həqiqi tarixçi və dilçilərin yetişməsi üçün zəmin hazırlayır.

– Müsahibə üçün sağ olun.

03.07.02

«ORFOQRAFİYA QAYDALARI»NIN YENİ LAYİHƏSİ HAQQINDA

Azərbaycan dilinin istifadədə olan orfoqrafiya qaydaları Azərbaycan SSR Nazirlər Sovetinin 1958-ci il 24 iyun tarixli 497 nömrəli və 1959-cu ilin 6 aprel tarixli 268 nömrəli qərarları ilə təsdiq olunmuşdur. İctimai-siyasi quruluşun dəyişməsi, o zamandan bəri xeyli illər keçməsi, bəzi qaydaların köhnəlməsi, əlifbanın dəyişməsi və s. yeni qaydaların yaradılması zərurətini ortaya qoymuşdur. Bu zərurət nəzərə alınaraq, yeni orfoqrafiya qaydaları yaradılmış, bir sıra mətbuat orqanlarında, o cümlədən «Azərbaycan müəllimi» qəzetinin 4 fevral 1999-cu il tarixli nömrəsində dərc olunaraq bir ay müddətində yekunlaşdırmaq məqsədilə müzakirəyə verilmişdir. Yeni «Qaydalar»ın tərtibi yeni əlifbaya keçilməsi ilə bağlı olmuşdur: «Azərbaycan Respublikasının dövlət dili haqqında» Azərbaycan Respublikasının 1992-ci il 22 dekabr tarixli qanununa müvafiq olaraq yeni Azərbaycan əlifbasının tətbiqinə keçilmişdir. Bununla əlaqədar Nazirlər Kabinetində Azərbaycan Respublikası Baş nazirinin müavini Elçin Əfəndiyevin

sədrliyi ilə Azərbaycan Dövlət Dilinin Tətbiqi üzrə Hökumət Komissiyası yaradılmış və komissiya tərəfindən yeni orfoqrafiya qaydaları layihəsi işlənib hazırlanmışdır. «Hökumət Komissiyası layihənin ictimai əhəmiyyətini nəzərə alaraq, onu geniş müzakirəyə çıxarmağı lazım bilmiş, buna görə də layihə mətbuatda çap olunmuşdur». («Azərbaycan müəllimi», 4 fevral 1999, № 5).

1958-ci ilin orfoqrafiya qaydaları ilə müqayisədə çox yığcam olan bu layihə «Saitlərin yazılışı», «Samitlərin yazılışı», «Sözün müxtəlif yerlərindəki qoşa sait və samitlərin yazılışı», «Şəkilçilərin yazılışı», «Mürəkkəb sözlərin yazılışı», «Birinci hərfi böyük yazılan sözlər», «İxtisarlar (abbreviaturlar)», «Sözün sətirdən sətrə keçirilməsi» bölmələrindən ibarətdir. Layihənin kitabça şəklində hazırlanmış əlyazmasından aydın olur ki, onu Nəsimi adına Dilçilik İnstitutu ilə Respublika Təhsil Nazirliyi elmi-metodik Şurasının «Azərbaycan dili» bölməsi birgə müzakirə etmiş və bəyənmişlər. Burada yeni layihədəki əsas dəyişikliklər belə verilmişdir:

«1.Apostrof işarəsi estetik, qrafik və tələffüz cəhətdən özünü doğrultmadığından əlifbadan çıxarılmışdır;

2.Müasir tələffüzə uyğun gəlməyən bəzi paraqraf və bəndlər ixtisar olunmuşdur;

3.Keçmiş ənənələr qorunmaqla orfoqrafiya prinsiplərinə əsaslanmayan bir sıra sözlərin yazılışında dəyişikliklər edilmişdir».

Əvvəlki qaydalar 117 bənddə verilmişdi, bu layihə cəmi 35 bənddən ibarətdir.

Saitlərin yazılışı qaydaları dörd paraqrafda ümumiləşdirilmişdir. Tərkibində ***o*** saiti olan alınma sözlər ***o*** ilə də yazılır: ***obyekt, poeziya*** və s.; ***ü*** saitli alınmalar ***ü*** ilə də yazılır: ***jüri, büro;*** danışıq dilində olduğu kimi, iki heca ilə yazılanlar: ***sətir, qədir, qəbir;*** bir sıra alınmaların sonundakı ***a*** ixtisar olunur: ***aptek, kayut, pyes*** və s.

Birinci hecasındakı saiti həm ***e,*** həm də ***ə*** ilə deyilən sözlər necə yazılacaq? ***Pəncərə, pəncək,*** yoxsa ***pencərə, pencək?*** Layihəni tərtib edənlər deyə bilər ki, bunlar – bu cür sözlər lüğətdə veriləcək və lüğətə baxmaq lazımdır. Lakin bizim fikrimizcə, bu cür mülahizə savadsızlığa aparır. Qaydalar əhatəli olduqda orta və ali məktəbdə gənclik onu şüurlu şəkildə mənimsəyir və bir daha hər dəqiqə lüğətə baxmağa ehtiyac qalmır. Bu cür bəsit qaydalar tədrisi də bəsit-

ləşdirir və tədricən savadsızlığa səbəb olur. Hər kəlməni yazdıqca lüğətə baxmaq olmaz. Bundan əlavə, şivələr də aradan çıxmayıb. Hər bir ərazi öz şivəsini saxlamaqdadır. ***Gohər*** də deyirlər, ***gövhər*** də; ***nobə*** də deyirlər, ***növbə*** də. ***Övlad*** da deyən var, ***əvlad*** da; ***pəhlivan*** da deyirlər, ***pəhləvan*** da; yazıda ***büllur*** yazılmalıdır (köhnə qaydalar), amma əksəriyyət ***billur*** deyir, ***Fizuli*** deyir; ***təşbih, təsbeh*** sözləri necə fərqləndiriləcək? ***Müqəddimə*** yazılacaq, yoxsa ***müqəddəmə?*** Sonu ***a*** ilə bitən alınma sözlər köhnə qaydalarda iki cür yazılırdı: bir qismi ***a***-sız: ***idiom, kayut;***. bir qismi ***a*** ilə: ***poetika, forma***. Bu ikinci qrupda ona görə ***a*** saxlanmışdı ki, onu ixtisar edəndə məna ya dəyişir, ya da anlaşılmır. Bu cəhətdən ***metafora, metonimiya*** kimi sözlərdə ***a,*** və ***-iya*** hissələrinin qalmasının nə mənası var? ***Metafor, metonim*** daha yaxşı səslənir və qısalığı ilə seçilir. Şəkilçi artıranda da ***metonimiyalaşma*** kimi ağırlaşmır, ***metonimləşmə*** daha asan tələffüz olunur. ***Mahud, sabun, mazut*** yazılacaq, yoxsa ***mahıt, sabın, mazıt?*** Qayda lazımdır ki, öyrənilsin – hər dəqiqə lüğətə baxmaq olmaz. Layihənin əlyazmasında ***profilaktori, sanatori*** yazılması məsləhət görülür. Qəzetdə ***sanatoriya*** sözünün istisna kimi qalması lazım bilinir, ***profilaktori*** saxlanılır. Bizdə heç kim bu sözü belə işlətmir, türklər işlədir.

Yeni layihədə 10,11,12-ci bəndlər rus dilindən və rus dili vasitəsilə Avropa dillərindən alınmış sözlərin yazılışına aiddir. Qeyd edilir ki, «Tərkibində ***h*** samiti olan Avropa mənşəli sözlər ***h*** ilə də yazılır: ***Heyne, hektar*** və s.» Bu sözlər rus dili vasitəsilə alınmışdır, rus dilində ***q*** ilə tələffüz edilir – alınmanın keçdiyi yolu xatırlatmaq lazımdır və bundan əlavə, dalbadal təkrar olunan «Avropa mənşəli sözlər» ifadəsi də səhvdir – ***Avropa*** adlı dil yoxdur. 40 il əvvəl daha düzgün ifadə olunub: «Müxtəlif hecalarında əslində ***h*** səssizi olan beynəlmiləl sözlər ***h*** ilə də yazılır...» «Beynəlmiləl sözlər» bildirir ki, verilən sözlər alınmadır; «əslində» sözü isə sözün vasitəçi dildə deyil, mənşə dildə ***h*** ilə deyildiyini bildirir. Bu bölmədə ***litsey*** sözündən ***t*** samitinin, ***antena*** sözündən son ***a*** saitinin atılmasına dilimiz alışmamışdır. Azərbaycanlı nitqində aydın şəkildə ***litsey*** deyilir, ***antena*** sözündə zəifləmiş olsa da, son ***a*** tələffüz edilir. Qayda olmadığından gənc nəsil ***bıçaq*** və ya ***pıçaq, busqu*** və ya ***pusqu*** yazmalı olduğunu lüğətə baxmalı olacaqdır. ***Dükan*** və ya ***tükan***, ***(göz) dikmək*** və ya ***tikmək*** sözləri üçün də. Metateza da

nəzərə alınmayıb – ***əskik*** və ya ***əksik, kirpik,*** yoxsa ***kiprik, göstərmək,*** yoxsa ***görsətmək, çılpaq,*** yoxsa ***çıplaq? Bulud, palıd, yaşıd*** tipli sözlər də əlinə qələm alanı ***t*** ilə ***d*** arasında qoyacaq. Tarixi-ənənəvi prinsiplə yazılan ***balıq, papaq, otaq, yataq*** tipli sözlərdə son səs tələffüzdə ***x***-dır. Yazı qaydası üçün bütün bu cür sözlərdə lüğət gəzməli olacaqlar. Qoşasaitli, qoşasamitli sözlər, qoşasamitli sözlərə samitlə başlayan şəkilçi artırdıqda yaranan vəziyyət və istisna hallar – görünür, açıb köhnə «Qaydalar»ı oxumaq lazım gələcəkdir. Heç biri açılmır, örtülü qalır. ***Mənafe, mənbə, mənşə*** tipli alınmalara saitlə başlayan şəkilçi artırdıqda necə yazmalı? ***İrtica, sənaye*** tipli sözlərdə necə?

Şəkilçilərin yazılışı qaydaları da çox məhduddur. Keçmiş «Qaydalar»da xeyli şəkilçi verilib (biz də bunu vacib saymırıq) və onların yazılışı ilə bağlı spesifik cəhətlər aydınlaşdırılıb. İndiki layihədə məlum bir cəhət – şəkilçilərin bir, iki və dörd cür yazıldığı ötəri qeyd edilib. ***-stan, -ı,-i,-u,-ü*** şəkilçiləri necə yazılmalıdır: ***Dağstan,*** yoxsa ***Dağıstan?*** Bir cür yazılan ***-stan*** şəkilçisinin əvvəlinə qapalı saitləri artırıb dörd cür yazılan şəkilçiyə çevirmək də düz deyil, çünki ***-stan*** şəkilçisinin kökündəki sait dəyişmir – ***-istən, -üstən*** şəklinə düşmür. Cümlələr də bəzən nahamvardır: «***-qan,-kən*** kar samitlə bitənlərdə, ***-ğan, -gən*** şəkilçiləri cingiltili samitlə bitənlərdə: ***yapışqan, çalışqan, döyüşkən, burulğan, deyingən».*** Bunlar «şəkilçilər» deyil, bir şəkilçinin variantlarıdır. ***Ha*** bitişdiricili mürəkkəb sözlərin yazılışı unudulmamalıdır. ***Kəs*** feli ilə ***de*** feli təkrar olunduqda eyni cür yazılmır: ***kəsəkəs, dehade.*** Rütbə, ləqəb, titul bildirən sözlərin, əlavəli sözlərin, tərkibində ***don, sen*** olan alınma xüsusi adların yazılışı, əcnəbi familiyalar tərkibində artikl və ədatlar (***Lope de Veqa, fon Bismark***), ***m, p, s, r*** ünsürü ilə çoxaltma dərəcəli sifətlər, ***idi*** və ***imiş*** köməkçi sözlərinin yazılışı və s. mühüm orfoqrafik problemlərdəndir.

Əvvəlki «Qaydalar»ın 77-ci paraqrafında belə bir qayda verilir: «***Mirzə, hacı, şeyx, seyid, şah, sultan, ağa, bəy, bəyim, xan, xanım*** sözləri rütbə, ləqəb və titul bildirdikdə sözlərdən ayrı (əvvəl gəldikdə baş hərfi böyük, sonra gəldikdə isə kiçik) yazılır; məs.: ***Mirzə Fətəli, Hacı Qara, Şeyx Nəsrullah, Seyid Əzim, Şah İsmayıl, Sultan Mahmud, Abbas mirzə, Cəlaləddin mirzə, Nadir şah, Abbasqulu ağa, Fətəli xan, Heyran xanım»***. (Azərbaycan dilinin orfo-

qrafiya qaydaları.-Bakı, EA nəşriyyatı,1958, s.25) Bu, çox mühüm qaydadır və burada öyrənilməsi vacib olan faktorlar vardır. Demək, bu sözlər xüsusi adlara bitişik yazıldıqda rütbə, titul, ləqəb bildirməz; deməli, həm xüsusi addan əvvəl, həm də sonra işləndikdə və ayrı yazıldıqda rütbə, ləqəb, titul bildirər; deməli, əvvəl işləndikdə böyük, sonra işləndikdə baş hərfi kiçik yazılar; deməli, bu prinsip əsasında biz ***Nəcəfbəy Vəzirov, Əbdürrəhimbəy Haqverdiyev*** adlarında ***bəy*** sözünü bitişik yazmaqda səhv edirik və s. Hələ onu demirik ki, bu cür sözlər xüsusi addan əvvəl və sonra işləndikdə hansı qrammatik vəzifəni yerinə yetirir. Bizim fikrimizcə, bu cür sözlər xüsusi adlardan əvvəl təyin vəzifəsində işlənmiş olur, xüsusi adlardan sonra isə adın xüsusiləşməyən əlavəsi kimi çıxış edir və adla birlikdə götürülür – lakin adı mürəkkəbləşdirmir. Bir qaydanın içərisində bu qədər məsələ olduğu halda, onu nə üçün ixtisar etmək lazım gəlmişdir?

İnqilabi bayramların və tarixi günlərin adlarında say bildirən ilk söz rəqəmlə yazıldıqda sonrakı sözün baş hərfi böyük, hərflərlə yazıldıqda ikinci sözün baş hərfi kiçik yazılırdı (s.29, paraqraf 89): ***1 May – Bir may, 9 Yanvar – Doqquz yanvar*** və s. İndiki layihədə ikinci sözün hər iki halda böyük hərflə başlanması nəzərdə tutulur: ***9 Yanvar – Doqquz Yanvar, Yeni İl*** və s. kimi. Bəlkə də, bu yenilik sistemin gözlənilməsi baxımından faydalıdır.

Əvvəlki «Qaydalar»da rəqəmlə yazılan saylardan sonra işlənən, defislə ayrılan şəkilçilərin (***-cı,-ci,-cu,-cü; -a,-ə,-da,-də*** və s.) rəqəmdən ayrılıb yeni sətrə keçirilməsi qadağan olunurdu, indi belə bir qayda yoxdur. Deməli, fərqi yoxdur, keçirmək də olar, keçirməmək də. Rəqəmlərin yanındakı ixtisarları da (***km, sm, ha*** və s.) yeni sətrə keçirmək qadağan idi. Bəlkə də, çap üçün əlverişlidir, amma məfhumun parçalanması baxımından eybəcərdir. Zəhmətdən qaçırıq. Yayğınlıq çoxalır. Bir sıra sözlərin (***Dağıstan, Hindistan, qapaqap, qaçaqaç, diaqram, proqram, dilucu, Gülağa, Sabirabad, əvəzolunmaz*** və s.) sətirdən sətrə keçirilmə qaydası bilinmir. Adlardakı qısaltmaları sətrin sonunda saxlamaq məsələsi. Qayda yoxdursa, demək, olar. Mürəkkəb ixtisarları hecalara ayırıb yeni sətrə keçirmək olarmı? ***Və s., və bu k., d.y.*** və s. qısaltmalarda son səsləri yeni sətrə keçirmək olarmı? Açılan dırnaq və ya mötərizəni sətrin sonunda sax-

lamaq, durğu işarələrini yeni sətrə keçirmək olarmı? Böyüklər bilir ki, olmaz. Kiçiklər də öyrənməlidir.

Bütün bunlar saysız-hesabsız suallar doğuracaqdır. Yazıda anarxiya başlayacaq. Sovet dövlətinin vaxtında öyrəndiyimiz möhkəm qaydaları qayda-qanun istəyənlər həsrətlə xatırlayacaq, savad təlimini nəzərə almayanlar bizi gülüş hədəfinə çevirəcək. Qanun kamil olmalıdır. Biz getdikcə daha kamil və səlis qanunlar formalaşdırmalıyıq. Hər şeyi atmaq, əksər qanunların üzərindən qələm çəkmək sadələşdirmək deyil. Xalqın qazandığı orfoqrafik vərdişlərin üstündən qələm çəkmək, gənc nəslin orfoqrafiya gözləmədən necə gəldi fikir ifadəsinə imkan yaratmaqdır. Estetik prinsiplərdən əl çəkməkdir. Başa düşmək olmur ki, bu cür qaydalar kimin xeyrinədir, əhalini savadsızlığa aparmaqda məqsəd nədir.

Layihədə familiya bildirən şəkilçilərin nədən ibarət olduğu və necə yazıldığı da bilinmir.

3 aprel 1999-cu ildə çap olunan və müzakirəsi üçün cəmi bir ay vaxt verilən bu qaydalar, yaxşı ki, təsdiq olunmayıb və o vaxtdan alt-alt, üst-üst qalıb.

Beləliklə, 90-cı illər böyük dəyişikliklərə, yeniləşmələrə meyilli illərdir. Lakin keçmiş dövrlərdəkindən fərqli olaraq, ziyalıların işə cəlb edilməsində subyektiv münasibətlər məsələlərin obyektiv həllinə imkan vermir.

2002, oktyabr

NİZAMİ CƏFƏROV.
«AZƏRBAYCANŞÜNASLIĞA GİRİŞ»
Bakı, AzAtaM, 2002

Respublika Atatürk mərkəzinin çap etdiyi bu kitab mərkəzin hazırladığı ilk kitab olmaqla yanaşı, həm də uğurlu kitabdır. Kitabın böyük, xüsusilə hazırkı dövr üçün aktual bir mündərəcəsi vardır. ***Azərbaycanşünaslıq*** çox geniş anlayışdır. ***Azərbaycanşünaslıq*** dedikdə Azərbaycanın elmi, incəsənəti, təsərrüfatı, coğrafiyası, arxeologiyası və s. küll halında nəzərdə tutula bilər. Azərbaycana aid nə varsa, hamısı azərbaycanşünaslığa aiddir. Nizami Cəfərov bu qiymətli əsərdə köklü məsələləri ortaya qoyub, azərbaycanşünaslığın genetik problemlərinə – etnogenez, dilimizin mənşəyi, dövlətçilik və mədəniyyət tarixi məsələlərinə üz tutub.

Yüksək təfəkkürün məhsulu kimi ortaya qoyulmuş bu əsərdə dil və ədəbiyyat tariximizə, xalqımızın soy-kökünün müəyyənləşdirilməsinə başdan-başa yeni baxış mövcuddur. Odur ki haqqında danışılmalı, münasibət bildirilməli məsələlər çoxdur. Əsər ensiklopedik xarakterdədir. Hər bir abzası düşündürücü məsələlərlə yüklənmişdir və yeni fikirlər oyadır.

Bunların hamısının haqqında fikir söyləmək imkanımız olmadığı üçün daha vacib bildiyimiz bir neçə məsələni qeyd etməklə kifayətlənəcəyik.

Etnogenez və dilimizin mənşəyi məsələsi hazırkı dövrdə mürtəce konsepsiyanın üstün hakim mövqeyi, həqiqi elmi konsepsiyanın küncə qısılmış vəziyyəti ilə son dərəcə mürəkkəbləşdirilmişdir. Xalqın etnik tarixi yanlış və zərərli bir «konsepsiya» əsasında izah edilir. Ona görə də dilimizin mənşəyi haqqında fikirlər köklü şəkildə yanlış olaraq qalır. Nizami Cəfərov konkret bir nümunə ilə bu «konsepsiya»nı ustalıqla ifşa edə bilmişdir. Akademik «Azərbaycan tarixi»nin I cildində (Bakı, «Elm», 1998) Azərbaycan xalqının etnik tərkibi, dilinin mənşəyi və inkişaf yolu barədə deyilir:

«Azərbaycan xalqının təşəkkülündə Manna, Atropatena və Qafqaz Albaniyasında məskunlaşmış müxtəlif, o cümlədən Qafqaz və İran dillərində danışan qədim dövr və orta əsrlərin tayfa və

xalqları – mannalılar, kaspilər, Atropatena madalıları, albanlar, azərilər və bir sıra digərləri əsas rol oynamışlar.

Azərbaycan xalqının, dilinin formalaşması etnogenezin son mərhələsində – orta əsrlərdə davam etmişdir». (33 – 34)

Fikir verin, çox aydın deyir: «Qafqaz və İran dillərində danışan». Deməli, cənublu-şimallı Azərbaycan ərazisinin əsas əhalisi Qafqaz (ləzgidilli) və irandilli tayfalardan ibarət olmuşdur. Deməli, bunlar öz etnik simasını itirərək sonralar türkləşmişlər. Xalqın və onun dilinin təşəkkül tarixi Nəsimini, Füzulini də nəzərə almır. Orta əsrlər eramızın III əsrindən başlayır və kapitalizmə qədərki dövrü əhatə edir. Orta əsrlər ilkin-başlanğıc, inkişaf və tənəzzül mərhələlərinə ayrılır. Verdiyimiz sitatda isə, heç olmasa, «ilkin orta əsrlər» də deyilmir. Hətta «orta əsrlərdə başa çatmışdır» da deyilmir, «davam etmişdir» deyilir. Deməli, kapitalizmə qədər nə Azərbaycan xalqı, nə də onun dili təşəkkül tapmışdır. Biz bu cür zərərli və qərəzli fikri hələ 2002-ci ilin iyul-avqust aylarında "Təzadlar" qəzetində geniş şəkildə ifşa etmişik (bax: "Dil, tarix, poeziya", Bakı, 2005, s.1766).

Keçmişdə dövlət aparatında ideoloji işlərə baxan olurdu və mütləq xalqın taleyüklü məsələləri nəzarət altında saxlanılırdı. Amma indi neçə cildlik rəsmi akademik tarixin müəllifi bu cür yazır, heç kim də dinib-danışmır. Azərbaycan tarixinə, Azərbaycanşünaslığın əsaslarına bundan güclü balta çalmaq olmaz. İndi N.Cəfərovun əsərinin yüzlərlə dəyərli şərhlərindən biri kimi, onun bu sözlərə münasibətini qeyd edirik. N.Cəfərov həmin sitatı verərək yazır: «Göründüyü kimi, bu «konsepsiya» Azərbaycan xalqının mənşəyi barədə hər cür volyuntarist nəzəriyyənin ortaya çıxması üçün münbit metodoloji şərait yaradır. Və bu «konsepsiya» yalnız səhv deyil, həm də mürtəcedir, xalqa öz keçmişini, etnik mənşəyini unutdurmaq «ehti- yac»ından irəli gəlmişdir».

«Xalqa öz tarixini unutdurmaq ehtiyacı», yumşaq şəkildə deyilmiş olsa, əslində, düşmənçilikdir.

N.Cəfərov bütün konseptual məsələlərdə öz fikri olan bir alimdir, bu cür məsələlərdə güzəştsiz və cəsarətlidir. Söhbət etnogenezdən gedir. Tarixçi adlananın əksinə olaraq, xalqın dilini, mədəniyyət və sosial tarixini heç bir mənafe güdmədən düzgün düşünən dilçi yazır: «III–V əsrlərdə Azərbaycan dili formalaşır, – bu pro-

ses türk tayfa dillərinin (birinci növbədə folklor dilinin) mərkəzləşməsi hesabına gedir; VII, XI əsrlərdə Azərbaycana gələn türk tayfaları artıq müxtəlif tayfalarla (yaxud tayfa birlikləri ilə) deyil, müəyyənləşmiş xalq mövcudluğu (və onun dili) ilə qarşılaşır – gəlmə mədəniyyətin qohum yerli mədəniyyətlə ehtivası tədricən gedir». (s.16–17)

Bu fikir təzə deyil. 60-cılar hərəkatının nümayəndələri – biz də daxil olmaqla, daim bu fikri təkrar-təkrar söyləmişik. Q.A.Qeybullayevin, Y.B.Yusifovun ardınca biz də bu tarixi Azərbaycan xalqının və onun dilinin həqiqi təşəkkül tarixi saymışıq. Lakin gənc və istedadlı həmkarımızın da öz analitik təhlilindən belə bir nəticəyə gəlməsi qiymətlidir və belə bir kitabda bu fikrin bir daha təsbit olunması həm Azərbaycan etnogenezinin, həm də Azərbaycan dilinin mənşəyinin müəyyənləşdirilməsi üçün əsaslı köməkdir.

Çox aydın söylənmişdir: III–V əsrlərdə Azərbaycan xalqı və ümumxalq Azərbaycan dili formalaşır. Və yenə çox aydın deyilmişdir: bu dövrdən, yəni V əsrdən sonra gələn türklər Azərbaycan ərazisində tayfalarla və ya tayfa dilləri ilə deyil, hazır xalqla və onun artıq təşəkkül tapmış dili ilə qarşılaşırlar. Və buradan o da hasil olur ki, XI əsrdə gələn səlcuq oğuzları Azərbaycanda Azərbaycan dili formalaşdırmayıb. Onlar gələndə artıq bu xalq və onun dili vardı (Vaxtilə Q.A.Qeybullayev də belə deyib, biz də daim bu cür düşünmüş və yazmışıq). Onlar yalnız bu hazıra havadar ola bilərdilər. Və, bəlkə, buna heç ehtiyac da yox idi. Beləliklə, bu fikir XI əsrdə gələn səlcuqlar tərəfindən Azərbaycan dilinin formalaşdırılması barədə kökündən yanlış olan konsepsiyanın put ağacını dartıb qoparmaqda bizə kömək edir.

Lakin bu nöqtədə çox mühüm bir məsələ vardır və bu mühüm məsələ gələcək tədqiqatların işidir.

Məsələ burdadır ki, N.Cəfərov Azərbaycanda türklərin görünməsini hunlarla bağlayır (və hunlardan qabaq nəzəri cəlb etməyən türk tayfalarından ibarət bilir) və eramızın I–V əsrlərində hunların ölkəmizə gəlişi ilə əlaqələndirir. III–V əsrlər arasında türk mənşəli ümumxalq Azərbaycan dilinin təşəkkülünü qeyd edir. Təşəkkül dövrü doğrudur və bu da bizim fikrimizə tamamilə müvafiqdir. Amma təbii olaraq onu da bilirik ki, iki-üç əsrin müd-

dətində gəlmə türklər aborigenləri bu qədər türkləşdirib yeni dil yarada bilməzdilər. Əgər hun-qıpçaqların gəlişini I əsrdən deyil, lap e.ə. III–II əsrlərdən də götürsək, bu, mümkün deyildi. Bu, bir də onunla ağla batmır ki, dilimizdə heç bir substrat elementi yoxdur.

Amma ümumxalq dilinin təşəkkül vaxtı düzgün müəyyən edilmişdir. Bütün bunlar məntiqi şəkildə söyləməyə əsas verir ki, türk mənşəli ümumxalq Azərbaycan dili gəlmə hun-qıpçaqların məhsulu deyil, çox qədimdən bu ərazidə sakin olan yerli türk tayfalarının hesabınadır və hun-qıpçaqlar onlara yalnız qüvvə vermişlər. (Bunun izahı üçün bizim «Azərbaycan dilinin tarixi» kitabına baxmaq olar).

Əsərin ümumiləşdirmə gücü böyükdür. N.Cəfərov ayrı-ayrı xırda faktların analizi yolu ilə getməmiş, hər bir yazısında ümumiləşdirmələr aparmışdır. Bu, dil tarixinə, etnogenez və mədəniyyət məsələlərinə yüksək hazırlıq tələb edən bir prosesdir. «Azərbaycan dili tarixinin metodoloji problemləri» adlı 4 - 5 səhifəlik yazı mənə Ə.Dəmirçizadənin «Azərbaycan ədəbi dilinin inkişaf yolları» əsərindəki böyük ümumiləşdirmələri xatırlatdı.

Əsər yüksək elmi səviyyəsi ilə seçilir və yüksək bir üslubda yazılmışdır. Müəllif mühakimələri inandırıcı dəlillərə söykənir.

Problemlər bütövlükdə ümumtürk kontekstində izah edilmişdir. Ona görə başqa türk xalqlarının etnik-mədəni inkişaf yolunun araşdırılması üçün də faydalı olar.

Əsərdə dil, etnogenez, tarix və kulturoloji məsələlər küll halında götürülmüş və kompleks şəkildə nəzərdən keçirilmişdir. Ona görə də ilk dəfə meydana çıxan belə bir əsər Azərbaycanşünaslığın kompleks şəkildə öyrənilməsi və tədrisi üçün geniş üfüqlər açır.

II minilliyin başlanğıcı türk aləmində M.Kaşğarinin «Divan»ı ilə şöhrət tapmışdır. Müəllifi təbrik edirik və arzu edərdik ki, III minilliyin başlanğıcı da bu cür əsərlərlə şöhrət tapsın.

12.11.2002

MÜRACİƏT BİLDİRƏN SÖZLƏR

Ədəbi dilimizin yazılı və şifahi qollarının hərtərəfli inkişaf etdiyi, çox mürəkkəb və rəngarəng fikirlərin hər cür ifadəsinə imkan verdiyi bir dövrdə dilimizdə ən zəruri, həyati məfhumların – hörmət və titul bildirən sözlərin olmaması hamını narahat edir. Ayrı-ayrı məhdud kollektivlərdə yeri düşdükcə bu barədə söhbətlər aparılsa da, məsələnin ümumxalq müzakirəsinə verilməsi akademik M.Qaşqayın xidmətidir. Hörmət və titul bildirən sözlər praktika ilə çox bağlı olduğundan bu sahədəki müzakirələri genişləndirmək və gücləndirmək, təklif və mülahizələri çoxaltmaq, ümumi rəyə gəlmək, ümumiləşdirmək vaxtıdır.

Lakin hörmət, müraciət bildirən münasib sözlərin seçilməsi, təcrübədən keçirilməsi, belə sözlərin vətəndaşlıq hüququ qazanması, ümumxalq tərəfindən anlaşılan işlək dil vahidlərinə çevrilməsi tez və asan başa gəlməz. Bu məsələlərdə yüz ölçüb, bir biçmək lazımdır.

Çətinlik nədədir? İlk növbədə oradadır ki, dilimizdə müraciət bildirən belə sözlər yoxdur, ona görə də bu münasibətlə hansı sözü işlətmək istəsək, əvvəlcə müəyyən cəhətinə – ya formasına, səs tərkibinə, yaxud da indiyə qədər özündə saxlamış olduğu mənasına görə və ya hər iki cəhətdən qəribə təəssürat yaradacaqdır. Çünki qulaqlar həmin sözə müraciət vasitəsi kimi işlətdiyimiz mənada alışmayıbdır. Digər çətinlik isə ondan ibarətdir ki, insanlar cins və yaş etibarilə fərqlidir. Belə sözlər seçilərkən nəzərə almaq lazımdır ki, həmin sözlər məktəbli qızlar və oğlanlar, gənc qızlar və gənc oğlanlar, orta yaşlı qadınlar və kişilər, nəhayət, yaşlılar-qocalar üçün münasib olsun, həm də bu qruplardan biri təkcə öz yaşıdlarına deyil, bu nəsillərin hamısına həmin sözlə müraciət edə bilsin.

Bəlkə, hər nəslə münasib söz seçmək lazımdır? Məsələn, qəzetlərdən birinin 2 noyabr 1968-ci il tarixli nömrəsində kişilər üçün hörmət əlaməti olaraq təklif edilən «qardaşım» sözünü məktəblilər və ya gənclər qocalara müraciətlə işlədə bilərmi? Yaxud, gənclər qocalara «cənab» – deyə müraciət etsələr, qocalar necə baxar?

Bunu da nəzərə almaq lazımdır ki, belə sözləri seçərkən oriji-

nal olmaq lazımdır, başqa xalqları təqlid etmək olmaz. SSRİ xalq artisti Niyazi qeyd edir ki, belə sözlər xalqın milli simasını da müəyyən dərəcə təzahür etdirməlidir.

Müzakirələrdə iştirak edən başqa yoldaşlar kimi, biz də qadınlara müraciətlə «xanım» sözünün işlədilməsi tərəfdarıyıq. Həm də sadəcə «xanım» yox, qadınlara «xanım», qızlara «xanım qız» deyə müraciət etsək, bu sözlər ədəbi dildə daha tez sabitləşər.

Kişilər üçün təklif olunmuş «bəy», «ağa», «qardaş», «cənab» sözləri, bizcə, dilimizdə çətin sabitləşə bilər. Bu sözlərin hər biri müəyyən cəhətdən qüsurludur. Məsələn, «bəy» çoxmənalıdır, bu mənalar içərisində ictimai təbəqə anlayışı güclü olduğundan bu sözü sovet dövrünü keçmiş adamlar arasında səmimi müraciət şəklində işlətmək çətindir. Bizə elə gəlir ki, bu söz səs tərkibi etibarı ilə də tələbə uyğun deyildir. Müraciət formalarını təcrübədən keçirdikdə hiss olunur ki, belə sözlər ən azı iki hecalı olsa, daha yaxşı olar. Bu, xüsusilə müqabildəkinin diqqətini cəlb etmək üçün vacibdir. «Bəy» sözünü işlətdikdə (süni surətdə) «ə» səsini uzun tələffüz etmək lazım gələrdi. Bu cəhətdən «ağa» sözü «bəy» sözündən münasibdir. Lakin bu sözün də ictimai məzmunu bizi razı salmır. «Cənab» sözünü isə heç işlətmək olmaz. Bu söz bizim xalqın ruhuna uyğun gəlmir. «Cənab» kapitalist aləminə daha çox yaraşır və biz də həmin sözü yalnız kapitalist ölkələrinin nümayəndələrinə müraciətlə rəsmi ifadə forması kimi işlədirik. Təklif olunan «qardaş» sözü səmimi sözdür. Lakin bu sözün hamı tərəfindən anlaşılan və zəruri bir məfhumu ifadə edən sabit mənası vardır. Buna görə də onu yeni, tamamilə fərqli mənada işlətmək çətin başa gələr.

Kişilərə müraciətlə «dədə» sözünü işlətmək olardı. Bu söz də təəccüb doğuracaqdır. Çünki bu sözün də çatışmayan cəhətləri var. Lakin bunun fərqi yoxdur, heç bir söz bu sahədəki tələbatı hamının razı qalacağı şəkildə ödəyə bilməyəcəkdir.

Əgər mənanı ifadə edə bilən tam yeni söz yaradılsa, həmin sözün forması qəribə səslənəcəkdir. «Dədə» sözünün kəsir cəhəti nədədir? Bu söz ədəbi dildə çox az işlənir, sadə danışıq dilində, dialekt və şivələrimizdə daha canlıdır. Əgər «bəy», «ağa», «cənab» sözləri daha rəsmi, qeyri-səmimilik ifadə edən sözlərdirsə, «dədə» sözündə, əksinə, səmimilik, yaxınlıq çox üstündür. Tanımadığımız

adama birdən-birə bu qədər səmimi müraciət çətindir. Müxtəlif nəsillər bir-birinə müraciətlə bu sözdən istifadə edə bilərlərmi? Qeyd etməliyik ki, bu söz tarixən ata, baba, böyük, dərvişlərin başçısı, rəisi, ***böyük dədə*** şəklində «ulu baba», ***dədələr, ozanlar*** şəklində «el biliciləri, el ağsaqqalları», nəhayət, Səfəvilər dövründə səfəvi şahzadələrinin tərbiyəçisi, tərbiyəçi kimi müxtəlif mənalarda işlənilmişdir. Canlı danışıq dilində «ata» sözünün sinonimi kimi işlənir. «Ata» sözü bu sözü ədəbi dildən sıxışdırıb çıxarmışdır. Lakin xalq bu sözü qoruyur. Kənd yerlərində «ata» əvəzinə «dədə» sözü daha fəaldır. Bundan əlavə, yaşlılar da (istər qadın, istər kişi) azyaşlı uşaqlara, hətta gənclərə də (istər yaxın olsun, istər olmasın) çox zaman bu sözlə müraciət edirlər. Məsələn: ***Dədə, bir az su gətir:*** Orta nəsil də: ***Dədə, kömək elə bunu götürək*** və s. Lakin gənc qız oğlana bu sözlə müraciət etməz. Beləliklə, bu sözün də çatışmazlıqları vardır.

Çətinliklərimizin bir səbəbi də budur ki, biz müraciət vasitəsi kimi «yoldaş» sözünü çox işlətmişik. Bu söz sovet dövrünə müvafiq idi. Amma indi arxaik çalara malik olsa da, pis söz deyil.

Daha yaxşısı hər kəsi öz adı ilə çağırmaqdır: professoru «professor», müəllimi «müəllim», həkimi «həkim», çobanı «çoban»... adı ilə. ***Qardaş, əmi, dayı*** sözlərindən də istifadə etmək olar. Amma gənclərin dilində yaşlı adamlara «ağsaqqal» sözü ilə müraciət indiki dövrdə bəzən kinayə çaları ilə xoşagəlməz təsir bağışlayır.

Şübhəsiz, bunlar da bir təklifdir. Daha uğurlu təkliflər də söylənilə bilər

Onu da qeyd edək ki, münasib sözlər seçməklə kifayətlənmək olmaz. Həmin sözləri mətbuat, radio, televiziya vasitəsilə təbliğ etmək lazımdır. «Həştad» əvəzinə «səksən», «nöqteyi-nəzər» əvəzinə «baxım» sözlərinin üstünləşməsində yaxşı mənada olan nəzarəti müraciət və hörmət bildirən sözlərə də aid etmək lazımdır.

1992

AĞAMUSA AXUNDOV: «DİL VƏ ƏDƏBİYYAT» İKİ CİLDDƏ. Bakı, 2003

Bu günlərdə dilçiliyimizin nailiyyətləri sırasına Azərbaycan Respublikası MEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Ağamusa Axundovun «Dil və ədəbiyyat» adı ilə çap etdirdiyi (Bakı, 2003) iki cildliyi daxil oldu. Cildlərdə Ağamusa Axundovun heç bir kitabında çap olunmamış, lakin əksəriyyət etibarilə ayrı-ayrı mətbuat orqanlarında ya tam şəkildə, yaxud da müəyyən ixtisarla dərc etdirdiyi, bir qismi ümumən ilk dəfə işıq üzü görən məqalələri toplanmışdır.

Keçmişdə bir neçə qəzet vardı, bir neçə də jurnal və onları barmaqla göstərmək olurdu. Özünün bir sıra məqalələrində xatırlatdığı kimi, indi təkcə qəzetlərin sayı 500-dən artıqdır. Qəzetlərin bir çoxu mərkəzi kitabxanalarda da tapılmır. Bunları fikirləşdikdə və cildlərdə toplanmış qiymətli məqalələri nəzərdən keçirdikdə deyirəm, Ağamusa müəllim çox yaxşı iş görüb. 50 ildən artıq bir müddətdə böyük yaradıcılıq yolu keçib, bu qədər zəhmət çəkib, bu qədər əsər yazıb. Dilçiliyimizin elə bir sahəsi yoxdur ki, o sahədə söz deməmiş, qələmini işlətməmiş olsun. Bunları insanlara çatdırmaq lazım idi. Həm də mübaliğə etmədən demək olar ki, Ağamusa müəllimin həyat yolu, xüsusilə son onilliklər Azərbaycan dilçiliyinin inkişaf yoludur. Yəni Ağamusa müəllimin fəaliyyət yolu elədir ki, onun işığında Azərbaycan dilçiliyinin bütün əsas nailiyyətləri görünür. Burada, heç şübhəsiz, onun Nəsimi adına Dilçilik İnstitutuna rəhbərliyinin də rolu böyükdür.

Məqalələr «Dil və cəmiyyət», «Nəzəri və müqayisəli dilçilik», «Türk dilləri», «Leksika və qrammatika», «Dil tarixi, dialektologiya və etimologiya», «Dilimizi öyrənənlər və öyrədənlər», «Ədəbiyyat və yazıçı dili», «Bədii tərcümə məsələləri» və «Müsahibələr»dən ibarət 9 bölmədə toplanmışdır. Kitabın əvvəlində müəllifin bir neçə kəlmə lik ürək sözləri, sonunda məqalələrin meydana çıxma tarixi haqqında qeydlər verilmişdir.

Ağamusa müəllimin dil qayğılarının əhatə dairəsi dilin fəaliyyət göstərdiyi bütün əsas sahələri əhatə edir. «Ana dili və dövlət di-

li», «ikidillilik və çoxdillilik», «ana dili və təhsil» kimi çox mühüm dil və cəmiyyət problemlərinin hazırkı vəziyyətinə bir neçə məqalə həsr etmişdir. «Sosiolinqvistik düşüncələr» məqaləsi bu cür mühüm problemlər ətrafında düşüncələrdən ibarət olub, qeyd edilən məsələlərə dair qarşıya çıxan suallara ətraflı cavab verir. Ana dilimizin dövlət dili kimi hüquqi (de-yure) və əməli (de-fakto) fəaliyyət imkanları və bu sahədə müstəqillik illərində qazanılmış nailiyyətlər, eyni zamanda, Azərbaycan dilinin dövlət dili kimi tam vüsətlə işlədilməsini əngəlləyən faktorlar məqalədə ətraflı araşdırılmışdır. Son dövrlərdə yaranmış şəhər reklam örtüyü xüsusi nəzərdən keçirilmişdir. Lakin müəllif xarici reklamların hamısına birmənalı yanaşmamış, bəşəri iqtisadi mühit yaradan terminoloji leksikanın faydasını da nəzərə almışdır. Buna görə də ***Sabko, Kent, Ramstorq, Qamel*** kimi firma və ya məhsul, ***Femida*** kimi qəzet adlarını istisna saymağın mümkünlüyünü də nəzərə almışdır. Bu gün üçün çox aktual olan radio və televiziya nitqinə xüsusi diqqət yetirmiş, loruluğa, şivəçiliyə meyil hallarını konkret nümunələrlə tənqid etmişdir. Bunlar sadəcə tənqid xatirinə tənqid olmayıb, radio və televiziya işçilərinə əməli kömək məqsədi daşıyır. Ağla gəlməyən mövzular Ağamusa müəllimin ağlına gəlir. Azadlıq radiosunun Azərbaycan diktorlarının nitq xüsusiyyətlərinə həsr etdiyi məqalə radionun ayrı-ayrı diktorlarının nitqindəki spesifik keyfiyyətləri dəqiq faktlarla sistemli şəkildə üzə çıxarmaq baxımından maraq doğurur.

İkidillilik (bilinqvizm) məsələlərini tarixi aspektdə nəzərdən keçirən müəllif keçmiş SSRİ məkanında rus dilinin, daha əvvəlki dövrlərdə ərəb və fars dillərinin milli dilimizə tarixi təzyiqini ətraflı araşdırmışdır. Bu nümunə əsasında dövlət dili ilə ölkə daxilindəki azsaylı xalqların dil əlaqələrini də öyrənmək olardı. Məqalələrdə ana dilinin təhsil dili kimi mühüm rolu ön plana çəkilmiş, dərsliklərin məktəbi, müəllim, şagird və valideynləri çətin vəziyyətdə qoyan qüsurlarının mühüm bir qismi dərslik müəlliflərinin diqqətinə çatdırılmışdır. Son zamanlar tüğyan edən mətbuat orqanlarında Azərbaycan dilinin təhrifi halları müəllifin diqqətini daha çox çəkmiş, bir sıra məqalələrini bilavasitə mətbuat dili problemlərinə həsr etmişdir.

Ağamusa müəllim ötən illərdə dilimizin adı ilə bağlı müzakirə-

lərdə daim mərkəzi mövqe tutduğu üçün yazılarında bu məsələyə daha çox qayıtmalı olmuş, «Azərbaycan dili» termin-ifadəsinin işlənmə tarixi, digər ifadələrdən fərqli hüquqi imkanları barədə dəfələrlə mətbuatda çıxış etməli olmuşdur («Azərbaycan Respublikasının dövlət dili», «Azərbaycan dili: dünən, bu gün və sabah», «Bir daha dilimizin adı haqqında» və s.) Müsahibələrində isə bu məsələdən daha çox danışmalı olmuşdur.

Bir dilçi kimi, Dilçilik İnstitutunun rəhbəri kimi, A.Axundov müstəqillik illərində əlifba, orfoqrafiya, ədəbi tələffüz məsələlərinin müzakirələrində həlledici rol oynamış, «Yeni layihə haqqında», «Yeni əlifbamız və onun problemləri», «Mütəxəssis sözü», «Bir daha apostrof haqqında», «Nə qazanırıq, nə itiririk», «Bir daha əlifba haqqında» kimi məqalələri ilə günün aktual məsələlərinə cavablar yazmış, cəmiyyəti düşündürən məsələlərə aydınlıq gətirmişdir; müsahibələrində yeni əlifbaya keçidin çətinlikləri, yaradacağı əngəllər, əlifbanın qüsurlu tərəfləri, yeni əlifbanın nəsillərə təsiri, orfoqrafiya məsələləri, apostrof və onun tarixi taleyi və s. haqqında saysız suallara cavab verməli olmuşdur. «Müzakirələrin yekunu: təkliflər və mülahizələr» adlı böyük yazısında (iyun 1999) «Azərbaycan dilinin orfoqrafiya qaydaları» layihəsinin mətbuat müzakirələri, göndərilən məktublarda söylənmiş bütün təklif və mülahizələr yekunlaşdırılmış, Azərbaycan Dövlət Dilinin Tətbiqi üzrə Hökumət Komissiyasının geniş iclasında respublika ziyalılarına məruzə edilmişdir. Təəssüf ki, o vaxtdan 4 ilə yaxın bir müddət keçməsinə baxmayaraq, orfoqrafiya qaydaları hələ də kütləvi şəkildə çap olunaraq əhaliyə çatdırılmamışdır.

Dövlət dilinin adı və apostrof məsələlərində Ağamusa müəllimin mövqeyi birmənalıdır – başdan-binadan «Azərbaycan dili» termininin hüquqi statusunun üstünlüyünü müdafiə etmiş, apostrof işarəsinin fonetik və orfoqrafik əsası olmayan bir element olduğunu göstərməyə çalışmışdır.

Birinci cildin «Nəzəri və müqayisəli dilçilik» bölməsində həm nəzəri, həm də praktik-əməli əhəmiyyəti olan məqalələr vardır. Məqalələrindən birində samit səslər əsasında qohum dillərdə səs uyğunluqlarının fonoloji modellərinin qurulması prinsiplərini müəyyənləşdirməyə çalışmışdır. Bu çox maraqlı məqalədə səs tellərinin iştirakına görə ***p – b, t – d, s – z, x – ğ*** və s. samit oppozi-

siyasından danışarkən müəllif bu qənaətə gəlir ki, «...qədimə getdikcə, samit uyğunluqlarının türk dillərində göstərilən tipi öz əhəmiyyətini itirir. Bu mənada pratürk dövründə kar samitlərin mövcud olduğunu göstərən amillərlə razılaşmaq çətindir, çünki bu, müəyyən dərəcədə fizioloji fonetikanın qanunları ilə də təzad təşkil edir». (1,194 –195) Fikrimizcə, əksinə, daha qədimlərə getdikcə kar samitlər üstünlük qazanmış olmalıdır. Çünki insanlaşma prosesində ibtidai insanın qırtlağı kar səslərin tələffüzünü daha asan icra edə bilərdi. Əgər müəllifin müşahidələri doğrudursa, onda bu, türk dillərinin təsəvvür edildiyindən daha qədim olduğunu və samitlərin karlaşıb-cingiltiləşməsi prosesinin bir neçə dəfə təkrar olunduğunu sübut edir. Bu hal mümkün və gerçəkdir: «Dədə Qorqud»un dilində bizim **t** ilə dediyimiz sözlərin **d** ilə yazıldığı və əksinə halın rəngarəng nümunələri vardır: ***turmışdı, tan*** (dan yeri), ***tağ*** (dağ), ***tar*** (dar), ***tatlu*** (dadlı), ***taş*** (daş, dış), ***toyırmaq*** (doyurmaq), ***tonatmaq*** (donatmaq, paltar geydirmək), ***toğurdı*** (doğdu) və s. Əksinə hal: ***dökmək*** (tökmək), ***dəpə*** (təpə), ***dəpələsün*** (təpələsin, toplasın) və s.

Fəlsəfi və qrammatik zaman kateqoriyalarının müqayisəli tədqiqi ilə bizim dilçilikdə ilk dəfə A.Axundov məşğul olmuşdur. Buradakı məqaləsini də həmin tədqiqatın davamı saymaq olar. «Kontrastiv fonetika və onun nəzəri dilçilik üçün əhəmiyyəti» məqaləsi qohum olmayan dillərin müqayisəli (tutuşdurma yolu ilə) öyrənilməsinin elmi-nəzəri və metodiki əsaslarını müəyyənləşdirməklə bu sahədə vüsət almış yaradıcılıq işlərinə kömək olacaqdır. Aydın olur ki, bu cür tədqiqat yalnız müqayisə-tutuşdurma xarakteri daşımır, Şarl Ballinin dediyi kimi, ana dilini gözlənilməz bir nurla işıqlandırır, onun tədqiq olunmamış, nəzəri cəlb etməmiş dərinliklərinə də işıq saçır. İngilis və Azərbaycan dillərində kəmiyyət kateqoriyasının tədqiqi, bədii dilin estetik xüsusiyyətlərinin üzə çıxarılması sahəsində yazıçı istedadının rolu, bu sahənin xüsusi yaradıcılıq işi olması barədə müəllif fikirləri maraqlıdır. «Fonoloji qeydlər» məqaləsində bizim dilçilikdə az diqqət yetirilən, özünün daha çox məşğul olduğu fonologiya ilə bağlı sırf elmi-nəzəri məsələlərə üz tutmuş, Moskva və Leninqrad fonoloji məktəblərinin təhlili əsasında Boduen-de-Kurtenenin məktəbinin Leninqrad davamçılarından L.V.Şerba, L.R.Zinder, M.İ.Matuse-

viç, Y.D.Polivanov, Moskva məktəbinin əsas nümayəndələrindən A.A.Reformatski, P.S.Kuznetsov, S.K.Şaumyan, S.İ.Bernşteyn və başqalarının gətirdikləri yenilikləri və onların əsas ideyaları arasındakı fərqli cəhətləri aydınlaşdırmışdır.

Kitabın «Türk dilləri» bölməsindən ortaq türkcə problemi, şəkilçi morfemlərin fonematik tərkibi, zaman və sıra kateqoriyalarının qarşılıqlı əlaqəsi, zaman şəkilçilərinin mənşəyi, türk xalqlarının təşəkkülündə böyük rolu olan qıpçaqların dünəni və bu günü, türk xalqları dillərinin, ədəbiyyat və tarixinin tədqiqi vəziyyəti və s. kimi çox mühüm türkoloji məsələlər barədə məlumat almaq olur.

Hazırkı dövrdə tarixi şərait ortaq dillərin olmasını daim bir zərurət kimi ortaya qoymuşdur. Məlumdur ki, ortaq dil anlayışı qlobal və regional olmaqla fərqlənir. Tarixi zərurət müstəqillik yoluna qədəm qoymuş və müstəqillik uğrunda mübarizə aparan türk xalqları üçün regional ortaq dilin zəruriliyini ortaya çıxarmışdır. Lakin bu məsələdə alimlər arasında yekdil fikir yoxdur. Üç əsas istiqamət nəzərə çarpır. Bəziləri ortaq türk dili dedikdə, türk dilləri əsasında yaradılacaq esperanto tipli yeni bir dil nəzərdə tuturlar; bir qismi əlifba, orfoqrafiya və terminologiyanı yaxınlaşdırmaqla belə bir istəyə çatmağın mümkün olduğunu söyləmişlər. Lakin bizim fikrimizcə, Ağamusa müəllim düz düşünür: ortaq türk dili kimi türk xalqlarından birinin dilini seçmək olar və bunu zaman özü yetişdirməlidir. Müstəqilliyin yenicə əldə edildiyi indiki dövrdə heç bir türk xalqında qısqanclıq yaratmaq olmaz. Amma əlifba, orfoqrafiya, terminologiya məsələlərini yaxınlaşdırmağın da heç bir zərəri olmazdı.

«Türk dillərində zaman və sıra kateqoriyalarının qarşılıqlı əlaqəsi» məqaləsi ***idi, imiş*** köməkçi sözləri ilə yaranan zaman formaları ilə felin xəbər şəkli əsasında formalaşan zamanın qarşılıqlı əlaqəsi kimi daim mübahisə doğuran mühüm bir məsələyə həsr olunmuşdur. Müəllif S.N.İvanovun «Türk qrammatikası kursu» (2-ci hissə, Leninqrad, 1977) əsərinə əsaslanaraq bu qənaətə gəlmişdir ki, sadə xəbər şəklində işin icra zamanı danışıq vaxtı ilə müəyyənləşir, indiyə, keçmişə və gələcəyə aid olur, ***idi, imiş*** köməkçi sözləri ilə formalaşan zaman isə sadə xəbər şəkli ilə ifadə olunan bütün hərəkəti keçmiş zaman müstəvisinə keçirir.

Türk dillərində zaman şəkilçilərinin mənşəyi ilə bağlı fikirlər çoxdur. Müəllif öz araşdırma və müşahidələrinə əsasən şühudi keçmişin şəkilçisini (***-dı***) qədim feli isim şəkilçisi ***-it*** ilə, ***-mış, -ac, -aq*** şəkilçilərini feli sifətlə, indiki zamanın ***-ır*** və qeyri-qəti gələcəyin ***-ar*** şəkilçilərini M.Ş.Şirəliyevə əsaslanaraq feli bağlama və ***turur*** sözü ilə (***-a turur***) əlaqələndirmişdir. Burada şübhə doğuran cəhət formalaşmadan əvvəl ***turur*** sözündə artıq ***-ır*** şəkilçisinin olmasıdır. Nəqli keçmişin ***-ıb*** şəkilçisində isə müəllif əksinə proses – zaman şəkilçisinin feli bağlama kimi məhsuldar mövqeyə keçməsini müşahidə etdiyini söyləmişdir.

«Leksika və qrammatika məsələləri» bölməsi dilimizin leksik və qrammatik xüsusiyyətlərinə həsr olunmuş elmi və elmi-metodiki məqalələrdən ibarətdir. İlk iki məqalə insan bədən üzvləri adlarının etimoloji təhlilinə həsr olunmuşdur. 100-ə qədər sözü əhatə edən insan bədən üzvlərinin adlarını müəllif: 1) etimoloji cəhəti xüsusi tədqiqat tələb edən; 2) etimoloji cəhəti üzdə olan və 3) ərəb, fars, rus və Avropa dillərindən alınmalardan ibarət olan sözlər kimi üç qrupa ayırmış, bunların içərisində daha maraqlı olan birinci qrupun etimoloji tədqiqi ilə məşğul olmuşdur. Birinci qrup sözləri müəllif maraqlı qruplaşdırma aparmaqla sonu ***ş*** (***baş, qaş***...), ***z*** (***göz, ağız***...), ***l (bel, qol***...), ***n*** (***alın, burun***...), ***q/k*** (***damaq, dodaq***...), ***r*** (***bağır, damar***...), ***ğa/xa*** (***qabırğa, onurğa***...) səsləri ilə bitən sözlər kimi 7 qrupa ayırmışdır; istisna təşkil edən və bu qrupların heç birinə daxil olmayan sözlər də (***bud, dəri, çənə, ovuc, omba***...) vardır. Şübhəsiz, müəllif düz düşünür – sonu eyni samitlə bitən sözlərin də hamısı eyni yolla yaranmamışdır və bu cəhətdən, məsələn, sonu ***q/k*** ilə bitənlərin özlərini də bir neçə qrupa ayırması hər bir sözün tarixi inkişaf yoluna real yanaşdığını göstərir. Bu məqalələrdə müəllif hələlik bütün bədən üzvləri adlarının deyil, ***baş, qaş, diş, döş; göz, üz, ağız, boğaz, diz, köks*** kimi çoxişlənən bədən üzvləri adlarının etimoloji təhlili ilə məşğul olmuşdur. Müəllifin fikirlərini geniş şərh etməyə imkan olmasa da, etimoloji izahın ağlabatan nəticələri olduğunu deməklə bunu da qeyd etmək istərdik ki, aydın olur ki, bu cür qədim sözlərin təhlili zamanı sözün daxil olduğu dil ilə, hətta həmin dilin aid olduğu dil ailəsi ilə də kifayətlənmək qeyri-mümkündür – nostratik nəzəriyyə əsasında əksər dil ailələrinə nəzər salmaq lazım gəlir. Məsələn, insan bədən üzvləri-

nin adlarından penis anlayışı şumer dilində ***kis*** şəklindədir və bizim bu gün xalq dilində işlənən sözdən yalnız metateza ilə fərqlənir. Yaxud ***göz*** sözündəki ***z*** rus dilindəki ***qlaz*** sözündə də vardır. Və ***qlaz*** sözündə rus tələffüzünə əsasən bizim dillə ***q~g*** uyğunluğu vardır; söz kökünə dilin inkişafı prosesində sonor səs artımı təbii sayılır. ***Qlaz – göz*** uyğunluğu nədəndir? Bəlkə, kontakt nəticəsidir? İngilis dilindəki ***eye***s (ayz) sözündə isə ***z*** səsi şəkilçi kimi ayrılır: ***eye-(e)s.*** Bu cür hallar tədqiqat dərinləşdikcə dil ailələrinin bir ulu dildən təcrid olunduğunu faktlaşdırır və axtarışların dairəsini genişləndirməyi tələb edir.

Müəllifin eyni bölməyə daxil etdiyi müxtəlif məqalələr dilçiliyimizin pillə-pillə necə inkişaf etdiyini də göstərir. Məsələn, «Feli sifətlər haqqında» məqaləsindən aydın olur ki, dilçiliyimiz o mərhələdə olub ki, müəllimlər elmi-nəzəri material məhdudluğundan feli sifətlə feldən düzələn sifətləri və feli sifətlərdə substantivləşmə prosesini fərqləndirməkdə çətinlik çəkmişlər. Ona görə də müəllif hələ 70-ci illərdə məktəbə kömək məqsədilə bir sıra elmi-metodiki məqalələr yazmışdır. «Vasitəli nitq haqqında qeydlər», yaxud «Azərbaycan dilində sual cümlələri» də bu cür məqalələrdəndir.

İkicildlikdə böyük bir bölmə dil tarixi, dialektologiya və etimologiya məsələlərinə həsr olunmuşdur. Müəllif «Kitabi-Dədə Qorqud»un dilinə dörd məqalə həsr etmişdir. A. Axundov da dastanların dilini dilimizin ən qədim abidəsi sayanların mövqeyindədir: «...dastanda təsvir olunan hadisələrin 1300 il və ondan daha əvvəllərə aid olması barəsində mövcud olan mülahizələr də ümumi vahid rəy kimi, demək olar ki, bütün görkəmli alimlər tərəfindən qəbul edilir». (1,334) Müəllif bir sıra fonetik, leksik və qrammatik xüsusiyyətləri nəzərdən keçirməklə dastanların VI–VIII əsrlərdə formalaşmış olduğunu qəbul edir. Bu, dilimizin tarixi üçün mühüm qənaətdir. Məqalələrdə problemlərin dairəsi genişdir: dastanların dilinə məxsus üslub özəllikləri, digər dastanlarımızdan fərqli olaraq bu dastanların daha qədim tarixlə səsləşməsi, dilinin dialekt və şivələrimizlə əlaqəsi, təkrarların, həmcinsliyin, cümlələrin rəngarəng intonasiya xüsusiyyətlərinin, xüsusən sual cümlələrinin, alqış və qarğışların dastanların dilində rolu, antroponimlərin, perifrastik fellərin poetik imkanları və s. müəllif

tədqiqatının əsasında durur. Ədəbi dilimizin təşəkkül və inkişaf yoluna xüsusi məqalə həsr edən müəllif bu inkişafı dilimizin ümumxalq dili əsasında inkişafı (XIII–XVII əsrlər) və XVIII əsrdən başlayaraq bu günə qədərki dövr kimi (milli mərhələ) iki mərhələyə ayırmış, bu mərhələlərin səciyyəvi əlamətlərini və tədqiqi tarixini nəzərdən keçirmişdir. Ə.Dəmirçizadədən başlayaraq bu sahə xeyli tədqiq olunmuş olsa da, dövrləşdirmə barədə hələ də yekdil fikir yoxdur və Azərbaycan ədəbi dilinin tarix etibarilə türk dilindən fərqli təşəkkül yolu, Yaxın Şərq aləmində rolu, dövrləşdirilməsi məsələlərinə yenidən baxılmalı olacaqdır. Müəllif özü də bunu etiraf edərək, bir tərəfdən Həsənoğluya əsaslanır, o biri tərəfdən, «Dədə Qorqud»un dilindən danışarkən: «Kitabi-Dədə Qorqud» dastanlarının dili ədəbi dil, daha doğrusu, şifahi ədəbi dil kimi qəbul edilərsə, bu gün xalqımızın ünsiyyət vasitəsi olan ədəbi dilin min ildən yuxarı yaşı olar» (1,365) deyir.

Bu bölmədəki ən mühüm əsərlərdən biri «Azərbaycan xalq cümhuriyyətində dil məsələləri»dir. Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyətinin ilk günlərində – 27 iyun 1918-ci ildə Dövlət dili haqqında qərar qəbul etmişdir:

«Dövlət dili haqqında.

28.Dövləti lisan türkcə qəbul edilərək, müvəqqətən hökumət müəssisələrində rus lisanı istemalına müsaidə edilməsi haqqında hökumət 27 iyun 1918-də qərar verdi.

Dövləti lisan türk dili qəbul edilərək irəlidə bütün məhkəmə, idareyi-daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökuməti müəssisələrdə rus dili istemalına da müsaidə edilsin». Qeyd etməliyik ki, dilçiliyimizdə ilk dəfə olaraq A.Axundov xeyli araşdırmalar aparmış, bu qərardan başlayaraq, parlament üzvlərinin nitq xüsusiyyətləri və rəsmi-dəftərxana sənədləri əsasında parlament dilinin geniş elmi təhlilini vermiş, zəngin dil faktları və nümunələr əsasında bir sıra ümumiləşdirmələr aparmışdır. Xalq dilinə, A.Şaiq, A.Səhhət kimi yazıçı və şairlərin lirik üslubuna yaxın çıxışlarla yanaşı, parlament üzvlərinin nitqində türk dilinə güclü meyil olduğunu müəyyən etmişdir. Bu sahə yeni tədqiqatlar üçün zəngin material verir. Məlum olduğu kimi, Azərbaycan parlamentinin ömrü çox da uzun olmayıb. O öz fəaliyyətini 1918-in 7 dekabrından başlamış, 1920-ci ilin 27 apre-

lində başa çatdırmışdır. Parlament bu müddət ərzində 140-a yaxın iclas keçirmiş və 300-dən çox qanun qəbul etmişdir. Bir neçə təntənəli və növbədənkənar iclas nəzərə alınmazsa, bütün yığıncaqlar işgüzar şəraitdə keçmişdir. A.Axundov yazır: «İlk Azərbaycan parlamentinin iclas protokollarının dili üzərində apardığımız müşahidələr onun haqqında aydın təsəvvür yaradır. Bu təsəvvür tam əsas verir deyək ki, Azərbaycan ədəbi dilinin rəsmi parlament üslubu ilk dəfə məhz Azərbaycan Demokratik Respublikasının fəaliyyət göstərdiyi dövrdə yaranmışdır». (1,377) Və yenə: «Parlamentin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi». Parlamentə gələn məktublar başqa dildə olduqda parlament sədrinin müavini Həsən bəy üzərində maraqlı bir dərkənar qoyurmuş: «Ərizə türkcə lisanda olmadığı üçün əncamsız qalır».

Məqalədə parlament nitqinin səciyyəvi fonetik, leksik, qrammatik xüsusiyyətləri də nəzərdən keçirilmişdir. Natiqlərin nitqində maraqlı xüsusiyyətlər müşahidə olunur. Parlamentin ilk iclasında milli şuranın sədri Məmməd Əmin Rəsulzadənin giriş nitqində ***yum*** sözü işlənmişdir: «Möhtərəm məbuslar! Azərbaycan Cümhuriyyətinin ilk məclisi-məbusanını açmaq ***yum*** səadəti, siz möhtərəm məbusları təbrik etmək şərəfinin öhdəmə düşməsi ilə müftəxərəm (alqışlar), əfəndilər».(1,379) Göründüyü kimi, «yum səadəti» xeyir-dua vermək mənasındadır və Dədə Qorqudun dilindəki ***yum verəyim*** ifadəsini xatırladır.

Ağamusa Axundovun məqalələri içərisində ənənəvi tədqiqatlardan fərqli, orijinal üslubda yazılmış əsərlər vardır. Belə əsərlərdən biri «Azərbaycan dili dialekt sistemlərinin formalaşmasının struktur təhlili təcrübəsindən» adlanır. Məqalədə iki bir-biri ilə əlaqəli mühüm məsələdən danışılır; 1)Azərbaycan dialektlərinin xalq dilinə və bir-birinə münasibəti; 2)Azərbaycan dialektlərinin qədim aborigen əhalinin dilinə münasibəti. Birinci məsələ ilə bağlı müəllifin gəldiyi nəticə belədir: «Deməli, ümumxalq dili olmadan Azərbaycan dilinin dialektləri və dialekt sistemləri də olmazdı. Beləliklə, Azərbaycan dilinin dialekt sistemləri ümumxalq dilinin dağılması nəticəsində yox, vahid ümumxalq dilinin təşəkkülündən sonra müstəqil dil sistemlərinin dialekt sistemlərinə keçməsi nəticəsində formalaşmışdır. Müxtəlif dialekt sistemlərin-

də və Azərbaycan ümumxalq dili sistemində mövcud olan ayrı-ayrı faktların təhlili də, qeyd etdiyimiz kimi, həmin fikrə gətirib çıxarır. Bu faktların məhz izomorf olmasından aydındır ki, dialekt sistemləri üçün ümumi olan cəhətləri ümumxalq dilində yox, o uzaq qohum dil sistemlərində axtarmaq lazımdır ki, orada müxtəlif dialekt sistemlərinin həmin faktlarının homomorf kökləri vardır». (1,416) Bu fikir tam mənası ilə doğrudur. Yalnız burada ümumxalq dili daxilindəki «dil sistemlərini» (sonralar dialekt kimi çıxış edən) tayfa dilləri kimi nəzərdə tutmaq lazımdır və şübhəsiz, müəllif də belə düşünür. Bu sistemin Azərbaycan dili tarixinə tətbiqi çox yaxşı nəticələr verə bilər.

İkinci məsələyə – dialekt sistemləri faktlarının aborigen əhalinin dilinə münasibəti məsələsinə gəldikdə müəllif aborigen əhalinin dilini «artıq ya yox olmuş», ya da «varlığını həmin kommunikativ sferada saxlamaqda davam etməyən» dilləri, başqa sözlə desək, şimalda qafqazdilli, cənubda irandilli əhalinin dilini nəzərdə tutur və bunun üçün 1958-ci ildə çap olunmuş «Azərbaycan tarixi»nin birinci cildindəki aşağıdakı fikrə əsaslanır: «Azərbaycanda da bir çox xalqların tarixində olduğu kimi, yerli əhalinin dilinin gəlmələrin dili ilə əvəzlənməsi baş vermişdir». (□□□□□□□ □□□□□□□□-□□□□□, □.I, □□□□, 1958, □.172) Bu fikir məlum konsepsiyaya aid fikirdir və MEA-nın buraxdığı son «Azərbaycan tarixi» kitabında (I c.,1998) bir qədər də qatılaşdırılmışdır. Bu konsepsiyaya görə, Azərbaycanın cənub hissəsinin əhalisi Midiya dövründə iranlılaşmış əhalidən ibarət olmuşdur, şimali Azərbaycan ərazisində isə qafqazdilli (ləzgidilli) əhali yaşamışdır. 1-ci minilliyin ortalarından türk tayfaları Azərbaycanda görünsə də, əsas axın səlcuqlarla başlamış və XI əsrdə səlcuqların, XIII əsrdə monqolların gəlişi ilə qafqazdilli və irandilli əhali öz dilini itirmiş, türk dili qalib gəlmişdir. Bu konsepsiya rus, İran, bəzi Hind-Avropa tədqiqatçılarının fikrinə əsaslanır və bir sıra Azərbaycan tarixçiləri də bunu özlərinə bayraq etmişlər. Ağamusa müəllim də həmin konsepsiyaya əsaslanaraq cənub ərazilərində – İranla sərhəd Lənkəran zonasında İran dil substratı, Zaqatala-Qax ərazilərində iber-qafqaz dil substratı axtarmışdır. Bu meyil nəticə verməz, çünki heç vaxt Şimali Azərbaycan ərazisində qafqazdilli əhali, az da olsa, üstünlüyə malik olmamışdır, Cənubi Azərbaycan ərazilərində isə son tədqi-

qatlar göstərir ki, türklər çox-çox qədimdən mövcud olmuş, gəlmə tayfalar onlara yalnız qol-qanad vermişlər, heç vaxt bu ərazidə nə iranlaşma, nə də yerli əhalinin türkləşməsi baş vermişdir. Türklər bu ərazinin əzəli sakinləri olmuşlar. Ona görə də biz birinci üsulun – dialekt sisteminin ümumxalq Azərbaycan dilini formalaşdıran türk tayfa dillərinə münasibəti məsələsinin faydalı istiqamət olduğunu yəqin edirik. Bu bizim əraziyə və bizim dilə münasibətdə belə olmalıdır. İkinci üsulun tətbiq olunduğu ölkələr də vardır.

A.Axundov bu bölmədə 30 ildən bəri işlədiyi, beş cilddə nəzərdə tutduğu Azərbaycan dilinin tarixi-etimoloji lüğətindən nümunələr vermişdir. Məlumat lüğətin quruluşu, tərtibi prinsipləri, nümunələrin seçildiyi əsas mənbələr və ixtisarlardan, nümunə kimi verilmiş A hərfilə başlayan 50 sözün izahından ibarətdir. Lüğət bütövlükdə çap olunarsa, dilçiliyimizdə böyük hadisə olacaqdır. Çünki bu lüğətdə sözün etimoloji cəhətindən, semantik imkanlarından başlamış bütün qrammatik xüsusiyyətlərinin əhatə edilməsi nəzərdə tutulmuşdur.

Birinci kitabın mühüm bir bölməsi «Dilimizi öyrənənlər və öyrədənlər» adlanır. Buradakı ***öyrənənlər*** sözü, təbii ki, praktik cəhəti deyil, elmi araşdırmaları, dilimizin tədqiqini nəzərdə tutur. Bu hissədə Ağamusa müəllim M.Hüseynzadə, M.Şirəliyev, Aydın Ələkbərov, Ələvsət Abdullayev, Abdulla Vəliyev, Müseyib Məmmədov, Musa Adilov, Zərifə Budaqova, Hadı Mirzəzadə, Təhminə Rüstəmova, Məmməd Tağıyev, Vasim Məmmədəliyev və başqa görkəmli alimlərimiz haqqında ürək sözlərini demiş, onların elmi xidmətlərini ümumiləşdirmiş, bir sıra hallarda onların ayrı-ayrı əsərlərini təhlil etmişdir. Alimlərin bir qismi – M.Hüseynzadə, M.Şirəliyev, Ə.Abdullayev, M. Adilov və b. haqqında iki, bəzən üç məqalə yazmışdır. Məlumdur ki, Bakı Dövlət Universitetinin tarixi böyükdür və onun filologiya fakültəsinin auditoriyalarında çox görkəmli alimlər dərs demişlər. «Filologiya fakültəsinin tarixi» məqaləsində elmin və tədrisin yüksəlişindən danışarkən alimlərimizin xidmətini bir daha nəzərdən keçirməli olmuşdur.

Kitabın ikinci cildi ədəbiyyatşünaslıq, yazıçı dili, tərcümə problemlərindən və müsahibələrdən ibarətdir. 35-ə qədər müsahibənin əksəriyyəti keçən əsrin 90-cı illərinə və son bir-iki ilə aiddir.

Müsahibələr «Azərbaycan gəncləri», «Xalq qəzeti», «Novruz», «Yeni Turan», «Maarifçi», «Yeni səda», «Müstəqil qəzet», «Bakı Universiteti», «Respublika», «Palitra», «İki sahil», «Elm», «Faktor», «Azərbaycan», «Mərkəz», «Zaman», «Təhsil» qəzetlərində, «Ana sözü», «Azərbaycan» jurnallarında çap olunmuşdur. Müsahibələr Azərbaycan dili haqqında 88-ci ildən sonra irəli sürülən dövlət qanunları ilə bağlı əsas müddəaları, dilimizin dövlət idarələrində mövqeyi, bugünkü vəziyyəti, əlifba, orfoqrafiya, terminologiya, dilimizə dövlət qayğısı, Azərbaycan dilçiliyinin inkişaf vəziyyəti və s. kimi çoxsaylı məsələləri əhatə edir. Eyni zamanda, bu məqalələrdən A.Axundovun özünün çoxsahəli yaradıcılıq fəaliyyəti, dilimizin fonetik sisteminin tədqiqi sahəsində xidmətləri, yaradıcılıq planları barədə məlumat alırıq. Məqalələrdə mətbuat dili, radio və televiziya nitqinin inkişaf meyilləri, ziyalıların və diktorların nitq xüsusiyyətləri, Azərbaycan dilinin mənşəyi, dilçilikdə yeni sahələr və həmin sahələr üçün kadr hazırlığı problemləri, Azərbaycan dili ensiklopedik lüğətinin hazırlanması vəziyyəti, dilimizin adı və bu adın tarixi, Azərbaycan dilinin türk dilləri ailəsində yeri, ortaq türk dili problemi, ana dilinin ali və orta məktəblərdə tədrisi vəziyyəti, məktəb dərslikləri və onların əsas qüsurları, əlifbanın dəyişilməsi ilə bağlı çətinliklər, keçmiş nəşrlərin gələcəyi kimi son dərəcə ciddi mövzulardan adi məişət qayğılarına qədər saysız məsələlər əhatə olunmuşdur. Maraqlıdır ki, bir çox suallar təkrar-təkrar səslənsə də, Ağamusa müəllim daim öz mövqeyində sabitdir və tərəddüdlər müşahidə olunmur. Bütün bunlar onun, xüsusən müstəqillik illərində nə qədər ictimai bir adam olduğunu aydın göstərir. Bu müsahibələri oxumaqla 90-cı illərin dil və dilçilik problemləri, bir çox sosial-ictimai hadisələrlə ətraflı tanış olmaq olar və bunlar gələcək nəsil üçün daha faydalı olacaqdır.

60-cılar nəslinin görkəmli nümayəndələri, xüsusən də Ağamusa Axundov bir filoloq kimi, yalnız dilçilik məsələləri ilə deyil, bilavasitə ədəbiyyat və ədəbiyyatşünaslıq, ədəbi tənqid məsələləri ilə də ardıcıl maraqlanmış, həm ədəbiyyat tariximizin klassikləri, həm də ədəbiyyatımızın bugünkü yaradıcıları barədə ardıcıl fikir söyləmişdir. 30-dan artıq məqaləsində M.Füzuli, M.F.Axundov, C.Cabbarlı, M.Müşfiq, Ə.Cavad, M.İbrahimov, B.Vahabzadə,

İ.Əfəndiyev, N.Xəzri, C.Novruz, Anar, M.Araz, İ.Coşqun, G.Hüseynoğlu, T.Bayram, H.Orucov, Ş.Xanlarov, N.Mirzəxanlı, B. Nəbiyev, Mir Cəlal, M. Cəfər, A.İmanquliyeva, Urqiyyə xanım, S.Əlizadə və başqa alim və sənətkarlarımızın haqqında araşdırmalar aparmış, bir sıra yeni pyeslərin ilk səhnə təcəssümü, bir sıra kitabların ilk dəfə işıq üzü görməsi, bir sıra yazıçı və alimlərimizin yubiley təntənələri, bir sıra dostların vida mərasimləri və s. ilə bağlı ürək sözlərini söyləmişdir. Söz ustalarının bir qisminin yaradıcılığına dönə-dönə qayıtmış, məsələn, N.Xəzri haqqında dörd, Cabir Novruz haqqında üç, Şükür Xanlarov haqqında iki dəfə mətbuatda çıxış etmişdir.

Ağamusa Axundovu bir dilçi kimi, tərcümə dili problemləri xüsusi maraqlandırmış, bu barədə bir silsilə məqalə yazmış, orijinaldan – fars, ingilis, rus dillərindən birbaşa tərcümələri yüksək qiymətləndirməklə yanaşı, onların ciddi qüsurlarını da göstərmişdir. Bu cəhətdən R.Həmzətovun «Mənim Dağıstanım» əsərinin tərcüməsi barədə müəllifin fikri diqqəti daha çox cəlb edir. Biz müəllifin o fikirləri ilə tam razıyıq ki, tərcüməçi tərcümə üçün seçdiyi əsərin dilini – xarici dili yaxşı bilməklə yanaşı, ana dilinin incəliklərinə dərindən bələd olmalıdır.

Ağamusa müəllimin üslubunu səciyyələndirən əsas cəhətlər nədir? Nəzərə çarpan ilk ən mühüm cəhət bundan ibarətdir ki, yeni və orijinal mövzular tapmaqda ustaddır. Müqayisəli (qarşılaşdırıcı) dilçiliyin mühüm xüsusiyyətlərindən biri odur ki, ana dilini yad bir dil ilə müqayisəli öyrəndikdə ana dilinin görünməyən tərəflərini görmək olur. Rus, ingilis, fars dillərinə bələd olduğu üçün Ağamusa müəllim tədqiqat prosesində dildə yeni keyfiyyətlər görmə imkanına malikdir. Üslubunun başqa bir səciyyəvi keyfiyyəti araşdırma üçün seçdiyi mövzudan kənara çıxmadan, həmin mövzunun konkret həllini başa çatdırmaqla məsələni ustalıqla yekunlaşdırmaqdan ibarətdir. Ona görə də məqalələri həcm etibarilə əksərən yığcam və oxunaqlıdır. Əksərən arqumentləri konkret dəlillərə əsaslanır. Günün tələblərinə cavab verən, real həyatla səsləşən, nəzəri və praktik cəhətdən aktual mövzulara daha çox müraciət edir. Məsələlərin həllində soyuq məntiq emosional-hissi keyfiyyətlərdən üstündür. Mövzu dairəsi son dərəcə genişdir – fonetika, leksika, frazeologiya, morfologiya, sintaksis, etimologiya,

ümumi dilçilik, dil tarixi, dialektologiya, müqayisəli dilçilik, əlifba, orfoqrafiya, dil mədəniyyəti, ədəbi tələffüz, terminologiya, ana dilinin saflığı, ədəbi dil, bədii dil, üslub məsələləri və s. Bu sahələrin hamısına dair bu və ya digər şəkildə bu iki kitabda yeni fikirlər, orijinal mülahizələr vardır. Gəzmədiyi ölkə (Almaniya, Fransa, Çexiya, Macarıstan, Yaponiya, Əlcəzair, Türkiyə, İran...), Azərbaycan dili və dilçiliyini təbliğ etmədiyi şəhər (Bakı, Moskva, Sankt-Peterburq, Tbilisi, Daşkənd, Almatı, Düşənbə, Aşqabad, Bişkək...) azdır.

Biz bu kitabları nəzərdən keçirdik və bir daha belə bir qənaətə gəldik ki, Azərbaycan MEA-nın müxbir üzvü, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, professor Ağamusa Axundov həqiqi mənada böyük və səmərəli yaradıcılıq yolu keçmişdir. Təkcə bu kitabları filoloji fikir tariximizdə şöhrətli yeri üçün kifayət edərdi...

10.08.2003

RASİM QARACA İLƏ BALACA BİR DİL SÖHBƏTİ

Bu günlərdə «Bakı–Xəbər» qəzetində Rasim Qaracanın «Nə danışırsan?» başlıqlı yazısını oxudum (15 – 16 iyun, № 134). Məqalə xoş məramla, xoş arzu və istəklə yazılmışdır. Bu çətin dövrdə, türkün düşməninin ayaq tutub yeridiyi bir zamanda gənclərimizin ana dilinə sevgisi gələcəyə inam və yaxşı duyğular yaradır.

Məqalədə müəllifi narahat edən bir sıra məsələlər var ki, onlara münasibətimi bildirmək istərdim.

Hörmətli Qaraca! Məqalənizin ilk cümlələrində bir anlaşılmazlıq var. Qeyd olunur ki, qəzetin əvvəlki nömrələrindən birində məqaləniz dərc olunub – bu, aydındır. Lakin sonrakı cümlənin məntiqini tutmaq olmur: «Həmin (yəqin ki, çap olunmuş – *Q.K.*) məqalənin əlyazmasını redaksiyaya gətirdiyim zaman istər redaktorun, istərsə də burada çalışan əməkdaşların bir iradı ilə rastlaşdım». «Gətirdiyim zaman» birləşməsi məqalənin çapından, hətta redaksiyada oxunuşundan əvvəlki zamanı bildirir. Lap tutaq ki, gətirmisiniz və tanış olublar. İradları varsa, nə üçün islah

etmirlər? Belə çıxır ki, iradlarını qeyd ediblər, amma məqaləyə toxunmayıblar. «Çoxlu» türk kəlmələri» işlədirsən», «türk dili məsələsi bir az həssas məsələ imiş» ifadə və cümlələrində hansı türk dilindən söhbət getdiyi bilinmir. Öz dilimiz nəzərdə tutulursa, bu, nahaq söhbətdir. Osmanlı türklərinin dilindən söhbət gedirsə, düz deyirlər və hətta bu məqamda «çox» sözü də artıqdır – ana dilində danışanda, yazanda başqa dilin elementlərindən istifadə etmək düz deyil – əgər bir çıxarış verilmirsə.

Dilimizdə ərəb və fars sözlərinin çox olduğunu qeyd edirsiniz. İşlətdiyiniz bir neçə cümlədə sözlərin düz yarısının ərəb və fars mənşəli olduğunu göstərir və yazırsınız: «...84 kəlmədən nə az, nə çox, 42-sinin (!!!) ana dilimizdə olmadığını görə bilərsiniz». «Ana dilimizdə olmadığını» yox, demək istəyirsiniz ki, onlar türk mənşəli deyil. Düz müəyyən etmisiniz, bizim dilin lüğət tərkibindəki sözlərin yarı faizi alınmadır. İngilis dili lüğət tərkibinin 70 faizi alınmadır. Hamı bilir ki, saf dil yoxdur. Demirəm ki, bu, öyünməli məsələdir. Amma nəzərə almalıyıq ki, bu sözlər dilimizin fonetik quruluşuna müəyyən dərəcə uyğunlaşıb, xalq tərəfindən mənimsənilib və artıq bizim dilin lüğət tərkibinə daxil olub.

Aşağıdakı sözləriniz Azərbaycan dilinin indiki vəziyyəti haqqındadır: «Əsas etibarilə ərəb və fars kəlmələrilə ağırlaşmış bir dil ki, gəlin etiraf edək, artıq çevikliyini itirib, öz içərisində boğulub, əsla canlı sayıla bilməz». Bu fikirlərin heç biri haqqında etiraf yox, heç düşünməyə belə ehtiyac yoxdur. Dilimiz hər cür çeviklik imkanlarına malikdir. Siz götürün Mövlud Süleymanlının yel qanadlı hekayələrini oxuyun, İlyas Əfəndiyevin (bir qədər əvvələ aid olsa da), Sabir Əhmədovun, Əkrəm Əylislinin, İsi Məlikzadənin, Əlisəfa Məmmədovun nəsr əsərlərinə baxın. Sabir Əhmədov qısa və çevik cümlələrlə görün nələr yaradıb. Hər bir cümlənin üzdə olan mənasından fərqli olaraq, dərin qatlarda gizli mənaları dilin zənginliyinə heyrət doğurur. Dili işlətmək lazımdır. Azərbaycan dili sovet dövründə (bəyənib-bəyənməməkdən asılı olmayaraq) hədsiz dərəcədə cilalanıb. Dilimiz şikayət üçün heç bir əsas vermir. Hardan ağlınıza gəlir dilimizin boğulmağı, canlılığını itirməyi?

«İstəsək də, istəməsək də, o (yəni dilimiz – *Q.K.*) daha böyük mədəniyyətlərin daşıyıcısı olan daha güclü dillərin içərisində əriy-

ib itəcək, məhəlli bir dil olub gedəcək. Bunun bir örnəyini bu gün biz rus dilinin heç bir basqı olmadan ana dilimizi sıxışdırması hadisəsində görə bilərik». Mən bu fikirləri doğru saymıram. Belə bir nəzəriyyə var ki, Yer üzündə bir vaxt vahid bir ulu dil olduğu kimi, gələcəkdə də dillər inteqrasiya yolu ilə vahid dilə doğru inkişaf edə- cəkdir. Bunun üçün əvvəlcə zonal dillər yaranmalı, sonra onların arasında ümumiləşmə baş verməlidir. Lakin bu dil nə rus, nə ingilis, nə türk və nə də çin dili olacaqdır. Həmin fikrə görə, bu dil dünya dillərinin, indiki dillə desək, ən «önəmli» xüsusiyyətləri əsasında formalaşmış olacaqdır. Bu söhbət uzaq gələcəyin işidir və necə olacağını, bəşərin özünün taleyinin nə ilə qurtaracağını heç kəs bilmir. Konkret olaraq öz dilimizə gəldikdə, ona görə qorxu yoxdur ki, Azərbaycan dili Yer üzərində çox geniş yayılmış türk dilləri ailəsinə daxildir və bu dilləri məhəlli dillərə çevirmək olmaz. Dil öz axarı ilə gedir. Daha çox xalqın, ölkənin müstəqilliyini qorumaq lazımdır. Müstəqillik olduqca ana dilinin qorxusu yoxdur və bu bir həqiqətdir ki, indi ziyalılarımız xalqa münasibətindən fərqli olaraq, xalq dilinə münasibətdə möhkəm milli keyfiyyətdə tərbiyə olunmuşlar. Rus dilinə gəlincə, özünüz də deyirsiniz ki, bu sahədə «heç bir basqı» yoxdur – rus dili artıq alınmalar mənbəyi kimi rolunu itirmişdir və beş-üç adamın, ailənin könüllü rus dilini ana dilindən üstün tutması onların öz vicdan işidir və xalq belələrindən bir şey itirməz.

«Hadisələrin inkişafını bir neçə dəqiqədən sonra seyr edə bilərsiniz» cümləsində «inkişaf» sözü, keçmişdə deyildiyi kimi, sizə çox «tuhaf» görünür. «İnkişaf» sözü elə də qaba söz deyil. Düzdür, bu cümlədə onu «gediş» sözü ilə əvəz etmək olardı – «hadisələrin gedişi» şəklində, lakin həmin sözü sizin təklif etdiyiniz «gəlişmə» sözü ilə heç əvəz etmək olmaz. Quramadır. «Müvəffəqiyyət» yerinə «uğur» işlədirik (çünki ***uğur*** sözü dilimizdə həmişə işlənib), amma «ziddiyyət» əvəzinə «çəlişki», «təəssürat» yerinə «izlənim», «təzahürat» yerinə «göstəri» işlətsək, ana dilimiz heç nə qazanmaz, əksinə, itirər. Bu sözlər daha çox elmi üsluba aiddir, geniş kütlə ***təəssürat, təzahürat*** sözlərini o qədər də işlətmir (*təzahürat* sözü elmi üslubda da az işlənir). Lap savadsız adamlar da *inkişaf* sözünü bilir və işlədir – «Bu ağac heç inkişaf eləmir». Millətə demək olmaz ki, sən bildiyin *inkişaf* sözünü at, *gəlişmə* işlət.

«Ortaq türk dili» söhbəti edirsiniz: «Sovet basqısı altında lorulaşmış lokal Azərbaycan dili yerinə Güney-Quzey Azərbaycan və Türkiyə də daxil olmaqla, yüz milyondan artıq bir nüfuza xitab edən bir «Ortaq Türkce»...» (cümlənin ardını yaxşı anlamadığım üçün ixtisar etdiyimə görə üzrxahlıq edirəm), – demək istəyirsiniz ki, pis olmaz. Sizin neçə yaşınız olduğunu bilmirəm, mən ömrümün 50 ilini Sovet dövründə yaşamışam. Sovet dövründə dili lorulaşdırmağa imkan verilmirdi. Dilimiz son dövrlərdə lorulaşdırılır. Qaldı, Güney Azərbaycanı – onların dili ilə bizim dilimiz birdir və bunun üçün ortaq dilə ehtiyac yoxdur. Dilimiz Sovet dövründə rəsmi sənəd üslubu istisna olmaqla, hər cəhətdən yüksək inkişaf yolu keçmişdir, lakin Güney Azərbaycanında ana dilində təhsil olmadığından, mətbuat zəif olduğundan əhalinin dili fars dili sintaksisi ilə korlanmaq üzrədir və çox zəif inkişaf edir. Biz ora da baxmalıyıq, lakin ilk növbədə 40 partiyası olan 8 milyonluq əhalini ağ günə çıxarmaqla. Türkiyəyə gəldikdə, biz o türklərin dilini, onlar da bizim dili başa düşür və bunun üçün «ortaq dil»ə ehtiyac yoxdur. Ortaq türk dilini bütün türk dilləri üçün fikirləşirlər ki, bu da bizim fikrimizcə, hələlik real söhbət deyil.

Yenə bir mühüm məsələ: «Türkiyə dövlətinə və onun siyasətinə qarşı bir bəyənməzliyiniz varsa, elə öz düşüncələrimizdə də qalaq, ancaq onun təkcə özü üçün deyil, elə bizim üçün də həyata keçirmiş olduğu yaxşı təcrübəni nə üçün mənimsəməyək?» Siz bu sözləri o məqamda deyirsiniz ki, dili təmizləməkdən, alınmaların bir qismini dildən çıxarıb türk mənşəli sözlərlə əvəz etməkdən söhbət gedir. Bəli, türklər belə bir təcrübə ediblər, xalqın işlətdiyi saysız sözləri qurama və ya arxaik türk sözləri ilə əvəz ediblər. Nəticəsindən xəbəriniz var? Uzun danışmamaq üçün Atatürkün minnətdarlıq hissi ilə xatırlatdığı Ziya Göyalpın aşağıdakı sözlərinə diqqət yetirmək kifayətdir:

«Türkiyenin Milli lisanı İstanbul türkcesidir; buna şüphe yok! Fakat, İstanbulda iki türkce var: Biri konuşulup da yazılmıyan İstanbul lehcesi, digeri yazılıp da konuşulmıyan Osmanlı lisanıdır. Acaba, Milli lisanımız bunlardan hangisi olacaktır?

İstanbulda gördügümüz bu ikilik lisanı bir hastalıkdır. Her hastalık tedavi edilir. O halde, bu hastalığın da tedavisi lazımdır...

Bu iki şıktan birincisi mümkün degildir; çünki İstanbulda ya-

zılan lisan tabii bir dil degil. Esperanto kibi süni bir dildir... bu Osmanlı Esperantosu nasıl konuşma dili olabilsin?... O halde yalnız bir şık kalıyor: Konuşma dilini yazarak yazı dili haline getirmek!» (Ziya Gögalp. «Türkçülügün esasları», «Varlık» Yayınevi, Ankara, 1955, s. 72–73)

Elə bilirəm, bu sözləri izah etmək artıq olar.

Azərbaycan dilinin hazırkı vəziyyəti barədə qorxu yoxdur. Mətbuat dilinə diqqəti artırmaq və imkan daxilində dilimizin tarixini tədqiq edib öyrənmək lazımdır.

Hörmətlə:
Qəzənfər KAZIMOV,
professor
15.06.2004

III
ƏDƏBİ DİL, BƏDİİ DİL, TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

BƏDİİ ƏDƏBİYYATDA XÜSUSİ ADLARIN KOMİK TƏBİƏTİ

Bədii əsərlərdə obrazlara ad vermə, familiya və ləqəblərin seçilməsi asan məsələ olmadığı kimi, xüsusi adların, rütbə, titul bildirən sözlərin hərtərəfli tədqiqi də ciddi araşdırmalar tələb edir. Akademik V.V.Vinoqradovun qeyd etdiyi kimi, bu mövzu «…bədii ədəbiyyat üslubiyyatının çox böyük və mürəkkəb mövzularındandır».

20–30-cu illər nəsrində xüsusi adlardan komizm vasitəsi kimi istifadənin bir neçə üsulu müşahidə olunur.

1.Satira ustalarımız komik effekt yaratmaq üçün adların etimoloji cəhətinə xüsusi diqqət yetirmiş, adın obrazın təbiətinə uyğunlaşdırılması prinsipindən geniş istifadə etmişlər. Əslində, tənqidi realistlərin ənənəsi ilə bağlı olan bu cür adları e t i m o l o j i- s i m v o l i k adlar adlandırmaq olar. Bu cür adlar Mir Cəlal nəsrində daha çox nəzəri cəlb edir. Ə.Haqverdiyev mənasız tamaşanın aktyorunu ***Qudurğanov*** adlandırdığı kimi, Mir Cəlal da ifşa etdiyi tiplərdən birini ***Keçiyev***, insanları sənəd və anketlərlə qiymətləndirən tipi ***Anket Anketov,*** insanların iclas üçün yaranmış olduğunu güman edən tipi ***İclas qurusu,*** zahiri və daxili-mənəvi cəhətdən çox çirkin olan «mərkəz adamını» ***Əntərzadə*** adlandırmışdır. Yeni quruluşun və yoxsul kəndlilərin əleyhinə olub, varlı İman kişiyə qulluq göstərən kəndli surətini S.Rəhman qəsdən ***Anasoğlu*** (anasının oğlu) adlandırmış və bu yolla onun ictimai-siyasi dönüklüyünə münasibətini bildirmişdir.

Yazıçılarımız bəzən etimoloji adlardan istifadə edərək, obrazın sinfi mənsubiyyətini komik yolla əks etdirmişlər. Qadınların öz çadralarını atmasından, yeni əlifba qəbul edilməsindən qəzəblənərək Ağamalı oğluna hədə məktubu yazdıran Sara bibi (Qantəmir, «Sara bibi») məktubun altında öz imzasını «Sara xanım Muradbəyova Xudayar xan qızı» şəklində yazdırmaq istəyir, hazırkı quruluşda ***xanım, bəy, xan*** sözlərinin onun xeyrinə olmayacağını dedikdə, əsəbiləşir, «bəy» və «xan» sözlərindən əl çəksə də, ***xanım*** sözündən əl çəkməyəcəyini bildirir.

Bəzən etimoloji adlardan müsbət obrazları adlandırmaq üçün də istifadə edilir. Mir Cəlalın «Nanənin Hünəri» hekayəsində Nanə arvad, həqiqətən, nanə yarpağı tək xoş təsir bağışlayır, onun oğlu Hünər qadınlara kömək etməklə xüsusi hünər göstərir. Bu cür hallarda etimoloji adlar təbəssüm doğurur.

2.Xüsusi adların komizmi bəzən a n l a ş ı l m a z l ı q texnikası ilə bağlı olur və bu cür anlaşılmazlıq daha güclü komik effektə səbəb olur. Qantəmirin «Düzəlmədi», «Mirzə Aves», S.Rəhmanın «Cənnət xuliqanı» və başqa hekayələrində bu üsulun maraqlı nümunələrinə rast gəlirik.

«Düzəlmədi» hekayəsində Məhəmmədəli Əliqulu oğlu evini girov qoyub, dövlətdən borc götürmək və inək almaq istəyir. Məlum olur ki, sənədlər düz deyil; adının bir hissəsi olan «Əli» sözü

sənəddə yazılmayıb və pasportla sənədlər uyğun gəlmir. Məhəmmədəli Əliqulu oğlu heç kəsi başa sala bilmir, idarə müdirini vəziyyətlə tanış etmək istədikdə daha da əsəbiləşdirir. Buna baxmayaraq, o, təkrarən fikrini aydınlaşdırmağa çalışır: «Qoy mən səni başa salım: orada iki Əli olasıdır. Biri mənim ayağımda, o biri də atamın başında. Mənim ayağımdakı Əli qələmdən düşüb, yazılmayıb, götür ayağımın Əlisini köçürt bir kağıza, ver əlimə». Ərəb əlifbasının xarakterinə bələd olmayan və müsəlman aləmində «Əli»nin xüsusi ad kimi hüdudsuz işlənmə imkanlarından xəbərsiz olan idarə müdiri: «□□□ □□□□□ □□□ □□, □□□ □□? □□□□□□ □□□□ □□□□ □□□ □□□ □□□? □ □□ □□□□□□□!» deyə Əliqulu oğlunu məyus yola salır.

«Mirzə Aves» hekayəsində gənc Sovet hökumətinə böhtanlar yaymaqla məşğul olan Müsyo Qamel müxbirin göndərdiyi ərəb əlifbası ilə rusca yazılmış mətni oxuyarkən bir nöqtədə ilişir və həmin hissəni «to Mirzə Aves» kimi oxuyur və belə bir şəxs adının burada nə üçün işlənmiş olduğunu mənalandıra bilmir. Bir müddət Rusiyada olmuş çayçı Mirzə Heydər ona kömək edir. Hekayə Mirzə Heydərin sözləri ilə bitir və əslində, müəllif onun dili ilə Qamelin rəzilliyini üzünə deyir. Mirzə Heydər Qamelin çətinlik çəkdiyi nöqtəni belə izah edir: «-To Mirzə Aves» deyil, müsyo Qamel, «tı merzavets»dir».

Xüsusi adlardan anlaşılmazlıq manerası əsasında istifadə bəzən şən komik kalamburların yaranmasına səbəb olur. Bir yerdə dustaq olmuş Molla Şirəli ilə Cəlilbəy küçədə rastlaşırlar. Mollanın kefi kökdür, Cəlilbəy isə yeməyə çörək tapmır. Cəlilbəy özünü tanıtmaq və molladan bir şey qoparmaq istəyir:

«- Məni tanımadın, Şirəli? Diqqətlə bax gör kiməm?»

Molla Şirəli Cəlilbəyi səsindən tanıdı… ancaq özünü tanımazlığa vurdu. Arvadlar şübhələnməsinlər deyə, Molla Şirəli bərkdən səsləndi.

– Əleykəssəlam, ey ***Məhəmməd ümməti!***

– Ədə, mən ***Məmməd Hümmətov*** deyiləm. Cəlilbəyəm ey! Tanımadın?» (S.Rəhman, «Cənnət xuliqanı»)

3.Bəzən yazıçılarımız komik effekt yaratmaq üçün xüsusi adların etimoloji cəhətinə deyil, səslənmə tərzinə əsaslanmışlar. Nəsr dilində elə adlar var ki, onların mənası deyil, fonetik strukturu,

bir ad kimi qəribəliyi diqqəti cəlb edir. S.Rəhman nəsrində ***Molla Qədəş, Məşədi Dostuməli***, Mir Cəlal nəsrində ***Mamırlı bəy, Maman arvad, Zindalı kişi, Qumaş, Qıssa (Qubuş)*** və s. bu cür adlardandır. Komik effekt yaratmağın bu üsulu adların ixtisarında daha çox nəzərə çarpır. «Dirilən adam»da Bəbir bəy guya əzizləmə məqsədilə arvadı Qıssa xanımı ***Qubuş*** deyə çağırır; Molla Mirqasımın oğurluq yoldaşı onu elə «səmimiyyətlə» ***Miriş*** deyə çağırır ki, oxucunun üzündə təbəssüm yaranmaya bilmir. ***Pirverdi – Pəpiş*** və s. də bu cür adlardandır.

4.Komik effekt yaratmaqda l ə q ə b l i adların xüsusi rolu vardır. Ləqəblər vasitəsilə həm Şərq aləmindəki ləqəbçilik, həm də mənfi obrazlar ifşa edilir. N.Vəzirov tərəfindən dramaturgiyada geniş istifadə edilən, Mirzə Cəlil və Ə.Haqverdiyev tərəfindən həqiqi satira vasitələrinə çevrilən ləqəblərdən bir komizm vasitəsi kimi bizim nəzərdən keçirdiyimiz yazıçılar da geniş istifadə etmişlər. B.Talıblı «Erkək Tükəzban» kimi məşhur hekayəsini «erkək» sözünün təfsiri üzərində qurmuşdur. Müəllif hekayənin əvvəlində yazır: «Şəhərlərimizdə adamı ələ salmaq və adama ləqəb qoymaq adətdir. Məsələn: topatan Xanbacı, matışqa Səkinə, ağacayaq Fatma və s». Qantəmir, Mir Cəlal, S.Rəhman nəsrində də ləqəbli adlar geniş yer tutur.

Ləqəblər mənşə etibarilə ədəbi dil sözlərindən (***qarğa*** Vəli), alınmalardan (***matışqa*** Səkinə), şivə leksikasından (***Nanıx*** Qurban) və s. ibarət olur. Yazıçılarımız bəzən ləqəblərin necə əmələ gəldiyini də izah etmişlər. B.Talıblı «Erkək Tükəzban»da «erkək» sözünün, S.Rəhman «Mətləb Həsən»də «mətləb» sözünün, Mir Cəlal «Sarıqlı molla» sözünün necə əmələ gəldiyini ətraflı izah etmişdir.

Ləqəblər bəzən aid olduğu xüsusi adın əvəzində işlənir. «Dirilən adam»da hamı Molla Mirzə Məhəmmədi «Sarıqlı molla», Məşədi Süleymanı «Çalper» kimi tanıyır və s.

5.Bəzən xüsusi adın özü komik təəssürat yaratmır, lakin obrazın xarakteri, başına gələnlər nəzərə alındıqda, xüsusi ad təbəssümlə qarşılanır. Məsələn, «Qədir» sözü özlüyündə elə bir komik keyfiyyətə malik deyildir, lakin «Dirilən adam»da Qədirin başına gələnlər, onun ümumi xarakteri, avamlığı, sadəlövhlüyü bu obrazın yumorla xatırlanmasına səbəb olur.

6.Dinin, fanatizmin və ruhanilərin ifşası prosesində dini rütbə, titul bildirən sözlərin kinayə ilə bir yerə toplanması komik effekt yaradır: ***Seyid Mirzəqasım Mirzəqulu oğlu Şəbüstəri, Əsseyd axund Mirzə Əbülfərəci Şirazi*** (Qantəmir) və s. Köhnə üslubda neçə nəslin adının birlikdə xatırlanması da komik təsirə malik olur. Qantəmir «Hacı lələ» hekayəsini belə başlayır: «Buyurun tanış olun: ***Hacı Əliqulu ibn Hacı Sadıq ibn Hacı Cavad ibn Şeyxanə Hacı Məmmədrza***».

7.Yazıçılarımızın komik effekt yaratmaq üçün ad-parodiyalardan istifadə etdiyi hallar da müşahidə olunur. Nəzərdən keçirdiyimiz nəsr əsərlərində olmasa da, sonrakı nəsr nümunələrində bu cür advermə üsuluna təsadüf edilir. Anarın «Molla Nəsrəddin – 66» povestinin hissələrindən birində müsahibə aparılan 299 yaşlı dünyadan xəbərsiz kişi ***Kəlamulla*** (allahın kəlamı) yox, kinayə ilə KƏLƏMULLA (allahın kələmi) adlandırılmışdır.

Biz konkret olaraq 20–30-cu illərin nəsr dilini nəzərdən keçirdik. Bütövlükdə satirik ədəbiyyatın dilini tədqiq etməklə, xüsusi adlardan komizm vasitəsi kimi istifadənin bir çox yeni üsullarını müəyyənləşdirmək olar. Mirzə Cəlil 1911-ci ildə yazdığı felyetonlardan birini «Məhəmməd Əli Mirzə» adlandırmış və sərlövhənin altında əsas fikrin ifadəsinə gözlənilməz haşiyə ilə – xüsusi adın t ə f s i r i ilə başlamışdır: «Buradan bir haşiyə çıxaq: ərəbcə «mirzə»nin mənası eşşək arısıdır». Bu sözlərdən sonra mətləbə keçən müəllif, bir neçə başqa məsələni qeyd etdikdən sonra izah edir ki, Məhəmməd Əli Mirzə qoşun toplamışdır və İran şahı ilə vuruşmaq istəyir, lakin Tehrandan çox uzaqlarda gəzir və onun hərəkətinin təsiri arı vızıltısının təsirindən artıq deyildir. Beləliklə, ədib əsl fikrini xüsusi adın məqsədəuyğun mənalandırılması ilə bir cümlədə ifadə edə bilmişdir.

Bu son misal bir daha təsdiq edir ki, bədii ədəbiyyatda xüsusi adlardan komizm vasitəsi kimi istifadə imkanları zəngin və hüdudsuzdur.

1980

FÜZULİDƏN PRAKTİKUM

S.M.Kirov adına ADU-nun dosenti Samət Əlizadə Füzulinin türk dilində divanının materialları əsasında «Azərbaycan ədəbi dili tarixindən praktikum» adlı dərs vəsaiti hazırlamışdır.

Füzulinin şeir dilinə həsr olunmuş 83 səhifəlik bu əsər yığcam girişdən, müxtəlif mətnlərdən, onların lüğətindən və şərhindən ibarətdir. «Bir neçə söz» – praktikumun tərtibi üsuluna, Füzuli sənətinin böyüklüyünə həsr olunmuşdur.

Əsərdə 30-a yaxın qəzəlin, 9 qitənin, 3 rübainin və 18 beytin şərhi verilmişdir.

Müəllif Füzuli əsərlərinin 1958-ci il nəşrinə əsaslansa da, qəzəlləri, qitə, rübai və beytləri şairin qədim əlyazma nüsxələri ilə yoxlamış, texniki qüsurlarını düzəltmiş, qəzəllərdə ayrı-ayrı beytlərin yerini dəqiqləşdirmişdir.

Hər bir qəzəlin, rübainin, qitənin ardınca onun lüğəti – alınma və arxaik sözlərin izahı verilmişdir.

Məlumdur ki, Füzuli əsərlərinin şərhi çətindir. Şairin qəzəllərinin düzgün izahı filoloq alimdən böyük hazırlıq tələb edir; bunun üçün şairin yaşadığı dövrün (və ondan çox-çox əvvəllərin) fəlsəfəsini, ictimai-siyasi həyat tərzini, dini, etnoqrafiyanı, saysız-hesabsız qədim Şərq əfsanələrini, kökü üç-dörd min il əvvələ gedən hadisələri bilmək, sözün məcazilik imkanlarından, poetik dilin xüsusiyyətlərindən kamil şəkildə baş açmaq tələb olunur. Əks təqdirdə Füzulinin saxtalaşdırılmasına, bəsitləşdirilməsinə, Füzuli dərinliyinin, Füzuli eyham və işarələrinin itirilməsinə və nəticədə süni surətdə Füzulinin «müflisləşdirilməsi»nə aparıb çıxara bilər.

Samət Əlizadənin şərhləri başlanğıcdan – bir-iki qəzəlin şərhi ilə tanışlıqdan sonra bu qorxunu aradan qaldırır. Aydın olur ki, müəllif (S.Əlizadə) Füzuli sənətinin həqiqi şərhini vermək imkanına qabil olan bir alimdir. O, həqiqətən, Füzulini duyur və bu duyğunu, Füzuli fikrini başqa şəkildə, başqa bir dil ilə oxucuya çatdıra bilir.

S.Əlizadənin şərhləri Füzuli istəyini uğurla ifadə edə bildiyindən bu əsəri çox müvəffəqiyyətli saymaq olar. Ona görə də

bu əsərdən yalnız Azərbaycan Dövlət Universitetinin tələbələri deyil, bütün pedaqoji institutların tələbələri, orta məktəbin dil-ədəbiyyat müəllimləri, gənc elmi işçilər və bütün Füzuli pərəstişkarları faydalanacaqdır.

Doğrudur, qəzəlləri müəllifin hansı prinsipə əsasən seçdiyi məlum deyil (müəllif ədəbi dil tarixi proqramını, orta məktəb proqramını və s. əsas götürə bilərdi), lakin ümumən yaxşı qəzəllər seçmişdir. Bəlkə də, Füzulidə pis qəzələ rast gəlmək mümkün deyil, lakin «yaxşı» dedikdə biz rəngarəngliyi nəzərdə tuturuq – 20–30 qəzəllə müəllif Füzuli sənəti haqqında, Füzuli dilinin poetik imkanları haqqında geniş təsəvvür yarada bilmişdir. Qitələr, rübailər, beytlər də belədir.

Nömrələnmiş beytlərin ardıcıl şərhi və bu işin ayrı-ayrı qəzəllər üzrə davam etdirilməsi Füzulinin fikir silsiləsini, Füzuli sənətinin hamı tərəfindən etiraf olunan böyüklüyünü əyani şəkildə dərk etməyə kömək edir.

Ərəb, fars mənşəli çətin sözlərin, izafət tərkiblərinin, arxaik söz və ifadələrin bilavasitə mətnin ardınca verilməsi, şübhəsiz, oxucunun işini asanlaşdırır, müqayisələr aparmağa, şərhləri obyektiv şəkildə qəbul etməyə imkan yaradır.

Bizdə, hələlik, bu şəkildə hazırlanmış praktikum yoxdur. Mətnlər, onların lüğəti və mətnlərin dəqiq şərhi. Müəllifin böyük məharəti də bu şərhlərdədir, auditoriya üçün də bunlar çox faydalıdır. Lakin burada ənənəvi praktikumlar üçün xarakterik olan çalışma və suallar, ədəbiyyat yoxdur.

Lüğətdə bir sıra sözlərin təkrarını müəllif özü görüb qeyd etmişdir. Bu, ümumən texniki cəhətdən qüsur olsa da, oxucunun xeyrinədir, lakin təfəkkürü aktuallaşdırmaq yox, avtomatlaşdırmaq baxımından faydalıdır. Həm də burada ərəb, fars və türk mənşəli sözləri müəllif şərti işarələrlə çox asanlıqla ayıra bilərdi (bu, indi də gec deyil).

Lüğətlərdə sözlərin çox zaman mətni mənası, məcazi mənası, məna çalarları nəzərə alınmışdır. Az hallarda diqqətsizlik də müşahidə olunur (hübab - «köpük qabarcığı», başqa şeirdə: «köpük»,

«qabarcıq» - bu sonrakı düzdür; təqsir - «qüsurlu», «nöqsan» - biri isim, biri sifət və s.).

Müəllif ən incə eyhamları da tutmağa çalışmışdır:

Məni qərarım ilə qoymaz oldun, ey gərdun.
Yeridir ahim ilə versəm inqilab sana –

beytini nəsrlə düzgün vermişdir: *Ey fələk, məni öz istəyimlə qoymadın; səni öz ahımla devirsəm, yeridir.* Lakin şərhdə ikinci misranı: *Mən ahımın yeli ilə sənin çarxını fırlatmaqda haqlıyam* - şəklində fərqli izah etmiş, inqilabın nə şəkildə, hansı vasitə ilə icra olunduğunu da izah etmişdir (səh. 4–6).

Doğrudur, qədim elmlərə daha dərindən bələd olmaqla, Füzuli qəzəllərinin şərhini daha da dərinləşdirmək olar. Lakin indiki halda müəllifin şərhləri tam qənaətbəxşdir. Onlara irad tutmaq, onların şərhini bundan artıq genişləndirmək çətindir. Çox az hallarda müəllifin şərhinə etiraz etmək olur:

Gər basıb əl nəbzimə, təşxis qılsan dərdimi,
Al əmanət, qılma hər bidərdə izhar, ey həkim! –

beytində ***əmanət al*** - sözləri ilə nəyin nəzərdə tutulduğu bilinmir və izah edilmir. Bu şerin birinci beyti: *Ey həkim, canımda gizli bir xəstəlik var, amandır, gizli dərdimi xalqa bildirmə* - şəklində izah olunur; Füzuliyə bələd olmayan oxucu bunu əməlli xəstəlik kimi başa düşə bilər, çünki şairin dediyi «eşq» sözü, «eşq dərdi» burada xatırlanmır.

Gəl mənim tədbiri-bihudəmdə sən bir səy qıl - misrasını: *Sən gəl mənim hədər tədbirimi artır, ey həkim, çalış ki...* şəklində izah edir, halbuki artırmaq söhbəti yoxdur, *səy qıl - səy elə.*

Son beytdə (*Rənc çəkmə, sihhət ümmidin…*) «qəbuli-sihhət etməz» sözləri - «sağala bilməz» kimi izah edilir, burada bir obyektivlik var; Füzuli dediyində isə xəstənin sağalmaq istəməməsi kimi subyektiv münasibət duyulur.

Bu cür mübahisə doğura bilən cəhətlər yenə göstərmək olar. Lakin yığcam şərhdə təbii olaraq hər şeyi ifadə etmək həmişə mümkün olmur.

Hiss olunur ki, bəzən orfoqrafiyada müasirləşdirmələr var:

Yerdən, ey dil, göyə qovmuşdu sirişgim mələgi,
Onda həm qoymayacaqdır oları əfqanım –

misralarında *göyə* yox, «gögə», *onda* yox, «anda» ola bilərdi. Bunu aşağıdakı beytində bəzi sözlər haqqında da demək olar.

Ey Füzuli, qədimiz qıldı fələk xəm, yəni:
Vəqtdir çıxmağa dünya qapısından, əyilin.

Əsərin girişi çox yığcam və tutarlı yazılmışdır. Lakin burada praktikumun hazırlanmasının məqsədi, beytlərin, qəzəllərin, qitə və rübailərin seçilmə prinsipi, əsərin kimlər üçün nəzərdə tutulduğu barədə də məlumat vermək olardı. Ciddi elmi dil ilə yazılmış bu girişdə: «Bu kitabça Füzuli gülüstanından bağlanmış kiçik bir dəmət olub», «çətin sözlərin üzündəki pərdənin götürülməsinə», «Füzuli dəryadır! Həmin sətirlərin müəllifi bu dəryadan ovcu tutduğu qədər götürmüşdür!» kimi Füzulinin öz təsiri ilə yaranmış, daha çox gənc olanlara xoş gələ bilən cümlə və ifadələr də vardır.

Bu cür cüzi nöqsanlara baxmayaraq, müəllif çox diqqətlidir. Əsərdə artıq söz və ifadələrə, üslub nöqsanlarına rast gəlmək çətindir. Əsər mühüm tədris əhəmiyyəti ilə yanaşı, Füzulisevərlərə qiymətli hədiyyə olacaqdır.

Praktikum ilk tanışlıqdan yüksək təəssürat doğurur. Bütün bu cəhətlərini nəzərə alaraq, onun çap olunmasını faydalı və zəruri hesab edirik.

27. 12.1982

T.İ.HACIYEV VƏ K.N.VƏLİYEV. AZƏRBAYCAN DİLİ TARİXİ (Oçerklər və materiallar)

250 makina səhifəsi həcmində olan bu əsərin yazılmasında əsas məqsəd filologiya fakültələrində təhsil alan tələbələrin Azərbaycan ədəbi dilinin tarixinə dair biliklərini praktik cəhətdən yoxlamaq, dərinləşdirmək, əməli istiqamətə yönəltmək, qədim abidələrin dili üzərində bilavasitə müşahidələr aparmaqdır. Bu, özlüyündə faydalı və əhəmiyyətli bir işdir və həm də bu sahədə ilk təşəbbüs olmaq etibarilə qiymətlidir.

Əsər yalnız praktik materiallardan ibarət deyildir və kitabda bir sıra oçerklər də verilmişdir. Doğrudur, tələbələr ədəbi dil tarixi fənninin tədrisi prosesində mühazirə, dərslik və dərs vəsaitlərindən proqram üzrə zəruri materialı öyrənə bilirlər, lakin bilavasitə yazı abidələrindən seçilib verilmiş mətnlərin dili üzərində ilkin müşahidə və araşdırmalar aparmaq üçün bu cür oçerklərə ehtiyac vardır, bunlar tələbənin yolunu işıqlandırır, onu daha yaxşı istiqamətləndirir. Buna görə də biz həmin oçerkləri praktikum üçün faydalı və gərəkli hesab edirik.

Oçerklər əsasən yığcam olub, tarixi qrammatika və ədəbi dil tarixinin əlaqəli və fərqli cəhətləri, tədqiq obyektləri, Azərbaycan dili anlayışı, ədəbi dil tarixinin dövrləri, XIII–XIV və XIV–XVI əsrlər ədəbi dili kimi məsələləri əhatə edir.

Əsərdə «Azərbaycan dili anlayışı»nın şərhinə nisbətən geniş yer verilmişdir. Bu hal əslində zəruri ehtiyacdan irəli gəlmişdir. Dilçiliyimizdə Azərbaycan ədəbi dilinin qədim kökləri əsaslı şəkildə öyrənilməmişdir. Bu sahə hələ də qaranlıq və dumanlı olaraq qalmaqdadır. Bunun bir səbəbi də yeni eradan əvvəlki minilliklərə və bizim eranın birinci minilliyinə dair materialın yoxluğu və ya azlığıdır. Bu cəhəti nəzərə alaraq, müəlliflər çox böyük

səylər, ağır zəhmət hesabına müxtəlif xarici mənbələrdə səpələnmiş tək-tək məlumatları toplayaraq, nəticə etibarilə faydalı material əldə etmişlər. Bu materiallar türk tayfalarının Azərbaycana sonradan gəldiyini və birdən-birə yerli aborigenlərin dilini sıxışdırıb aradan çıxardığını iddia edənlərin yanlış fikirlərini ustalıqla təkzib edir, hələ eradan çox-çox əvvəllər ölkəmizin ərazisində türk tayfalarının, türk dilinin mövcud olduğunu və türklərin sonrakı (bir neçə dəfə) gəlişləri ilə bu tayfaların, türk dilinin gücləndiyini, tədricən ümumxalq dilinə çevrildiyini sübut edir. Qeyd etməliyik ki, dilimizin bizim minilliyə qədərki inkişaf yolunu ancaq bu istiqamətdə araşdırmaq düzgün nəticə verə bilər.

Əsərdə Azərbaycan ədəbi dilinin inkişaf yolu iki dövrə ayrılmışdır: ***təşəkkül dövrü, sabitləşmə dövrü***. Müəlliflərin fikrincə, birinci dövr IX–X əsrlərdən XVII əsrin əvvəllərinə qədərki dövrü, ikinci dövr isə XVII əsrin əvvəllərindən hal-hazıra qədərki dövrü əhatə edir.

Ə.Dəmirçizadə birinci dövrü «Ümumxalq dili əsasında Azərbaycan ədəbi dilinin formalaşıb inkişaf etməsi dövrü» adlandırır və bu dövrü XI–XIII əsrlərdən XVIII əsrə qədərki bir dövr hesab edir. Bizcə, hər iki bölgüdə birinci dövr uzun dövrdür, formalaşma, sabitləşmə bu qədər olmaz. Uzağı Həsənoğluya qədərki dövr sabitləşmə - formalaşma üçün kifayət edərdi. Şifahi dil nümunəsi olsa da, «Kitabi-Dədə Qorqud» kimi bir abidənin dili və ya Nəsiminin dili bütöv bir ədəbi dil nümunəsi üçün kifayətdir və bu dili «təşəkkül dövrünün dili» hesab etmək olmaz.

Əsərin əsasını müxtəlif abidələrdən seçilib götürülmüş nümunələr, mətnlər təşkil edir. Əsər ədəbi dilimizin inkişafında nəzərdə tutulan birinci mərhələni – «təşəkkül dövrü»nü əhatə edir. Ona görə də verilmiş mətnlər bu dövrə aid abidələrdən seçilmişdir. Yeri gəldikcə müqayisələr aparmaq üçün qohum türk dillərinə məxsus bəzi abidələrdən də nümunələr verilmişdir.

Mətnlərin seçilməsində dövrü xarakterizə etməyə imkan verən faktların və səciyyəvi əlamətlərin bolluğu, üstünlüyü əsas götürülmüşdür. Ona görə də ədəbi dil tarixi fənninin tədrisi prosesində praktik şəkildə yoxlamaq və öyrənmək üçün ehtiyac duyulan hər cür dil faktına bu materiallarda rast gəlmək mümkündür. Həm də

bu faktlar bir çox dil-nitq hadisələrini ardıcıl inkişaf prosesində izləməyə imkan verir.

Tələbələri işlətmək və istiqamətləndirmək üçün hər bir mətnin sonunda suallar və çalışmalar - tapşırıqlar tərtib edilmişdir.

Filoloq tələbələrə və ümumən ədəbi dil tariximiz ilə maraqlananlara faydasını nəzərə alaraq, praktikumun dərs vəsaiti kimi çap olunmasını məsləhət bilirik. Bu əsərdən tarixi fonetika və tarixi qrammatika ilə məşğul olanlar da istifadə edə bilərlər.

Biz əsərin elmi dəyərini artırmaq üçün aşağıdakıları təklif edirik:

1. Bəzi oçerklərdə tək şəxsin (I şəxs təkin) dilindən danışılır (səh. 6 və s.), əsərin müəllifi isə məlum olduğu üzrə ikidir. Belə halda ya üslubu dəqiqləşdirmək, yaxud da hər müəllifin işlədiyi bölməni dəqiq göstərmək lazımdır.

2. Əsərin mündəricatı bəsitdir, mövzuları tam əhatə edə bilmir. Mündəricatı yenidən işləmək və ora mətnləri də daxil etmək faydalı olar.

3. Hazırkı nüsxədə ədəbiyyat olmadığı üçün bir çox məsələlər şəxsən mənə qaranlıq qaldı. Məsələn, səh.30-da KASPİ sözünün etimoloji izahı prosesində Ə.Dəmirçizadənin fikrinə münasibət nəzərimə çarpmadı.

4. Dərslikdə və dərs vəsaitlərində ümumi sərlövhələr diqqətlə və məntiqi tərtib olunmalıdır. Ədəbi dilin dövrləşdirilməsi barədə məlumatdan sonra birdən-birə şifahi xalq ədəbiyyatı nümunələrinə keçilir. Məncə, məlumatdan sonra müəlliflər qəbul etdikləri bölgüyə əsasən başlıqlar verməli idilər: əvvəlcə ədəbi dilin təşəkkül dövrü, sonra inkişaf mərhələləri və s.

Onu da qeyd edim ki, əsərdə nə üçün yalnız təşəkkül dövrünə aid materialların əhatə edildiyi də izah edilməlidir: müəlliflər ya sonrakı dövrə aid materialların çoxluğunu qeyd edə bilər, yaxud əsərin üzərində «birinci hissə» sözlərini.

5. Filologiyamızda bəzi terminləri bir formada dəqiqləşdirmək lazımdır: bəzi kitablarda «Kitabi-Dədəm Qorqud», burada isə gah «Kitabi-Dədə Qorqud» (səh.35), gah da tərcüməsi ilə: «Dədə Qorqud kitabı» (səh.60) işlədilir.

6. Bəzi mətnləri bir qədər yığcamlaşdırmaq, artıq şeyləri ixti-

sar etmək olar; məsələn: səh. 107 – 112-də eyni (balaca - 5 – 6 sətirlik) parça 5–6 dəfə təkrar olunur.

7. Səh.105-dən başlayaraq, Dədə Qorquda aid edilən atalar sözlərinin (bunların içərisində atalar sözləri də tapmaq mümkündür) çoxu alqışlar, öyüdlərdir.

Həm də bu bölmə Dədə Qorqudun özünə aid olan atalar sözlərindən sonra verilməlidir.

8. Səh.120-dən başlayan fotosurətin əvvəli, axırı, izahı, qeydi yoxdur.

9. Bəzi mənbə və materiallar («Qisseyi-Yusif», «Dastani-Əhməd Hərami» və s.) haqqında bir münasibətlə müəyyən qeydlər vermək, yazılma, tapılma, nəşr tarixi haqqında bir-iki söz demək yaxşı olardı.

10. Əsərin sonunda alınma və arxaik sözlərin lüğəti verilmiş olsa idi, əsərin dəyərini artırardı.

11. Qeydlərimizin biri də çalışma və suallara aiddir. Bunlar bəzən çox ümumidir (səh. 127-də 13-cü bənd və s.). Bütöv mətndən sonra çalışmalar verilməsinin başqa bir mühüm çətinliyi də vardır. «Kitabi-Dədə Qorqud»la əlaqədar təqribən 40 səhifəlik material verilmiş, sonra 28 bənddən ibarət çalışma nəzərdə tutulmuşdur (səh.84 – 126). Yaxud: Füzulidən 33 səhifəlik (səh.204–236) material verilmiş, 15 bənddən ibarət tapşırıq müəyyən edilmişdir. Yaxşı tələbə bir dərs üçün bu tapşırıqdan ikisini-üçünü icra edə bilər, çünki hər dəfə həmin 33 səhifəni və ya «Kitabi-Dədə Qorqud»dan 40 səhifəni nəzərdən keçirməlidir və elə bu materialın içərisindən fakt axtarmaq böyük vaxt tələb edəcəkdir. Ona görə də yaxşı olardı ki, hər bir tapşırıq üçün konkret, balaca və səciyyəvi mətnlər nəzərdə tutula idi. Məsələn, bu cəhətdən müəlliflərin 237-ci səhifədə verdikləri 11 nömrəli çalışmanı nümunəvi saymaq olar.

12. Əsərdə texniki qüsurlar çoxdur. Məsələn, əsərin sonunda verilmiş sual və tapşırıqların bir çoxunu (23, 150, 151 və s.) qədim abidələrə nisbətən daha çətin başa düşmək olur. Üslub xətaları (səh.106-da 9-cu bənd və s.) vardır...

Bu qeydlərin nəzərə alınması əsərin xeyrinə olar. Şübhəsiz, bunların bir çoxu redaktə və nəşr zamanı aradan qaldırılacaqdır. Ona görə də biz bu ilk təşəbbüsü alqışlayır və onun filologiya fa-

kültələri üçün dərs vəsaiti kimi çap olunmasını faydalı hesab etdiyimizi bir daha qeyd edirik.

1982, may

SƏNƏTKARIN QÜDRƏTİ

«Qarlı aşırım» əsəri ilə oxucuların dərin rəğbətini qazanmış istedadlı nasir Fərman Kərimzadənin bu yaxınlarda yeni bir sanballı əsəri – «Xudafərin körpüsü» romanı çapdan çıxmışdır. Əsərdə XV əsrin axırı, XVI əsrin əvvəllərində baş vermiş hadisələr, görkəmli dövlət xadimi və şair Şah İsmayıl Xətainin uşaqlıq və gənclik illəri, həyatı və mübarizəsi qələmə alınmışdır.

Müəllif «Xudafərin körpüsü» romanında yaşlı nəslin yaradıcılıq ənənələrindən, dünya ədəbiyyatı nümunələrindən bəhrələnsə də, istər öz yazı maneri, istərsə də təhkiyə və dialoqlarının fərdi üslubi keyfiyyətləri ilə fərqlənərək orijinal və qiymətli bir əsər yaratmışdır.

Roman yüksək ideya-estetik keyfiyyətləri, ictimai-siyasi məziyyətləri ilə yanaşı, forma, quruluş, dil xüsusiyyətləri ilə də diqqəti cəlb edir. Obrazların dünyagörüşü, hadisələri dərk etmə və mənalandırma bacarığı, sənətin şirin dili ilə təzələnən bir çox faktlar və hadisələr, əsərin dilini şərtləndirən zəngin ifadəlilik və bədiilik vasitələri oxucunu ruhən və mənən keçmişə – 500 il əvvələ aparır, təsvir edilən dövrün təbii mühitinə, havasına daxil edir. Bu hava romanın dilində bütün detallara çökmüşdür. İsmayılla, anası Aləmşahbəyimlə, Azərbaycan sərkərdələri ilə, Səfəvilər və qüdrətli Ağqoyunlu sərkərdəsi Uzun Həsənlə, Sara xatunla bağlı səhnələr əsərdə ustalıq və məhəbbətlə təsvir edilmişdir.

Yumor, simvollar, orijinal müqayisələr, tarixizmlər, toponim və etnonimlər, vulqar söz və ifadələr, andlar, alqışlar, qarğış və söyüşlər, sərrast dialoqlar, zərb-məsəllər, aforizmlər, lətifə və əhvalatlar tarixiliyi mühafizə edib saxlamaqla yanaşı, tarixi keçmişin təsvirində müəllifə mühüm dil vasitələri kimi kömək etmişdir.

Komik əsər olmasa da, yumor, kinayə, istehza da müəllifin tez-tez müraciət etdiyi zəruri dil vasitələridir. Yumorlu söz və ifadələr obrazların əhvali-ruhiyyəsini, hadisələrə nikbin münasibətini, müəllif tendensiyasını əks etdirən mühüm bədiilik vasitələri kimi romanın dilini nurlandırır: «Murad görürdü ki, bu, çox ***həngaməli*** adamdı». «Əlimi də vurmuşam. Çox ***əndrabadi şeydi***». «Xacə Mənsim ***quş idi; cin idi, şəyatin idi, nədi, elə bil, yerdən çıxdı, göydən düşdü***» və s. Obrazların zahiri cəhətlərinin təsvirində də xüsusi seçilmiş söz və ifadələrin, aforizmlərin rolu böyükdür: «Qasım bəy ucaboy, iri burun, iri qulaq, yekə ağız, heyvərənin biri idi və belə adamlar heç kimlə xoş və nəzakətlə danışmağı bacarmırlar».

F.Kərimzadə müqayisələri sevir və uğurlu müqayisələr yaratmağı bacarır. Romanda bir çox obrazların zahiri əlamətlərinin təsviri güclü, tutarlı müqayisələrlə verilmişdir. Bu cür müqayisələrlə həm mənfi, həm də müsbət obrazlar səciyyələndirilmişdir. Əşya və obyektlərin təsviri də çox vaxt uğurlu müqayisələrə əsaslanır: «Qayalıqlar hamar deyildi. Elə bil qazanda yanıb qaralmış qənd parçalarını baltayla doğramışdılar», «Duman dərəyə yüngül, ağ pərdə çəkirdi. Bəzən də elə qalınlaşırdı ki, sanki o dərələr ağızbaağız qarla dolub» və s. Cəbani (Çobani) düzündə qırmızı dilim papaqlı qızılbaşların geniş bir düzü bürümüş lalələrlə müqayisəsi, Gülüstan qalasının ətrafına dolanan yolun uzaqdan baxdıqda nəhəng bir pəhləvanın atdığı kəməndə bənzədilməsi mənzərəni kino lenti kimi əks etdirir. Fərrux Yasar Səfəviləri çayır otuna bənzədir: «Onlar çayır otu kimi bir şeydi. Nə qədər dərindən qazırsan, çıxarırsan, yandırırsan, əgər bir xırda kök qalıbsa, göyərib yenə hər yeri alırlar». Bu cür müqayisələrdə obrazın əməlləri və obyektə münasibəti də obrazlı ifadə edilmiş olur.

Əsərdə andlar, alqışlar, qarğışlar, dualar çox təsirlidir, ona görə ki keçmişin özündən qaynaq alır, zamanın nəbzinə, səciyyəsinə, nəfəsinə uyğun şəkildə əsərə daxil edilmişdir: «Ey bu axşamın sahibi, oğlumu sənə tapşırıram. Sən onun ağlını qılıncı, qılıncını ağlı kimi iti, baxtını atı kimi yüyrək, taleyini göylər çırağı kimi işıqlı elə», «Bu dostluğa dönük çıxsam, qılıncıma doğranım, oxuma sancılım» və s. Bunların bir çoxunda Dədə Qorqud ifadə tərzi aydın duyulmaqdadır.

Mövzu ilə, hadisələrin baş verdiyi yüzilliklə əlaqədar, əsərdə

tarixizmlərə, qədim tayfa adlarına, toponimlərə, tarixi-etnoqrafik əşya adlarına tez-tez müraciət edilmişdir. Tarixizmlər, ictimai-siyasi və dini terminoloji sözlər, qədim toponim və etnonimlər Uzun Həsən və Şah İsmayıl dövrünün canlı mənzərəsini yaratmaq üçün əməli keyfiyyətə malikdir. Əsərdən aydın olur ki, müəllif XV əsrin sonlarına məxsus döyüşən tayfalar, ordular, qalalar, şəhərlər, ölkələr haqqında, döyüş ləvazimatı, geyim və bəzək şeyləri, adət və ənənələr, qanunlar, qaydalar barədə tarixin pərakəndə şəkildə qoyub getdiyi mənbə və materialları diqqətlə araşdırıb öyrənməli olmuşdur.

Qədim toponim, antroponim və etnonimlərdən istifadə edilərkən bəzən əsərdə onların bədii-etimoloji təhlili də verilmişdir. Bunların bir qismini elmi baxımdan da uğurlu saymaq olar. Məsələn, bəzən ***Xəta*** tayfa adı ilə bağlı izah edilən ***Xətai*** təxəllüsü İsmayılın öz dilində müəllif tərəfindən belə mənalandırılmışdır: «Mirzə Əli, mən anadan olanda dünyaya yox, xətalar içinə düşmüşəm. Bunu hamı bilir. Amma həmişə bir hikmətli səs deyir ki, bu xətaların hamısından çıxacaqsan. O ***xəta*** sözü taleyimdə yox, gələcək ləqəbimdə qalacaq». Az yaşamasına baxmayaraq, Xətainin taleyi burada bədii yolla həqiqətə uyğun izah edilmişdir.

Keçmişin müsbət adət və qaydalarının təsviri (Uğurlu Məhəmməd otaqdan elə çıxır ki, arxası atasına tərəf düşməsin; Uzun Həsənin at seçmə mərasimi; Sara xatunun tərsa qızına münasibəti; qonağa mərd münasibət və s.) oxucuda yüksəklik və yüksək hisslər doğurur.

Müəllif hər bir obrazı öz yaşına, cinsinə, vəzifəsinə, ictimai və fərdi mövqeyinə, qarşıdakı şəxsə münasibətinə müvafiq bir dildə danışdırmağı bacarmışdır.

Romanın dili müasir oxucunun zövqünə uyğundur, müasir estetik tələblər səviyyəsindədir. F.Kərimzadə tarixi hadisə və obrazları bədii ədəbiyyata gətirmək üçün ümumxalq dilinin leksik-frazeoloji və struktur-semantik imkanlarından öz yazı manerasının hüdud və tələblərinə uyğun şəkildə uğurla faydalana bilmişdir.

04.06.1983

MÜASİRLİK RUHU İLƏ

Fərman Kərimzadə – 50

Altmış-yetmişinci illər nəsrinin bir sıra görkəmli nümayəndələri kimi, Fərman Kərimzadə də Böyük Vətən müharibəsinin kədərli təəssüratı ilə böyümüş, bu təəssüratın doğurduğu düşüncələrlə ədəbiyyata gəlmişdir. 1958-ci ildə qələmə aldığı «41 nömrəli ayaqqabı» hekayəsi ilk təcrübə olsa da, müharibənin fəlakət dolu nəticələrini təsirli bir dil ilə oxucuya çatdırır. «Son eksponat», «Toy toğlusu» hekayələri də müharibə mövzusundadır, müharibənin ağrı-acılarından bəhs edir. «Son eksponat»da ana qəhrəmanlıqla həlak olmuş oğlunun muzeydəki köynəyini – öz əli ilə toxuduğu köynəyi qorumağa çalışır, oğlunun sinəsini dəlib-deşən güllə yerini muzeydəki baxımsızlıqla, köynəyə güvə düşməsi ilə əlaqələndirir.

F.Kərimzadə hadisələrin məntiqini tutmağı, obrazların mənəvi-psixoloji aləmini aydın cizgilərlə əks etdirməyi bacaran sənətkardır. Bu cəhət onun müharibə mövzusunda yazdığı hekayələrlə yanaşı, «Ölülər yalan danışmır», «Mis qazan», «Talada», «Ümid», «Xınalıq» və başqa hekayələrində, «Xallı maral», «Toy dəvətnaməsi» povestlərində də güclü və qabarıqdır. Povestlər işıqlı ideallar təbliğ edir, xalq malını dağıdanları, israfçıları, əliəyriləri, tüfeyli və kübar yaşayış tərzini ifşa edir. «Xallı maral» povestinin qəhrəmanı Zəkəriyyə harın zümrənin ad günləri və müxtəlif işrət məclisləri üçün bir-bir kəsdirib apardıqları xallı maralların qoruğunu dağıdır, «təbiət bu maralları o cür canavarlardan daha yaxşı qoruyar» deyə, onları təbiətin qoynuna qovur. «Toy dəvətnaməsi» ibrətamiz sonluqla bitir: zavoddan oğurladığı bir maşın spirti xırıd edə bilməyib qamışlı gölməçəyə boşaldan baş şərabçı Vəli özü də həmin gölməçənin qurbanı olur.

Göründüyü kimi, Fərmanın maraqlı hekayə və povestləri vardır. Lakin ***Fərman Kərimzadə*** imzası daha çox tarixi roman müəllifi kimi məşhurdur. 1967-ci ildə çap olunmuş «Qarlı aşırım» onun yazıçı istedadını, ümidverici və gələcəkli bir nasir kimi yetişdiyini üzə çıxardı.

F.Kərimzadə «Qarlı aşırım»da 30-cu illərin ziddiyyətlərini,

kollektivləşmə dövrünün çətinliklərini, özündən əvvəlki nəsr ustalarını təkrar etmədən tamamilə yeni ruhda əks etdirdi. 30-cu illərə 60-cı illərin və altmışıncıların gözü ilə baxış, hadisələrin dolğundürüst mənalandırılması bu əsəri oxuculara sevdirdi. Xalq qəhrəmanı Abbasqulu bəy Şadlinskinin ömrünün son üç günü, xalqının səadəti yolunda ürəyini məşələ çevirməsi, cəsarət və qorxmazlığı, yüksək ağıl və idrak sahibi kimi tədbirli hərəkətləri, qolçomaq qiyamını öz qanı bahasına ləğv edə bilməsi yazıçının tarixi fakt və hadisələrə böyük duyum və həssaslıqla yanaşdığını, yüksək ümumiləşdirmə gücünə malik olduğunu göstərir. Kollektivləşməyə partiya rəhbərliyi, 30-cu illər komsomolunun cəsur mübarizəsi, geniş kütlənin siyasi şüur səviyyəsi, mübarizə və döyüş iqtidarı, düşmən qüvvələrin, Qəmlo kimilərin sinfi mənafeyi, fərdi-psixoloji keyfiyyətləri, köhnə dünya adamlarının törətdikləri bəlaların qurbanı olan günahsız insanların taleyi romanda təbii boyalarla əks etdirilmiş, təsirli və inandırıcı verilmişdir.

Hər bir xalqın tarixində unudulmaz səhifələr olur. Bu cür səhifələr adətən ictimai şüurun yetkinliyi, milli dirçəliş və qurtuluş, böyük amallar uğrunda çarpışmanın kəskinliyi və nəticələri ilə şərtlənir. XVI yüzilliyin sübh çağında Şah İsmayılın başçılığı ilə görülən işlər xalqımızın sonrakı müqəddəratı üçün güclü özülə çevrildi. Şah İsmayıl kimi tarixi şəxsiyyətlər heç vaxt unudulmur, incəsənətin, ədəbiyyatın gücü ilə yenidən doğulur. F.Kərimzadənin uzun tədqiq və araşdırmalardan sonra qələmə aldığı «Xüdafərin körpüsü» dilogiyası (romanın ikinci kitabının – «Çaldıran döyüşü»nün jurnal variantı ilə bu yaxınlarda tanış olduq) xalqımızın tarixinə, 500 il əvvəlki babalarımıza məhəbbət və hörmətin ifadəsidir.

Oxucunu orta əsr Azərbaycan həyatının həyəcanlı səhnələri ilə qarşılaşdıran bu roman Ağqoyunlularla Səfəvilər hakimiyyətinin qovuşduğu, birincilərin ikincilərlə əvəzləndiyi dövrün, Azərbaycan torpaqlarının birlik, Azərbaycan mədəniyyətinin yüksəliş dövrünün bədii salnaməsidir. F.Kərimzadə yeni faktlar əsasında dövrün ziddiyyət və çətinliklərini, qızılbaş bayrağı altında tarixi mübarizənin məqsədini, köklərini müasirlik ruhu ilə təsvir etmiş, qaranlıq səhifələri kifayət qədər işıqlandırmışdır.

«Xüdafərin körpüsü» istər yazı tərzi, istərsə də təhkiyə və dia-

loqlarının səlisliyi, zənginliyi ilə seçilən bir romandır, qəhrəmanlıq dastanıdır. Hər iki kitab («Xüdafərin körpüsü» və «Çaldıran döyüşü») yüksək ideya-estetik keyfiyyətləri, güclü ictimai-siyasi məziyyətləri ilə yanaşı, quruluş, dil xüsusiyyətləri ilə də diqqəti çəkir. Zəngin bədiilik vasitələri oxucunu 500 il keçmişə aparır, təsvir edilən dövrün havasına daxil edir. Gözəl təbiət lövhələri, minbir rəng heyranlığı ilə ictimai hadisələrin rəmzi əlaqəsi yaranır.

F.Kərimzadənin əsərləri kino sənəti üçün zəngin material verir. İlk romanı əsasında çəkilmiş «Axırıncı aşırım» filmi Azərbaycanfilmin uğurlarından sayılır. Yazıçının «Toy toğlusu» hekayəsi əsasında qısametrajlı «Zınqrov», bir novellası əsasında «Mənim arvadım, mənim uşaqlarım» filmi çəkilmişdir. Şah İsmayıl haqqında tutarlı bir əsər olan bu dilogiya özünün kino təcəssümünü gözləyir.

F.Kərimzadə ixtisasına görə rəssamdır. O, maddi-mədəniyyət abidələrinin qorunub-öyrənilməsində əməyini əsirgəmir. Ölkəmizin müxtəlif yerlərindən topladığı sənət nümunələri, qədim əşyalar, silah və alət növləri yazıçıya tarixi qəhrəmanların həyatını, məişətini, mübarizəsini canlandırmaqda kömək edir. Yazıçı təsvir etdiyi hadisələrin baş verdiyi əraziləri qarış-qarış gəzir, qəhrəmanlarının yeri-yurdu ilə maraqlanır. Abbasqulu bəy Şadlinskinin ev muzeyinin açılmasında, Şadlinski ilə bağlı sənədlərin toplanmasında yaxından iştirakına görə bu günlərdə (Şadlinskinin 100 illiyi günlərində) Naxçıvan MSSR Mədəniyyət Nazirliyinin Fəxri Fərmanı ilə mükafatlandırılması da bununla bağlıdır.

Fərman indi yeni tarixi roman üzərində işləyir. Yaradıcılığının bu bahar çağında, bu qaynar çağında ona daha böyük uğurlar diləyirik.

06.03.1987

XALQ SEVGİSİ İLƏ

Xalq sevgisi qazanmış yazıçı Anarın bu günlərdə 60 yaşı tamam olur. Anar çoxşaxəli yaradıcılıq yolu keçmiş, dramaturq, ssenarilər müəllifi, jurnalist və ictimai xadim kimi şöhrət qazanmışdır.

QƏZƏNFƏR KAZIMOV,
professor

Anar, hər şeydən əvvəl, nəsr ustasıdır – görkəmli nasirdir.

Əsl nəsr ustası həyat həqiqətlərinin, insan psixologiyasının kəşfi ilə məşğul olur. Həqiqi poeziya nümunələri insanın, adi adamların gündə yüz dəfələrlə üzləşdiyi, lakin kifayət qədər mənalandıra bilmədiyi hadisələrin yüksək obrazlılıqla mənalandırılması yolu ilə yaranır. Anarın əsərləri insana insanın özünü tanıtmaqda, insanın dəruni duyğu və düşüncələrini təbii və emosional şəkildə üzə çıxarmaqda xüsusi qiymətə malikdir. Füzuli heç bir elmi-texniki ixtiranın müəllifi deyildi. Lakin onun qəzəlləri bədii kəşflərlə doludur. Bu cəhət qüdrətli yazıçı qələminin ən yüksək keyfiyyətlərindəndir. Anarı ilk gündən bir yazıçı kimi tanıdan, sevdirən cəhətlərdən biri budur. Mənim təsəvvürümdə 60–70-ci illərdən kök salmış «Anar» imzası ilə bugünkü «Anar» imzası arasında ciddi fərq yoxdur, halbuki yaradıcılığın kamilləşməsi baxımından fərq olmamış deyil.

Anar mənim nəzərimdə sıçrayışsız, mərhələsiz, bütöv və təbii bir yaradıcılıq yolu keçmişdir. Səbəb odur ki, yazıçı zəif, ibtidai, mövqesiz əsərlərlə başlayıb tədricən parlamaq yolu ilə getməmiş, ilk hekayə və povestlərindən özünü həqiqi istedad sahibi, həqiqi yazıçı kimi tanıtmış və təsdiq etmişdir. Onun imzası 40 ilə yaxın bir müddətdə öz sanbalını, ağırlığını saxlamış, lakin, şübhəsiz, təsirini daha da artırmış və müdrikləşmişdir. Odur ki ilk hekayələrinin ardınca yeni nəsrin tələblərinə müvafiq yazılmış «Ağ liman», «Dantenin yubileyi», «Molla Nəsrəddin – 66», «Adamın adamı», «Macal», «Dədə Qorqud» povestləri, «Beşmərtəbəli evin altıncı

mərtəbəsi» romanı, neçə-neçə ssenariləri meydana çıxdıqca, bunların hamısına təbii baxmışıq, bunların hamısını Anarın yazıçı təkamülünün təbii nəticəsi saymışıq.

Anar təbiət etibarilə nə qədər sakit və təmkinlidirsə, əsərlərində hadisələrin təsviri o qədər ritmli, intensiv və çevikdir; hekayə və povestlərində hadisələr sakit görünən bir şəxsdə normadan artıq döyünən ürək kimidir. Anar bütöv və uzun, qrammatik normalara tam əməl edilmiş cümlələrlə fikrin ifadəsinə çalışmır. Belə olsa idi, onun hekayələrində hadisələr yığını bir romana çevrilərdi. Yazıçı bədii faktları qısa, çevik, sürətlə sadalamaqla irəliləyir və bu xüsusiyyət onun ilk yazılarından formalaşmışdır.

İlk hekayələrindən birində – 1961-ci ildə qələmə aldığı «Taksi və vaxt» hekayəsində «20 yaşında 20 yaşının qədrini bilməyən», «dayazı dərin görünən fəlsəfələrə qapılan» kişi gənc və gözəl Nərgizin gözəlliyi qarşısında bütün gənclik ehtirasları ilə titrəyir, zahirən nə qədər sakit görünsə də, daxildən o qədər didilib-parçalanır, bu gözəl qızı taksi ilə sevgilisinin ad günü məclisinə yola salarkən, az qala, yazıçının dediyi kimi, «cəlayi-zaman olmaq» dərəcəsinə gəlir: «Yerdə şəhər. Küçələr. Adamlar. Bu taksi. Bu taksidə dördümüz. Sürücü. Nərgiz. Mən. Bir də mənim əcaib məhəbbətim. Yox, bir də mənim yaşım – taksi sayğacının rəqəmləri kimi bir-birini təqib edən illərin sayı. Bir də mənim kədərim. Bir də onun nə ağıla, nə tərifə, nə də bu maşına sığmayan gözəlliyi…» Cümlələr şeir misraları kimi oxunur. Buradakı tempin izahına bu templə çatmaq olmur. Kişi bütün bunları öz qəlbində vuruşdurur, lakin, şübhəsiz, qız bu sakit və mehriban «əmi»nin daxilən necə didilib-parçalandığından xəbərsizdir. Gənc yazıçının fəlsəfi qənaəti də doğrudur: «Həyat musiqi kimidir. O, sona yetməkçün davam edir, dayana bilməz; qırıla bilər, kəsilə bilər, susa bilər. Lakin dayana bilməz…» Fürsət və gənclik quş kimidir: uçdu, tuta bilməzsən, ox kimidir: atıldı, geri qaytara bilməzsən. 20 yaşını iki dəfədən də çox addamış kişi düz düşünür; indi maneələr daha çoxdur: «O vaxt qarşımda yalnız öz biganəliyim, öz laqeydliyim, öz dəruni «soyuğum» dururdu. İndi isə real keçilməz sədlər. Yaş. Adamlar. Rəylər. Əxlaq normaları…»

Anar «Dədə Qorqud» povestini 70 – 73-cü illər arasında yazıb və həmin povest əsasında çox uğurlu «Dədə Qorqud» filmi yara-

dılıb. Povestdə və filmdə Dədə Qorqudun dediyi aşağıdakı sözlər insan qulağında tarixin əbədi yaddaşı kimi səslənir: «Oğul, Azər, onu bil ki, torpağın yurd, vətən olması üçün iki şərt lazımdır. Biri odur ki, gərək bu torpağı yağılardan qoruyasan. O torpağı ki, qoruya bilmədin, onu əkib-becərməyinə dəyməz. O torpağı ki, əkib-becərmədin, onu qorumağa dəyməz». Yalnız bu sözlərə görə, yüz il, min il sonra da o povesti oxumağa, o filmə baxmağa dəyər.

Anar insan duyğularını ifadə etməkdə, həm də yüksək poetik bir dil ilə ifadə etməkdə ustadır. Bu hal bir də onunla bağlıdır ki, bir yazıçı kimi, o, ümumxalq dilinə, onun müxtəlif laylarına, dərin qatlarına heyrət doğuracaq dərəcədə dərindən bələddir. Bu cəhət – ümumxalq dili okeanına bələdlik yalnız yazıçı sövqi-təbii ilə deyildir. Anar Mirzə Cəlil, Ə.Haqverdiyev zəminində boy atmaqla, daim dildə yad meyil və təmayüllərə qarşı mübarizə ruhunda böyümüş, dilimizin milli ruhunu qorumaq, onun zənginliklərini üzə çıxarmaq yolunda istedad və əməyini əsirgəməmiş, xalq şairi R.Rzanın alınmaları yeni tapıntılarla əvəzetmə və milliləşdirmə işini daha mürəkkəb və qabarıq psixoloji-linqvistik planda irəlilətmişdir. «Dədə Qorqud» povestinin leksikasını nəzərdən keçirməklə, onun xalq dilinin inkişafı tarixinə, zəngin xalq dili leksikasına necə bələd olduğunu görmək çətin deyil. 68-ci ildən redaktoru və naşiri olduğu «Qobustan» jurnalındakı dil fəaliyyəti xəlqiləşdirmə və ətraf mühitə təsir baxımından xüsusi tədqiqə layiqdir.

1984-cü ildə yazdığı «Nəsrin fəzası» məqaləsində ilk dəfə olaraq 60-cılar nəsrinin bir sıra səciyyəvi əlamətləri izah edilmişdir. 60-cılar nəsrinin yeni keyfiyyətlərini – bu nəsrin «geniş miqyaslı, çoxplanlı təsvirləri qəbul etmədiyini», «hər şeyi bir rəngdə – çəhrayı və ya qara rəngdə görmək istəmədiyini», «insanı mənfi və ya müsbət, təqlidə və ya inkara layiq deyə iki qismə bölmədiyini», «ucdantutma hər şeyi izah etməyə deyil, bu dünyanı dərk etməyə can atdığını», «igidlik, namus, ləyaqət, vicdan kimi keyfiyyətlərin müstəsnalığını deyil, ümumiliyini təsdiqləmək» yolu ilə getdiyini onun bu əsərindən öyrənirik. Yazıçının bütün yaradıcılığı, o cümlədən «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanı bu əlamətlərin təbii nümunəsi kimi yaranmışdır. 60-cılar ədəbiyyatı istiqlala aparan yolun başında durmuşdur. 20–30-cu illərin azadlıq

mübarizlərinin taleyi uğursuz olduğu, 37-ci il ilə nəticələndiyi halda, 60-cıların xoşbəxt taleyi onların müstəqil Azərbaycanda fəaliyyət göstərmələri ilə nəticələndi. Anar bu mübarizədə daim ön cəbhədə olmuşdur. Təkcə «Yaxşı padşahın nağılı» hekayəsini oxuyanlar yazıçını qanadlandıran mübarizə ruhunu aydın görə bilərlər. Onu da qeyd edək ki, istiqlal mübarizəsi təkcə 60-cılar ədəbiyyatına məxsus keyfiyyət deyildir. Bu mübarizə elmin, incəsənət və mədəniyyətin bütün sahələrində olmuşdur və hər bir sahə üzrə onun tədrici inkişaf və yüksəliş yolunun indi xüsusi tədqiqə ehtiyacı vardır. Məsələn, dilçi-tənqidçilər içərisində istiqlal mübarizəsinin görkəmli nümayəndələri T.Hacıyev, Y.Seyidov, A.Məmmədov, K.Vəliyev, K.Abdullayev, N.Cəfərov və b. (və bu yazıların müəllifi) istiqlal ideyalarından ilham almış, bu ideyalara qolqanad vermişlər.

Anar «ciddi»-lirik və lirik-epik yazıçıdır. Buradakı «ciddi»lik satirikliyə qarşı duran bir anlayışdır. Yəni Anar satirik yazıçı deyildir. Lakin həyat həqiqətlərini qələmə alan elə bir sənət ustası tapmaq olmaz ki, o, təbəssüm, gülüş qammalarından istifadə etməsin. Satiranı bir bədiilik prinsipi kimi bütün əsərlərinə tətbiq etməsə də, yəni bütövlükdə satirik yazıçı olmasa da, əsərlərindəki yumorlu, satirik epizodlar onu sevdirən mühüm əlamətlərdəndir. Bir sıra əsərlərinin pafosu satirik yolla açılır. «Yaxşı padşahın nağılı» hekayəsi və «Molla Nəsrəddin – 66»-ya daxil olan yazıları satirik plandadır.

Görkəmli sənət ustaları yalnız xalq dilindən öyrənməklə kifayətlənmir, müdrik və tutarlı ifadələrlə xalq dilini zənginləşdirirlər. «Tarixi-Nadiri yarısına qədər oxumuşam», «Heç hənanın yeri idi» və s. kimi ifadələr indi ümumxalq dilində geniş şəkildə işlənməkdədir. Bu cür ifadələr yaradıb-yaymaqda Ü.Hacıbəyovun musiqili komediyalarının böyük rolu olmuşdur. Anarın ssenarisi əsasında yaradılmış filmlərdə, yazıçının televiziya tamaşalarında, dram əsərlərində belə ifadələr çoxdur. «Evləri köndələn yar» televiziya tamaşasında bazarkomun gənc şairin ilk kitabını «150 qram» deyə çəki ilə qiymətləndirməsi, «Hellası oxu» deyə izi itirmək üçün vərəqləri arasında pul gizlədiyi tanınmaz yazıçını az qala qadınının gözünə soxması maraqlı tapıntı-detallardandır.

Yazıçı kino sənətimizin inkişafı sahəsində də xüsusi xidmət

göstərmişdir. Onun «Dədə Qorqud», «Üzeyir Hacıbəyov», «Gün keçdi», «Hər axşam 11-də», «Torpaq, Dəniz, Od, Səma» və s. filmləri, «Evləri köndələn yar», «Keçən ilin son gecəsi» televiziya tamaşaları xalqımızın çox sevdiyi əsərlərdir.

Anar gənclik illərindən Azərbaycan Teatr Cəmiyyəti sədrinin birinci müavini, Asiya və Afrika ölkələri ilə Respublika Həmrəylik Komitəsinin sədri və s. kimi mühüm vəzifələrdə çalışmış, hələ 60-cı illərdən əsərləri rus, ukrain, gürcü, erməni, eston, tatar, ingilis, fransız, alman, polyak, macar, bolqar, ispan, ərəb, fars dillərinə tərcümə edilməyə başlamışdır. Hazırda Respublika Yazıçılar Birliyinin sədri və millət vəkili kimi fəaliyyət göstərməkdədir.

60 yaşını qeyd etdiyimiz yazıçı bütün həyatını, istedad və bacarığını xalq işinə, xalqımızın mədəni inkişaf və yüksəlişinə sərf etmiş, böyük xalq sevgisi qazanmışdır.

Bu sevgi onu daha çox yaşatmalıdır.

26.02.1998

FİZİKA İLƏ LİRİKANIN VƏHDƏTİ

Bu üçüncü fizikdir ki, yaradıcılığının poeziya qolundan söz açıram. Vüqar Əmir oğlu ƏLİYEV!

Vüqar Əliyev 1955-ci ildə Qarayazının dilbər guşələrindən olan Soğanlıq kəndində anadan olub. Bakı Dövlət Universitetinin fizika fakültəsini, Azərbaycan Elmlər Akademiyasının əyani aspiranturasını bitirib. Belorusiya Elmlər Akademiyasının Bərk Cisimlər Fizikası İnstitutunda doktorantura hazırlığı keçib. Fizika-riyaziyyat elmləri doktorudur. Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya, Almaniya, Fransa, İsveçrə kimi ölkələrdə çap olunmuş 100-ə qədər elmi əsərin və 4 ixtiranın müəllifidir. 1986-cı ildə SSRİ Kosmonavtika Federasiyasının Fəxri fərmanı ilə təltif olunub. Görkəmli fizik kimi, Nyu-York Elmlər Akademiyasının, ABŞ-ın və Yaponiyanın Fizika Cəmiyyətlərinin həqiqi üzvüdür.

Fizika sahəsində tədqiq və araşdırmaları davam etdirməklə yanaşı, Vüqar Əliyev bir xeyriyyəçi kimi də fəaliyyət göstərməkdədir. Onun himayəsi və maliyyə yardımı ilə özünün də redaksiya heyətinin üzvü olduğu Respublika Elmlər Akademiyasının «Fizika» elmi jurnalı müvəffəqiyyətlə nəşr olunmaqdadır.

İnsanların taleyinə qaçqınlıq düşdüyü gündən V.Əliyev xalqımızın vətənpərvər və qeyrətli oğlu kimi, bir qaçqın uşaq bağçasını himayəyə götürmüşdür. Onun xeyriyyəçilik fəaliyyəti qədirbilən xalqımız tərəfindən yüksək qiymətləndirilmişdir. O, H.Z.Tağıyev Fəxri mükafatının laureatıdır. BMT-nin Qaçqınlarla iş üzrə Ali Komissarlığı göndərdiyi minnətdarlıq məktubunda onun qaçqın uşaqlara göstərdiyi xeyriyyə yardımını yüksək qiymətləndirmişdir.

Vüqar Əliyev ümumən çoxşaxəli və geniş fəaliyyət dairəsinə malikdir. Nankorluğun psixologiyası sahəsində apardığı araşdırmalar maraqlı nəticələr vermişdir. Prioritet xarakterli bu tədqiqlərinə görə o, bu yaxınlarda Böyük Britaniya və Şimali İrlandiya Asiya Kral Cəmiyyətinə üzv seçilmişdir. Vüqarın filologiya sahəsində araşdırmaları da maraq doğurur. İlk dəfə olaraq Azərbayc-

an folklorunda «çıraq» obrazını araşdırmışdır. Onun bu sahədəki araşdırmaları monoqrafiya şəklində nəşrə hazırlanır.

Bütün bunlar göstərir ki, Vüqarın poeziya sahəsində addımları, şeir yaradıcılığı təsadüfi deyildir. Əlimizdə olan toplu onu bir şair kimi də səciyyələndirməyə imkan verir.

Vüqarın poeziyaya meylini nə ilə izah etmək olar?

Hər şeydən əvvəl qeyd etməliyik ki, fizika ilə lirika arasında gözəgörünməz əlaqələrdən poeziya aləminə gizli bir yol var. Digər tərəfdən, tarix göstərir ki, əsl istedad sahiblərində təbiət elmləri ilə yanaşı, incəsənət duyumu da güclü olur. Şübhəsiz, Vüqarın poetik yaradıcılığında bu cəhətin də rolu böyükdür. Amma mənə elə gəlir ki, Vüqarı poeziya aləminə çəkən onun mühitidir – doğulub boya-başa çatdığı, gənclik illərini keçirdiyi Qarayazı mühitidir. Qarayazı mühiti elə bir mühitdir ki, daim görkəmli saz və söz sənətkarları yetirir. Mən hələ bu ərazidən elə bir şəxs görməmişəm ki, poeziya vurğunu, xüsusən aşıq şerinin pərəstişkarı olmasın. Elə buna görə də Vüqarın yazdığı şeirlər əksəriyyət etibarilə xalq poeziyası janrlarındadır – qoşmalardan, gəraylılardan, divanilərdən, təcnislərdən, ustadnamələrdən, bayatılardan, qıfılbəndlərdən, müxəmməs, müsəddəs və sairdən ibarətdir.

Şifahi xalq şerinin də öz əbədi mövzuları var. Bu mövzular içərisində gözəlin tərifi, sevgiliyə vurğunluq, hicran yanğısı, vüsal arzusu tarixən daha güclü olub, el şairlərini daha çox dilləndirib. Vüqarın «Nə gözəl yaradıb yaradan səni», «Ay gəlin», «Pişvazında dayandım», «Qadasın alım», «Var», «Çək, qadan alım» qoşmaları, «Qurban olum», «Yalvara-yalvara», «Yarım məndən küsüb getdi», «Bədnəzər var» və s. gəraylıları məhəbbət mövzusundadır. Bu cür şeirlərdə müqayisə və epitetlər də çox zaman klassik yazılı və şifahi ədəbiyyatdan gəlir:

Nilufər qoynunda mehman olduğum,
Nə gözəl yaradıb yaradan səni!
Simuzər boynuna heyran olduğum,
Nə gözəl yaradıb yaradan səni!

Vətən və yurd sevgisi, doğma torpağın yadlar tapdağından xilası bütün vətənpərvər insanlar kimi, Vüqarı da düşündürür, naxə-

ləf və nankor qonşularımızın ucbatından suyu quruyan bulaqlarımız, gülü solmuş bağçalarımız, cığırları itmiş çəmənlərimiz onun qəlb ağrılarını üzə çıxarır, zamanın yaratdığı, hakimlərin ağılsızlığından, xəyanət və vəzifə hərisliyindən, siyasi korluğundan doğan «çadır şəhərcik» insan qəlbində ağır kədər yaradır:

Şaxta vurmuş, gülü solmuş bağçalar,
Bülbülləri susmuş çadır şəhərcik…
Kuzələri sınmış dilbər bulaqlar,
Suları qurumuş çadır şəhərcik…

Vüqarın arzuları bütöv bir elin, böyük bir xalqın arzusudur:

Vətənin üstündən duman çəkilsin,
Nisgilin, hicranın ömrü kəsilsin,
Bayrağımız Xankəndində yüksəlsin,
Tanrıya uzanan əllər sevinsin.

Vüqar inanır ki, vətənin qəhrəman oğulları, qəhrəman qızları öz qisasını alacaq, vətən düşmən tapdağından xilas olacaq, hər kəs öz doğma yurduna qayıdacaq, yenidən abadlıq, quruculuq işləri başlayacaq:

Qaçqınların anasısan,
Qisasını alasısan.
Füzulidə qalasısan,
Dəyanətli Afət xanım!

Ümumən, Vüqar bəxt, tale məsələlərinə inanan, inamlı və imanlı bir insandır. Ona görə də saf qəlbli, işgüzar insanların xoşbəxtliyinə inanır, göylərin belələrinə yar olmasını arzulayır. Lakin fələyin də işlərindən baş açmaq olmur:

Vaxt olar, yetərsən dada, murada,
Vaxt olar, yolları bağlarsan, fələk!
Vaxt olar, qoyarsan qurub-yarada,
Vaxt olar, dərd verib dağlarsan, fələk!

«Çıraq» mövzusu Vüqarın sevdiyi mövzudur. ***Çıraq*** dedikdə, vətənin işıqlı insanlarının işıqlı arzularını, Azərbaycan ziyasını, düşmənin gözünə xəncər kimi batan mübarizlik ruhunu, düşmənin gözünü kor edən qılınc parıltısını nəzərdə tutur:

Düşmənə göstərər cəng ilə zoru,
Hücuma çağırar hər dəmir qolu.
İşıqla zarafat edən nankoru
İşığına həsrət qoyan çırağım!

Torpaq sevgisi Vüqarda çox güclüdür. Zəmanə gənclərinin bir çoxundan fərqli olaraq, doğulub-böyüdüyü torpağa ürək telləri ilə bağlıdır. Buna görə də «Soğanlıq» mövzusuna bir neçə dəfə qayıtmış, boya-başa çatdığı bu kəndə bir neçə şeir həsr etmiş, doğma kəndini sevə-sevə təsvir etmişdir:

Yenə də qoynuna düşdü güzarım,
Doğma obam, barigahım Soğanlıq!
Könlümün oylağı, gülüm, gülzarım,
Dil əzbərim, seyrəngahım Soğanlıq!

«Az çəkmişəm cəfasını, çox sürmüşəm səfasını», «Qəbirdə də qadasını alasıyam Soğanlığın» deyən şair Soğanlıq kəndinin düşmən önündə bir qala kimi durduğunu, barlı-bərəkətli tarlalarını, «Kür qırağında gülüstan» bir yurd olduğunu incə və zərif duyğularla tərənnüm edir.

Vüqarda ata-ana sevgisi, ata və ananın simasında vətənin ulu insanlarına sevgi oxucuya xoş təsir bağışlayır:

Əziz anam, şirin laylam,
qəlb sirdaşım Sarabəyim!
İlk əlifbam, yol yoldaşım,
məsləkdaşım Sarabəyim!

~

Ana yalnız sevgi obyekti yox, eyni zamanda, sirdaşdır, oğul dərdlərini dinləyən anaların timsalıdır. Anaya müraciətlə dediyi şeirdən aydın olur ki, Vüqar da asan yol keçməmiş, xeyriyyəçilik

imkanlarına qədər kasıblıq məngənəsində sıxılmış, halal zəhməti, mübarizlik ruhu ilə çətinliklərdən xilas ola bilmişdir. «Var» rədifli şeir bu cəhətdən daha səciyyəvidir:

Rüzgarın küləyi əsib,
Ruzi yollarını kəsib.
Pis gün qismətimə nəsib,
Yaxşı günə həsrətim var.

Vüqarın miniatürləri, hekayələri və başqa janrda şeirləri də var. Şeir elə bir aləmdir ki, hər bir istedad sahibini gec-tez özünə çəkir. Vüqar hələ gəncdir. İstək və arzuları böyükdür. Biz ona elmi və bədii yaradıcılıq sahəsində daha böyük uğurlar arzulayır və ümid edirik ki, onun bu ilk şeir toplusu oxucular üçün də maraqlı olacaqdır.

* * *

Vüqar Əliyev klassik alimlər kimidir. Elmin, ədəbiyyat və incəsənətin, demək olar ki, bütün sahələri ilə maraqlanır. Od, İşıq, Günəş, Çıraq mövzusunun vurğunudur. Bir tərəfdən də xalqımızın yaratdığı folklor nümunələrinin toplanması və tədqiqi ilə məşğuldur. Oxuculara təqdim etdiyi bu kitab isə («Günəş, Od, Ocaq, Məşəl, Şam, Çıraq», Bakı, «Oğuz eli» nəşriyyatı, 1998) konkret bir mövzuya, ümumiləşmiş şəkildə desək, İşıq mövzusuna həsr olunmuşdur. Kitabın adı bəşəriyyətin bu sahədəki mədəni yüksəliş yolu barədə çox şey deyir: Günəşdən Oda, Ocağa; Ocaqdan Məşələ, Məşəldən Şama, Çırağa gətirib çıxaran inkişaf yolu barədə zəngin elmi-bədii təsəvvür yaradır.

Dünya xalqlarının folkloru çox zəngindir və cild-cild kitablara sığmaz. Bunların hamısı haqqında balaca bir kitabda məlumat vermək qeyri-mümkündür. Hətta konkret bir mövzu – İşıq mövzusu ilə bağlı dünya xalqları folklorundan seçmələr də, əgər kifayət qədər əhatə edilsə, nəhəng bir kitaba sığmazdı.

Vüqar Əliyev bu cəhəti nəzərə alaraq çox sevdiyi bu mövzu ilə bağlı sistemli təsəvvür yaratmaq üçün, ilk təşəbbüs kimi, ön planda Azərbaycan folkloru olmaqla, dünya xalqları folklorundan seçmələr əsasında maraqlı bir toplu hazırlamışdır.

Kitab folklorun kiçik janrlarını – inam-etiqadlar, alqışlar-dualar, qarğışlar-bəddualar, andlar-qəsəmlər, atalar sözləri və zərbi-məsəllər, bayatılar, tapmacalar, atmacalar, yanıltmaclar, hikmətli sözlər və sairi əhatə edir. Azərbaycan folklor nümunələri ilə yanaşı, ingilis, rus, amxar, ərəb, başqırd, Vyetnam, qaqauz, gürcü, dargin, qədim hind, zulu, qazax, kalmık, qırğız, çin, Koreya, lak, İndoneziya, monqol, Nepal, osetin, fars, sinqar, tatar, teluq, tuvin, türk, türkmən, özbək, çeçen, yapon və s. çox müxtəlif xalqların folklorundan seçmələr oxucu üçün maraqlı olacaqdır. Günəş, Od, Ocaq, Məşəl, Şam, Çıraq mövzusunu əhatə edən folklor nümunələri əksəriyyət etibarilə müasir olsa da, burada qədim abidələrdən seçmələr də vardır. Azərbaycan folkloru Arazın hər iki sahilini əhatə edir. Başqa xalqların deyimləri (məsələn, ingilis məsəlləri) bəzən həm orijinal şəkildə, həm də tərcümə edilərək verilmişdir. Başqa xalqların folklor seçmələrini müəllif rus dilində verməli olmuşdur.

Müəllifin yazdığı giriş onun zövqü, ümumi elmi maraq dairəsi, düşüncə və dünyagörüşü barədə xoş təəssürat yaradır.

Toplu xaricilər üçün də faydalı olacaq. Müəllif tərəfindən kitabın sonunda verilən biblioqrafik arayış, hikmətli söz müəllifləri haqqında məlumat və istifadə olunmuş ədəbiyyat Azərbaycan ədəbiyyatı və mədəniyyəti haqqında məlumat almaq üçün zəngin material verir.

Kitab oxucuların köməyi ilə gələcəkdə təkmilləşdirilə bilər.

1998

ÜRƏK DƏRDİ, VƏTƏN YANĞISI

Oqtay İsgəndər oğlu Ələkbərov (Oqtay Zəngilanlı) 1939-cu ildə Zəngilan rayonunda anadan olub. 1962-ci ildə BDU-nun geologiya-coğrafiya fakültəsini bitirib. Uzun müddət doğma rayonunun Mincivan qəsəbəsindəki 36 nömrəli dəmiryol orta məktəbində müəllim işləyib. Hazırda Bakıda fəaliyyət göstərən Zəngilan qaçqın məktəbində pedaqoji fəaliyyətini davam etdirir.

Bu sözlər 50 yaşını xeyli əvvəl addamış bir insanın qısa tərcümeyi-halıdır. Biz bunları bir neçə sətrə yerləşdirdik. Lakin Oqtayın Vətən duyğuları, köçkünlük əzabları, ulu yerlərin həsrəti ilə döyünən qəlbinin keçirdiyi hissləri cild-cild kitablara sığışdırmaq olmaz. Oqtayın Bakıda evi də var, yaşayış şəraiti də pis deyil. Gözəl övladları – oğul-uşaqları, nəvələri də yanındadır. Lakin könül açılmır, ürək gülmür. Vətən nisgili, doğma torpaqların ətri, axar çaylar, dərin dərələr, hər gün gözlərini zillədiyi uca dağlar, o yerlərin çölü, çəməni, ətirli yasəməni, kənd yollarının tozu-torpağı belə yaddan çıxmır, gözəgörünməz bir rişə ilə ürək tellərini o yerlər özünə çəkir, ürək misilsiz bir itkinin təsiri ilə daim nəyisə axtarır, nədənsə narahatdır – qurtarmır bu ağır bəladan, qurtara da bilməz o doğma yerlərə ayaqlarımız dəyməyincə, o kolları, o ağacları, o daşları, o torpağı qucaqlayıb öpməyincə, ürək boşalmaz, təmizlənməz, özündə rahatlıq və yüngüllük tapmaz o torpaqlara sərilib hönkür-hönkür ağlamayınca, intiqam neştəri düşmən ürəyini dağlamayınca-deşməyincə:

Kədər dənizində üzən gəmiyəm,
Yanıqlı bir udun zili, bəmiyəm.
Yurdu viran qalan elin qəmiyəm,
Bir vətən həsrəti göz itirmişəm.

Oqtayın Vətən həsrəti ifadə edən şerlərində bir Kərəm yanğısı, Qərib yanğısı, Qurbani yanğısı var:

Tor qurdular, tərk eylədim obamı,
Qoyub gəldim balta, dəhrə, yabamı.
Sübh yuxumda sönmüş gördüm sobamı,
Baba ocağımda köz itirmişəm.

Xainlərin, satqınların, alçaqların, yaramazların, vəzifə və hakimiyyət qullarının ucbatından doğma yurdunu, ata məzarını itirən, məşəqqətli günlər keçirən, ata-baba məzarına yad ölkədən həsrətlə boylanan insanların dərdidir süzülüb gəlir Oqtayın qələmindən:

İrandan hey baxdım ata qəbrinə,
Dedim kaş girəydim onun yerinə,
Kədər kəndirimdə endim dərinə,
Ağlaya-ağlaya çaldım qəm tarın,
Qoruya bilmədim ata məzarın.

Qaçqın və köçkün həyatı, çadır şəhərciklər, xaricilərin göndərdiyi, yerli namərdlərin daha çox öz aralarında bölüşdürdüyü pay insanı təhqir edir, əyir, alçaldır, insan qəlbi üsyan edir, bu dərdlərə tablamır:

Tapdalanır abır, həya,
Yardım almaq istəmirəm.
Lənət sənə, belə dünya,
Qaçqın qalmaq istəmirəm.

Qəlbə dəyir gündə biri,
Udmaq olmur hər təhqiri.
Ruhum ölür diri-diri,
Qaçqın qalmaq istəmirəm.

Oqtay yaxşı bilir ki, bu xalq yenilməzdir. Lakin araya nifaq salanlar, xalqı birləşməyə, ümumi düşmənə qarşı birgə mübarizəyə imkan verməyən tayfabazlar, öz vicdanını pula satanlar, Vətən torpağı ilə alver edənlər var. Namus yükünü çəkən insanlar belələrinin qurbanlarıdır:

Yaltaqlıq göstərib rütbə alanı,
Xalqın dərd-qəmindən uzaq qalanı,
Xalqın birliyinə nifaq salanı
Bir qul bazarında sata bilmirəm.

Lakin Oqtay qəm örtüyünə bürünüb göz yaşları tökməklə Vətənə qovuşmağın mümkünsüzlüyünü də yaxşı dərk edir. Vətənə qovuşmaq üçün, düşməni dişi ilə, dırnağı ilə didib yaralı torpaqları düşmən tapdağından xilas etmək üçün bütün Azərbaycan ayağa qalxmalıdır:

Gəzməyəcəm yetim-yetim,
Var minlərlə nər igidim.
Edib yadı didim-didim
Yurd-yuvama qayıdacam.

Sülh ilə olmasa, cənglə,
Yaraqlanıb top, tüfənglə,
Vuruşub zalım fələklə
Yurd-yuvama qayıdacam.

Torpağın özü kimi, onun həqiqi övladları da pakdır, təmizdir, qeyrətlidir, insaflıdır. Bizim xalq heç vaxt özgə payına, özgə torpaqlarına göz dikməyib. Zor işlədən, qoluzorluya söykənib başqalarını əzməyə çalışan yoxsul mənəviyyatlı cibidolu insanlarla yanaşı, «arxalı» xalqlar da var. Daxili satqınlar bu arxalı köpəklərlə tez birləşə bilirlər:

Arxalı köpəyin qoy çıxsın canı,
Düşmən içəcəkdir tökdüyü qanı.
Tanrım, düz yola çək özün dünyanı,
Özgədən biz torpaq ummuruq, vallah,
Qələbə sevinci ver bizə, Allah!

Sirli-soraqlı bu dünyadan baş açmaq, tanrının işləklərini başa düşmək, bu dünyanın məntiqini duymaq və qavramaq olduqca çətindir. İnsan bəzən bu dünyaya nə üçün gəlib-getdyini da anlaya

bilmir. Cəmiyyətin işıqlı bir idealı olmadıqda, keçiləcək yol insan üçün qaranlıq olduqda açılmaz, sirri bilinməz oyunlar içərisində çabalayan insan təngnəfəs olur, sanki çəkisizlik şəraitinə düşür:

Dünya hakim, köləsi mən,
Hardan sirrin biləsi mən?
Doğulan mən, öləsi mən,
Biləmmirəm dünya nədir.

Və ya:

Tərsinə dövr edir bu çərxi-fələk,
Haqsızlar haqlıya tuşlayır tüfəng,
Zaman dünyamızı didir pələng tək,
Ağlayır uşaq tək yüzündə dünya.

Didərginlik dərdi böyük dərddir, didərgin həyatı üzüntülü və təhqirlərlə doludur. Bu oyunların başında duranlar var. Kimdir, bilmək olmur. Oqtay da bu hissləri keçirir, belə dəhşətli oyunların qurbanı olduğu üçün fəryad qoparır:

Günahkar kimdir ki, aranı qatdı,
Xain, yaylağımı, aranı satdı.
Köksümə didərgin tikanı batdı,
Bir fəryad qoparır sözüm «didərgin».

Mən canlı şəhidəm, duymazsan bunu,
Düşmüşəm bəlaya, bilinmir sonu,
Geyinib əyninə bir mələk donu
Məni az qovala, ay dəli əcəl.

Əksəriyyəti vətən həsrəti ifadə edən şeirlər içərisində cəsur və igid döyüşçülərimizin, qəhrəman vətən övladlarının, şəhidlərimizin, şəhidlik zirvəsinin təsvirinə həsr edilmiş şeirləri də maraqlı və təsirlidir. Bu cəhətdən «Şəhidlər ölməzlərdir – ölməzi ağlamazlar» şeri diqqəti xüsusilə cəlb edir. Vətənin bayrağını uca tutan, ölümün gözünə dik baxan, cəlladlar önündə qorxmaz dayanan, ölümün üzünə sillə vuran şəhidlər:

Şəhidlər qeyrət çəkən
yurdun vətəndaşıdır,
Şəhidlər azadlığın
uca heykəl daşıdır.
Şəhidlər qələbənin
sevincdən göz yaşıdır.
Şəhidlər şimşək kimi -
buludlar saxlamazlar,
Şəhidlər ölməzlərdir –
ölməzi ağlamazlar.

General Məhəmməd Əsədovun xatirəsinə həsr olunmuş «Ağlayır ana Zəngilan», Milli qəhrəman Əsədin xatirəsinə həsr olunmuş «Ölümünə inanmıram», igid döyüşçü Firdovsinin xatirəsinə həsr olunmuş «Ölüm yaraşmayır sənə, Firdovsi», «Hərbi xidmətlərə görə» medalı ilə təltif edilmiş Nadir Bahadur oğluna həsr olunmuş «Qrad Nadir» və bunlardan əlavə, «Ölüm qorxusunu atdı Etibar», «Üç oğul dəfn edir bu gün Mincivan», «Ay qoçaq Nəbi», «Qaldı ürəklərdə», «Qəddini bükmə, Dağbəyi» şeirləri vətən igidlərinin canlı şücaətindən bəhs edir. Qəhrəman şəhidlərin bir çoxu daxili xəyanətin qurbanlarıdır:

Yaman gündü, qalx, Məhəmməd!
Hanı dostlar – Tofiq, İsmət?
Bu nə tale, necə qismət –
Ağlayır ana Zəngilan.

Tofiq Abdinin bir yazısında deyildiyi kimi, «Oqtay Zəngilanlı bir dərd şairi olaraq diqqəti çəkməkdədir. Oqtayın şeirlərində ağrı tarixi Qarabağ savaşı ilə doğulmuşdur». (Türkiyədə çap olunan «Yeni Asiya» qəzeti, 5 may 1995-ci il, Ankara.)

«Sevincli məhəbbət, qəmli məhəbbət» rubrikasından göründüyü kimi, hətta məhəbbət məqamında da şairin bir gözü güləndə, bir gözü ağlayır. «Qəmli baxma gözlərimə», «Mən bir məhəbbət acıyam», «Dözə bilmirəm», «Niyə yatıb bəxtim mənim», «Əllərinin hərarəti» və başqa şeirləri saf və təmiz bir qəlbin çırpıntıları-

dır. Gənclik eşqi ilə yazılmış bu şeirlərdə hüzn, kədər, qəmlə yanaşı, aşiqin dözümü də öz ifadəsini tapmışdır:

Hər möhnətə dözəcəyəm,
Külək olub əsəcəyəm,
İlk sevgimi gəzəcəyəm,
Mən bir məhəbbət acıyam.
Gözlərində yad baxışam,
Həsrətindən saralmışam.
Yazı ötüb, qarlı qışam,
İndi mənə sözün nədi?

«Sənsiz məni zülmət boğar, Baharıma qarlar yağar», «Gül-çiçəyi solmuş yazam», «Şirinliyi itmiş diləm», «Qara dönüb qara saçım», «Saçlarımda darağımdır əllərinin hərarəti» və s. kimi səmimi misralar orijinal deyim tərzi, şair duyğularının təbii ifadə vasitələri kimi diqqəti cəlb edir. «Varsa məhəbbətin tacı, dürdanəsi Füzulidir», «Əlacı yoxsa eşqin, bil, çarəsi Füzulidir» və s. düşündürücü misraları Oqtayı sevdirir. Onun şeirlərini oxuyan hər kəs Zəngilanın gözəl dağları, meşələri, bulaqları, əkin-biçin sahələri ilə görüşə gəlir. Şübhəsiz, bunlar qaçqın yerli əhali üçün, az da olsa, təskinlik mənbəyidir. Ab Seyid dərəsi, Bartaz yaylağı, Qotur su, İsmayıl bulaqları, Süsən meşəsi, Çinar meşəsi «Ölsəm, Zəngilandır dərdimə dərman» deyən şairin ürək çırpıntıları ilə təsvir etdiyi meşələr, dağlar, bulaqlar, yaylaqlardır. «Könüllər oxşayan Çinar meşəsi», «Qıvrıla-qıvrıla axan Bəsit çay», «Babəkdən iz qalan Şəhri– Şərifan» kimi misralar şairin ürək şərarələridir.

Oqtay sözdən ustalıqla istifadə etməyi bacarır və sözün qiymətini yaxşı bilir. Sözdən riyakarlıqla istifadə edənləri sevmir. «Söz» şerində deyir:

Layiq olmayan kəs tərifənən an
Söz özü utanır, qızarır, inan.

Oqtay sadə bir adamdır, söhbətcil və mehriban bir insandır. Sızlayan kaman kimi, ürək dərdlərini səmimi şeirləri ilə ifadə edir. «Şeir yazmaq istəmirəm» desə də, ağrılar, acılar, ürək dərdləri göz yaşlarına qarışaraq misralara çevrilir. Maraqlı nəğmələri, uşaq

şeirləri və qəzəlləri var. Bütün bunlar bir el şairi mənziləsində olan Oqtayın dərdlərini, sevincli və kədərli günlərini gələcəyə, gələcək nəslə aparmaq üçün ən yaxşı vasitələrdir.

Gün o gün olsun ki, Zəngilanın – ana Zəngilanın suyu, torpağı, havası, meşəsi, dağları, çəmənləri, bulaqları, qəhrəman oğul və qızları ilə yanaşı, Şuşanı, Laçını, Kəlbəcəri, Qubadlını, Cəbrayılı, Füzulini bir an belə unutmayan Oqtayı o torpaqlarda təbrik edək, onun təbəssüm və sevinc yaşlarına bürünmüş üzündən öpək, öpək...

26.11.1998

REYHAN ƏTİRLİ ŞEİRLƏR

Azərbaycan Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyinin bu günlərdə çap etdiyii «Xəzan yarpaqları» kitabı Nəbi Xəzrinin əsasən son iki ildə qələmə aldığı duyğu və düşüncələrinin məhsuludur.

Şeirləri oxuduqca hiss edirsən ki, şairin əzablarla dolu, enişli-yoxuşlu dünyamıza məhəbbəti böyükdür: «Məhəbbət ölçülmür illə, əsrlə; Məhəbbət ölçüsü əbədiyyətdir», «Məhəbbət bəşərin zərrin tacıdır», «Zaman tarlasında gərək böyüklər Mehribanlıq əkib, məhəbbət biçə» kimi misralar gənclik ehtirası ilə döyünən şair qəlbinin hələ insana məhəbbət dolu çox sözü olduğunu göstərir. Şair bəşərin tarixini, müasir insanın mənəvi aləmini məhəbbətlə vərəqləyir, insanın zərif duyğularını, bəşərin ağrılı-acılı günlərini sözün köməyi ilə sənətdə əbədiləşdirməyə çalışır. Gözəl söz özündə insan gözəlliklərini, təbiətin ətrini yaşadır: «Tanrı, sözlərin də ətri olarmış!» Bu kitabı oxuyan hər kəs həqiqi poeziya dili ilə son illərdə çəkdiyimiz əzab və ağrılar, xoş gün, firavan həyat arzularımız, mənəvi yoxsulluq və aşınmalar barədə zəngin bilik ala bilər. İndi şöhrət nəyə yönəlib? Elm, sənət, poeziya şöhrət mənbəyi kimi öz əhəmiyyətini niyə itirib? Niyə var-dövlət, quldurluq, rüşvətxorluq, riyakarlıq, ikiüzlülük, xalqla üz-üzə durmaq meyilləri, söz ilə əməl arasındakı uçurum şöhrət, hörmət mənbəyi olub. Əliəyrilik, soyğunçuluq, xəbislik, satqınlıq, cəmiyyətdə tüğyan edir, namus və şərəf sahiblərini küncə qısnayıb. Ağ və işıqlı günlərin üzərinə, elə bil, qara pərdə çəkilib. Ümid çırağını üfürüb keçiriblər və yanmağa qoymayanların çoxu iş başındadır. Hamımız bu əzabların,

əzablı günlərin içərisindəyik. Duyuruq, düşünürük. Qəlbimiz üsyan edir. Şair isə, bizdən fərqli olaraq, bu əzabları qələmə almaq üçün özündə güc tapır, öz təmkin və iradəsi ilə bunları bugünkü oxuculara və gələcək nəslə çatdırmaq üçün dəyanət və müdriklik nümayiş etdirir.

«İnsanı ilan tək çalan dünyada» insan kimi yaşamağın özü çətindir. Şair «Hər gün kobudlaşan zəmanəmizdə Kobudlar yanından tufan kimi keç» desə də, mümkün deyil, sən qaçdıqca, səni qovurlar. Ən dəhşətlisi də budur ki, bu cəmiyyət insanla birlikdə onun qurub-yaratmaq, xoş üzlə sabaha getmək inamını da ovub tökür, sındırır. Zəmanə insanlarının qəlbində şeytan gizlənib. «Buz tək baxışlardan bir anda sındım», «Sındım, paralandım, odlandım Fəqət «Əlvida» deməyə dilim gəlmədi», «Təkcə mən sınmadım, bir an içində Böyük inamımla Mən birgə sındım», «Çiynimdə əzablar ağır bir taya», «Dağ gördüm dağların sinə dağı tək» – şairin narahat dünyası bu cür misra və beytlərlə üzə çıxır. «Səadət axtardıq əli çıraqlı», «Həqiqət axtardıq əli çıraqlı». Nə fayda! Bəşər hələ kamilləşməyib, tayfaçılıq, dostbazlıq, vəzifəpərəstlik, düşkünlük halları baş alıb gedir. Ləyaqətsiz adamlar bütün cəmiyyətin ləyaqət örtüyünü dağıdıb, yox ediblər. Amma şair bir vaxt haqqın, ədalətin öz yerini tutacağına da inamsız deyil: «Satqın, haqqın cəzasından ha qaçsa da, qaça bilməz!» «Dünyanın ən böyük aqili kimdir?» sualına «Kim cavab vermirsə cahil sözünə» cavabı göstərir ki, şair qurtulmaq üçün başqa çarələr də axtarır, özünə təskinlik verməyə çalışır.

N.Xəzri «Məşhur» şerində indiki «məşhurluq» yollarını açıb-tökür: «Şair olmaq qəbahətdir, şöhrət indi var-dövlətdir». Elə buna görə də belə bir cəmiyyətdə zəhmət, sənət, elm, istedad artıq anaxronizmlər cərgəsindədir:

Sənin arzun öz gücünü
Bir ilahi sözdən alır.
Neçin xalqım belə deyib?
Millət üçün ağlayanlar gözdən düşüb!
İllər boyu çəkdin millət dərdini sən,
Sinə gərdin quduzlara,
Dua qıldın sonsuzlara...
Hər kitab bir xəzinədir.

Bu gün isə kitab nədir, şeir nədir!..

İxtiyar sahibləri ölkəni müstəqillik adına müstəqil şəkildə çapıb-talamaqla məşğuldurlar. İdeyalar, məsləklər dəyişib, yaramaz dövran insanın mənəviyyatını da yaramaz istiqamətə yönəldib.

Hələ vaxtilə böyük Nizami müasiri olan şahlara üz tutaraq deyirdi:

Xalq razı qalmasa bir hökmdardan,
Hakimi qurd kimi didəcək zaman.

«Tarixin dərslərindən» şerində Nəbi Xəzri də keçmişi nəzərə alaraq eyni duyğunun dili, eyni fəlsəfi ümumiləşdirmələrlə danışır:

Süngülər üstündə dayanan dövlət
Elə süngülərlə yıxılmadımı?

Şair yaxın keçmişin acı nəticələrini xatırlayır – milləti sevmək əvəzinə özünü sevən, insanları zəhmət əvəzinə tərif və alqışa öyrədən, «dövlət də, millət də mənəm» deyən hakimi-mütləqləri ustalıqla ifşa edir: «Təriflər üstündə yüksələn heykəl Elə təriflərlə uçulmadımı?», «Alqışlar üstündə ucalan nüfuz Sonra qarğışlarla çevrilmədimi?», «Dövlət də, millət də mənəm» deyənlər Xalqın mənliyini necə tapdadı?» Bunlar hamısı tarixin dərsləridir.

Ölkəni əxlaqsızlıq meydanına, qumarxanalara çevirənlərə şairin nifrəti sonsuzdur. Bu ölkədə son vaxtlar qumarxanaların «göbələk» tək bitib-çoxalmasından qeyzə gələn şair qumarda udanın da, uduzanın da ilk zərbələrinin millətə dəydiyini söyləyir:

Axı uduzanın nə vecinədir?
Udsa özü udur, uduzsa millət.

Ha yaxşılıq elə, ha çalış-vuruş, ifritələrin cəngindəsən:

İnsan bir mələyə könlünü verdi,
Əfsus, sonra bildi o, ifritədir.

Çünki bu dünya elə qurulub ki, «Qulun pulu yoxdur, pulun

qulu var». Həmin bu pulun qulu olanlar öz mənəviyyatsızlıqları ilə ölkəni, insanları mənəviyyatsızlaşdırırlar. Deməyə söz çoxdur, lakin heç kim, hətta şair də hər şeyi deyə bilmir. Beləcə, biz dərd ürəyimizdə bu dünya ilə vidalaşırıq:

Gedirəm, əriyir ömür adlı şam,
Qalır ürəyimdə ürəyimdəki.

Şairi düşündürən mühüm məsələlərdən biri az qala unudulmaqda olan Qarabağ problemidir. «Məgər poladdandır əsəblərimiz? Atanı, ananı itirdik, dözdük, Torpağı itirdik, necə dözək biz?» Torpaq da yetimdir – «Yadlar əkib-biçən torpaq yetimdir». Şair «Tarixdən gələn səs» şerində «Düşmənə od saçan qılınc gərəkdir!» – deyə haray qoparır, mürgülü başları ayıltmağa çalışır. Satqınlar peyda olandan, «tərəzi cingiltisi» «qılınc cingiltisini» əvəz edəndən ellərimiz darda qalıb, torpaqlarımız nalələr çəkir. Şairin gəldiyi nəticə doğrudur: «Qılıncı pas atan insan məğlubdur».

Qocalıq dərdi də şairi hərdən dilləndirir. Buna baxmayaraq, o, yalan dünya ilə qocalıq arasında nikbin duyğularla yaşayır, belə məşəqqətli bir dünyada «reyhan ətrini» heç vaxt unutmur:

Özüm də bilmirəm nə üçün, nədən
Reyhan ətirlidir dünya mənimçün.

Daim ürəkdən ürəyə işıq aparmağa çalışan şairi indi zəmanənin haqsızlıqları bir qədər də kövrəldib:

Tapşırıb torpağa şeri, sənəti,
Uçub mavi-mavi göyə gedirəm.
Yaşadım, bilmədim bir həqiqəti:
Mən neçün gəlmişdim, niyə gedirəm.

Bütün işıqlı insanlar belədir. Öz böyüklüyü məqamında təvazökarlıq edir. Qocalıqdan dəm vurmasın, nurlu və işıqlı şeirləri ilə insana ümidli günlər bəxş edən şair hələ bundan sonra da neçə ye-

ni şeir kitabı ilə dünyanın şirinliyini və çərxin bəlalarını qələmə almalı olacaq.

22.01.1999

ÖZÜ NİSGİLLİ, TALEYİ XOŞBƏXT ŞAİR

Əli Tudə– 75

Gözümü elm aləminə, poeziya dünyasına açdığım ilk gündən bir «Əli Tudə» imzası həkk olub yaddaşıma. İti və kəskin baxışlarında, kitablarının titul səhifəsində verilən şəkillərindəki sərt üzündə bir nigaranlıq, narahatlıq, narazılıq da sezmişəm. Özü ilə söhbət qismətim olmasa da, bu nigaranlığın kökləri mənim üçün aydın olub. Vətəndə Vətən həsrəti! Taleyin dönüklüyündən narazılıq! Çox gənc ikən – 20–21 yaşlarında görüb-sevindiyi, bütün varlığı ilə qovuşduğu milli qurtuluşun acı nəticələri, faciəli sonluğu! Sevgilisinə, doğma yurduna bu gün-sabah qovuşmaq arzusu ilə yaşadığı 50 illik üzüntülü mühacir həyatı, əbədi ayrılıq, səbrin dəhşətli uzunluğu!

Mənə qapı açana
Astanada nə deyim?
Necə deyim o boyda
Yurdu qoyub gəlmişəm?
Mən kimə aldanmışam,
Nəyə uyub gəlmişəm?

Əli Tudə gənc yaşlarında ayrıldığı bu diyarı, bu dünyanı heç vaxt unutmamış, gecə-gündüz onu xəyalında yaşatmış, ürək qanı ilə yazdığı misralarda hifz etmiş, göz yaşlarında qorumuşdur:

Özgəni bilmirəm, dünya üzündə
Mənimçün gözümdə yaşdır Vətənim!

Əli Tudənin – Əli Qulu oğlu Cavadzadənin ata-anası əslən Cənublu olmuş, Ərdəbilin Çanaxbulaq kəndindən Bakıya köçmüş və 1924-cü ildə Əli Bakıda doğulmuşdur. Bakıda 7-ci sinfi bitirdiyi dövrdə ölkədə başlayan repressiya nəticəsində ailəni İrana sürgün etmişlər. Əli Tudə burada inqilabi hərəkata qoşulmuş, 1945-ci ilin dekabrında qurulan Milli hökumətin Maarif Nazirliyində şöbə

müdiri işləmiş, ana dilində dərslik nəşrinə çalışmış, ilk dəfə olaraq Təbrizdə Milli Filarmoniya təşkil etmişdir. Yüksək xidmətlərinə görə Milli hökumət onu ən ali mükafat olan «21 Azər» medalına layiq görmüşdür. Bir il sonra zor dünyasının Milli hökumət üzərinə qara pərdə çəkməsi ilə yenidən Şimala üz tutmalı olmuş, 50 il mühacir həyatı keçirmiş, son dərəcə nisgilli bir ömür yaşamışdır: «Görəsən, parçalanmış Azərbaycanımızın taleyini öz mühacir həyatında yaşayan Əli Tudə qədər nisgilli», zamanın, dövrün çətin sınaqlarına, ağır zərbələrinə məruz qalan, rüzgarın ən kiçik sevinclərindən belə məhrum olan, heç bir haqqına çata bilməyən ikinci bir şair varmı? (Şövkət Hicran) Heç burada da şair əməyi layiqincə qiymətləndirilməyib, daim gözdən, nəzərdən kənarda qalıb:

Bir məqsəd uğrunda biz qələm çaldıq,
Alqış mənim oldu, hörmətsə sənin.
Sənət dünyasında zirvələr aldıq,
Hünər mənim oldu, şöhrətsə sənin.

Vətən həsrəti, ayrılıq odu şairin gülümsər üzünün gülməsinə imkan vermədi, dodaqlarında görünən təbəssüm qəlbinə enmədi:

Dodağın gülməyi əsas deyildir,
Gərək ürək gülsün, ürək sinədə.
Təbrizimsiz keçən bütün illərim
Təbrizdə gördüyüm bir ilə qurban!

Hər kəsin öz qibləsi var,
Mənim qibləm Vətənimdir.
Kədərdən doyunca yazmışam, ancaq
Sevincdən yamanca xəcalətliyəm.

Həsrət bulağa düşsə,
Alışıb yanar bulaq.
Qürbətdə ölənlərin tapdalanar
qəbri də…
Ömrüm boyu sən dərd oldun,

İstiqlal arzuları, Vətənin birliyi uğrunda tökülən qanlar, təəssüf ki, bir səmərə vermədi, sevgili insanlardan, sevgi dolu torpaqlardan ayrı düşən şair ömür boyu Vətən həsrətilə çırpındı.

Əli Tudə bir insan kimi, bir şəxsiyyət kimi, bir şair kimi pak və təmiz yaşamış, gözəl hisslərlə, gözəl duyğularla ömür sürmüşdür. Zorəntəbib yox, həqiqi şair, həqiqi istedad sahibi olduğundan poeziyası sevilən və oxunan poeziyadır. İki sözünün biri «Vətən» olan şairin mövzu dairəsi rəngarəng və genişdir: poeziya üçün əbədi mövzulardan olan məhəbbət, təbiət gözəllikləri, insanın qurmaq, yaratmaq eşqi, istiqlal mübarizəsi, xalqın müdrikliyi, böyüyə hörmət, düşmənə nifrət, alın yazısı, ləyaqət və dəyanət, ana məhəbbəti, insan xislətindəki yaramazlıqların ifşası, torpaq və çiçək ətri…

Sənət dünyası ilə yaxından tanışlıq göstərir ki, şair heç kimin ardınca getməmiş, bənzərsiz qələmi və üslubu ilə seçilmişdir. Dərin və böyük duyğu ilə müxtəlif əşya və hadisələrdə eyni keyfiyyətləri seçə bilmiş və onları ustalıqla ümumiləşdirmişdir:

Minnət nədir? Boğazda
İlişib qalan tikə.
Minnət nədir? Ətirli
Çayına sızan sirkə.
Minnət nədir? Dastana
Calaqlanan bir fəsil;
Minnət nədir? Davamı
Özgələşən bir nəsil...

Əli Tudənin şeirlərində həyat həqiqətlərinin ümumiləşmiş fəlsəfi ifadəsi əsasdır. Şair bədii sözün qüdrətini hikmətdə, onun hikmətlə birgə doğuluşunda görür.

İlk təhsilini Şimalda aldığı üçün şairin poeziya dili son dərəcə səlisdir, fars dili sintaksisinin təsiri ilə korlanmamışdır. Həyat həqiqətlərinin emosional-aforistik ifadəsi şeirlərində nəzəri daha çox cəlb edir. Şairin yaradıcılığında dünya və onun işləklərinə heyrət dolu münasibət güclüdür.

Şair üçün ən böyük hədiyyə onun qorunan, yadda qalan sözləri, misralarıdır. Biz az vaxt ərzində unudulmaz şairin üç nəfis kitabını – «Təbriz yolu» (1996), «Söz ömrü» (1997) və «Mühacir qeyrəti» (1998) kitablarını aldıq. Bu kitablar ilk dəfə çap üzü görən şeir və poemalardan ibarətdir. Şair bu dünyadan nisgilli getsə də, arzu və istəklərini övladları yaşadır. Kitabların tərtibçisi şair atanın sənətinə yüksək məhəbbət bəsləyən Natiq Əli Tudə oğlu Cavadzadədir.

Şeirlərdən əlavə, üç kitabda şairin səkkiz lirik poeması çap olunmuşdur. «Hökmdar qızın sevgisi» istisna olmaqla, bu poemalar – «Sevgi naxışları», «De, hardasan», «Nağıllaşan məhrəmlər», «Mühacir qeyrəti» avtobioqrafik əsərlərdir, şairin öz ulularına həsr edilmişdir. Poemalar məhəbbət dolu şirin bir dildə yazılmışdır. Ata-anasından, sevimli nənəsinin güzəranından danışan, ilk sevgisindən, çox gənc ikən keçirdiyi təzadlı həyat yollarından bəhs edən bu poemaların hamısı xatirələr işığında yazılmışdır və Cənub həyatı ilə bağlıdır. Bir-biri ilə əlaqəli olan bu əsərləri bir süjet ətrafında düzüb böyük bir dastan kimi də oxumaq mümkündür.

Neçə dəfə təbiət gülümsəyib, istiqlal qapıları açılıb. Lakin dərhal güclü və dəhşətli tufan o qapıları bağlayıb… Şair nisgilli getdi, istiqlal arzularına çata bilmədi.

Qoy bu arzular onun övladlarının, nəvə, nəticələrinin həyatında çiçək açsın! Cənubla Şimal əbədilik bir-birinə qovuşsun. Tale bu xalqın üzünə xoşbəxtliklə gülümsəsin…

Şairin ruhu şad olsun.

29.01.1999

DƏLİLİYİN XEYİRİ

Hekayə, povest və romanlar müəllifi kimi tanıdığımız Elçinin dramaturgiyaya meyli də qiymətli bəhrələr verməkdədir. Keçən ilin mart ayında bitirdiyi, bu yaxınlarda çap etdirdiyi on doqquz şəkildən ibarət «Mənim ərim dəlidir» komediyası Mirzə Cəlil ənənələri əsasında cəmiyyətin bugünkü həyatını əks etdirən maraqlı bir pyesdir. Mahiyyət etibarilə «Mənim sevgili dəlim» pyesinə yaxın olan bu əsərdə əsas obrazlar Kişi, Arvad, Qız, Oğul, Qonşu, Dost, Xanım, Professor, Partiya lideri, Ekstrasens qadın və başqalarından ibarətdir. Ümumi məişət məsələləri və sosial-ictimai problemlər əsərin bizə yaxın olan son günlərin hadisələrindən bəhs etdiyini göstərir. Bunu «Zaman»– 1997-ci ilin payızının əvvəlləri» sözləri də təsdiq edir.

Ad günü mərasimlərini partiya özəklərinə çevirənlər, müstəqilliyin doğurduğu sərbəstlikdən meydana çıxan bir sıra ictimai meyillər, keçmiş ictimai quruluşa, Marksizm-leninizm ideyalarına müəllif və obraz münasibətləri, şəxsi mənafedən doğan riyakarlıq, kütləvi hal almaqda olan məişət çətinlikləri, bu dünyanın, ətraf mühitin dəlilik dərəcəsinə gətirdiyi insanlar və dəliliyin Məcnuni rahatlıq tipində əhəmiyyəti və s. komediyada nəzəri cəlb edən mühüm problemlərdir. Müəllif məsələlərin həllinə komik planda yanaşmış, hekayə və povestlərində müşahidə etdiyimiz zərif, həssas və incə yumordan, satirik epizodlardan məsələlərin qoyuluşuna müvafiq şəkildə, ustalıqla istifadə edə bilmişdir.

Məişət qayğıları çoxdur. Ona görə də Arvad hər dəfə ağzını açanda neçə problem çıxır ortaya: «Krantı nə qədər bağlayırsan, bağlanmır!.. Saatın batareyası yatıb. Televizor elə göstərir ki, göstərməsə ondan yaxşıdı!» «Bax, lyüstür bu gündə!.. Vallah, ev dağılır, heç bilmirəm bunun təmiri necə olacaq? Su gəlmir!.. Unitazın qapağı sınıb!.. Qaz kalonkası istəyəndə yanır, istəməyəndə yanmır!.. Heç bilmirəm başıma haranın daşını salım!..» Bu cür çatışmazlıqlar gündəlik ərzaq məsələlərinə də aiddir: «Siyahı da dünən necə yazıb qoymuşam, gün gunortanı keçib!.. Çörək almalıydın!.. Göyərti yoxdu evdə…» Söhbətlərdən zəhmli bir jurnalist olduğu bilinən Kişi hamının – Dostunun da, Qonşunun da, Lide-

rin də işlərinə yarayır, amma öz məişət qayğılarının öhdəsindən gələ bilmir, qapısını döyənlərin hamısı ondan umur, heç kəs ona kömək etmir. Arvad Kişinin özgələrə bu cür xidmətindən bezardır: «Camaata ev düzəldirsən, özümüz qalmışıq bu qaranlıq otaqda!»

Kişi əvvəlcə özünə təskinlik vermək, özünü narazılıq, narahatlıq və çətinliklərə psixoloji cəhətdən hazır saxlamaq, əsəbiləşməmək yolu ilə gedir. Komik effekt əsəbiliyinin qarşısını şüurlu şəkildə almaq üçün Kişinin işlətdiyi sözlərdən doğur:

Kişi (*dodaqaltı özü özünü sakitləşdirir*). Sakit ol… Əsəbiləşmə… (*Pəncərəyə tərəf baxır*) Gör nə gözəl gündü… Mahnı oxu… Mahnı… (*Yavaşdan oxuyur*)

Dünya gözəldir,
Həyat gözəldir.
Bir ifritə var,
O da ki sənsən.

Bu cür canharayı sakitləşmələr, gərginliyin, əsəbiliyin qarşısını almaq üçün edilən cəhdlər səmərə vermir və tədricən dəliliyə doğru aparır. Kişi ailə qayğılarından, ətraf adamlardan yaxa qurtarmaq üçün özünü dəliliyə vurmalı olur. Bu «dəlilik» Kişinin bağlı olduğu müxtəlif təbəqə nümayəndələrinin sosial-ictimai vəziyyətlərini səciyyələndirmək üçün müəllifə geniş imkanlar verir. Şəxsi istəklərini həyata keçirmək üçün Kişiyə müraciət edənlər «dəli»nin mətbuat dəliliyindən qorxaraq onu rüşvətlə sakitləşdirməyə, müxtəlif hədiyyələrlə onun dilini bağlamağa çalışırlar.

Süjet xətti bu şəkildə inkişaf edir və Kişi «dəli»liyindən istifadə edərək rüşvətxor Laçınovu ifşa edəcəyi ilə qorxudub Oğlunun «burjuy» adlandırdığı Qonşudan bir maşın qoparır. Bu prosesdə qorxutma üsulları da müasirdr: «Mən ona o boyda bilərzik almışam. On beş min dollara… Gedib evlərinin qabağında mitinq eləyəcəyəm. Televiziyaya gedəcəyəm… Mənə heç nə edə bilməz. Çünki mən dəliyəm…» Qiymətli əşyaları Kişinin əli ilə alıb Laçınova hədiyyə aparan Qonşu bu hay-küyün Laçınova çatacağından qorxaraq ona maşın alır. Özgəsinin arvadına necə eşq elan etdiyini poema şəklində yazıb qəzetə verəcəyi ilə qorxudaraq türk-

pərəst Dostun boynuna «importnı», «büllur» lüstr qoyur. Ad günündə partiya yaratdığını xatırladaraq, toy edəcəyini, o toyda Liderin «təcrübəsi»ni yaymaqla partiya yaradacağını bildirməklə evlərini Liderə təmir etdirir. Maşın, lüstr, evin təmiri, yeşik-yeşik banan və s. Arvadı, Oğulu sevindirir. Marksın «Kapital»ını əlindən yerə qoymasa da, aylardan bəri 9-cu səhifədən irəli gedə bilməyən Oğul adam olur, sözə baxmağa başlayır. Arvad şənlənir və belə bir vaxtda birdən-birə Kişinin dəlilikdən qurtarmaq istədiyini bildikdə təşvişə düşür: «Yox! Yalvarıram sənə! Heç kimə heç nə demə!.. Qoy hamı elə bilsin ki, dəlisən. Sən elə yaxşı, elə yaxşı dəlisən, mənim əzizim».

90-cı illərin sonlarıdır. Rüşvətxorluq ölkəmizdə tüğyan edir. Əxlaq pozulur. Hərə bir tərəfə çəkir və gündə bir partiya yaratmaqla məşğuldurlar. Bütün bunlar guya uzun müddət sosialist təfəkkürü ilə yaşayan, əslində, feodal təfəkküründən xilas olmamış insanların faciəsidir. Bizim həqiqi kapitalist təfəkkürünə qovuşmağımıza da hələ çox var. Elçinin pislədiyi sovet quruluşunda bu cür eybəcərliklər indiki qədər tüğyan etmirdi. Xruşşov, Brejnev, Qorbaçov kimi həqiqi kommunist ideallarından uzaq olan dövlət başçıları, partiya liderləri həmin quruluşun iflasına səbəb oldular. 9 səhifədən irəli gedə bilməyən dayaz adamlar bu quruluşu bərpa edə bilməzlər. Vladimir İliç mənim nəzərimdə dünyanı yeniləşdirən böyük şəxsiyyətdir. Marksizm böyük elmdir və müəllif dilindən «dünyanın başına turp əkmiş məşhur alman iqtisadçısı» sözlərini eşitmək istəməzdim. Bunu bir obraz nitqində vermək olardı. Təbii ki, bunlar şəxsi mülahizələrdir və dünyanı hər kəsin özünəməxsus dərketmə prinsipləri vardır. Hansı quruluş olur-olsun, insanın şüuru və vicdanı həlledicidir.

Dönük və məsləksiz insanların tənqidi Professorun şəxsində daha aydın nümayiş etdirilmişdir. 40 il ateizmdən dərs deyən Professor indi namaz qılır, oruc tutur, falçılarla oturub-durur, ekstrasens Ağabacıya ilahi qüvvə kimi baxır. Falçı Ağabacı əyri yolda olan ağrılı adamların hərəsinə yeni bir dərd gətirir. Qəflətən falçıdan mədəaltı vəzdə ağır xəstəlik olduğunu eşidən Lider: «Mən zərbəni müxalif qüvvələrdən gözləyirdim, ancaq öz orqanizmimdən aldım!» deyə gülüş doğurur. Bütün bunlar son dövrlərdə çox geniş yayılmış tipik hadisələrdir və biz özümüz də bilmədən

böyük Mirzə Fətəlinin ifşa obyektləri səviyyəsinə enmişik. Böyük mütəffəkkir bir anlıq torpaqdan baş qaldırıb ətrafına baxsa, elə bilər ki, biz 70 ildə heç bir inkişaf mərhələsi keçməmişik, irəliyə yox, geriyə getmişik.

«Onsuz da indi professorların hamısı orucdadı» sözləri ilə müəllif elm adamlarımızın ağır və üzüntülü həyatını, məişət qayğılarını qeyd etdiyi problemlərə qatır. Dostun dilindən verilən: «Əvət! Əvət! Mən şimdi itimin adını Todor Jivkov qoymuşam» kimi sözlər insan xislətindəki naqis cəhətləri üzə çıxarır: 40 il, 50 il, 60 il danışdığı dili, daşıdığı məsləki bir anda dəyişən insanların murdar mənəviyyatını və ya ümumən mənəviyyatsızlığını göstərir. Əsərdə epizodik şəkildə verilən həyat həqiqətləri çoxdur. Dünya enişli, yoxuşludur. Vaxtilə «Şərqin səhəri» pyesində Ə.Məmmədxanlının kapitalistin dili ilə dediyi «Biz qayıdacağıq» sözlərini indi kommunist Oğul deyir.

Qonşunun dilindən verilən aşağıdakı sözlər də bəşəriyyətin inkişaf yolu barədə maraqlı düşüncələr doğurur: «Bu hələ lütdü, ona görə kommunistdi. Hə, kapitalı yoxdu, ona görə «Kapital»ı oxuyur! Özünə kapital düzəldə bilsə, olacaq demokrat! Özünə kapital düzəldə bilməsə, ömürlük kommunist qalacaq…» Bunlar obraz nitqindəndir və bəşəriyyətin işıqlı gələcəyi olan kommunizm ideallarını obrazın qiymətləndirə bilməməsi nəticəsidir (Müəllif bununla razılaşmaya bilər, lakin bu, uzaq gələcəyə də aid olsa, mənim şəxsi və qəti inamımdır, çünki insan nə vaxtsa ağıllanmalıdır).

Əsərin finalında «sağalmaq» əvəzinə, «dəliliyin» qalması, Kişinin «qoyun olması» məsləhət görülür. İnsanın kamilləşmədiyi, zəhməti, elmi, insanlığı qiymətləndirmədiyi belə bir mühitdə, bəlkə də, bu cür yaxşıdır.

Yadda qalan zərif yumor Elçinin dram və nəsr əsərlərini sevdirən mühüm keyfiyyətlərdəndir. Dəliliyinə inandırmaq üçün qəribə yuxular uyduran Kişi onların siçanları ilə qonşu siçanlarının komanda düzəldib futbol oynadıqlarını uydurur. Yaxşı yatmaq üçün ona dərman vermək istədikdə, «Bu gecə final oynayacaqlar»– deyə dərmanı içməyəcəyini bildirir.

Yazıçının dram dili sadə və təbiidir. Nəsr dilində Mirzə Cəlil üslubuna yaxın, lakin onun daha təkmil, daha mürəkkəb formaları kimi

təzahür tapan orijinal bir üslubda abzas-cümlələr komediya dilində görünmür. Şübhəsiz, bu hal nəsr dilində müəllif təhkiyəsindən fərqli olaraq, dram dilinin obraz nitqi əsasında qurulması və tipikləşdirilməsi ilə bağlıdır.

Yaşamaqda olduğumuz həyatın orijinal sənət dili ilə təcəssümü Elçinin uğurlu yaradıcılıq nailiyyətlərindəndir.

02.02.1999

DÜNYAMIZIN DƏRDLƏRİ

Bir neçə gün əvvəl görkəmli nasir və tənqidçi, publisist, Yazıçılar Birliyinin üzvü, Respublika Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru Yasif Nəsirlinin «Görə bilmədin» adlı dram, povest və hekayələrdən ibarət yeni kitabını aldıq. Bu günlərdə Sədiyar Cahangir oğlunun «Yasif Nəsirli» adlı başqa bir maraqlı kitabı ilə də tanış olduq.

«Qırmızı qərənfil», «İnsanlar, görüşlər», «Adsız təpə», «İntizar», «Çinar vüqarı», «Qayıdacağam» və bu günlərdə çap etdirdiyi «Görə bilmədin» kitabı ilə tanış olan hər bir kəs görə bilər ki, Yasifin başqalarından seçilən nikbin və təbii bir üslubu, özünəməxsus yazı manerası vardır. Bu üslubda həqiqətin gözünə düz baxmaq, heç nəyi saxtalaşdırmamaq, həyatın şirinliyini və acılarını, XX əsr insanının keçdiyi üzüntülü həyat yolunu, onun maddimənəvi, psixoloji aləmini uydurma saçmalara əsaslanmadan real əks etdirmək keyfiyyətləri çox güclüdür.

Yasif daim yeni mövzulara müraciət edir. Az tədqiq olunmuş, az öyrənilmiş, bədii, elmi əsərlərdə öz əksini tapa bilməyən belə mövzulardan biri Böyük Vətən müharibəsi illərində əsir düşmüş, xarici ölkələrdə ilişib qalmış, Sovet dövlətinin qatı tədbirlərindən, «Sibir» qorxusundan Vətənə dönə bilməmiş, Vətən həsrəti ilə, min bir əzabla xaricdə ömür sürən, doğma yurdun əlçatmazlığından ürəyi parçalanan insanların qələmə alınması, yada salınmasıdır. «Təyyarə geri dönür» povestində, «Qan qardaşları» hekayəsində, «İntizar» pyesində və bir sıra başqa əsərlərində vətən həsrətilə qovrulan, yanıb-yaxılan bu cür insanların nisgilini, daxili kədər və üzüntülərini təsirli bir dil ilə qələmə almışdır. Əcnəbi ölkədə «Gəncə» məhəlləsi yaradan, öləndə Vətəni qiblə seçən bu insanlar bir fırıldaqçı ermənininin satdığı «Bakı torpağı»nın tamından, iyindən Bakı torpağı olmadığını başa düşsələr də, gözlərini bu dünyaya əbədi yumarkən bu cür bir ovuc torpaqla ovunur, gözlərini bu torpaqla yumurlar; bütün çətinlikləri yararaq, zülm və işgəncə qorxusunu ataraq ölmək üçün Vətənə sürünürlər. Vətən torpağına çatanlar da olur, yad ölkədə Vətən dərdi ilə dəli olub çöllərə düşənlər də. Nəhayətdə dəhşətli həyatdır. Bu mövzu yazıçıya

milli təhlükəsizlik orqanlarının yüksək rütbəli nümayəndəsi kimi xarici ölkələri gəzərkən şahidi olduğu hadisələrdən, görüşdüyü bədbəxt taleli insanlardan gəlir.

Böyük Vətən müharibəsi və onun acı nəticələri bizim nəslin bədii yaradıcılıq mənbəyi olub. «Yaslı evin adamları», «Gələn Nəbi kişi idi», «Qotazlı qoyun» hekayələrində Yasifin qəhrəmanı müharibədə həlak olmuş atasının yeganə həyat nişanələri olan gilənar rəngli tütəkdən, səsi kəndi titrədən ağ atdan, qotazlı qoyundan saf və ayıq bir uşaq kövrəkliyi ilə danışır. Gün gəlir ki, at da, qoyun da başını yerə qoyub ölür. Bütün istək və qayğılara baxmayaraq, ata yadigarı şah tutu da qoruyub saxlamaq olmur, o da ayaq üstə quruyub ölür. Təbiətin amansız gedişi ilə ata yadigarları bir-bir sıradan çıxsa da, ata xatirəsi, ata nisgili qəlbdən silinmir…

Yasif Nəsirli görkəmli bir ziyalı kimi, yüksək adamlar haqqında heç bir qısqanclığa yol vermədən, böyük səxavətlə, ürək dolusu danışır, böyük adamların böyüklük keyfiyyətlərini ustalıqla üzə çıxara bilir. Bu prosesdə onun insana, mənən yüksək olanlara sonsuz məhəbbəti də ifadə olunur. Bu cəhətdən müəllimi və çox sevdiyi yazıçı Mir Cəlal, tənqidçi Qulu Xəlilov, yazıçı Əlfi Qasımov haqqında bədii-publisistik yazıları diqqəti daha çox cəlb edir. «Bir dəstə gül», «İki heykəl», «Yarımçıq ömür» hekayələrində indi artıq əbədi dünyada olan həmin görkəmli şəxslər haqqında şirin xatirələr toplanmışdır. Mir Cəlal müəllimin müdrikliyi, həssas qəlbi, yüksək insani keyfiyyətləri; təbiətin verdiyi namərd xəstəlikdən ömür boyu əzab çəkən, dəfələrlə ölümlə əlbəyaxa olan Qulu Xəlilovun sel kimi axan bir istedadla Azərbaycan ədəbiyyatı üzərində kotan kimi tənqid şırımı açması, Əlfinin yumorlu gözəl təbiəti, şən və şirin nəsri müəllif tərəfindən sevgi ilə xatırlanmışdır. Bu əsərlər üslub tərzinə görə də orijinal olub, bədiiliklə elmiliyin vəhdəti əsasında yaranmışdır. Bu əsərlər yalnız xatirə-detallardan ibarət olmayıb, Mir Cəlal, Qulu Xəlilov, Əlfi Qasımov yaradıcılığına ciddi elmi-tənqidi münasibət ifadə edir.

Yasif çox zaman öz qəlbinin istəklərini görkəmli adamların təsviri prosesində üzə çıxarır. Qulu Xəlilov haqqında dediyi: «Sanki öz daxili aləmini də yazıçının mənəvi dünyası ilə birləşdirib əks etdirməyə çalışır» sözlərini onun özünə də aid etmək olar.

«Adına durğunluq illəri dediyimiz o illəri biz də yaşamışıq. Bir qrup adam rəhbər işə soxulub respublikanı göz görə-görə soyurdu. Haradasa inam qırılırdı, etiqad qırılırdı. Sabaha ümid azalırdı. Cəmiyyətimiz üçün dəhşətli olan bu adamlar bir yazıçı, bir insan, bir vətəndaş kimi Əlfi Qasımovu çox narahat edirdi». Bunlar Yasifin öz qəlbinin də etirazları idi. Amma şükür o illərə!

Yasifin mövzuları rəngarəngdir. «Ata gözləyir» hekayəsi çox erkən qırılan bir ömrün qəmli taleyini nəql edir. «İki şüşə konyak» hekayəsi məsul işçinin qanmazlıq və kütbeyinliyini, eyni zamanda, hədsiz «peşkəş ölüsü» olduğunu əks etdirir. Cəmiyyətin inkişaf meyilləri həssas adamlarda eyni duyğular oyada bilir. «Axı nə yapışmısan bu Marksın ətəyindən, kişinin sümüyü də çürüyüb. Əl çək ondan, özünə peşə tap, iş tap. Lap açığını bilmək istəyirsənsə, indi dolanmağı bacarmayanlar haqdan, ədalətdən dəm vururlar». 80-ci illərin əvvəllərində söylənmiş bu cür fikirlərə 90-cı illərin hadisələrilə bağlı Elçinin pyeslərində də («Mənim ərim dəlidir») rast gəlirik.

Yazıçının «Görə bilmədin» hekayəsi 90-cı illərin yaşadığımız günlərinin acı mənzərəsini əks etdirən kəskin siyasi pamfletdir. Yasif Nəsirli vaxtsız vəfat etmiş dostuna müraciət şəklində yazdığı bu əsərlə son onillikdəki eybəcərlikləri ustalıqla damğalamaqla yanaşı, Sovet dövrünün humanist ideya və ideallarına nankor münasibət bəsləyənlərin də kəskin ifşasına nail ola bilmişdir. Müstəqillik və demokratiya insanı mənən yüksəltməlidir, öldürməli deyil. «Kim güclüsə, həqiqət onun tərəfindədir. Güclü zəifi yeməlidir» prinsipi insanı maddi və mənəvi cəhətdən məhv edir, şərəflə yaşamağa, bir ömrü zəhmət, şərəf və ləyaqətlə başa vurmağa imkan vermir. Acı sarkazmlarla yazılmış bu əsər acı sarkazmla da bitir: «Şükür Allahın məsləhətinə, səni vaxtında apardı. Yoxsa bağrın çatlaya bilərdi. Ölə bilərdin…»

Yasif Nəsirli və onun yaradıcılığı barədə görkəmli elm və sənət adamlarının – Əməkdar elm xadimi Qulu Xəlilovun, Respublika dövlət mükafatı laureatları Qasım Qasımzadənin, Məstan Günərin, Bəstəkarlar İttifaqının sədri Tofiq Quliyevin, professorlardan Şahin Səfərov, Əjdər Ağayev, Azad Nəbiyev və Cahangir Məmmədovun, filologiya elmləri doktoru İslam Qəribovun, general D.Aleksandrovun maraqlı məqalələri vardır. Nəbi Xəzri, Əhəd

Muxtar, Həmid Abbas və Əjdər Yunusov Yasifə şeirlər həsr etmişlər. Bütün bunların və Milli Təhlükəsizlik Nazirliyinin arxivindən götürülmüş bir sıra sənədlərin toplandığı ikinci kitabdan Yasif Nəsirlinin zəngin və mürəkkəb həyat yolu, elmi, bədii, ictimaisiyasi fəaliyyəti haqqında geniş məlumat almaq mümkündür. Dünyanın ilk kosmonavtı Yuri Qaqarinin Yasifə məktubu oxucuya ləzzət verir: «Bizi yad etdiyin üçün sağ ol. Teleqramda yazdığın lətifə də əla idi. Arvadım deyir ki, Yasif bizə sataşır, yəqin Molla Nəsrəddin elə Yasifin özüdür». Bu sözlər ilk kosmonavtla dostluğun hüdudlarını aydın göstərir. Komsomol yetişdirməsi və mahir bir natiq olan Yasifin xeyirxahlığı, vətənpərvərliyi, hazırcavablığı, işgüzarlığı, Azərbaycan ziyalılarına böyük qayğısı barədə tam təəssürat qazanmaq üçün həmin yazıları bütövlükdə bura köçürmək lazım gələrdi. «Yasif Nəsirlinin həyat yolu çox çətin və mürəkkəb olmuşdur. Sözün həmişə düzünü dediyindən, açıq tendensiyalı şəxsiyyət olduğundan böyük mənəvi-psixoloji təzyiqlərlə üzləşməli olmuşdur. Lakin maddi, mənəvi, siyasi çətinliklər bu böyük, işıqlı, xeyirxah insanın iradəsini sındıra bilməmişdir» (Qulu Xəlilov).

«Mənim bildiyim şeyləri deməyə dilim gəlmir, vicdanım yol vermir, həm də hüquqi haqqım yoxdur» - deyən Yasifin Azərbaycan ziyalıları qarşısında xidmətləri və ümumən DTK fəaliyyəti barədə məlumat almaq üçün Seymur Elsevərin, komsomoldan DTK-ya, oradan MK-ya yüksəliş yolu barədə Sədyar Cahangir oğlunun Y.Nəsirli ilə müsahibəsinə nəzər salmaq kifayətdir.

Bu iki kitab göstərir ki, elm və yaradıcılıq sahəsində, eyni zamanda, görkəmli bir dövlət xadimi kimi, Yasif Nəsirli bu xalq üçün çox iş görmüşdür. Qolları qüvvətli, gözləri işıqlı olduğuna görə bundan sonra da hələ çox iş görəcəkdir. Bu yolda ona istəyincə sağlamlıq, arzularına müvafiq ictimai mühit diləyirik.

03.03.1999

XALQ NAMİNƏ,
HAQQ, ƏDALƏT NAMİNƏ

Qəzənfər Şirin oğlu Kazımov 1937-ci il martın 3-də Cəbrayıl rayonunun Soltanlı kəndində ziyalı ailəsində doğulub. 1960-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki N.Tusi adına) tarix-filologiya fakültəsini bitirib. İki ildən sonra aspiranturaya daxil olub. 1967-ci ildə namizədlik, 1988-ci ildə doktorluq dissertasiyası müdafiə edib. 1989-cu ildən professordur. 1989–1997-ci illərdə N.Tusi adına ADPU-nun filologiya fakültəsinin dekanı vəzifəsində işləyib. Professor Q.Kazımov ali və orta məktəb dərsliklərinin, ali məktəblər üçün bir sıra dərs vəsaitinin, onlarca monoqrafiyanın, 200-dən artıq elmi və elmi-publisistik məqalənin müəllifidir. 1998-ci ildə Böyük Britaniya və Şimali İrlandiya Asiya Kral Cəmiyyətinin üzvü seçilmişdir. Böyük Britaniya Kembric Beynəlmiləl Dühalar Mərkəzinin üzvüdür. Həmin mərkəz tərəfindən 1998 - 1999-cu İlin Beynəlmiləl adamı elan edilib və «Şərəf medalı»na layiq görülüb.

– Qəzənfər müəllim, elmimizin, təhsilimizin bugünkü vəziyyəti sizi qane edirmi? İndi ziyalılarımızın böyük əksəriyyətinin öz şəxsi problemləri çərçivəsində qalmasına, cəmiyyətdə baş verən proseslərə biganə olmasına haqq qazandırmaq mümkündürmü?

– Elmimizin, təhsilimizin bugünkü vəziyyəti heç bir həqiqi ziyalını qane edə bilməz.

Müstəqillik gözəl şeydir, misilsizdir, amma müstəqillik ölkəni müstəqil şəkildə talamaq demək deyil. Əlində ixtiyar olanın ürəyində vicdan olmalıdır.

Bir də görürsən rəhbərlik əmr verdi: «Tələbəni zaçotdan saxlamaq olmaz». Bu cür hallar tələbəni kütləşdirir, təhsilin keyfiyyətini sıfıra endirir, təhsil işinə ciddi zərbə vurur. Bütün sahələrdə tələbəyə güzəşt etmək olar, elmdə yox. Bəzən qaçqın, köçkün adı ilə tələbəni «xilas» edirlər. Təhsildə güzəşt olmamalıdır.

– Ziyalıların biganəliyə haqqı varmı?

– Əvvələn, indi həqiqi ziyalı tapmaq da çətindir. Elələri var ki, yaxşı alimdir, yaxşı müəllimdir, özünü qoruyur. Amma di gəl ki, cəsarəti yoxdur. Ürəyini deşən, qəlbini dağıdan fikri deyə bilmir,

hələ, bəlkə, haqsızlığın xeyrinə danışır. Bu, ziyalıdır? Ziyalı sözünü deməlidir. Desə, bunun dövlətə də xeyri olar, xalqa da. Beşcə ziyalı (gözükölgəli olmayan həqiqi ziyalıdan söhbət gedir) qabağa düşüb yanlış addım atanı başa salsa, o düşünər, çəkinər və getdikcə azğınlaşmaz.

İki şeydir ziyalını məhv edən: həqiqi ziyalılar arasında birliyin olmaması, yuxarıların ziyalı sözünə məhəl qoymaması. Yerlərdəki narazılıqların qarşısını ziyalılar alsalar, dövlətin də əndişəsi azalar.

– Heç kimə sirr deyil ki, ziyalılarımızın böyük bir qismi maddi təminatlarını yaxşılaşdırmaq üçün ya xarici ölkələrə, ya da gündəlik dolanışığını çıxara biləcək sahələrə üz tutur. Buna necə baxırsınız?

– Antik filosoflar mağaralara çəkilib gecə-gündüz bu dünyanın sirlərini dərk etməyə çalışdıqları kimi, bütün savadlı təbəqə də elə hey fikirləşir ki, nə işlə məşğul olsun ki, ailəsi ac qalmasın. Əvvəllər ziyalı yemək, geymək dərdi çəkməyib, ev, maşın almaq və s. barədə fikirləşib. Professorun maaşı 40 dollar, tibb elmləri namizədi, böyük bir şöbənin müdirinin maaşı 20 dollar miqdarındadır. Neyləsinlər? İki yol var: ya bu müstəqil ölkədə özünü ora-bura çırpıb ailəsini dolandırmalıdır, ya da bir kəndir tapmalıdır. İndiki dövrdə bunların hər ikisinə bəraət qazandırmaq mümkündür.

– Qəzənfər müəllim, elə çıxmasın ki, biz yalnız yaşadığımız cəmiyyətin qaranlıq məqamlarını görür və onu qabartmağa çalışırıq. Əlbəttə, uğurlarımız var və onlar, necə deyərlər, bizimdir. Söhbət müstəqilliyimizin bəhrələrini hamının bərabər şəkildə dadmasından gedir. Bu mənada korrupsiyanın səviyyəsi hər birimizi narahat etməyə bilməz. Təəssüf ki, bu hal təhsildən də yan ötməyib. Bunun kökünü niyə kəsmək olmur? Yoxsa bu, mümkün deyil?

– Mümkün olmayan heç bir şey yoxdur. Korrupsiyanın kökünü kəsmək olar. Kim səy elədi ki, mümkün olmadı? Bir də bizdə hər şey pillə-pillədir. Görürsən, birisini hansısa müəssisəyə rəhbər qoyurlar. Son dərəcə abırsızlıqla, vicdan ağrısı çəkmədən soyub-talamaqla məşğul olur, bir gün görürsən, başqa birisi – ondan da böyüyü gəlib onu qulaqladı, bütün yığdıqlarını əlindən aldı. Bu adam indi yenidən və həm də canavar kimi başlayır. Əlbəttə, bunun qabağını almaq olar: təhlükəsizlik işçiləri var, polis var, məh-

kəmə var, prokurorluq orqanları var. Gərək onların maaşları o qədər yüksək ola ki, dövlət işinə xəyanət etməyələr. Digər tərəfdən, nəzarət edənlərin özləri təmiz olmalıdır. Yuxarılar təmiz olsa, aşağılar cızıqdan çıxmağa cəsarət etməz.

– Hansı hiss sizin böyük siyasətə qatılmağınıza səbəb oldu və nə üçün məhz Azərbaycan Demokrat Sahibkarlar Partiyasını seçdiniz?

– Azərbaycan Demokrat Sahibkarlar Partiyasının məramnaməsi böyükdür. Bu, nə iqtidar, nə də müxalifət yönümlüdür. O, xalqın xeyrinə işləyən, millətin gələcəyini düşünən, özünün orijinal yolu olan, halallığı gözləyən bir partiyadır. Mən sahibkarlığı yalnız təsərrüfatda, iqtisadiyyatda deyil, hər sahədə görürəm: elmdə, sənətdə, təhsildə və tədrisdə. Hər kəs öz sahəsinin ən yüksək adamı, həqiqi sahibkarı olmalıdır. Bu partiya da insanları bu yola meyilləndirir. Bu, yaxşı niyyətdir. İnsanın təminatı olmalıdır. Təminat olduqda o, cəmiyyətə bacardığı sahədə xidmət göstərəcəkdir. İnsan dünyaya bir iz qoymaq üçün gəlir və heyvanlar aləmindən bununla fərqlənir.

– Sahibkarlıq hissi hamıya doğmadır. Belə olmasa, adi ailə qayğılarından tutmuş, ölkəmizin iqtisadi müstəqilliyinin təmin edilməsinədək bütün mərhələlərdə nəyinsə çatışmayacağı aydın hiss ediləcək. Amma bu da bir həqiqətdir ki, hamıda bu hissin formalaşması üçün cəmiyyətdə kifayət qədər münbit şərait yaradılmalıdır.

– Cəmiyyət ailədən başlayır, ailədə hər kəs özü bilər. Amma ölkədə münbit şərait bir millətin, ölkənin inkişafı məsələsidir. Quldarlıq və ya feodalizm deyil ki, hər şey bir neçə adamın əlində toplansın. Millətin bir millət kimi inkişafını istəyən adam o ölkədə heç kimin sahibkarlıq fəaliyyətinə mane olmamalıdır. Azad şərait yaradılmalıdır ki, hamı qursun, tiksin, əksin, becərsin. Ağır vergilər, rüşvətxorluq, yoxlamalar, gözümçıxdılar, əldə olanın qapılıb-alınması olmasın, qanunlar işləsin. Belə olarsa, millətin həyat şəraiti yaxşılaşar, insanlar bir-birinə hörmət qoyar. Xalqın başından basıb, bir qrup adamın sahibkarlığına yol açmaq erməni işğalına kömək etmək kimi bir şeydir.

-Müsahibəyə görə çox sağ olun.

Müsahibəni apardı: ***Əli SƏMƏDOV***

19.02.2000

KÖVRƏK DUYĞULAR

Təbii ki, bizim böyük ziyalılarımız, alim və şairlərimiz bir-birinin qüvvəsinə, qüdrətinə, xalqa, vətənə, ziyalılara münasibətinə daha yaxşı bələddirlər, hər birinin qəlbi xeyirxah arzularla, Vətən sevgisi ilə doludur. Lakin həyat onların arzusu ilə irəliləmir. Dünyanın gərdişi öz neçə minillik axarındadır. Şair də, ziyalı da bu mürəkkəb aləmin dərki prosesində daha da müdrikləşir, hadisələr fövqündə zamanın dalğavarı hərəkətini dünyada ən diri və daimi olan sözün gücü ilə tarixə həkk edir. Demək olar ki, müasir dünyanın əksər ölkələrini gəzib-dolaşmış, böyük sənət yolu keçmiş, görüb-götürmüş, Nəbi Xəzri kimi sənət ustalarının, Yasif Nəsirli kimi yazıçı, tənqidçi və ziyalılarımızın qəlb arzuları da çox zaman bir nöqtədə birləşir. Nəbi Xəzri həssas bir şair kimi daim elə mövzulara müraciət etmiş, Vətənin elə dərdlərini qələmə almışdır ki, bunlar Yasifin də qəlbini titrətmiş, bir insan, bir alim kimi daim onu şair sənətinin sehrli dünyasına bağlamışdır. Nəbinin Yasifə ithaf etdiyi:

Kükrəyib qəzəbdən od tökər qışım,
Qolumdan bərk tutsun qardaşım gərək.
Qarışsa yad elə bircə qarışım,
Özüm də torpağa qarışım gərək,
Çəkin bu torpaqdan qara əlləri,
Çəkin Qarabağdan qara əlləri. –

şeri poetik bir dil ilə hər bir azərbaycanlının, o cümlədən Yasif Nəsirlinin qəlb üsyanını ifadə edir. Bu şeir vaxtilə (Sovet dövründə) çap olunandan az sonra əməlli-başlı qalmağala səbəb olmuş, Sov.İKP MK-nın orqanı «Kommunist» jurnalı şeri kəskin tənqid etmişdir. Şeir Azərbaycanın partiya mətbuat orqanlarında da pislənmişdir. Lakin zaman şairin haqlı olduğunu göstərdi, hətta sonralar şerə musiqi də bəstələndi.

Yasif Nəsirlidə Nəbi Xəzri yaradıcılığına daim böyük maraq və məhəbbət olub. İllərdən bəri dəfələrlə şairin yaradıcılığına

müraciət etmiş, mərkəzi mətbuatda bu sahədə maraqlı məqalələr dərc etdirmiş, yüksək xitabət kürsülərindən şair haqqında dəfələrlə ürək sözlərini söyləmişdir. Neçə-neçə monoqrafiyanın, elmi və elmi-publisistik məqalələrin, esse, hekayə və povestlərin müəllifi olan Y.Nəsirli böyük əmək sərf etmitş, «Əgər ki yıxılsam, çinar göstərin» adlı növbəti monoqrafiyasını bütövlükdə çox sevdiyi Nəbi Xəzrinin yaradıcılığına həsr etmişdir. Monoqrafiya, başlıca olaraq, şairin lirik əsərlərini, lirik-epik poemalarını tədqiqat obyektinə çevirmişdir.

Məlumdur ki, Nəbi Xəzri geniş və hərtərəfli bir yaradıcılıq yolu keçmiş, şair, nasir, dramaturq, publisist və tərcüməçi kimi şöhrət qazanmışdır. Ümumittifaq Lenin Komsomolu Mükafatı Laureatı, SSRİ və Azərbaycan Respublikası Dövlət mükafatı laureatı, Y.Məmmədəliyev adına Beynəlxalq mükafat laureatı, Azərbaycanın Əməkdar incəsənət xadimi, Azərbaycan xalq şairidir. Nəbi Xəzri haqqında keçmiş SSRİ ərazisinə daxil olan respublikalarda, xaricdə və xüsusilə respublikamızda saysız-hesabsız ədəbitənqidi, elmi-publisistik əsərlər yazılmışdır. Lakin Yasif Nəsirlinin qələmindən çıxan bu monoqrafiya Nəbi Xəzrini şəxsən yaxından tanıyan, yaradıcılığına dərindən bələd olan, 30 – 40 ildən bəri yaradıcılığını ardıcıl izləyən, şairin kədəri ilə kədərlənən, uğurları ilə sevinən, Nəbi Xəzri poeziyasını hörmət və məhəbbətlə təhlil edən bir şəxsin əsəridir, şairi dərindən tanıyan bir şəxsin ürək sözləridir, ona görə də Nəbi Xəzri yaradıcılığının təhlili baxımından çox qiymətlidir. Həm də ona görə qiymətlidir ki, Nəbi Xəzrinin anadan olmasının 75 illiyi günlərində meydana çıxmış, böyük yaradıcılıq yolunu ümumiləşdirmişdir. Belə bir vaxtda şairə ürəkdirək vermək, zəngin və tutumlu yaradıcılığı haqqında yeni dost sözü söyləmək, gəncliyin qurtaran, qocalığın başlayan vaxtı şairə qol-qanad vermək, xalqımızın milli-mədəni sərvətini müdrik şairlərimizin qələmi ilə zənginləşdirmə imkanlarını mühafizə etmək baxımından son dərəcə qiymətlidir.

Yasif bu maraqlı əsərini eyni zamanda çox maraqlı bir bədii müqayisə ilə başlamışdır: «Azərbaycanda yaşı bilinməyən, tarixi-miz qədər qədim bir dağ var: Xırdalan dağı. Bu dağ barədə nə tarix kitablarımızda, nə də dərsliklərimizdə elə tutarlı bir şey yazılmışdır. Bakını tanıyandan, yolum o dağın ətəyindən keçəndən o

dağ məni özünə cəlb etmişdir... Mənə elə gəlib ki, bu dağ Xırdalana, Bakıya keşik çəkir, onları pis nəzərlərdən qoruyur... Hər dəfə bu dağın zirvəsinə çıxanda kəndimizdəki Gültəpəni yadıma salmışam. Hər dəfə aqillərin sözlərini xatırlamışam: «Dağ tək olmayıb. Dağ dağa söykənib». Lakin uzun zaman bu sözlərin doğruluğuna inana bilmirdim, Ona görə ki Xırdalan dağı elə yol qırağında təktənha dayanmışdı. Gedənə «Yaxşı yol!», gələnə «Xoş gəldin!» deyərdi. Lakin yavaş-yavaş aqillərin dedikləri həqiqətə çevrilməyə başladı. Özü də bu dağ təkcə Xırdalan, Sumqayıt və Bakıdan deyil, daha uzaqlardan görünməyə başladı. Bu, Xırdalanda dünyaya göz açmış, Pəri ananın qundağında böyümüş Nəbi Xəzri dağı idi. O özünün əsərləri ilə Xırdalanda ikinci bir dağ yaratdı. İndi dağ dağa söykənib...» Yasif Nəsirli bu cür başlanğıcla 60-cı illər filoloji mühitində meydana çıxıb möhkəmlənən bir üslubu – elmiliklə bədiiliyin vəhdətini ustalıqla nümayiş etdirmişdir. Bir çox hallarda sırf elmi xarakter alan bu üslub Nəbi Xəzri poeziyasının milli-ədəbi, elmi-bədii dəyərini, zəngin forma, quruluş xüsusiyyətlərini üzə çıxarmaq üçün tədqiqatçıya geniş imkanlar vermişdir. Bu əsərdən oxucu Nəbi Xəzri poeziyasının mövzu dairəsi, şairin ictimai-siyasi və fəlsəfi fikirləri barədə ətraflı məlumat alır. Nəbi Xəzri öz şeirlərində yalnız Azərbaycanın deyil, dünya xalqlarının dərdlərini qələmə almışdır. Şairin poeziyasının əsasında insan konsepsiyası durur. Bu insan dünyanın hər bir ölkəsində insandır. Müasir dövrdə Yer kürəsi eyni dərdlərlə çırpınır. Ona görə də Nəbi Xəzri hər hansı bir xarici dünyanı qələmə alanda, hər hansı bir xarici ölkədən yazanda orada Azərbaycanı görür: «İncə və zərif lirika, mənalı təbiət mənzərələri, fəlsəfi düşüncələr, vətəndaşlıq pafosu ilə aşılanmış etiraflar bir-birinə qovuşur, biri o birini tamamlayaraq zəngin və bütöv poetik obraz, bədii panoram yaradır. Şair nədən yazırsa-yazsın, onun şerinin ruhu, canı, mayası Azərbaycandır. Hətta uzaq mətləblərə toxunanda, başqa elləri təsvir edəndə də misraların arxasından ana yurd boylanır, ana torpağın nəbzi, nəfəsi duyulur». Ona görə də Yasif Nəsirli Nəbi Xəzri poeziyasını, şairin şeir və poemalarını bəşəri estetik fikirlər fonunda nəzərdən keçirir, dünyanın böyük alim və filosoflarının yaradıcılığına söykənir. Həqiqi şair qəlbi, həqiqi yazıçı qəlbi, həqiqi tənqidçi qəlbi, alim qəlbi – ümumiyyətlə, yaradıcı insanın qəlbi, xalq yazı-

çısı Mirzə İbrahimovun dediyi kimi, sahilsiz dəryaları andırır: böyük adamların həyatını, mənəvi aləmini çox cəhətdən dəryaya oxşatmaq olar. Dəryanın sakit vaxtları da olur, fırtınalı vaxtları da. Sakit vaxtlarında belə onun dərinliklərində necə burulğanlar olduğunu heç kəs görmür.

Biz burada yenidən tənqidin tənqidini vermək fikrində deyilik. Onu deyirik ki, oxucu bu maraqlı əsərdən şairin zəngin lirikası ilə yanaşı, poemalarının, xüsusilə Azərbaycanın Milli qəhrəmanı, sükan arxasında həlak olmuş Sevil Qazıyeva haqqında «Günəşin bacısı» və «İnam» poemalarının ideya-estetik keyfiyyətləri barədə dəyərli məlumat alacaqdır. Aşağıdakı misraları:

Bahar qucaqlayır çəmənlikləri,
Səni görürəm.
Qaranquş hardansa qayıdır geri,
Səni görürəm.
Gənclik qurultaya toplaşır bu gün,
Adın dodaqlarda dolaşır bu gün,
Səni görürəm –

«bizdən ayrı düşənlər»in, xatirəsi əziz olan hər bir insanın ünvanına söyləmək olar. Şairin böyüklüyü də elə budur. Tədqiqatçı da insanlara bir daha bunu çatdırır.

Bu əsərin vasitəsilə Nəbi Xəzrinin həyat və sənət yolu, gənclik illəri, ilkin yaradıcılıq nümunələri, sonrakı şaxələnən böyük yaradıcılığı barədə geniş məlumat almaq mümkündür. Kitab ənənəvi monoqrafiyalardan fərqli bir üslubda qurulmuşdur. Sətirlər arasında şairin müasirləri və yaxın dostlarından - M.İbrahimov, M.Arif, B.Oleynik, M.Cəfər, Ə.Cəmil, T.Köçərli, B.Nəbiyev, Y.İsayev, L.Bəndəroğlu, Mişel Süleyman (Livan), Mithət Durmuş (Türkiyə), E.Sabitoğlu və başqalarından verilən parçalar Nəbi Xəzri böyüklüyünü nümayiş etdirir. Son bölmələrdə görkəmli sənət adamlarının şair haqqında yığcam ürək sözləri, şairə həsr olunmuş poeziya nümunələri və şairin özünün öz sənət dostları barədə düşüncələrindən seçmə nümunələr oxucu ilə Nəbi Xəzrinin poeziya aləmi arasında daha səmimi ünsiyyət yaradır.

Əminik ki, filologiya elmləri doktoru, professor Y.Nəsirlinin bu əsəri də, bütün əvvəlki elmi-tənqidi, bədii və publisist əsərləri kimi, maraqla oxunacaq, XX əsr Azərbaycan şairi Nəbi Xəzri düşüncələri barədə estetik fikri növbəti minilliyə aparan qiymətli bir əsər kimi faydalı və gərəkli olacaqdır.

2000

ŞAİRİN POEZİYA DİLİ

R.Rza – 90

XX əsr sona yetdi və xatirimizdə bir sıra böyük poeziya ustaları qaldı. Artıq qədim və zəngin Azərbaycan ədəbiyyatını S.Vurğun, S.Rüstəm, R.Rza kimi qüdrətli sənətkarları nəzərə almadan təsəvvür etmək qeyri-mümkündür.

S.Rüstəm yaradıcılığı ilə ilkin tanışlıq göstərir ki, şairin poeziyası bizim zəngin əruz ədəbiyyatı üzərində köklənib. S.Vurğun müasiri O.Sarıvəlli, H.Arif və başqaları ilə birlikdə böyük bir xəttin – Qurbani, Vaqif, Zakir, Alı, Ələsgər xəttinin sualtı axınla XX əsrdə üzə çıxan böyük şairlərindəndir. Bu cəhətdən R.Rzanın poeziyası cavan görünür – sərbəst şeir XX əsrin məhsulu kimi nəzərə çarpır. Əslində isə, uzunlu-gödəkli, dəqiq heca ölçüsü olmayan bu şerin tarixi daha qədimdir – «Dədə Qorqud»dan gəlir. Ritm və alliterasiyaya əsaslanan «Dədə Qorqud» şeri ilə yanaşı, R.Rza Nizami, Sabir, Füzuli kimi klassiklərdən öyrənib.

Akademik M.Arifin qeyd etdiyi kimi, R.Rzanın poeziyası, hər şeydən əvvəl, fikir poeziyasıdır. Fikir poeziyası isə çox zaman hər bir kəlməsi yerində olan, vəzni, qafiyəsi su kimi axan, lakin oxuyub qurtardıqdan sonra insan beynində heç bir iz buraxmayan poeziyanı qəbul etmir. Lakin təəssüf ki, bir çox müasir poeziya nümunələri bu cəhətdən çox yüklüdür, ona görə də sevilmir, oxunmur, klassik hikmət dolu poeziyanın qarşısında duruş gətirə bilmir. Böyük Şəhriyarın aşağıdakı sözləri təsadüfi deyildir:

Nə günə qalıbdı görün şerimiz,
İndi yan keçirik görüb şeri biz.
Qalxanımız idi şeir bir zaman,
İndi şeir oxdur, özümüz qalxan.

Sadəcə olaraq bu əsasla «sərbəst şeir» deyilən şeir forması şairin qəlbinə yatmış, R.Rzanı ölçülü-biçili lazımsız kəlmələrdən xilas etmişdir. R.Rza V.V.Mayakovskidən əvvəl doğulmuş, ondan qabaq yaradıcılığa başlamış olsa idi, fikrimizcə, yenə bu formanı seçərdi. V.V.Mayakovski ilə yaxınlıq, V.V.Mayakovskini tərcümə də bu istəyin, bu uyğunluğun nəticəsi sayılmalıdır.

Məlumdur ki, bir müddət şairin forma axtarışları bir çoxları tərəfindən bəyənilməmiş, mübahisələrə səbəb olmuşdur. Lakin şair öz yolundan dönməmiş, yeni şeri, məzmun və forma yeniliklərini anlamayanlara aydın cavablar vermiş, «Mənim arzum» (1955), «Natiq dedi ki» (1954), «Arzu» (1959), «Xoş gəldin» (1958), «Qafiyə» (1957), «Şeir dili» (1958) və b. şeirlərində daha çox istifadə etdiyi sərbəst şeir formasına, vəzn, qafiyə məsələlərinə estetik münasibətini bildirmişdir. Tənqidin hücumları ilə şair daha çox 50-ci illərdə qarşılaşmalı, çarpışmalı olmuşdur. «Mənim arzum» şerində «Mən nə istəyirəm?» sualına qəlbindən keçən arzulara müvafiq düşüncələrlə cavab verən şair: «Heç olmazsa, şeir, sənət darğasız olsun. Laləni, bənövşəni bəzək üçün, vəzn üçün şerimizə soxmayaq» – deyə poeziyada köhnəlmiş adətlərə, təsbehin dənələri kimi bir-birinə bənzəyən, min illərlə təkrar-təkrar işlədilən təşbihlərə, məzmunsuz qafiyəpərdazlığa etirazını bildirmişdir.

«Natiq dedi ki» şerində estetik fikir daha genişdir. Vəzni, qafiyəsi, misraların ölçüsü klassik formalara uyğun gəlməyən şeirləri bəyənməyənlərin «cağlı araba təkərini təyyarədən doğma, əziz bildiklərini» qeyd edərək şair yazırdı:

Deyirlər ki, şerin sətirləri bərabər olsun gərək;
köhnə alaçıq cığları kimi.
Qafiyələr xınalı olsun,
köhnə bir qoçunun bığları kimi.
...Sözlər gərək onlara tanış olsun -
Kəblə Fatmanın balağı kimi...
Sözün var, söz danış! Arşın alıb ölçmə
sətirlərin boyunu!
Sətirlər müxtəlif olur, oğlan!
Şeir də həyatın bir parçasıdır.

Yeni yolları biz açmasaq, kim açasıdır?

Bu cür şeirlərdə R.Rzanın nəfəsi daha aydın duyulmaqdadır. Şeri özün oxuyursan, amma elə bil, yanında durub şairi dinləyirsən.

Yeni şeri qəsdən başa düşmək istəməyənləri, mühafizəkar düşüncəni rədd edərək deyirdi:

Şerin dili aydındır,
O qədər aydındır ki,
Nadan yüz yol oxusun -
yenə bir şey anlamaz.

R.Rza yeni fikri yeni formada ifadə etmək tələbləri baxımından söz yaradıcılığı sərhədlərini də vurub keçmiş, qrammatik normalar şairi «təmin etməmiş», buna görə də ədəbi dildə qulaqlarımız alışmadığı sözlər düzəldib işlətmişdir:

Böylə fatehlərlə ***əsrdaşam*** *mən. Bayrağımız qızıl quş kimi qondu* ***yerbaşının*** *yaxasına. Xalq gündə* ***yubileyləyir,*** *altıaylıq, birillik.* ***Yubileyçilər*** *coşdular, təbrik üstündən təbrik. Kənar durma, yan qaçma mərd üzünü gördüyün dostundan,* ***işdaşından****. Mən sənin ilk sevgilin, sən mənim* ***könüldaşım****. Yuya bilməz ləkəsini, açsan bura bütün* ***Orta dənizi.*** *Qırx bir il bundan qabaq Həsən anadan olub, ya* ***Qumdaşittifaqın*** *səkkiz ili tamamdır. «****Azqarğı birliyinin»*** *bütün şöbələrində Qənbərlinin həyatı təhlil olundu geniş* və s.

Şair adəti üzrə işlətdiyimiz «könül yoldaşı» əvəzinə ***könüldaş***, «Aralıq dənizi» əvəzinə ***Orta dəniz***, «əsr yoldaşı» əvəzinə ***əsrdaş,*** «qütb» əvəzinə ***yerbaşı***, «yubiley edir» əvəzinə ***yubileyləyir*** (və «yubiley edənlər» əvəzinə ***yubileyçilər***), «iş yoldaşı» əvəzinə ***işdaş,*** «şeir yazan» əvəzinə ***şerçi***, «ixtisar olunun», «işdən çıxın» əvəzinə ***ixtisarlaşın*** işlədir, iki sözü bir sözlə, alınma sözü milli sözlə əvəz edir. Maraqlıdır ki, şairin 30 – 40 il əvvəl parodiya obyekti kimi işlətdiyi ***Qumdaşittifaq, Azqarğı birliyi*** kimi birləşmələr indi ayaq tutub yeriyir.

Dədə Qorqud poeziyası kimi, R.Rza poeziyası da məzmunca dolu olmaqla yanaşı, daha çox ritmə, alliterasiyaya əsaslanır. Lakin bu şeir qafiyəsiz də deyil və əksinə, deyə

bilərik ki, şairin yaratdığı qafiyələr daha tutarlı və daha orijinaldır. Lakin bəzən qafiyə bizim gözlədiyimiz kimi, ikinci misranın sonunda deyil, sərbəst formaya uyğun səpələnmiş bir neçə misradan sonra özünü göstərir:

Sən də kişi qoymusan ***adını,***
Rüşvət alıb saxlayırsan ***arvadını.***
Gözümə soxma
Bir günlük kef məclisinə
Bəs eləməz ***maaşını.***
Hələlik girləsən də ***başını,***
Hələlik saxlasan da
Yeznənin adına yazdırdığın
Təzə «Volqa» ***maşını,***
belə getməz...

Yaxud:

O yoruq bilməz vücudun
sadə qəlbi ***yoruldu.***
Son dəfə ***vurdu...***
durdu.

R.Rzanın bütün şeirləri sərbəst vəzndə deyildir. Klassik janrlarda və el ədəbiyyatı üslubunda zəngin ədəbi irsi vardır və bu silsilədən olan şeirləri orijinal poetik fiqurlar əsasında yaranmışdır. Məsələn, «Yadıma düşdü» (1938) şerində ***o məlul durmağın, boynunu burmağın, min oyun qurmağın, o tumbul yanağın, körpəcə dırnağın, ayağa durmağın, çəçələ barmağın*** və s. kimi təbii və səmimi bəndarası qafiyələr yenicə addım atmağa başlayan körpənin həyati cizgilərini çox təbii ifadə edir. Yaxud: *Buxarıda alışır quru* ***arçan odunu,*** *Göz yaşıyla qurudur qarı* ***hicran odunu*** – kimi omoformlara şair daha çox meyilli olmuşdur.

Küll halında nəzərdən keçirdikdə hiss edirsən ki, çeynənmiş ifadələrə nifrət edən şair fikrin yeni və obrazlı müqayisələrlə ifadəsindən ləzzət almışdır. Şairin poeziya dilinin canlılığında poetik kəşf səciyyəli yeni müqayisələrin rolu böyükdür. Müqayisələrdə

bənzə-yənlə bənzədilən arasında gizli rabitə müəllif tərəfindən ustalıqla üzə çıxarılmışdır:

Bir yanımda ***ömür kimi*** *axır su. Tom qaradır,* ***anasının gözü kimi****. Parisdə bu gün yenə hava tutqundur;* ***minlərlə fransızın könlü kimi.*** *Məclisin sükutu parçalanır,* ***daş dəymiş pəncərə şüşəsi kimi.*** *Sevdim səni* ***həyat kimi****. Yağı qıvrılanda* ***bir ilan kimi****...****Tərlan yuvasını qoruyan kimi****... Vədlər, qarantilər «inamlı», «qüvvətlidir» –* ***yeddi ac qurd arasına düşmüş bir dərvişin duası kimi****. Külək* ***ac it kimi*** *vurnuxur* və s.

Aşağıdakı misralar sevgilisindən uzaq düşmüş əsgərin kədərli düşüncələrini təsirli və əfsanəvi bir dil ilə andırır:

Hər zaman qəlbində saxla yerimi,
qumrudan ayrılmış bir qəfəs kimi.
Mən də unutmaram dediklərimi,
saxlayaram səni son nəfəs kimi.

Hadisələrin gözlənilməz müqayisəsi poetik tapıntı kimi diqqəti cəlb edir:

Axşam! Yazıq axşam! Yazıq axşam!
Məndən də təkmisən ki,
bir kölgən belə yoxdur? –

misralarında şair insanın yalnızlığını kölgəsi olmayan və əslində, özü kölgədən ibarət olan axşamla müqayisə etmişdir.

R.Rza sözün metaforik tutumuna xüsusi diqqət yetirmiş, gizli müqayisələrin arxasında mücərrəd varlıqlar şairin qələmi ilə ustalıqla şəxsləndirilmişdir:

Əqrəblərin ucundan zaman əriyib düşür saniyə damlalarla. Sular daşdan-daşa axır tökülür, çınqıllar içində uğunub gülür. Çünki burda azadlığın dərisini çoxdan soyublar. Göylərin qulağına gün qızıl sırğa taxdı. Qara dəniz nəfəs alır yavaş-yavaş, ağır-ağır. Burda hava körpə uşaq kimidir, gah tutulur, gah ağlayır, gah gülür. Hündür çinar budaq atmış, qol atmış, Öz ömründə çox əsrlər qocaltmış. Könül gülər göz güləndə. Azad gənclik qabağına şerim gülə-gülə çıxsın.

Poeziya dili mübaliğəsiz olmaz, – bu, aydındır. Lakin R.Rza

poeziyasında mübaliğələr də ictimai fikrin qabarıq ifadəsinə yönəldilmişdr. Müqayisə və metaforalar, komik və lirik mübaliğələr nifrət və məhəbbətin, şairin təbii hisslərinin əks qütblər üzrə amplitudları kimi çıxış edir:

Gecələr aya bax, ulduzlara bax,
gözlərimiz orda birləşəcəkdir.
Könlün aynasında, a ceyran sayaq,
eşqin qələmiylə şəklimi çəkdir.

Bir tənqidçi, dünən gördüm,
yetmiş dənə qələm alıb,
pul vermişdi qırx bağlama kağıza da.

Şair yeri gələndə belə böhtançı tənqidçiləri söyməkdən də çəkinməmişdir:

Ax, anonimçi!
Ax, anonim!
Sənin bacını, ananı...
Ağlar görəydim.

Şairin yaradıcılığında nəzəri cəlb edən mühüm xüsusiyyətlərdən biri də əlaqəsi olmayan hadisələrin gözlənilməz əlaqələndirilməsidir. Bir misrada müxtəlif hadisələri emosional şəkildə birləşdirmək imkanı verən bu üslub oxucunu oyadır, düşündürür, gözlənilməz yeni fikirlər üçün ayıq saxlayır: *Tabunun silahı yox idi. Birinci döyüşdə düşməndən* ***bir yara, bir də silah aldı.*** *Qarasaçlı bir qız* ***bilet və təbəssüm satır****.* Bu cür gözlənilməz əlaqələndirmələr əlavələrlə birlikdə daha təsirlidir: *Dünyada* ***taun, ilan – faşizm olmasın deyə*** *sinəmi döndərmişəm bu gün qızğın cəbhəyə* – misralarında «taun» və «ilan» yanaşı qoyulmuş, «ilan» dedikdə ***faşizm*** nəzərdə tutulmuşdur.

Şair hələ «Rənglər» silsiləsini qələmə almazdan daha əvvəllər bir rəngin neçə çaları olduğunu, bir rəngdə əksliklərin necə birləşdiyini müşahidə etmiş və ayrı-ayrı şeirlərində bu cür rəng çalarlarının insan təbiətində də birləşdiyini göstərmişdir:

İnsan var ki, simü zər nəsib olmuş,
İnsan var ki, tünd bibər nəsib olmuş.
İnsan var ki, nə çarıqdır, nə də köşə.
İnsan var ki, tut qıçından at dalına,
ağzı hara düşə-düşə!

Təbii gerçəkliyin: «***Yol uzun, ömür qısa; Ölüm arxadan gəlir həyatı busa-busa»*** – tipli təbii təsviri ilə yanaşı, gözlənilməz əks əlaqələndirmələr (antitezalar) da şairin sözə ictimai məzmun verə bilmə ustalığının nəticəsidir:

Əyilməyən bayraqlar öpdü o gün
ölməyən bir cansızın
böyük məzar daşını.

Yaxud:

Əynim-başım istidir,
Üşüyürəm istidən.

R.Rza şerinin güclü tərəflərindən biri də şairin ümumiləşdirmə bacarığı ilə bağlı olmuşdur. Şair ictimai həyatın yeniliklərini, yaxud zamanın böyük bəlalarını kiçik bir şeirdə ustalıqla ümumiləşdirə bilmişdir. Bəşər övladının fəlakətləri aşağıdakı misralarda ustalıqla sintez edilmişdir:

Evlər gördüm – külə dönmüş, çaylar gördüm – qupquru...
Körpə gördüm – dodağından damla-damla qan sızır.
Qoca gördüm – əyilmişdi sinəsinə ağ başı,
Bacı gördüm – yerə diri basdırılmış qardaşı,
Ana gördüm – bir gecədə qara saçı ağarmış...
Çox dolaşdım, çox şey gördüm vəhşilikdən nişana!

Evlər gördüm, çaylar gördüm, körpə gördüm, qoca gördüm, bacı gördüm, ana gördüm, çox dolaşdım, çox şey gördüm – tək-tək insanların deyil, küll halında bəşər övladının fəlakət və iztirablarını birləşdirir. Bu cür ümumiləşdirmə nəticəsidir ki, R.Rzanın bir çox misraları hikmətli cümlələr şəklindədir:

Ayrılıq dediyin duzlu bir sudur,
içdikcə köz kimi yandıracaqdır.

Lirik planda bu cür misra və beytləri dillər əzbəridir:

Mən sənə gül demərəm,
Gülün ömrü az olur.
Sən açmısan qapımı
yasəmənlər açanda...

Aşağıdakı misralarda şair adlıq cümlələr adlandırdığımız qısa və yığcam cümlələrin köməyi ilə müharibənin dəhşətləri fonunda insan təbiətindəki dönməzliyin böyük mənzərəsini ümumiləşdirmişdir:

Terek sahilləri. Don sahilləri.
Boz şinel. Avtomat. Gözlərdə bir kin...
Dumandan ayrılan o qış səhəri
yadımdadır sənin Qərbə getdiyin.

Nəsrdə S.Rəhimov, B.Bayramov kimi yazıçılarımızın çox işlətdikləri və gücündən böyük məharətlə istifadə etdikləri qoşa sözlər R.Rza qələmi ilə poeziyada geniş vüsət qazanmış, şair təsvir etdiyi hadisələrin məzmununu qoşa sözlərlə çox zənginləşdirmişdir. Şumerlərdən üzü bəri türk dillərində geniş şəkildə işlədilən qoşa sözlər böyük ümumiləşdirmə gücünə malik olub ifadə etdiyi əşyanın, əlamətin, hərəkətin tükənməzliyi anlayışını yaradır:

Dərya-dərya *məhəbbət.* ***Ölkə-ölkə*** *ölüm, qan.* ***Nəsil-nəsil*** *göz yaşı.* ***Məktəb-məktəb*** *uşaqlar.* ***Nəğmə-nəğmə*** *küçələr.* ***Təpə-təpə*** *dalğalar.İnsanlar* ***şəhər-şəhər.*** *Gümüş şeh* ***damcı-damcı.*** *Səhərlər* ***nurlu-nurlu.*** *Zəmilər* ***sünbül-sünbül.*** *Torpaqlar* ***əkin-əkin****.Çöl, dərə* ***bulaq-bulaq.***

Sənət sirlərinin qeyd etdiyimiz bu bir neçə nümunəsi R.Rza dünyabaxışının orijinal ifadə vasitələridir. Bunlar kompleks şəkildə şairin poetik üslubunu səciyyələndirir. Eyni poetik fiqurlardan istifadə edən bir çox başqa şairlərimizdən fərqli olaraq, bunlar R.Rza şerində son dərəcə canlıdır, diridir, ona görə də şairin poeziyasında tendensiya aydın və güclüdür. Bunlarla yanaşı, R.Rza

poeziyasında elə bir cəhət də var ki, şairin bütün şeirlərindən bir xətt kimi keçir. Bu, səmimiyyətdir. Şairi bir şair kimi gələcəyə aparan da, fikrimizcə, bu cəhətdir – Rəsul Rza şerindəki böyük səmimiyyət! R.Rza insanla açıq danışmağı, səmimi danışmağı, özünün və qarşıdakı şəxsin qüsurlarını böyük səmimiyyət və cəsarətlə etiraf etməyi sevən bir şair olmuşdur, söylədiyi hər bir sözün arxasında inamla dayanmışdır. Şairin hər bir kəlməsində inam vardır. Bu cəhət həm ictimai-siyasi hadisələrin təsvirində, həm də lirik planda – məhəbbət mövzusunda yazdığı şeirlərdə qabarıq şəkildə özünü göstərməkdədir. Təkbətək döyüşdə on bir faşistin onunu məhv edib, gülləsi qurtardığından on birincisini dişləri ilə boğub öldürən Bəxtiyar Kərimov haqqında şeri bir dastandır. Şairin Vətən oğluna məhəbbəti tükənməzdir. Şeir elə doğulub ki, həzin bir musiqini andırır:

Külək qarı səpələr, – Bəxtiyar!
Ağ geyinib təpələr, - Bəxtiyar!
Gecə qara, yol uzaq, – qardaşım!
Göylər bulud, çöl-düz ağ, - qardaşım!

Kaman çalan kimdir o, – Bəxtiyar!
Küləkmi, ya simdir o, - Bəxtiyar!
Gənclik, həyat şirindir, qardaşım!
Vətən qat-qat şirindir, – qardaşım!
Ellərimin balası, – Bəxtiyar!
Qəlbi Vətən qalası, Bəxtiyar!..

Bu cür səmimiyyət dünyanın digər məzlum xalqlarının, vətən uğrunda, azadlıq uğrunda döyüşən insanların təsvirində də özünü göstərir. «Si-au» şerində mübariz çin döyüşçülərinə ürək-dirək verməyə, tamaşalar göstərməyə gedən balaca Si-aunun çox gənc yaşlarında yankilər tərəfindən boğazından asılmış Dzin-ay haqqında mahnısını şair həzin bir nəğmə kimi səsləndirmişdir:

Bir qaranlıq gecədə
Dzin-ayım yola düşdü.
Ay çıxdı sağ tərəfdən,

Kölgəsi sola düşdü.
Yol uzun, gecə qara,
Dzin-ay səfərin hara?
Ürəyin necə qızdı
Sirli qaranlıqlara?
Mənim dostum, hayanım,
Balaca partizanım!..

Məhəbbət lirikasında şairin sevgi və istəyi daha səmimi, daha zərifdir. Bu cür şerlər sanki musiqi ilə birgə yaranıb. «İnsaf da yaxşı şeydir» şeri 50 ilə yaxındır, aşiqin səmimi yalvarış və gileylərini ifadə edən gözəl bir şeir kimi oxucuların könlünü oxşayır:

Qərarımı kəsən yar,
Söz deməmiş küsən yar!
Nə dedim ki, incidin,
De! Bu mən, yar, bu sən, yar!
Könlüm nəğməli neydir,
Dilim dolu gileydir.
Öldürdü nazın məni,
İnsaf da yaxşı şeydir.

R.Rzanın poeziyasında sənət sirlərini, böyük sənətkar cəsarətini öyrənmək üçün çox şey vardır və XX əsrin məhsulu olan bu döyüşkən poeziya hələ neçə-neçə nəslin tərbiyəsinə, ədəbi və estetik inkişafına kömək edəcəkdir.

27.02.2001

POEZİYANIN ŞİRİN DİLİ HAQQINDA

XX əsr 2-ci minilliyin son vərəqi kimi qapandı, geridə qaldı, lakin əsrin yetirdiyi böyük ədəbi simalar, nəhəng poeziya ustaları tarixin əbədi yol yoldaşları kimi gələcəyə doğru irəliləməkdədir. 85 illiyini qeyd etdiyimiz İlyas Əfəndiyev məhz bu əsrdə məzmun və forma baxımından bənzərsiz nəsri, teatrımızda xüsusi mərhələ yaradan silsilə pyesləri ilə klassiklər sırasında yer tutdu.

«İlyas Əfəndiyev» imzasında əbədi bir işıq, bir kövrəklik, yuxu aləmində uçan insanın hiss etdiyi rahatlıq, yüngüllük, ecazkarlıq var. Bunlar yazıçının insan qəlbində fırtına doğuran duyğu və düşüncələri pərdələməməsi, pərdələməyə çalışmaması, saxtalaşdırmaması, zorla «vahid ideya»ya tabe etməməsi, hər kəsdə görünə bilməyən böyük yazıçı demokratizmi ilə bağlıdır; bunlar həyatın həqiqi poeziyasını poeziyanın şirin dili ilə daha həyati ifadə edə bilmək qüdrəti ilə bağlıdır. Zəhmətə bağlanmayan istedad qanadsız quş kimidir. «At işləməsə, ər öyünməz». İlyas Əfəndiyev ilhamının al rəngli, yel qanadlı atı onun ilk hekayələrindən oxucunun başı üzərindən uçaraq onu əfsunlamışdır, – təbii boyası, ahəngdarlığı, insan hisslərinin, insan duyğularının dibi görünməz dərinliklərinə enən lirizmi ilə... Həqiqi nəsrin xalis poeziya olduğunu unudanlar və «Mənim nəsrim – mənim poeziyamdır» (Folkner) prinsipinə əməl edənlər sırasında İlyas Əfəndiyev ikincilərdəndir. Digər nəsr ustalarımızın böyük zəhmətinə, müqəddəs ruhuna etinasızlıq göstərmədən deyə bilərik ki, əgər nəsrin şeriyyətini öyrənmək lazım gələrsə, «Dədə Qorqud»dan sonra İ.Əfəndiyevin «Qarı dağı», «Qəhrəman ilə bülbülün nağılı», «Tar», «Kiçik bir poema», «Apardı sellər Saranı» və başqa hekayələrini öyrənmək lazım gələrdi. Bu əsərlərdəki şeriyyət tədricən genişlənərək «Söyüdlü arx»a, «Körpüsalanlar»a, «Sarıköynəklə Valehin nağılı»na və başqa əsərlərə hopmuşdur. Bu üslub «Geriyə baxma, qoca» romanında hər kəlməsində xəlqilik, kamillik və müdriklik görünən dastanvarı cilalanma yolu ilə getmişdir.

İlyas Əfəndiyev nəsrinin dili onun aparıcı keyfiyyətləri ilə, çox zaman hadisələrin birinci şəxsin dilindən söylənilməsinə əsaslanan

üslubi-poetik-bədii tədqiqatla bağlıdır. Lirik «mən» insan təbiətindəki bütün ziddiyyətləri çözələməyə, obrazın mümkün hissi-psixoloji aləmini vüsətlə üzə çıxarmağa imkan vermiş, yazıçı öz «mən»ini obrazın – brinci şəxsin «mən»i timsalında, bir növ, insan təbiətinə müdaxilə etmədən səciyyələndirə bilmişdir.

Hadisələrin təsvirində intensivlik – artıq haşiyə və dialoqların redaktəsi, təhkiyə və dialoqların ümumiləşdirmə gücü, xalq dilinə, xalqın müdrikliyinə inam hissi hadisə və obrazların təsviri prosesində yazıçıya hüdudsuz imkanlar vermişdir.

Qarşıda böyük ədiblər ordusu dururdu. Odur ki ilk qələm təcrübələri dövründən M.F.Axundovu, Mirzə Cəlili, Ə.Haqverdievi, müasirləri Mir Cəlalı, Sabit Rəhmanı, H.Mehdini, Ordubadi, S.Rəhimov kimi nəhəngləri göz önündə saxlamış, oxucunun zövqünü düşünmüş, sözə necə rəng vuracağını dəfələrlə götür-qoy etmiş, ədəbiyyatımızda seçilən, sevilən və insanın mənəvi aləminə nüfuz edən orijinal bir üslub formalaşdırmışdır. İ.Əfəndiyev qeyri-təbii, süni obrazlılıq yaratmaq yolu ilə getməmiş, bədiiliyi hadisənin, xarakterin sadə, təbii təsvirində görmüşdür. Nəsrindəki lirizm, psixoloji dərinlik dramaturgiyasında ona görə qabarıqdır ki, səhnədə obraz bütövlükdə görünür. Əslində, nəsr və dramaturgiyasında dilin ədəbi-estetik dəyəri eyni dərəcədə yüksəkdir; buna görə də İ.Əfəndiyev lirik-psixoloji dram və nəsr dilinin yeni vüsətlə inkişafında dövrün bani səviyyəli ən müqtədir sənətkarı sayılır. Dramaturgiyamızdakı ritorikliyi ustalıqla təbii insan mükalimələri ilə əvəz edə bilmiş, sadə, sərrast, təbii-emosional replikalarla nəsihətçilik ənənəsini geridə buraxmışdır. Sözləri fraza mühitində əridərək fikri məcazlarla irəlilətmə üsuluna üstünlük vermişdir. Sintaktik bütövlərdən bir-birinə usta məntiqi keçidlər poetik mətnin təşəkkülündə həlledici amil olmuşdur. Hadisələrin çox zaman gərgin nöqtələrin birindən başlaması, maraqlı və gözlənilməz başlanğıc və sonluqlar, süjet rəngarəngliyi, ahəngdarlıq və musiqililik, intonasiyanın dolğun nəfəsdərmə ilə tamamlanması, dialoq nitqinin qısa, yığcam, emosional quruluşu, poetik sintaksis – rasional fikrin saxlanması ilə «məlum olanlar»ın ixtisarı, söz sırası, məntiqi vurğu, müxtəlif üzvlərin və mürəkkəb cümlə komponentlərinin aktuallaşdırılması üsulları, müraciət və münasibət bildirən söz və birləşmələr, presuppozisional imkanlar əsa-

sında bir çox şeylərin xatırlanmasının oxucunun ixtiyarına buraxılması – implisit ifadə forması, xalq frazeologiyasından yeni çalarda istifadə və s. yazıçı ideyasını dəyərləndirən, əsəri ədəbi aləmin sevgi mənbəyinə çevirən əsas amillər olmaqla özünəməxsusluğu ilə seçilir.

İlyas Əfəndiyevin nəsrində bir əfsunluq, yaxşı mənada bir əfsanəvilik var. Xalq əfsanələrinə meyil yazıçının təbiətində əfsanəviliyə meyildən irəli gəlmişdir. «Qarı dağı», «Apardı sellər Saranı», «Qəhrəman ilə bülbülün nağılı» və başqa hekayələri kifayətdir ki, oxucunu İlyas Əfəndiyev nəsr tilsiminin əsiri etsin. Bu hal təkcə onunla əlaqədar deyil ki, yazıçı öz oxucusunu əfsanənin şirin dünyasına çəkib aparmaq istəyir. Bu hal həm də yazıçının təsvir və təhkiyə dilindən irəli gəlir. Bir var, əfsanədən yazasan, bir də var, əfsanəvi bir dil ilə yazasan. İlyas Əfəndiyevin qüdrəti bu ikinci haldadır - dilinin füsunkarlığındadır. Elə bir yaşda deyilik ki, gənclik hərarəti ilə hər bir kiçik təsirli və zərif detaldan ehtizaza gələk. Amma mən indinin özündə də onun «Qəhrəman ilə bülbülün nağılı» hekayəsini oxuyanda ifadə edə bilməyəcəyim son dərəcə dəruni duyğular keçirirəm. 7 düşmən öldürüb, 18 yara almış qəhrəmanın ölüm səhnəsi yuxu ilə reallıq arasındakı əlaqələrin vəhdəti şəklində o qədər sadə, lakin o qədər ecazkar nəql edilir ki, oxuduqca titrəyirsən, hər sətirdəki əfsanəviliyi ürək döyüntüləri ilə izləyirsən:

«Bülbül yaralı bir qəlb kimi çırpınaraq oxuyur, oğlan yıxıldığı yerdə qımıldanmadan yatıb qalırdı. Onun al qanı parçalanmış köksündən axıb ətrafdakı ağ nərgiz güllərini qızardırdı.

Bülbül bir an susub meşənin sükutunu dinlədi və təkrar oğlana baxaraq elə fəğan qopardı ki, yaralı titrəyərək göz qapaqlarını qaldırdı. Sonra əllərini yerə dirəyib azca dikəldi. Dumanlı gözlərini ətrafa gəzdirərək, çiçəklər arasında oxuyan bülbülü gördü. Dodaqlarına solğun bir təbəssüm qondu...

Oğlanın baxışlarından ildırımlar qopdu. O, yaralı pələng kimi iniltili bir ah çəkib, yenə də otların üstünə yıxıldı.

...Bülbül qanadlarını çiçəklərə çırparaq yerindən qopdu və bir an çəkmədi ki, oğlanın üzünə kəpənək qanadı qədər xəfif bir gül düşdü.

Oğlan bu qəribə gülün təmasından diksinib gözlərini açdı. Oğlana elə gəldi ki, bu hansı bir əziz xatirəninsə yadigarıdır...

Nəhayət, oğlan qəribə bir yuxu gördü; gördü ki, kəndlərinin üst tərəfindən axan çayın qırağında dayanmışdır. Birdən çayın gümüşü suyu içindən ağ paltarlı bir qız çıxıb ona yanaşdı. Oğlan qızı tanıdı: bu, o idi.

Qızın qucağı, saçları yabanı qızılgüllərlə dolu idi...

Qucağındakı gülləri oğlanın üstünə səpdi. Oğlan üzünə dəyən güllərin rayihədar, xəfif təmasından gözlərini yalnız bircə dəfə qırpıb açdığı zaman qızın durduğu yerdə ağ bir göyərçin gördü.

Göyərçin qanadlarını çalaraq havaya qalxdı. Oğlan onu tutub saxlamaq istəyirmiş kimi, əllərini qaldırdı və birdən bu əllər qartal qanadlarına çevrilib onun ağır vücudunu qəribə bir yüngüllüklə yerdən üzdü.

Onlar getdikcə bir-birinə yaxınlaşıb, nəhayət, qoşalaşdılar. Sonra alov rəngli buludlardan keçərək, göylərin sakit, mavi ənginliklərinə yol aldılar».

Poeziya budur. 18 yara almış qəhrəmanın ruhunun tədricən bədəni tərk edərək göylərə necə ucaldığını və bu tədricilik məqamında öz sevgisini də özü ilə necə apardığını yazıçı heyrətamiz bir dil ilə təsvir etmişdir. Bülbülün çılğın və dəhşətli fəryadı sevgilinin «getmə» deyən fəryadlarıdır. Ağ göyərçin artıq susan, dincələn, əbədiyyətə qovuşmaqda olan, əzab və ağrılardan qurtaran insan ruhunun yol yoldaşı, artıq fəğana, fəryada ehtiyac olmadığını bildiyindən qoşa yüksələn sevgilinin ruhudur. Təsvir qəhrəmanın zahirən ağrısız görünən, məsum və məsud şəkildə, dodaqlarında quruyan təbəssümlə, mərdlik və rəşadətlə, məhəbbət dolu bir ürəklə göylərə yüksəldiyini son dərəcə emosional ifadə edir. Qanı soğulmuş bədənin tədrici rahatlığı, çox yüngülüklə göylərə yüksəlməsi nə qədər real, həm də nə qədər əfsanəvi və kədərlidir! Adətən, deyərlər ki, ürəyi yaralı bir quş kimi çırpınırdı. Burda qiyas əksinədir - «yaralı bir ürək kimi çırpınan bülbül...» Təsvirin şirinliyindən fikir verməyə macal tapmadığımız məcazlar da etibarla seçilmişdir. Bütün bunların nəticəsində hekayə son dərəcə böyük ustalıq və istedadla yonulmuş zərif və əfsanəvi bir heykəli xatırladır.

Əfsanəviliyi yaradan təsvir və detallar çox rəngarəngdir. Sevgidə dönməzlik, saf duyğu və düşüncələr, misilsiz lirik təsvirlərlə yanaşı, təbiətlə insanın vəhdəti, insanlar arasında yaramaz əməl-

lərdən qeyzə gələn təbiət: «*...bir gün hava tutuldu. Günəş buludlar arasında gizləndi. Araz «qan-qan» dedi. ...İldırım çaxaraq qoca dağın şiş təpəsini parçaladı. Sular qayalara çarparaq hiddətlə səsləndi. Dərələr uğuldadı. Muğan titrədi...»* Xançobanın aranda qoyub getdiyi gözəl sevgilisi Saranı yadeli şah özünə hərəm etmək istərkən təbiət bu cür qeyzə gəlir, Saranın yadelli düşmən əli ilə ləkələnməsinə imkan vermir.

Hələ Saranın təsviri: «*Dağlar onun gözəlliyinə heyran qaldı. Çiçəklər ona qibtə etdi. Aşıqlar hüsnünə dastan dedilər. Sorağı ellərə yayıldı. İgidlər dərdə düşdü..»* Silsilə yarı real, yarı metaforik təsvirlər oxucunun şüurunda hekayəni dastanlaşdırır.

İş də bundadır ki, mən bunları indi demirəm, 40-a qədər nəslin auditoriyasında nəsil-nəsil tələbələrə şeir kimi əzbər söyləmişəm, yazdırmışam. Və bu gün də İlyas Əfəndiyev nəsrindən əzbər bildiyim neçə-neçə bu cür nümunələr mənə eyni dərəcədə ləzzət verən ən gözəl ədəbi dil nümunələridir.

«Körpüsalanlar» əsl gənclik əsəridir. «Geriyə baxma, qoca» müdrikliklə yaranmışdır və müdrikliyi təbliğ edən əsərdir - müdrik adamların kitabıdır.

İlyas Əfəndiyevin nəsrində düşmənə nifrət motivləri də unudulması mümkün olmayan detallarla təsvir edilmişdir. «Qarı dağı» hekayəsi düşmənə nifrət, yağılardan qisas duyğularını təlqin edən güclü bir nümunə üzərində qurulmuş qiymətli sənət əsəridir. Hekayə yağılar tərəfindən məhv edilən bir elin intiqamını zalım şahdan çox böyük ustalıqla alan, «İndi mənim zəbun olduğuma baxma, istəsəm səni dirildərəm, istəsəm öldürərəm» məntiqi ilə özünü fəda edən bir qarının təsvirinə həsr edilmişdir.

Xalqımızın keşməkeşli tarixi çox uzundur. Yazıçı lazımdır ki, qəhrəmanlıq və faciələrlə dolu tariximizin səhifələrini vərəqləyib bədii əsərlərində əbədiləşdirə bilsin. Tutarlı bədii-tarixi əsər tarixi həqiqəti tarix kitablarından daha yaxşı ortaya çıxara bilir, tarixi şəxsiyyətlərimizi yadda saxlamağa daha çox kömək edir. İlyas Əfəndiyevin bədii nəsri və xüsusilə dramaturgiyası faciələrlə dolu tariximizin həqiqi salnaməsidir.

İİlyas Əfəndiyevin dili və orijinal üslub gerçəklikləri gənc nasirlər üçün məktəb olmaqla yanaşı, yüzilliklər keçidində XX əsr

Azərbaycan bədii dilinin şirinliyi və gözəlliyi timsalı kimi daim heyrət doğuracaqdır.

27.09.2001

MİRZƏ İBRAHİMOV VƏ DİLİMİZ

Xalq yazıçısı, akademik Mirzə İbrahimovun ədəbi dilimizə xidməti yaradıcılıqla məşğul olduğu 60 ilin müddətində mümkün olan bütün sahələr üzrə şaxələnmişdir. Azərbaycan SSR Xalq Maarif Komissarı, Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin sədri, birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifələrində işlədiyi dövrlərdə bir publisist, bir ədəbiyyatşünas alim, bir yazıçı, bir ictimai xadim kimi və bunların hamısından əvvəl, böyük bir vətəndaş kimi daim dilimizin keşiyində durmuş, Azərbaycan dilinin inkişafı, yadlar təsir və təzyiqindən xilas olması, saflaşması, cilalanması uğrunda mübarizə aparmış, çox sevdiyi ana dilinin qüdrətini nümayiş etdirən gözəl elmi, bədii və publisistik əsərlər yazmışdır. Mirzə İbrahimovun «Gələcək gün» romanı onlarca nəslin tərbiyəsində, mübariz, vətənpərvər və yüksək əxlaqi keyfiyyətlərə malik insan kimi yeitişməsində misilsiz rol oynamış, «Böyük dayaq» romanı kolxoz kəndinin tipik mənzərəsi, sovet adamlarının əbədiyaşar tipik obrazları ilə tarixə daxil olmuşdur. Mirzə İbrahimovun romanları, povest və hekayələri, dramaturgiyası vətən sevgisi, xalq sevgisi, ana dili sevgisi ilə 70 ildən artıqdır ki, könülləri oxşayır, insanda mənəvi yüksəklik, xeyirxahlıq, ideyalılıq duyğuları yaradır. Mirzə İbrahimovun yaradıcılığı gənc yazıçı nəsillərinə ana dili üzərində işləməyin yollarını öyrədib.

Mirzə İbrahimov, hər şeydən əvvəl, şərəflə, vətən sevgisi ilə yaşayan, zəhmətdən yorulmayan bir şəxsiyyət kimi insanlara təsir edib. Bədii və bədii-publisistik əsərləri ilə nəsillərə nümunə olub. Onun fəlsəfi-psixoloji təfəkkürünün məhsulu olan əsərlərinin əsasında ədəbi dilin milli orijinal normaları durur. «Bədii dilin özünün loqarifması vardır və onu öyrənmək bütün ömrü boyu yazıçının vəzifəsidir» deyən, oxucunun mənəvi və mədəni inkişafına

böyük həssaslıqla diqqət yetirən yazıçı bilirdi ki, ciddi ədəbi normalar vardır və bu normaları yalnız dilin bədiilik və məcazilik imkanlarını genişləndirmək istiqamətində aşmaq olar. Bunu da yaxşı bilirdi ki, bu normaların mənbəyi xalqdır, xalqın dilidir, ona görə də xalq dilini, onun hüdudsuz imkanlarını ömür boyu öyrənmək lazımdır: «...bədii dil yalnız bədii əsərlərin dili demək deyildir. Obrazlı, ifadəli bədii dilin yaradıcısı, hər şeydən qabaq, xalqdır. Obrazlı söz xalq dilinin ümumi qazanında qaynayıb yetişir və ancaq oradan xalq həyatı, xalq şüuru ilə birlikdə bədii ədəbiyyata keçir, təsadüfi deyil ki, bədii dilin ən gözəl nümunələri xalq ədəbiyyatındadır».

Mirzə İbrahimovun nəsr dili xalq dili üzərində işləməyin, onu cilalayaraq bədii ədəbiyyata gətirməyin nümunəsidir. Həm də həqiqi nümunədir. Onun bədii dilində qüsur tapmaq çətindir. Bütün normalara riayət edən qüsursuz dil, adətən, bir növ destilə edilmiş, obrazlılıqdan məhrum dil sayılır. Lakin M.İbrahimovun bədii dili ona görə kamil və nümunəvidir ki, bu dildə normalılıq və obrazlılıq vəhdət şəklindədir. O şey ki oxucunun düşüncəsinə buraxıla bilər, M.İbrahimov onunla oxucunun vaxtını almamış, əksinə, onun təfəkkürünü yeni informasiya ilə aktuallaşdırmaq prinsipinə üstünlük vermişdir. Yazıçının qələmi çoxlarının müşahidə etdiyi, lakin dil vasitəsilə ifadə edə bilmədiyi və ya etmədiyi düşüncələrin zərif ifadəsinə daha çox meyilli olmuşdur. Yazıçı bu cür hallarda insan təbiətinin dərinliklərinə enə bilmiş, insan psixologiyasının insan üzünə açılmamış qapılarını açmışdır. Bunlar dilin də təbii imkanlarını genişləndirirdi. Qələminin məhsulu olan nəsr əsərləri təbəssüm dolu təhkiyə və dialoqlarla oxucunu çəkib aparır. Yazıçı bədii dilə elə məsəllər, elə atalar sözləri gətirmişdir ki, onlara heç bir folklor qaynağında rast gəlmirik. Bunlar onun xalq dilini necə böyük məhəbbətlə öyrəndiyinə canlı sübutdur. Həyatda özü son dərəcə hazırcavab olduğu kimi, yaradıcılığı da hazırcavablıq elementləri ilə zəngindir.

Yazıçı nəsrinin, M.İbrahimov nəsrinin gücü insan psixologiyasının çətin görünən tərəflərinin real və təbii ifadəsini verə bilməsindədir. Onun əsərlərinin hər bir kiçik epizodunda, təsvir, təhkiyə və dialoqlarında real və təbii insanla, insanın canlı mühakimələri ilə qarşılaşırıq. Nəsrin intonasiyası, ümumi ahəngi hər an

onun təmkinli poetik vüsətini təlqin edir. Heç bir cümlədə təngnəfəs olmursan, yarımçıqlıq və bəsitliklə narahatlıq keçirmirsən, ifadənin qeyri-təbiiliyi səni narahat etmir. Bu nəsrdə tərəfgirlik, mənfini mənfi kimi damğalamaq, müsbətin müsbət keyfiyyətlərini şişirtmək meyli duyulmur. İnsan M.İbrahimovun nəsrində öz xarakteri, öz səviyyəsi, aid olduğu zümrənin xüsusiyyətləri ilə olduğu kimidir. Bunlar da göstərir ki, M.İbrahimov həyatı, insanları yorulmadan öyrənmiş, istedadının hər damlasına yüz damla tər qatmış, yeni xarakterlərlə ədəbiyyatı zənginləşdirmək yolunu tutmuşdur. Aydın duyulur ki, yazıçı heç vaxt tələsməmiş, əsərlərinin dili üzərində dönə-dönə işləmiş, gənc nəsildən və öz müasirlərpindən bədii dilin estetik gözəlliyini daim nəzərdə tutmağı, zövqləri korlamamağı tələb etmişdir. Odur ki obrazları da təbii və gözəldir, onların nitqləri də. «Sözün yerini, qədir-qiymətini bilməyən adama heç kəs hörmət etməz» deyirdi. Bilirdi və bildirirdi ki, «Ədəbi əsərdə sözün əhəmiyyəti adi danışıqda olduğundan qatqat artıqdır. Yazıçının silahı dildir. Məzmunu və ifadəsi gözəl olmayan əsərin müəllifi bu silahdan istifadə edə bilməmişdir». Bütün bunlar mühüm ədəbi prinsiplər kimi onun estetik idealına daxil idi.

M.İbrahimov bəzən böyük yazıçı sövqi-təbii ilə sırf qrammatika məsələlərinə daxil olur, həmkarlarının və gənc yazıçı nəslinin qarşısına sözü işlətməklə bağlı ciddi tələblər qoyurdu. Bir əsərin dilindən danışarkən yazırdı: «Adamların bir qismi kostyum «geyinmişdi» yox, «geymişdi» olmalıdır. «Geymişdi» və «geyinmişdi» sözlərinin incə məna fərqinə görə yerlərini bilmək lazımdır». Yazıçı təsirli və təsirsiz fel anlayışlarını araya gətirməsə də, elmi qrammatika baxımından fakta həssaslıqla yanaşmışdı. Böyük xəbərdarlıq və ali hisslərlə yazırdı: «Mətbuatda və tərcümə sahəsində kütləvi şəkil almış dil qüsurları ilə, zövqsüzlük və açıq təhriflərlə barışsaq, xəbərimiz olmadan bu qüsurlar bulanıq və güclü bir axına çevrilər, dilin və deməli, ictimai şüurun inkişafında ağır çətinliklər törədər». «Azərbaycan dilinin daxili quruluşunu pozan, təbiətinə zidd olan ifadə və cümlələrin ədəbi əsərə yol tapması daha xatalıdır və yolverilməzdir». Mirzə İbrahimov və onun müasirləri dilimizi belə qoruyur, onun üstündə belə əsirdilər. Bu sözlər indi daha ucadan səsləndirilməlidir. Qarışıq mətbuatı və onun di-

lini, başsızlıq, nəzarətsizlik və nizamsızlığın baş alıb getdiyi indiki dövrü nəzərə aldıqda bu sözlər yazıçı və ya jurnalist adı daşıyanların daim diqqət mərkəzində durmalıdır.

Dil məsələlərindən danışarkən yazıçı daim nəhəng klassikləri misal gətirmiş, Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Haqverdiyev, Sabir, Cəfər Cabbarlı, Məmməd Səid Ordubadi, Səməd Vurğun kimi yazıçı və şairlərimizin bədii dilini nümunə göstərmişdir. Nitq mədəniyyəti, nitqin gözəlliyi məsələlərinə xüsusi fikir vermiş, insanın nitqini onun mənəvi aləmi, zövqü, təfəkkürü, idraki keyfiyyətləri ilə bağlamışdır, dili ictimai inkişafın ən ecazkar hadisəsi hesab etmişdir.

Azərbaycan dili və Azərbaycan dilçilik elmi Sovet dövründə bütövlükdə keçən minillikdə görmədiyi inkişaf sürətinə nail olmuşdur. Dilimiz son dərəcə cilalanmış, lazımsız yad ünsürlərdən təmizlənmiş, milli keyfiyyətlərini artırmışdır. Dəfələrlə əlifba, orfoqrafiya, terminologiya məsələləri müzakirə olunmuş, dilin qrammatik quruluşu öyrənilmişdir. M.İbrahimov daim bu müzakirələrin mərkəzində olmuş, bir alim, bir ziyalı, bir yazıçı kimi həmişə öndə getmiş, öz sözünü deməkdən çəkinməmişdir. Bir əsrdə bu qədər əlifba dəyişikliyi olmasa idi, bu xalqın əlifba, orfoqrafiya sarıdan on illərlə çətinliyi olmazdı. Lakin indi yeni əlifbaya keçildiyi bir vaxtda xalqın əlində heç bir düsturül-əməl yoxdur, xalq adi orfoqrafiya qaydalarına möhtacdır. İnsanların 50 ildən artıq bir müddətdə qazanmış olduğu vərdişin əksinə olaraq, əlifbamızda ciddi qüsurlar vardır – 50 il cingiltili samitlərdə qoyduğumuz diakratik işarələri indi vərdişlərimizin əksinə olaraq kar samitlərdə qoymalıyıq. Nöqtələr sözün yazılışında əlaqələri qırır. O vaxtlar ziyalılar öz sözünü deyir, obyektiv qərarlar çıxarır, xalqın, xalq maarifinin, təhsilin inkişafını nəzərə alırdılar. İndi sözü də yuxarılara münasib alamlar deyir. Bu cür çətinliklər olacağını təsəvvür etmədiyimiz dövrdə M.İbrahimov Azərbaycan dilçilik elminin nailiyyətlərini yüksək qiymətləndirərək «Dialoq» əsərində dostu şairə müraciətlə deyirdi: «Dostum, elə güman etmə ki, mən Azərbaycan dilçilik elminin çox böyük nailiyyətlərindən xəbərsizəm. Xeyr, mən çox yaxşı bilirəm ki, Azərbaycan dilçilik elmi sovet ictimai quruluşunun qiymətli meyvəsidir». İndi dilimizin «tarixini, nəzəri məsələlərini geniş şəkildə və müasir elmi əsaslarla

işıqlandıran gözəl əsərlər yaranmışdır, yüksək ixtisaslı dilçi alimlərimiz yetişmişdir. Akademiyamızın nəzdində xüsusi dilçilik elmi-tədqiqat institutu fəaliyyət göstərir. Türk-tatar dillərinin vacib məsələlərini işıqlandıran «Türkologiya» jurnalı bizdə çap olunur». Böyük məhəbbətlə, qürur hissi və təntənə ilə yazırdı: «Hazırkı dilimiz ən yüksək bir romantikanın, ən təsirli bir realizmin dilidir. Bu dil qanadlı xəyalları, coşqun ehtirasları, dərin fikirləri ifadə edə bilir. Eyni zamanda, bu dil gözəldir, cazibədardır, şeirlə, ahənglə, musiqi ilə doludur». S.Vurğunun «Vaqif» pyesini misal gətirərək «Azərbaycan ədəbi dili qılınc döyüşünü andıran qızğın mükalimələr, kəskin deyişmələr dilidir. Burada hər söz, hər replika iti xəncər zərbəsidir»– deyirdi.

M.İbrahimov bunları qeyd etməklə yanaşı, dilçiliyimizin qüsurlarını da tənqid edir, ədəbi dili lorulaşdırma hallarına etirazını bildirirdi.

Yazıçı 1957-ci ildə çap etdirdiyi «Azərbaycan dili» kitabına «Dilimizin inkişaf yolları haqqında», «Dil və ədəbiyyat dərsliklərini nümunəvi təşkil edək», «Azərbaycan dili» və «Azərbaycan dili dövlət idarələrində» məqalələrini daxil etmişdir. Bu məqalələrdən əvvəlki üçünü Maarif Komissarı olduğu vaxt – 1943, 1944 və 1945-cü illərdə – müharibənin qızğın çağlarında, sonuncusunu Respublika Ali Soveti Rəyasət heyətinin sədri olarkən yazmışdır. Bu iki dövr arasında Nizami adına Dil və Ədəbiyyat institutunun direktoru kimi dilçilik elminin inkişafına rəhbərlik etmişdir. Bu məqalələrdə Azərbaycan dilinin elə bir sahəsi yoxdur ki, əhatə edilməmiş, münasibət bildirilməmiş olsun. Midiya (Maday) dövründən XX əsrin ortalarına qədər, mümkün faktlar əsasında Azərbaycan dilinin tarixini ardıcıl şəkildə nəzərdən keçirən yazıçı son mərhələdə – Sovet dövründə əlifba, orfoqrafiya, terminologiya, ədəbi tələffüz, dilimizin qrammatik quruluşu, lüğət tərkibi məsələləri, mətbuat və radio dili, dəftərxana sənədlərinin vəziyyəti, yad dillərin ədəbi dilimizə təsiri, dərsliklər və dərsliklərin dili, Dilçilik institutunun, Azərbaycan dilçilərinin dilimizin tədqiqi və öyrənilməsi sahəsində rolu, Azərbaycanın türkoloji araşdırmalar mərkəzi olması və s. haqqında və bütün bu məsələlərdə mövcud nöqsanlar barəsində böyük alim və yazıçı müdrikliyi ilə, həqiqi bir filoloq kimi araşdırmalar aparmış, zəngin fikirlər söyləmişdir.

Hiss edirsən ki, yazıçı dilimizin inkişaf yolu barədə bir çox tarixçilərdən fərqli və sistemli biliyə malikdir, dilin, ümumxalq dilinin təşəkkül tarixini, inkişaf yolunu aydın təsəvvür edir: «İnkişafın aşağı pilləsində olan bir xalqın təşkilatı dağınıq, ictimai həyatı naqis olur. O, arası kəsilmədən bir-biri ilə dartışan, bir-birinin ayağından çəkən tayfalardan, qəbilələrdən ibarət olur. Belə bir xalqın hər bir nəfərinin şüurunda bir nəslin mənafeyi, bir kəndin və ya mahalın mənafeyi bütün vətənin mənafeyindən üstün və müqəddəs sayılır. Çünki qəbilələr, tayfalar varsa da, hələ xalq yoxdur. Kəndlər, şəhərlər varsa da, hələ vətən yoxdur».

M.İbrahimovun estetikasında alınma sözlərə aydın münasibət vardır. Yersiz alınmalara, «dilin sərf-nəhv qanunlarını və əsas xüsusiyyətlərini poza biləcək varvarizmin hər cür təzahürünə» etirazını bildirməklə yanaşı, vətəndaşlıq hüququ qazanmış sözlərin zorla dildən çıxarılması cəhdlərinə, purizm meyillərinə kəskin mənfi münasibət bildirmişdir: «1922-ci ildə Mərkəzi İcraiyyə Komitəsi yanında təşkil olunmuş İstilah Komitəsi eyni mürtəce purizmə qapılaraq *dövlət* yerinə – 'toplantay', *mədən suları* (□□□□-□□□□□□□ □□□□□□□□□□) yerinə – 'qırılqan suları', *metal* yerinə – 'yayxan', *əhali* yerinə – 'yaşaq', *mühit* (okean) yerinə – 'bürüyən', *rəsədxana* (□□□□□□□□□□□□□) yerinə – 'baxovilax', *sənaye* yerinə – 'törədiş', *prezident* (rəisi-cümhur) yerinə – 'başmaq', *maddə* (□□□□□□□□□) yerinə 'nəsnək', *nöqtə* (□□□□□) yerinə – 'bənək' və sairə yazmağı təklif edirdi. Lakin həyat nə göstərdi? Həyat ***qırılqan, baxovilax*** və ***nəsnəkləri*** bir talaşa, bir zibil kimi öz yolu üzərindən kənara atdı».

Çoxlarından fərqli olaraq, Mirzə İbrahimov dilin və ədəbiyyatın xalq həyatında rolunu daha yüksək qiymətləndirirdi: «Dil və ədəbiyyat məsələsi xırda, yaxud xüsusi bir məsələ deyil: o, böyük və ümumi bir dövlət məsələsidir, o, xalqın mənəviyyatı, varlığı məsələsidir. Bu məsələnin həllində məktəbin rolu böyükdür». Amma hazırda böyük ziyalı ordusuna rəhbər qoyulmuş adamlar var ki, dili «cık-cik»dən başqa bir şey bilmir. Bugünkü günün ən böyük bəlaları bundadır. Bunlar göstərir ki, Mirzə İbrahimov bizimlə birgədir və öz sözünü bu gün daha ucadan deyir.

Maarif Komissarı olduğu illərdə yazdığı ikinci məqalədə mək-

təbin nöqsanları, şagirdlərin şifahi və yazılı nitqinin, təxəyyül və təfəkkürünün inkişaf etdirilməsi məsələləri üzərində xüsusi dayanmışdır. İnşa yazılara az fikir verildiyini, imladan ehtikarlıqla suiistifadə edildiyini, buna görə də şagirdlərin sərbəst fikir söyləmə qabiliyyətinin məhdud olduğunu ayrı-ayrı məktəblər üzrə konkret misallarla qeyd etmişdir. Sərf-nəhv dərsliklərində bir rəsmiyyət hökm sürdüyünü, çox zaman ancaq təriflərin əzbərlədildiyini, şagirdlərin lüğət dəftərləri olmadığını, müəllim və şagirdlərin mütaliəsinin, sinifdənxaric oxunun pis təşkil edildiyini, bədii qiraətə fikir verilmədiyini, ali məktəblərimizin savadsız kadrlar buraxdığını narahatlıqla söyləmişdir.

Azərbaycan xalqı daim odlar, alovlar içərisində müstəbidlərlə, düşmənlərlə amansız mübarizə aparmış, öz mənliyini, öz dilini qoruyub inkişaf etdirmişdir. İşğalçı müstəbidlər xalqın dilini və tarixini məhv etmək üçün onun yazılı abidələrini məhv etmişdir. Yazıçı deyir: «Buna görədir ki, biz indi, məsələn, iki min il bundan qabaqkı dilimizlə müasir dilimiz arasındakı münasibəti və tarixi əlaqə tellərini meydana çıxarmaqda bu qədər böyük çətinliklərə rast gəlirik». Biz bu cür sözləri indi deyirik, Mirzə İbrahimov 60 il əvvəl demişdir. Yazıçı davam edərək göstərir ki, xalqını müqəddəs bir eşq ilə sevən, vətəninin gələcəyinə inanan elm adamlarımızı bu çətinliklər qorxutmamalıdır və qorxutmur da.

Dilimizin tarixi qədimliyindən, gözəlliyindən fəxrlə danışan yazıçı «Dədə Qorqud»u misal gətirir, onun lüğət tərkibi və xüsusən sintaksis etibarilə qədimliyini, dilimizin qədim lüğət tərkibini, qədim qrammatik quruluşunu mühafizə etdiyini göstərirdi: «Dədə Qorqud» lüğət və sintaksis cəhətdən XI-XIII əsrlərdəki Azərbaycan dilinin bütün xüsusiyyətlərini özündə əks etdirir... «Dədə Qorqud» qədim xalq yaradıcılığının ən gözəl nümunəsidir».

Azərbaycan ədəbi dilinin Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra yarandığını iddia edən bəsit düşüncə sahiblərinə yazılı ədəbi dilimizin inkişaf yolunu Həsənoğlu, Nəsimi, Füzuli, Xətai, Vaqif, Axundov kimi sənətkarların dilinin təhlili əsasında dəlillərlə izah edən sənətkar Sovet hakimiyyəti dövründə bir sıra maneələrin aradan qaldırıldığını, Azərbaycan dilinin dövlət dilinə çevrildiyini qeyd edərək 43-cü ildə yazırdı: «Sovet hakimiyyəti milli dilimizin inkişafına mane olan ictimai-siyasi əngəllə-

ri aradan qaldırdı, onu rəsmi olaraq dövlət dili elan etdi, dilimizin şiddətli yüksəlişinə təkan verdi, onu yeni yüksək mərhələyə qaldırdı».

M.İbrahimov Azərbaycan dilindən istifadədə gölgəli və qüsurlu cəhətlərin tənqidinə hələ ilk məqalələrindən birində xüsusi yer vermiş, ayrı-ayrı müəlliflərin, mətbuat orqanlarının Azərbaycan dilinin daxili qanunlarına etinasızlığını, bu qanunları bəzən kobud şəkildə pozduqlarını etirazla qeyd etmişdir. Bu cəhətin həm orijinal, həm də tərcümə əsərlərinə aid olduğunu göstərən yazıçı savadsız tərcüməçilərlə yanaşı, nadan və savadsız redaktorların da bu sahədə «xidmətindən» bəhs etmişdir. Hərfi tərcüməyə etiraz edən yazıçı konkret misallar gətirərək bu üsulun zərərli olduğunu, dili korladığını, tərcümə işinin yaradıcılıq işi olduğunu xüsusi xatırladır, nahamvar, dili korlayan söz və ifadələri misal gətirərək «Bu sözlər sizin qələminizdən çıxarkən üsyan edən vicdanınızın səsi məgər qulaqlarınıza çatmadı?» - deyə acı təəssüfünü bildirirdi. Sovet dövründə ədəbi dilimizin inkişafı üçün geniş yollar açıldığını razılıqla qeyd etsə də, nisgilli, açıq deyilməsi çətin olan «dövlət idarələrində dövlət dili» kimi çox mühüm məsələlər də vardı. Yazılarından hiss olunur ki, bu məsələ daim yazıçını qəlbən narahat etmişdir. Əksərən rus dilində və nahamvar bir üslubda yazılan dəftərxana sənədlərinin dilinə işarə edərək hələ 1943-cü ildə yazmışdı: «Mübaliğəsiz demək olar ki, bir ildə idarələr arasında yazışma bəlkə də ən çox oxunan kitabın tirajından az kağız aparmır və minlərlə adamın əlindən gəlib keçir. Bu kağızlarda tamamilə başqa bir dil, heç bir qanun-qaydaya sığmayan bir dil hakim olarsa, bunun nəticəsi çox acınacaqlı ola bilər. Yəni ədəbi dil ümumun malı olmaz, savadsız və ***öz köklərindən ayrılmış bir dil*** (kursivlər mənimdir – *Q.K.*) kütlələri öz pis təsiri altına ala bilər». Təbii ki, yazıçı senzura mülahizələri ilə «öz köklərindən ayrılmış dil» dedikdə yazışmaların başqa dildə aparıldığını başa salmaq istəmişdir.

Faktlar göstərir ki, bir çoxları kimi, vəzifəsini itirməkdən qorxmamış, vəzifəsi artdıqca, böyüdükcə ana dilinin müstəqilliyi, dövlət idarələrində tamhüquqlu tətbiqi barədə qəlbində qaynayan fikirləri vəzifəsinin arxasında duraraq daha cəsarətlə irəli sürmüşdür.

Yazıçı «kənardan başlayaraq» göstərir ki, müstəbidlər və işğalçılar bir xalqa zərər vurmaq üçün ilk növbədə onun dilinin məhvinə cəhd etmiş, ona etinasız yanaşmağa, onu gözdən salmağa, onun lazımsız olduğu fikrini doğurmağa və bu yolla o xalqı bir xalq kimi öldürməyə çalışmışlar. «Onlar məhkum xalqın ana dilini rəsmi dövlət idarələrindən qovmuşlar, bütün işləri hakim xalqın dilində aparmışlar. İşğalçılar bununla da kifayətlənməyərək küçədə, bazarda, ailədə belə, dili boğmağa cəhd etmişlər». Bu sözləri 44-cü il məqaləsindən götürmüşük. Bu sözlərin ardınca qədim yunanların Dara dövründə İranı dağıdıb iranlılara və onların dilinə həqarətlə baxdıqlarını söyləsə də, qiyas aydın idi – rus dili ölkədə, xüsusilə dövlət idarələrində eyni işi görürdü və yazıçı xalqı, ziyalıları bu yolla ayıltmağa çalışırdı. Bir az da irəli gedərək, mətləbə daha çox yaxınlaşaraq deyirdi: «İranın zalım və müstəbid hakimləri eyni müsibəti Azərbaycan xalqının başına gətiriblər ki, bu mənhus əməlin ləkələri, mütəəssüfanə, zəmanəmizə qədər silinib getməmişdir». Artıq 10 il sonra – 1956-cı ildə Rəyasət Heyətinin sədri olarkən tam açıq danışırdı: «Monqol işğalçıları, Türkiyə sultanları, İran istibdadı və çarizm uzun zaman Azərbaycan xalqına ana dilini unutdurmağa səy etmişlər. Lakin xalqın nifrətindən başqa bir şey qazana bilməmişlər». İndi Mirzə İbrahimov 15 respublikanın böyüyü ilə üz-üzə durmuşdu. Yazırdı: «Respublikamızda Sovet hakimiyyətinin birinci on ili ərzində dövlət idarələrində Azərbaycan dilinin işlənməsinə xüsusi diqqət verilir və təhriflərin qarşısı alınırdı. Lakin təəssüflə demək lazımdır ki, son on beş-iyirmi ildə bu cəhətdən kobud təhriflərə yol verilmişdir. Bəzi idarələrdə və bəzi adamlarda Azərbaycan dilinə qarşı biganə, laqeyd münasibət yaranmışdır. Hələ onu demirik ki, vətəndaşların azərbaycanca olan ərizələrinə, yaxud bu və ya digər azərbaycanca olan yazılara ana dilində cavab verməyən, ya da bunları tamamilə cavabsız buraxan bürokratlar da tapılır. Belə bürokratlarla mübarizə bütün partiya və sovet təşkilatlarının, bütün vətəndaşların borcudur. Respublikanın dövlət, partiya və ictimai təşkilatlarında Azərbaycan dilinə etinasızlıq göstərən şəxslər kobud səhvə yol verirlər». V.İ.Lenindən misal gətirirdi: «...bizim dövlət aparatında əsl rus mahiyyətində bir çox qanunsuzluqlar baş verəcəkdir. Bu qanunsuzluqlarla mübarizə aparmaq üçün

xüsusi bir məharət lazımdır...» Yazıçı məqalənin sonunda fikrini daha aydın tamamlamışdır: «Respublikanın dövlət idarələrində və ictimai təşkilatlarında işlərin azərbaycanca aparılması qanuni bir haldır. Çünki bir xalqın öz idarələrini ana dilində idarə etmək arzusundan təbii bir şey ola bilməz. Sovet quruluşunda bu hər bir xalqın pozulmaz hüququdur. Bu hüquqa hörmət etmək hamının vətəndaşlıq borcudur». Rus şovinizminin tüğyan etdiyi N.S.Xruşşov dövründə bu mübarizənin necə davam etdiyi və nə ilə sona yetdiyi yaşlı nəslə məlum olduğu üçün mətləbi uzatmırıq.

* * *

Mirzə İbrahimovu oxuduqca, öyrəndikcə saflaşırsan, ruhən təzələnirsən, daha çox iş görmək, daha xeyirxah işlər görmək istəyirsən. Unudulmaz ədib obrazlardan birinin dili ilə deyirdi: «Ey mənim xalqım, ey mənim ümidim və pənahım! Ürəyimin istiliyi səndədir, fikrim işığını səndən alır, həyatımın hər nəşə və sevincinə bais sənsən!» Söhbət burdadır ki, bu sözlər tam bir həqiqət idi. Ona görə də Mirzə İbrahimov yaşayacaqdır.

60 il xalqının başına pərvanə kimi dolanan, öz qolunun qüvvəsi, öz zəkası ilə fəhləlikdən akademik səviyyəsinə, həqiqi xalq yazıçısı səviyyəsinə yüksələn belə bir şəxsiyyətə ölkəmizdə nankor adamların etinasız münasibətinin də şahidi olduq. Belələri əslində Mirzə İbrahimovun yox, xalqın düşmənləridir, xalqını, onun dilini ecazkar məhəbbətlə sevən, o yolda mücahid kimi can qoyan insanların düşmənləridir.

Bu xalqa indi zəkasını, zəhmət və istedadını Mirzə İbrahimov qədər düzgün birləşdirən, düzgün istiqamətləndirən, Mirzə İbrahimov qədər şərəflə yaşayan, öz xalqını, xalqının dilini nəhayətsiz məhəbbətlə sevən insanlar daha çox lazımdır.

26.11.2001

MALİK RƏCƏBİN «HƏYAT BURULĞANINDA» ROMANI VƏ SOSİAL-İCTİMAİ DÜŞÜNCƏLƏR

İçərisindən təzəcə çıxdığımız XX əsr Azərbaycan həyatının müxtəlif mərhələləri bizim bədii ədəbiyyatda – poeziya, nəsr və dram əsərlərində, publisistik yazılarda kifayət qədər öz əksini tapa bilmişdir. Lakin hadisələrin qaynar çağında onun mahiyyətini obyektiv qiymətləndirmək o qədər də asan olmur. Hadisələrə bir qədər kənardan baxdıqda onu daha yaxşı ümumiləşdirmək mümkündür. Yazıçı-jurnalist Malik Rəcəb «Həyat burulğanında» trilogiyasında Azərbaycan sovet həyatının böyük bir dövrünün ictimai-siyasi hadisələrini ümumiləşdirməyə çalışmışdır. Şübhəsiz, insan və cəmiyyət olan yerdə ailə-məişət məsələləri, sevgi macəraları da vardır.

Romanın mövzusu 20-ci illərdən 70–80-ci illərə qədərki Azərbaycan həyatından götürülmüşdür. Müəllif başdan-başa ziddiyyətlərlə dolu XX əsrin, demək olar ki, əksər mühüm hadisələrinə bədii yolla münasibət bildirmişdir. Yeni quruluşun gətirdiyi «bədbəxtliklər», daxili kəşfiyyatın insanların başı üstünü alan aramsız təqibləri, ermənilərin fürsətdən istifadə edərək Azərbaycan xalqına tutduğu divan, milli burjuaziyanın taleyi, repressiyalar, istintaq zorakılıqları, Sovet hökumətini ürəkdən qəbul etməyənlər və onların aqibəti, Stalin-Bağırov xofu, «troyka»ların əli ilə dolu başların kəsilməsi, müharibə, aclıq, səfalət, fəlakət, yetimxanalar, fəhlə həyatı, insanların xəyanətkarlığı, sərvət üstündə tökülən qanlar, saf məhəbbət və sevgililərin nakam taleyi, sevgisiz ailələrin cəhənnəm əzabına çevrilmiş həyatı, elmi yaradıcılıq və alim şöhrəti, varlı balalarının xisləti... – yazıçının qələmə aldığı geniş həyat lövhələri cəmiyyətlə, ictimai inkişafla bağlı olan və artıq zamanını yaşamış saysız problemləri əhatə edir.

Romanda Sovet hökumətinin gətirdiyi «fəlakətlər», «bədbəxtliklər» ön plandadır. Bu hökumət «günahsız milyoner» Əli bəyi elə günə salmışdır ki, onun ailəsi yüz ilin bu başından o başına özünü düzəldə bilmir. Sovet quruluşunun ailələri başsız qoyması, belə bir quruluşda «yaxşı» insanların özünə yer tapa bilməməsi, riyakarlıq, paxıllıq, simasızlıq, erməni «Daşnaksütyun» partiyası-

nın gizli fəaliy- yəti, Azərbaycan hökumətinin başında oturanların qəflətdə olması, NKVD və onun Aşot kimi əksəriyyəti ermənilərdən ibarət olan əzazil dəstəsi və s. süjetin inkişafı prosesində müəllif tendensiyası ilə nəzəri cəlb edən ən mühüm sosial-siyasi hadisələr kimi verilmişdir. Görəcəyik ki, daha böyük faciələrin törədicisi isə roman qəhrəmanlarının dikbaşlığı və mənəm-mənəmliyidir, güzəşt nə olduğunu bilməmələridir.

Kitab trilogiya şəklindədir. Romanın əsas surəti olan Aslanın zavodda partlayış törətməsi, uşaqlarını uşaq evinə verib həbs olunması ilə «Ömürdən izlər» adlı birinci hissə tamamlanır. «Süd və qan» adlı ikinci hissə dəhşətli müharibə illərində Sovet hökumətinin uşaq evində qayğı ilə böyütdüyü Rənanın ölümü ilə – atası tərəfindən öldürülməsi ilə başa çatır. «Həyat burulğanında» başlıqlı üçüncü hissə Aslanın və Azərin həyat burulğanlarında necə məhv olduğunun təsviri ilə qurtarır.

Əsərdə bir neçə nəslin bədbəxt taleyi təsvir edilmişdir. Əli bəy birinci nəslin nümayəndəsidir, Aslan ikinci, Azər, Rəna, Leyla, Yaqut üçüncü nəsildir və hamısı bədbəxt insanlardır.

Hər üç nəsil öz bədbəxt həyatını Sovet dövründə yaşamışdır. Bədbəxtliklərin günahı kimdədir? Faciələrə bais kimdir, nədir? Həqiqətənmi sovet quruluşu bədbəxtliklər gətirən bir quruluş olmuşdur?

Gəlin obrazlara diqqət yetirək və ictimai bəlaların səbəblərini araşdıraq.

Birinci, Əlidən – milyoner Əli bəydən başlayaq. Budur, 11 il həbs cəzası çəkən, vətənə dönəcəyi günü 11 il həsrətlə gözləyən Əli bəy evinin, demək olar ki, beş-on addımlığındadır. Lakin qapıya çatmağa taqəti yoxdur: «Üçüncü ay idi ki, Əli bəy yol gəlirdi. Saqqal basmış Əli bəy yaşına görə çox qoca görünürdü. Paltarı kirli və cırıq-cırıq idi. Tər, kir və maxorka iyi bir-birinə qarışmışdı. Əli bəyin paltarından ətrafa dözülməz üfunət yayılırdı». Buradakı vəziyyət həbsdən buraxılanın yox, qaçanın vəziyyətinə oxşayır. Əli bəy ac, suzuz, taqətsiz və dilənçi kökündədir, qızdırma içərisində yanır, evə çatmamış ölə biləcəyindən qorxur və bu zaman qarğış üçün yenə də bu «allahsız» Sovet hökuməti, bolşeviklər yadına düşür: «Doğrudanmı bolşevik ayağı dəyən yerdən allah-tala tamam çəkilib gedir?» Niyə Əli bəy bu gündədir? Həbs müddətini

çəkib qurtarıb və vətənə, evinə qayıdır, nə üçün bu gündə olmalıdır? Bəlkə, Sovet həbsxanalarından buraxılanların hamısı bu gündə olub? – bunu bilmirik. Əli bəyin özünün də anlamadıqları var: «...Əliyə bir şey anlaşılmaz qalırdı: – Hər şeyi əlindən alınmış bir milyoneri milyoner olduğu üçün həbs etmək nə dərəcədə ədalətlidir?» Lakin iş bununla bitməyib: «İnsanpərvərlik şüarları ilə İsa peyğəmbərdən də qabağa gedən bolşeviklər Əlini həbs etməklə kifayətlənmədilər, onun həyat yoldaşı Bikə xanımı da həbs etdilər. Aslanı Qasım himayəyə götürdü». Əli bəy anlamasa da, əslində, burada başa düşülməməli heç bir şey yoxdur. Əli bəy öz qəlbindən keçənləri, özünün Sovet hökumətinə nifrətini nəzərə almır. Alsa, bu cür düşünməz. Amma Sovet hökuməti Əli bəylərin sakit oturmayacağını çox yaxşı bilir. Ölkədə inqilabi iş gedir, kimin kimə düşmən olduğu aydındır. Bunları Əli bəyin və onun oğlu Aslanın bütün daxili düşüncə və əməllərini ortaya qoyanda daha aydın görəcəyik.

Dəqiq bilmirik, amma hesablamalar göstərir ki, Əli bəyin həbsdən qayıtdığı il 37 və ya 38-ci ildir. Baş qaldıranı tutatut vaxtında Əli bəy həbsdən azad edilib. Vətənə gələn kimi Aşotun iy bilən komandası onu addım-addım izləyir, atası haqqında oğlunun bilmədiklərini NKVD işçiləri bilir. Aşot Əli bəyin oğlu Aslanı həbsə saldırıb kifayət qədər döydürür və hər gün atası haqqında dəqiq məlumat verməsini tələb edir. Məqsəd nədir? Əli bəy qorxulu düşməndirsə, nə üçün həbsdən buraxılıb? Aşotun Aslana dediyi sözlərdə də məntiqsizlik var: «Diqqətlə mənə qulaq as. Atan xalq düşmənidir. Onu türmədən müvəqqəti buraxmışıq. Əgər yaşamaq istəyirsənsə, atan Əli bəyin bütün hərəkətləri barəsində mənə xəbər verməlisən. Nə barədə düşünür, nəyə, yaxud kimə ümid bəsləyir? Kimin görüşünə gedir, onun görüşünə kimlər gəlir?..» 11 il iş verilib, 11 il həbsdə yatıb, qanuni şəkildə həbsdən azad edilib, mayor Aşot deyir ki, onu müvəqqəti buraxmışıq, – guya burdan Sibirə hökm eləyə bilirmiş Aşot.

Əli bəy evinə yenicə gəlib və hələ heç bir əsas olmadan, heç bir təqib, hədə-qorxu hiss etmədən belə fikirləşir: «Yəqin ki, həbs etməyə əsaslı bir bəhanə axtarırlar. Bəhanə isə hər an tapıla bilərdi. Yəqin ki, bu dəfə onu güllələyəcəkdilər. Yox, daha burada yaşamaq mümkün deyil, - deyə ürəyində düşündü,– nə qədər ki gec

deyil, baş götürüb burdan qaçmalıyam. Başqa çıxış yolum yoxdur». Doğrudur, yuxarıda dediyimiz kimi, Aslanı Əli bəyin gəlişi ilə əlaqədar tutub döyüblər, atasına qarşı agentə çeviriblər, amma bunlardan hələ Əli bəyin xəbəri yoxdur, heç özü də hələlik bir faktla qarşılaşmayıb. Bəs nə üçün belə düşünür? Tutub öldürməliydilərsə, bunu Sibirdə asanlıqla etmək olmazdımı? Yəni Əli bəy Sovet hökuməti üçün bu qədər qorxulu düşməndir? Özünün dediyi kimi, milyoner idi, milyonlarını da alıblar. Daha nə istəyirlər? Cərəyan edən hadisələrin məntiqi buna cavab vermir, yəni nə Əli bəyin yenidən həbs olunacağı barədə əlində əsas var, nə də NKVD-nin onu izləmək üçün əsası.

Bir qədər sonra məlum olur ki, Əli bəy həqiqətən bir sıra köhnə əlaltıları ilə gizli söhbətlərdədir və xaricə qaçmaq istəyir. Amma hələ bu niyyətini o heç yerdə dilinə gətirməyib, oğluna da deməyib. Bağ evində NKVD-nin əməliyyat qrupu Əli bəyi tutmaq istəyir. Dediyimiz kimi, nə Əli bəyin hələlik bir günahı var, nə də NKVD işçilərinin əlində əsas. Bəs bu əməliyyat nədən ötrüdür? NKVD işçiləri bağ axtaran adamlar kimi sadəlövhdür. Onların dördünü Əli bəy, sonuncusunu Aslan güllələyir. Lakin Əli bəy də yaralanır. Bilir ki, maşınla gələn yeni qüvvənin əlindən qurtarmaq çətindir. Ona görə də məsləhət görür ki, Aslan atasını öldürsün – bəlkə bununla xilas oldu. Lakin Aslan atasını öldürsə də, xilas ola bilmir. Bu hadisələrin gedişində məntiq zəifdir, dərindən düşündükdə əsaslandırılmadığı hiss olunur. Heç bir əsas olmadan Əli bəyi bandit kimi yaxalamaq istəyirlər. Bəlkə, Əli bəyin siyasi mövqeyi barədə hökumətə siqnal verənlər olub? Bəlkə, yol boyu kəşfiyyat bir şey öyrənib? Heç bir məlumat yoxdur.

Oğlundan son gülləni ona (atasına, Əli bəyə) vurmağı tələb edən Əli bəyin Sovet dövləti barədə düşüncələri: «Səni qınamıram, Aslan. Bu, sovetlər quruluşunun törətdiyi ən çirkin yeniliklərdən biridir. Bir-birimizi aldadırıq, bir-birimizə xəyanət edirik və sonra da bir-birimizi öldürürük. Bu cəmiyyətdə bizə düşmən lazım gəlmir, Aslan. Əgər bir oğul atasına xəyanət edirsə, ondan vətən nə gözləyə bilər?!» Yaman ədalətsizdir bu Əli bəy; özü oğluna təkid edir ki, gülləni vursun, özü də bu cür qeyri-real nəticələr çıxarır. Sovet hökuməti oğulu ataya cavabdeh bilmirdi.

Bəzən Əli bəy real düşünür: «Bilirsən, Leninin «hamı yaxşı yaşamalı-

dır» – fikri heç də pis fikir deyil. Məsələ orasındadır ki, hamı yaxşı işləmək istəmir. Dünənə kimi beş nəfərlik ailəsini təmin edə bilməyən adama yüz min nəfərin taleyini tapşırıblar». Bu elə indi də belədir, həmişə də belə olub. Amma Əli bəy istəyir ki, yalnız pulu olanlar əmr və göstərişlər versin.

Sovet dövründə milyonerlər böyük zərər çəkib, mülkləri, fabrik-zavodları, sərvətləri əllərindən alınıb, ailələri dağılıb. Əvvələn, görək o milyonerlər milyonlarını haradan toplayıblar, necə toplayıblar? Elə indikiləri gözümüzün önünə gətirək. Gətirsək, bəs olar. Əli bəy necə milyoner olub? Yazıçı real təsvir edib: öz alın təri ilə deyil, özgəsinin qəbrindən tapdığı gizli xəzinə ilə. Əgər bu cəhətdən Əli bəyə bəraət versək, onda gərək hamı gizli xəzinə axtarmaqla, qəbiristanlıqları sökməklə məşğul ola.

Əsərdə heç bir obraz nəzərə almır ki, qanun-qaydaya qalsa, Sovet quruluşu qədər Yer üzərində gözəl quruluş və gözəl qanunları olan quruluş olmayıb. Lakin hər bir quruluşun başında adamlar durur, o quruluşu adamlar idarə edir. Hər şey o adamlardan asılıdır. İndiki halda cəmiyyətin sərvəti 10 faizin əlindədir, 90 faiz zillət içərisindədir. Amma o vaxt – Sovet hakimiyyətinin ilk illərində həmin 10 faiz zillətə salınıb. Sənin yeraltı neft xəzinən var, mədənlərin var, daş karxanaların var, gözəl torpaqların, meşələrin var, kimin əlindədir? Sənə xeyri dəyirmi? Elə bil, yerin altındakı o xəzinəni dədəsi-babası əkib-becərib, o da oturub üstündə. İnsan ağıllanmalı və öz haqqını başa düşməlidir. Humanist insan kimi təsvir edilən Əli bəy heç bir humanist keyfiyyətə malik deyil. Əlaltısı İsmayılı öldürdüyü üçün oğlunu öldürməyə hazırdır: «Aslan, diri qalsam da, bu dərd öldürəcək məni. Bütün varlığım qədər səni sevsəm də, bu xəyanətinə görə səni məmnuniyyətlə öldürərdim. Heyif ki, qollarım daha yoxdur. -Son gücünü toplayan Əli bəy: -Tfu! – deyərək Aslanın üzünə tüpürdü». Əli bəyin bu nifrəti günahsız bir gəncin öldürülməsi ilə bağlı olsa da, onun özü də insanı ölümlə hədələyir və bəlkə də qolları NKVD gülləsi ilə qırılmamış olsa idi, oğlunu güllələyərdi. Bu «keyfiyyət» sonralar qabarıq şəkildə Aslanda üzə çıxır.

Elə bu toxumdur ki, Aslanda ifrat şəkildə inkişaf edir və o (Aslan), yalnız başqalarını deyil, öz qızını və oğlunu da amansızlıqla öldürür. Sovet hökuməti bilir ki, Əli bəy xaricə qaçmaq və orada onun əleyhinə iş aparmaq istəyir. Quruluş özünü müdafiə

etməli, düşmənlərini islah etməlidir. Əli bəyə bəraət qazandırmaq olmaz, çünki əlində heç bir fakt olmadan gizli fəaliyyətlə məşğul olur, əlaltıları ilə hökumət əleyhinə planlar hazırlayır. Milyoner oğlu Vasifi nə üçün izləmirlər? Vasif öz əməyi ilə xalqa xidmət edir, öz pullarını götürüb xaricə qaçan atası ilə barışmaz mövqedədir və Sovet dövlətindən heç bir zərər çəkmir, Aslandan fərqli olaraq, Sovet hökumətinin faşizm ilə mübarizədə mütləq qalib gələcəyinə inanır və bu yolda çalışır.

Əli bəylə bağlı əsərdən alınan əsas təəssürat bulur ki, Sovet hökuməti olmasa idi (və «bu lənətə gəlmiş quruluş olmamalı idi»), Əli bəy də, onun övladları da rahat-rahat yağ içində böyrək kimi kef çəkər, getdikcə öz sərvətlərini artırar, Qasım kimi nökərlərini çoxaldardılar.

Amma mən bu cür quruluşa nifrət edirəm. Sənin əlinə su tökməyə qabiliyyəti olmayan, lakin mahir oğru olub xalqın varını, sərvətini talayıb saraylar quran, vətəni satan və vətən torpağı hesabına milyonlar üzərində qərəzli hakimiyyət quran adamlara nifrət edirəm.

Bu, Əli bəy. İndi keçək Aslana.

Doğrudur, Aslan Mikoyanın planlarını həyata keçirmək istəyən mənfur erməni qrupunun başçılarından mayor Aşotla haqq-hesab çəkə bilir, onu öldürür, arvadı Yelenanı ələ keçirməklə Aşotdan ikiqat intiqam alır. Doğrudur, Aslan riyakar və satqın deyil, öz düşmənləri ilə mübarizədə dönməzdir, heç kəsin qarşısında əyilmir. Doğrudur, sonrakı dövrdə bərk ayaqda oğlunun və qızının geyim-keciminə fikir verir, onları yaxşı yaşatmaq istəyir. Eyni zamanda, Aslanın başqa müsbət xüsusiyyətləri də var və yazıçı onu birtərəfli təsvir etməmişdir. Amma gəlin görək Aslanda insan qanı varmı? Adam da öz atasına, öz balasına güllə atarmı? Ölkənin gözü olan dünya şöhrətli bir alimin yeganə övladını bir təhqirə görə məhv etməyə çalışarmı? Öz arvadını ac-susuz və dava-dərmansız saxlayıb, öz balalarının anasını dirigözlü öldürərmi? Xəbərçilik üstündə öz qonşusunu məhv edib ailəsini başsız qoyarmı? Var-dövlət naminə atasının inandığı günahsız gənci məhv edərmi?.. Aslanın cinayətlərini saymaqla qurtarmaz. Aslan qatildir, insan cəlladıdır. Fərq burdadır ki, başqa qatillər başqalarının

qatilidir, Aslan isə ilk növbədə öz atasının və öz ailəsinin, öz övladlarının qatilidir.

Müəllif Aslanı boylu-buxunlu, yaraşıqlı bir kişi kimi təsvir edir. Amma yeni quruluşa nifrət edən bu yaraşıqlı kişi təkcə öz doğmalarının, yaxın adamlarının deyil, Vətənin də düşmənidir. Vətən müharibəsi başlayanda Aslan sevinir, Hitlerin qalib gələcəyini, Sovet hökumətinin dağılacağını güman edir. Milyoner oğlu Vasifi də təxribat işinə cəlb etmək istəyir. Lakin Vasif onu evindən qovur, ondan bir də belə sözlər eşitsə, onu boğacağını bildirir. Hərbi zavodda özünü min cildə salır, hər gün «çox işlədiyi üçün» camaat arasında özünü huşunu itirmiş kimi yerə çırpan, cilddən-cildə girən Aslan iş yerində mühüm vəzifəyə soxula bilir, professor Xalid Məcidovun hərbi kəşfini həyata keçirmək istəyən zavodda böyük partlayış törədir, zavodu sıradan çıxarır. Özünü könüllü cəbhəyə gedənlər sırasında birinci yazdırır, lakin tapançanı həkimin boğazına dirəyib xəstəlik kağızı alır. Bütün bu cinayətlərini göz önünə gətirən Aslan səbəbsiz fikirləşmir: «Tanrım da məndən intiqam alır. Almalıdır da! Məni xəlq eləyən bir insanı öz əlimlə öldürdüm. Yox, vallah yox! Bilə-bilə öldürmədim. Bəs İsmayıl? Bəs Telli? Bəs sexdə olan fəhlələr? Bəs Aşot?..»

Bütün şəxsi-ideoloji istəklərinə baxmayaraq, yazıçı realistdir. Bir halda ki, müəllif özü milyoner oğlunun dəhşətli və yaramaz əməllərlə məşğul olduğunu, hökumət əleyhinə ciddi təxribat hazırladığını və təxribatla məşğul olduğunu, bərkə düşərsə, xaricə qaçmaq istədiyini təsvir edir, hansı hökumət bu cür milyoner övladına güzəşt edərdi? Fəhlələr qarşısında çıxışı: «- Yoldaşlar! Vətən təhlükə qarşısındadır, onu qorumaq müqəddəs borcumuzdur. And olsun vicdanıma, canımı vətənçün qurban verməyə hazıram Göndərin məni birbaş cəbhəyə!» Amma düşüncələri: «Onun ilk düşündüyü variant belə idi: könüllü cəbhəyə getmək, ilk fürsət düşən kimi sərhədi keçmək. Vətənə qalib gələcək faşist ordusu ilə qayıtmaq, öz xidmətlərinə görə Hitler tərəfindən gələcəkdə yaradılacaq dövlət aparatında layiqli yer tutmaq!» (Qarabağı da bu cür mənfur niyyətlərlə düşmənə təslim etdilər.) Lakin Aslan tezliklə bu variantın da üstündən qələm çəkir, daha «əsaslı» variant düşünür. Müharibəyə getməmək üçün «...yerinə uzanaraq uzun müddət müxtəlif xəstəliklərin əlamətlərini yadına salmağa çalışdı.

Nəhayət, son qərara gəldi – onun ürəyi ağrıyacaq». «İndi mənə vaxt lazımdır. Mən cəbhəyə tez-bazar getməməliyəm». (s.22) Qəfil gülləyə etibar etmir, ilk andan əsir düşüb o tərəfə keçməyin çətinliyini də nəzərdən qaçırmır.

Aslan Hitlerin qalib gəlməsini arzulayır. Məqsəd nədir? Ölkəni birinin müstəmləkəsindən qurtarıb, başqa birinin müstəmləkəsinə çevirmək istəyir? Elə müstəmləkədir-müstəmləkədir, ruslarla dolanmaq olmurdu? Nə fərqi var idi ki? Bəlkə Türkiyənin vasitəsilə Azərbaycanı xilas etmək istəyir? Hitlerin məqsədi buna yol verməzdi. Hər halda, indiki vəziyyətdə vətən vətən idi və düşmənlə müharibə gedirdi. Aslan kimilər öz əməl və istəkləri ilə cəbhədə canını qurban verən milyonların düşməni idilər.

Aslanın yaxın adamları, tanıdığı şəxslərin heç biri Aslan kimi vətənin və insanlığın düşməni deyil. Dediyimiz kimi, Vasif də milyoner oğlu olub. Lakin o, atasının xaricə qaçmağından son dərəcə dilgirdir, atasının vətəni qoyub qaçmasına nifrət bəsləyir: «Yox, ata, sən vətənə xəyanət etmisən. Sənin bir daha Vətənə qayıtmağa haqqın yoxdur, sən vətənə qayıtmalı deyilsən». «Yox, SSRİ qalib gələcək, hökmən! Hökmən!» Bunlar onun Aslandan fərqli olaraq dünyaya tamamilə yeni nəzərlə baxdığını göstərir. Aslanın yaramaz təklifini də nifrətlə qarşılayır: «- Dur, rədd ol! -dedi və ayağa qalxaraq qapını açdı».

Adi fəhlə olan Manaf kişi Əli bəyin öz oğlu tərəfindən öldürüldüyünü eşitdikdə bu dünyaya nifrət edir, əlləri yerdən-göydən üzüldüyündən yaşamağa da nifrət edir və ölüm qorxusunu ataraq ürəyindən keçənləri Aşotun üzünə deməkdən çəkinmir – biz bu kişiliyi də Aslanda görmürük:

«-Mənə heç kim heç nə təklif etməyib. Sən bunu zorla boynuma qoyursan. Sən mənim doqquz barmağımdan dırnaqlarımı çıxartdırmısan. Bir bax! Lakin «hə» deməmişəm. Sən, Aşot, alçaqsan! Tfu! Sənin vicdanına tüpürüm. Bu padvalda tökdüyün qanları allah sənə bağışlamayacaq. Alçaq! Yaz ora, yaz ki, biz türkük! Biz Türkiyəyə qaçmaq istəməmişik. Bizim pənah yerimiz oradır. Yaz, alçaq, yaz, nə yazsan, qol çəkəcəyəm. Yaz ki, biz müsəlmanıq. Ona görə də sarıqulaqlarla ermənilər birləşib bizi qırırlar. Yaz, alçaq, yaz ki, sənin xaçına tüpürmüşəm! Yaz, namərd, yaz

ki, Əli bəy mənə deyil, mən ona demişəm – Türkiyəyə qaçmaq lazımdır. Bəli, bəli, mən demişəm, mən!»

«Aslan bir dəfə qocaların pıçıltı ilə etdiyi söhbəti də xatırladı – Mir Cəfər Bakını xilas etmək üçün əvvəl Gəncəni, sonra da Pirvənzili pirini Kirova qurban verdi. Axı Bakıya Kirovun adını vermək istəyirdilər. Fikirləri baş tutmadıqda Mirzoyan, Dövlətyan, Şaumyan və Mikoyan heyflərini başqa cür çıxdılar. Şəhidlər qəbiristanlığını xiyabana çevirdilər». Aslan: «Mir Cəfər kimi bir adama Pirvənzili pirinin yerində heykəl ucaltmağa məcbur edənlər, yəqin ki, belə getsə, bütün müsəlmanları xaç çəkməyə də məcbur edəcəklər». Yazıçı bunları Aslanın dili ilə desə də, Aslanın cəmiyyət üçün namünasib varlığı xoş düşüncələrin effektini itirir.

Bəzən son dərəcə savadsız və sadəlövh şəkildə olsa da, milyoner oğlunun hakimlik, padşahlıq xülyaları da var: «Yox, elə etmək lazımdır ki, təkcə mənə heç nə olmasın. Mənim istədiyim adamlar salamat qalsın, mənim istədiyim evlər, mənim istədiyim şeylər salamat qalsın. Mənim, mənim! Bəli, mənim! Yoxsa bu nə məntiqdi, baş açа bilmirəm; zavod bizim, şəhər bizim, məktəb bizim! Yox, tarixən ortaqlı heç nə olmayıb.. Amma bunlar, dünənə kimi ona-buna nökərlik, fəhləlik edənlər «biz» deyərək bağırırlar». Bax milyoner oğlunun xalqa münasibəti belədir. Bu cür düşüncələr reallığı əks etdirir. Xalqını həqiqi mənada sevən şəxs Aslan kimi adamların tərəfində dura bilməz.

Aslan atasının gizli xəzinəsini düşündükcə özünün necə hakim-prezident-padşah olacağı barədə də düşünür, daim sərvətini necə artıracağını götür-qoy edir. Milyoner oğlunun sifəti belədir. Aslan kimilər sərvət toplayıb, hakimiyyəti ələ alıb harın yaşamaq istəyir. Hərdən bir ermənıyə nifrət qeyrəti tərpənsə də, köklü şəkildə vətən və xalq düşüncəsinə malik deyil. Qonşu arvadların hər birini bir tərəfdə aldadır və «agent» qonşuların hərəsindən bir cür intiqam alır. Budur, vaxtsız ölmüş qonşusu Yasin və ona «Xoş gəldin» deməyə gəlmiş arvadı Laçın haqqında düşüncələrinə diqqət yetirin: «...çox tez öldü, onunla hesabı çürüdə bilmədim. Eyb eləməz, sən özün də məni az izləməmisən! Sənə bir toy tutum ki, ləzzəti ölənəcən damağından getməsin. Amma bir az səbr elə».

Aslanın mənəvi aləmini üzə çıxaran aşağıdakı sözlərlə də tanış olmaq olar: «Sovetlər ölkəsində alimlər təkcə silahlar və kosmos

məsələləri ilə məşğul deyillər, onlar, eyni zamanda, şüurlu insanları şüursuz heyvanlara döndərmək üzərində də çalışırlar. Və təəssüf ki, bu sahədə daha çox nailiyyət qazanıblar». «Təbliğat insan beynini elə ağlar günə salır ki, o, kor-koranə hər şeyə inanır. Ona müstəqil düşünməyi öyrətmirlər, müstəqil düşünənlər tikanlı məftillərin əhatəsində olurlar». Oğlu Azərə: «Mən bədbəxt oldum, məni bu cəmiyyət, bu quruluş bədbəxt etdi. Bu ölkədə mən özümü ev dustağı hesab edirəm, başa düşürsən, ev dustağı. Ən böyük arzum bu həbsxanadan qaçmaqdır. Sən cavansan, nə qədər ki bu quruluş səni də bədbəxt etməyib, qaç canını qurtar. İlk imkan düşən kimi mən də qaça cağam». Yenə oğlu tələbə Azərə: «Qorxma. Vətən, vətəndaşlıq, sədaqət, xəyanət, nə bilim nə, nə! Bunlar təbliğata xidmət edən anlayışlardır». «Nə vaxtsa dərk edəcəklər. Vətəni ola-ola vətənsiz qalanlar, dini ola-ola dinsiz, dili ola-ola dilsiz qalanlar başlarına döyəcəklər». Bunların – bu sözlərin heç birində Aslan haqlı deyil. Heç kəs onun vətənini, dinini, dilini əlindən almamışdı. Bunlar hər cür yaramaz iftiranı Sovet dövlətinin belinə yükləmək istəyən xarici kəşfiyyatın uydurmalarıdır. Qaldı, «Vətən, vətəndaşlıq, sədaqət, xəyanət, nə bilim nə, nə! Bunlar təbliğata xidmət edən anlayışlardır» sözləri elə Aslan kimilərin sifətlərinin göstəriciləridir. Sovet dövləti vətənpərvərlik duyğuları ilə çox ciddi məşğul olurdu və bu cür duyğuları yüksək qiymətləndirirdi. Dinə münasibət isə Sovet hakimiyyətinin ilk illərində çox kəskin olsa da, getdikcə tədricən yumşalırdı, hər şey qaydasına düşürdü.

Aslanın Xalid müəllimə dediyi aşağıdakı sözlər onun ümumən tərəqqiyə və elmə də düşmən olduğunu bildirir: «Sənin kəşflərin və Bakı nefti olmasaydı, ruslar dizini əlüstü yerə qoyacaqdılar. Sənin kimi qanmaz fədailər: – Vətən!– deyib əl-ayağa düşməsəydilər, xalq da bir gün görəcəkdi. Qoymadız!» Hiss olunur ki, Aslan dünya siyasətindən heç nə qanmır.

Xalid müəllim bir vaxtlar Aslanı milyoner oğlu olduğu üçün təhqir edib məktəbdən qovmuşdur – Aslan bunu unuda bilmir və daim intiqam arzusu ilə qovrulur. Savadlı bir adam olan Xalid müəllimin milyoner oğlu olduğu üçün Aslanı döyüb uşaqlar arasında məktəbdən qovması barədə qeydlər ağla batmır və əsaslandırılmamış qalır. «Böyük Ermənistan» xülyası ilə əlaqədar Asla-

nın Yelenaya dediyi: «Babanız Volodya əlində şəpkəsi dirilib gəlsə belə, bu mümkün olan iş deyil. Düzdü, beş-on nəfər erməni Stalin biqeyrətin başını piyləyib Azərbaycan və Gürcüstan torpaqları hesabına ermənilərə Ermənistan dövləti yaratdı. Bu sizə azlıq edir?» – sözləri və xüsusilə «babanız Volodya», «Stalin biqeyrət» ifadələri şəxsən məndə heç bir rəğbət doğurmur. Gözümüzlə gördük ki, bizim bir sıra məmurlar Qarabağ məsələlərinin həllində daha biqeyrət mövqe nümayiş etdirdilər.

Oxucu heç bir nöqtədə Aslana bəraət verə bilmir. Onunla razılaşmır.

Azər də mühüm obrazlardandır. İki-üç yaşlarında anasını itirmiş, atası həbs edilmiş, ona görə də uşaq evində böyümüşdür. Ali məktəbdə oxuyur. Vağzalda hamballıq edir, çətin güzəran keçirir. Müharibənin qızğın dövründə (1943) həbs olunmuş atası 16 il yatdıqdan sonra gəlib çıxır. Aslan vaxtilə atasının nökəri Qasıma bağışladıqları evi oğluna verir. Azər yeni tanış olduğu qızla evlənmək istəyir. Aslan Azəri Xalid müəllimin qızı Leyla ilə görür, düşünür ki, oğlu düşməninin qızını almaq istəyir, ona görə də etinasızlıq göstərir, evlənməyin tez olduğunu bildirir. Lakin bir gün Aslan yenicə tapdığı qızı Rənanı Azərin yatağında çılpaq görüb huşunu itirir və küçədən xəstəxanaya aparılır. Onun nə üçün xəstəxanaya düşdüyündən Azərin xəbəri olmur. Aslan da bu barədə heç nə demir. Örtülü vəziyyət hadisələri gərginləşdirir, Aslan bu biabırçılığı açıb-ağartmaqdansa, qızını öldürməyi və bu sirri əbədi gizli saxlamağı qərara alır və günahsız, məsum, uşaq evində böyük əziyyətlə böyümüş qızını bıçaqlayıb öldürür. Yenicə könlü açılıb gülməyə başlayan Rənanın gülüşü dodaqlarında daşa dönür. Azər bu məqama qədər təmiz, saf və namuslu görünür. Boyda atasına oxşayan, yaraşıqlı və istedadlı bir gənc olan Azər professor Xalid Məcidovun da, arvadı Pəri xanımın da rəğbətini qazanmışdır və onlar qızları Leylanın Azərlə xoşbəxt olmasını istəyirlər. Lakin Azər özünü bu ailəyə yaraşdırmır, sadə bir qızla evlənir. Arvadı Yaqut son dərəcə deyingəndir, Hər şeyə bir qulp qoyur. Azər arvadının deyingənliyindən bizardır.

Dediyimiz kimi, akademiyada elmi işçi vəzifəsində çalışan, elmlər namizədi Azər vağzalda hamballıqla da məşğuldur və çətin günlərdə hətta cibə də girməli olur. Azər kimi təhsilli bir gəncin,

bir elmi işçinin sovet dövründə hamballıq etməsi az ağlabatandır, lakin onun cibə girməsi alim və savadlı bir ziyalı üçün heç ağlabatan deyil. Azər mənim yaşıdımdır və məndən bir-iki yaş kiçikdir. Azərin keçdiyi yolu mən də keçmişəm. 50-ci illərin ikinci yarısında o da, mən də tələbə olmuşuq. Heç bir əlavə gəlir olmasa da, tələbə təqaüdü bəs edirdi. 60-cı illərin əvvəllərində hər ikimiz aspirant olmuşuq, namizədlik dissertasiyası yazmışıq. Onun doktorluq dissertasiyası yazmağa başlaması 60-cı illərin sonlarına aid ola bilərdi. Bu illərdə, doğrudur, maaş az idi, lakin manat qiymətli idi və belə bir vaxtda elmlər namizədi akademiya işçisinin istirahət üçün ağacların kölgəsində gəzmək istəyən şlyapalı, qalstuklu, abırlı bir adamın boynunun kökünə yumruq ilişdirib cibini soyması heç bir əsası olmayan uydurmadır. 64-cü ilin müvəqqəti çörək qıtlığından sonra əhali pis yaşamırdı və gündən-günə güzəran yaxşılaşırdı.

Atasındakı mənfi mənəmlik Azərdə də güclüdür. O, qısqanclıq üzündən körpəni onun üstünə atıb gedən Yaqutu heç cür bağışlamır. Uşaqları və ananı gözüyaşlı qoyur. Bunlar göstərir ki, Əli bəy, Aslan və Azər eyni toxum, eyni xarakterli adamlardır və bərk ayaqda güzəşt nə olduğunu bilmirlər. Onların faciələrinin səbəbi Sovet hökuməti deyil, bu mənəmliklərdir, güzəşt nə olduğunu bilməmələridir.

Professor qızı Leyla da rəğbət qazana bilmir. Leyla savadlı qadındır, elmlər namizədidir, doktorluq müdafiəsinə hazırlaşır. Əri Zauru sevməsə də, onun qüsurunu açıb demir, uşaqsızlığın günahını öz boynuna alır. Zaur da, deyəsən, Leylanı sevmir, doktorluq işini sahmana salan kimi xaricə gedir və Leyladan əl çəkir. Zaurun xaricə getməyi, Yaqutun evdən acıq eləməyi Azərlə Leylanın əl-qolunu açır, onlar evlənmək qərarına gəlirlər. Azərin qəfil ölümü uşaqlarını geri almaq üçün Yaqutun Leylanı məhkəməyə verməsinə səbəb olur. Lakin məhkəmə qərarı Leylanın xeyrinə çıxarır. Leyla «Az qala hər gecə yuxuma girən Azər məndən ilk növbədə Əlini soruşur»– deyə ananı baladan məhrum edir və ananın faciəli ölümünə səbəb olur. Bu işdə dünya şöhrətli professor və arvadı da qızlarına təsir etmirlər – Pəri bu barədə bir balaca düşünsə də, böyük alim və arvadı öz qızlarına düz yol göstərmirlər. Bütün bunlardan aydın olur ki, insan hələ də ictimai insan ol-

maq əvəzinə, fərdi insandır, özü üçündür. Bütün bunlarda bolşeviklərin və Sovet hökumətinin heç bir günahı yoxdur. Sovet hökuməti Azəri də, Rənanı da müharibənin ağır günlərində uşaq evində qayğı ilə qoruyub, böyüdüb, lakin məsələni tədbirlə həll etmək, bacı-qardaşı müəyyən işarə ilə başa salmaq əvəzinə, zalım milyoner balası Aslan öz övladlarını quduz kimi məhv edir.

Aslan Rənanı çılpaq halda Azərin yatağında görür. Azər atasına bir yolla çatdıra bilərdi ki, istədiyi qız qəflətən ürək ağrısından huşunu itirdiyi, nəfəsi dayandığı üçün yatağa düşmüşdü, həkim çağırmışdılar. Həqiqətdə də Rəna ilə Azər arasında səmimi məhəbbət həddini aşmamışdı və Rəna ürək qüsuruna görə huşunu itirmişdi. Heç olmasa, qızını öldürəndən sonra Aslan bunları bilsə idi, daha çox peşman ola bilərdi.

Bəs yazıçının məqsədi nədir? Nə üçün Aslanı bu qədər əzazil təsvir edir? Aslan hər kəsi qaralayırsa, öldürür. Yalnız bir müstəntiqdən başqa. Nə demək istəyir yazıçı? Bəlkə, bunların günahı Sovet quruluşundadır? Bir insanın naturası yaramazdırsa, ona quruluş nə etsin? Əksinə, sovet quruluşu əksərən Aslan kimilərin məhvinə çalışıb. Aslan bu quruluşun yetirməsi deyil, daxili yaramazlıqlarını bu quruluşun üzə çıxardığı bir tipdir. Yazıçı realistdir.

Bəzən adama elə gəlir ki, yazıçı bu cür obrazlar yaratmaqla oxucunu həyəcanlandırmaq, hadisələrin təsiri altında saxlamaq istəmişdir. Həm də hiss olunur ki, yazıçıda Sovet quruluşuna nifrət vardır. Lakin geniş planda düşündükdə yazıçının realizmi üzə çıxır, Malik Rəcəb insan xislətinin təsvirini düzgün vermişdir. Obrazların təsvirindəki realizm həyat həqiqətlərini üzə çıxarır. Oxucu Aşot kimilərə nifrət bəsləsə də, milyoner nəslinin ictimai davranışı Sovet hökumətinə nifrəti aradan qaldırır və bir çox hallarda NKVD-nin hərəkətlərinə inandırmamaqla yanaşı, onların Əli bəylə döyüş səhnəsindəki sadəlövhlüyünə də əsaslı baxmır.

Əsərdə epizodik şəkildə Mir Cəfər Bağırov, general Ağasəlim Atakişiyev haqqında da danışılır. Bu obrazlardan birincisinə əksərən obyektiv münasibət olsa da, axıra yaxın müəllif yenə indiki tendensiyadan xilas ola bilmir. Mir Cəfər Bağırov 37-ci il qırğını müstəsna olmaqla, Azərbaycan xalqı üçün misilsiz işlər görüb. Ermənistan ərazisindən Sibirə köçürmənin qabağını ala bilməsə də, Sibirə aparılmağa qoymayıb. Azərbaycan ordusu yaradıb və

müharibədə azərbaycanlıları rus gülləsindən xilas edib. Son dərəcə təmiz və pak olub. Yerliçiliyin, rüşvətxorluğun düşməni olub – 500 il əvvəlki Şah İsmayıl kimi. 37-ci il qırğını isə onun iradəsindən asılı olmayıb. Ona qalsa, 80-ci illərin sonlarından bu günə qədər Azərbaycanda ordu-ordu adam qırılıb. Görünür, bu xalq həmişə başıbəlalı olmalıdır.

Aşotun Mir Cəfər Bağırov haqqında düşüncələri: «Mir Cəfər hələlik Azərbaycanı bir respublika kimi qoruyub saxlayır. Tarix onu yetişdirməsəydi, bəlkə də, başladığımız iş artıq başa çatmış olardı – Azərbaycanı bölüşdürərdik. Mir Cəfər qoymadı, Mir Cəfər! Amma bu türklər çox sadəlövh bir xalqdırlar. Yuxarıda oturan yoldaşlardan biri qəsdən desə ki, Mir Cəfər xalq düşmənidir – hamısı xorla təsdiq edəcək – doğrudur». Aşot yenə deyir: «Bu Mir Cəfər də allahın bəlasıdır ha! Əvvəllər iş görməyə nə vardı ki... Bütün Azərbaycan ermənilərin əlində idi. İndi isə Bağırova girişmək asan məsələ deyil». Bunlar doğrudur və bu xalq elə həqiqətən də N.S.Xruşşovun M.C.Bağırovla şəxsi düşmənçiliyini ictimai rəy kimi qiymətləndirdi. Bu xalqa onun torpaqlarını ermənilərə verib sərvətini talayan adamlar xoş görünür. Bu xalq daim onun yolunda özünü fəda edənlərin haqsız cəzalandırılmasına çox soyuq münasibət bəsləyib.

General Ağasəlim Atakişiyevin düşüncələri: «Hər an həyatımı qurban verməyə hazıram, lap bu saat məni güllələsələr, – uf! – demərəm, təki bilim ki, ölməyim bu millətin yaşaması üçün zərrə qədər də olsa faydalı olacaq». «Ruslar yoldaş, farslar isə qardaş deyə-deyə bizi çəyirtkə kimi qırmağa hazırdırlar. Ağıllı çıxış yolu ağamıza hələlik sədaqətli olduğumuzu sübut etməkdir. Sübut üçün qurban vermək lazımdır. Mir Cəfər qurban veriləsi adamları böyük ustalıqla seçir. Çox təəssüf ki, səhvlər də olur, bəzən isə lap böyük, düzəldilməsi mümkün olmayan səhvlər!»

Bunlar da onun düşüncələridir:

«Əli bəyin dəfnini gec də olsa el adəti ilə təşkil etdiyimi o saat Mir Cəfərə xəbər verdilər. Ümid edirdilər ki, elə o saat mən də düşmən çıxacağam. Lakin o, ağıllı adamdır. O bu xalqın dostunu da yaxşı tanıyır, düşmənini də. Amma nə olsun?! Evi bərbad olmuşlar utopik kommunizm ideyaları ilə xalqı elə bir fəlakətli yola sürükləyiblər ki, Mir Cəfər kimi bir oğul da onu tam xilas et-

məyə qadir deyil. O, olsa-olsa, hələlik bu milləti bir millət kimi məhv olmaqdan müvəqqəti xilas edəcək». Əgər belə düşünübsə, general Ağasəlim Atakişiyev elə, həqiqətən də, tutulmalı idi, çünki kommunistlər həqiqi yeni həyat qururdular və onların sosializmi XVIII əsrin utopik sosializmi deyildi.

«Mən bu xalqın heç bir hərbi məktəb oxumadan general rütbəsi almış oğluyam» - deyən Ağasəlimin aşağıdakı sözləri onu daha çox gözdən salır: «Yəqin ki, gələcək nəsillər çox şeyi bir-birindən ayıra bilməyəcəklər. Axı onlar haradan bilsinlər ki, inqilab adı ilə xalqa fəlakət gətirən bu lütlər azadlıq şüarı ilə bizi əbədi qul etdilər. Sovetlər quruluşundan da Azərbaycan məhv olmaqdan xilas ola bilsə, o, əbədi yaşayacaq». «Lütlər» və «əbədi qul» ifadələri heç bir məntiqə sığmır - düşüncəli adam üçün əhalinin əsas təbəqəsini təşkil edən yoxsulların hakimiyyəti şərəflə qeyd olunmalıdır. Qaldı, bu quruluşun xalqı qul etməsinə – bu, həqiqi bir iftiradır. Mən insanlıq üçün yalnız kommunizmi, elm üçün marksizmi halal saymışam və bu fikirlərdə qalıram. Oxucu bunlarla razılaşmaya bilər – bu onun öz işidir. Mən bəşərin gələcəyini nəzərdə tuturam və bu yazılarım da daha çox gələcək naminədir.

Ağasəlimin Aslana dediyi aşağıdakı sözlər isə onun heç kimə və heç nəyə etibarı olmadığını göstərir: «Qorxma, ürəkli danış,– deyə general Aslana ürək-dirək verdi, – daha nə Cəfər qaldı, nə də ki Beriya. Mənə də ki olan olub. Söylə görüm niyə Ağamurad olmusan?» Fikrimizcə, Atakişiyevdə Mir Cəfərə qarşı bu cür münasibət olmayıb. Digər tərəfdən, Mir Cəfərlə Beriyanı yanaşı qoymaq qətiyyən yaramaz. Beriya ictimai əxlaqsızlıq təcəssümü idi, Bağırov xalqın namusunu qoruyurdu.

Yenə general Atakişiyevin düşüncələri: «İllər boyu yanaşı işləsək də, nə Cəfər ürəyini mənə açdı, nə də ki mən ona. Bəlkə də, Cəfər nə istədiyimi duyurdu, arabir mən də onu baxışlarından oxuyurdum. Bəzən mənə elə gəlirdi ki, o bilə-bilə amansızlıq edir. Sevmədiyi, lakin zorla qorumağa məcbur olduğu bir quruluşun intiqamını çox vaxt bu quruluşu bütün varlığı ilə sevənlərdən alır» Mir Cəfər Bağırovun boynuna bu cür yük qoymaq heç bir məntiqə sığmır. Bu cür mühakimələrlə M.C.Bağırova yaxşılıq etmək olmaz. Bunlar tarixin təhrifidir. Bağırov Stalini və quruluşu sevirdi.

Ağasəlim Atakişiyevin aşağıdakı düşüncələri də tarixi həqiqə-

tin təhrifindən ibarətdir: «Ermənilər həmişə olduğu kimi, bu dəfə də bizi qabaqladılar – Azərbaycanları birləşdirə bilmədik. Stalin türk dünyasına etibar etmədiyini bir daha sübut etdi. Stepanla Timofeyə arxalanan Xorenlə Ruben isə Cəfərin könlü şad olsun deyə, nələr etmədilər! Cəfər nə vaxtsa onları güllə qabağına verəcəyini, özünün isə sudan, həmişə olduğu kimi, yenə quru çıxacağını düşünürdü, amma alınmadı. Günahsız insanların ahı onu tutdu». Stalinin Azərbaycanı birləşdirə bilməməyinin səbəbi amerikanların atom silahı oldu. Stalin ağır müharibədən çıxmış SSRİ-ni yenidən bir də müharibəyə sürükləyib məhv edə bilməzdi. Bunu birdəfəlik bilmək lazımdır. ABŞ nota vermişdi – Sovet qoşunu İrandan çıxmasa, müharibə davam etdiriləcəkdi. Bağırovu isə tökdüyü qanlar yox, daha çox Xruşşovun şəxsi düşmənçiliyi məhv elədi.

Sovet hökumətinə qulluq edən liman rəisi də quruluşdan narazıdır. Həbsxanadan qayıdan Aslan nazir müavininin köməyi ilə limanda özünə iş tapa bilir. Keçmiş hiylələrinə əl ataraq rəisin yanında özünü namuslu və zəhmətkeş, işbilən fəhlə kimi göstərir. Zavod direktoru riqqətə gəlir: «Qəmbərlər göstəriş verir, Aslanlar isə həyət süpürürlər! Belə quruluşun bünövrəsini qoyana min lənət!» Quruluş öz qatı düşməninə iş verib, onu dolandırmaq, düz yola gətirmək istəyir, liman rəisi isə özünün işçiləri qiymətləndirə bilməmək günahını quruluşun boynuna qoyur.

Stalinin öldüyünü yuxuda görən Həzi kişinin başına gələnləri danışdığı vaxt dediyi: «Stalin gorbagor SSRİ-də yaşayan müsəlmanların nə vaxtsa birləşə biləcəyini nəzərə alaraq onların vahid əlifbalarını dəyişdi, hərəsinə bir əlifba verdi, daha doğrusu, kiril əlifbasının bir neçə hərfini dəyişərək böyük yenilik, əsrin sıçrayışı adı ilə bunu müsəlman respublikalarına sırıdı. Əlifba dəyişildi – yeni nəsil köhnə nəsilləri oxuya bilmədi» (199) sözləri də obyektiv deyil. Ziyalılarımız iki əsr idi ki, əlifbanı dəyişmək, yazı-pozu işini sillabik yazıdan xilas etmək istəyirdilər və gec-tez bu, baş verməli idi. Amma latından kiril əlifbasına keçid başqa məsələdir.

Azərin arvadı Yaqut da Sovet hökumətindən narazıdır. Azərə dediyi sözlərə baxaq: «Bədbəxt eləyib kommunist tərbiyəsi səni. Yemək, yatmaq və işləmək, özü də cansız əşyalar kimi. Amma insan kimi yaşamaq barəsində düşünmə. Bu sənə lazım deyil». Yaqut kimilərin çoxu indi Dubayda canını satır, amma o vaxtlar az

yesə də, al-əlvan geyməsə də, namusla yaşayırdı. İnsan nankor olmamalıdır. Kommunist tərbiyəsi hara – indiki tərbiyə hara. Hamilə olduğu zaman ərinə dediyi sözlər: «Təcili yardım gələcək, pul verməlisən. Xəstəxanaya gedəcəksən, deyəcəklər ki, yer yoxdur. Yer tapılar, bununçun da qan verməlisən, ya da ki həmin miqdarda qanı almaq üçün pul. Çarpayı verənə pul, pastel verənə pul, iynə vurana pul, həkimə pul, göbək kəsənə pul, uşaq bələyənə pul, qapıçıya pul, qısası, ağ xalatda gəzən xadimədən tutmuş baş həkimədək hamısına pul. Necə verəcəksən?» İndi getsin görsün doğa bilirmi? O dövrdə də bunlar vardı, amma Sovet hökuməti hamilə qadınlara «yer yoxdur» deməyib. Bunlar indiki dövrün mənzərəsidir.

Romanda oxuduğumuz: «Sovetlər cəmiyyətində ən kəskin ehtiyac duyulan peşə sahibləri məhz süpürgəçilər idi. Onlar iki yerdə işləyə bilərdilər və yalnız onlardan işə girərkən diplom tələb olunmurdu» – tipli sözlər sovet quruluşuna nifrət yox, rəğbət yaradır. Hamı təhsil almalı, hamı mədəni işçi olmalıdır, – bunun nəyi kinayə obyekti ola bilər ki? Həm də yalnız süpürgəçiyə ehtiyac olması o deməkdir ki, əhali istədiyi işlə təmin edilirdi.

Romanın mövzusu maraqlı və aktualdır. Hadisələr daha çox keçən əsrin 30, 40 və 50-ci illərində cərəyan edir. Birinci dövr daha çox Əli bəylə, üçüncü dövr Azərlə bağlıdır. Aslan ikinci və üçüncü dövrlərdə fəaliyyət göstərir.

Neçə illər idi, bu cür sanballı mövzuda, təsirli və söz deməyə imkan verən, keçmişə münasibətdə ciddi mübahisələr doğuran bir nəsr əsərinə təsadüf edilmirdi. Malik Rəcəb böyük bir dövrün sosial-ictimai və mənəvi mənzərəsini yaratmaq istəmişdir. Təsvir edilən dövr SSRİ-nin ən təzadlı illəridir, böyük müharibədən qalib çıxdığı və vüsətli inkişaf dövrüdür, lakin müstəqillik dövrünün təbliğatı Sovet dövlətinin mədəni və iqtisadi quruculuq sahəsində gördüyü işləri üzə çıxarmağa imkan verməmişdir. Müəllifin əksər obrazları sovet quruluşundan və onun böyük liderlərindən narazıdır, əksər obrazlar Sovet hökumətini, onun Lenin, Stalin kimi liderlərini söyüşlə xatırlayır. Bunlar göstərir ki, insan elə həmişə təbliğatın quludur. İnsanın özünün şəxsi düşüncəsi daim təbliğatın kölgəsində sürünür və çox zaman qabaqda onu nələr gözlədiyini duymadan irəliyə, uçuruma can atır, çox tez də peşman olur. O quruluşun kökünə daş

atanlar içərisində Malik Rəcəbin qəhrəmanları da var idi. Əgər kiçik Əli böyüsə, yəqin ki, satqın və yaramaz Qorbaçov ideyalarının qızğın tərəfdarlarından biri olacaqdı.

Əsərdən belə bir təəssürat alınır ki, sovet quruluşu əsaslı və köklü bir quruluş deyildi, ona görə də uzun yaşaya bilməzdi. Əslində isə Sovet dövləti möhkəm özül və ideoloji əsas üzərində qurulmuşdu. Lakin Stalindən sonra quruluşun başında duranlar siyasətdə kor və qabiliyyətsiz adamlar idi. Məhz Stalin iradəsi olmadığı üçün o quruluş dağıldı. Dağıldı və müstəqillik qazandıq. Lakin bu müstəqillik yaramaz insanların və yaramaz qonşuların əli ilə bizim üçün cəhənnəm əzabına çevrildi.

* * *

Romanın quruluşu yaxşı düşünülmüşdür. Hadisələrin gedişi oxucunu öz ardınca çəkib aparır, obrazların taleyi ilə, hadisələrin necə qurtaracağı ilə maraqlanırsan. Dili təsirli, emosional və obrazlıdır. Müəllifin təmkinli təhkiyəsi hadisələrin məntiqi ardıcıllıqla çözələnməsinə imkan yaratmışdır. Süjet qurma imkanları, məcaz növlərindən istifadə ustalığı bir nasir kimi müəllifin yetkin qələm sahibi olduğunu sübut edir.

Əsərdə bir sıra şivə xüsusiyyətləri və üslubi qüsurlar vardır. Misallara diqqət yetirək: «...öz çörək dilimini iki yerə bölərək bizə verdi».(7) ...nə atam ***səni kimi*** atasına xəyanət edib, nə də ki mən...(13) ...***məni kimi*** bədbəxti (133) ...***məni adda*** adam tanımırsan.(271) Çıxış yolu pilləkənə yaxınlaşarkən onları arxadan ***atmaq idi.*** (55) Aslanı ***ata bilərdilər***.(56) Yox, qaçsaq, bizi tez ***atarlar***.(56) Nə qədər ki səni də ***atmayıblar***, tez elə məni öldür. (59) ***Hələlik sağ olun.*** (76) Aslan özünü ***qanmamazlığa*** vurdu...(76) Aslan: - Düz deyirsən, Yelena, elə ***bədbəxtçiliyimiz d***ə elə bundadır. (97) Azər yumşaq kresloda ***narahatçılıqla*** oturdu.(359) (103) Yetər ***nə qədə*** ehtiyatla götürməyə çalışsa da...(115) Aslan: Çox sağ olun, ***salamatçılıqdır.*** (139)

«Çörək dilimi» əvəzinə dilimizdə daha çox «çörək parçası» işlənir. Bəzi şivələrdə olduğu kimi, yiyəlik halın ***-i*** şəkilçisi ilə ifadəsi (*məni kimi, səni kimi, məni adda*) elə bir emosional çalara malik deyil. Güllə ilə vurmaq əvəzinə «atmaq» sözü təkcə obraz

düşüncəsinin məhsulu deyil, müəllif nitqində də işlənir. ***Hələlik*** sözü ilə ***sağ olun*** ifadəsi arasında nöqtə və ya vergül olmadıqda ikisi birlikdə qarğış kimi səslənir. ***Qanmamazlığa*** sözündə bir ***-ma, bədbəxtçilik, narahatçılıq, salamatçılıq*** sözlərində ***-çi,-çı*** şəkilçisi asemantikdir. ***Nə qədər*** əvəzinə ***nə qədə*** sözünün də elə bir effekti yoxdur və s.

Bu cür hallar əsərdə çox azdır və demək olar ki, qeyd edilənlərdən ibarət olub nəzəri o qədər də cəlb etmir. Bilavasitə obraz nitqində işlənmiş şivə elementləri, az da olsa, tipikləşdirmə çalarına malikdir. Bütövlükdə romanın dili klassik Azərbaycan nəsrinin ənənələri əsasında yaranmışdır və ədəbilik normalarını mühafizə etməklə oxucu zövqünə müvafiqdir. Cüzi qüsurları əsərin sonrakı çaplarında asanlıqla aradan qaldırmaq olar.

Romanın süjeti və hadisələrin gedişi ilə bağlı bir sıra mübahisəli məsələlərin düzgün məcraya yönəldilməsi bu roman əsasında gələcək nəsillərin keçmiş haqqında daha obyektiv təəssürat qazanmasına səbəb ola bilər.

06.04.2004

DÜNYANI DAHA AYDIN GÖRƏN ŞAİR

Əflatun dünyanın təzadlarına – kədərli-sevincli, acılı-şirinli, yoxuşlu-enişli, ölümlü-yaşantılı bu aləmin hikmətinə gənclik illərindən müdrikliklə baxmağı bacaran bir şairdir. Bu müdriklik, demək olar ki, onun hər bir şerində özünü göstərir. Əgər desələr ki, Əflatun poeziyasını səciyyələndirən əsas cəhət nədir, mən birinci növbədə onun şeirlərinə hər şeydən çox aid olan ümumiləşdirmə gücünü, şairin bu aləmdən aldığı təcrübənin yekunu kimi səslənən hikmət dolu misraları, bəndləri göstərərdim. Hər bir şerində duyub-düşündüyü həyat həqiqətlərinin ümumiləşmiş obrazını yarada bilməsidir. Elə buna görə də şeir oxumağın mümkün olmadığı bu aləmdə Əflatunun şeirlərini oxumaq olur. Həm məhəbbət lirika-

sında, həm sosial-ictimai, fəlsəfi şeirlərində bu cəhəti görmək mümkündür. El gözəllərinin, saf və sevimli vətən qızlarının təsvirinə həsr olunmuş şeirlərində məhəbbət aləminin şair beynində ümumiləşmiş obrazları ilə tanış oluruq:

İlk məhəbbət məktubunu yazanda
Qızlar məhəbbətdən şeir istəyir.

Sən demə, dünyanın səadət yolu
Görüş yerimizdən gəlib keçirmiş.

Məhəbbət məhəbbət romanı deyil,
Bir gündə oxuyub çıxasan başa.
Sənin məhəbbətin – ağac yarpağı,
Mənim məhəbbətim – sadiq budaqdır.

Bir an barmaq saxla, bəstəkar bacım,
Qadının öz qəlbi elə nəğmədir.

«Hicran cəza imiş eşq qanununda», «Sənsiz qürbət imiş, demə, vətən də», «Sevib-sevilməyi gözəl olanın Gözündə yarı da gözəl olubdur», «Gəlin gözəllikdən sevgi ummayaq, Sevgidən gözəllik ummalıyıq biz», «Bu ilahi gözəlliyin vəsfinə Şair kimdi, ulu tanrı söz desin», «Sevgi payızından tez bezmə hələ, Qabaqda sevginin sərt qışı durur», «Güneyin oluram – səni isidən, Sən məni üşüdən qüzey olursan», «İkili bir dünya yaratmışıq biz, Bəlkə də, sən onun şimal qütbüsən», «Məhəbbət görmüşəm ömrü qısadır Sevgi məktubunun sətirlərindən»... kimi misra və beytlərdə hicranın ağrıları, sevgidə paklıq, təmizlik, gözəlliyin qüdrəti, sevginin əzabları, sevgilinin soyuqluğu, ötəri məhəbbətin qısa ömrü barədə şair xəyalının yaratdıqları təbii və təsirli aforizmlər kimi səslənir

Əflatun da, hər şeydən əvvəl, gözəllik şairidir; gözəllərin və gözəlliyin vəsfi onun yaradıcılığının daha çox görünən tərəfidir. Gözəli də, gözəlliyi də, aşiqin vurğunluğunu da ustalıqla təsvir edir. Bu cür şeirlər onun həyata, insan və təbiət gözəlliklərinə xoş və nikbin münasibətindən irəli gəlir, «***Güldür, çiçəkdirsə dağın ətəyi, O dağın günəşli zirvəsi vardır»*** – deyən şair günəşli zirvələri, ümidli günləri yüksək qiymətləndirir. Şair qəlbi çox kövrəkdir:

Şimşəkdi – çaxmağı yox,
Bir çaydı – axmağı yox,
Buluddu – yaxmağı yox
Ürək səndən küsəndə.

«İlk görüş yerimin dolar gözləri», «Əsli kimi alışaydın közümə», «Könlüm olub dərdin, qəmin ustadı», «İstəyirdim öpəm o bal dodaqdan, Qara gözün həyasından utandım», «Dodağının tamı dodaqlarımda, Ovcumda saçının qoxusu qalıb», «Özünüz çiçəksiz, çiçəksiz gəlin, Ürəksiz gəlməyin, qızlar, görüşə», «Mənim yollarımı nə duman, nə çən, Mənim yollarımı gözəllik kəsir»... kimi misra və beytlər göstərir ki, şair son dərəcə həssas qəlbə malikdir, gözəlliyə vurğunluğunu Məcnun, Kərəm vurğunluğu ilə müqayisə edir:

Əflatunam, nəvəsiyəm Məcnunun,
Görən onun atası kim, oğlu kim?

Neçə yol Ərzurum gədiyində mən
Yıxılıb qalmışam qar uçqununda.

Əflatun şairin və şerin qarşısında ciddi tələblər durduğunu bilir və bunu başqalarına da anlatmağa çalışır. Şeir ürəklərə od salmalı, insanın duyğu və düşüncələrini öz təsiri altına almalıdır, insan qəlbinə od qalamalıdır:

Mənim yüz kitaba adım düşüncə,
Kaş bircə ürəyə odum düşəydi.

«Şairlər doğulur əzab çəkməyə», – bu onun öz sözləridir və bunu bilə-bilə dünyanın hər əzabına dözdüyünü, lakin söz qoşmaqdan yorulmadığını bildirir: «Vallah, söz qoşmaqdan yorulmamışam». Şeirsiz ötən hər bir anını «hədəfə dəyməyən ox», şeirli anlarını «bir ilk bahar» hesab edir, «Sinəsində sənət diləyinin qaynadığını» qeyd edir. Şairi elin dərdi, vətənin parçalanmasından doğan ağrı-acılar daha çox ağrıtmalıdır. Elə buna görə də Əflatun el dərdi ilə dolanmağın «şirinliyini» də yaxşı duyur; el qeyrəti çəkənlərin daim əzablar içərisində olduğunu, bu dünyada yalanın ayaq tutub yeridiyini, həqiqətin dili tutulmasa da, haqqa, həqiqə-

tə baxan olmadığını bilir. Şair olan öz halal tikəsi ilə dolanmalıdır:

Gərək el dərdini dada biləsən,
Yağ üstündən balı yaxmağa nə var?!

Namərddən demişəm, mərddən demişəm,
Mən də sənin kimi dərddən demişəm.

Yalan danışıram, tutulur dilim,
Doğru danışıram, sözüm yerimir.
Əflatun, el çəkməz şair çəkəni,
Milyona dəyişmə halal tikəni.

Sərdar Əsəd, Əli Kərim kimi çox erkən dünyadan getmiş istedadlı şairləri misal gətirir, onları özünə örnək bilir, onların nakam taleyini bir şair kimi dünya qeydi ilə içəridən yaralanmaları ilə izah edir:

Şairlər də vətən igidləridir,
Şairlər içindən yaralanıblar.
Bitsə də yarıda həyatı, ömrü,
Sənətdə əbədi yol gedir onlar.

Vaxtilə Sərdar Əsəd deyirdi:

Yerli-yerində hər söz qiymətli bir incidir,
Ürəkdən gəlməyənlər ürəkləri incidir.

Əflatun da bir şair kimi şerin bu cəhətini daim diqqət mərkəzində saxlamağı özünə şüar etmişdir:

Yerinə düşməsə ən dürlü söz də,
Ürəyi göynədib, dili incidər.

Poeziya insan duyğularının səlis, sərrast, ritmli və emosional ifadəsidir. Şeirdən söhbət gedirsə, poeziyanın şirin dili ilə insanların hisslərinə təsir etmək, onların mənəvi aləmini zənginləşdirmək

tələb olunursa, şair öz duyğularını düzgün oxumalıdır. Əks təqdirdə, həqiqi poeziyadan danışmaq olmaz, çünki poeziya zərif və həssas qəlbin bəzən titrək, bəzən ətrafa hikmət inciləri səpən dili, bəzən də üsyan edən, haqsızlığı, nadanlığı, yaramazlığı külə döndərməyə çalışan alovu, odudur. Yalnız həssas qəlbi olanlar həqiqi poeziya nümunələri yarada bilirlər. Həm də tələb olunur ki, duyğu və düşüncələrinə xəyanət etməyəsən, duyğuları qələmə alanda «özün olasan», onları saxtalaşdırmayasan.

Kirpiyim gözümə gözətçi durub,
Qoymayır yaxına yuxularımı.
Bir şair babayam, boynumu burub
Mən də oxuyuram duyğularımı.
Taleyə gah küsüb, barışıram mən,
Xəyallar mülkündə sayrışıram mən,
Başqa vaxt hamıya qarışıram mən,
Mən şeir yazanda özüm oluram.

Əflatunun şair xəyalı bizim bu sirli dünyamız haqqında orijinal misralar, beyt və bəndlər yaratmışdır. Böyük Şəhriyar kimi, o da bu dünyanı «yalan dünya» hesab edir. Yalanlar bu qədər ayaq tutub yeriyirsə, bəs bu dünya haqqı nə vaxt müdafiə edəcək və ümumən bu dünyada haqq, həqiqət deyilən bir şey varmı?

Dünyanın hər üzü, düzü, yalandır,
Bəs onun gerçəyi, düzü nə imiş?!
Nədənsə, nadanlar əyləşir başda,
Qanmazı qanandan ayırmaz dünya.
Nə qədər həqiqət qında qalıbdı,
Doğrunu yalandan ayırmaz dünya.

Şairin yaratdığı *Hər insan ürəyi bir dünyadırsa, Görəsən, dünyanın özü nə imiş?* misraları ilə *Çox da ki ümmanlar genişdir belə, Vaxt olur bir ümman bir damla umur* – misraları arasında bir yaxınlıq vardır. Şair demək istəyir və obrazlı şəkildə deyir ki, kainat zərrələrdən yaranmışdır, hər bir insan qəlbi bu kainatı özündə yaşada bilir və eyni zamanda kainatın yaratdığı hər bir insan özü bir kainatdır.

Əflatunun fəlsəfi düşüncəsi aydındır: təbiət, dirilik gözəldir, lakin insanlar özləri onu özləri üçün zülmə, zülmətə çevirmişlər. Ona görə də bu dünyanın mizanı pozulub, qədim Vedalarda deyildiyi kimi, insanlar arasında əxlaqsızlıq, əyyaşlıq, bir-birinə canavar baxışı artıb-çoxalıb. Şişirdilmiş planlar, saxta fərmanlar, qanlı taxt-tac hərisləri dünyamıza yalnız göz yaşları, dərman əvəzinə dərd gətirir:

Neçə yersiz fərman, neçə qanlı taxt,
Şişirdilmiş plan, saxta möhür, akt,
Süründürməçilik – birinci infarkt
Dünyamızın göz yaşları.

Dərd yağar başına dərman yerinə,
Elə bil, çörəyi daşından çıxır.
Bu qoca dünyamız qəlyan yerinə
Dərd çəkir, tüstüsü başından çıxır.
Ümmanlar yaranıb şor göz yaşından,
Odur, çoxdur sulu ərazisi də.
Pərsəngi ağırdır çəki daşından,
Daha düz çəkməyir tərəzisi də.

Bir tərəfdən də taleyə, qəzavü-qədərə, alın yazısına inanır, həmişə belə olduğunu – mələk donuna girən iblislərlə yaxşı adamları dünyanın heç vaxt ayırmadığını, fərqləndirmədiyini qəlb yanğısı ilə qeyd edir:

Paltarı üstünə biçirsə dərzi,
Taleyi ömrünə biçir ilahi.

Duruluq arama iblis qanında,
Təmizlik, ləyaqət olmaz canında.
Əgər yaşayırsa mələk donunda,
İblisi insandan ayırmaz dünya.

Dərdlər çoxdur: nadanlıq, savadsızlıq, xudpəsəndlik, hərislik, insan nəfsinin hüdudsuzluğu dünyamızın dərdləridir: «*Bəzən elə*

olur, ağılın yolu Nadan qapısından düşür, nədənsə», «Bayquş gülən yerdə qurdlar ulayar», «Əgər naşıdırsa xalqın cərrahı, O xalq cərrah deyil, cəllad yaşadır», «İnsana boyadan, ziynətdən artıq Bəzən göz yaşı da yaraşıq verir» – deyən şair göz yaşları ilə dolu gülüşün daha dəhşətli olduğunu göstərir: «*Dərddən gülmək ağlamaqdan betərmiş».*

Əflatunun ictimai-siyasi məzmunlu lirikası şair fikrinin, şairin böyük ictimai problemlərə münasibətinin sərrast ifadəçiləridir. Qarabağ dərdi, Təbriz dərdi onu da irticaçı imperializimin haqsızlıqlarına qəlbən üsyan edən bir insana çevirmişdir.

Doğma Qarabağı verdik hərifə,
Qazancımız nə oldu ki, ay allah!
Elə bil, sel gəldi ümman apardı.

Həm beytdə, həm də tək misrada fikir çox düzgün ifadə olunmuşdur: Qarabağı almadılar, xəyanətkar hakimiyyət hərisləri – daxili düşmənlər düşmənə təslim etdi, buna görə də sel ümmana qalib gəldi. Amma bu heç ağla sığan deyil. Ağla sığan deyil ki, bu böyüklükdə ölkə daxili düşmənlərin əli və beynəlxalq imperializmin köməyi ilə qəlpə-qəlpə parçalanır, xırdalanır. Amma həqiqət açılmır, hələ də vətənin əsl düşmənləri gizli saxlanılır, şəhid balaların heç nə ilə ovunmayan analarının fəryadı xəyanətkar insanları tutmur:

Tarixin köksündə sirri kiriyir,
Çılğın bir millətin səbri kiriyir,
Şəhid balaların qəbri kiriyir,
Analar ovunmur axı, ilahi!

Biz Əflatunla birlikdə Kəlbəcərdə çox olmuşuq, Dəli dağın xalı kimi Yer üzünə sərilmiş çiçəkli yamaclarında çox gəzmişik, İstisuyun sanatoriya klubunda Q.Qasımzadə, M.Günər, M.İsmayıl, M.Aslan, D.Abbas, Ş.Əsgərov və başqalarının iştirakı ilə gözəl poeziya gecələri keçirmişik. Belə gecələrin özünü sevdirən, ətirli çiçəklərlə, gözəl qızların şairə baxıb çəkdikləri rəsmlərlə təbrik edilən bir nümayəndəsi də Əflatun olurdu. Çox zaman dibi

görünməyən Bağırsaq dərəsindən aşağılara axan Tərtərin səsli-küylü mahnılarını birlikdə dinləmişik, sanatoriya qarşısındakı güllü-çiçəkli yamacın bal qoxusu ilə nəfəs almışıq. İndi Əflatunun «Bu doğma elim» şerini oxuyanda mən onun nələr çəkdiyini, o yerlərin həsrəti ilə necə qovrulduğunu hamıdan çox hiss edirəm:

Gah zildən, gah pəsdən ötəndə Tərtər,
Qayalar içində itəndə Tərtər,
Vətənsiz qalanda vətəndə Tərtər
Həsrətdən kövrələn səsinə qurban.

Şairin çiynində ağır bir dərd yükü də Təbriz dərdidir, Azərbaycanın vaxtilə Rusiya ilə İran arasında parçalanmasından, ikiyə bölünmüş vətənin o tayının həsrətindən doğan kədərdir. Bu kədər hamımızın qəlbində vardır:

Təbriz unudulmaz əsrlər boyu,
O öz torpağımız, öz daşımızdır.
Nə bilim, bəlkə də, Arazın suyu
Bir əsr yarımlıq göz yaşımızdır?!

Əflatun: «***Bir diyar ağ günün xoş baharında, Bir diyar həsrətin sərt qışındadır»*** – dedikdə də şimalla cənubu müqayisə edir, lakin heç şübhəsiz, onun şimal üçün dediyi «ağ günün xoş baharı» da nisbi xarakterdədir, çünki bu xalq hələ ədaləti bərpa edə bilməyib, bu xalq hələ azı altı yerə parçalanmış vətən torpağının çox kiçik bir küncünə qısılmışdır.

Əflatun da şifahi xalq şeri tərzində yazan şairlərimizdəndir. Qoşma, gəraylı, bayatıları vardır. Yeri gəldikcə qəzəllər də yazmışdır. Obrazlılığa, poetik kəşflərə daha çox meyil edir, misraları tutumludur, mənalıdır, simvollardan, fikrin metaforik ifadəsindən, orijinal təşbihlərdən geniş istifadə edir, ona görə də hər bir şeri oxunur, oxucu şairin təbii və özəl müqayisələrindən, orijinal qafiyələrindən ləzzət alır. Aşağıdakı bəndlərə diqqət yetirmək kifayətdir:

Ulduzlar gecənin göz yaşlarıdır,

Axıb yanağında gilələnibdir.
Ulduzlar səmanın naxışlarıdır,
Kiminsə əlilə ilmələnibdir.
Ulduzlar, bəlkə də, Qafdan asılan
Prometey əlində od parçasıdır.

Tərpədib, dindirib ilhamım məni,
Bulaqlar önündə bulaqlaşmışam.
Özüm də bilmədən açıb qolumu
Mən bu gözəlliklə qucaqlaşmışam.

«*Bəlkə, göbələklər meşə gözəlin Yaşıl xalatının düymələridir*», «*Göydə qatarlaşan qərib durnalar Bu payız şerimin şah misrasıdır*», Xəzər haqqında dediyi «*O, qız qalasının göy örpəyidir, Nə vaxtsa başından sürüşüb düşüb*» kimi beytlərdəki müqayisələr çox təbiidir. Duyğu və düşüncələri səmimi və zərifdir:

Elin şad günündə, xürrəm günündə
Aşıq mizrab vursa telə – nəğmədi.

Danışdım sulara yuxularımı,
Sular bir qədər də duruldu, axdı.

Çiynində əkməsən kədər yükünü,
Qəlbində dünyanın sevinci bitməz.

Mənə zirvə olub mən duyduqlarım,
Məndən ucadadır məni duyanlar.

Evin qapısından əvvəl qonağa
Ürəyin qapısı açılmalıdır.

Bizim bu yığcam qeydlərimiz Əflatunun poeziyası haqqında müəyyən təəssürat yaradır, gətirdiyimiz misra və beytlər göstərir ki, Əflatunun şeirlərini oxumağa dəyər, bunlar şeir yazmaq, şöhrət qazanmaq naminə yazılmış əsərlər deyil, həqiqi şair qəlbinin çırpıntıları və obrazlı ifadəsidir.

* * *

Oxucu Əflatunun qısa tərcümeyi-halı ilə də tanış ola bilər.

Əflatun Şükür oğlu Baxşəliyev 1953-cü ilin 26 mayında Hacıqabul rayonunun Atbulaq kəndində anadan olmuşdur. 1973-cü ildə Bakıda orta məktəbi, 1978-ci ildə fərqlənmə diplomu ilə ADU-nun filologiya fakültəsini bitirmişdir. 1983-cü ildə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olmuş, 1988-ci ildə dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Əflatun bədii yaradıcılığa lap kiçik yaşlarında başlamış, 7-ci sinifdə oxuyarkən ilk şeirlərini mətbuatda dərc etdirmişdir. O vaxtdan başlayaraq «Ədəbiyyat qəzeti», «Bakı», «Azərbaycan gəncləri» qəzetlərində, «Ulduz», «Azərbaycan» jurnallarında ardıcıl çap olunmuşdur. «Könlüm gözəllik əsiri», «Sevda qanadlarında», «Qeyrətli oğullar», «Ürəyimin səsi», «Vətən oğlu, el qeyrəti», «Hər insan bir dünyadır», «Tələs yanıma» və s. şeir kitablarının müəllifidir. Ali məktəbi bitirdikdən sonra uzun müddət Atbulaq kənd orta məktəbində ana dili və ədəbiyyatın tədrisi ilə məşğul olmuşdur. Hazırda Nizami adına Ədəbiyyat İnstitutunun elmi işçisidir.

Ömrünün bahar çağında – 50 yaşın işığındadır.

Dünyanı gözü ilə görən adamlardan daha aydın görən şairə təşəkkür edir, uzun ömür və ürəkləri dilə gətirən yeni şeirlər arzulayırıq.

09.05.2004

BİR HƏYAT ROMANINDA BİR NEÇƏ ROMAN
və ya
Hidayətin «Burdan min atlı keçdi» əsəri barədə düşüncələrim

Görkəmli siyasi xadimlər, materialist və idealist filosoflar çox rəngarəng ideoloji baxışlar, bəşər həyatını istiqamətləndirən konsepsiyalar hazırlamış, dünyaya göz açdığı gündən insana müxtəlif davranış normaları aşılamışlar. Bu cür ideya və görüşlər bəzən in-

sanı ümidsiz köləyə çevirmiş, bu dünyadan küsdürmüş, bəzən də onu vaxtı yetişməmiş arzular, amallar uğrunda mübarizəyə sürükləmiş, həyatını yarıda qoymuşdur. Lakin bütün bunlardan fərqli olaraq, bir qısa insan ömrünü sərbəst düşüncə ilə, təbiətə və insana aydın nəzərlə yaşayanlar da olmuşdur. Bələləri heç bir qəlibə sığmamış, həyatı olduğu kimi duymuş və ömürləri bəşəri əməlləri ilə uzanmışdır.

Görkəmli yazıçı və publisist Hidayət bu sonunculardan olub, həyata ayıq gözlə baxan sənətkarlardandır. Onun «Burdan min atlı keçdi» kitabı (Bakı, Azərbaycan Milli Ensiklopediyası Nəşriyyat-Poliqrafiya Birliyi, 2004; redaktoru Səfalı Nəzərli) yüksək bədii düşüncənin məhsulu olub, böyük bir dövrün mənzərəsini əks etdirir.

Yazıçı əsərin meydana çıxma səbəblərini aşağıdakı kimi izah etmişdir: «Orada yaşadığım illəri vərəqlədikcə, gənclik çağlarında əməkdaşı olduğum «Sovet Ermənistanı» qəzetinin, on altı il fasiləsiz direktoru işlədiyim C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının kollektivləri, rəhbərlik etdiyim Respublika Yazıçılar İttifaqı Azərbaycan Şurasının üzvləri keçdi ürəyimdən. Mühazirələr oxuduğum Pedaqoji İnstitutun filologiya fakültəsinin müəllimləri, tələbələri, müxtəlif sənət sahibləri – ziyalılar, partiya-sovet işçiləri, qələm dostlarım onlara qoşuldular, hərə öz atını minib getdi və o kainatda elə portretlər, elə cizgilər gördüm ki… onlar yalnız mənim xəyalımda, yaddaşımda yaşamalı deyil, oxucu yaddaşına köçürülməlidir».

Əsər 1986-cı ildə qələmə alınmış, bir parçası ilk dəfə dövlət nəzarəti süzgəcindən keçirilərək «Ədəbiyyat və incəsənət» qəzetində dərc edilmişdir. Bütövlükdə ciddi senzura (qlavlit) qayçılamaları ilə «Azərbaycan» jurnalında çap olunmuşdur.(1988, № 1) Müəllif əsəri nisbətən tam şəkildə yenə bəzi senzura əngəllərinə baxmayaraq, 1989-cu ildə çap olunmuş «Sabaha çox var» kitabına daxil etmişdir. O vaxtdan keçən müddət ərzində çox sular durulmuş, çox xatirələr yenidən baş qaldırmışdır, ona görə də müəllif bu mövzuya yenidən qayıtmalı olmuşdur: «Burdan min atlı keçdi»yə yenidən qayıtmaqda və onu tamamlayıb çap etməkdə əsas məqsədim tariximizin son yarım əsrinin ictimai-siyasi mənzərəsini, milli-mənəvi dəyərlərimizi, yaşadığımız prosesləri o dövrü gör-

məyən nəsillərə olduğu kimi çatdırmaqdır». Əsərin hər bir çapı «beynəlmiləlçilik» və «qardaş ölkənin xətrinə dəyər» mülahizələri ilə doğranıb-tökülən sözlərə, ifadələrə, cümlələrə baxmayaraq, Qərbi Azərbaycan əhalisinin o yerlərin qədim sakinləri olduğunun və o yerlərə ermənilərin çox sonralar gəldiyinin bir daha təsdiqi baxımından tarix üçün maraqlı faktlar verir.

Kitab Hidayətin ömür kitabı olsa da, tək bir insanın deyil, bütöv bir xalqın, böyük bir elin ömür kitabıdır – sözün həm həqiqi, həm də məcazi mənasında. Maraqlı bir üslubda qurulmuşdur. Yazıçı təbiəti, insanları sevdiyi körpəlik günlərindən başlayaraq, ömür yolunun böyük bir hissəsini – 38 ilini səbr və təmkinlə vərəqləmişdir. Oxucunu taleyin onu apardığı yolun təfsilatı ilə ustalıqla tanış edə bilmişdir. Böyük Vətən müharibəsi dövründən əsrin son on ilinə qədərki ictimai-siyasi, mədəni hadisələri, qədim oğuz yurdunda azərbaycanlıların zəhmət və yüksəlişini, mübarizə və məşəqqətlərini böyük zəhmətlə, sənədli bədii publisistik bir dildə qələmə almış, zəmanənin «boşalması» ilə milli münasibətlərin tədricən necə gərginləşdiyi, qərbi azərbaycanlıların dəyanəti barədə ətraflı məlumat vermişdir.

Kitab 23 oçerkdən ibarətdir. Bu oçerklərin əsasını Hidayətin tədricən çözələnən keşməkeşli həyat yolu, bilavasitə şahidi olduğu, gördüyü, duyduğu, yaxın adamlarla ünsiyyətdə öyrəndiyi hadisələr və yazıçının həmin hadisələrə emosional-poetik münasibətini əks etdirən vaxtında qələmə alınmış poeziya nümunələr təşkil edir.

Kitabın mühüm keyfiyyətlərindən biri səmimiyyətdir. Hər bir detalda hiss olunan səmimiyyət! İnanırsan ki, yazıçı heç bir şey artırmır, heç nə əlavə etmir, keçilmiş yolu olduğu kimi əks etdirməyə çalışır. Qüsurları da, uğurları da. Bu, yazıçı sənətinin ən uğurlu cəhətidir. Yazıçı inandırırsa, xoşbəxt və gələcəkli yazıçıdır.

Hidayət həyat hadisələrinə münasibətdə tam müstəqildir. Öz sözünü SSRİ-nin dağılmağa başladığı gündən keçən müddət ərzində baş alıb gedən haqlı-haqsız yazıların heç birinə uymadan deyir və hiss edirsən ki, bütün hallarda təmiz, pak yazıçı vicdanına əsaslanır. Bu, o deməkdir ki, yazıçı dünyanı düzgün görür, hadisələrin qaynar qazanının istisindən cuşa gələnlər kimi haqqı tapdalamır, dünyaya geniş gözlə baxır, hadisələrin gələcəyini nə-

zərə alır, gələcək nəsillərə həqiqəti çatdırmağa çalışır. Bu, sənətdir, poeziyadır, yaşamaq haqqı olan ədəbiyyatdır.

Əsərin süjeti az qala «Yevgeni Onegin»in süjetinə bənzəyir. Onegin tozlu poçt yolunu çapıb-keçərək ölüm ayağında olan xəstə əmisinə çatmağa çalışdığı və orada onu nələrin gözlədiyini düşündüyü zaman bütün həyatı çözələndiyi kimi, «Burdan min atlı keçdi» əsəri də «Sovet Ermənistanı» qəzetinin əməkdaşlıq üçün Hidayəti İrəvana dəvət etməsi və qatarla yol gedərkən çözələnən həyatı üzərində qurulmuşdur.

Bu yollarda nələr düşünür yazıçı! Meğri (müəllif bu sözü hər yerdə əhalinin dediyi kimi «Mığrı» şəklində işlətmişdir) yollarını keçərkən, heç şübhəsiz, çox gənc yazıçını ananı baladan ayıran kimi, Meğrinin Azərbaycan torpaqlarından zorla qoparılıb ermənilərə verilməsi ağrıdır: «Mığrını amansızcasına öz doğma anasından ayırıb Ermənistana verdilər, süni koridor yaratdılar ki, qonşu respublika İrana çıxsın və Azərbaycanı Azərbaycandan ayırsın (əslində, orda da Azərbaycana çıxır)…» Bunlar 22 yaşlı gəncin qəhərli və qəzəbli düşüncələridir. Koridor yaratmaqla, Naxçıvanla Azərbaycanın arasına girməklə gələcək Naxçıvan iddiaları üçün də şərait yaranmış olurdu. O Naxçıvan ki, yazıçı onu məhəbbətlə təsvir edir: «Naxçıvan özü torpaqdan yüksəkdədir, dağların tən ortasındadır; həm günəşə yaxındır, həm də torpağa. Ona görə torpağı belə bərəkətlidir, ona görə günəşi belə hərarətlidir».

Qatar İrəvana yol gedir. Müəllifin şirin və bir çox hallarda nəticə etibarilə kədərli hekayəti isə yavaş-yavaş Meğri torpaqlarına, doğma Maralzəmi kəndinə, uşaqlıq illərinə yönəlir. Bu yazılardan Meğri kəndlərinin başına gələnlər, onların dəfələrlə dağıdılması, əhalisinin qırılması, didərgin salınması, bir sıra kəndlərin zorla erməni kəndlərinə birləşdirilməsi barədə tarixçilərin, statistlərin əsərlərindən daha çox məlumat almaq mümkündür.

Yol boyu Meğrinin keçmişi vərəqlənir, 1918–1920-ci illərin qanlı hadisələri xatırlanır. Andranikin dəstəsi 1918–1920-ci illərdə Zəngəzura hücum edərkən Meğrinin də neçə kəndini dağıtmışdı. Qalan kəndlərin bir çoxunun adları dəyişdirilmişdir. Odur ki yazıçını Meğri toponimləri, onların öyrənilməsinin vacibliyi, bu sahədə ilkin araşdırmalar müəllifi Həmzə Vəli Nüvədilinin xidmətləri düşündürür. Həmzə müəllimin Prometeyin Zəngəzurun

Qapıcıq dağında zəncirlənməsi, Bəzz qalasının yeri, Babəkin baş sərkərdəsi Müaviyə, anası Bəhrumində və arvadı İbnət-əl Kələntəriyyənin qəbirləri barədə tapıntıları (Astazur kəndi yaxınlığında Baba Hacı məqbərəsi) ağlabatan sayılır. Bütün tarixi faktlar və detallar Babəki bu yerlərdə nişan verir. Buğakar ziyarətgahı, Sultan Əhməd çeşməsi və Meğrinin digər ziyarətgahları, abidələri bu yerlərə mənhus erməni ayağının çox sonralar dəydiyini göstərir.

Yazıçı bəzən keçmişin anaxronik hadisələrinə Mirzə Cəlil üslubu ilə gülmüşdür. Ardıcıl oçerklərdən biri Mirzə Cəlilin «Xatiratım» əsərindən götürülmüş sözlərlə başlayır və müəllif daha çox «gözlərimi açanda dünyanı qaranlıq görmüşəm» sözlərinə söykənir. Doğrudur, Sovet dövründə 20–30 ilin ərzində keçmiş çar Rusiyası ərazisində və ucqarlarda maarif, məktəb xeyli inkişaf etmişdi, amma müharibə hər şeyi həll etməyə imkan verməmişdi. 1953-cü il olmasına baxmayaraq, hələ də yazıçının doğma kəndi olan balaca Maralzəmidə birinci sinif yoxdur. Yalnız dördüncü sinfə keçə bilməyənlərin bir qismini birinci sinfə qaytarmaqla sinif açılır. Bu vəziyyət Mirzə Cəlil kinayəsinə layiqdir və bu cür halların təsvirindən sonra yazıçının «Allah sənə rəhmət eləsin, Mirzə Cəlil!» deməyə haqqı vardır.

Yazıçı Stalin dövrünü təmizlik, saflıq, qayğıkeşlik, zəhmət dünyası kimi qiymətləndirir və onun ölümü ilə bağlı insanların necə kədərləndiklərini qeyd edərək yazır: «Stalini isə… Tanımayan demirəm, sevməyən tapmaq mümkün deyildi. İnsanların nəzərində o, ulduz (yox, ulduzdan, aydan da böyük planetlər var), Günəş idi! Ona görə insanlar ağlayırdılar: kiməsə göstərmək üçün ağlamırdılar, ürəkdən ağlayırdılar». Bu sözlər reallığı əks etdirir. Bu, inamdır. Bu, rəhbərin əməli ilə dediyinin birliyinə inamdan doğan bir məhəbbətdir. İnsan haqq, ədalət, qanun sevməyə meyillidir. İllah da Hidayət kimi insanlar. Xalqın ürəyində olan məhəbbəti güclə, zorla çıxarmaq olmaz. Aldərə camaatı kimi: «Kolxoz sədri, Sovetlər Birliyinin yüksək mükafatlarını almış Cəmşid Həsənov kənddə və bütün rayonda nüfuz sahibiydi. Onun və həmkəndlilərinin özgürlüklərinin biri də buydu ki, bütün Ermənistanda (və təkcə Ermənistanda yox!), müstəsna hal kimi, Stalinin heykəlini yıxmağa qoymamışdılar, saxlamışdılar, ətrafını abadlaşdırmışdılar, dörd yanında gül-çiçək əkmişdilər. Bu heykəl 1988-ci ilin

sonlarınacan – aldərəlilərin üçüncü deportasiyasınacan qorunub saxlandı…» Stalinə qarşı ermənilərin küdurətinin bir səbəbi də, müəllifin yazdığı kimi, 1923-cü ildə Qarabağ məsələsi həll olunarkən onun bitərəf qalması idi, «Stalin olmasa idi, Mikoyan rəhbər ola bilərdi» və Stalin Bağırovla həqiqətən səmimi idi. Heykəli yıxmaq üçün sürücülərə «kommunist tapşırığı veriləndə» onlar partbiletlərini qoyublar, amma heykələ yaxın getməyiblər. Bütün bunlar pozulmaz tarixdir.

Müəllif keçmiş quruluşun elmin inkişafına, təhsilə, təhsil ocaqlarına, kitabxanalara diqqətini xüsusi qiymətləndirərək yazır: «25 – 30 evlik Maralzəminin kitabxanasında «Dədə Qorqud» da vardı, Nizami də vardı, Füzuli də, Nəsimi də, Mirzə Cəlil də, Sabir də, Səməd Vurğun da, Rəsul Rza da, Şekspir də, Balzak da, Drayzer də, Puşkin də, Turgenev də… «SSRİ xalqları ədəbiyyatı» deyilən nəhəng coğrafi məkanı ehtiva edən ənginlikdə yaranmış «formaca milli, məzmunca sosialist» əsərlərin dilimizə çevrilmələri (onu da deyim ki, istər klassik ədəbiyyatdan olsun, istər çağdaş, az-çox adlı-sanlı çətin bir əsər tapılsın ki, dilimizə çevrilməmiş olsun), üstünə gəlsək, necə zəngin kitabxananın içində olduğumuz aydınlaşar… Dörd il sərasər gedib gəldiyim, IV–VII sinifləri oxuduğum və bizim kənddən üç-dörd dəfə böyük olan qonşu Lök kəndinin kitabxanasının və ya VIII – X sinifləri oxuduğum, bizim kənddən on dəfə böyük olan Aldərə kəndinin kitabxanası arasında heç bir fərq yox idi». İndi həmin kitabxanaların və kitab mağazalarının çoxunu marketlərə çeviriblər. Halbuki «Elə müqəddəs kitablarımız var ki, («Dədə Qorqud», «Xəmsə», Füzulinin «Leyli və Məcnun» poeması…), bunlar qızlarımıza qoşa yastıq kimi cehiz verilməlidir».

O quruluşun yüksək keyfiyyətlərini yazıçı obyektiv şəkildə qiymətləndirmişdir: «Sosializmin hər sahədə gerçəkliyinə layiq olduğu düzgün qiyməti vermək lazımdır və o cəmiyyətin təhsil, mədəniyyət, elm sahələrində elə sistemləri, modelləri var ki, onlardan indinin özündə də imtina edilməli deyil". «Necə eləyirdilərsə, qəzetlər çıxandan uzaqbaşı bir gün sonra gəlib çatırdı» deyən yazıçı ucqar kəndlərə mətbuatın vaxtında çatdırılması vəziyyətini qeyd edir. Çox doğrudur ki, «Kitab oxumaqda bu günlə səksəninci illəri müqayisə eləyəndə öyünməli motiv tapmaq çətindir», çünki in-

sanların yaşayış qayğıları az idi, çünki indi «Elə bağçalarımız var – kitabxanası yoxdur, elə məktəblərimiz var – kitabxanası dərsliklərin anbarına çevrilmişdir».

Tərəqqini, inkişafı danmaq olmaz: «İnsan əli, insan ağlı, düşüncəsi, insan qətiyyəti bir kənddə nələri yaratmağa qadirsə, Aldərədə yaratmışdı». «Azərbaycan maarifi, mədəniyyəti yüksək səviyyədəydi. Daim inkişafdaydı».

Dövrün insanları da ülvi istək və arzularla yaşayırdılar. Aslan Məmmədov, Abdulla Əhmədov, Şıxəli Bağırov, Manaf Babayev, Salman Bağırov, Tahir Səfərov… «hamısını bir şey birləşdirirdi – zəhmətsevərlik, düzlük və mənəvi təmizlik».

Yazıçı gənclik duyğuları ilə zəmanə insanlarını bu cür gözəl görür:

İnsanlar – zəhmətkeş, əliqabarlı və məğrur.
Yüz ölçüb, bir biçərdilər.
Nahaq sözü götürməzdilər.
Yalan yox idi.
İnsan ləyaqəti hər şeydən ucaydı.

Bu da bolşeviklər dövrünün məktəbi, – müəllifin də daxil olduğu bizim nəslə dərs deyən müəllimlər: «Aradan ötən qırx ildə inanmışam, bu gün də inanıram – bu insanların hamısı çalışırdı ki, şagirdlər yaxşı təhsil alsınlar, layiqli insanlar olsunlar».

Yazıçının keçmiş cəmiyyətə bu cür baxışı onun mənən müstəqilliyinin nəticəsidir və şəxsən məndə böyük rəğbət doğurur.

Dünya niyə yaxşılığa getmir? Niyə az vaxtda insanlar bu qədər dəyişdi? Bu əkslik qırıq-sökük kapitalizmin gətirdikləridir. Bunu məktəb də düzəldə bilməz. Bir qədər sonra yazıçı özü də deyir: «Təbiət haramı qəbul etmir. Tanrı haqqı qoruyur». Əslində, belədir. Am ma çox çəkir.

Əsərdə əsas məzmunu obyektiv olan belə cümlələr işlənmişdir: «Bolşeviklər hakimiyyəti zəbt etdikdən sonra ucqarlara da elektrik işığı gətirmişdilər, yollar çəkmişdilər, ən kiçik kəndlərdə də məktəblər açmışdılar. İkinci Dünya müharibəsinin törətdiyi saysız-hesabsız problemlər diktator rejimində sürətlə həll olunurdu. Rəhbərə böyük məhəbbət, böyük inam vardı…» (25) Bunlar hamısı dövrün həqiqətləridir.

Yazıçı o dövrün mənzərəsini böyük insafla, saf və təmiz duyğu ilə, həqiqətə uyğun şəkildə təsvir etmişdir. Fikrimizcə, filosof və sosioloqlar yazıçının bədii-publisistik yolla dediyi aşağıdakı fikrin həqiqət olduğuna şübhə etməzlər: «Kommunist rəhbərlər şəxsi mənafelərini qabartdıqca, iyirmi-qırxıncı illərdə repressiya olunanlar, günahlı və günahsız dustaqların, demək olar ki, hamısı günahsızlar kimi bəraət alıb, müxtəlif vəzifələrdə çalışaraq, ölənləri əsaslı-əsassız tənqid, hətta təhqir etdikcə və sağ qalanlardan qisaslarını aldıqca cəmiyyət mənəvi baxımdan eybəcərləşirdi və bu gün hərdən rişxəndlə, acı-acı xatırlanan köhnə «bolşeviklər» nəslinin imici, nüfuzu artırdı». Aşağıdakı sətirlərdə isə keçmiş cəmiyyət, həqiqətən, gözəl analiz edilmişdir: «Əllinci illərin sonlarından başlayaraq kommunist rəhbərlərin yaşayışının sadə adamlardan ciddi şəkildə fərqlənməyə başlaması və bu fərqlərin sürətlə artması həmin illərin rəhbər kommunistlərinə nisbətən, bolşeviklərin imicini artırdı və o vaxt kimsənin ağlına gəlmirdi ki, mövcud quruluş dağılacaq, əksinə, hamı düşünürdü ki, kommunistlər axır ki, «bolşevikləşəçəklər» və məmləkətdə «haqq-ədalət bərqərar olacaq». Bundan aydın düşüncə ola bilməz. Amma bu cür düşüncə hamıya deyil, hər şeydən əvvəl, haqq-ədalət, qayda-qanun tərəfdarı olan adamlara aiddir. Əsərdə adi bir teatr direktorunun kiçik bir çətinlik ucbatından M.C.Bağırovla əlaqəyə girmək istəməsindən və onun buna dərhal nail olmasından bir fakt kimi danışılır. Aşağıların yuxarılarla bu cür intensiv əlaqə saxlaya bilməsi və çətinliklərin vaxtında həlli ictimai inkişafın sürətini təmin edən əsas amillərdən olmuşdur.

Yazıçı bizim cəmiyyətin mühüm bəlalarından birini də diqqətlə müşahidə etmişdir: «…təzələr – köhnələr arasında qisasçılıq baş alıb gedir, təzə rəhbər keçmiş rəhbəri tamamilə inkar edir, şəxsi qisasların zərbəsi bütün cəmiyyətə dəyirdi». Bu vəziyyət yalnız böyük vəzifələrə deyil, lap kiçik və ortabab vəzifələrə də aid olmuşdur. Düz deyilir: sonrakı mərhələdə «Yalan – ictimai-siyasi həyatda «əxlaq normasına» çevrildi».

Mövcud ictimai quruluşa sosial-fəlsəfi münasibətini aşkarlaya-aşkarlaya təhkiyəni davam etdirən yazıçı tədricən orta və ali məktəb illərini vərəqləyir. Ali məktəbdə Şəfaət Mehdiyev kimi yüksək adamlarla ünsiyyətini, təhsilini başa vurub, oxuduğu dördsinifli ibtidai məktəbə müdir təyin olunduğunu, gənc bir

mütəxəssis kimi məhəbbətlə işə başladığını öyrənirik, zəhmət və istedadla böyüyən gəncin daxili aləmi ilə yaxından tanış oluruq.

Təəssüf doğurur ki, yazıçının uşaqlıq və ilk gənclik düşüncələri barədə yazıları, sənədləri, xatirə dəftərləri erməni dustağı olub: «Uşaqlıq illərimin dəftərçələri mənim ilk kitabxanamda, Maralzəmidə qaldı. 1988-ci ilin noyabrında soydaşlarımız Mığrıdan deportasiya ediləndə uşaqlıq, gənclik illərimin «arxivini» çıxartmaq mümkün olmadı, ilk əlyazmalarım, qeydlərim, gündəliklərim, məktublar, tərifnamələr, dəyərli kitablar orada qaldı…» Uşaqlıq xatirə, düşüncə və müşahidələrini sənədli şəkildə yada salmaq üçün bunlar çox maraqlı olardı. Lakin insanın hətta bir günlük düşüncələrini də tam şəkildə qələmə almaq qeyri-mümkündür. Ola ki, bir uşaqlıq ömrü ola.

Ola bilməzdi ki, Meğridən olasan, Maralzəmi, Lök, Aldərə kəndlərinin gözəl təbiətində dünyaya göz açasan, bu yerlərin bal qoxulu havasında böyüyəsən, belə bir əsərdə bu yerlərdən danışmayasan. Kitabın bir bölməsi «Mığrı» adlanır. Yazıçı bir tədqiqatçı kimi, bu toponimin ***Mığır*** sözündən etnotoponim kimi formalaşdığını söyləyir: «Mığrı – Azərbaycan türk tayfasının adıdır». Yazıçı araşdırmalarından aydın olur ki, ərazinin tarixi haqqında məlumat çox qədimdir. Daş dövründən əhalinin məskunlaşdığı bu yerlər haqqında V əsrdən başlayaraq dəqiq məlumatlara rast gəlmək mümkündür. Gah İran, gah ərəb asılılığında, gah da Səlcuq türklərinin tabeliyində olsa da, 664 kv.km-lik bu ərazi daim Zəngəzurun bir hissəsi kimi Azərbaycan torpağı olmuşdur.

Kitabdan Meğrinin Azərbaycan kəndləri, onların sahəsi, əhalisi, təbiəti, tarixi, abidələri, görkəmli adamları barədə ətraflı məlumat alırıq. Bənövşəpuç, Buğakar, Vahruvar, Düz Qışlaq, Aldərə (Əldərə, Əli damı), Əmrəkar (Əmrah daşı), Eynəzir, Qul, Lehvaz, Liçkvaz, Maralzəmi, Mərzə (Mərzəkit), Mülk, Tağəmir, Tuğut, Tey (Gedisallı, Əcilli), Nüvədi kəndləri… Meğrinin meşələri, dağları, bu laqları… Adlarını tam saymaq üçün gərək kitabın xeyli hissəsini bura köçürəsən. Yazıçının maraqlı müşahidələri, mülahizələri, etimoloji araşdırmaları…

Əsərdə mühüm yeri qərbi azərbaycanlıların bir əsr ərzində zülm və zorakılığa necə və neçə dəfə məruz qaldığı barədə xronoloji məlumat tutur. Kəndlərin əhalisinin inkişaf və artım sürəti,

azərbaycanlılarla ermənilərin nisbəti, XX əsrin əvvəllərindən başlayaraq kəndlərin başına gətirilən müsibətlər, xüsusən Andranikin dəstələri tərəfindən 1918–1920-ci illərdə kəndlərin vəhşicəsinə dağıdılması, yandırılması, əhalinin qırılması, didərgin salınması, sovet dövründə əhalinin az bir qisminin geri qayıda bilməsi, bir sıra kəndlərin tamamilə ləğv edilməsi, başqa kəndlərə – sonralar yaranmış erməni kəndlərinə birləşdirilməsi və birincidən az dəhşətli olmayan 1948 – 1953-cü illər repressiyası və s. haqqında tarix kitablarına daxil edilməli material vardır. Keçən iki əsrdə bu kəndlərdə azərbaycanlıların say tərkibi haqqında məlumat ermənilər tərəfindən daim saxtalaşdırılmışdır. Məsələn, Lehvaz kəndinin azərbaycanlı əhalisindən danışarkən müəllif yazır: «Kənddə 1831-ci ildə guya 15 nəfər yaşamışdır (fəqət düzgün deyildir, erməni mənbələrində bilərəkdən Lehvazda və ümumiyyətlə, Zəngəzurda azərbaycanlıların qədimdən yaşadıqlarını şübhə altında qoymaq üçün rəqəmlər qəsdən kiçildilibdir)».

Bu yerlərin əhalisi üçüncü dəfə 1988-ci ildə öz doğma yurdlarından didərgin salındı: «…Ermənistandan azərbaycanlıları çıxarmaq strategiyası 1988-ci ilin noyabr ayında Mığrıya da çatdı…». Əhali uşaqdan böyüyə bir nəfər kimi qədim yurdlarından çıxarıldı. 200 mindən artıq əhali didərginə, qaçqına, köçkünə çevrildi. Yazıçının qeyd etdiyi kimi, bu mübarizədə yalnız Nüvədi əhalisi xeyli müddət duruş gətirə bildi.

Nüvədililər iki il doqquz aydan artıq tək vuruşmuşlar. Azərbaycan xalqına, Azərbaycan hökumətinə dar ayaqda müraciətləri də onlara kömək etməmişdir. Əhalinin öz yurdundan qovulmasında, Nüvədinin işğalında rusların «əməyi» xüsusi nəzərə çarpırdı. Müəllif bu kəndin təsərrüfatı, mübariz əhalisi, elm adamları barədə ürək dolusu danışır, onların mədəni yüksəlişini məmnunluq hissi ilə xatırlayır: «Nüvədililərdən 5 nəfər elmlər doktoru, o cümlədən bir nəfər Azərbaycan MEA-nın həqiqi üzvü və bir nəfər müxbir üzvü, 40 nəfərdən çox elmlər namizədi, yüzlərlə ali təhsilli mütəxəssis yetişmişdir». Bu yüksəkliyi düşmən əlində olan öz doğma kəndimlə – Soltanlı ilə müqayisə edə bilirəm. Meğri şivələrinin indi mümkünsüz olan tədqiqi vaxtilə Nüvədi sakini Əhmədəli müəllim tərəfindən mümkün edilib, ona görə də Əhmədəli müəllimin xidməti əsərdə yüksək qiymətləndirilmişdir. Onun qiymətli

əsərinin redaktə və çapında az-çox əməyim olduğu üçün mən də məmnunam.

Yazıçının təsvir etdiyi hadisələr, ermənilərin dinc və günahsız əhaliyə münasibəti, bir əsrdə üç dəfə baş verən qırğınlar, isti yuvası dağıdılan insanların acı taleyi publisistik dillə, əksərən dəqiq fakt və rəqəmlərlə verilsə də, bir roman təsiri bağışlayır, əsrin faciəsi insan qəlbində təlatümlər yaradır. Azlıq təşkil edən, lakin girib-çıxmağı bacarmaqla arxasını zor dünyasına söykəyən ermənilərin mütəşəkkilliyi qarşısında bizim adamların loyallığı acı təəssürat doğurur. İşi elə qurmuşlar ki, bu qədər əhali doğma yuvasını tərk edərkən bir çöp də götürə bilməmişdir: «…rayonun rəhbərləri işi elə qurdular ki, 1988-ci il deportasiyasında Maralzəmidən (müəllifin öz kəndi – *Q.K.*) bir nəfər də olsun evini Azərbaycanla dəyişə bilməsin, o ikimərtəbəli, hər cür kommunikasiyaya malik gözəl evlər imkanlı ermənilərə bağ evləri kimi qalsın». Yazıçının fikrincə, bir vaxtlar Bakıdan Naxçıvana çəkilən hərbi təyinatlı, strateji yol yarıda qalmasa idi, indi Meğridə, bəlkə, heç erməni yox idi.

Bu köçəköçdə Nüvədi sakini şair və tədqiqatçı Həmzə Vəli Nüvədilinin də gücü Qarqadaşı (Qarqar daşı) dağından tapdığı 8 bölük qədim Orxon yazılı daşın birini yüklənib gətirməyə çatmışdır. Lakin böyük həvəslə gətirdiyi bu daşı, onun üzərindəki yazıları oxumaq üçün hansı elmi idarəyə müraciət etmişsə, baxmamışlar, kişini lağa qoymuşlar. O vaxt Həmzə müəllimə biz kömək etdik, məruzəsini dinlədik, daşı təmizləyib yazıların şəkillərini çıxartdırdıq, ikinci sətiri oxumaqda Həmzə kişiyə kömək etdik, ön sözlə – təqdimatla birlikdə «İki sahil» qəzetində böyük yazısını dərc etdirdik, dövlət televiziyası ilə yarım saatlıq verilişini təşkil etdik. Şəxsən bizi sevindirirdi: uzaq Sibir çöllərindən Avropaya qədər hər yerdə tapılan bu cür yazılar Azərbaycanda sanki yoxa çıxmışdı. Amma tapıldı və bu, nüvədililərin xidməti ilə baş verdi.

Yazıçı onu da qeyd etməyi unutmamışdır ki, yiyəsizlik ucbatından 1929-cu ildən ermənilərin öz hasarlarına saldıqları üç kənd – Nüvədi, Ernəzir və Tuğut kəndləri 40 ilə qədər qeyri-rəsmi şəkildə ermənilərinki sayılmış, yalnız 1969-cu ildə Azərbaycan SSR Ali Sovetinin mənhus fərmanı ilə «qanunlaşdırılmışdır».

İctimai faciələr günahsız sözə də nifrət yaradır. Qərbi azərbay-

canlıların ən çox mənəvi əzab çəkdikləri, səksəndikləri söz «köç» sözü olmuşdur. Bu söz ala yaylaqlara köçərkən çox nəşəli səslənir. Zorla köçürmələrdə isə ən qorxunc və ürək titrədən kəlmədir: «Köç» – 1948–1953-cü illər evimizin, kəndimizin, mahalımızın yaddaşında indi aydın təsəvvür olunan 1937-ci il repressiyasından betər anlayış idi».

Hadisələrin şərhi prosesində ümumən soyqırımın mahiyyəti, onun bir xalqa, bir etnosa deyil, bütövlükdə bəşəriyyətə qarşı çevrilmiş olduğu, Azərbaycan və Türkiyə ərazilərində ermənilərin törətdiyi vəhşiliklər barədə geniş tədqiqat materialına rast gəlirik.

Yazıçı tədricən bizi məktəb müdirliyindən sonrakı iş yeri – «Sovet Ermənistanı» qəzeti və onun əməkdaşları ilə tanış edir: Suren Şərifov, Sabir Əsədov, İsrafil Məmmədov, Hüseyn Nəcəfov, Tofiq Məmmədov, Rza Əsgərov… Bu qəzet bizim də əlimizdən tutub. Bir vaxtlar Azərbaycanda qəzet az olanda, sıxlıq olanda bizim də xeyli yazımız bu qəzetdə dərc olunub. Yazıçı burada erkən fəaliyyətə başlayıb – 22 yaşlarında.

Adları qeyd olunanlar qatı millətçi erməni mühitində öz soydaşlarının mənafeyi uğrunda mübarizə aparan ziyalılardır. Gənc jurnalist bunlardan çox şey öyrənmişdir. Lakin təəssüf ki, bunların arasında adı azərbaycanlı olub, ruhən erməni olanlar da vardı: «Suren Şərifov – redaktor müavini. O illərdə geniş tanınan ədəbiyyatçı, Moskva Dövlət Universitetinin professoru Əziz Şərifin qardaşı oğluydu. Anası da ermənidi, arvadı da. Pasportunda «azərbaycanlı» yazılsa da, ruhən özü də ermənidi, ailəsi də». Yazıçı bunu bir fakt kimi qeyd edir. Mövcud şəraiti düzgün mənalandırmaq üçün tutarlı faktdır. Qəzetin Əkbər Rzayev, Rəhim Allahverdiyev, Cəfər Vəlibəyov kimi vətənsevər redaktorları olub. Redaksiyada işləmək gənc yazıçıya çox şey verib – onun görüş dairəsini genişləndirib, ictimai-siyasi hadisələrə baxışını formalaşdırıb, qələmini itiləyib. Yazıçı özü də hər bir jurnalist, hər bir yazıçı üçün belə bir təcrübənin vacib olduğunu söyləmişdir: «İstedadından, adından-sanından asılı olmayaraq, yazıçı gərək ömrünün heç olmasa iki-üç ilini mətbuatda işləyə».

Hidayət özü dediyi bu ikiillik təcrübəni iki il ərzində keçdikdən sonra onu gənc kadr, partiyanın gənc əsgəri kimi 28 aprel 1967-ci ildən ikinci ömrünü yaşamağa başlayan C.Cabbarlı adına İrəvan

Dövlət Azərbaycan Dram Teatrına direktor təyin edirlər (1968-ci ilin 25 iyulunda) və onun bundan sonrakı 16 illik İrəvan həyatı bu teatrla bağlanmış olur. Qeydlərdən aydın olur ki, intriqalar içərisində itib-gedən, başsızlıqdan, yiyəsizlikdən kollektivi dağılmış olan bu teatrı gənc direktor təcrübəli insanların köməyi ilə, çətinliklə də olsa, ayağa qaldıra bilir. Teatrın direktoru kimi rejissor işini də görməli olur. İlk tamaşaları (Ş.Qurbanov, «Sənsiz») istənilən uğuru qazanmasa da, teatr tədricən camaatın rəğbətini qazanır, sevilir və fəaliyyətini yüksəldir, genişləndirir.

O illərdə əlaqələr geniş imiş. Azərbaycanın, demək olar ki, əksər yazıçı və şairləri, əksər bəstəkarları, əksər alimləri İrəvana getmiş, azərbaycanlılarla görüşmüş, onlara mənəvi dayaq olmuşlar. Bunların – bu adamların qarşılanmasında, görüşlərin təşkilində, mədəni əlaqələrin qurulmasında Hidayətin böyük rolu olmuşdur. Vaxtilə Məmməd Aslanın qələmə aldığı bir yazıda deyilir: «Hidayətin İrəvanda keçən ömrü min bir yerə bölünmüş ömürdü. Onun hər parçasında bütövlükdə bir şair ürəyi çırpınırdı. Ermənistanın müxtəlif künc-bucağına səpələnmiş doğmalarının dərdi Hidayəti beləcə cümlə-qayğıya çevirmişdi. Ona görə də cavan yaşında və az müddətdə ağsaqqallıq səlahiyyəti qazana bilmişdi». Ekstremist erməni mühitində çox gənc ikən bu cür ağsaqqallıq qazanmaq, eli öz arxasınca apara bilmək xüsusi qabiliyyət tələb edirdi.

Teatr Azərbaycan və dünya ədəbiyyatının ən gözəl incilərinin tamaşası ilə fəaliyyətə başlamışdı. Hər il dörd tamaşa qoymalı olmuşlar (iki Azərbaycan, bir erməni əsəri, bir xarici əsər). Bir neçə ilin ərzində teatr böyük uğurlar qazanaraq öz repertuarında 27 əsər cəmləşdirmişdir. Kitabdan həmin tamaşalar və onların uğurları aktyor sənətinin inkişafı barədə geniş məlumat almaq mümkündür.

1928-ci ildən fəaliyyət göstərən, 1935-ci ildən C.Cabbarlının adını daşıyan İrəvan Dövlət Azərbaycan Dram Teatrının bu çarpışmalar gedişində 1978-ci ildə 50 yaşı tamam olurdu. Yazıçı bu fürsətdən istifadə edərək teatrın keçdiyi 50 illik inkişaf yolunu ətraflı tədqiq etmişdir. Teatrın üç böyük aktyoru – Məmmədbağır Qaraxanov, Abasqulu Tağıyev və Cəmil Əliyevə xüsusi oçerklər həsr etmişdir. Bakı, Tiflis, Dağıstan, Naxçıvan qastrolları geniş

təhlil olunmuşdur. Teatrın yüksəliş yolu, uğurları, aktyorlara verilən fəxri adlar, görkəmli Azərbaycan aktyorlarının teatra münasibəti əsərdə dəqiq sənədlər və faktlarla şərh olunmuşdur.

Görkəmli sənətşünas alim Sabir Rzayevlə Hidayətin geniş dialoqu yazıçının teatr sənətinin sirlərinə necə dərindən yiyələnmiş olduğunu göstərməklə yanaşı, dövrün teatr tənqidini də ifşa edir – əksərən tərifdən ibarət olan və əsaslı təhlil müşahidə edilməyən tənqid. S.Rzayev 60–70-ci illərdə Ermənistan teatrşünaslığının ən görkəmli, ən nüfuzlu nümayəndəsi olmuşdur. «Onun sətirlərində neçə-neçə teatr və kinostudiyanın, neçə-neçə aktyor və rejissor nəslinin, unudulmaz tamaşaların və filmlərin əks-sədası həmişə yaşayacaq».

Hidayət teatr və jurnalistika işlərində, təbii ki, Azərbaycan mühiti ilə əlaqə saxlamış, Azərbaycan sənət adamları ilə məsləhətləşmişdir. Yazıçının əlaqələrinin genişliyi diqqəti cəlb edir. SSRİ xalq artisti, Lenin mükafatı laureatı, üç dəfə SSRİ Dövlət mükafatı laureatı, Gürcüstan mədəniyyət naziri Otar Vasilyeviç Taktakişvili ilə, Gürcüstan Dövlət mükafatı laureatı, tanınmış şair İmir Məmmədli ilə, Azərbaycan Mədəniyyət Naziri Zakir Bağırovla dostluq əlaqələri, gürcü – Azərbaycan dostluğu və qarşılıqlı tərcümə məsələləri oxucuda xoş təəssürat yaradır. «Gürcüstana bir çox nəğmələr yazmışam… Gürcüstan şairlərinin əsərlərini həvəslə və ehtiramla vərəqləmişəm. Bu kitablar arasında Aleko Şengeliya, Fridon Xalvaşi, Moris Poçxişvili, Qabriel Cabuşanuri kimi tanınmış müəlliflərin də əsərləri var. …Bunların hamısını birləşdirən qırılmaz bir tel var – Gürcüstan torpağı, Gürcüstan çayları, Gürcüstan səması və bir də bu səma altında yaşayan insanlar!» Yazıçının Gürcüstan Yazıçılar İttifaqının sədri Tamaz Çivçivadzeyə, yazıçı Cansuq Çarkvianmiyə dost məktubları vardır. Bu yazılarda xalqlarımız arasındakı həqiqi dostluğun tərənnümü ilə yanaşı, gürcü familiyası daşıyan ermənilərin naxələfliyi də ifşa olunur.

Yazıçı 70-ci illərdə öz imkanlarından istifadə edərək Azərbaycan ədəbiyyatının, Azərbaycan mədəniyyətinin Ermənistanda yayılmasında böyük iş görüb: «Yetmişinci illərdə Nəsiminin, Aşıq Ələsgərin, Səməd Vurğunun, Məşədi Əzizbəyovun… yubileylərinin yüksək səviyyədə qeyd olunmasının təşəbbüskarı olmuşam.

Səylərimlə Nəsiminin, Səməd Vurğunun, İsa Hüseynovun, Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin və bir çox başqa yazıçılarımızın erməni dilində kitabları çıxıb, onlarca Azərbaycan müəllifinin əsərləri erməni mətbuatında çap olunub». (330)

* * *

Əsərin sonrakı səhifələrində Meğrinin gözəl təbiəti ilə, Qərbi Azərbaycanın bizim çoxumuzun bilmədiyimiz, tanımadığımız, təsəvvür etmədiyimiz böyük adamları, yüksək vəzifə sahibləri, hər şeydən əvvəl, erməni şovinizmi ilə döyüşən mübarizləri ilə tanış oluruq.

İlk illərdə vaxtının çoxunu teatr işinin təşkili ilə keçirən yazıçı ətraf mühitlə əlaqəni də unutmamış, dövrün görkəmli şəxsiyyətləri ilə əlaqələr yaratmışdır. Odur ki bu gün bizi qədim oğuz yurdunun görkəmli oğulları ilə ətraflı tanış edə bilmişdir. Gözümüzün önündə yeni bir səhifə açılır – qərbi azərbaycanlılar arasında nə qədər görkəmli partiya və dövlət xadimləri varmış: Rza Vəlibəyov (1903– 1974) – Ermənistan KP MK-nın üzvü, SSRİ və Ermənistan SSR Ali Sovetinin deputatı, Cəfər Vəlibəyov (1907 – 1981) – Ermənistan KP MK-nın üzvü, SSRİ və Ermənistan SSR Ali Sovetinin deputatı, Ermənistan SSR Ali Soveti Rəyasət heyəti sədrinin müavini, Əli Məmmədov (1908–1973) – Ermənistan SSR Ali Soveti Rəyasət heyəti aparatında məsul işçi, Vedi Rayon Komitəsinin birinci katibi, Zəngəzur İcraiyyə Komitəsinin sədri, Sidiqə Qədimova (1912– 1986) – SSRİ Ali Sovetinin deputatı, Ermənistan Respublikasında Azərbaycan radiosunun təşkilatçısı, Hüseyn Məmmədov (1915 – 1994) – Vedi, Zəngibasar, Ağbaba Rayon Komitələrinin birinci katibi,Tapdıq Əmiraslanov (1918–1976) – SSRİ-nin əməkdar müəllimi, Dövlət mükafatı laureatı, Əli Həsənov (1920–1977) – Respublika Ali Sovetinin sədr müavini, Ermənistan KP MK-nın üzvü, Yunis Rzayev (1923–1985) – Basarkeçər Rayon Partiya Komitəsinin birinci katibi, Ermənistan Dövlət Meşə Təsərrüfatı Komitəsinin sədr müavini, Ermənistan KP MK üzvlüyünə namizəd, SSRİ və Ermənistan SSR Ali Sovetinin deputatı, Sabir Rzayev (1924–1976) – sənətşünaslıq doktoru, əməkdar incəsənət xadimi, teatr tənqidçisi, Məhərrəm Bayramov (1928–1981) – Ermənistan SSR Rəyasət Heyətinin sədr müavini,

MK üzvü, SSRİ Ali Sovetinin deputatı… Habelə Vəli Zeynalov, Dursun Abbasov, İsmixan Məmmədov, Həsən Səfərov, Qəşəm Aslanov, Alyoşa Bayramov, Mehdi Həsənov və başqaları. Bunlardan bir neçəsi (Rza Vəlibəyov, Cəfər Vəlibəyov, Əli Məmmədov, Məhərrəm Bayramov) Ermənistan hökumət və partiya liderlərinin imzaladığı nekroloqla dəfn edilmişdir. Rza Vəlibəyov baş Fəxri Panteonda dəfn olunmuşdur. Bu adamlar partiya və sovet qulluğunda durmaqla yanaşı, ilk növbədə soydaşlarını qorumağı düşünmüşlər və bu yolda dəfələrlə toqquşmalara məruz qalmış, vəzifələri aşağı salınmış, müxtəlif bəhanələrlə vaxtından əvvəl işdən uzaqlaşdırılmış və ya başqa vəzifəyə keçirilmişlər.

Bu adamların erməni mühitində həyatları o qədər də zoş keçməyib. «Elə bil, Ermənistan türkünü imtahana çəkməkdən daim ləzzət alıb tarix, dövran». Özlərinə dost, qardaş bildikləri ermənilərin xalis şovinizmini əksərən son nəfəsdə anlamışlar. Cəfər Vəlibəyov erməni xislətini gizlədə bilməyən «dostu» H.Bağdasaryana ağır sözlər deməli olmuşdur: «Yüz ilin dostuyuq, ailələrimiz də dostdur, amma indi anladım ki, sən saxta adamsan, sən şovinistsən…» Bu adamlar erməni mühitində həqiqi kommunist kimi yaşamış, son dərəcə təmiz yaşamışlar. Hüseyn Məmmədov haqqında yazıçının dediklərini bunların hamısına aid etmək olar: «Müharibədən sonrakı illərin vətənpərvərlik və quruculuq pafosu, Kommunist Partiyasının sadiq funksionerlərini hazırlayan ali təhsil ocağının ab-havası onun prinsipial və kristal, təmiz bir şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır». Əsrlər keçəcək, adamlar həmin dövrün insanlarının təmizliyinin həsrətini çəkəcəklər. Necə biz indi çəkirik.

Yazıçının öz dayısı Əli Məmmədov haqqında dedikləri: «Bir natəmiz adamla ömürlük barışmazdı, bir də tənbəllə». «Deyərdi ki, dünyada ən gözəl yer Zəngəzur dağlarıdır, ən gözəl kənd – Maralzəmi, ən saf çeşmə – Qərbəzay…» Vətənlərini nə qədər sevərmişlər!..

«Ermənistanın Azərbaycan dünyasında tanınan və sevilən» Tapdıq Əmiraslanov SSRİ Nazirlər Sovetinin 23 dekabr 1948-ci il qərarı ilə Basarkeçər əhalisinin Kür-Araz ovalığına deyil, iqlimi Göyçəyə müəyyən qədər yaxın olan Xanlar-Şəmkir bölgəsinə köçürülməsində mühüm rol oynamışdır.

Bu böyük adamların bir çoxu erməni mühitində təzyiqlərə, didərginlik dövründə vətənsizlik dərdinə dözməmiş, vaxtından əvvəl köçmüşdür bu dünyadan. «Daha bir qurban» başlıqlı yazıda müəllif qanun keşiyində mərdliklə dayanan Həsən Səfərov haqqında yazır: «Onun öz yaşam fəlsəfəsi, öz həyat yolu, öz əməlləri və əqidəsi yaşanmış, etiraf olunmuş bir qəhrəmanlıqdır, uydurma və qondarma, şişirdilmiş və üfürülmüş deyil, gerçək qəhrəmanlıq!» 1983-cü ildə özünə və soydaşlarına qarşı aparılan təqiblərə dözməyərək həyatla vidalaşmışdır. «Daim suallar ümmanında çırpınan» Alyoşa Bayramov da həmçinin. Aşıq Ələsgərin qardaşı Məşədi Salahın nəvəsi İsmixan Məmmədov «…İsmixan Didərgin ləqəbiylə şeirlər yazdı, yazdı… Lakin ürəyi dözmədi belə məşəqqətə, Bayanda (Daşkəsən rayonu) dəfn olundu və Bayanın qibləsi, sən demə, Göyçəyə tərəf imiş…»

Əsərdə Mehdi Həsənov, Abbas Mazanov, Cahan Əliyev, Mikayıl Bayramov, Fərman Kərimzadə, Yaqub müəllim və başqalarından da eyni hərarətlə bəhs edilmişdir. Bir qədər təskinlik tapıram ki, 80-ci illərin sonlarına yaxın dostum şair Hüseyn Ariflə birlikdə mən də o yerlərdə – Mazanovun kolxozunda, Pəri bulağında oldum və o yerləri, Göyçə gölünün sahillərini, bu qədim Oğuz yurdunu – o yurd ki Mete-Oğuz xan oralarda böyük toylar təşkil etmiş, Bayındır xan alaçıq-otaq qurmuş, böyük yığnaqlar etmişdir – oraları gördüm və təsəlli tapıram ki, gözəl yazıçı dostum Fərman Kərimzadə haqqında sağlığında hamıdan çox mən yazmışam.

Bərk ayaqda, şovinizmin qəti şəkildə baş qaldırdığı anlarda erməni dostların düşmənə necə çevrildiyini mən də görmüşəm. Hidayətin Ermənistan Yazıçılar İttifaqının rəhbəri Vartges Petrosyanla dostluq əlaqələri, 1988-ci il hadisələri başlayan kimi erməninin iç üzünün açılması və faciəli taleyi, S.Vurğunun köməyi və şəxsi maddi yardımı ilə böyüyən görkəmli erməni nasiri Arşavir Koçaryanın yiyəsiz ölümü, lap əvvəldən əks qütbdə dayanan Silva Kaputikyan, Zori Balayan, Karen Simonyan kimilərə münasibət elə o eygili günlərdə hadisələrin gedişinin sürətlənməkdə olduğunu – yazıçının sövqi-təbii duyğularını əks etdirir. Əsas məqsəd də elə bu münasibətləri olduğu kimi əks etdirmək olmuşdur:

«…məqsədim Qərbi Azərbaycanda təqribən qırx il müddətində gedən prosesləri, lap başlıcası – 18 ildə gördüklərimi, duyduqlarımı qələmə almaq, oxucuya həqiqəti, yalnız həqiqəti (!) çatdırmaqdır». Həqiqəti yazmasa idi, başqaları kimi «yıxılana balta çalmaq» yolu ilə getsə idi, 1948-1953-cü illərdə Ermənistanın türk əhalisinin Qazaxıstan çöllərinə sürülməsi planının qarşısını M.C.Bağırovun alması barədə xidmətini də bir çoxları kimi heçə çıxarardı: «Lakin o zaman Azərbaycan KP MK-nın birinci katibi Mir Cəfər Bağırovun iradəsi və Stalinlə şəxsi dostluq münasibəti sayəsində bu dəhşətli, bədnam niyyət baş tutmadı. Azərbaycanlılar başqa Qafqaz türk xalqları kimi sonsuz səhralara səpələnib qırılmaqdan xilas oldular". Və bu məqamda kitabın ən təsirli səhifələrindən biri ləmbəlilərin mübarizliyi, Andraniki diz çökdürmələri, lakin 88-ci il fəlakətləri ilə bacara bilməmələridir.

Yazıçı Bakıda da İrəvanla əlaqəni kəsməmiş, Vartges Petrosyanın dəhşətli dönüşü ilə əlaqədar təsirli məktublar yazmışdır.

Bu kitab vaxtında yazılmış kitabdır. Bir qədər sonra bunların heç birini bu cür mükəmməl şəkildə qələmə almaq mümkün olmazdı.

* * *

Kitabın son – 23-cü bölməsi xalqa, Azərbaycan mədəniyyətinə 18 illik xidmət işindən, 18 illik mübarizədən sonra müəllifin çıxılmaz vəziyyəti və «Mığrı – İrəvan – Bakı. Taleyimin yolu bu imiş» deyə Bakıya dönmək məcburiyyətinin təsviridir. Hələ 83-cü ildə – Bakıya gəlməzdən bir il əvvəl aşağıdakı misralar səbəbsiz doğulmamışdı – mümkünsüzlük əvvəlcədən görünürdü:

Zəngəzurda doğuldum,
İrəvanda yaşadım,
Bakıda öləcəyəm.
Kövrək sarı sim idim,
Unudulmuş,
Mükəddər
nəğməyə dönəcəyəm.

Bu şeir kitabda yeganə şeir deyil. Yazıçı təhkiyəsi bütövlükdə

müxtəlif şeir parçaları ilə müşayiət olunur. Bu şeirlərin bir çoxu təsvir edilən hadisələrin baş verdiyi anlarda yazılmışdır. Hadisələr çözələndikcə yerinə düşən şeir nümunələri əsəri köhnə dastançılıq ənənələri ilə yaranmış sənət nümunələrinə bənzətsə də, kitab əfsanələr, dini hədislər, nağıllar əsasında deyil, real fakt və dəlillər əsasında yazılmışdır. Hər bir şerin səliqə-sahmanla meydana çıxma tarixinin dəqiq qeyd edilməsi müəllifin şeir dünyasının inkişaf yolunu, onun çox erkən bədii yaradıcılığa başladığını göstərir. İlk gənclik şeirlərinin bir çoxu elə bizim nəslin həyatını əks etdirir:

Mən ata görmədim uşaqlığımdan,
Anam atam oldu, həm anam oldu.
Yaş da süzülmədi yanaqlarımdan,
Ümidlər, arzular ilhamım oldu.

Kitabda verilən şeirlər əksəriyyət etibarilə avtobioqrafik səciyyəlidir, şair həyatının yaşanmış günlərini əks etdirir:

Doğulduğum il – 1944.
Dava gedirdi hələ.
Ay, gün – 5 sentyabr,
Saat – alatoran,
İnəklərin səhər sağımı vaxtı.
Adım?
Əslində, Fikrətdir.
(Hidayəti sonradan uydurublar)
Qardaşım
Vitebsk səngərlərindən göndərib bu adı…

«Mığrıçayı» rədifli şeri oxuyanda mən də uşaqlığıma boylandım, bizim ellərin yay aylarında Bazarçay yaylaqlarına köçü yadıma düşdü. Uşaq vaxtı mən də o yerləri gəzmişəm, Əfəndilər bulağını, Yağlı bulağı, Dolayı bulağı hələ də unutmamışam. O yerlərin nisgili mənim də canımdadır:

Sahillərini dolandım,
Uşaqlığıma boylandım.

Gah sevindim, gah da yandım,
Aman, zalım Mığrıçayı!

Şair nədən söz açırsa, obyekt o yerlərdir – sevinci də, kədəri də o yerlərdə görmək istəyir. Amma o yerlərdə kədər də yoxa çıxıb, çünki o yerlərin öz insanları yoxa çıxıb:

Nə tüstü görünür, ocaq qalanır,
Nə də gur bulaqda səhənglər dolur.
Nə ölüm, nə matəm, nə ürək yanır,
Nə də ki anadan uşaq doğulur…

Lap əkib-becərsələr də, o «nağıl torpaqlar» yad əllərdə məhsul verməyib və verməyəcək. Küsüb o yerlər insanlardan:

Əkirlər – göyərmir o nağıl torpaq,
Sönüb birdəfəlik o sönməz ocaq.
Qızdıra bilməyir onu yad odu,
Natanış nəfəsi, natanış adı.

Doğma övladlrı dönük çıxıbdır,
Hərəsi yollanıb bir uzaq elə.

Bu misralardakı hissləri də aydın başa düşmək olur:

İndi mən sizlərdən bir az uzaqda,
Bir həsrət kökünün sarı simiyəm.
Əlimdə bir kitab – İrəvan haqda.
Doğma eldə bir az… qərib kimiyəm.

Hidayət bu böyük ömür kitabının birinci hissəsinə xitam verərək yazır: «Bu kitab çox yerlərdə yazıldı – Maralzəmidə, Aldərədə, Bakıda, İrəvanda və bütün Qərbi Azərbaycanda, Praqada, Moskvada, Ankarada… Parça-parça yazıldı, cümlə-cümlə göz açdı, misra-misra yarandı. Sonra bir yerə yığdım, gördüm – ömrümün səhifələri yalnız mənim bioqrafiyamdan ibarət deyilmiş. Ona görə kitabın ilk hissəsini çapa verdim. Məqsədim 38 yaşımacan duyduqlarımı, düşündüklərimi yaşıdlarımın övladlarına, nəvələrinə… çatdırmaq oldu». (397)

Biz də bu qiymətli əsər haqqında bu qısa xülasəni yekunlaşdıraraq deyirik: vətənpərvər insan, görkəmli yazıçı və publisist Hidayət bir əsərdə bir neçə böyük tarix, bir romanda bir neçə roman yaradıb – öz mənəvi dünyasının romanını, qərbi Azərbaycan əhalisinin son əsrlərdəki faciəli həyat romanını, ərazinin toponimlərinin və son əsrdəki böyük adamlarının romanını yaradıb, Ermənistan Azərbaycan dram teatrının tarixini yaradıb, qərbi azərbaycanlıların bir əsrlik dünyasını ümumiləşdirib.

* * *

Kitabın «Orda – Zəngəzurda mənim ürəyimin məzarı qalıb» adlanan ikinci bölümünə müəllif Bakıda qələmə aldığı «Didərginlərə məktub» (1989 -1990), «İkinci «Əfqanıstan» yaradılır? Nə üçün?» (1990), «həqiqət kar deyil» (1989), «Ağlınızı başınıza yığın» (1990), «Orda – Zəngəzur dağlarında mənim ürəyimin məzarı qalıb» (1993) və s. bir sıra məktub və məqalələrini toplamışdır. Bu məqalələr, məktublar Bakıda yazılsa da, «…həm məzmun, həm də daxili süjet baxımından «Burdan min atlı keçdi» həqiqətlərinin davamıdır». Odur ki həmin məktubları, məqalələri də «Burdan min atlı keçdi»yə daxil etmək olardı. Yalnız son iki yazı («O dünyanın adamları» və «O dünyanın adamları haqqında hekayətin bu dünyada aparıcısı») həm məzmun, həm də quruluşca fərqlidir.

«Burdan min atlı keçdi» əsəri müəllifin gördüyü, əksəriyyət etibarilə müşahidə etdiyi ayrı-ayrı faktlar əsasında yazılmışdır. Bu son məktub və məqalələrdə isə güclü ümumiləşdirmələr vardır. «Burdan min atlı keçdi» son tamamlamalar nəzərə alınmazsa, sovet dövründə yazılmışdır və o dövrdə hələ «Böyük Ermənistan» xülyasında olan ermənilərin iç üzü tam açılmamışdı. Son məqalələr yazılarkən artıq Qərbi Azərbaycan əhalisi öz doğma torpaqlarından çıxarılmış və didərginə çevrilmişdi, ən «sadiq» erməni «dostların» da iç üzü açılmışdı. Odur ki müəllif ermənilərin öz arxasını xristian dünyasına söykəyərək tutduqları Azərbaycan torpaqlarını bütün əhatə dairəsi ilə göz önünə gətirə bilir, mərhələmərhələ Azərbaycan torpaqlarının necə işğal olunduğunu göstərərək yazır: «1920-ci ilin noyabrında Ermənistan Sovet Sosialist Re-

spublikasını yaratmaq «zəruriyyəti» Azərbaycana daha ağır başa gəldi, bugünkü qonşu respublikanın ərazisinin yarısından çoxunu təşkil edən qədim torpaqlarımız – Zəngəzur, Ağrı dağının ətəkləri, Göyçə gölü sahilləri, Dilican dərəsi, Qaraqoyunlu, Cəlaloğlu «pay» verildi». 1828-ci ildə ərazi torpaqlarının 3,37 faizi ermənilərə, 96,63 faizi azərbaycanlılara məxsus olmuşdur (46515 – 1334085 hektar nisbəti ilə). «Tarixi 4 iyul 1918-ci il Batum müqaviləsinə görə (müqavilə Türkiyə-Azərbaycan, Türkiyə-Gürcüstan, Türkiyə-Ermənistan arasında imzalanıb) cəmi 9 min kv.km (bunun da 1460 kv km-i Göyçə gölünün səthidir) ərazisi olan Ermənistan indi faktiki olaraq 45 min kv. km əraziyə nəzarət etməkdədir». Ermənilər son iki yüz ildə iki minə yaxın Azərbaycan kəndi yandırmışlar, 1829 -1930-cu illər arasında bu yerlərə İrandan 40000, Türkiyədən 84600 erməni köçürülmüşdür…

Faktlar və rəqəmlər yüz ilin içərisində Rusiya tərkibində Azərbaycanın nə qədər zərər çəkdiyini təsəvvür etmək üçün geniş imkanlar verir. Bu yazılardan ibrət götürməli məsələlər son dərəcə çoxdur.

Bu son məktub və məqalələrdə ilk dəfə olaraq «işin içi ilə» bağlı bir çox mətləblərlə tanış oluruq. Azərbaycan KP MK-nın birinci katibi K.Bağırovun Vilayət Partiya Komitəsinin birinci katibi B.Gevorkovu çıxarıb yerinə azərbaycanlıların qanına susayan, Qarabağ hadisələrinin başında duran və Gevorkovdan daha dəhşətli olan H.Poqosyanı birinci katib qoyması barədə qeydlər tük ürpədən, dövlətin başında duran adamın dövlətdən xəbərsizliyini üzə çıxaran acı həqiqətlərdəndir – biz belə yaşamışıq. Az vaxt ərzində Azərbaycana 200 mindən çox didərgin, 60 min Axısqa türkü, 18 min kürd axışmalı olmuşdur. Qanlı yanvar hadisələri baş vermişdir.

Bu məktub və məqalələrin yazılma tarixi də hadisələrin qaynar dövrünə aiddir. Hələ heç kim didərgin həyatının bu qədər uzun sürəcəyini təsəvvür etmir, yazıçı özü də bu qədər sürəcəyini düşünmür, çünki Azərbaycanın halal torpağı yad tapdağı altında qala bilməz: «…nə qədər Azərbaycan xalqı yaşayır, onun torpağından bir çərək də kimsəyə verilə bilməz».

Lakin sapı özümüzdən olan baltalar – yazıçının bu qənaəti də doğrudur – hakimiyyət davasında Azərbaycan torpaqlarının

böyük bir ərazisini baltalayıb düşmənə verdilər. Ermənilər bizim dediyimiz «erməni ruhi xəstəliyi»ni keçirməkdə olsalar da, öz arzularına çatırlar, az torpaq işğal etməyiblər. Axşama qədər çalıb-oynayan bu xalq Qarabağ bir yana, hələ 6 rayonunun da tapdaq altında olduğunu kef məclisləri ilə unutdurmaq iştiyaqındadır.

«Yanvar soyqırımında tökülən günahsız qanlar xalqımızın qan yaddaşından silinməyəcək, buna kimin şübhəsi var? Amma o tökülən qanlardan da ağır bir cinayət törədildi: Azərbaycanda əsl xalq hakimiyyətinin yaranması iki il yarım ləngidildi…» 1990-cı ildə yazılmış bu sözlərdə hansı «xalq hakimiyyətindən» söhbət getdiyi bir qədər aydın olmasa da (görünür, cümlə sonradan əlavə edilmişdir), müəllifin yanvar hadisələrinə verdiyi qiymət kəsərlidir. Bu yazılarda Azərbaycanda təhsil alan Sokrat Xanyan kimi şairlərin, Mirzə Cəlilin hekayələrinə şovinist gözlə baxan geoloq S.Ayvazyan kimilərin məhdud görüşləri, ermənilərin hökumət bayramlarında gələcək Azərbaycan əleyhinə şüarlar üçün necə məşq elədikləri barədə maraqlı detallar vardır. Müəllifin «Araks» qəzeti səhifələrində onun ünvanına yazılmış məktuba cavabı əlavə bir sıra yeni faktlarla erməni millətçiliyini ifşa edir. Qəzet əməkdaşlarını müəllifin «Biz o torpaqlara qayıdacağıq!» nidası yandırmış, «qayıdacağıq!» sözü əsəbiləşdirmişdir: «Biz haçansa o torpaqlara qayıdacağıq». Təkrar edirəm: QAYIDACAĞIQ!»

Bu nikbinlik məni də inandırır. Dünya belə qala bilməz. Oğuzun yurduna bayquşlar qona bilməz!

Müsahibə şəklində qurulmuş «Orda–Zəngəzur dağlarında mənim ürəyimin məzarı qalıb» əsəri yazıçının gördüklərini, bildiklərini və hər şeydən əvvəl, ata-baba məzarının unudulmazlığını əks etdirən daha konkret fakt və nümunələr əsasında yazılmışdır.

Beləliklə, biz «Burdan min atlı keçdi» kitabının əsas ideyalarını oxucuya çatdırmaq istədik. Oxucu özü kitabı oxusa, onun gözləri önündə böyük bir tarix, bir əsrin salnaməsi canlanacaqdır, o, əsrin əvvəlində, ortasında və sonunda belədən-belə qovulan bir xalqın faciələri ilə tanış olacaqdır, neçə-neçə böyük şəxsiyyətin qurban getdiyini görə biləcək, köklü bir tarixə, köklü bir mədəniyyətə düşmən olan ermənilərin insan qəlbində yaratdığı «qisas

qiyamətə qalmaz» nidalarının səsini eşidəcəkdir, Hidayət kimi vətən fədailərinin mübarizə tarixini öyrənəcəkdir.

P.S.Qeyd etdiyim kimi, son iki yazı həm quruluşca, həm də məzmunca əvvəlki yazılarla uyuşmur. O yazılarda Sovet hökuməti, onun rəhbərləri, quruluşun xüsusiyyətləri barədə danışılır, quruluş kəskin şəkildə tənqid olunur. Bu tənqid ona bənzəyir ki, 40 ilə qədər bir kostyum geyəsən, sonra çıxarıb atanda deyəsən: çox yaramaz bir kostyum idi, cibi pis tikilmişdi, düymələri pis idi, boynu əyri idi, rəngi xoşa gəlməz idi, parçası dəhşətli dərəcədə keyfiyyətsiz idi və ümumən onu tikən ustanın başı yox idi. Müəllif Sovet hökuməti haqqında təəssüratını «Burdan min atlı keçdi» əsərində daha obyektiv söyləmişdir . Hiss olunur ki, bu yazı sonralar yazılmışdır.

29.06.2004

DƏDƏ QORQUDA MÜRACİƏTLƏ «DƏDƏM QORQUT» POEMASI

Rəşid Təhməzoğlu – 65

Ədəbiyyatımızda «Dədə Qorqud» motivləri əsasında bədii yaradıcılıq zənginləşir. Hələ keçən əsrin 40-cı illərində prof.Ə.Dəmirçizadə «Dədə Qorqud» boyları əsasında «Dədə Qorqud» librettosu və «Qaraca Çoban» pyesi yazmış, milli operamızın banisi Ü.Hacıbəyov bu əsərlərə baxdıqdan sonra «Dədə Qorqud»un opera üçün zəngin mənbə olduğunu söyləmişdir. 70-ci illərin əvvəllərində Anar «Dədə Qorqud» ssenarisini yazmış və ssenari əsasında «Dədə Qorqud» filmi yaranmışdır. Rəşid Təhməzoğlunun «Dədəm Qorqut» poeması bu sahədə son dövrün nailiyyəti sayıla bilər. Müəllif poema üzərində 1997–1998-ci illərdə işləmiş, 2003–2004-cü illərdə ona yenidən qayıdaraq, 1999-cu il çapında müəyyən dəyişikliklər etmiş və əsəri 2004-cü ildə yenidən çap etdirmişdir. Hər iki çap filologiya elmləri doktoru İsmayıl Ömərogluunun redaktəsi və «Mənəvi qaynağın poetik biçimi» başlıqlı ön

sözü ilə buraxılmışdır. Poemanın elmi məsləhətçisi elmi işçi Əmirşah Babaşanoğludur.

Poema «Ön söz yerinə» adlanan 11 bəndlik girişlə başlanır. Müəllif bir şəxsiyyət kimi bilavasitə Dədə Qorquda müraciət edərək, insanların min illərlə onun sözünün işığına tapındığını, odunun hərarətinə qızındığını poetik bir dillə yada salır, özünün də bu ocaqdan od aldığını, onun «boyları»na boylanmaq istədiyini və poemanın bu ocağın hərarətindən yarandığını söyləyir.

Kitab beş hissədən – beş boydan, «Son söz yerinə» adlanan ümumiləşdirici, yekunlaşdırıcı hissədən və çətin sözlərin lüğətindən ibarətdir. Müəllif bütün boyları qələmə almaq məqsədini qarşıya qoymamışdır. Əhatə etdiyi boyları «Buğac», «Bayrək», «Qasğan xan», «Uröz» və «Toğan» adlandırmışdır. Şair təhkiyəsində poemanın hər bir bəndi Dədə Qorquda müraciətlə yazılmışdır.

«Dədə Qorqud» elə bir mənəvi xəzinədir ki, onu cılızlaşdırmaq, onun səviyyəsini alçalda bilən əsər yazmaq özü günahdır. «Dədə Qorqud» motivləri əsasında yazılan hər bir əsər, heç olmasa, onun öz səviyyəsinə yaxın olmalı, onun təhkiyə və dialoqlarındakı hikməti, şirinliyi, insana məhəbbəti, düşmənə nifrəti, vətən, ana sevgisini saxlaya bilməlidir. Bu baxımdan biz Rəşid Təhməzoğlunun poemasını uğurlu bir yaradıcılıq nümunəsi saya bilərik. Poemanı oxuduqca insanda güc və beyin yorğunluğu əvəzinə, mənəvi rahatlıq və xoş duyğular yaranır. Rəşid dastanları gözəl bilir, bəlkə də, əzbər bilir – bu, lazım idi, lakin onun mahiyyətinə vara bilmək daha vacib idi – bunu da həqiqi bir alim, bir tarixçi, bir etnoqraf kimi bacarmışdır. Orijinal və gözəl bir poema yaratmışdır. Dastanları oxuyarkən Beyrək boyundan aldığım təsiri eyni dərəcədə poemanın «Bayrək» hissəsindən ala bildim. Bütün başqa hissələr də eyni dərəcədə yüksək səviyyəni saxlaya bilmişdir. «Leyli və Məcnun»ları yada saldım: məzmun, əfsanə birdir, lakin Nizami və Füzuli sənətkarlığı, şairlərin söz söyləmə, sözü mənalandırma, əfsanəni ətə-qana doldurma bacarığı başqadır. Rəşidin yaratdığı poema da boyların məzmunundakı ağırlığı özünə hopdura bilmişdir, misraları «Dədə Qorqud» cümlələrindəki məna yükünə, ümumiləşdirmə gücünə müvafiqdir – «Dədə Qorqud» qoxulu, «Dədə Qorqud» duyğuludur.

Rəşid boyları nəzmə çəkməyi deyil, onu günümüzlə bağlamağı, boyların gözəl ideyalarını öz sözləri ilə insanlara çatdırmağı, yaşatmağı qarşısına məqsəd qoymuşdur. Odur ki poemanı oxuduqca qəhrəmanlıq və sevgi duyğuları ilə yanaşı, xainlər, xəbislər, daxili qurdlar, vətəni satan vəzifə və sərvət düşkünləri də göz önündən gəlib keçir:

O qırx igid Buğacı bərk yamanladı,
Durğan xanın başı bir də dumanlandı…
İçimizdə gəzən qurdlar iri imiş,
O çağlardan bu çağacan diri imiş…
Dədəm Qorqut!

Necə olub ki, Rəşid Təhməzoğlu belə bir poema yazmağa girişib və necə olub ki, poema müasir dilimizdə qafiyə ilə az qala «Dədə Qorqud»un öz gücündədir?

Bioqrafiyası ilə tanışlıq göstərir ki, bu əsər Rəşidin yeganə qələm təcrübəsi deyildir və o son dərəcə məsuliyyətli belə bir işə başlarkən artıq mətbuatda dərc olunmuş şeirləri və «Qaraqapı» poeması ilə çoxdan qələmini sınaqdan çıxarmışdı. «Səhnədən keçən yollar», «Sevdim Azərbaycanı…», «Bakıya gedirəm», «Dik gedib, dik gəlirsən» kitablarının tərtibçisi, «Əhməd Cəmilin yaradıcılıq yolu» monoqrafiyasının, «Üzeyir Hacıbəyov» foto-albomunun müəllifi və görkəmli arxiv qurucusu kimi elm aləmində məşhur idi. Filoloq alimdir. Bunlar onun bu əzəmətli qədim abidəyə maraq və cəsarətinin təbii olduğunu göstərir.

Poemada «Dədə Qorqud» ətrini, «Dədə Qorqud» ahəng və təhkiyəsini mühafizə edən əsas amil «Dədə Qorqud»un öz poeziyasıdır, öz yüksək poetik quruluşudur. «Dədə Qorqud»da ənənəvi olaraq ayrılan şeirlərdən başqa, onun nəsr kimi verilən hissələri də, demək olar ki, yüksək şeriyyətlə yaradılmışdır və yüksək poeziya nümunələridir. Boyların hər bir cümləsi şeirdir. Bunlar boyların nəzmə çəkilməsinə kömək olmamış deyildir. Lakin Təhməzoğlu bunları təkrar etmiş olsa idi, o heç bir təzə söz deyə bilməzdi. Poeması həqiqətdə orijinal bir əsərdir.

Dastanların müasirlik ruhu poemada dayaq nöqtəsidir. Lakin bu da var ki, bu boylarda müasir olmayan, anaxronizm səciyyəsi daşıyan epizodlar, hadisələr yox dərəcəsindədir. Elə buna görə də

bu dastanlar min illərin sınağından daim böyük sevgi ilə çıxmışdır. Vətənə məhəbbət, insana və torpağa bağlılıq, düşmənə nifrət, mübarizlik, qəhrəmanlıq, övlad tərbiyəsi, döyüşçü hazırlığı, əkin-biçin, təsərrüfat, maldarlıq, ağsaqqala, qadına hörmət, vətən yolunda hər cür əzaba sinə gərmək, oğuz nəslinə məxsus əzəmətli toy-düyünlər, ov və ovlaqlar, döyüş səhnələri… Bunlar poemada da boyların əkiz qardaşı kimi xoş duyğular yaradır, gəlimli-gedimli dünyada babalarımız oğuzların necə mərdliklə yaşadıqlarını «Dədə Qorqud»a layiq bir təhkiyə ilə nəql edir. Hər zərrədə nəsillər arasında əlaqə görünür. Poemanı oxuduqca düşünürsən: Oğuz eli, sən yaşamısan və varsan. Amma o təkurlar, o məliklər bu gün daha hiyləgər olublar. Daxildəki Aruzlar isə daha dəhşətli xəyanəkara çevriliblər. İndi sənin Dış Oğuz dediyin o yerlər səkkiz yerə parçalanıb – İranın, İraqın, Rusiyanın, Ermənistanın, Gürcüstanın tərkibinə qatılıb. Sən olsa idin, ölərdin, verməzdin. Amma dediyin daxili qurdlar və həyasız imperializm bizim əl-qolumuzu bağlayıb. Buna da «şükür» deyirik.

Hiss olunur ki, Təhməzoğlu poemanı yazmağa başlamazdan əvvəl uzun müddət axtarışda olub, boyların hər bir sətirindəki aşkar və gizli məqamları diqqətlə öyrənməklə yanaşı, xüsusi tədqiqat aparıb, boylarda iştirak edən əsas obrazların adları, ərazi toponimləri üzərində xüsusi düşünüb, etimoloji araşdırmalarla məşğul olub. Bir alim kimi, boyların yazı nüsxələrini nəzərdən keçirib, xüsusi adların ənənəvi oxunuşu ilə çox zaman razılaşmayıb, onların ilkin semantikasına, quruluşuna enməyə çalışıb. Poemanın birinci çapında *Qazan xan* adı ***Qazanğan,*** sonrakı nəşrində ***Qasğan xan*** şəklindədir. Bu göstərir ki, müəllif illər boyu axtarışda olub. ***Qazan xan*** sözünü dastan boylarında olduğu kimi saxlamaq da olardı. Lakin müəllif yalnız bu kiçik dəyişikliklə Azərbaycanda türk tarixinə son dərəcə obyektiv və həqiqi tarixi münasibət bildirmişdir. ***Qas/kas*** tayfası Azərbaycanın ən qədim tayfalarındandır və öz adını beş min il əvvəldən tarixə yazmışdır. Qaslar türk tayfalarındandır – *Qaspi dənizi, Qas dağı, Qas keçidi* kimi tarixi adlar qoymuşdur. Çox maraqlıdır ki, tarixin o qədər uzaq keçmişindən qalan qas toponim, etnonim və antroponimləri, qas apelyativ leksikası türkcə çox aydın izah olunur. Odur ki Rəşidin adın bu formasından istifadəsi həqiqi elmi araşdırma sayıla bilər.

Müəllif bir sıra toponim, etnonim və antroponimləri də özünə məxsus şəkildə işlətmiş və mənalandırmışdır: *Oğöz* – tayfa adı (*oğuz* əvəzinə), *Durğan xan* (*Dirsə xan)*, *Qaslıq dağı* (*Qazlıq dağı*), *titrarilər* (*tat əri*), *Bamca Bayrək* (*Bamsı Beyrək*), *Dəli Qoçar* (*Dəli Qarcar*), *Qaracuq* (*Qaraca çoban*), *Burasar, özan* (*ozan*), *Dəli Döndar, Aröz qoca, Uröz, Qara Darhand* (*Qara Dərbənd*), *Dumanqala* və s. Bunlardan *Qaslıq dağı* elə Qazlıq dağıdır, əslinə uyğundur. Qalanları haqqında düşünmək olar. Müəllif «Dədə Qorqud»dakı «*Tat əri bir ağız banladı»* cümləsindəki *tat əri* sözlərini ***titrari*** kimi (quş adı) mənalandırmışdır.

R.Təhməzoğlu «Dədə Qorqud» dərinliyinə maraqlı və uğurlu qafiyələrlə enə bilmişdir:

Ana sığdı süd qurumuş döşlərini,
Gözəllərsə gəzib dağın döşlərini
Döşürdülər neçə-neçə dağ çiçəyi…
Dağlar keçib, dikdirlərdən aşırdılar…
Bir düzəndə yüklərini aşırdılar.
Acgöz kimi nə verdilər, aşırdı o,
Çəkib bir-bir qazanları aşırdı o.

Birinci beytdə *aşırdılar* sözü zaman və təsirlik şəkilçiləri və vurğu ilə fərqlənir, ikinci beytdə *aşırdı* sözü qrammatik cəhətdən eyni olub, semantikasına görə fərqlənir – birinci misrada yemək, ikincidə dağıtmaq mənasındadır. Bu cür semantik çalar müəllifin çox sevdiyi qafiyə yaratma üsullarındandır:

Qız oğlana, oğlan qıza ***güc gəlmədi,***
Güc gəlməyə qollarında ***güc gəlmədi.***
Vurulmuşdu onun qopuz ***çalmağına,***
Bir baxışla ürəyini ***çalmağına.***
Alagözlü, tutsaq qızlar ***süzə-süzə,***
Gəzdirdilər al içkidən ***süzə-süzə.***

Başqa hallarda daha çox omofonlara müraciət etmişdir. Sözlərin yaxın səslənməsi və tam fərqli mənalar ifadə etməsi şeir texnikasında qədim üsullardandır:

*Hamı qalxdı, sevinc yağdı yağmur-**yağmur,***

Hamı gördü, ta üzündən acı ***yağmır.***
Saxlancımdan bol-bol ağça, ***qızıl alar,***
Yoxluğunu soraq versə, ***qızı alar.***

Xüsusi adla ümumi sözün omoformları da poemanın işlək qafiyə üsullarındandır:

Biri Duru, o birinin adı ***Keçər,***
Bilmək olmaz, işim birdən ağır ***keçər.***

Bu cür misralar «Dastani-Əhməd Hərami»ni yada salır. Və beləcdirsə, deməli, müəllif məqsədinə nail olmuş və həqiqi mənada dastan-poema yarada bilmişdir.

Poemanın dilindəki bir sıra sözlər ya yeniliyi ilə diqqəti cəlb edir, yaxud da fonomorfoloji quruluşu ilə «Dədə Qorqud» dilini yada salır: ***Çadırdasa*** *igid* ***bayğın*** *çağındaydı,* ***Yaraqdaşlar*** *solundaydı, sağındaydı. İgidlərim,* ***ata qonun*** *toğan kimi,* ***Soyğunçunu*** *soymalıyıq soğan kimi.* ***Qalımından*** *bircə igid versə soraq…* ***Yarılğan*** *tək yarılım mən, ovulum mən…****Çağıtdırdı*** *«soy soylasın» sanına o.* ***Yeyimləri*** *ora atdı, bura atdı.* ***Yağmalaçı*** *önə çıxıb bərk çağırdı. Yaralara* ***yağlıqara*** *yapışdırdı. Qarşı dağdan Qasğan xanı* ***gözətdilər****.* ***Ağzıqara*** *ənik qurddan soykökümüm var* və s. misra və beytlərdə ***bayğın, yaraqdaşlar, qonun, soyğunçunu, qalımından, yarılğan, çağıtdırdı, yeyimləri, yağmalaçı, yağlıqara, gözətdilər, ağzıqara*** sözləri bu gün ədəbi dilimizdə poemada olduğu şəkildə və ya poemadakı mənasında işlənmir. Bu sözlərin fonetik tərkibi və ya semantikası onları «Dədə Qorqud» dilinə çəkir və qafiyə sistemi ilə yanaşı, bu cür leksika küll halında poemada «Dədə Qorqud» ruhu yaradır. Bu cəhətdən «***Çal qılıncı, Qasğan xanım, arxandayam!»*** tipli misralarda ***qılıncı*** sözü əvəzinə, «Dədə Qorqud»dakı *qılıcın* sözü daha təbii səslənərdi: *Çal qılıcın, Qasğan xanım, arxandayam!*

Poma əsasən məsnəvi şəklində qurulmuşdur, müəllif təhkiyəsində misralar qoşa qafiyələnir. Lakin yeri gəldikdə müəllif «Dədə Qorqud» ruhunu daha çox qorumaq üçün başqa formadan da istifadə etmişdir. Bu hal şair təhkiyəsinə deyil, obraz nitqinə aiddir. Oğlunun gedənlərlə qayıtmadığını gördükdə Burla xatunun ərinə – Qasğan xana müraciəti:

Qarğı gondər oynadanlar qayıdıblar,
Qızıl gondər oynadanım gəlməz oldu.
Ağac yaydan oxatanlar qayıdıblar,
Dəmir yaydan oxatanım gəlməz oldu…

Lakin monoloq sonda yenə qoşa qafiyə ilə tamamlanır:

Xan Qasğan xan, hanı oğlum, ***ver sorağı,***
Uçur huşum, qaçır ağlım, ***ver sorağı****.*

Beləliklə, «Dədə Qorqud» ruhu poemanın bütöv strukturunda, bütün semantikasında, bütün elementlərindədir, bütövlükdə əsərin poetikası «Dədə Qorqud» poetikası, «Dədə Qorqud» deyim tərzi əsasında yaradılmışdır. Müəllif uğuru orasındadır ki, bu əsərlə «Dədə Qorqud» mühitinə düşmək olur. İndi orijinal da var, onun əsasında yaranmış, onun ruhunu yaşadan bir poema da. Bu da «Dədə Qorqud»un başqa bir yayımıdır, xoş istəyin, vurğunluğun nəticəsidir.

Rəşid Təhməzoğlu 1959-cu ildən mərkəzi mətbuatda elmi, bədii və publisistik yazıları ilə çıxış edir. Bu poema onun Azərbaycan ədəbiyyatına qiymətli töhfəsidir.

İndi Rəşid müəllim yaşının müdrik çağındadır – 65-in içindədir. Hələ yollar qabaqdadır. İstərdik ki, o yolları uzun illər, Qorqud demiş, qalın keçsin, yeni-yeni uğurlarla dostlarını sevindirsin.

03.10.2004

GENNƏN BAXIB YANAN KÖNÜL...

XX əsrin 20-ci illərinin sonlarında və 30-cu illərdə poeziya aləmində S.Vurğun, S.Rüstəm, M.Rəfili, M.Müşfiq, R.Rza, M.Rahim, M.Dilbazi, N.Rəfibəyli parladı. Bu nəsil 70-ci illərin sonlarına qədər tədricən öz missiyasını başa çatdırdı. Keçən əsrin ortalarından, xüsusilə 60-cı illərdən B.Vahabzadə, N.Xəzri, H.Arif, F.Qoca, X.Rza Ulutürk, Sərdar Əsəd, Əli Kərim, Qabil, Cabir Novruz və başqaları poeziya aləmində bir həqiqət kimi göründü. İndii bu nəsil öz missiyasını başa çatdırmaqdadır.

Bəs yeni nəsil kimlərdən ibarətdir?

Poeziya aləmində indi kimlər var?

Hələlik bu barədə bir söz demək çətindir, hər şeyi tarix göstərəcək.

İndii şer yazan daha çoxdur. Lakin tarixin süzgəcindən kimlərin keçəcəyini hələ bilmirik.

Əslində, Şövkət xanım Zərin Horovlu yaş etibarilə ikinci nəslin nümayəndələrinə yaxındır. Lakin uzun müddət yazdıqlarını üzə çıxarmaq istəmədiyindən və ilk kitabı 1999-cu ildə çap olunduğu üçün az qala gənc şairlər cərgəsindədir. Elə gənclik hərarətini, gənclik duyğularını qoruyub saxlayıb da.

Azərbaycanın hər bir guşəsində var və o cümlədən bizim Cəbrayıl torpağında da var – analar, nənələr var ki, bədahət şairləridir və burada təhsilin-filanın heç bir dəxli yoxdur. Şövkət xanımın şeirlərini oxuyarkən duyursan ki, onun misraları haqdan gəlir və elmi düşüncənin məhsulu deyil. Bəlkə, Şövkət xanım filoloji təhsil almasa idi belə, yenə o şeirləri – o qoşmaları, gəraylılar, qəzəlləri yaza bilərdi.

Elə mövzuları da bu inamı yaradır. Bizim analarımız, nənələrimiz daha çox dərddən yazıblar, yəni mövzuları dərd olmaqla yanaşı, onları dilləndirən, şair edən də dərd olub.

Şövkət xanımın da əksər mövzuları dərddəndir: Şuşa dərdi, Xocalı dərdi, Təbriz dərdi, öz doğma torpağına qismət olmayan qardaş məzarının dərdi, ana məzarının dərdi, havası, suyu ilə böyüdüyü, lakin indi ayaq qoyulması irtica tərəfindən qadağan olunmuş doğma torpaqların dərdi, yetim qalmış tək çinarın dər-

di… bütövlükdə Vətən dərdi, Qarabağ dərdi… Xəbis insanların ucbatından «Aşına halallıq qata bilmədiyimiz» müstəqilliyimiz!

Təəssüf hissilə onu da dəfələrlə qeyd edir ki, Qarabağın işğalında daxili düşmənlərin, vəzifə və sərvət hərislərinin «xidməti» böyükdür:

Özününkü özünə olmasa qənim,
İlanı yuvada boğmağa nə var!

Şövkəti dilləndirən bunlardır. Bu şerləri də öz dərdlərini insanlarla bölüşmək üçün qələmə almışdır:

Şair olan yaranmayıb ölmək üçün,
O yaranıb
Sevincini, kədərini insanlarla bölmək üçün.

Dərd, ictimai kədər böyük qüvvədir. İnsanı şair edərmiş! Unudulmaz Hüseyn Arifin dediyi kimi:

Tək sevinc olsaydı, kim olacaqdım,
Qəm məni Hüseyn Arif eylədi.

O torpaqlar, o yollar, o cığırlar, o bulaqlar, o kəhrizlər, doğma torpağın hər bir daşı, kəsəyi həsrət yükü olub, insanın çiyinlərindən basır, onu əzir:

Həsrət yükü var çiynimdə,
Götürüb gəzə bilmirəm.
Ağrısına-acısına
Dözmüşəm, dözə bilmirəm.
Bu insafsız dərd əlindən
Yaxamı üzə bilmirəm.

Gələndə son dəfə dağlara baxdım,
Bulağı gözümün selində qaldı.
Dönüb Xan çinarın əlini sıxdım
Gözüm salxımlanan telində qaldı.

Vətənin azadlığı və çiçəklənməsi uğrunda mübarizəni özünün və hər bir vətən övladının amalı hesab edir. Şairin fikrincə, Vətən və torpaq həsrətilə çırpınan insan qəlbi şam kimi əriməlidir. Düz

deyir, torpaq dərdi, yurd dərdi çəkən insanların yaratdığı hər bir əsər onların şam kimi əriyən ömürlərinin məhsuludur:

Bir yaxşı şeir də, həzin nəğmə də
Gecə-gündüz yanan şair ömrüdür.

Şövkət xanımın şeirlərində təsirli və faciəvi səhnələrlə qarşılaşırıq. Bir ovuc vətən torpağını ovcunda sıxıb gözlərini əbədi yuman ananın – həsrəti gözündə qalan ananın təsviri:

Sinəsi üstündə bir ovuc torpaq,
Ananın qoynuna bir ana köçür.

Bu məqamda Şövkət xanımın Hüseyn Arifdən gətirdiyi bədii sitat da yerinə düşür:

Bir ovuc torpaqdan dönən deyiləm,
Bir ovuc torpağa dönənə kimi.

Doğma torpağına köçürüləcəyi ümidi ilə yad yerdə müvəqqəti dəfn olunmuş qardaş məzarının doğurduğu sonsuz kədər:

Əmanət ya bir il, ya beş ay olar,
Beş illə qoyulmaz, bu nə adətdir!?

Şövkət xanım S.Vurğun, H.Arif, Qurbani şerlərindən daha çox ilham almışdır. Bir çox şeirlərində, Qarabağ uğrunda ölümə gedən gənclərin təsvir olunduğu poemasında poetik təhkiyə S.Vurğunu yada salır. Hüseyn Arifin şagirdi olduğunu isə özü etiraf etmişdir: «***Hüseyn Arifdir ustadım, Bu danılmaz həqiqətdir***».

Şeirlərində Qurbani məhəbbəti, Qurbani bənövşəsinin ətri duyulmaqdadır. Lakin ictimai kədər Şövkət xanımın şeirlərində kəskin dönüşlərlə nəticələnir, təbiətin gözəl təsviri qəfil çavıyan güllə kimi fikri işğal olunmuş torpaqlara yönəldir:

Əlvan geyib Diri dağı,
Xınalıdır əl-ayağı.
Cənnətdir Araz qırağı.,
Gendən baxıb yanan könül.

Bəzən dünyanın işləklərinə, mərdi namərdə möhtac edən dünyaya lap bizim ulu nənələr kimi nifrinlər yağdırır:

Hər addımbaşında dərd bostanı var,
Di gəl, adda-budda gülüstanı var.
Ulduzlar sanıcan qəbristanı var,
Bu ilan dünyanın, əfi dünyanın.
Çəkibdir mərdləri dar ağacına,
Gəlibdir namərddən xoşu dünyanın.
Niyə satqınlıqda bazarı boldur,
Bu sırtıq dünyanın, naşı dünyanın?

Vətən yolunda canını qurban vermək hər bir vətəndaşın borcudur və insan vətən yolunda ölməyə hazır deyilsə, vətən ona oğul deməməlidir, insan haqq yolunda ölümə getməkdən qorxmamalıdır:

Dərdimi dərd bilmirəmsə,
Göz yaşını silmirəmsə,
Haqq yolunda ölmürəmsə,
Vətən, mənə övlad demə.

Şövkət xanımın yaradıcılığı elə vaxta düşüb ki, gözəllikdən zövq almağa, nankor qonşularımızın törətdiyi böyük bəlaları unutmağa vaxt yoxdur. Ona görə də kitablarında:

Günəş də oyanıb, oyan, sevgilim!
Qızıl şəfəqlərdən əlvan don biçək –

ruhlu şeirlər nisbətən azdır. Lakin düz deyir ki, əsl məhəbbətin dili lal olur. Təbiət şeirləri isə əksərən ictimai kədərlə qovuşur. Səmimi uşaq şeirləri, övlad, nəvə sevinci ifadə edən yazıları ümumən ağır kədər içərisində yaşayan insanların gələcəyə ümidi, az-çox sevinc mənbəyidir.

Şövkət xanımın aforistik ümumiləşdirmələr gücündə tutarlı misraları da vardır:

Dağın sinəsində əriyəndə qar,

Axan sellər-sular dərədən keçər.
Enişə-yoxuşa şığıyan qartal
Qıy vurub qalxanda zirvəni seçər.

Döyür qapıları payız küləyi,
Göylərin kələfi qarışır yenə.

Yaltaqların, ikiüzlülərin, xalqı soyub-talayanların ifşasına həsr olunmuş kəsərli şeirləri vardır. Məhəlləçiliyin və eyni zamanda bədbinliyin düşmənidir. Bütün iztirablarına baxmayaraq, xoş gələcək arzuları ilə yaşayır:

Zamanın zülmündən dönüb lal olduq,
Niyə yetişmədik, belə kal olduq!?

Şövkət zanım az vaxt ərzində nəfis şəkildə üç kitab çap etdirmişdir. «Çinar həsrəti», «Mən Araz qızıyam» və «Sözün işığı». Bunlar onu bir şair kimi təsdiq edən bədii sənədlərdir.

O gün olsun ki, doğma torpaq nisgili sevincli günlərlə əvəz olunsun. Şövkət xanım vətən övladlarının şücaətini təsvir edən yeni şeirlər yazsın.

20.10.2004

UZUN AYRILIQDAN SONRA

SƏRDAR ƏSƏD - 70

Sərdər Əsəd (Sərdar Heydər oğlu Əsədov) Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olmuşdur. Atası Heydər kişi savadsız bir kəndli, anası Həsyə xanım təhsil görməmiş kənd qadınlarından idi. Heydər kişi cavanlığında igid bir oğlan olmuşdur. Başı üstə at çapar, çapa-çapa tullanıb atın belində ayaq üstə durarmış. İki qızı vardı. Böyük qızı mənim müəlliməm olmuşdu. İkinci sinifdə mənə dərs demişdir.

Atasındakı güc, qüvvət Sərdara da keçmişdi. 1955-ci ildə – V.İ.Lenin adına APİ-nin filologiya fakültəsinə daxil olduğum il Sərdar həmin fakültəni bitirmişdi. Sentyabrda biz dərsə başlayanda institutun divarlarına ali məktəblərarası ştanq yarışlarında Sərdar Əsədin birinci yeri tutduğu yazılıb vurulmuşdu. 25 yaşlarında sağlam, yaraşıqlı, iti baxışlı bir gənc idi.

Heydər kişi bir müddət kənd dəyirmanında işlədi, elektrik dəyirmanı meydana çıxanda məktəbə köçdü, biz oxuduğumuz məktəbin həyət-bacasına baxar, qarovulçuluq edərdi. Deyib-gülən, xeyirxah və mərd bir kişi idi. Sərdarın qəzetlərdə çıxan şeirlərini kəsib cibinə qoyar, savadı olanlara oxudar, öyünərdi.

N.A.Dobrolyubov bir məqaləsində qeyd edirdi ki, A.S.Puşkinin vaxtsız vəfatına o qədər də kədərlənmək lazım deyil, çünki Puşkin nə yazmalı idisə, hamısını yazmışdır. Bizim istedadlı şairimiz Sərdar Əsəd də hələ gənclik illərini başa çatdırmamış ömrünü başa çatdırsa da, kifayət qədər bədii irs qoyub getmişdir. Sərdar ədəbiyyata 50-ci illərdə gələn Əli Kərim, Qulu Xəlilov, Əlfi Qasımov, Tofiq Mütəllibov, Fikrət Sadıq nəslinin nümayəndələrindən idi. Bu nəsil 60-cılar hərəkatının önündə gedirdi. Sərdar yaradıcılığa başlayanda tədricən ölkədə iqlim mülayimləşir, 30-cu illərdə ölümlə qarşılaşmış yaradıcı insanların müstəqillik arzuları yenidən qanadlanmağa başlayırdı.

Sərdar Əsəd ədəbiyyata təsadüfi gəlməmişdi. «Hiss edirəm, şeirdə Deməli bir sözüm var» – deyə özündə bu xalqa, insanlara

söz demək istəyi və qüdrəti olduğunu görürdü. 40 yaşının tamamında yazdığı «Ömür keçdi yarıdan» şerində mənalı həyat yolunun çətinliklərini qeyd edərək yazırdı:

Hamar düzənlikdə uçan bir külək
Sıldırım dağları qarşıda bilsin!..
İndi yaşadığın bir ömür gərək
Ömrünü sonra da yaşada bilsin!

Yaradıcılığının lap erkən çağında – 1954-cü ildə qələmə aldığı «Şairin arzusu» şerini onun poeziya yolunun proqram sənədi saymaq olar. Şairin fikrincə, həqiqi şeir misraları şairin «ürək çırpıntıları»dır. Şeirdə hər bir söz «yerində» olmalı, «ürəkdən gəlməli», oxucunu incitməməli, narazı salmamalıdır. Bu cəhətdən həqiqətin dərki yolunda poeziyanın insana təsiri barədə reallığı aşağıdakı misralarla daha sərrast ifadə etmişdir:

Yerli-yerində hər söz
Qiymətli bir incidir.
Ürəkdən gəlməyənlər
Ürəkləri incidir.

Yeni şeir həyat həqiqətinin real təsviri ilə, həyatın nəfəsini poeziyaya gətirməklə yarana bilər, sehrkar kimi göz aldadan, baş qatan sözlərlə əylənmək vaxtı deyil, çünki indi həyatın tələbləri tamamilə başqadır:

Söz var, sehrkar kimi
Göz aldadır, baş qatır.
Könül verib sevdiyim
Coşub-daşan həyatın
Tələbləri başqadır!

Bunlar 24 yaşlı gənc şairin estetik düşüncələridir. Yaxşı bilirdi ki, həqiqi şeir üçün can qoymaq, ömrə qıymaq, sərt qayalara, sıldırımlara sinə gərmək lazımdır. ***«Ömrə çevrilən şeir Bütöv bir ömür istər!»*** sözləri nəzəri prinsiplər baxımından həqiqəti əks etdirirdi. Bilirdi ki, şerin təsir gücü təsvir obyektinə bələdlik dərəcə-

sindən asılıdır. Muğana həsr etdiyi şerində oxucuya üz tutaraq yazırdı: «***Sevə-sevə oxumaqçın onu sən Mən Muğanı oxuyuram maraqla»***. Poeziya sənətinə fəlsəfi-estetik baxışı çox erkən, onun hələ «Sərdar Əsəd» deyil, ilk şeirlərini yazdığı «Sərdar Əsədov» imzalı dövründən formalaşmış, o, poeziya aləminə ayıq baxışla gəlmişdi.

«Yer ulduzu» (1974) kitabından aydın olur ki, mərkəzi mətbuatda hələ V.İ.Lenin adına APİ-nin filologiya fakültəsinin birinci kurs tələbəsi olduğu dövrdən – 1952-ci ildən çap olunmağa başlamışdır. «Gənclik illəri» adlı ilk şeir kitabını 1957-ci ildə nəşr etdirə bilmişdir. Bu kitabda və bundan üç il sonra çap etdirdiyi «Səni axtarıram» kitabında hər bir şerin yazılma tarixi vardır. 1960-cı ildə nəşr olunan «Səni axtarıram» kitabında son şeirləri 1957-ci ilə aiddir. Bu, o dövrdə nəşr işinin nə qədər çətin olduğunu, bir kitabın çapı üçün ən azı üç il gözləmək lazım gəldiyini göstərən bir faktdır. 50-ci illərə aid bir sıra şeirlərinin «Yanan memar» (1963), «Cərrah ürəyi» (1965), «Simlərin tufanı» (1971) kitablarına daxil edilməsi göstərir ki, ilk kitabları yazdıqlarını əhatə etməmiş, seçmə şeirlərdən ibarət olmuşdur. Sağlığında bunlarla yanaşı, «Gözəl», «Meşədə qonaqlıq» və başqa şeir, həmçinin Bartodan, Rodaridən tərcümə kitablarını da çap etdirə bilmişdir. Kitabları İ.Soltan, N.Həsənzadə, M.Araz, E.Borçalı, Ə.Salahzadə və başqalarının redaktorluğu ilə çap olunmuşdur. 1977-ci ildə – vəfatından iki il sonra şeir və poemalardan ibarət «Dağları aşdı sellər» kitabı nəşr olunmuşdur. 25 ildən az bir müddətdə yaradıcılıqla məşğul olmuş, Azərbaycan poetik fikrinin inkişafı sahəsində xeyli iş görmüşdür. Hələ də arxivi açılmamış, yaradıcılığı küll halında üzə çıxarılmamış və tədqiq edilməmişdir.

Sərdarın mövzular aləmi çox zəngindir. Həyatın yeniliklərini məhəbbətlə qələmə alırdı. İctimai həyatın təsviri Sərdarın şeirlərində ön planda idi. Sevgi də, gəncliyin istək və arzuları da yaradıcılığında geniş yer tuturdu. Xüsusən ilk şeirləri öz gəncliyindən doğan sevgi motivləri ilə zəngin idi. Şeir texnikasına gözəl bələd idi. Lirik və lirik-epik şerin əksər formalarında qələmini sınamışdır. Üsubu orijinal idi. Heç kəsi təqlid etmir, heç kəsin yolu ilə getmirdi. Həqiqi xalq adamı idi. Xalqın arasına getməkdən, vətənin

dağlarını, dərələrini, meşələrini, ovlaqlarını, tarixi abidələrini gəzib-dolanmaqdan və təsvir etməkdən zövq alırdı. Zəhmət adamlarını poeziyaya gətirirdi. Vətənin qədimliyi və gələcəyi naminə olanları vəsf etməkdən iftixar duyurdu.

Təbiət gözəllikləri ömrü boyu Sərdarı özünə çəkmişdir. Təbiətin çovğununu, boranını, ildırımını, tufanını, yağışını, dumanını, çənini, çiskinini sevirdi. Odur ki bu mövzularda yazdığı şeirləri də ürəkdən gəlirdi. Bu silsilədən «Yaylaqda yağış» şeri təkcə Sərdarın yaradıcılığında deyil, ümumən ədəbiyyatımızda xüsusi qiymətə layiq əsərdir. Şeri oxuduqca özünü az qala yağış altında hiss edirsən: *Yağış cığırları islatdı keçdi, Yağış pöhrələri ucaltdı keçdi, Yağış meydanını uzatdı keçdi, Ömrünü bir qədər yubatdı keçdi, Havalar üzünü bozartdı keçdi, Bulud – yanağını islatdı keçdi, Duman çadrasını çox atdı keçdi...*

Fikrin obrazlı ifadəsində ***buludlar çalmasını çaldı, yalmanını dartdı, otlar yaşıl köynəyini yudu*** və s. tipli metaforik ifadələrin mühüm rolu vardır:

Yenə çalmasını çaldı buludlar,
Yelli yalmanını ha dartdı keçdi.
Yaşıl köynəyini yudu göy otlar,
Ocaq yerlərində soyudu odlar,
Kösövlər gözünü qaraltdı keçdi,
Yağış ocaqları islatdı keçdi.

Təbiətin hüsnünün təsvirinə onlarca şeir həsr etmişdir. Bu şeirlərin bir çoxu nəğmə, mahnı üçün hazır mətndir. Lakin Sərdar özünütəbliğ ilə məşğul olmamışdır. Göy gölə həsr etdiyi şeirləri öz ritmi ilə musiqini də çəkib gətirmə gücünə malikdir:

Yaşıl sahili xoşladı
Bu gələn yazı Göy gölün.
Başladı, gör nə başladı
Söhbəti, sazı Göy gölün.

«Bizim dağlar» şerində «***Ana təbiətin qoyduğu xına Durur qayaların daş dırnağında***» kimi misralarla təbiət gözəlliklərini dilə

gətirən şair sevdiyi dağların ətirli bənövşələri ilə yanaşı, tufanına, boranına, çovğununa da məhəbbət bəsləyir:

Sənin çiçəyini mən çox dərmişəm,
Yolumu azmışam tufanında da.
Gəlsin, gecikməsin – görüş vermişəm,
Sənin çovğununla, boranınla da.

«Kürün söhbəti» poemasında təbiətin təsviri daha təbii və obrazlıdır:

Bağçalar kölgəli, havalar sərin,
Günəşli çöllərə nur ələnibdir.
Açılmış yaxası geniş göylərin,
Üfüqlər dağlara dirsəklənibdir.

Göylərin yaxasının açılması da, üfüqlərin dağlara dirsəklənməsi də şairin orijinal tapıntıları olub, estetik cəhətdən xoş duyğular doğurur.

İnsanların yaratmaq, qurmaq əzmi, yeni texnikanın insan məişətini yüngülləşdirməkdə rolu Sərdarı daha çox maraqlandırır, texniki yeniliklərə aid şeirlər yazırdı. Elektrikin hələ indiki qədər kənd məişətinə girə bilmədiyi bir dövrdə Sərdar elektrik işığının insan məişətində rolundan fərəhlə danışırdı. «Kürün söhbəti» adlı lirik poemasında bu cəhət daha qabarıqdır:

Tərpədib işlədir dəmir çarxları,
Muğanda ot çalır, yük çəkir işıq.
Qırxır sürüləri, qazır arxları,
Dağları düzləyir, yer əkir işıq.

Sərdarın şeirlərində müharibə mövzusu xüsusi yer tutur. O, müharibənin törətdiyi dəhşətləri nifrətlə xatırlayırdı. Özünün uşaqlıq və yeniyetməlik dövrü müharibə illərinə düşmüş, müharibə illərini ağlının hər şeyi mühakimə etməyə başladığı dövrdə yaşamışdı. Xalqın müsibətlərinin şahidi olmuşdu: «***Gülüşlər qurudu dildə, ağızda», «Hər gün axıb gələn qara kağızda Nə qədər analı ana ağladı!» «Çalağan kölgəsi yerdə gəzəndə Düşündük: xaç-nişan təyyarələrdir»***.(«Bizim nəsil») «Yanan memar» kitabında faşiz-

min sənət abidələrinə vurduğu yaraları şair ürək yanğısı ilə qələmə almışdır:

Bombalar yağdı göydən, qədim abidə yandı,
Neçə əlin sənəti, neçə qəlbin qüdrəti
Alovlanıb
Düşmənin arxasınca uzandı!
Əlində odlu silah, döşündə orden yanan,
Alışan abidənin alovu tək dayanan
Əsgər – memar da yandı,
Xoş arzular da yandı.

Bu elə bir yanğın və yanğıdır ki, illər keçsə də, o qədim abidənin alovu çoxdan sönmüş olsa da, memar onu unuda bilmir, abidənin məhvi ilə barışa bilmir. Təbii ki, bu cür dərdlər sağalan dərdlərdən deyil:

Uzaq düşən o illər sıra-sıra dayanır,
O qədim abidənin alovu sönmüşsə də,
Memar hələ də yanır,
Memar hələ də yanır!

Müharibənin dəhşətlərini görmüş bu gənclik bir ölkənin deyil, qitələrin, dünyanın dərdlərini düşünürdülər. Odur ki insanların doğma Yer kürəsinin qoynunda bir ailə kimi yaşadıqlarını deyil, silahla bir-birindən qorunduqlarını ürək ağrısı ilə qələmə alır, silah səsləri əvəzinə, Yer üçün nəğmə səsləri arzulayırdılar:

Qitələr bir-birinə keşik çəkir silahla.
Burda insan yatanda orda plan çəkirlər,
Düşüncə bomba olur, ixtira nüvə olur -
Fəzalarda partladır, dənizlərə tökürlər.

Sərdar həyatın, insan ömrünün təzadlarını düşünən şair idi. «İki ömür» şerində gəncliyin və qocalığın psixoloji aləmini ustalıqla qarşılaşdırmışdır. Şeir daxili aləmin xarici cizgilərlə həmahəng təsvirindən yaranmışdır. «***Birisinin gözlərində nur yanır, Birisinin ağ saçları daranır***» deyən şair həyat, əməl meydanına atılan

gəncliklə artıq böyük yol keçmiş və gücü xatirələrinə çatan qocalığın təzadlarını əks etdirmişdir:

Birisinə qüvvət verər iş, hünər,
Xoş arzusu bir-birinə qarışar.
O birisi sinəsini tərpədər,
Şirin-şirin xatirələr danışar.

Ata-ana məhəbbəti, övlad sevgisi Sərdarın şeirlərində ictimai məzmunu ilə seçilir. Övlad atanın yaratdıqlarını qorumalı, əkdiklərini becərməli, dünyaya valideynlərin, ulların gözləri ilə baxmalıdır. Ata məzarını xatırlayaraq dediyi sözlər, əslində, hər bir övladın valideynə borcunu təmsil edir:

Gözümlə dünyaya hey baxacaqsan,
Mən sənin yanına gələnə kimi. («Həmişəlik yuxu»)

Sərdarın şeirləri ona görə insan duyğu və düşüncələrinə təsir edir, insan duyğularını hərəkətə gətirir ki, məzmunu ilə yanaşı, ifadə tərzi də gözəldir. Azərbaycan dilinin təbiətinə yaxşı bələd olan şair onların üzərində çox işləmiş, şeirlərinin obrazlılıq keyfiyyətlərinə xüsusi diqqət yetirmiş, yeri gəldikcə fikrini xalq hikmətləri gücündə təsirli aforizmlərlə ifadə etmişdir: *Mən də o çıraqla yanım sübhəcən, İşıq yanmayırsa, ölübdür demək!* («Söndürmə») *Ayıq xoruz öz vaxtında banlayar, Səs eşidib banlamağa nə var ki!* («Xoruz banı») *Qadınsız Yer kürəsi bir bağ xəzəlliyidir, Onsuz stol, iş yeri Döyünməsi azalmış xəstə ürək kimidir*. («Onsuz») *İnsan düşüncəsinin Deyirəm Şer adlı Nə nadir övladı var!* («Şairin arzusu») *Sənətkar qocalar, sənət qocalmaz.* («Səni»). Və:

Əzəl gündən qaraya ağ deməzlər,
Məhəbbətdə yaxın, uzaq deməzlər.
Hər təpəyə vüqarlı dağ deməzlər,
Yay zamanı soyuq qarı olmasa! («Etibar»)

Bir filoloq kimi, sözün məcazilik imkanlarına yaxşı bələd idi, söz seçməyi, söz üzərində işləməyi, «sözün üstə əsməyi» bacaran sənətkar idi. Orijinal təşbih və epitetlər yaratmışdır. Klassik ədə-

biyyata, müasirlərinin dilinə yaxşı bələd olduğundan təkrara yol verməmək üçün daim yeni tapıntılara meyil etmişdir: *Gecənin saçlarına Yaşı ötmüş adam tək Yavaş-yavaş düşür dən.* («İki işıq») *Üstündə külək əsir, Mən söz üstə əsən tək*. («Günəş şəhəri») *Çöküb qəlbi dağlar təpələr kimi, Qayalar dağılıb qəlpələr kimi.* («Dağların dağı») *Gördü ki, bir qaya qalxıb at kimi, Tökür dırnağından torpağı, daşı*. («Təpə»dən yıxılan») *Qızaran dan yeri də Qırmızı yaylığıyla Silib atır gecənin Qalan qaranlığını*. («Günəş şəhəri») *Dağların enməsi hələ dağ deyil* («Dağların dağı») və s.

Bu misralarda tutarlı təşbihlər də var, epitet, metafora və frazemlər də. Bu cür məcazilik imkanları hər bir şerin yaşarı əlamətlərindəndir.

Sərdar gözəl qoşma və gəraylılar müəllifidir. Qədim aşıq poeziyasından gələn bir sıra mövzu-obrazlar – bənövşə, kəklik, çəmən, çiçək, dağlar və s. haqqında gözəl şeirləri var. Bunlar yeni duyğu və düşüncə ilə yaranmış obrazlar olmaqla, ifadə tərzindəki yeniliklərlə də diqqəti cəlb edir. Bu şeirlərdə şairin müraciət obyektləri ilə söhbəti daha səmimi və konkretdir:

Ya alqışla, ya da qına,
Şeir qoşdum mən adına!
Vurulmuşam qanadına
Səpələnmiş xala, kəklik! («Kəklik»)

Xoş nəfəsin – gülündədir,
Coşqunluğun – selindədir.
Qurbaninin dilindədir
Havaların, Diri dağı! («Diri dağı»)

Sərdarın «Görüş» şeri gözəl bir təcnis nümunəsidir. Bu şeir onun bir şair kimi xalq şerindən xüsusi ilham aldığını, ustalıqla cinas qafiyələr yaratma qüdrətinə malik olduğunu göstərir. Dillər əzbəri olan şeirlərdəndir:

Bahar gəldi, yaşıl geydi çəmən, ***düz,***
Dağ döşündə cərgələndi ***alaçıx.***
Səhər oldu, günəş çıxdı, əhdi ***düz,***

Gözləyirəm, a gözləri ***ala, çıx!***

Lal dayanıb, sən ağzına ***alma su****,*
Ötmüsən ki, zər-zibanı, ***alması!***
Al olsa da bağçanızın ***alması,***
Mən heyranam yanağında ***ala, çıx!***

Yad olsa da bizə dava, ***qan adı,***
Qan sözümü, bağrım başı ***qanadı,***
Sərdara sən verdin uçan ***qanadı,***
O da sənə könül verdi, ***al açıx!***

Yaxud «Yaxşıdır» şerinin aşağıdakı bəndinə diqqət yetirək:

De kim sevər o sözü ki, ***nəs ola,***
Söz o sözdür nə köhnələ, ***nə sola.***
Getmə, fikrim, sən nə sağa, ***nə sola,***
Hər ürəyin öz qərarı yaxşıdır.

Demək, Sərdar xalq aşıqlarının, haqq aşıqlarının söz demə mənziləsinə yüksəlmiş bir sənətkar olmuşdur. Qoşa hörükləri ağ papaq altında olan cavan və gözəl tibb bacısı haqqında: «*O, iynə vuranda yaşlılar:* ***İncidir****, deyir, Cavanlar: Özün də, iynən də* ***incidir****, deyir»* – misralarında ***inci*** sözündən həm fel, həm isim kimi istifadə etmişdir. Yığcam, ciddi məsələlərə toxunan bu cür şerləri Sərdar omoformların köməyi ilə ustalıqla yarada bilirdi:

Çoxu «əsər» oxudu,
Çoxu qarğış eylədi:
«Səni vursun ***kor ilan».***
Görə-görə dünyanı
Heç şey görə bilmədi
Təfəkkürdən ***kor olan!..***

Sərdarın şirin yumoru vardı. Şeirlərində yumora az meyil etsə də, yumordan istifadə imkanlarının zəngin olduğunu bilirdim. Ev işlərinə, ailə qayğılarına laqeyd qadınların tənqidinə həsr etdiyi

«Kişi gələndə» şeri hətta müəyyən dərəcə aydın istehza çalarına malikdir:

Bəs hanı çay, hanı xörək,
Öz yerindən bir qop, arvad!
Boş qabları fırıldadaq,
Gəl oynayaq top-top, arvad!.

Pəncərədən yellər doldu,
Saç ağardı, yanaq soldu.
Məni yeyən kartof oldu,
Mən yediyim kartof, arvad!

Həqiqi məhəbbətin tərənnümü, sevgidə ilk anlar baş verən tərəddüdlər Sərdarın qələmi ilə real cizgilərlə ifadə olunmuşdur. Hətta yeri gəldikdə elmi terminologiyadan şeir dilində istedadla istifadə edərək sevgilinin tərəddüdlərini təbii və orijinal şəkildə çatdıra bilmişdir:

Dolmuşam dalğalı ümmanlarında,
Qalmışam «gəlmə... gəl…» gümanlarında,
Azmışam felinin zamanlarında,
Qurtara bilmirəm müzare gözdən!

Sərdar Ağdam Müəllimlər İnstitutunun dil və ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib V.İ.Lenin adına APİ-nin eyniadlı fakültəsini də qurtarmışdı. Yaxşı oxumuş, yaxşı filoloji təhsil almışdı. Dilimizin incəliklərinə dərindən bələd idi. Sevgilinin fel zamanlarını – görüş vaxtlarını tez-tez dəyişməsi, gözlərindəki tərəddüdlər (müzare zamanın qrammatik mənasındakı olar-olmaz gümanı), təsdiq və inkar felləri nizamsız işlətməsi qrammatik məfhumlardan uğurla istifadənin tipik nümunəsi sayıla bilər. Sözə qənaət hissi onun yaradıcılığında mühüm yer tuturdu.

Onu tarixdən çox, müasir həyat, yaşadığı dövrün texniki tərəqqisi, zəhmət adamları, onların həyat eşqi maraqlandırırdı. Bir də təbiət – Azərbaycan təbiəti, Azərbaycanın gur şəlalələri, sinəsi yaşıl örtüyə bürünmüş dağları, meşələri, dərələri, çayları, bulaqları, ucsuz-bucaqsız tarlaları. Ata, ana, valideyn istəyi, ustad, müəl-

lim tərbiyəsi, sənətə, sənətkara münasibət, müharibələrin dağıdıcı qüvvəsi, insanların yaradıcılıq əzmi Sərdar Əsəd mövzularının nə qədər rəngarəng olduğunu göstərir.

Sərdar həyat eşqi yüksək olan bir insan idi. Zəhmət adamlarından, onların həyatından bəhs edən oçerklər yazırdı. Maraqla oxunan «Cərrah ürəyi», «Ağ saçlı Qafqaz», «Xatirə yarpaqları», «Qız anası», «Yer ulduzu» kimi poemaları vardır. Az vaxt ərzində xeyli kitab çap etdirmişdi. Hazırcavab bir şəxsiyyət idi.

1956-cı ildə yazdığı «Uzaq səfər» şerində «***Gələcək günlərim hey əl eyləyir», «Bəzən lal sulara durub baxıram, Bəzən qol atıram fırtınalarda»*** deyə həyatın təzadları içərisində gələcəyə ümidlə baxdığını bildirir, hələ ömür yolunun qalaq-qalaq illərdən keçəcəyini söyləyirdi:

Hələ yol gedirəm nə vaxtdan bəri,
Qarşıda illərim qalaq-qalaqdır.
Qəlbimdə od gəzir, dilimdə zəfər,
Qarşımda hələ ağ səhifələr var…
Mənim başladığım həyat dastanı
Ömrümün sonunda qurtaracaqdır!..

Lakin təəssüf ki, bu ömür yolu qısa oldu. 1929-un avqustunda doğulmuş, 75-in avqustuna bir ay qalmış vəfat etmişdir.

Sərdarın məşhur bir misrası var: ***Aralanıb gözümdən Fikrimdə yaşayırsan.*** («Yuxuda həqiqət») Bu 30 ilə yaxın bir müddətdə Sərdar mənim gözlərimdən aralanmış olsa da, daim fikrimdə yaşayıb. Bir mənim yox, ailəsinin, övladlarının, qohumlarının, oxucularının, sənət dostlarının fikrində yaşayıbdır.

Düşünürəm ki, Sərdar elə həyatdan cavan getməliymiş. Mən onu qoca yaşlarında təsəvvür edə bilmirəm. Gözlərim önündə daim həyata iti gözlə baxan, ədəbiyyatımızda öz sözü olan, yaxşı bir insan kimi sevdiyim şair Sərdar Əsədi görürəm.

Yaratdıqları qəlbimizdə xoş duyğular yaradır.

Və – Sərdarı yaşadır.

05.11.2004

ŞAİR FƏRQANƏYƏ MƏKTUB

Fərqanə xanım! Mən şeir məclisində söz verdim Sənə, «Qadın şeir yazmamalıdır, ev işləri ilə məşğul olmalı, xörək bişirməli, uşaq saxdamalıdır»,– dedin. Mənə bağışladığın kitabı açan kimi də «Siz məni qoymayın şair olmağa» şerinə rast gəldim:

Şairlər bölünməz, bütün olurlar,
Tüstüsü çıxmayan tütün olurlar,
Şair balaları yetim olurlar,
Siz məni qoymayın şair olmağa.

Bunlar müəyyən dərəcə doğrudur. Amma şair balaları tam yetim olmurlar. Şair balalarının şair olduğu hallar da var. «Tüstüsü çıxmayan tütün olurlar» – doğrudur. Çünki şairlər insanların ən həssas, ən zərif, ən duyğulu bir zümrəsidir, emosional keyfiyyətləri ilə seçilən bir təbəqəsidir. O ki qaldı qadın şair ola. O zaman bu həssaslıq, bu duyum bəlkə ikiqat artır.

Amma bir şair dözümü də var. Özün də deyirsən ki: «***Kimsələr çəkən bir dərdi Şairlər min qat keçirir***». Unudulmaz şairimiz Hüseyn Arif də havayı demirdi ki:

Dağların gözünün yaşına baxma,
Şairlər çəkəni dağlar çəkməyib.

Hiss edirəm ki, dediklərin çərxin gərdişindən rəncidə-xatir olduğun üçündür. Şeirlərini oxuyuram, bir daha bu qənaətə gəlirəm ki, xeyr, bu cür şeirləri elə qadın yazmalıdır – o həssaslıq, o səmimiyyət, insan təbiətinə o cür bələdlik, o cür ifadə tərzi qadına daha çox məxsusdur. Həssas qadın duyğu və düşüncələri elə xalis şerdir. Sənin şeirlərində heç kimə xas olmayan xüsusi bir təsir gücü var. Bu şeirlər insanı elə bir aləmə çəkir ki, orada təsvirə gəlməz bir hiss var. Bu hisslər insan qəlbində kədərli duyğular yara-

dır, müasir həyatın təsviri prosesində bizim bütün ulularımız, unutduğumuz keçmişimiz, böyük zəhmətlə yaşayan, qədr-qiyməti bilinməyən nənələrimiz, öz soyuq komasında acı taleyi ilə üz-üzə qalmış atalarımız xatirə gəlir. Sən elə detallar tapırsan ki, onları yalnız qadın deyə bilər. Sən elə dərdlərdən söhbət açırsan ki, onların üstündən kişilər çox zaman gözüyumulu keçirlər:

Əyninə özgə don geyməyən anam
Təndir tüstüsündən yüz don geyinib.
Başını bir kəsə əyməyən anam
Təndirə çatanda yüz yol əyilib.
Anam getməyəndə təndirə yaxın
Təndirin sinəsi çat-çat olubdu.

Qafiyələri demirəm. Çünki seçmə misralar verirəm. Düşünən üçün buradakı hisslər çox səmimidir, təsirlidir. Reallıq da güclüdür. Göz önündə zəhmətlə yoğrulmuş bir insanın – el anasının heykəli canlanır, damarları çıxmış əlləri görünür, müqəddəs bir işlə – çörək bişirməklə məşğul olan ana əlləri. Belə bir qadın ömür boyu 41-ci ildə başlayan tarixi faciənin də yükünü daşımış, ərdən, oğuldan, qardaşdan məhrum olmuşdur:

Nə az, nə də ki çox – 41-dən bəri
Qırmızı geyinə bilməyir Anam.

Qardaş pencəkləri mıxçada qalıb,
Nişan üzükləri boxçada qalıb,
Qırmızı geyinə bilməyir Anam.

Anam sözünü böyük hərflə yazsan da, bu tək Sənin anan deyil, səndən bir qədər böyük və ya kiçik bütün nəsillərin anasıdır, elə mənim də anamdır. Yoxsulluq, boş qalan un kisəsi, çat-çat olan təndirlər bir yana, boxçada qalan nişan üzükləri, asılqanda qalan cavan ata, qardaş geyimləri, bir tərəfdən də Qarabağ dərdi. İnsan nə qədər dözümlü olarmış!

Düz düşünürsən, dağlarımızı da zaman-zaman vəzifə və vardövlət hərisləri satdılar:

Daha nəyin qalıb, haran göynəsin,
Dağlara dağ çəkdik, aran göynəsin,
Qoy bir az duz səpim, yaran göynəsin,
Laçınsız, Laçını oynama, qardaş!
O ilan eləcə əfi yıxılsın,
Nizamı pozulsun, səfi yıxılsın,
Qoy elə düşmənin evi yıxılsın,
Dağlar da qalmadı çıxım dağlara.

Şəhidlik zirvəsi: «***Sənin balan bu torpağa dönübsə, Ağlama, şəhid anası, ağlama!***»– deyirsən. Hamımız belə deyirik. Amma bu xalqın günahı nə idi ki, durduğu yerdə qana çalxandı! Təsəlli veririk. Amma özün də bilirsən ki, yüz təsəlli bir övladın bir tükünə dəyməz.

Çobanı sürüdən çoxsa,
Çomaq qoymağa yer yoxdu.
Başımızı itirmişik,
Papaq qoymağa yer yoxdu –

misraların çox şey deyir və əslində, bunları izah etməyə ehtiyac da yoxdur. Çünki bunlar reallığın həqiqi bədii ifadəsidir. Papaq söhbəti çox düşündürücüdür. Pisi də budur ki, bu barədə kişilər yox, qadınlar düşünür.

Ürək qanı, ürək qubarı, ürək qabarı ilə yazırsan. Odur ki misraların zəmanə işləklərini, özün demişkən, çox «dadlı» ifadə edir, insanların ürəyinə yol tapır:

Ürək qabarından yaranan şerin
Çox güman, tikəsi dadlı çıxacaq.

Dilindəki təbiiliyin, şirinliyin mühüm səbəblərindən biri təsirli xalq ifadələrinə çox meyilli olmağın, şeirlərinin bir çoxunu xalq arasında tez-tez rast gəldiyimiz təbii ifadələrlə bitirməyindir: *Üstəlik dağ çəkdi dağım dağlara. Ay allah, sən özün xeyirə döndər* (xalq «xeyirə cala» deyir), *Yaman ah çəkirəm, ahım dağlara… Qəbrimin*

üstə qoymağa Başıma düşən daş bəsdi. Səni suallardan yarıdan dünya, Mənə cavabında kəsirdə qalıb. Çox mələklərə baxanda Şükür şeytanına, Allah!.. Qınamayın, dəli kimi, Durub oynamağım gəlir. Ana, apar məni göz həkiminə, Deyəsən, dünyanı kor gəzirmişəm. Yarandığım gündən evim tikilib – kimi misra və beytlərinin hamısı dərin ictimai fikirlər ifadə edir..

Xoş və rahat gecələr… Gündüzün düşüncələri gecələr beyin rahatlığından sonra yenidən təzələnir. Hələ yuxunu görməmiş, durub yozmaq istəyirsən – maraqlı düşüncələrdir. Yaxşı duyğulardır:

Birinci oxucum mələklər idi,
Bu gecə yuxuda şeir yazırdım.

Bunlar bir daha təsdiq edir ki, allah fədailəri allah məkanında yer tutduqları kimi, sənin də ruhun şeir aləmində qərar tutub. Ayrıla bilməzsən bu aləmdən.

Bizi kövrəltmə, Fərqanə! Bu dediklərin bütün insanların son nəsibidir:

Özümdən savayı, şəklimə qədər
Xatirə gecəmə gələcək dostlar.

Kövrəltmə və tələsmə. Çünki Səndə Natəvanın, Heyran xanımın qüdrəti var. Sənin mövzuların çox rəngarəng və son dərəcə tipikdir, yəni zəmanənin gərdişindən, haqqın öz yerində olmamasından doğan bir üsyankarlıqdır. Yaşayırıq, yaşımız artır, başa düşürük ki, indimiz də elə keçmişimiz kimidir. Nə qədər ki sərvət hərisləri var, nə qədər ki insan hələ ali məqsədlərlə yaşamır, özünə lazım olandan çox götürmək istəyir, nə qədər ki insan qurub-yaratmaq, namusla yaşamaq əvəzinə oğurluqla, spekulyasiya ilə məşğuldur, nə qədər ki dostbazlıq, qohumbazlıq, yerliçilik hər şeyə hakimdir və nə qədər ki ixtiyar bu saydıqlarımın əlindədir, yüksək düşüncəli insanlar bu həyatdan narazı qalacaqlar, quruluşa, qurğuya lənətlər oxuyacaqlar. Sənin də fələk belini əymiş qəhrəmanının gücü yalnız dilinə çatır, əlindən heç bir şey gəlməsə də, dünyaya lənət oxumağı bacarır: «***Gözü də seçmirdi oxusun yazılanları, Amma lənət oxuya bilirdi düşdüyü günə»***.

Hələ 900 il əvvəl filosof-şair Xəyyam havayı demirdi ki:

Əlimdə olsaydı əgər ixtiyar,
Bu köhnə dünyanı kökündən yıxar,
Elə bir yepyeni aləm qurardım
Ki, hər kəs yaşardı azad, bəxtiyar.

900 il əvvəl feodalizm idi. Amma hələ bu gün də insanların başı feodal düşüncəsindən xilas ola bilməyib. Odur ki bizdən asılı heç nə yoxdur. Zaman ötməli, insanların başı düzəlməlidir. Biz görməsək də, o gün gələcək.

Amma onu deyim ki, bir çox hallarda zəmanədən şikayət motivləri ilə yüklənmiş şeirlərin birdən zəmanə əngəllərinə sarığa (dolağa) çevrilir. İstəsən, yaxşı yumorlu şeirlər də yaza bilərmişsən: «Daşyonanla söhbət» şerin istehza ilə yaranmışdır və geniş mənada yaxşı şeirdir. Doğrudur, onun işi də həyatın tələbindən irəli gəlir, amma Sənin dediklərin də yaxşıdır, bəsidir:

İstəyirsən bir beh verim,
Yaxşısını mənə saxla.
İndidən alım, sonralar
Bəlkə heç pulum olmadı.
Nə qəribə peşən varmış,
Görüm mübarək olmasın!
A müştəri gözləyənim,
Allah heç bazar verməsin!

Yaxşı tapıntıların var. İnanmırsan, bax:

Gücüm də çatmır ki, hayına çatım,
Atılan daşlar da tutub bostanı.
Deyirlər, kənd-kəsək öz yerindədi,
Balaca böyüyüb kənd qəbristanı.

Misraların mənasını izah etmirəm, ona görə ki kəndin vəziyyətini çox aydın ifadə edir: kənardan atılan soyğunçuluq, rüşvətxorluq, məsuliyyətsizlik, laqeydlik daşları kəndlinin olub-qalanını da məhv edib, kənd özü yox, qəbiristanı böyüyüb. Şerin son misralarında istehza daha kədərlidir. Kəndin ağır kədər doğuran vəziyy-

ətinin təsvirindən sonra «Ata, oralarda ta nə var, nə yox?» misrası ilə Sən kinayənin yüksək qamması olan sarkazma keçmisən – acı sarkazma:

Əcəl boylanırmı uçuq barıdan,
Ata, oralarda ta nə var, nə yox?

Bu cür şeirlər («Atama məktub») insanı düşündürür və düşünürsən ki, insan 6 milyon il yol gəlsə də, hələ əcdadlarının vəhşilik keyfiyyətlərindən məhrum olmayıb. Əlində ixtiyar olanların hərisliyi odunsuz-ocaqsız uçuq evlərdə yaşayanların əllərini qoynunda dondurub.

Deyirsən ki:

Kəsmə qabağımı, başına dönüm,
Gedirəm Tanrıya qonaq olmağa.

Tanrıya qonaq ola bilmək də asan deyil. Bunun üçün elə bu dünyanın əzablarına dözə bilmək lazımdır. Dini kitablarda deyilir ki, yalnız dünyanın əzablarına dözməklə allah fədaisi olmaq olar.

Niyə kədərlisən, Fərqanə? Nəyin çatmır?..

31.10.2004

IV
MÜASİRLƏRİMİZ: DOĞMA VƏ YAXIN ADAMLAR

ALİM ÖMRÜ

60-cı illərdən bu tərəfə keçdiyimiz yola nəzər saldıqda qürur doğuran fərəhli hadisələrdən biri kimi, bu illərdə «altmışıncılar» hərəkatının istedadlı nümayəndələri olan görkəmli filoloq alimlərin yetişdiyini görürük. Belə alimlərdən biri də filologiya elmləri doktoru, Nəsimi adına Dilçilik İnstitutunun türkologiya şöbəsinin müdiri Həsən Kərəm oğlu Quliyevdir.

Həsən Quliyev Gədəbəy rayonunun Zamanlı kəndində anadan olmuşdur. M.F.Axundov adına Dillər İnstitutunun Qərbi Avropa dilləri fakültəsini (alman dili şöbəsi) bitirdikdən sonra Nizami adına Ədəbiyyat və Dil İnstitutu nəzdində aspiranturaya daxil olmuş, lakin hərbi xidmətə çağırıldığı üçün yalnız 1964-cü ildən elmi-pedaqoji fəaliyyətini davam etdirə bilmişdir. H.Quliyevin xoşbəxt taleyi bir də bununla şərtlənib ki, ilk yaradıcılıq illərindən geniş türkoloji arenaya çıxa bilmiş, aspirantura dövrünü Aşqabadda keçirmişdir; məqsədli aspirant kimi araşdırmalara məhz burada başlamış və Orta Asiya respublikalarının dilçilik aləminə bələd olma imkanı qazanmışdır. 1969-cu ildə namizədlik, 1992-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

Alimin araşdırmalarının baş mövzusu feldir. Görkəmli Avro-

pa və rus türkoloqlarının, Azərbaycan dilçilərinin, ayrı-ayrı türk xalqları dilçilik elminin nailiyyətlərini böyük zəhmətlə öyrənməsi nəticəsində fellərin türk dillərində qrammatik və semantik xüsusiyyətlərinə dair zəngin bilik əldə etmiş, aldığı elmi təcrübə və öz duyğu-düşüncələri əsasında maraqlı elmi nəticələrə gəlmiş, qiymətli tədqiqat əsərləri ortaya çıxara bilmişdir. Rus və türkmən dillərini mükəmməl bilməsi H.Quliyevə bu sahədə geniş meydan açmış, böyük imkanlar yaratmışdır.

Dilimizin elmi şəkildə öyrənilməsində, elmi morfologiya və sintaksis kurslarının yaradılmasında Dilçilik İnstitutunun buraxdığı kitabların, xüsusilə üç cildlik «Müasir Azərbaycan dili» monoqrafiyasının böyük rolu olub. Həsən müəllim bu kitabların əsas müəlliflərindən olmaqla bərabər, bir tərəfdən də, 70–80-ci illərdən öz əməyini yeni filoloji kadrların yetişdirilməsinə yönəldə bilmişdir. Türkologiyanın müxtəlif problemləri, o cümlədən nitq mədəniyyəti məsələləri ilə ardıcıl məşğul olan H.Quliyev iki cildlik «Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası» kitabının da əsas müəlliflərindəndir.

Azərbaycan elminin xaricdə tanınmasında Həsən Quliyevin xüsusi xidmətləri vardır. Dünyanın bir çox şəhərlərində – Moskva, Sankt-Peterburq, Daşkənd, Almatı, Ufa, Çeboksar, Ujqorod, Yekaterinburq, Kişinyov və s.-də keçirilən böyük elmi konfranslarda türkologiyanın aktual problemlərindən məruzələr etmiş, Azərbaycan türkologiya elminin nailiyyətlərinin geniş elm aləminə çıxarılmasında xeyli əmək sərf etmişdir. Avropa, rus və türk xalqları arasında geniş şöhrət qazanmış, müxtəlif xalqların filologiya və tarixşünaslıq sahəsində nailiyyətlərini yayan «Türkologiya» jurnalında ardıcıl çıxış edir. Bu jurnalın çoxsaylı oxucuları onun müxtəlif illərdə dərc olunmuş 20-dən artıq məqaləsi ilə tanış olmuşlar.

Həsən müəllim yalnız türk dillərinin quruluş xüsusiyyətlərinin tədqiqi ilə məşğul olmur, o, Azərbaycan dilinin sosial-iqtisadi problemlərinin həllində xüsusi mövqeyi, fəal iştirakı olan alimlərimizdəndir. Rəhbərlik etdiyi şöbənin iş planında türk dillərinin əlaqəli öyrənilməsi ilə bağlı istək və arzularının genişliyi müşahidə olunur. Lakin çap işinin çətinliyi ucbatından şöbənin cild-cild əsərlərinin yığılıb qalması təəssüf doğurur.

Həsən Quliyevin bir alim kimi yetişməsində akademik M.Şirəliyevin, respublika EA-nın müxbir üzvü N.Ağazadənin, Türkmənistan EA-nın müxbir üzvü Z.Məhəmmədovanın böyük xidmətləri olmuşdur

Hörmətli alimin həyatı daha çox Nəsimi adına Dilçilik İnstitutu ilə bağlı olmuşdur. Lakin onun fəaliyyəti yalnız bu institutla məhdudlaşmamış, o, ali məktəblər və elmi mərkəzlərlə daim əlaqə saxlamış, müxtəlif fənlərdən dərs demiş, dəfələrlə Pedaqoji Universitetdə, Dillər institutunda dövlət imtahan komissiyalarına rəhbərlik etmişdir.

Həsən müəllim səmimi adamdır, təmiz adamdır, pərdələmədən sözün doğrusunu deyən adamdır. Belələri həmişə ictimai həyatla mübarizə meydanında olur. Daim haqq uğrunda vuruşa-vuruşa yaşayır. Çətinlikləri çox olsa da, belələri insanlıq yolundadır.

İndi Həsən müəllim şərəflə, vicdanla yaşadığı ömrünün 60-cı baharındadır. Dönüb geriyə – 60 illik həyat yoluna, 40 illik elmi-pedaqoji və ictimai fəaliyyətinə nəzər salıb, bu həyatda faydalı iz qoyduğu üçün fərəhlənə bilər.

30.10.1998

MƏNƏVİ XƏZİNƏMİZİN YORULMAZ TOPLAYICI VƏ TƏDQİQATÇISI

Əzizim Mürsəl!

Səninlə ilk tanışlıq 43 il əvvəl yaddaşıma bir «Həkimov» familiyası həkk edib. O vaxtdan şüurumuzda bir «Mürsəl Həkimov» fenomeni yer tutmaqdadır. İlk görüş – əsgər paltarında! Bizdən bir qədər dolu, gövdəli və şax yerişli, ötkəm – dilli-dilavər! Sadə, təvazökar, təmiz ürəkli bir gənc! Gənclərin zəhmətsevər ağsaqqalı, fakültənin idman yarışlarının qalibi – məşhur güləşçi MÜRSƏL HƏKİMOV!

Sənin bir dəfə bir adamla, bir tələbə yoldaşınla sözləşdiyin yadıma gəlmir. Hamını yola verərdin. Ağsaqqallıq edərdin. Barmaqlarının estetik gücü hamımızın barmaqlarından artıq idi. Adi quaşla gözəl şəkillər çəkər, müxtəlif rəngləri qarışdıraraq gözəl yazılar yazar, yoldaşlarımızın dəftərlərini bəzərdin.

Lap başlanğıcdan, ilk kursdan əl-qol atır, çabalayır, istiqamətini tapmağa çalışırdın. Yadımdadır ki, ilk kursun ilk semestrində bizim böyük müəllimimiz Mikayıl Rəfiliyə müraciət də etdin: «Professor, bir məqalə yazmışam». Biz təəccüb etdik. Elə professor da təəccüb etdi: «Nə tez? Axı sən kimi oxumusan ki, məqalə yazırsan?» Yadındadırmı, Gertseni, Belinskini, Dobrolyubovu, Çernışevskini xatırlatdı. «Hələ oxumaq lazımdır» dedi. «Yazacaqsan, qüsurların olacaq, … kimi uşaqlar yapışacaq yaxandan»– dedi. Biz oxumağa başladıq. Həqiqətən də, oxuyurduq və çox oxuyurduq. Xarici ədəbiyyat nümunələrinin bir çoxunu latın qrafikasında növbə ilə oxuyurduq – kitab çatmırdı, vaxt kifayət etmirdi. Tarix fakültəsi ilə ədəbiyyatı birləşdirdikdən sonra lap çətin oldu – 8–10 saat dərs keçirdik. Yeməyə də bir şey yox idi, dev kimi yoldaşlarımız xəstələndi – vərəm oldu. Amma baxmırdıq, oxuyurduq.

İkinci kursda artıq istiqamətlər müəyyənləşməyə başlamışdı: sən elmə, mərhum yoldaşımız Sabir bədii yaradıcılığa meyillənməkdə idiniz. Çox zaman səni çarpayıda uzanıb məqalənin, Sabiri yorğanı başına çəkib hekayənin süjetini düşünən görərdim. Maraqlı günlər idi. Hərdən yuxuya getdikdə birinizin o birini təpik-

ləyib oyatdığını da deyib-gülürdük. Bu məqamlarda bəzən şirin yuxudan səksəkəli ayılma əsəbiliyə də səbəb olurdu. Amma əsəbilik çox çəkməzdi.

II kursun sonlarında sən mənim komsomol fəaliyyətim, fakültədə təşkilatçılıq işim, qovulmalı olan yoldaşı necə xilas etdiyim barədə respublika radiosunda oçerk oxumuşdun, uşaqlar yaman təəccüb edirdilər respublika radiosuna çıxa bilməyinə.

Biz beş il eyni qrupda, eyni auditoriyaların tələbəsi, eyni yataqxananın sakini olduq, eyni qabdan xörək yedik… Bakıxanov – 58 hər cəhətdən bizim məskənimiz idi. Tale bizi bura bağlamışdı. Dərslərimizi buranın balaca oxu zalında hazırlayır, kartofumuzu buranın mətbəxində qızardırdıq: rəqslərimiz, çalıb-oxumağımız yataq otaqlarında olardı, deyib-gülməkdən, zarafatdan, elmi mübahisələrdən yorulmazdıq… Əla da yoldaşlarımız vardı: İlyas, Xasay, Sabir, Qorxmaz, Əjdər, Nəriman, Əhəd… İndi bir çoxları haqq dünyadadır, – biz sağ olduqca onları qəlbimizdə yaşadacağıq. Onlar biz olduqca bizimlədir.

Sən nikbin adam olmusan. Heç bir çətinlikdən qorxmamısan. Güc də olsa, gec də olsa, istədiklərinə çatmısan. Ailə qurmusan – gözəl oğul-uşaqların, nəvələrin var. Bunlar səni yaşadacaq, nəslini III minilliyin dərin qatlarına aparacaq.

Amma səni daha çox öz zəhmət və istedadının bəhrələri yaşadacaq. Sən el aşığı, el ağsaqqalı kimi müdrik idin, ona görə də öz yolunu tapdın, öz yolunu düz müəyyənləşdirdin: folklor yoluna düşdün. Folklor yolu kəhkəşanı andırır, bitib-tükənməzdir. Sən bu bitib-tükənməzlik içərisində əlləşirsən, onların – min illərin sınağından çıxmış zərif duyğu və düşüncələrin insan yaddaşından kitablara köçürülməsi yolunda misilsiz iş görürsən. Alqışlar, qarğışlar, öyüdlər, nəsihətlər, məsəllər, atalar sözləri, bayatılar, nağıllar, əfsanələr, əsatirlər, dastanlar səninlə həmnəfəs olub. Sən öz nəfəsinlə, öz qələminlə, öz zəhmətinlə onlara dirilik gətirirsən, minilliklər keçib-gəlmiş xəzinənin ömrünü növbəti minilliklərə qovuşdurursan.

Sən xalqın mənəvi xəzinəsinin toplanmasında təkbaşına bir institut qədər iş görmüsən. Bunu səni sevən xalqın unuda bilməz. Gələcək nəsillər sənin hər bir kitabını vərəqlədikcə gözləri önündə bir «Mürsəl Həkimov» canlanacaq. Xoşbəxt adamsan ki, gənclik

illərindən sənin kitabların tələbələrimizin stolüstü kitablarıdır. Gəncliyin elmi-mədəni inkişafında xüsusi xidmətlərin var. Qırx ilə qədər bir dövrdə qırxa qədər nəslin yetişməsinə əmək sərf etmisən. Onların hamısı sənin zərrələrindir ki, respublikamızın bütün bucaqlarına yayılıb. Onların hər birinin qəlbində bir Mürsəl Həkimov humanizmi, bir Mürsəl Həkimov xeyirxahlığı var.

Digər türk xalqları ilə mədəni əlaqələrin sənin kömək və görüş dairənin genişliyini göstərir. Cəsarətin, sözü üzə deməyin, haqqı nahaqdan ayırmağın səni sevdirir, sənə rəğbəti artırır.

Sən indi folklor sahəsində canlı klassiksən. Hümmət Əlizadə, Əmin Abid, Məmmədhüseyn Təhmasib, Salman Mümtaz, Əhliman Axundov və başqalarının XX əsrin ikinci yarısına məxsus ən görkəmli varislərindənsən.

Biz nə etmişiksə, gələcək üçün etmişik. Yuxusuz gecələrin bəhrəsi olan cild-cild əsərlərin qiyməti gələcəkdə bilinəcəkdir. Nə qədər ömrün var, yaz, yarat.

Əziz qardaşım! Sənin 70 yaşını təbrik edirəm. «70» deyirəm, amma inanmazsan ki, inanmıram və bu sözü sənəd faktı olan bir rəqəm kimi yazıram. Səni 50-ci illərin ikinci yarısında gördüyüm kimi görürəm. Sənə can sağlığı, uzun ömür, ailənə, nəvə-nəticələrinə xoşbəxtlik arzulayıram.

Gözəgörünməz xeyirxah qüvvələrin əli daim kürəyində olsun!

Amin!

Qardaşın və tələbə yoldaşın
Qəzənfər KAZIMOV
May 1999

YETMİŞƏ BİR QALANDA

Akademik Bəkir Nəbiyev, «Soraq kitabı». Çox-çox təəssüf və təəccüb edirəm ki, bu kitabda hamı var, mən yoxam. Bəkir müəllimlə tanışlığımızın dəqiq tarixini yadıma sala bilməsəm də, elə bilirəm, bir qərinədən çoxdur. Hələ lap 70-ci illərin əvvəllərində qızmar yay günlərində Bəkir müəllimin sədrliyi ilə apardığımız dövlət imtahanları uzaq bir xatirə kimi yaddaşımdadır. Bəzən iyula qədər uzanıb gedən bu imtahanlarda istidən dözmək olmur, dildodaq quruyurdu. Bəkir müəllimdən gizli bir sirr öyrənmişdik – dəsmalı soyuq su ilə isladıb əlimizdə saxlayırdıq və bu bizə bir qədər sərinlik gətirirdi. Yadıma gəlmir və elə bir hal olmayıb ki, Bəkir müəllimin imtahanlarında bir narazılıq özünü göstərsin. Nə qədər mehriban, mülayim, səmimi, nə qədər həssas, qayğıkeş və eyni zamanda tələbkar, obyektiv bir insan!..

Bu cür xatirələr işığında dekan işlədiyim 90-cı illərdə də Bəkir müəllimi N.Tusi adına Pedaqoji Universitetin filologiya fakültəsinə dövlət imtahan komissiyasının sədri dəvət etmişəm. Bu vaxt Bəkir müəllim artıq Nizami adına Ədəbiyyat və Dil İnstitutunun şöbə müdiri deyil, Azərbaycan Elmlər Akademiyası ədəbiyyat, dil və incəsənət bölməsinin akademik katibi, Əməkdar elm xadimi, respublika dövlət mükafatı laureatı idi və 700-dən artıq əməkdaşı əhatə edən Nəsimi adına Dilçilik, Nizami adına Ədəbiyyat, Füzuli adına Əlyazmaları İnstitutlarının, Terminologiya Komitəsinin, Nizami adına Ədəbiyyat muzeyinin, «Türkologiya» jurnalı və «EA xəbərləri»nin, Mərkəzi Elmi Kitabxananın, neçə-neçə başqa müəssisənin əlaqələndiricisi, rəhbəri idi. «Gələrəm» dedi, gəldi və obyektivliyi, saflığı, təmizliyi, nüfuzu ilə köməyimə də çatdı: kafedra müdirlərindən biri dövlət imtahanlarına bərk meyil edir, mənim seçdiyim müəllimi uzaqlaşdırıb özü imtahan götürmək istəyirdi. İş o yerə çatdı ki, mən: «Olmaz. Biz təmizliyə çalışırıq, siz başqa məqsəd güdürsünüz» dedikdə xeyli aralıda dayanmış Bəkir müəllim dərhal situasiyanı tutub yaxınlaşdı və «Mən də buna yol verə bilmərəm» dedi. Kafedra müdiri çəkilib getməli oldu.

Bəkir müəllimi dinləyəndə həmişə yadıma Şəhriyarın bir misrası düşür: «Söz ağzında ərirdi yağlar kimi». Onun səsi, sözü ipək

kimi yumşaq olduğundan dinləyiciyə əvəzsiz təsir bağışlayır. Haqqında söz açmaq istədiyim, təzəcə çapdan çıxmış soraq kitabında 90-a yaxın elm, ədəbiyyat, incəsənət xadiminin, yazıçı, şair, musiqiçi, rəssam və muzey işçisinin Bəkir Nəbiyev və onun yaradıcılığı barədə mülahizələri, fikir, arzu və istəkləri ifadə olunmuşdur. Bunların, demək olar ki, əksəriyyəti Bəkir müəllimin şifahi nitqinin gözəlliyi, elmi üslubunun səlisliyi, səmimiliyi, şirinliyi, obyektivliyi haqqında söz demişdir. İmkan olsa, onların hamısının sözlərini bura köçürərdim. Lakin bu bir neçə nümunə də təəssürat üçün kifayətdir: «*Bəkirin səsi və sözü ilahinin vergisidir və bu vergi millətimizin sərvətidir*». (Oqtay Salamzadə) «*Dilimiz onun nitqində daha da gözəlləşir*». (Ağamusa Axundov) «*O bu dili elə incəliyilə, elə zəngin çalarlarıyla və elə gözəl tapıntılarıyla işlədir ki, qeyri-iradi düşünürsən: bu dil – dahi xalqın dilidir, bu dil ölməzdir*». (Gülrux Əlibəyli) və s. Bu qabiliyyət, heç şübhəsiz, nəsillə, köklə bağlıdır. Bəkir müəllim kitaba yazdığı ön sözdə babası Molla Məhəmmədin «yüksək dini savadı, gözəl tələffüzü» olduğunu qeyd edir.

Daim xalqının xidmətində duran, ona öz xeyirxah əməlləri, bilik və təcrübəsi ilə kömək edən bu insanlar – bu ailə əslən Qəbələnin Mıxlıqovaq kəndindən olmuş, XIX əsrin əvvəllərində Ağdaşın Üçqovaq kəndinə köçmüşlər. «Molla Nəbi uşağı» adlanan bu ailənin sovet dövründə başı bəlalar çəkmiş, Bəkir müəllimin atası Əhməd Məhəmməd oğlu, əmisi Nəbi Nəbiyev 37-ci il repressiyasının acı nəticələri ilə üzləşmişlər. Yoxsulluq və «ləkəli» günlərdən ailəni Bəkir müəllimin anası Seyid Zəhra xanım çıxarmışdır. Repressiya «ləkəsi» sonralar Bəkir Nəbiyevin orta məktəbi bitirərkən qızıl medal almasına mane olduğu kimi, ali məktəbdə təqaüd almasına da mane olmuşdu.

Kitabın əvvəlində verilmiş «Elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri» adlı bölmədən aydın olur ki, Bəkir Nəbiyev 12 yaşından çəkməçi yanında şagird, barama zavodunda fəhlə kimi əmək fəaliyyətinə başlamış, 15 – 17 yaşlarında Ağdaş rayon yerli radio verilişləri redaksiyasında diktor işləmişdir. 1954-cü ildə ADU-nun filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, iki il sonra orada Azərbaycan ədəbiyyatı tarixi kafedrasının aspi-

rantı olmuş, 1960-cı ildə namizədlik, 1970-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

Bəkir müəllim çox erkən – 17 yaşından yeddiillik və orta məktəblərdə dərs deyib. Sonralar bu sahədə fəaliyyəti ali məktəb auditoriyalarına keçmiş, Pedaqoji İnstitutda, 3 nömrəli Tibb texnikumunda, Müəllimləri Təkmilləşdirmə İnstitutunda, Azərbaycan Dövlət Universitetində ədəbiyyat tariximizdən, tənqid tarixindən, müasir ədəbi prosesdən dərs demişdir. 1994-cü ildən Təfəkkür Universitetində filologiya kafedrasının müdiridir.

Müxtəlif vaxtlarda paralel olaraq «Kommunist», «Azərbaycan gəncləri», «Ədəbiyyat və incəsənət», «İnşaatçı» qəzetlərində ədəbi işçi, şöbə müdiri, redaksiya heyətinin üzvü, tərcüməçi olub.

25 aprel 1951-ci ildən mətbuatda çıxış edən Bəkir Nəbiyev Nizami adına Ədəbiyyat və Dil İnstitutunda kiçik elmi işçi kimi fəaliyyətə başlamış, elmi katib, baş elmi işçi, şöbə müdiri vəzifələrində çalışmışdır. 1971–1987-ci illər arasında Nizami adına Azərbaycan Ədəbiyyatı muzeyinin direktoru, 1987 – 1990-cı illərdə Azərbaycan Mədəniyyət Fondunun sədri olmuşdur. 1987-ci ildən Azərbaycan EA-nın Ədəbiyyat, Dil və İncəsənət bölməsinin akademik katibidir. 1983-cü ildə EA-nın müxbir üzvü, 1989-cu ildə həqiqi üzvü seçilmişdir. 1978-ci ildə «Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı» monoqrafiyasına görə Dövlət mükafatına layiq görülmüş, 1990-cı ildə Əməkdar elm xadimi adı almışdır. Yazıçılar və Jurnalistlər birliklərinin üzvü olan B.Nəbiyev həm də «Qızıl qələm» mükafatı laureatıdır. «Xalqlar dostluğu» ordeni (1986) və neçə-neçə fəxri fərmanlarla təltif edilmişdir.

Hörmətli alimin əmək və iş əlaqələri çox zəngindir. Qeyd etdiyimiz işlərlə yanaşı, Təhsil Nazirliyi nəzdində ədəbiyyat elmi-metodiki şurasının sədri, Azərbaycan ensiklopediyasının məsləhətçisi, Azərbaycan-Pakistan Dostluq Cəmiyyətinin sədr müavini, Terminologiya Komitəsi sədrinin müavini, «Azərbaycanfilm» kinostudiyasında bədii şuranın, Qafqaz Müsəlmanları İdarəsi nəzdində Elmi-Dini Şuranın üzvü kimi geniş sahələrdə fəaliyyət göstərmiş və bunların bir çoxunda fəaliyyətini davam etdirməkdədir.

Elm aləminə ilk kitabını 1963-cü ildə təqdim edən Bəkir müəllim artıq 40-a qədər kitabın müəllifidir. Bunların əksəriyyəti Azər-

baycan ədəbiyyatının müxtəlif problemlərinə həsr olunmuş monoqrafiyalardan ibarətdir. Rus və ingilis dillərində kitabları, bir sıra tərtibləri, məqalə topluları, orta məktəbin 5, 6 və 11-ci sinifləri üçün dərslikləri Bəkir müəllimin istedad və zəhməti necə ustalıqla birləşdirə bildiyini sübut edir. Mərkəzi qəzet və jurnallarda dərc etdirdiyi məqalə və resenziyalarının ümumi sayı 550-yə qədərdir. 60-a qədər kitabın redaktoru olmuşdur. N.A.Nekrasovdan, C.Londondan tərcümələri vardır. Əsərləri, elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında 150-dən artıq məqalə yazılmışdır. 20-dən artıq elmlər doktoru və elmlər namizədi yetirmiş, bundan daha artıq namizəd və doktorun opponenti olmuşdur. Bütün bunlar son dərəcə böyük zəhmətin, xüsusi ilham və istedadın məhsuludur və «Bəkir Nəbiyev» imzasını mədəniyyət tariximizə əbədi həkk edən ən qiymətli sərvətdir.

Bəkir müəllimin ədəbi, elmi yaradıcılığına, pedaqoji və ictimai fəaliyyətinə son dərəcə həssaslıq və məhəbbətlə yanaşan tərtibçilər – ədəbiyyat, dil və incəsənət bölməsinin elmi katibi Gülarə Rəsulova və Aygün Hüseynzadə biblioqrafik materialdan sonrakı hissəni beş bölməyə ayırmış, müəllimlərinin, ədəbiyyatı yaradanların, əməl və məslək dostlarının, məsafəcə uzaq, qəlbən yaxın həmkarlarının, tələbələrinin Bəkir müəllim haqqında ürək sözlərini vermişlər. Biz burada ilk növbədə C.Xəndan, Ə.Dəmirçizadə, F.Qasımzadə, A.Zamanov, M.İbrahimov, M.A.Dadaşzadə, Mir Cəlal, H.Araslı, M.C.Cəfərov, Ə.Şərif, P.Xəlilov kimi böyük alim və yazıçıların bir ədəbiyyatşünas alim və tənqidçi kimi ədəbiyyatımızda Bəkir Nəbiyevin mövqeyi barədə qiymətli fikirləri ilə tanış oluruq. Hələ 1960-cı ildə, namizədlik müdafiəsi zamanı gənc alimin hazırlıq səviyyəsindən qürur duyan Ə.Dəmirçizadə «Biz dissertantın qabiliyyətini, onun hazırlıq səviyyəsini də nəzərə almalıyıq. Bəkir Nəbiyev öz tədqiqatı sahəsində özünü «suda balıq kimi» hiss edir, – deyə fərəh keçirir. Doktorluq dissertasiyasına rəyində xalq yazıçısı M.İbrahimov Bəkir Nəbiyevi «ciddi ədəbiyyat tənqidçisi və tədqiqatçısı» kimi tanıdığını qeyd edir. M.C.Cəfərov onu «yüksək tənqidçilər nəslinin əsl varisi, davamçısı» kimi qiymətləndirir.

Oxucu özü maraqlansın deyə, Bəkir müəllimin görkəmli əməl və məslək dostlarının, şair və nasirlərimizin, xarici ölkələrin –

İran, Türkiyə, Rusiya, Almaniya, Özbəkistan, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Tacikistan, Moldova və Estoniyanın böyük elm adamlarının, Azərbaycan musiqi, boyakarlıq, teatr xadimlərinin, tənqidçinin öz tələbələrinin adlarını sadalamırıq. Hamı Bəkir müəllim haqqında, onun elmi uğurları, yüksək əxlaqi və insani keyfiyyətləri, natiqlik məharəti barədə ürək dolusu danışır. Bəkir müəllimi «vəzifəsi böyüdükcə xalqa enən bir insan» adlandırırlar: «*Şübhəsiz ki, Bəkir müəllim Allah tərəfindən istedadla təltif olunub*». (M.Dilbazi) «*Bəkir, necə deyərlər, natural adamdır, özü necədirsə, sözü də elədir*». (H.Abbaszadə) «*Bəkir müəllimin yaradıcılığına xas olan çoxcəhətlilik onun şəxsiyyəti, xasiyyəti üçün də səciyyəvidir*». (Elçin) «*Bəkir Allahın adı ilə sözün düzünü deyən bir şəxsdir*». (O.Salamzadə) «*Təbii, insani olan heç nə ona yad deyil*». (Y.Qarayev) «*İş prosesindəki təmkini, dözümü, çevikliyi üçün Bəkir Nəbiyevə həsəd aparmaq olar*». (G.Əlibəyli) «*O öz həmkarları arasında parlaq intellekti, səmimiyyəti və hazırcavablığı ilə seçilir*». (Ləziz Qəyyumov. Özbəkistan) «[illegible]». (Şakir İbraev, Qazaxıstan) və s.

Onu da nəzərə almalıyıq ki, belə bir intellekt sahibinin, «elm aləmində elmi katiblikdən akademik-katibliyə qədər şərəfli bir yol keçmiş» (V.Arzumanlı) bir alimin həyat yolu o qədər də hamar olmayıb. Bu barədə mətləbi uzatmadan, yazıçı Cəmil Əlibəyovun aşağıdakı sözləri ilə kifayətlənirik: «Bəkirin şəxsində tənqidçi olum-qalım qarşıdurmasının nə qədər şahidi olmuşuq! Ancaq onu ədəbiyyatın adil hakimliyi yolundan döndərmək olmayıb. Doğrudur, çöhrəsi turşuyub, gözlərinə qüssə çöküb, lap beli də bükülən vaxt olub, ancaq ədəbi qaməti əyilməyib».

Söylənmiş ən ümdə fikirləri belə ümumiləşdirib bitirmək çətin olan bu kitab barədə sözümü yekunlaşdırmaq istərkən ön sözdə qeyd olunmuş bir hadisə də yadıma düşür. Bəkir müəllim yazır ki, ailələrində ondan əvvəl Bəkir adlı qardaşı olmuş, lakin uşaq körpə ikən vəfat etmişdir. Anası Seyid Zəhra əri Əhməd kişinin vasitəsilə Molla Məhəmməddən xahiş edib ki, bu uşağın adını da Bəkir qoysunlar. Sonralar Seyid Zəhra bu arzusunun səbəbini oğluna belə izah edirmiş: «Mən Allaha yalvarıb dualar etmişəm ki,

qurbanı olduğum sənə iki ömür əta etsin: bir adını daşıdığın nakam qardaşının ömrünü, bir də sənin öz ömrünü».

Bütün dostları, qohumları, müəllimləri, tələbələri və bütün həmkarları kimi, mən də Bəkir müəllimin yetmişə bir qalmış bu yaşında Seyid Zəhra xanımın (qəbri nurla dolsun!) bu arzusuna qoşulur, kitab barədə sözümü həmin istəklə bitirirəm.

08.06.1999

«İLLƏR ONU ÖZÜ İLƏ GƏLƏCƏYƏ APARIR»

XX əsrdə Azərbaycan elmi çox görkəmli şəxsiyyətlər yetirmişdir. Elm tariximizdə əbədi iz qoymuş belə şəxsiyyətlərdən biri unudulmaz alim, gözəl insan, görkəmli müəllim, AMEA-nın müxbir üzvü, professor Ə.M. Dəmirçizadədir. Bu böyük alimin Azərbaycan dilçiliyi sahəsində xidmətlərini bir daha yada salmaq, xatirəsini anmaq üçün Böyük Britaniya və Şimali İrlandiya Asiya Kral Cəmiyyətinin üzvü, Böyük Britaniya-Kembric Beynəlmiləl Dühalar Mərkəzinin üzvü, filologiya elmləri doktoru, professor QƏZƏNFƏR KAZIMOVA müraciət etdik. Qəzənfər müəllim böyük dilçi alimin Azərbaycan elminə gətirdiyi yeniliklərdən və dəyərlərdən söz açdı.

Yaradıcılığa çox gənc yaşlarından başlayıb

Əbdüləzəl Məmməd oğlu Dəmirçizadə (Rəsulov) Şəki şəhərində sənətkar ailəsində doğulmuşdur. Elmi yaradıcılığa çox gənc yaşlarından başlamış, 18 yaşında ikən mərkəzi mətbuatda müxtəlif yazılar dərc etdirmişdir. İstedadlı gənci ilk illərdə söz sənəti, filoloji axtarışlar özünə çəkmiş, o, şeirlər, hekayələr, ədəbi-tənqidi və publisistik məqalələr, oçerklər yazmışdır. Elmi yaradıcılıqla məşğul olduğu ilk 6 -7 ildə müxtəlif sahələrə dair çap etdirdiyi 64 adda əsərindən yalnız dördü dilçilik məsələlərinə həsr olunmuşdur. İlk illərdə daha çox bədii yaradıcılığa meyil etmiş, sonralar da bu sahədəki fəaliyyətini davam etdirmiş, müxtəlif mətbuat orqanlarında «Sonya» adlı poema, otuza qədər şeir dərc etdirmiş,

«Dədə Qorqud» librettosunu, «Dədə Qorqud» motivləri əsasında «Qaraca çoban» mənzum pyesini yazmışdır.

Onu dilçiliyə Çobanzadə istiqamətləndirdi

Tələbəlik illərində B.Çobanzadə ilə tanışlığı onun həyat yolunun dilçiliyə istiqamətlənməsində mühüm rol oynayıb. B.Çobanzadə onun istedadını dilçilik istiqamətinə yönəldib. Ə.Dəmirçizadə, M.Hüseynzadə, M.Şirəliyev, İ.Əfəndiyev kimi istedadlı gəncləri dilçilik elminə cəlb etməklə, professor B.Çobanzadə dilçiliyimiz üçün əsaslı, milli özül yaratmışdır. Həmin vaxtdan başlayaraq, Ə.Dəmirçizadə Azərbaycan dilçiliyinin öyrənilməmiş, çətin və mürəkkəb sahələrinin tədqiqi ilə məşğul olur, dil tarixi, müasir dil, üslubiyyat, etimiologiya və s. sahələr üzrə elmi axtarışlar aparır.

Ə.Dəmirçizadəni ilk növbədə dilimizin tarixi özünə çəkirdi

Məlumdur ki, dilin tarixi ilə məşğul olmaq üçün xalqın tarixini, onun mədəniyyət tarixini yüksək səviyyədə bilmək tələb olunur. Dəmirçizadədə bu keyfiyyətlər var idi və o, hələ Azərbaycan tarixinə dair kitabların az olduğu dövrdə ilk mənbələri nəzərdən keçirərək, Midiya və Alban dövlət quruluşlarını, həmin dövlətləri təşkil edən tayfa birliklərini və onların dillərini öyrənməyə çalışmış, mixi yazıları araşdırmış, ölkəmizin ərazisindəki qədim aborigenlərin dilləri ilə müasir dilimiz arasındakı əlaqələri müəyyənləşdirmək üçün tədqiqatlar aparmışdır. O, dil tarixinə dair böyük tədqiqat əsərində («Azərbaycan dilinin tarixi» – qədim dövr, XIII əsrə qədər) mixi yazılardan əldə etdiyi bir çox sözləri səs uyuşması əsasında müasir dilimizlə əlaqələndirə bilmiş, hazırkı dilimizin köklərinin çox qədim dövrlərlə – Manna, Midiya dövrləri ilə bağlı olduğunu üzə çıxara bilmişdir.

Müstəqilliyin verdiyi imkanlar əsasında biz dilimizin köklərini 5 min il əvvəlki dövrlə bağlaya bilirik. Ə.Dəmirçizadə bu cür dilçi və tarixçilərin sələfi kimi, müqayisəli tarixi metodun qadağan edildiyi, «türk» sözünün dilə gətirilməsinin qorxulu olduğu bir dövrdə Azərbaycan dilini N.Y.Marr məktəbinin prinsipləri əsa-

sında böyük ustalıq və ehtiyatla qədim dövrlərlə bağlayır, zaman qorxulu olsa da, faktların dili ilə dərinliklərə enə bilirdi. Bu nisbətlə Azərbaycan ədəbi dili tarixini dövrləşdirmək, Nəsimi, Xətai, Füzuli, M.F.Axundov kimi görkəmli sənət ustalarının ədəbi dilə xidmətini araşdırmaq Ə.Dəmirçizadə üçün çətin deyildi və o, «Qasım bəy Zakirin dili haqqında» adlı məqaləsi, «Azərbaycan ədəbi dili tarixi xülasələri» kitabı ilə başladığı tədqiqatını davam etdirərək dil tarixinə dair fikirlərini «Azərbacan ədəbi dili tarixi» adlı monumental kitabında sistemə salmış və yekunlaşdırmışdır. «Kitabi-Dədə Qorqud» dastanlarının dilinə filologiyamızda ilk dəfə o, monoqrafiya həsr etmiş, dastanların verdiyi material əsasında ədəbi dil normalarının başlanğıcına dair maraqlı mülahizələr söyləmişdir. «Azərbaycan ədəbi dilinin inkişaf yolları» adlı yığcam, lakin çox qiymətli əsərində ədəbi dilimizin inkişaf mərhələlərinə məxsus səciyyəvi əlamətləri proqram sənədi səviyyəsində şərh etmiş və ümumiləşdirmişdir.

Professorun əməli fəaliyyətində tədqiqat baxımından, Azərbaycan dilinin tarixi və bu günü sərhədsiz idi. Dil tarixi ilə yanaşı, 40-cı illərin ortalarından başlayaraq, dilimizin fonetik, orfoqrafik, orfoepik, leksik, frazeoloji və sintaktik quruluş və normalarının tədqiqi ilə də eyni dərəcədə məşğul olmuşdur. Mürəkkəb cümlə məsələsində professor məşhur konsepsiyanın – tərkiblərin budaq cümlə olması fikrinin tərəfdarı idi və axıra qədər də öz fikirində qaldı. Lakin qəbul edilmiş ümumi ənənəyə zor göstərmir, konsepsiyanı zorla həyata keçirmək istəmir, məsələnin həllini gələcəyin ixtiyarına buraxırdı.

İllər onu özü ilə gələcəyə aparır

Ə.Dəmirçizadə, elə bil, anadan üslubiyyatçı doğulmuşdu. Qələmə aldığı ilk yazılarından «Azərbaycan dilinin üslubiyyatı» (1962) kitabına qədər məqalələrinin çoxu dil və üslub məsələlərinə həsr olunmuşdu. Bu kitabı türkoloji aləmdə uslubiyyat sahəsində ilk qiymətli tədqiqat nümunəsi kimi dəyərləndirmişlər.

Zaman sürətlə irəliləyir…

Doğulduğu gündən 90, vəfatından 20 il keçir. XX əsr başa çatır və sürətlə irəliləyən illər Azərbaycan dilçiliyinin inkişafında

böyük xidmətləri olan Əbdüləzəl Məmməd oğlu Dəmirçizadəni də özü ilə gələcəyə aparır.

Söhbəti yazdı: İradə
26.08.1999

BU DA MƏNİM NƏĞMƏM...

«Pedaqoji İnstitut» və «Verdizadə» sözlərini yanaşı işlədəndə mənim gözlərim önündə həmişəcavan, heç kəsə bənzəməyən, cəmiyyətin önündə hamıdan irəlidə gedən orijinal bir şəxsiyyət canlanır və bəlkə də, gördüyüm cəsarətin, saflığın, təzəliyin, təravətin bütün ətrafdakılardan fərqinin təsvirini tam verə bilmirəm...

Ömrümün 18 ili Allahverdi müəllimlə ünsiyyətdə keçib. Fikirləşirəm ki, əgər bütün olmuşları qələmə alsam, Allahverdi müəllim haqqında böyük və maraqlı bir roman yaza bilərəm...

Mən onunla V.İ.Lenin adına APİ-nin dil və ədəbiyyat fakültəsinə daxil olduqdan bir az əvvəl tanış olmuşdum. O zaman əhvalı pozğun və pərişan idi. Sərt və dönməz xasiyyətə malik olduğu, zəhmətdən qaçanlara, fırıldaqla baş girləməyə çalışanlara güzəşt etmədiyi üçün şantaja məruz qalmış və institutdan uzaqlaşdırılmışdı. Qiyabi Pedaqoji İnstitutda dərs deyirdi. Lakin az keçmədən – gur və dalğalı saçları, uca və yaraşıqlı qaməti ilə diqqəti cəlb edən, üzü kimi qəlbi də işıqlı olan Mehdixan müəllimin – Mehdixan Vəkilovun rektor gəlişi ilə hər şey qaydasına düşmüş, iftiranın iftira olduğu sübut olunmuş, bir il çəkmədən öz yerinə qayıtmışdı – öz kafedrasına rəhbərlik edir, laboratoriyasında işləyirdi.

Uzaqdan-uzağa tez-tez görürdüm. Qara şlyapa, qara kostyum, ağ köynək, dolu ağ sifət... Sol əli şalvar cibində olanda yaxası bir qədər də açılır, ütülü ağ köynək daha aydın görünürdü. Tüstüləyən qara qəlyan bəzən əlində, bəzən ağzında...

Gülməli bir mənzərənin şahidi olurdum: Aspirantlarından biri onun kimi yeriməyə çalışar, hərdən unudaraq öz yerişini yeriyirdi. Zarafatla deyərdim:

– Ayə, öz yerişini yeri.

Mənə elə gəlirdi ki, məni tanımır. Ona görə də 58-ci ildə – III kursda oxuduğum vaxt bir hadisə məni çox təəccübləndirdi...

Dərslərimiz ağır idi. Tarix fakültəsi ilə dil və ədəbiyyat fakültəsini birləşdirmişdilər, heç kəs heç nə ixtisar etmir, bəzən on saat dərs keçirdik. Yorğun və dumanlı başla tənəffüsə çıxmışdıq. Rektorluğun qabağında yenə sol əli cibində bu dəfə düz üstümə gəlir-

di. Bir anlıq qarşımda dayanıb, sağ ovcunu sağa-sola əsdirəndə başa düşdüm ki, soruşur: «Burada nə gəzirsən?»

Dedim ki, oxuyuram.

– Axşam bir bizə gəl,– deyib uzaqlaşdı.

Axşam zəngi basıb içəri girəndə Allahverdi müəllim gözündə eynək, mətbəədən təzə çıxmış bir yığın yazını nəzərdən keçirməkdə idi. Görüşdük. Əfruz xanım tələbə çayına bənzəməyən çay gətirdi. Fikirləşirdim ki, görünür, kim isə haqqımda məlumat verib. Bəlkə də, kənddən gələnlər danışıb. Bir qədər zəndlə baxıb soruşdu:

– İndi sən ikidə deyilsən?

– Yox, – dedim, – üçüncü kursdayam.

Söhbət edə-edə mən də çap vərəqlərinə baxmağa başladım. O zaman artıq redaktə işindən başım çıxırdı. Hörmətli müəllimlərimdən Fikrət Seyidovun Qori seminariyası haqqında bir kitabının korrekturası ilə məşğul olmuşdum. Bir qədər nəzərdən keçirib dedim:

– Burada imla səhvləri çoxdur...

Təəccüblə üzümə baxıb «Nə səhv?» deyə soruşdu. Mən bir neçə səhifədə xeyli durğu işarəsi və imla səhvləri göstərdim. Hətta şəkilaltı yazılarda da texniki qüsurlar vardı. Korrektorlar, görünür, diqqətlə oxumamışdılar. O zaman institutun güclü nəşriyyatı vardı və orada bir sıra qiymətli kitablar buraxılmışdı.

– Paho, – dedi, – kitab çapa getməli idi, amma, görünür, ləngiməli olacaq, bunları düzəltmək lazımdır.

Bu, iki cildlik «Vəsfi yarımmikrokimyəvi analiz» kitabı idi. Bir neçə çap vərəqini dəstələyib verdi və:

-Apar, diqqətlə oxu,-dedi.

Beləliklə, əsl tanışlığımız elmdən başladı, kitabdan başladı. O zamanlar mən kitab çapına möcüzə kimi baxırdım. Tale məni yaxşı nümunə ilə qarşılaşdırmışdı.

* * *

İnstitutu bitirib iki il kənddə işlədikdən sonra aspiranturaya daxil oldum. Yasamalda qalırdım. Allahverdi müəllim də Yasamalda ev almışdı. Bundan sonra biz daha tez-tez görüşürdük –

gah onlarda, gah bizdə. Bəzən institutdan bir maşında gələrdik – taksi ilə və ya avtobusla.

Müşahidə etdiyim və həsəd apardığım ən mühüm cəhət: heç zaman vaxtını boş keçirməzdi. Evdə də, laboratoriyada da qələm əlində, makina vərəqələri qarşısında olardı. Yadıma gəlmir ki, Allahverdi müəllimi əlləri qoynunda, boş-bekar oturan görəm. Ya hansı bir əsərininsə redaktəsi ilə məşğuldur, yaxud da kimi isə alıb cənginə, nərd, kart və ya şahmat oynayır.

Hiss edirdim ki, yazılarından ləzzət alır. Qəzetləri açardım. görkəmli kimyaçı alimlər haqqında səhifə-səhifə yazıları... Neçə dərslik, dərs vəsaiti və monoqrafiyanın müəllifidir. Baxıram, görkəmində daim bir qürur var və yüksək qürur hissi ilə yaşayır. Bir dəfə də olsun, bu həyatdan giley-güzarının şahidi olmamışam. Həyatın istisi də, soyuğu da, şirini də, acısı da onun üçün təbiidir. Həyatın keşməkeşlərinə yaxşı bələd olduğundan heç bir şeyə təəccüb etmir...

İlk illərdə institutun «Əsərlər»ində məqalələr çap etdirsəm də, qəzetlərə yaxın düşə bilmirdim. Hansı redaksiyaya gedirdim, min bəhanə ilə geri qaytarırdılar. Bir gün laboratoriyada bir növ acı-acı soruşdu:

-Kazımzadə, niyə yazmırsan? (Mənə daim xüsusi ahənglə bu cür müraciət edərdi.)

- Çap eləmirlər, – dedim.

- Nəyin var?

- Haqverdiyev haqqında yazılarım var.

Telefonu götürüb Ağəli müəllimə – Ağəli Bədəlova zəng vurdu, üzünü mənə tutub «Birbaş redaktorun yanına get», – dedi.

Günün ikinci yarısı idi. Ağəli müəllim Hökumət evinin on birinci mərtəbəsindəki iş otağında məqaləni alıb baxdı, gülümsədi: «Haqverdiyev mənim müəllimim olub» dedi.

Həmin günün səhəri dərsdən çıxarkən qardaşım Tahir «Azərbaycan müəllimi» qəzetində məqaləm olduğunu dedi. Mən məqalənin bu tezlikdə çapına çox təəccüb etdim... O vaxtdan keçən müddət ərzində o günü həmişə xatırlayıram.

Axşam çağı dərsdən çıxıb evə gələrkən bəzən Allahverdi müəllimi bizim həyətdə bir nəfərlə şahmat oynayan görərdim. Onun bu ərkyanalığı məndə xoş təəssürat oyadırdı.

- Kazımzadə, buranın havasından olmaz,– deyərdi.

Alnındakı o şəfəq, gözlərindəki o işıq əbədi olaraq yaddaşımdadır. Vəfatından 26 il keçir. Amma hər dəfə yadıma düşəndə elə bilirəm, bu saat darvazanı açıb Əfruz xanımla gülə-gülə həyətə daxil olacaq:

– Kazımzadə, nərdi gətir.

Tərcümeyi-halına bələd idim. Son dərəcə əzablı və zəhmətli bir yol keçmişdi. «Vətən müharibəsi» adlanan dəhşətli müharibənin iştirakçısı olmuşdu. İndi başımıza od ələyən bəzi adamlar kimi xəstəlik kağızı çıxarıb müharibədən yayınmamışdı. 37-ci ilin qurbanları sırasından təsadüfən xilas ola bilmişdi («Dilimiz – tarixi-miz» kitabımda bu barədə yazmışam). Sonrakı həyatını elmə, pedaqoji işə həsr etmişdi. Şərəf və ləyaqətlə ömür sürürdü.

Mənim üçün müəyyən bir yazı-pozudan sonra bu və ya digər bir oyunla (domino, nərd, kart və s) məşğul olmağın özü də yorucudur, amma Allahverdi müəllim yorğunluğunu bu yolla – müxtəlif əyləncələrlə çıxarırdı. Şahmatı da, nərdi də, dominonu da, kartı da eyni dərəcədə gözəl bilirdi. Bir dəfə bu oyunlara nə üçün belə aludə olduğunun səbəbini soruşdum.

– Bilirsən, bacıoğlu,– dedi, – mənim dedi-qodudan, qiybətdən zəhləm gedir. Yazı-pozumla kifayət qədər məşğul oluram, elə ki yoruldum, vaxtımı bunlarla keçirirəm ki, boş söhbətlərə vaxtım qalmasın.

Həqiqətdə də mən onun bu və ya digər bir şəxs haqqında giley-güzarının şahidi olmamışdım.

Yalnız bir dəfə darvazanı açıb içəri girərkən kinayəli təbəssümünü sezib soruşdum:

– Nə olub?

– Heç, əşi, – dedi. – Köpəyoğlu...

– Kimdir köpəyoğlu?

– Heç bilmirəm, ikranın qarası yaxşıdır, yoxsa qırmızısı, yazıb ki, guya üç kilo qırmızı ikra istəmişəm...

Çətinliklə öyrənə bildim ki, fakültədə bir nəfər müdafiə etmək istəyir, lakin zəif olduğu üçün Allahverdi müəllim işin hələlik buraxılmasını məsləhət görməyib, «Bir az da işləmək lazımdır» deyib. Onlar da imzasız məktub yazıblar: Allahverdi Verdizadə

müdafiəyə imkan vermir, üç kq qırmızı ikra, üç cüt çexski ayaqqabı və nə bilim nələr tələb edir...

O zamanlar imzasız məktublara ciddi fikir verirdilər. Amma Allahverdi müəllimi tanıyırdılar, yuxarılarda gülüb cırıb atmışdılar.

Doğrudur, o zaman insanlar indiki qədər pozulmamışdı, qayda-qanun var idi, adamlar namusla yaşayır, namusla işləyirdilər. Dövlət əksərən haqqı müdafiə edirdi. Lakin Allahverdi müəllimi istəməyənlər də vardı. Çünki Allahverdi müəllim cəsarətli bir gənc kimi böyümüşdü, müharibə görmüşdü. Gördüyü nöqsanı udmaq söhbəti yox idi, ən böyük və məsul məclislərdə belə öz sözünü deməkdən çəkinməzdi. Təbii ki, bu xüsusiyyət xırda adamlarla yanaşı, bir çox «böyüklərin» də heç vaxt xoşuna gəlməyib. Lakin o buna məhəl qoymazdı, şəxsiyyətinin müstəqilliyini, əyilməzliyini, həqiqəti tapdamaqdan uzaq olduğunu daim nümayiş etdirərdi.

Bir dəfə akt zalında böyük bir yığıncaq vardı. Belə yığıncaqlar bəzən 6 və ya 8 saat – gecə yarısınadək davam edərdi. Qərar hazırlanmalı idi, ona görə də ağsaqqal və hörmətli alimlərdən ibarət komissiya yaradıldı. Allahverdi müəllim də tərkibə salınmışdı. Bilirdik ki, rəhbərliyin göstərişi ilə bir sıra adamların əleyhinə subyektiv və çox pis bir qərar hazırlanacaq. İclas yenidən öz işinə başladı və məni çox təəccübləndirən bir hadisə baş verdi: qərarı oxumaq Allahverdi müəllimə həvalə olunmuşdu.

Axı Allahverdi müəllimin bu yaramaz işə heç bir dəxli yoxdur. Nə üçün o özünü belə bir işə qarışdırır?..– mən bu suallar qarşısında ikən Allahverdi müəllim tribunaya qalxıb, bir qədər bozarmış halda sözə başladı:

-Rəhbərliyin tələb etdiyi şəkildə hazırlanmış, şəxsən mənim bir çox bəndlərinə etiraz etdiyim, lakin oxunması mənə həvalə edilmiş bu qərarı nəzərinizə çatdırıram...

Öz-özümə «Afərin» dedim, sakitləşdim. İnsan dünyaya bir dəfə gəlir. Onun şəxsiyyəti olmalıdır və o, şəxsiyyətini qorumalıdır. Tülkü cildinə girənlərin əsiri olmamalıdır. Allahverdi müəllim kimi, şəxsiyyətini hər şeydən uca tutanlar indinin özündə də çox azdır, bəlkə də, yoxdur. Şəxsi mənafe və pul düşgünlüyü insan şəxsiyyətini ayaqlar altına salıb. Bir çoxlarında isə ümumən şəxsiyyət tərbiyəsi yoxdur, kök yoxdur, soy yoxdur.

Mən dəfələrlə onun laboratoriyasında olmuşam, onun tələbkarlığı ilə müqayisədə öz dərslərimə baxanda daim özümü danlamışam. Tələbkarlığına heyrət və qibtə edərdim. Tapşırığı verərdi, tələbələr bir-birinə mane olmadan işləyib cavab almalı idilər. Düzgün cavab almayınca kollokvium yazılmazdı. Analizin cavabını balaca bir kağıza yazıb gətirərdilər. Professor gözucu baxardı. Kağızı iki barmağı arasına alıb baş barmağı ilə yırtdıqda daha ayrı sözə ehtiyac qalmazdı – bilirdilər ki, cavab düz deyil və yenidən işləmək lazımdır. Ona görə də heç bir tələbə analitik kimyanın əlifbasını öyrənmədən keçib-gedə bilməzdi.

Allahverdi müəllim hazırlıqlı alim idi və öz qabiliyyətinə özü bələd idi, ona görə də sözünü deməkdən, həm də yeri gəldikdə kəskin deməkdən çəkinməzdi. Yeni rektor qoyulmuşdu və əvvəlki rektorun fəaliyyəti müzakirə olunurdu. Mən zalın təqribən orta hissəsində oturmuşdum və ön cərgələrdə əyləşənləri yaxşı görə bilmirdim. İclas başladı, çıxışlar bir-birini əvəz etdi. İlahi, sabiq rektor haqqında nələr demirdilər! Özü də təəccüblü burası idi ki, ən murdar çıxışları onun yedirib-içirtdiyi, hər cəhətdən yaxşı şərait yaratdığı dostları edirdi. İnsan necə dönük olarmış! And olsun bizi yaradana, mən həmin iclasda fikirləşdiyimi dilimə gətirirəm: fikirləşirdim ki, yaxşı ki, həmin adam (köhnə rektor) bu yığıncaqda yoxdur, yoxsa mütləq ölə bilərdi, ürəyi partlaya bilərdi. Və beləcə iclas davam edib qurtardı. Əsas qapıdan çıxırdıq. Bu zaman səhnəyə açılan qapıdan çıxan Allahverdi müəllim gülə-gülə qoluma girib dedi:

– Kazımzadə, bildin nə oldu?

– ...

– Çox qəribə bir hadisə oldu. İclas qurtardı, qalxdıq. Bu zaman filankəs də qalxdı (köhnə rektoru deyirdi)...

Mən onun sözünü kəsib təəccüblə soruşdum:

– Burda idi?

– Burda idi. Ön cərgədə oturmuşdu. Qalxdıq, qalxanda Məmmədsəlim müəllim (M.Ə.Sabirin oğlu – *Q.K.*) onun qoluna girib dedi: «Özünü çox üzmə, bu camaatın sözlərinə çox fikir vermə».

Mən gözləyirdim və nə isə bir xoşagəlməz söhbət olacağını güman edirdim. Allahverdi müəllim sözünə davam etdi:

– Dönmək istəyirdim, gördüm kinli-kinli qalxa-qalxa deyir:

– Ay o camaatın hamısına tüpürüm...

– Dözməzsiniz. Bəs siz nə dediniz?

Demək istəmədi, amma dedi:

– Dedim ki, elə demə, filankəs. Bu camaata elə baxmaq olmaz. Bunların hərəsi bir lomba tüpürsə, altından çıxa bilməzsən.

Mən bu söhbətdən daha çox mütəəssir oldum. Amma soruşdum:

– Yaxşı, köhnə rəhbərlik sizə qarşı daha pis olub. Bəs siz niyə danışmadınız?

– Öz dostları lazım olanı dedilər. Onlar gümüş toplayırdılar, mən qızıl...

Bu hadisə ibrətamiz bir hadisə kimi heç vaxt yaddaşımdan silinmir.

Allahverdi müəllim həqiqi ziyalı, həqiqi elm adamı və həqiqi müəllim idi. Elmin, incəsənətin yeniliklərini ardıcıl izləyirdi. Hələ tələbəliyimin son illərində (IV və ya V kursda) bir gün eşitdim ki, məni bərk axtarır. Görüşdüm, «Axşam bir bizə gəl, – dedi.– Müəlliminin televiziya tamaşası olacaq». Şıxəli Qurbanovu deyirdi. O zaman hər yerdə televizor yox idi.

Ədəbiyyatın, incəsənətin yeniliklərini daim təqdir edir, Rəfilinin, Dmirçizadənin əsərlərini fövqəladə yüksək qiymətləndirirdi. Dəmirçizadənin alimliyinə yüksək ehtiramla yanaşırdı.

İnstitutun görkəmli alimləri böyük bir auditoriyaya yığılmışdı. Rektor Şövqi Ağayev gibernetika sahəsində elmin yeniliklərindən maraqlı bir məruzə etdi. Şövqi müəllim hazırlıqlı alim idi və gözəl natiq idi. Məruzə qurtardı, sual verməyə hazırlaşırdılar. Allahverdi müəllim ortada əyləşmişdi, əlini qaldırıb ayağa durdu, təqribən məruzə həcmində böyük bir çıxış edib məruzəçinin söylədiklərini bir daha ətraflı şərh edərək dedi:

– Şövqi müəllim bu sahədə sizə bundan artıq heç nə deyə bilməz. Nə lazım idi, dedi. Ona görə də suala ehtiyac yoxdur.

Hiss etdim ki, Şövqi müəllim onun çıxışından razı qaldı və həqiqətən də, bu çıxışdan sonra suala ehtiyac olmadı.

Mən lap Kəlbəcərdə – İstisuda da həkim söhbətlərindən sonra onun istisuyun müalicəvi əhəmiyyəti və lazımi dərman preparatları barədə dərin elmi çıxışının şahidi olmuşam. Heyrətimi sonralar özü izah elədi:"Kimya ilə tibb elmi çox yaxındır».

Allahverdi müəllim həqiqi vətəndaş idi. Bunu onun xalq işinə, ictimai işə münasibətini nəzərə alaraq tam qətiyyətlə söyləyirəm. Murdar yerliçiliyin düşməni idi. Vahid və bölünməz «Azərbaycan» tanıyırdı, filan ərazini yox.

Aspirantura illərində laboratoriyasına çox gedib-gəldiyim və yataqxanada qaldığım üçün tələbələrini də tanıyırdım. Yaxın bir qohumu tələbəsi idi. Həqiqi mənada əlaçı idi. Həmin qrupda Kəlbəcər tərəfdən başqa bir əlaçı da vardı. Elmi şurada fərqlənmə söhbəti gedəndə Kəlbəcərdən olan tələbəni təklif edib keçirmişdi. Soruşanlara demişdi, mənə də eyni sözləri dedi:

– Doğrudur, Kazımzadə, ikisi də əlaçıdır, amma o zalım oğlu daha sərrastdır.

O nəsil xalqa belə xidmət edirdi. «Öz kəndimin eşşəyi olsun» demirdilər.

Bayram adlı qonşu kəndçimiz vardı, kimya fakültəsinin qiyabisində oxuyurdu. Müharibə iştirakçısı idi, çəliklə gəzirdi. Amma çox diribaş və maraqlı bir adam idi. Müharibədə olanda rusca danışıq öyrənmişdi, kimya fakültəsində oxusa da, kənddə rus dili dərsi deyirdi. Birinci il dövlət imtahanından qiymət ala bilməmişdi, Allahverdi müəllim «kimyanın əlifbasını bilmir, əlifbanı bilməyənə qiymət vermək olmaz» demişdi. Həqiqətən də o dövrdə bir fənnin əlifbasını bilməyənə qiymət vermirdilər.

İkinci ilin yayı idi. İnstitutun foyesində Bayram müəllimlə görüşdüm: «Nə var, nə yox?»

Dedi ki:

– Dövlət imtahanına gəlmişəm. Görək Allahverdi müəllim qiymət almağıma imkan verəcəkmi.

Mən hadisəni bilirdim, ona görə də soruşdum:

– Heç hazırlaşmısanmı?

– Hə, – dedi, -nə var, turşudu, filandı də...

Bir neçə gün keçdi, eşitdim ki, Bayram müəllim yenə qiymət ala bilməyib. Əslində, Allahverdi müəllim də istəyib ki, veterandır, yüngül suallarla qurtarıb çıxıb getsin. Amma mümkün olmayıb, suallara yaxın dura bilməyib. Əlacsız qalan Allahverdi müəllim deyib:

– Baax, Bayram, kimyanı qoyuram kənara. Kimya ilə işin ol-

masın. Səndən çox ibtidai bir şey soruşuram. De görüm, turşu nədir?

Bayram müəllim cəld cavab verib:

– Turşu yandırıcıdır.

Allahverdi müəllim yana-yana xeyli baxıb, əlini sol çiynindən sağ yanına, sağ çiynindən sol yanına apara-apara deyib:

-Bayram, sənin dediyin bu sözlər məni bir belə yandırdı, bir də belə, demək, indi bu, turşudur? Dur bas bayıra.

Bunları mənə böyük ləzzətlə Bayram müəllim özü danışdı. Sonralar müharibə iştirakçısı kimi yuxarılardan çox çətinliklə üçüncü dəfə icazə alıb, birtəhər qurtarmışdı.

Burada nə qədər acılıq olsa da, mən bunu təqdir edirəm. Qaçqın, köçkün, veteran adı ilə təhsilin səviyyəsini heçə endirmək olmaz. Qaçqına qaçqın kimi, köçkünə köçkün kimi, veterana veteran kimi hörmət və kömək etmək lazımdır. Amma bunların oxumağa, öyrənməyə, həqiqi ixtisas sahibi kimi yetişməyə dəxli olmamalıdır. Bizim zəmanəmizdə isə işlər tamamilə tərsinədir.

Allahverdi müəllim həyatı çox sevirdi, əsl həyat adamı idi. Toyda da, yasda da məclisə istiqamət verməyi ustalıqla bacarırdı. Bir dəfə bir toy məclisi qurtarmaq bilmir, çox uzanırdı. Üzülürdük, amma çıxmaq da olmurdu. Elə bu zaman hörmətli professorun qəflətən yerindən qalxdığını, guya oynayırmış kimi çox qəribə şəkildə (şlyapanı gözünün üstünə basaraq, Məşədi İbad sayağı) fırlana-fırlana bəylə gəlinin qabağına çatıb onları qaldırdığını və ortaya çəkdiyini xatırladıqca təbəssümsüz keçinə bilmirəm. Bəylə gəlinin ortaya çıxarılması məclisin sonu demək idi. Allahverdi müəllimdə beləcə insanı duymaq, narahatlığı sezmək qabiliyyəti vardı.

Təsadüfən institutdan bir çıxmışdıq, dedi ki, Kazımzadə, bir taksi saxlat, pulunu mən verəcəyəm. Mən bir Qaz-21 saxlatdım, qəlyanı yandıra-yandıra gözucu baxıb «Burax getsin», – dedi. Sürücü başa düşüb tərpəndi. Allahverdi müəllim qəlyanını yandırıb izah etdi:

«Pulumuzu veririk, qoy isbatlı maşına minək».

O zaman Qaz-24 markalı taksilər təzə çıxmışdı, az tapılırdı.

Bunlardan birini saxladıb oturduq. Sürücü maşını dar küçələrə salıb dolaşıq yollarla sürür, deyəsən, bizi hərifləmək istəyirdi. Məndə narahatlıq başlamışdı. Amma elə bu zaman qabaqda oturan Allahverdi müəllim adəti üzrə yenə qəlyanını yandıra-yandıra, sürücüyə baxmadan sakit-sakit dedi:

- Özün bil, axırda manıtını verəcəyik.

Adətən, bir adamın sağlam olduğunu qeyd etmək üçün deyərlər ki, bir dəfə «öh» elədiyinin, yəni öskürdüyünün şahidi olmamışam. Allahverdi müəllimin quru öskürəyi vardı, amma mən onun adi qripdən və ya təsadüfi bir soyuqdəymədən xəstələndiyini, bir neçə gün yorğan-döşəyə düşdüyünü xatırlaya bilmirəm. Sağlam idi, gözəl görkəmi vardı. Dolu bədəni boyuna çox yaraşırdı. Qalın qara qaşları ağ sifəti ilə həmahəng idi. Üzündə kiçik bir qırış da müşahidə olunmurdu. Nə yaşı vardı ki! 60-ı təzəcə addamışdı.

70-ci ildə İstisuda olanda mədə-bağırsaq sistemindən, qara ciyərindən şikayətləndiyini hiss etmişdim. Sonralar bir payız günü gündüz saat 14 radələrində Səbayel (keçmiş 26-lar) parkında gəzdiyini görüb təəccübləndim:

– Hardan belə? Axı bu vaxtlar həmişə laboratoriyada olursunuz?

– Bacıoğlu, laboratoriyada bir tikə çörək yedim, elə bil, bədənimdən daş asıldı. Taqətim olmadı tərpənməyə. Güclə özümü toplayıb ayağa qalxdım, gəldim bura ki, bir qədər gəzim, bəlkə, bədənim açıla. – Sonra yenə bir növ ağrı ilə dedi: – Elə bil, ürəyimi soğan qabığı kimi bax beləçə qat-qat soyurlar.

Görünür, ağrılar çox incidirmiş. 73-cü ilin yayı başlayan kimi, Yesentukiyə getmişdi. Eşitdim ki, orada sarılıq tutub, şəhərə qayıdıb, Semaşko adına xəstəxanada yatır. Yanına getdim, sarılığın zərdab rəngi sifətində də hiss olunurdu. Sonra babatlaşıb çıxdı. Dərsə gedib-gəlirdi. Eşitdim ki, yenə özünü pis hiss edir. Evdə idi, görüşdüm:

– Kazımzadə, yediyim ötmürdü. Həkim çağırdım, o da baş açmadı. Amma bir rumka konyak içdim, ötüb-getdi...

Sonra aydın oldu ki, operasiya olunmalıdır. Cərrahiyyə əməliyyatını akademik Topçubaşov etməli idi. «Leçkomissiya» adlanan xəstəxanada yatırdı. Bir gün sonra cərrahiyyə əməliyyatı keçirilməli idi. Palatada tək idi. Görüşdük, «Yaxın otur» – dedi. Ya-

xın oturdum. «Bir az da yaxın otur» dedi. Yenə yaxın oturdum, amma xoflandım, qorxdum ki, nəsə mənə bir bəd xəbər verə bilər. Lap diz-dizə əyləşəndə cibindən kartı çıxarıb verdi və «Payla» dedi. Mən sakitləşdim, xeyli kart oynadıq.

Səhəri cərrahiyyə əməliyyatının nəticəsini gözləyirdik. Əməliyyatda dostu və qohumu həkim Allahverdi Hacıyev də iştirak edirdi. Çox çəkmədi, çıxdı. Bikef və məyus gəldi. Məlum oldu ki, açıb, eləcə də bağlayıblar. Xərçəng, o mənhus xəstəlik artıq tam şaxələnmiş imiş. «Ürəyim soyulur» deyir, ürəyindən şikayətlənirdi – ciyərin ağrısı ürəyinə vururmuş.

Palatada bir neçə dəfə yanına getdim. Aramı yox idi. Sakitləşdirici iynələrə baxmayaraq, bir an sakit ola bilmirdi. Belə bir halətdə bir anlıq üzünü mənə çevirib:

– Sən başa düşürsənmi ki, mən dəli oluram?– dedi.

Mən başa düşürdüm. O, Topçubaşovdan çox şey gözləyir, onun əlinə inanırdı. Tezliklə sağalıb laboratoriyasına qayıdacağını güman edirdi. Amma dəhşətli ağrılar onun bu ümidlərini qırırdı... İnsan yalnız ümidini tam itirəndə ölə bilər.

73-cü il, sentyabrın 20-də məni zorla tələbələrin ardınca Yevlax rayonuna pambıq toplanışına göndərdilər – yaxın adamın ağır xəstə olduğunu bilə-bilə. Sentyabrın 25-də Mürsəl Həkimov köməyə gəldi. Varvara kəndində idik. Saat 12-yə işləmiş məni pambıqda tapıb dedi:

– Sən get şəhərə, Allahverdi müəllim vəfat etdi.

Elə bil, dünya başıma daraldı. Xəstəliyini bilsəm də, ölümünə inanmırdım.

Bizə Sovet adlı bir milis işçisi təhkim etmişdilər. Sovetdən öyrəndim ki, Naxçıvandan gələn təyyarə saat 1-də Yevlax hava limanında benzin götürüb qalxır. Kassaya zəng vurdurdum ki, bir yer olsa belə, saxlasınlar. İri bir yük maşınına minib toz dumanı qopara-qopara yola düşdük. O qədər sürətlə ki, təyyarə ilə bir vaxtda hava limanına çatdıq. 40 dəqiqədən sonra artıq Bakıda idim. Birbaş instituta gəldim. Akt zalında qoymuşdular. Fəxri qarovul qurtarmış, çıxışlar başlamışdı.

Başı və gözləri dumanlı halda, sonralar özü də mənhus xərçəngin qurbanı olan Şükür müəllimin – Şükür Sadıqovun sözlərini eşidirdim:

– Allahverdi müəllim heç kəsə bənzəmirdi. Sözünü deyən adam idi. Onun öz sözü vardı...

Mən yalnız tabutdan yapışa bildim...

Axşam anam təfsilatı mənə danışdı. Son məqamda evlərinə gətirmişlər. Bütün gecəni anam yanında olmuş, əbədi zərrə bədəni tərk edənə qədər əzablarının şahidi olmuşdur...

Vəfatından xeyli əvvəl bizim həyətdə Namiq Kamaldan əzbər dediyi böyük bir şeri xatırlayıram. Bu şeri şagird, bir nəğmə kimi, vəfatından 25 il sonra öz müəlliminin qəbri üzərində deyir. Allahverdi müəllimin belə uzaqgörənliyi də vardı...

İndi o vaxtdan 25 il keçir...

Bu da mənim deyə bildiyim nəğmədir...

09.12.99

50 İLİN İŞIĞINDA

Əziz Nabat xanım!

Hörmətli Nabat müəllimə!

O zamanlar biz az qala uşaq idik, Siz isə son dərəcə gənc və gözəl idiniz. Amma elə o yaşda da bir mübahisə olanda gülə-gülə: «Ay balam, axı bu, belədir» deyərdiniz. Bir dəfə də olsun, hirsləndiyinizi, əsəbiləşdiyinizi xatırlamıram. Şəkililərə məxsus mehriban bir təbəssümlə kürsüyə yan alardınız. Boyunuza, görkəminizə yaraşardı kürsü.

O zamandan xeyli keçir. Biz altmışı, Siz yetmişi keçmisiniz. Bədən dolub, yaş öz işini görüb, amma ali məktəbə göz açanda gördüyümüz, doğurduğu xoş və gözəl təəssüratı heç vaxt unutmadığımız müəlliməmiz, elə bil, gözəlliyini bir qədər də artırıb. Təbəssüm dolu həmin mehriban və gülümsər sifət bizə o illərin yadigarıdır.

«Bizə» deyəndə mən Sizin ilk gənclik yadigarlarınızı – Mürsəli, Əjdəri, Qorxmazı, Nərmini, Emiliyanı, Tamillaları, Əlməmmədi və ruhu bizimlə yaşayan Sabiri, Xasayı, Nərimanı, Əhədi, Quşdanı və başqalarını nəzərdə tuturam. Nə qədər tez gəlib-keçdi.

Göz açıb-yummağa macal tapmadıq. Elə bil, dünən ayrılmışıq o masa arxasından. Elə bil, bu saat Nabat müəllimə daxil olacaq, biz hörmətlə qarşılayıb, dərhal ayağa duracaq, dəftər-qələmi çıxaracaq, dediklərini kəlmə-kəlmə yazacağıq...

Elə dərslərimiz vardı ki, bizim üçün əzaba çevrilirdi. Amma Sizin dediyiniz dərsdə bir mənəvi rahatlıq vardı. Özümüzü nikbin və rahat hiss edirdik. Qrupumuz yaxşı qrup idi. Elə bil, xüsusi seçilmişdi. Unudulmaz müəllimlərimiz – Abasqulu Məhərrəmov, İsmayıl Şıxlı, İmran Babayev heç bir təsirə və təzyiqə məruz qalmadan, son dərəcə obyektiv qəbul imtahanları aparmışdılar. Altı imtahandan, altı körpüdən keçmişdik. Zəif tələbə yoldaşlarımız çox az idi. Bir də ondakı zəiflər indiki zəiflər kimi deyildilər, çox çalışırdılar. Ona görə də dərslərimiz fərəhli keçirdi, yaxşı hazırlaşırdıq. Dərslik olmasa da, mühazirələriniz bizə yol göstərirdi. Lakin az keçmədən tarix fakültəsi ilə birləşməyimiz işimizi çox ağırlaşdırdı. Bəzən bir gündə üç-dörd ağır seminardan keçməli olurduq. Düzünü deyim ki, fiziki cəhətdən ilk vaxtlar çatdıra bilmirdik. Hətta bir gun mən dördüncü dəfə dördüncü seminarda çıxış edərkən (sizin dərsinizdə) səthi danışdığımı hiss edib utandığım da yadımdadır. Amma Siz heç üstünü vurmadınız...

Dil dərslərində çətinliyim yox idi. Bir dəfə Siz gəlməmişdiniz. Böyükxanım müəllimə qrupları birləşdirmişdi. Təhlil üçün cümlə vermişdi. Mən cümləni 15 dəqiqəyə təhlil edib, müəlliməyə verdim, son dərəcə tələbkar bir qadın olan Böyükxanım müəllimə baxıb çox təəccüb etdi. İndi baxıram o vaxtkı şəklimə – balaca, qara bir uşaq, amma gözəllik vurğunu...

Çətin dövr idi, ağır zamanlar idi, amma haqq-ədalət vardı, dövlət zəhmətkeş insanların arxasında idi. Əgər naqis adamlar olmasa idi, heç kəsin zəhməti itməzdi. Eşitmişdik ki, biz instituta daxil olan ili, çox gənc yaşlarınızda müdafiə etmisiniz, amma, görünür, o dövrdə də gəncliyin qarşısını kötük kimi kəsənlər vardı. Doğrudur, biz Sizin o dövrkü üzüntülərinizi hiss etmirdik, daha doğrusu, Siz özünüzü elə səmimiyyət və gülərüzlə, mehribanlıqla aparırdınız ki, hiss etmək olmurdu, amma maneələri eşidirdik, tələbə də olsaq, qulağımıza çatırdı. Sonrakı onillikdə bu cür maneələr başqa yollarla bizim qarşımıza çıxdı və o zamanlar biz cə-

miyyət daxilindəki şərin mahiyyətini daha aydın duyub dərk etməli olduq.

Bu müddət ərzində qadınların bir çoxunun müxtəlif səbəblərdən min rəngə düşdüyünün şahidi olmuşam. Amma mən Sizi bu 45 ilin ərzində eyni ləyaqətdə görmüşəm, bütün bu müddət ərzində Sizin bir müəllim kimi, bir alim kimi, bir insan kimi şərəfinizə xələl gətirə bilən bir detal sezməmişəm. Bütün sonrakı dövrlərdə kollektiv içərisində daha yaxın təmasda olduğum üçün əksəriyyətin iç dünyasına bələd olmuş, tələbəlik illərində görə bilmədiklərimi də görə bilmişəm, amma çox qəribədir ki, Sizin barənizdə tələbəlik dövründə yaranmış təəssüratımda yaxşı mənada zərrə qədər dəyişiklik olmayıbdır, – gözəllik, mehribanlıq qalmaqla, o dövrkü gənc və şivərək Nabat xanımın indi bir qədər dolub ağırlaşması müstəsna olmaqla.

Sizin hələ 50-ci illərin sonlarından elm aləminə bəlli olan isim və ədatlar haqqında yazılarınızdan öyrənməklə yanaşı, nəsil-nəsil tələbələrə onları öyrətməklə məşğul olmuşuq. «Yarımçıq cümlə» (1960), «Feli bağlama və feli isimlərin sintaktik vəzifəsi» (1961), «Təsdiq və inkar cümlələr» (1963), «Məqsəd və intonasiyaya görə cüttərkibli cümlənin növləri» (1964), «Cüttərkibli sadə cümlənin tədqiqi tarixindən» (1964), «Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər və söz birləşmələri» (1971), «Sözdüzəldici şəkilçilərin məna xüsusiyyətləri haqqında» (1977) və başqa məqalələriniz, mübtəda və tamamlıq budaq cümlələrinə həsr olunmuş silsilə yazılarınız («Sintaktik paralellər», «Dil vahidlərinin sinonimliyi haqqında»,1980), adlarından göründüyü kimi, sintaksisin hələ o dövrlərdə çox az öyrənilmiş aktual məsələlərinin tədqiqinə həsr olunmuşdur. Bunlar birlikdə çap olunarsa, sintaksisə dair böyük və maraqlı bir monoqrafiya ortaya çıxa bilər. Sizin «Müasir Azərbaycan dilinin sintaksisi üzrə xüsusi seminar materialları: tərkiblər və budaq cümlələrin sinonimliyi» (1975), «Sadə cümlə: müasir Azərbaycan dilindən mühazirələr mətni» (1979) və başqa kitablarınız nəsil-nəsil tələbələrin stolüstü kitabları olmuşdur və gələcəkdə də öz faydasını verəcəkdir.

Barənizdə söhbət düşdükcə daim bir şeyə də təəssüf etmişəm: sintaksisdən dərs dediyim 30 ildən artıq bir müddət ərzində Sizin bu sahədəki maraqlı yaradıcılığınızı ardıcıl izləyərək həmişə tə-

əssüflə fikirləşmişəm ki, nə üçün Nabat xanım, filologiyanın köklü müəllimi ola-ola, bu fakültədən uzaqdadır, bu fənnin filoloq-tələbələrə tədrisi ilə bilavasitə o məşğul olmur. Düzünü deyim ki, bu məsələ mənim üçün təəssüf dolu bir yaddaş olmaqla yanaşı, həm də bir sirr olaraq qalır. Səbəb kim idi, nə idi, nə üçün Nabat xanım metodika çərçivəsinə sığa bilir, bilmirəm. Hər halda, subyektiv münasibətlər yalnız tələbələrin ziyanına olub. Lakin, görünür, metodikanın da əhəmiyyəti var, çünki Sizin «Müasir Azərbaycan dilində sintaktik sinonimlər. Feli tərkiblər və budaq cümlələr əsasında» (1978) adlı doktorluq dissertasiyanız yüksək elmi-nəzəri səviyyəsi ilə yanaşı, sintaksisin çətin bir sahəsinin – budaq cümlələrin feli tərkiblərlə müqayisəli şəkildə, daha asan bir yolla öyrədilməsi baxımından da qiymətlidir.

Onu da unutmamışam ki, Siz arabir bədii dil məsələləri ilə də məşğul olmuş, N.Vəzirov, M.Hüseyn kimi görkəmli sənət adamlarının bədii dilinin frazeoloji-üslubi keyfiyyətlərinin tədqiqi sahəsində xeyli iş görmüsünüz.

Bir qadın kimi, bir müəllim kimi, bir alim kimi və hər şeydən əvvəl, bir insan kimi şərəfli həyat yolu keçmisiniz. Bələd olmasam da, bilirəm ki, gözəl ailəniz, övladlarınız, nəvələriniz var. İnsan üçün bundan artıq nə lazımdır! Düz yarım əsr bundan əvvəl – 1950-ci ildə Pedaqoji İnstitutu fərqlənmə diplomu ilə bitirib aspiranturaya daxil olmusunuz. Və yəqin ki, elə həmin ildən universitetdə dərs də deməyə başlamısınız. İndi bu staj hər adama nəsib olmayan bir rəqəmə çevrilib: 50 il! Bu, son dərəcə şərəfli bir rəqəmdir. Yol da şərəfli olmuşdur. 50 nəslin müəllimi olmusunuz. Bizim nəsil Sizi, Sizin gəncliyinizi daim hörmət və məhəbbətlə salamlayıb. Heç şübhəsiz, tək bizim nəsil deyil, bütün o 50 nəslin Sizə ehtiramı var. Bu, çox böyük sərvətdir.

Qarşıdan qəribə bir il gəlir: 2000-ci il. Bu il də başa çatacaq və üçüncü minilliyə keçiləcək. Bütün tələbələriniz kimi, mənim də arzum budur ki, üçüncü minillk Sizin üçün daha uğurlu olsun, Ailənizə, Övladlarınıza, Nəvə-Nəticələrinizə və şəxsən Özünüzə sevincli günlər, əbədi xoşbəxtlik bəxş etsin.

Hörmətlə, tələbəniz:

prof.Q.Ş.KAZIMOV
18.12.1999

ƏZİZ DOST, UNUDULMAZ YOLDAŞ

İmran Abbasov!

Mən neçə ki varam, bu ad da mənimlədir, mənim yaddaşımdadır.

Cismən də gözlərimin önündədir. 40 ilə qədər bir dövr ərzində o qədər yaxın, o qədər munis olmuşuq ki, elə bilirəm, indi də İmran müəllim yanımdadır, hansı bir kitabısa sürətlə vərəqləyir, dərhal – bir neçə detalı gözdən keçirməklə – ani olaraq onun çap olunmasına dəyər, dəyməz qərarına gəlir və heyrətamiz şəkildə düzgün qərar çıxarır.

Dörddə bir əsrdən artıq bir müddət ərzində İmran müəllim «Maarif» nəşriyyatında böyük bir şöbəyə – dil və ədəbiyyat şöbəsinə rəhbərlik etmiş, bir müddət həmin nəşriyyatın direktoru vəzifəsində işləmişdir. Hörmətli oxucu nəzərə almalıdır ki, bu, sadə bir özəl müəssisə olmayıb, böyük dövlət nəşriyyatı idi, Azərbaycan ibtidai, orta və ali məktəbləri üçün dərslikləri, dərs vəsaiti və monoqrafiyaları nəşr edən yeganə mərkəz idi. 140 min, 150 min tirajla kitablar, müxtəlif vəsaitlər, dərsliklər nəşr etmiş, Azərbaycan elminin, xalq təhsilinin inkişafında misilsiz rol oynamışdır. Sovet dövründə bu böyük nəşriyyatda intensiv iş gedir, hər il dərsliklər həm forma, quruluş, həm də məzmunca yeniləşdirilirdi. İbtidai məktəblərin «Əlifba», «Oxu» kitabları, orta məktəblərin «Azərbaycan dili», «Ədəbiyyat» və xarici dil dərslikləri, ali məktəblərin humanitar şöbələri üçün bütün sahələrə dair dərsliklər, dərs vəsaiti, plan və proqramlar bilavasitə İmran Abbasovun rəhbərliyi altında buraxılırdı. İmran müəllim bunların birini də nəzərdən keçirməmiş, son dərəcə ciddi tələbkarlıqla redaktə etməmiş buraxmazdı. Uzun müddət bu istiqamətdə,bu yolla Azərbaycan elmi fikrinin, Azərbaycan maarifinin inkişafına zəhmət və məhəbbətlə xidmət edib. Humanitar sahənin elə bir görkəmli adamı, elə bir böyük alimi yoxdur ki, o, İmran müəllimin köməyini, qayğısını hiss etməmiş olsun.

İmran müəllim filologiya elmləri namizədi idi, müvəffəqiyyətlə müdafiə edib elmi dərəcə almışdı. Əgər yalnız öz yaradıcılığı ilə məşğul olsa idi, böyük və yaradıcı bir alim ola bilərdi. Lakin

özünün yazıb-yaratması üçün vaxt qalmırdı, İmran müəllim bir gündə o qədər kitab, o qədər əlyazması nəzərdən keçirməli olurdu ki, bunlara o həvəslə, o məhəbbətlə yalnız onun iradəsi tab gətirə bilərdi – hər bir yeni dərsliyi öz sevimli əsəri kimi sevə-sevə, elmi-texniki qüsurlardan qoruya-qoruya çap etməyə çalışır, yorulmaq bilmirdi.

Son dərəcə prinsipial insan idi, bir şey ağlına batdımı, bir kitabın çapını lazımlı bildimi, onun millət üçün faydalı olacağını gördümü, ona bu sahədə mane olmaq çətin idi. Zəif və solğun əsərlərə də münasibətini dəyişmək çətin idi: «Zəifdir, bundan heç nə çıxmaz», – dedi, qurtardı. Xoş və unudulmaz xatirələrlə dolu həmin günlərdə çap olunmuş yüzlərlə kitabda «Redaksiya müdiri: İ.Abbasov» sözləri Azərbaycan mədəniyyəti tarixinə həkk olunmuş silinməz sözlərdir.

İmran müəllim həqiqi dost idi, gözəl yoldaş idi. Son dərəcə natural bir şəxsiyyət idi – təbii, aydın, sadə, səmimi və mehriban. Yalan və riyadan uzaq, şəxsiyyətini hər şeydən uca tutan, bütün ömrü boyu mənliyini qoruyan, heç kəsin qarşısında əyilməyən və ümumiyyətlə, əyilmək nə olduğunu bilməyən, nöqsanları çəkinmədən üzə deyən, mərd, mübariz, – çətin bir cəmiyyətdə mərdlik timsalı. Gördüyü nöqsanı uda bilməzdi. Ona görə də dostları ilə yanaşı, mərdliyini, yaxşı mənada dönməzliyini hətta onu istəməyənlər də (belələri, demək olar ki, yox dərəcəsində idi) qiymətləndirirdilər.

Gözəl ailəsi, övladları, nəvələri... Minirə xanım – ipək kimi mehriban və qayğıkeş yoldaşı... Nə qədər qoşa biz onlara getmişik, onlar bizə gəliblər. «İmran, bu mürəbbədən ye» Yox, mürəbbə yeməz, canına fikir verməz. «Ə, ye, sən də bir adam həddinə gəl», «Yox, mürəbbə istəmirəm». İndi İmran müəllimi itirdiyimizi hiss edəndə, elə bilirəm, keçmişimi, keçmişimin ən xoş və unudulmaz günlərini itirmişəm. Amma heç inanmıram. Elə bilirəm, müvəqqəti olaraq yenə də doğma Türkiyəyə işləməyə gedib və hələ də oradadır – gələcək, biz yenə bir yerdə oturub, nəyi isə, hansı kitabısa öz aramızda müzakirə edəcəyik, yenə mürəbbə davamız düşəcək, yenə İmran müəllim mürəbbə yeməyəcək, yenə onun payını biz yeməli olacağıq...

Fikirləşirəm ki, İmran müəllim bir insan ömrünü vaxtından tez

başa vursa da, Vətənə lazımi şəkildə xidmət etdi, şərəflə yaşadı. Bir neçə on ilin müddətində Azərbaycan məktəblisi, Azərbaycan gəncləri İmran müəllimin alın təri ilə redaktə edib gecə-gündüz bilmədən işləyib hazırladığı kitablarla öz keçmişini, bu gününü, gələcəyini, öz tarixini, Vətənini, dilini tanıyıb, onun ləyaqətlə istehsalata verdiyi kitablarla dünyaya göz açıb. O uşaqlar, o gənclər onu görməyib, tanımayıb, amma İmran müəllim hər kitabın üstündə əsdikcə onları düşünüb...

Bu dünya belə gəlib, belə də gedir. Hər dostumuzu apardıqca sinəmizə bir çarpaz dağ qoyur. Həm də bu dağlar qabıq qoyub sağalan dağlardan deyil, əbədi yaralardandır.

Ruhu şad olsun, ailəsi, övladları, çox sevdiyi nəvələri onun xoş duyğu və düşüncələrini gələcəyə aparsın.

23.10.2000

MƏNİM TANIDIĞIM YASİF

«Qəfildən o əzəmətli çinarın dibində peyda olaydım. Böyrümdəcə şırhaşırla axan və bütün rayon mərkəzini içməli su ilə təmin edən büllur kəhrizin suyundan ovuclarımı doldurub doyunca içəydim. Oradan yuxarıya qalxaydım. Mərkəzi xəstəxanadan bir qədər aşağıda olan evimizə doyunca tamaşa edəydim. Yavaşca darvazanı açaydım. Pəncərəni taqqıldadaydım. Beş yaşlı oğlum qabağıma yüyürəydi. Mən kənara çəkilib gizlənəydim. O, «gördüm, gördüm» deyəydi. «Gizlənmə, tapacam. Sənsən, ata, sənsən.»

Hanı o günlər? Buradakı əzəmətli çinar da, şırhaşır axan büllur kəhriz də, mərkəzi xəstəxana da, bir qədər aşağılarda yerləşən ev də, doğma torpağın suyu, havası ilə böyüməkdə olan beş yaşlı uşaq da, işdən yorğun qayıtsa da, doğma evində, torpağında fərəhlə ömür sürüb öz doğma qapısını ləzzətlə taqqıldadan ata da simvoldur. Bu, bir vaxtlar Böyük Vətən müharibəsi cəbhələrində vuruşub Sibir qorxusundan Vətənə dönə bilməyən, Vətən həsrətilə qovrulan, əcnəbi ölkələrdə yarım ürəklə ömür sürən insanların arzuladığı Azərbaycandırsa, indi bizim üçün Kəlbəcərdir, Laçındır, Cəbrayıldır, Qubadlıdır, Zəngilandır, Şuşadır, Ağdamdır - bu yerlərdəki hər bir çinardır, hər bir evdir, hər bir yoxuşdur, hər bir məktəb, hər bir xəstəxanadır və o yerlərin həsrətilə qovrulan, çırpınan qocalar, gənclər, o yerlərin havasına, suyuna həsrət qalıb çadırlarda boğulan, məhv olan beş yaşdan da kiçik körpələrdir. Bunlar bizik – Yasifdir, Mənəm və neçə-neçə biz yaşda olub son dərəcə yaramaz bir mühitdə əli-qolu sarınmış, mənəvi məngənəyə salınmış insanlardır. Yasif Nəsirli məhz bu yanğı ilə həmin sözləri qələmə alıb, iç dünyasının qopardığı harayla bu sözləri yazıb. Ona görə də bu sözlər şam işığı kimi titrək bir qəlblə əcnəbi vətəndaşlığı qəbul etməli olmuş insanların deyil, bizim də qəlbimizin çırpıntılarıdır.

Yasif Nəsirli daxilən püskürən, od-alov içində qovrulan, zahirən şən, gülərüz, yumorlu bir insandır. Son dərəcə mehriban, yüzlərlə insana əl tutan və əl tutmağa hazır olan bir şəxsdir.

Namizədlik işinin elmi rəhbəri, gözəl insan və görkəmli yazıçı

Mir Cəlal Paşayevin təbiri ilə desək, «bu sadə kəndli oğlu» şərəfli bir həyat yolu keçib.

Müharibə çoxumuzu ata qayğısından məhrum edib. Yasifi də anası böyüdüb, saçlarının birini ağ, birini qara hörüb, gecə-gündüz kolxoz tarlasında çalışıb, balalarını saxlayıb. Çox gənc ikən Bakı Dövlət Universitetini bitirib. Çox gənc ikən Mirzə Cəlilin klassik nəsrinin, xüsusilə «Danabaş kəndinin əhvalatları» povestinin tədqiqi əsasında namizədlik dissertasiyası müdafiə edib. Bu dövrdən başlayaraq həyatı Azərbaycan ictimai mühitinin qaynar qazanında keçib. Bu yetim və kimsəsiz gənc öz biliyi, istedadı, zəhməti, qolunun qüvvəsi, ictimai işə, xalq işinə məhəbbəti, öz elmi ilə daim yüksəlib, yüksək ictimai mərtəbələrdə çalışıb. Onu daim işgüzarlığı, fəal ictimai mövqeyi, inam və əqidəsi, namuslu və obyektiv olması, vətən övladlarına xeyirxah və xoş münasibəti, nikbinlik və ləyaqəti, yüksək mədəniyyəti irəli aparıb. Hansı işdə olursa-olsun, öz elmini, mədəni səviyyəsini, ictimai-siyasi görüşlərini zənginləşdirməyə çalışıb, Bakı Dövlət Universiteti ilə yanaşı, Moskvada M.Qorki adına Ədəbiyyat institutunu, ÜİLKGİ MK Ali Komsomol məktəbini, SSRİ DTK F.Dzerjinski adına Ali məktəbinin hüquq fakültəsini bitirib, bunların hər biri onun bir tale məktəbi olub. Əmək fəaliyyətinə ilk universitet illərindən başlayıb BDU Elmi Cəmiyyətinin sədri, Azərbaycan LKGİ MK-da təlimatçı, bölmə müdiri, şöbə müdiri vəzifələrində çalışıb. 1967-ci ildə «Ulduz» ədəbi-bədii, ictimai-siyasi jurnalı nəşrə başlayarkən onun ilk baş redaktoru olmuş, jurnalın ətrafına istedadlı bir gənclik toplamışdır. Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində işə çəkilmiş, burada bölmə müdiri, idarə rəisinin müavini, idarə rəisi və kollegiya üzvü olmuşdur. Qaynar ictimai fəaliyyəti nəzərə alınaraq Azərbaycan KP MK-ya aparılan Y.Nəsirli burada inzibati orqanlar şöbəsinin müdir müavini və müdiri, Azərbaycan Prezidenti yanında Ali Nəzarət İnspeksiyasında inzibati orqanlar şöbəsinin müdiri işləmişdir. Azərbaycan KP MK-nın üzvü seçilmişdir. Zaqafqaziya Hərbi Dairəsi Hərbi Şurasının üzvü olmuşdur. Fəxri çekistdir, general-mayordur...

Bunlar onun ictimai-siyasi fəaliyyətinin qısa xronologiyasıdır. Bu vəzifələr bir gəncdən nələr tələb etmişdir, qırx ilə yaxın bir mübarizə yolunda nələr edilmiş, hansı işlər görülmüşdür - bu, vaxtı

gələndə meydana qoyulacaq başqa bir mövzudur. Yasif komsomolda böyümüşdür, onun bir natiq, bir vətənpərvər kimi yetişməsində sovet komsomolunun böyük rolu olmuşdur. Daim bu sahədə görkəmli ictimai xadim və təşkilatçı Elmira Qafarovanı hörmət və ehtiramla xatırlayır, gənclərin yetişməsində belə bir təşkilata böyük ehtiyac olduğunu qeyd edir: «Komsomolu bir də ona görə xoş niyyətlə yad edirəm ki, işləmək, çalışmaq üçün gözəl, sağlam mühit var idi. Buna da səbəb Azərbaycan xalqının böyük qızı, qeyrətli, namuslu qızı Azərbaycan LKGİ MK birinci katibi Elmira Qafarova idi... Komsomol mənim gələcək ictimai inkişaf yolumun başlanğıc nöqtəsi oldu. Onu da deyim ki, komsomol gözəl qurum idi. Onu dağıtdıq. Yerində isə heç nə yarada bilmədik». İndi gəncləri yüz yerə bölürlər. Hansı partiya güclüdürsə, arxasınca bir dəstə aparır.

Komsomol Yasifi ləyaqətli, dünyagörüşlü, uzaqgörən bir gənc kimi tərbiyə etmişdir. Ona görə də hətta DTK-nın 5-ci şöbəsinə rəhbərlik edərkən, respublikanın yaradıcı elm, maarif, ali məktəb təşkilatlarına, mətbuata nəzarət edərkən də böyük xof yaratmış bu təşkilatda ziyalılarımıza daim kömək etmişdir. Müsahibə və qeydlərindən aydın olur ki, 37-ci ildə olduğu kimi, 50-60-cı illərdə də ziyalılarımızın düşmənləri öz içərilərində olub - istedadsız, böhtançı, yaramaz adamlar: «Bəxtiyar Vahabzadə, Sabir Əhmədov, Anar, Məmməd Araz, Söhrab Tahir, Məmməd Aslan, Mövlud Süleymanlı, Abbas Abdulla, Nüsrət Kəsəmənli haqqında xüsusi yoxlama işləri vardı. Həmin yoxlama işlərinin nəticəsində adlarını çəkdiyim yazıçı və şairlər dövlət mükafatlarından məhrum olunurdular, xaric onların üzünə bağlı idi. Kim idi bunların haqqında yazanlar? Kim idi bunlara xüsusi yarlıq yapışdıranlar? Öz yazıçı və şair dostları. Çox çətin mübarizə və səydən sonra adlarını çəkdiyim adamların üstündən qara ləkəni götürməyə nail oldum». (Sədiyar Cahangiroğlu. «Yasif Nəsirli». 1999, s.78) Bu şəkildə üstünə «millətçilik və antisovet ruhda» sözləri yapışdırılmış 17 namizədlik və doktorluq dissertasiyasını da DTK fəaliyyətinin ilk illərində xilas etmişdir. Xalq şairi Nəbi Xəzri SSRİ Dövlət mükafatına təqdim edilərkən də «dostları»nın Sov.İKP MK-ya, Siyasi Büroya, DTK-ya göndərdikləri imzasız məktubların, teleqramların «millətçilik» iddialarının ləğvində əməyi az olmamışdır.

Əbülfəz Elçibəylə bağlı bir epizod daha maraqlıdır. Məlumdur ki, öz istedad və qabiliyyəti ilə ardıcıl irəliləməkdə olan Yasif Nəsirlinin aldığı ilk ictimai zərbə cəbhəçilərdən olmuşdur. Sovet tərbiyəsi ilə böyüdüyünü, sovet məktəbində yetişdiyini qeyd edərkən dünənini unudanlar, dünəninə nankor baxanlar onu partokrat damğası ilə ləkələməyə çalışırdılar. Müsahibələrdən aydın olur ki, bu «partokrat» onların liderinin bir vaxtlar həbsdən xilasında böyük əmək sərf edib. 75-ci ilin sentyabrında Moskvadan qayıdıb DTK-da işə başlayan kimi, tələbəlik dostu Əbülfəz Əliyevin həbsdə olduğunu bilib xilasına çalışır. Əbülfəzin anasının adından ərizə yazdırıb öz işçisinə barmaq basdırır, özü isə bu barədə sədrə raport yazır. Raportla ərizə MK-nın birinci katibi H.Əliyevə çatdırılır. H.Əliyev raportu oxuyub, Əbülfəz Əliyevin həbsdən azad edilməsi üçün məktubun üzərinə dərkənar qoyur: «Gözüm raportun üzərindəki MK birinci katibinin böyük hərflərlə yazdığı dərkənara sataşdı. Başdan rusca yazmışdı: «Y.Nəsirovla razıyam». Birinci səhifənin axırında isə P.S. qoyub qeyd etmişdi: «Y.Nəsirov cavandır. Onunla profilaktiki iş aparmaq lazımdır ki, millətçilik xəstəliyinə tutulmuş adamların təsirinə düşməsin». Beləliklə, Əbülfəz Elçibəy azadlığa buraxıldı. Lakin sonradan məlum olanda ki, onun anası mənim qəbulumda olmayıb, ərizəni biz özümüz yazmış və barmaq basmışıq, mənə sədrin əmri ilə töhmət elan etdilər. Bu mənim 35 illik iş fəaliyyətimdə aldığım ilk töhmət idi. Bu əhvalatdan indiyə qədər Ə.Elçibəyin xəbəri yoxdur. Lakin Elçibəy hakimiyyətə gələrkən ilk işdən azad etdikləri adam mən oldum. Bəhanə də bu oldu ki, guya mən demokratik fikirləri müdafiə etmirəm». (Yenə orada,s.95) Y.Nəsirli vətəndaşlıq borcunu bu cür yerinə yetirməklə kifayətlənməmiş, DTK-nın özündəki satqın və yaramaz adamları, Nəbi Xəzri kimi böyük şair və şəxsiyyətin şair və ya yazıçı olduğunu seçə bilməyən idarə başçılarını orada işləyə-işləyə bədii və publisistik əsərləri ilə adbaad ifşa etmişdir. Rus dilinə çevrilib Siyasi Büroya qədər özünə yol tapan «İki şüşə konyak» əsəri belələrindəndir.

Yasif Nəsirli Qarabağ hadisələrinin ən qaynar nöqtələrində olub. Qarabağ Təşkilat Komitəsi sədrinin birinci müavini kimi, daim cəbhə xəttində olub, Qarabağın Azərbaycan kəndlərinin erməni basqınlarından xilas edilməsində, Şaumyan (kənd) rayonu-

nun, Çaykəndin ermənilərdən təmizlənməsində, ətraf rayonların müdafiəsində əlindən gələni əsirgəməyib. Dəfələrlə ölümlə üz-üzə gəlib. Hələ Sovet dövlətinin dağılmadığı dövrdə Qorbaçovun məkrli siyasətini ilk başa düşənlərdən olub. Qarabağ Təşkilat Komitəsi sədrinin birinci müavini general D.Aleksandrov yazır: «Onu da deyim ki, Yasifin hərəkətləri barədə Moskva və Yerevanda tutarlı faktlar var idi. Yerevanda hətta bir neçə azərbaycanlılar kimi, ona qiyabi ölüm hökmü kəsmişdilər. Yasif ya girov götürülməli, ya da fiziki məhv edilməliydi. Bunu başa düşəndən sonra mən onu əməlli-başlı qorumağa başladım. Xankəndindən yola düşən axşamı ona dedim:

- Özündən ehtiyatlı ol. Səni öldürəcəklər».

Azərinformun 17 avqust 1991-ci il tarixli məlumatında deyilir: «Respublika Təşkilat Komitəsinin üzvlərinə, o cümlədən M.İ.Radayevə, V.H.Məmmədova, Y.M.Nəsirova xidmət edən UAZ-469 avtomaşınının yan şüşəsinə qumbara atılmışdır. Avtomaşının salonunda partlayan qumbara Y.M.Nəsirovu, həmçinin Təşkilat Komitəsinin məsul işçisi Y.Ş.Salahovu və sürücü Z.Q.Vəliyevi yaralamışdır. Onlar xəstəxanaya aparılmışdır». Y.Nəsirli jurnalist qadın S.Əsgərova qətlə yetirilərkən onunla dalbadal gedən maşında olmuş, təsadüf nəticəsində salamat qalmışdır. Heç kim heç kimin nələr çəkdiyini bilmir. Bizim dövrümüzdə də epoletlər altında yanar ürəklər olmuşdur və bizim dövrümüzdə də çox şey öz qiymətini ala bilməmiş, iş adamları yox, qaragüruh və hay-küyçülər irəli soxulmuşlar. Unudulmaz tələbə yoldaşım Əhəd Muxtar Yasif Nəsirliyə ithaf etdiyi şerində deyirdi, həm də yaxşı deyirdi:

Namərdlərə çatıb bəylik,
Müdrikliyə dönüb səylik,
Tüğyan edir dərəbəylik,
Bu dünya öz işindədir.

Yasif Nəsirli təkcə böyük ictimai-siyasi fəaliyyəti ilə deyil, ədəbi-bədii və elmi yaradıcılığı ilə də bir insan kimi fərqlənmişdir. O, Respublika «Veteran» Xeyriyyə Fondunun prezidenti, Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin vitse-prezidenti, xarici ölkələrdə yaradılmış bir çox dostluq cəmiyyətləri idarə heyətləri-

nin üzvüdür. Beynəlxalq aləmdə Azərbaycan Respublikasının tanınması, təbliği, torpaqlarımızın azad olunması uğrunda bütün mövcud imkanlardan istifadə edir. İngiltərə, İtaliya, Fransa, Türkiyə, Malta, Bolqarıstan, Çexoslovakiya, Rumıniya və başqa ölkələrdə olmuş respublika nümayəndə heyətlərinə başçılıq etmişdir. 1998-ci il fevral ayının 9-da Bağdad şəhərində keçirilən VIII Ümumdünya İslam konfransında (İrak) iştirak etmişdir.

Yasifi bir şəxsiyyət kimi səciyyələndirən xüsusi keyfiyyətlər vardır. Ən böyük keyfiyyətlərindən biri insana insan kimi baxmasıdır. Bu o deməkdir ki, Yasif üçün ərazi bölgüsü, etnik qrup sərhədi yoxdur. Yasif üçün vahid və yeganə «insan» məfhumu var, «vətəndaş» məfhumu var. Ömür boyu pis mənada region söhbətlərinin düşməni olub. Yasif daim bu fikrə tapınıb ki, konkret olaraq dövlətimizin ərazisində yeddi milyonluq balaca bir xalq var. Lakin bu balaca xalqın qəlbi onun tutduğu ərazidən çox-çox genişdir. Yasif bilib ki, bu xalqın dostları var, düşmənləri var, dostlarla dostluğu möhkəmləndirmək, düşməni islah etmək mümkün olmasa, əzmək lazımdır. Bunun üçün daxildə birlik lazımdır, sərvət, vəzifə ehtirası ilə, Sovet dövlətinin məhvindən istifadə edib ac qurd kimi bu xalqı boğazlamaq, parçalamaq, daxildə hüdudsuz düşmənçilik yaratmaq olmaz və bu yolla gedənlər həqiqətən öz xalqına, vətən övladlarına, ölkəsinə düşmənçilik edirlər. Bir çoxları kimi, vəzifə tutmaq üçün keçmiş rəhbər işçilər əleyhinə böhtanlar quraşdırmaq, bu günün bəlalarını da onların boynuna qoymaq, min sifətə düşmək, riyakarlıq donunda haram tikə ilə dolanmaq – gözümüz önündə çoxlarında gördüyümüz bu «keyfiyyətlər» Yasifə yaddır, bunlar onun nifrət obyektidir. Odur ki böyük inkişaf yolunun qabağına tir yomalanandan başını aşağı salıb, mümkün olan sahədə xalqının xidmətindədir - «Azərbaycan dünyası» Beynəlxalq Əlaqələr Mərkəzinin vitse-prezidentidir. Çətin, şərəfli və mənalı bir ömür yolu keçmiş, həyatın sərt imtahanlarından daim alın açıqlığı ilə çıxmışdır. Mərd, mübariz, yenilməz bir insan, müdrik ziyalı və ictimai xadim kimi tanınmışdır. Ən çətin anlarda belə, ləyaqətini qorumuş, həqiqi demokrat ruhlu bir şəxsiyyət kimi tanınmışdır.

Yasifi səciyyələndirən ən mühüm keyfiyyətlər sadəlik, təvazökarlıq, səmimiyyət, mehribanlıq, gülərüzlülükdür. Ən böyük vəzi-

fəyə çatanda da, hər hansı bir sahədə ən böyük müvəffəqiyyətə nail olanda da daim bu keyfiyyətlərini qorumuş, saxlamışdır. Daha doğrusu, bu keyfiyyətlər onun daimi yol yoldaşıdır. Nikbinlik, hadisələrə yumorlu münasibət, şaqraq danışıq və gülüş onu sevdirən, daim cavan saxlayan əlamətlərdir. Uşaq kimi saf və təmiz, uşaqla uşaq, böyüklə böyük. Situasiyanı dərhal tutmaq, anlamaq, dərhal məsələni gözlənilməz istedadla həll etmək, çıxış yolu tapmaq, «neynim, necə edim» - fikirləri ilə vaxt almamaq, operativlik - Yasifi tanıyanlar daim onda bu cür keyfiyyətlər müşahidə etmişlər. İctimai işdə xüsusi istedad sahibi idi.

İnsan xislətindəki ən yaramaz cəhətlərdən biri orta əsr feodal təfəkkürü ilə bağlı olan tayfaçılıq, məhəlləçilik, murdar yerliçilik hissləri ilə yaşamaqdır. Yasif və onun həqiqi dostları ömür boyu bu cür yaramaz duyğulara yabançı olmuşlar. Yasif heç vaxt öz dostlarından, hörmət bəslədiyi, xeyirxahlıq etdiyi, çətin məqamlarda qoruduğu insanlardan haralı olduğunu soruşmayıb. Yasif və Yasifi yetirən torpağın adamları gecələr gizli görüşüb evlər yıxmaq, planlar qurmaq, vəzifələr tutmaq kimi naqis əməllərlə məşğul olan insanlara daim nifrət etmişlər: hər kəsi açıq-aşkar öz qabiliyyətinə görə cəmiyyət irəli aparmalıdır, gizli danışıqlar, ağır rüşvət və karrupsiya yox. Böyük alim və gözəl insan kimi daim bizimlə yaşayan Qulu Xəlilov yazır: «Onu tanıdığım, dostluq etdiyim otuz ildən artıq olmasına baxmayaraq, yalnız bu yaxınlarda onun hansı rayondan, hansı kənddən çıxdığını bilmişəm. Yəqin ki, o da belə şeylərə əhəmiyyət verməmişdir. Çünki o vaxtlarda «Haralısan?» - demək, soruşmaq nəinki ayıb sayılırdı, heç yada da düşmürdü...» Qulu müəllim sözünə davam edərək deyir: «İndi özümü danlayıram ki, nə üçün doğulub ərsəyə çatdığım kəndə bircə dəfə də olsun getməmişəm, o yerlərin ab-havası, adamları ilə yaxından tanış olmamışam. Bəlkə də, bu hal məndə bəzi vəzifəli və vəzifəsiz adamların fəaliyyətlərində, şüurlarında qara ləkə kimi iz buraxan yerliçilik kimi eybəcərliyə dərin nifrətimdən yaranmışdır». (Yasif Nəsirli. Görə bilmədin, 1998,s.3) Bizə, bizim indiki cəmiyyətə Qulu Xəlilov kimi adamlar lazımdır, Yasif kimi adamlar lazımdır. Cəmiyyəti yaramaz bataqlıqdan yalnız bələləri çıxara bilərdilər. Amma çox təəssüf ki, indi əlində ixtiyar olanların, demək olar ki, hamısı ağır və dəhşətli mərəzə tutulmuş adam-

lardır ki, bu da cəmiyyəti fəlakətə aparır. Həqiqi dostluq təfəkkür, düşüncə vəhdəti ilə doğulur: «...onun özünün şəxsiyyətindəki saflıq, təmizlik, mehribanlıq, mərdlik və səmimiyyət torpağımızın bir parçası sayılan həmin yerlərin təbiəti, adamları barədə məndə xoş təəssürat yaratmışdır. Üstəlik onun yazılarındakı həyatilik, doğulduğu kəndin adamlarına, sularına, çəmənlərinə, dağlarına məftunluq, xalqın varlığından süzülüb gələn adət-ənənələrinə övlad məhəbbəti məndə gizli və açıq iftixar hissi oyatmışdır» (yenə orada).

Yasifin çox yüksək təşkilatçılıq qabiliyyəti vardır və bunu görkəmli ziyalılarımız qiymətləndirirdilər. Səksəninci illərin sonları idi. Bir məclisdə Nəbi müəllimlə yanaşı oturmuşduq. Bir qədər aralıda Yasif Nəsirli bir nəfərlə söhbət edirdi. Nəbi müəllim yavaşca mənə toxunub barmağı ilə Yasifə işarə edərək xəfif bir səslə dedi:

– Bax, hazır katibdir. Bu xalqa nə qədər xeyiri dəyər...

MK katibindən söhbət gedirdi. Yasif bu sözü eşitmədi, mən də indiyə qədər bu sözü ona deməmişəm.

2000

İNSAN TƏBİƏTİ VƏ DİLÇİLİK

Yaradıcılığa çox erkən – 50-ci illərin əvvəlindən başlasa da, 60-cılar hərəkatının görkəmli nümayəndəsi kimi şöhrət tapan Əməkdar elm xadimi, Respublika Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru, professor **Ağamusa Ağası oğlu Axundov** beş il əvvəl kitablarından birinə yazdığı ön sözdə keçdiyi həyat yolunu göz önünə gətirərək özünə sual verirdi: ***İllərim necə keçdi, bir şey edə bildimmi? Gördüyüm işlər necə qarşılandı, necə qəbul edildi?***

Əslində, bəşər övladı sayılan hər bir şəxs ömrünün müəyyən mərhələsində özünə bu cür suallar verməlidir. Həm də bu suallar insanın yalnız praktik-əməli fəaliyyətini deyil, ruhi-mənəvi aləmini də əhatə etməlidir. Özünə bu cür suallar verən şəxs gercək aləmi daha aydın görə bilir, bu aləmdən keçən həyat yolunu daha işıqlı qurmağa, daha xeyirxah əməllərlə yaşamağa can atır.

Şübhəsiz, insanın arzu və istəklərinin tükənməzliyi fəth olunmuş hər bir zirvə dairəsini şərti sayır. Hamımızın məktəbi olan Ə.Dəmirçizadə, M.Hüseynzadə, M.Şirəliyev kimi böyük, yaşlı və işıqlı nəslin qarşısında dəfələrlə alovlu nitqləri ilə müəllimlərini heyran qoyduğunun şahidi olduğum Ağamusa Axundov keçmişindən nigaran olmamalıdır ona görə ki, Azərbaycan dilçiliyinə, bütövlükdə türkologiya aləminə «Azərbaycan dilinin fonetikası» kimi fundamental əsər bəxş edib. Bir əsər ki, dilimizin səs sistemi səsləndikcə səslənəcək, neçə nəslin təlim məktəbi olub və bundan sonra da hələ saysız nəsillərə xidmət edəcək.

İndi o sualların verildiyi illər üzərinə 5 il də əlavə olunub – 50 il. 50 il yorulmaz zəhmətdə. Mənəvi aləminin işığı düşən hər bir sahədə xalqına, Vətəninə, Azərbaycan elminə xidmətdə.

Çap olunmuş əsərlərinin ümumi sayı 400-ə yaxındır. Bu rəqəmlərin bir çoxu qiymətli dərslik və monoqrafiyaların qarşısında durur. «Azərbaycan dilinin fonemlər sistemi», «Dilin estetikası», «Dil və üslub məsələləri», «Azərbaycan dilinin tarixi fonetikası», «Felin zamanları», «Şeir sənəti və dil», «Riyazi dilçilik», «Ümumi dilçilik», «Dilçiliyə giriş»... Bu kitablar, sayını dəqiq bilmədiyimiz elmi və elmi-publisistik məqalələr küll halında böyük və yaradıcı zəhmətin səmərəli nəticəsidir. Bu əsərlər dil tarixinin, dilimizin müasir quruluşunun, ümumi dilçiliyin ən aktual və mürəkkəb məsələlərinə həsr olunmuşdur. Ona görə də insan üçün yaratdıqları yada düşdükcə göründüyündən daha əzəmətli görünür.

Ağamusa Axundov xoşbəxtdir ki, hər bir azərbaycanlı ailəsinin əziz qonağı, daimi yaddaş kitabıdır. Ümumtəhsil məktəblərini bitirən hər bir gənc ana dilinin sirlərini onun dərsliklərindən öyrənir. Filoloq və jurnalist kimi yetişən hər bir gənc onun ali məktəb dərslikləri ilə elm aləminə qədəm qoyur. Uzun müddət Bakı Dövlət Universitetinin filologiya fakültəsinə, universitetin bir sıra kafedralarına, Nəsimi adına Dilçilik İnstitutuna rəhbərlik edib, 50 ilə yaxın bir müddətdə pedaqoji fəaliyyətlə məşğul olub, nəsil-nəsil müəllimin müəllimi olub, elmi-pedaqoji kadrların hazırlanmasında xüsusi xidmət göstərib. 70 ilin hüdudlarında bu gün də bütün fəaliyyət sahələrini uğurla davam etdirməkdədir.

Ağamusa Axundov xaricdə və daxildə – bütün türkologiya aləmində tanınan tək-tək filoloq alimlərdəndir. Azərbaycan elmini dünyanın 30-dan artıq ölkəsində yüksək nümunə ilə təqdim və təmsil edib. Çernonsı, Frunze, Səmərqənd, Qahirə, Praqa, Minsk, Daşkənd, Mahaçqala, Ankara, Almaata, Tomsk, Ujqorod, Moskva, Penza, Vladiqafqaz, Düşənbə, Nukus, Karaçayevsk, Ufa, Pyatiqorsk, Telavi, Belqrad, Aşqabad, Budapeşt, Tbilisi, Dublyanı, Kayseri, İstanbul, Tehran konfransları... Düzü, qibtə doğurur. Məruzələri, təbii ki, daim böyük rəğbətlə qarşılanıb.

Ədəbiyyatşünas alim, tərcüməçi və yazıçı kimi də şöhrətlidir. Yaradıcılığa hekayələrlə başlamış, bir sıra nəsr əsərləri, oçerklər, felyetonlar yazmış, renessans dövrü ədəbiyyatından, Bokkaço,

Plavt kimi sənətkarlardan tərcümələr etmiş, Ş.Petefinin, R.Həmzətovun əsərlərinin dilimizə tərcüməsi, C.Cabbarlı, S.Vurğun, M.Müşfiq, B.Vahabzadə, N.Xəzri və b. ədiblərimizin yaradıcılıq xüsusiyyətləri barədə tədqiqatlar aparmış, vaxtaşırı mətbuatda türkoloji dilçiliyin uğurları barədə ciddi resenziyalarla çıxış etmişdir. Və özünün bir sıra əsərləri rus, alman, ingilis, fransız dillərində çap olunmuşdur.

Ağamusa Axundovun yaradıcılığı XX əsrin ikinci yarısında Azərbaycan filologiyasının türkologiya aləminə bəxş etdiyi qiymətli sərvətdir. Onun əsərlərində qızğın ehtiraslardan kənar, soyuq baş və dərin məntiqlə, xüsusi bir yaradıcılıq üslubu ilə söylənmiş fikirlər filologiya aləmində daim rəğbətlə qarşılanmışdır. Düşünülmüş və uydurulmuş konsepsiya ilə deyil, faktlardan doğan təəssürat əsasında söylənmiş mülahizələri gənc tədqiqatçıların yoluna işıq saçır. Ümumi dilçilik elminin, Azərbaycan dilçiliyinin mühüm problemləri ilə ardıcıl məşğul olmuş, türkoloji tədqiqatlar xəzinəsinə qiymətli əsərlər bəxş etmişdir.

Bir insan kimi də fərdi keyfiyyətləri ilə seçilir. Daim qolunun qüvvəsi, təmkin və iradəsi, fərdi istedad və zəkası ilə irəliləmiş, şərəfli yüksəliş yolu keçmişdir. Öz halal çörəyinə qane olmaqla, haram tikə yeyənlərin cərgəsinə qarışmamış, qatılmamışdır. Səliqəli, sözsüz və işgüzar. Bir insan ömrünə zorla sığa bilən yaradıcılıq uğurları və xeyirxah əməllərlə...

22.12.2001

KOLXOZ RƏHBƏRİ

Bu da bir mərhələ idi – yarandı, 60 ilə qədər davam etdi və ömrünü başa vurdu. Adına ***kolxoz*** deyirdilər – '□□□□□□□□□□□□ □□□□□□□□□□'. Bəşər tarixində görünməmiş maraqlı bir təsərrüfat forması idi (təbii ki, ibtidai icma quruluşuna həm yaxın, həm də fərqli): torpaq sahəsi başda olmaqla bütün əsas əmlak kolxoz təsərrüfatına məxsus idi, yəni bütöv bir elin, o kolxozda birləşən ailələrin ümumi əmlakı idi. Maraqlı bir də bu idi ki, 30-cu illərin ilk günlərində kolxoz yaradılmağa başlayanda qoyun, quzu, at, inək, camış – kimin nəyi varsa, alınıb kolxoza qoyulmuş, sonra kəndin əkin sahələri arasındakı tirələr ləğv edilmiş, traktoru bu başdan salıb o başdan döndərmişlər və artıq tayfa əraziləri də öz sərhədlərini itirməyə başlayanda Fərəc kişi bir daş üstünə qalxaraq camaata müraciət etmişdir:

- Ay camaat, qoyunumuz, quzumuz, malımız, heyvanımız nə vardısa, hamısını kolxoza qoyduq. Sabah, birisigün Sovet hökuməti yıxılan kimi, hər kəs öz heyvanını tanıyır, gedib qulağından yapışıb gətirib qoyacaq öz qapısına. Bəs bu torpağın sərhədini necə biləcəyik? Nə üçün qoyursunuz aranı qatırlar?

Buna baxmayaraq, kolxoz quruldu da, yaşadı da, Sovet hökuməti də tarixdə əbədiləşənə qədər yaşadı. Fərəc kişi o zaman bir şeyi başa düşmürdü ki, niyə onun bu kiçik torpaq sahəsini də onun əlindən alırlar. Amma onu da bilmirdi ki, bu gələn yeni hökumət elə onun kimilərinin hökumətidir – ona çörək verəcək, yemək verəcək və üstəlik də onun haqqını qoruyacaq, onun balalarını oxudacaq. Onu da bilməyəcəkdi ki, harın və əxlaqsız adamlar onu bir insan ömrü qədər də yaşamağa qoymayacaqlar. Hamı işləyirdi. Hamı öz halal çörəyini yeyirdi. Kolxoz təsərrüfatı, kooperasiya düzgün siyasət idi. Amma onun təşkilindən çox şey asılı idi. Yüksək səviyyədə texnika ilə təmin edilmiş, insan əməyinin düzgün qiymətləndirildiyi kolxozlarda əhali yağ-bal içərisində yaşayırdı. Amma zəhmət çəkmək lazım idi. Taxılı vağamlamağa qoymaq olmazdı, yayın 40 dərəcə istisində biçib döymək lazım idi. Pambığı gecə-gündüz yığıb təhvil vermək və əvəzində milyonlar

qazanmaq lazım idi. Müəyyən mövsümlərdə iş azalırdı və dincəlmək də olurdu.

Kənd camaatı, xüsusilə qadınlar 40-50-ci illərdə nə müsibətlər çəkiblər, bilirik. Gecə saat 11-12-yə qədər tarlada olmuşlar, ay işığında pambıq yığmışlar. Döyülməkdən ağız-burunları qan içində olan öküzlərin qoşulduğu arabalar pambığı arxdan-bərədən çıxara bilmədikdə gecə yarısınadək ilan-çayanın, ağcaqanadın arasında tarlada müsibət çəkməli olmuşlar. Amma bunların hamısı texnikanın inkişafı ilə tədricən aradan qalxırdı. Pambıq maşınla yığılırdı, maşınla daşınırdı. Pambıq alağı maşınla təmizlənirdi. İş yüngülləşirdi. İş yüngülləşdikcə yuxarı dairələrdə rəhbərlik zəifləyir, haqq-ədalət itirilirdi. Normadan ikiqat, üçqat artıq pambıq əkilir, bir hesablanırdı – əhali üzülür, yuxarılar bayraq alırdı, ad alırdı. Kolxoz camaatı bezdirirdi. Bezdi, bezdi, axırda bu «kolxoz oyunu»ndan qurtardı. Yenidən fərdi təsərrüfata keçildi. Həmin harın adamlar kolxozun 60 illik əmlakını satıb mənimsədilər, dağıtdılar; torpaqların yaxşılarını tutub fərdi təsərrüfat sahələrinə çevirdilər. Adamların çoxu tökülüb işsiz qaldı, avara qaldı və avaralar haqqında milli məclisdə qərar qəbul olundu.

Belə kolxozlardan biri də lap erkən Soltanlı elatında yaradılmışdı.

Bu kolxoz müxtəlif adamların – iri şəxsiyyətlərin adını daşıyıb. Mən gözümü açandan bu kolxozu Puşkin adına görmüşəm. Sonralar necə oldusa, Soltanlı Molotov kolxozu oldu. Xeyli müddət – dağılmağa başlayana qədər S.Vurğunun adını daşıyırdı.

Dediyimiz kimi, Soltanlıda artel erkən yaradılmağa başlamışdı – 1927-ci ildə. Artel rəhbəri də, kolxoz sədrləri də hələ camaatın yadından çıxmayıb.. Deyəsən, ilk sədri Daşdəmirlilərdən Lətif Kərbəlayı Məhəmməd oğlu Usubov olub. Lətif Usubovun atası da, babası da Kərbəlayı idi, amma Lətifin bəxtinə pis günlər düşüb, mollaların qırıldığı, məscidlərin söküldüyü dövrə təsadüf edib. Lətif də həmin siyasətin qurbanı kimi Hajaxundluların böyük məscidini söküb gətirib kənddə tamaşalar çıxarılan, kinolar göstərilən klub tikdirib. Lətifin siyasəti zorakılıq dövrünün siyasəti olub – kənd əhalisinin mal-heyvanının zorla kolxoza qoyulduğu, dinin-mollalığın qadağan olunduğu, əhalinin zorla kolxoza

– kooperativə yazıldığı dövrün siyasəti idi, ona görə də Lətif kişi yaddaşlarda bir növ Şümür kimi qalıb. Amma insanlar başa düşməli idilər ki, Lətif də Kərbəlayı Usubun, Kərbəlayı Məhəmmədin törəməsidir və bu işləri o, məcburi yerinə yetirirdi. Cəsarətli, təsərrüfatçıl olduğu üçün qabağa o düşüb. Lətif Usubovun müharibədən qayıtmamasını da çoxları onun allahın evini sökməsi ilə əlaqələndirirdilər, amma düşünmürdülər ki, müharibə günahsızların ömrünə daha çox balta çalıb. Lətif kolxozun sədri olsa da, qardaşları və bacısı sadə zəhmətlə dolanan adamlar idi, öz övladlarına da elə bir var-dövlət qoymamışdı.

(Mənim atam, Allahverdiyev Şirin Kazım oğlu bu dövrdə – 30-cu illərdə – xeyli müddət kolxoz kooperativinin müdiri olub, pay bölgüsünə və camaata ərzaq paylanmasına rəhbərlik edib. «Şirin kəsən normadır» ifadəsi o vaxtdan qalıb. Kənd adamları onu həmişə ehtiramla xatırlayırlar. Şirin öz səviyyəsi ilə seçilən, hamının yerini bilən bir insan kimi xatirələrdə qalıb. Kənddə açılmış (1912) yeni tipli məktəbi bitirdiyindən barmaqla göstərilən savadlı adamlardan olub.)

Sonra az bir müddətdə Məhəmməd Əliyev sədr oldu. Anasının adı ilə tanıyırdılar – «Mələhnaz oğlu Məhəmməd» deyirdilər. Qonşu kənddən idi, Qovuşutludan. Mülayim adam idi. Camaat o qədər də saymırdı. Kəndin kişiləri müharibədə idi, ona görə onu seçmişdilər. Daim bir kəhər madyanın belində görərdin. Amma arvadı Güləbətin xala kənddə sayılan-seçilən qadın idi. Zəhmətkeş idi, qabaqcıl manqa başçısı idi. Rayon sovetinin deputatıydı. Əllə pambıq yığımında hər adam Güləbətinə çatmazdı. Staxanovçu idi. Müharibədən sonrakı ilk illərdə Rəşid Behbudov həmin kənd klubunda üzünü Güləbətin arvada tutub «Ay Gülabatın» mahnısını oxuyanda hamı kimi mən də elə bilmişdim ki, bu mahnını bizim Güləbətin xalaya qoşublar. Kənd sovetinin sədri də oldu. Sözü ötən qadın idi (Allah hamısına rəhmət eləsin!).

1944–1945-ci illərdə kolxozun sədri Məhərrəm Əliyev idi. Məmmədalı uşağından Kərbəlayı Hüseyn oğlu Məhərrəmin kolxoz sədri olduğu mənim yaxşı yadımdadır. «Məhərrəm kişi» deyirdilər. Məhərrəm kişi daha çətin illərə düşmüşdü – müharibənin son illəri, aclıq, səfalət... Kənddə başıpapaqlı az idi. Qadın əməyi həlledici idi. Bütün əkin-biçin işləri qadınlara baxırdı. Kolxoz tə-

zəcə dirçəlməyə başlayanda Məhərrəm kişi pensiyaya çıxdı. Xəstə idi, daim öskürürdü. Mis kimi sifəti daim zəhmli görünərdi. Ciddi adam idi. Bir dəfə mənə yaxşı bir şapalaq da vurub. Fermadan künal gətirməyə getmişdim. Heyvanlar yaylağa aparıldığından tövlələr boş idi, qurd qoymuşdular. Barama yığılmışdı, künalı qalmışdı. Şələ-şələ gətirib yandırırdılar. Sac altına qoyur, çörək bişirirdilər. O zaman 7-8 yaşlarımda idim. Tək getmişdim. Tövlənin 4-5 metr enində böyük darvazası vardı – taxtadan. Sağ və sol qapıların taxtaları bucaq şəklində vurulmuşdu. Nə vaxtsa üstünə ağ rəng çəkilmişdi. İçəri keçəndə gözüm bir mismara sataşdı. Köhnə paslı mismarın ətrafı oyulmuş, yarısı taxtadan laxlayıb çıxmışdı. Uşaq həvəsilə əlimi atıb mismarı çəkdim, iri bir taxta yerə düşdü. Ha çalışdım, taxtanı yerinə qoya bilmədim, sürüyüb içəri saldım, içəridən qapının arxasına söykəyib şələni tutmağa başladım. Elə bu zaman bir soldat böyürdən çıxdı, taxtanı göstərib nəsə dedi və qolumdan yapışıb məni sədrin evinə gətirdi. Əsgərlərin keşik məntəqəsi Məhərrəm kişigil ilə fermanın arasında, təpənin başında yerləşmişdi, sədrin evinə də, fermaya da eyni dərəcədə yaxın idi, sağda və solda təqribən 200 metr məsafə olardı. Soldat durbinlə görürmüş. Elə bilib ki, taxtanı çıxarıb aparmaq istəyirəm. Şələni dalıma alıb qapıdan çıxanda məni yaxaladı. Sədrin qapısına gətirdi. Məhərrəm kişi həyətdə üstünə döşək sərilmiş taxta çarpayıda oturmuşdu. Soldat nə dedisə, mən ağzımı açmamış barmaqlarının ucu ilə sifətimə vurub «Bir də elə iş tutma!» dedi. Kolxoz malını dağıtmaq olmazdı, bilirdim. Amma paslanmış, yeri oyulmuş mismar o qədər maraqlı idi ki, bunun kolxoz malına ziyan vuracağını düşünməmişdim. Məhərrəm kişi və o dövrün adamları kolxoz əmlakını bu cür qoruyurdular. Ona görə də yadımdadır ki, müharibə təzəcə qurtarmışdı, kənd əhalisi sədrin evindən xeyli aşağıda, böyük həyəti, saman tayaları olan anbarda növbəyə durmuşdular: fermadan boçka-boçka yağ gətirilmişdi – təbii kərə yağ, sapsarı. Fermanın öz məhsulu hesabına kolxozçulara əmək gününə yağ bölürdülər, diri qoyun çəkib verirdilər. Taxıl alırdılar. Hər şey camaatın gözü qabağında bölünürdü. Yaşlı kişilər – Nurullah kişi və başqaları kəndin illik gəlirini barmaqhesabı əzbər bilirdilər. Bilirdilər ki, bu bölgüdə kolxozçulara nə qədər taxıl, nə qədər arpa, buğda bölünməlidir. Hamı məhsula nəza-

rət edirdi. Yuxarılar özləri və qohumları üçün heç nə tələb etmirdilər. Ağır müharibədən çıxmış əhali getdikcə dirçəlirdi. İşdən boyun qaçırmaq və qaçmaq olmazdı. Pambıq kollarına bir-bir qulluq edilirdi, bir kol zədələnsə, xəbər tuta bilərdilər. Sonralar arada bir Qara Məhəmməd də kolxoz sədri oldu. Savadsız idi. Heç bir təhsili yox idi. Amma camaatı təşkil edirdi, işgüzar idi və hər şeydən əvvəl, camaat demişkən, «ayağı çörəkli» idi. Onun sədr olduğu illərdə taxıl da normadan artıq oldu, pambıq da.

Bir müddət qonşu Süleymanlı kəndindən Temir (Teymur) kişini sədr təyin etdilər. Zəhmətkeş adam idi. Yaxşılığa çalışırdı

Əfsər Hüseynov 1961-1963-cü və 1969-1988-ci illərdə iki müxtəlif dövrdə kolxoza rəhbərlik etmişdir. Ondan əvvəlki dövrdə – 50-ci illərin sonlarında Bəkir Abbasov kolxozun sədri idi. Bəkir Abbasov görkəmli ziyalı idi, böyük vəzifələrdə işləmişdi. Yüksək natiqlik məharətinə malik idi. Köhnə kommunistlərdəndi. Humanist insan idi, Təmiz geyinərdi, şaqraq səsi onu gendən tanıdardı, alnıaçıq adam idi. Namuslu və şərəfli bir həyat yolu keçmişdi. Hamı hörmətini gözləyirdi. O vaxt müəllimin hörməti böyük idi. Bəkir Abbasova «Bəkir müəllim» deyirdilər, sədrdən çox, müəllim kimi baxırdılar.

Beləliklə, eşitdiklərim və gördüklərim əsasında Əfsər Hüseynova qədər kolxoz rəhbərləri kimi Lətif Usubov, Mələhnaz oğlu Məhəmməd, Məhərrəm kişi, Bəkir Abbasov yaddaşımda qalıb. Bunların hər birindən Əfsər Hüseynova mühüm bir keyfiyyət süzülüb. Lətif Usubovda Sovet hakimiyyətinin gəncliyindən doğan cəsarət, ötkəmlik, işgüzarlıq, quruculuq, Məhəmməd kişidə sadəlik, bütün günü at belində sahələri gəzmək, Məhərrəm kişidə zəhm, kolxoz əmlakını qorumaq zəhmi, Bəkir müəllimdə maarifçilik, işıq... Bunlar sədrlərin mənim təsəvvürümdə qalan əsas keyfiyyətləridir və şübhəsiz, onların hər birinin sədr kimi öz böyük aləmi vardı.

Mən bunlardan yalnız Lətif Usubovu görməmişəm. Amma Əfsər hamısını görüb. Həm də Əfsər məndən yaşca xeyli böyük olduğu üçün bunların sosial-ictimai keyfiyyətlərini daha aydın görüb, bunlardan çox şey öyrənib. Xüsusən atasının ciddiliyi, tələbkarlığı, işgüzarlığı altında tərbiyə tapması onun həyat yoluna daha ciddi təsir edib. Gördüklərinin yaxşı cəhətlərini öyrənmək də

hər adamın işi deyil. Bu da istedad tələb edir. Əfsər istedadlı adamdır. İstedad yalnız elmi kitablar, bədii əsərlər yazmaqla ölçülmür. Əsl istedad sahibləri həyat kitablarını yaradanlardır. Böyüklük ictimai həyatı yaxşılaşdırmaq təşəbbüslərinin reallığındadır. Bir çoxlarından fərqli olaraq, Əfsərin canında daim belə bir hiss olub ki, bu dünya əbədi deyil, insan ömrü qısadır, onu boşboşuna, lağlağı ilə keçirmək olmaz, faydalı bir iş görmək, insana dayaq durmaq lazımdır. Mən Əfsəri sakit oturan təsəvvür etmirəm. Elə bilirəm ki, elə indinin özündə də çığıra-çığıra əkin-biçinin arası ilə təngnəfəs irəliləyir, kimi isə tənbəllikdə, kimi isə kolxoz malına pis baxmaqda ittiham edir, kimə isə çatışmazlıqları başa salmaqdadır və bu yol hərlənib-fırlanıb ümumi məsafəsi bilinmədən axırda gəlib kolxoz idarəsinə çıxacaq və orada da yarıtmaz adamlarla cəngcidal başlayacaq, bəlkə gecə yarısınadək davam edəcək. Düşünməyəcəklər ki, axı sabaha az qalıb, yatmaq da lazımdır. Amma yenə günəşdən qabaq sahədə olacaqlar. Ayrı cür də mümkün deyildi. Geciksə, hər şey pozula bilərdi. Pozulanı düzəltmək çətindir. Hər işi vaxtında görmək lazım idi.

Kolxoz təsərrüfatı elə bir təsərrüfat idi ki, burada hər tip işçiyə rast gəlmək mümkün idi. Təəccüb edə bilərdin ki, bu adam nə üçün adi məntiqlə öz vəzifəsini yerinə yetirmək barədə düşünməyib. Deyirlər, bu cür hallar son vaxtlar Əfsəri çox əsəbiləşdirirmiş, o, bəzən söyüşlərə keçirmiş. Lakin hər adama da söymək olmazdı. Danışırlar ki, yalnız kolxoz idarəsinin yaxınlığında yaşayan bir briqadir bütün söyüşləri götürürmüş. Əfsər hirslənən kimi lotular həmin briqadiri çağırır, işi ona tərəf yönəldirmişlər. Əfsər də əsəbləri sakitləşənə qədər üzünü ona tutub söyüb-söylənirmiş, sonra gərginlikdən qurtarırmış, sakitləşəndə hər ikisinin sifətinə bir təbəssüm gəlirmiş. Bu təbəssüm görülməmiş işi görülmüş kimi edirmiş. Başqaları da payını götürürmüş. Mühüm bir keyfiyyəti də qərəzli olmaması, kin-küdurət bilməməsidir. Deyər, danışar, əsər, coşar, söyər, amma kin və küsülülük saxlamaz. Əks halda, kolxoza o qədər müddətdə rəhbərlik çətin olardı.

Nə qədər erkən dursan, uzaq sahələrdə səsini eşidərdin. Aqronomiya təhsili olduğu, göz açıb kolxoz təsərrüfatını gördüyü üçün əkin-biçindən yaxşı baş açırdı. Nəyi nə vaxt etmək lazım gəldiyini yaxşı bilir və heç bir şeyin vaxtını keçirmirdi. Əhali də sayırdı. Əf-

sərin dediyindən hələm-hələm çıxmaq olmazdı. Hüquqi məsələləri də yaxşı bilir, adamları yaxşı tanıyırdı. Hamı ilə lazımi dildə danışmağı bacarırdı.

Daim öz görkəmi ilə mənə cavan əsgər təsiri bağışlayıb. Əmək və işgüzarlıq vərdişlərini nəzərə aldıqda sağlam, xəstəlik nə olduğunu bilməyən möhkəm bədəni olduğu qənaətinə gəlirsən. Bəlkə də, bu onun bədəncə bir qədər arıq olması, vəzifəsinə baxmayaraq, daim bir qərarda görünməsi (vəzifəli adamlar çox tez kökəlir), daim sahələrdə, iş başında, açıq havada görünməsi, «yoruldum» sözünü heç vaxt dilinə gətirməməsi və s-dən doğan təəssüratdır. Tənbəllik etmədən bir-bir qapıları gəzmək, işə çıxmayanları müxtəlif vasitələrlə işə məcbur etmək dövrün mühüm tələblərindən idi. Əslində, bu, cəmiyyətin xeyrinə olan bir proses idi. İndi saatlarla, günlərlə, həftələr və aylarla yol qırağında oturub iş axtaranları, gündəlik qazancı bəlkə də 1000 manatı (iki dollar) keçməyənləri gördükdə adamın qəlbində quruluşu eybəcər hala salanlara nifrət qaynayır. Arx qazmaq, pambıq suvarmaq, taxıl əkmək, toxum səpmək, bostan alağı etmək, dəyirman işlətmək, yonca əkmək, aratı vaxtında başa çatdırmaq... hamı işləyirdi, yaşayırdı, kolxoz işinə gündəlik tələbat hamını işlədirdi, namusla yaşadırdı. Əfsərin gözündən heç kəs yayına bilməzdi. Hər kəs öz işini görməli idi.

Daim işgüzarlığına rəğbət bəsləmişəm. Amma mənimlə inciklik halları da olub. 1960-cı ildə institutu bitirib kəndə gələndə anam əldən düşmüşdü. 42-ci ildə atam müharibəyə gedəndən gecəsi-gündüzü yox idi. Başqa kənd arvadları kimi, onu da əkin-biçin, xüsusən yay gecələri bəzən ay işığında yığılan pambıq əldən salmışdı. Maaşım az olsa da, işə qoymadım. Əfsər məni idarəyə çağırtdırdı. Dedi ki, pambıq yerə tökülür, toplamaq lazımdır, dövlətin tələbidir. Dedim ki, əldən düşüb, daha işləməyəcək. Bir söz deməsə də, sifətindəki tutqunluqdan çox şey anlaşılırdı. Amma mümkün deyildi. Ana da anadır. O da başa düşürdü.

Müəllimlər yaz gələndə qurd saxlayır, barama becərirdilər. Mənə də təklif eləmişdilər, etiraz etmişdim. «Hər kəsin öz işi var. Müəllim müəllim olmalıdır» deyirdim. Bir gün təzəcə yuxudan durmuşdum, gördüm həyətdə qoyduğumuz stolun ətrafında bir dəstə adam söhbət edir: sədr idi, baramaçılıq briqadiri və başqa-

ları. Toxum olan yaraşıqlı qutunu stolun üstünə qoyub söhbət edirdilər. Bu zorakılıq mənə xoş gəlmədi. Qurd saxlamayacağımı bildirsəm də, yenə gəlmişdilər. Yaxınlaşıb qutuya əl uzatdım, lakin qutunu məndən qabaq götürdülər, əlim çatmadı. Düşünmüşdülər ki, mən qutunu götürən kimi tullayacağam, toxum dağılacaq. Mənim fikrim isə məsələni zarafatla həll etmək idi. Onsuz da qurd saxlayan deyildim. Uzaqlaşdılar və mən aralıdan barama briqadirinin: «Heyf o təhsilə! Heyf!» sözlərini eşidirdim. Gülmək məni tutdu. Belə çıxırdı ki, ali təhsili olan qanmalı və mütləq barama saxlamalıdır.

Bütün bunlar Əfsərlə mənim şəxsi münasibətimə heç bir xələl gətirməyib. Bütün bu hallarda Əfsər mənimlə ehtiramla dolanıb, artıq bir söz işlətməyib. Biz heç vaxt küsülü qalmamışıq, daim hörmətlə görüşmüşük. Bilmişəm ki, bunlar sədr kimi onun borcudur, kolxozun işlərini, dövlətin tələblərini yerinə yetirməlidir. Mənim qurda, baramaçılığa bu cür münasibətim bütün kənddə istisna hadisə idii. Lakin Əfsər yekəxanalıq etmir, ümumi işin xatirinə heç bir qapını döyməkdən çəkinmirdi. Onun bu cür iradəsinin, işgüzarlığının, təşkilatçılıq qabiliyyətinin nəticəsi idi ki, kolxozun barama istehsalını 5 tondan 30 tona qaldıra bilmişdi.

Əfsərin ikinci dəfə kolxoza rəhbərlik etdiyi illər kolxozun yüksəliş illəri idi. Məhsuldarlıq getdikcə artırdı. Kəndin yetimliklə böyümüş gəncləri iri zalları olan daş evlər tikdirirdilər. Çoxları maşın almağa başlamışdı. Gün-güzaran yaxşılaşırdı. Lakin rüşvət və rüşvətxorluq da başlamışdı. Yuxarılardan təsərrüfata diqqətsizlik artırdı. Təbii fəlakət də olurdu. Amma Əfsər kolxozu qoruyurdu, camaatı işlədirdi.

Gözəl ailə başçısıdır. Gözəl oğlanları var. Mən Söhraba orta məktəbdə, Vaqifə ali məktəbdə dərs demişəm. Hər ikisi istedadlı oğlanlardır. Hər ikisi xalq işinə vicdanla yanaşan, xalq mənafeyini üstün tutan, zəhmətsevər insanlardır. Hər biri fərqli bir cəbhədə igiddir. Onların ali məktəbə qəbulu zamanı Əfsər mənimlə məsləhətləşməyi də unutmamışdı.

Bu ailə ilə məni lap uşaqlıqdan bağlayan Hüseyn olmuşdur – Əfsərin qardaşı, Söhrabın, Vaqifin əmisi. Biz Hüseynlə on il bir sinifdə oxumuş, çox vaxt meyvə oğurluğuna bir getmiş, ali məktəbdə oxuyarkən növbə ilə bir pencəyi geymişik. Hüseynin istedadı

hələ o vaxt həsəd doğururdu. Onun indi çətin bir elm sahəsinin professoru kimi tanınması son dərəcə təbiidir.

Bəli, elm adamları demişkən, kolxoz da ictimai bir kateqoriya kimi XX əsrdə doğuldu, inkişaf etdi, cavan bir insan ömrü qədər yaşadı və elə XX əsrdə də öldü. Texnika vasitəsilə insan əməyinin yüngülləşmə imkanlarının artdığı bir dövrdə öldürüldü. Əfsərin də ömrü tarixdə nadir bir hadisə olan belə bir ictimai quruma xidmətdə keçdi və on illərlə xidmət etdiyi belə bir ictimai müəssisənin birdən-birə belə dağılacağını, yəqin ki, heç ağlına da gətirə bilməzdi.

Hansı quruluş olursa-olsun, insan zəhməti sevirsə, zəhmətdən və torpaqdan zövq alırsa, vicdanının səsinə qulaq asırsa, cəmiyyət üçün gərəkli adamdır. Əfsər daim gərəkli adam olub. Əfsərin XX əsr tərcümeyi-halı bir növ Soltanlı kəndinin tərcümeyi-halıdır. İkisi də tarixdə qalmalıdır.

Əfsər zəhmətlə elə yoğrulub ki, 80-i keçdiyi bu günlərdə də o torpağı, o saf peyini xatırlayıb əziz tutaraq Bakı torpağında ağac əkir, bağ becərir, diriliyi əkin-biçində görür. Öz doğma torpağının həsrətilə yaşayır. Yaxşı cəhət də budur ki, qocalıq hiss olunmur, Görünür, zəhmət insanı həm də cavan saxlayır. Amma bircə öz fermamızın peyininə əli çatsa idi...Vallah, bu, dünyanın ən qiymətli nemətlərindən yüz qat, min qat qiymətli olardı. Bunun sevincini heç nəyə dəyişmək olmazdı...

Əfsər! Eloğlu! Gün o gün olsun ki, kəndin başından – bizim evin yanından başlayıb kəndin ayağına – sizin evə uzanıb gedən yolun sağ və sol yanları ilə, böyürtkən kolları arası ilə axan doğma kəhrizin suyunda əl-üzünü yuyub, uca bir yerə qalxıb, kəndin yenidən abadlaşdırılmış yaşıllıqlar içərisində ucalan evlərini görəsən, zəhmlə «Soltanlı eli!» sözlərini qəlbindən keçirib qürurlanasan, qürrələnəsən!

24.01.2002

İKİ İL:
QİYASƏDDİN QEYBULLAYEV

Tanışlığımızın tarixi çox deyildi. 80-ci illərin sonlarında bir konfransda tanış olmuşduq. Amma məqsədimiz, ideya və düşüncə yaxınlığımız bizi birləşdirmişdi. Qeybullayev çap olunan hər bir yeni kitabını ilk növbədə filologiya fakültəsinin dekanlığına gətirirdi. 89-cu ildə mən Dilçilik İnstitutuna keçdikdə daha tez-tez görüşürdük.

Qiyasəddin Qeybullayevin heç bir fəxri adı yox idi. İnstitutdan aldığı maaşla dolanırdı. Heç bir bəndəni ac qoymayan allahın təsadüfi yetirdikləri qolundan tuturdu. Amma qolunda Fərhad külüngünün gücü vardı. Heç yana, heç kimə baxmadan eşib-tökürdü, beş min il əvvəldən bu günə qədərki tarixi və linqvistik faktları taya-taya yığırdı. Cild-cild kitablara toplayırdı. Mükafatı isə qərəz idi, söyüş idi, hörmətsizlik idi. Bu kitabları məşəl kimi əldə tutub irəli getmək əvəzinə, dərin quyularda basdırmağa çalışırdılar. Yaramaz qonşularımız da «faktları» quyularda basdırırdılar. Lakin onlar saxta faktları basdırıb, az sonra çıxararaq dünyaya car çəkdikləri halda, bizimkilər həqiqi tarixi faktları yer altında itirməklə məşğul olmuşdar. Cild-cild kitabların müəllifi savadsız adamların aldığı doktorluq diplomunu da ala bilmirdi və bu, məni çox təəccübləndirirdi, çox ağrıdırdı. Hər soruşduqda «Qoymurlar» deyirdi. İnstitut rəhbərliyi onun yaradıcılığına, özləri həqir ola-ola, həqarətlə baxır, Qeybullayev adlı adamın varlığını görmək istəmirdilər Bir gün akademiyanın müxbir üzvü T.Bünyadova ərkyana zəng etdim:

– Axı belə olmaz. Bir belə qiymətli əsərlə bu kişini niyə buraxmırlar?

– Vallah, Qəzənfər, mən bir şey demirəm, filankəslə yola getmir, – dedi.

«Yola getməməyinin» nədən ibarət olduğu məlum idi. Rəhbərliyin zövqünə, mənhus konsepsiyasına uyğun yazmır, əksinə, hər yazısı ilə Azərbaycan xalqının etnik tarixinə yeni səhifə açır, həmin tarixə ləkə olan konsepsiyanı uçurub-dağıdırdı.

Qeybullayevə üz tutaraq acı-acı köks ötürüb:

- A kişi, əsərlərini yığ görür get Attestasiya Komissiyasına, – dedim...

Axır ki, bir vicdanlı adam tapıldı.. Mirzəcanzadə bu əsərləri vərəqləyib. bu qədər qiymətli əsərə müdafiə lazım olmadığını bildirib, oradaca doktorluq diplomunu yazdıraraq çox nadir bir hadisə kimi Qeybullayevi təbrik etmiş, onun halal və misilsiz zəhmətinin ilkin qiymətini vermişdir.

Hələ də hamıya aydın deyil ki, heç kim heç kimin etnik tarixinə, dilinə həqarətlə baxmamalı, hər bir dilin tarixi həmin xalqın inkişafı prosesində mənbələrdə daşlaşmış dəqiq faktlar əsasında obyektiv şəkildə öyrənilməlidir. Azərbaycan xalqının və onun dilinin tarixi hələ də minilliklər ərzində keçilmiş tarixi prosesə müvafiq şəkildə öyrənilməyib. Həqiqəti ortaya çıxarmaq lazım gəldikdə gizli şəkildə yüz yerdən maneələr ortaya çıxıb. Əli yer tutan hər kəs soyğunçuluqla, qarətlə, rüşvətxorluqla məşğuldur, xalqın keçmişi deyil, özünün bu günü onu maraqlandırır. Elmin bir sıra təşkilatçılarının da qəlbində təpəri, xalqın tarixinə hörməti, maraq və istəyi yoxdur. Dərinə getmək, dərin qatlardan zərrəbinlə axtarıb tapmaq, həqiqəti ortaya çıxarmaq yox, üzdən getmək, cəfəngiyyatla, taftalogiya ilə məşğul olmaq və 5 - 10 şirvanla başını aşağı salıb dolanmaq... ən əlverişli idarəçilik üsuludur. Özünü vətənpərvər, dilpərvər, tarixpərvər göstərib, xalqın dilinin, tarixinin, mədəniyyətinin üzərinə daş qoymaq, heç kimə düşmən olmayan türkün düşməninin dəyirmanını işlətmək..

Hələ Azərbaycan dilində qədim dünya sivilizasiyasının heç bir əsəri əməlli çap olunmayıb. «Avesta» yoxdur, şumer yazıları, akkad yazıları yoxdur. Bisütun yazıları yoxdur. Bunları biz hindavropalıların təhrif yazılarından öyrənməliyik. Halbuki bizim tarixi-miz bunlardan başlanır. Elm təşkilatçısı bunlardan başlamalı, antik mənbələr sistemli şəkildə Azərbaycan dilinə çevrilməlidir. Həm də nəfis şəkildə, akademik nəşrlə. Bu, bir yana qalsın, xalqın tarixini göz qabağında didim-didim edirlər və bu yolda böyük rütbələrə çatırlar. Qeybullayev kimilər də bir küncə qısılıb özünü oda-közə vurur ki, həqiqəti bu nankor aləmə car çəksin. Dünyanın ən gözəl, ən şərəfli nöqtəsində doğulmuş bu xalq ən şərəfsiz, ən bədbəxt tale ilə üzləşməli olub. Heç bir düşmənin, hətta onun başını kəsməyə hazır olan ermənilərin belə bu xalqa etdiyi yaman-

lıq onun daxili düşmənlərinin etdiklərinin yanında heç bir şeydir. Xəyanət, riyakarlıq, xalq mənafeyinə ən yaramaz, ən nanəcib və alçaq münasibət xalqın ümidini qırıb, belini sındırıb. Bir qrupun var-dövlət hərisliyi, dartıb-dağıtma ehtirası xalqı zəlil edib, onun mənəviyyatını zorlayıb və belə görünür ki, hələ xeyli müddət bu xalq mənəvi rahatlıq və ağ gün üzünə həsrət qalacaqdır.

O biri tərəfdə isə Qeybullayev kimi vətən fədailərinin əsərləri işıq saçır. Təzad da burdadır. İşıq saçır və bütün rəzalətləri unutdurur, rəzillərin gözünü qamaşdırır. Qeybullayevin etimoloji araşdırmaları misilsizdir. Lullubi, subi, kuti, turukki, kassi, manna, maday, kimmer, skif, sak, alban, atropatena xüsusi adlarının (etnonim, toponim və antroponimlərin) böyük bir qismini bir lay şəklində mənşə araşdırmaları Azərbaycan xalqının və onun dilinin tarixini yaratmaq üçün dilçi və tarixçilərimizin qarşısında geniş üfüqlər açır. Türk dilinin Ön Asiyadakı qədimliyinə ağız büzənlər bu araşdırmalara da etinasızlıqla ağız büzməyə çalışıblar.

Doğrudur, Q.Qeybullayevin araşdırmalarında, hər bir alimdə olduğu kimi, mübahisə doğuran cəhətlər də vardır, lakin ilk dəfə olaraq hədəfə doğru o düzgün irəliləyib və hamıdan çox irəliləyib. Bunlar onun böyük xidmətləridir. Onun elə bir xidməti də var ki, heç kəs onun bu sahədəki xidməti üzərinə kölgə sala bilməz. Ön Asiyanın (Azərbaycan ərazilər də daxil olmaqla) həqiqi ilkin beşik kimi, türkün yüksəliş yolunda rolunu düzgün təsəvvür etmək üçün ortaya alternativsiz dəlillər qoyub: ilk dəfə olaraq e.ə. III- II minilliklərdə Ön Asiyada – Azərbaycan ərazilərində fəaliyyət göstərən böyük tayfaların, demək olar ki, hamısının Mərkəzi və Orta Asiyada eramızın birinci minilliyində eyniadlı xələflərini müəyyənləşdirməklə ilkin miqrasiyaların yolunu tam aydınlığı ilə işıqlandırmış oldu və bizi Xəzərin şərqindən uzaq Altaya qədər məskunlaşmış olan, Altayda artıb çoxalaraq böyük Hun imperatorluğu tərkibində və ya bunlardan min il əvvəl kimmer-skif-sak adları altında Ön Asiyaya dönən türk tayfalarının ilkin vətəninin Ön Asiya olduğunu sübut etmiş oldu. Doğrudur, Q.Qeybullayev özü bu nəticəyə gəlməmişdi, lakin onun son dərəcə məhsuldar yaradıcılığı bizə belə bir nəticəyə gəlmək üçün şəksiz faktik material vermişdir.

Bir mərtəbə fərqi ilə yanaşı işlədiyimiz və həftədə iki-üç dəfə görüşdüyümüz halda, bu sonrakı xidmətini ona söyləyə bilməmişdim. Lakin münasibətimi bilirdi. Hələ 1997-ci ildə «Sənət düşüncələri»ndə yazdığım: «Q.Qeybullayev «[illegible]» (1991) əsərində Şumer dövründən bəri Azərbaycan ərazisində yaşamış tayfaların etnik mənsubiyyətini aydınlaşdırmaq baxımından misilsiz iş görmüşdür. Onun bu sahədəki əməyi dil tarixçilərinin küll halında əməyindən xeyli üstündür» (297) sözlərini oxumuşdu. Xatırladırdı, xoşuna gəlirdi. Çünki əməyini düzgün qiymətləndirən az idi.

O zamanlar mən «Azərbaycan dilinin tarixi» kitabı üzərində işləyirdim. Bildirmişdim ki, bu yeni kitabımın redaktoru o olacaqdır. Xoşlanırdı, deyirdi ki, «Bu, yaxşı iş olacaq. Sürətləndirmək lazımdır, sürətləndir, ver mənə, gör lələşin ona nələr əlavə edəcək!» Hər kəsin öz üslubu var – mən əlavələr gözləmirdim, amma münasibəti məni maraqlandırırdı. Bildirirdim ki, «Ay zalım, o qədər yazıb-tökmüsən ki, içindən çıxa bilmirəm, sənin yazdıqların məni gecikdirir». Üstəlik, kitab şəklində çap olunmamış xeyli məqələsinin də surətini çıxarıb gətirdi.

Bir gün yenə işdən birlikdə çıxdıq. Söhbət edə-edə. Toy-bayram idi. Cibində bir qəpiyi olmasa da, çox vaxt çırtıq çalıb oynayırdı. Şirin gülüşü, dolu danışığı mənə ləzzət verirdi. Azərbaycan oyun havalarını ağzında çala-çala bir aləm yaradırdı. Arada bir: «Sürətləndir. Dünyaya etibar yoxdur» dedi. Təzyiqdən şikayətlənirdi. Bir neçə gün əvvəl halı pisləşmiş imiş, həkim çağırmalı olub.

Bir gün yenə gəlmişdi şöbəyə – görüşməyə. Qoltuğunda bir dəstə yazı-pozu, kitab-dəftər var idi. «Əşi,– dedi,– səhər ertə adi şor-çörək yemişəm, ağır xörək yeməmişəm ki, təzyiqim olmasın, yenə qan təzyiqi məni incidir». «Şor-çörəkdən deyil, – dedim.. – Bu dəftər-kitab qaldırır təzyiqini, bir az ara ver». Xudahafizləşdi getdi və bununla da hər şey qurtardı – iki gün sonra eşitdim ki, vəfat edib, aparıblar Qubaya.

Türkün düşmənləri Akademiya binasının girişində şəklini də qoymadılar. Bir qədər sonra o birinin şəklini qoydular və xeyli də qaldı.

Şəkli olmasa da, kədərlənən çox oldu.

İndi vəfatından iki il keçir. Yenə illər keçəcək, lakin Azərbaycan xalqının həqiqi tarixində o qalacaq.

Redaktor edə bilməsəm də, mən həmin kitabı onun əziz xatirəsinə ithaf etdim. Qeybullayev mən olduqca mənimlədir...

2004

BU DA BİR TALE, BU DA BİR YAZI...

R.Məhərrəmova – 80

Gərək ki, ilk görüşümüz Respublika Əlyazmaları fondunda olmuşdu. Rəyimi tez yazdı verdi – əl xətti ilə. Hərdən sənədlər arasında gözümə dəydikdə illərin bu qədər sürətlə gəlib-keçdiyinə qüssələnirəm...

Nə vaxt gedirdim, qədim əlyazmaları üzərində işləyən görürdüm. Amma yadımdadır ki, məni də xeyli işlətdi. Dedi ki, sən ədəbi dil tarixi yazmısan. Ümumiləşmə Haqverdiyevə məxsus cəhətləri bəzən kölgədə qoyur. Ədibin üslubu ilə bağlı cəhətləri bir qədər də qabartmaq lazımdır.

O vaxtlar biz hər bir qeydə, o cümlədən opponent qeydlərinə böyük məsuliyyətlə yanaşırdıq. Görürdüm ki, doğru deyir. Az vaxtda işdə xeyli dəyişiklik etdim. Həm də indiki qədər sadə və mehriban görünə bilməzdi. Cavan, gözəl və kənd yerlərində deyildiyi kimi, yeriyəndə bir növ yeri titrətdiyi vaxtlar idi...

Əslində, heç ağlıma gəlməzdi ki, Rəhilə xanım opponentim olacaq. 65-ci ilin son ayları idi. Məndən əvvəlki aspirantların bir neçəsinin işi hazır idi. Könüllərindən Rəhilə xanım keçirdi – öz aramızda danışırdıq. Ehtiyatla Abasqulu müəllimə eşitdirdilər də. Abasqulu müəllimin hər məsələdə xüsusi rəyi vardı, «yox!» – dedi, qurtardı.

Elə belə də oldu və heç birinə razılıq vermədi. Bu situasiya mənə aydın olduğundan mən bu barədə və ümumiyyətlə, hələlik opponent barədə düşünmürdüm, işimin buraxılmasını gözləyirdim.

Lakin qəribə bir tale yazısı varmış: filologiya elmləri namizədi, gözəl bir insan olan, daim hörmətlə yad etdiyim dosent İsmayıl

Əfəndiyevin yüksək çıxışı ilə dissertasiya işim müdafiəyə buraxılan gün iclas qurtaran kimi, Abasqulu müəllim məni işarə ilə bir tərəfə çağırıb dedi:

– Səs-küy salma, təklif elə, Rəhilə xanım opponentin olsun.

İsmayıl müəllimin çıxışı məni çox təəccübləndirmişdi. Abasqulu Məhərrəmovun bu sözləri məni lap tərlətdi.

* * *

RƏHİLƏ xanım! – Rəhilə MƏHƏRRƏMOVA!

O gündən ki elm aləminə göz açmışam, demək olar ki, həmin günlərdən bu ad beynimdə və qəlbimdə qərar tutub. Daim şaqraq gülüşünü, təmiz və küdurətsiz səsini eşitmişəm, sevinclə parlayan gözlərini, təbəssüm dolu üzünü görmüşəm.

Biz bu nəsildən öyrənmişik. Ona görə də qazandığımız bütün uğurlara görə bu nəslə minnətdarıq. Dilimizin tarixinə dair oxuduğum ilk kitab onun «Materiallar»ı olub. Ə.Haqverdiyevdən dissertasiya yazmaq üçün ilk növbədə Haqverdiyev haqqında dissertasiyasını oxumalı olmuşam. Hamı kimi məni də daim könül xoşluğu ilə, gülər üzlə qarşılayıb. Koridorun o başından da olsa, şən səsini eşitdikdə adamın üzündə təbəssüm yaranır.

Deyəsən, məni Rəhilə xanıma daha çox bağlayan həm də dil tarixi, ədəbi-bədii dil məsələləri olub. Bədii dilin tədqiqi bəzən bir qədər asan görünür. Lakin nəzərə alanda ki, xalq dilinin bütün leksik və frazeoloji zənginlikləri, sonsuz məcazilik imkanları, dərin, incə və obrazlı ifadə vasitələri bütün genişliyi ilə bədii dildə üzə çıxa bilir və bunlar bu sahənin tədqiqatçısından yüksək səviyyə, xalq dilinə azı kamil yazıçı səviyyəsi qədər bələdlik tələb edir, üzdə olanları yox, dərin qatlardakı mənanı başa düşmək lazım gəlir, o zaman bədii dilin, poeziya sənətinin tədqiqinin çətinlikləri də aşkar olur. Rəhilə xanım Sabir kimi nəhəng söz ustasının sözdən istifadə ustalığına qiymətli əsərlər həsr etmiş və Sabirşünaslığı zənginləşdirmişdir.

O zamanlar (60-cı illərin sonları) elə avtoreferat da bir kitab idi. Birnəfəsə oxumuşdum. Akademik Mirzə Feyzulla və pedaqoji elmlər doktoru, professor A.Abdullayev kitabı əlimdə görüb maraqlandılar. «Rəy yazıram», – dedim, – Rəhilə xanımın dok-

torluq dissertasiyasının avtoreferatıdır». Böyük hörmətlə: – Biz də tanış olmuşuq, bizim də adımızı yaz– dedilər. Bu da mənim üçün (və eyni zamanda Rəhilə xanım üçün) bir sürprüz idi: Akademik Feyzulla Qasımzadə, professor Ağaməmməd Abdullayev – hər ikisi kafedra müdiri və fakültə elmi şurasının katibliyindən başqa, heç bir vəzifəsi olmayan filologiya elmləri namizədi mən:

«Azərbaycan SSR EA-nın Nizami adına Ədəbiyyat və Dil İnstitutunun baş elmi işçisi, filologiya elmləri namizədi Rəhilə Cavad qızı Məhərrəmovanın «Sabirin satirasının leksikası» adlı doktorluq dissertasiyası haqqında ***r ə y.***

Xalqın zənginləşməkdə, kamilləşməkdə davam edən baxış və düşüncələri, gerçəkliyi dərk etmə imkanları, məişətdə, xalq həyatında baş verən yeniliklər bütün dolğunluğu ilə realist ədəbiyyatda öz əksini tapır. Bədii ədəbiyyatın dili xalq dilinə əsaslanan fərdi yaradıcılıq üslubunun məhsuludur. Sabirin satira dili xalq dilinin tükənməz sərvətlərindən istifadənin zirvəsidir. Əhəmiyyətlisi də budur ki, belə bir sənətkarın satira dili üzərində dilimizin inkişaf tarixinə dərindən bələd olan, satira dilinin məziyyətlərindən baş açan, onun sətiraltı mənalarını, dərin qatlarda gizlənmiş incə mətləblərini böyük ustalıqla üzə çıxarmağı bacaran, həqiqi bir doktor kimi yetişmiş Rəhilə Cavad qızı Məhərrəmova tədqiqat aparmış və bu başdan deyə bilərik ki, uğurlu nəticələr əldə etmişdir...

26 fevral 1969-cu il».

Bir yox, bir neçə nüsxəsini saxlamışam. Oxuduqca keçmişə qayıdıram. Gözlərimin önündə sürətlə gəlib-keçən onilliklər vərəqlənir.

Əlaqələrimiz heç vaxt üzülməyib. Daim məndə Rəhilə xanıma və yaradıclığına böyük maraq və ehtiram olub. Məhəbbətlə görüşmüşük. Yaradıcılığını izləmişəm. Çıxışlarını maraqla dinləmişəm. Zəhmətinin bəhrələrindən xəbərdaram. Nə qədər yetirmələri var! Nə qədər alimin qanadlanmasına kömək edib! Nə qədər əsərin çapı üçün rəylər yazıb! Filologiyamızın inkişafında xidmətləri böyükdür. Bu gün də böyük gənclik enerjisi, gənclik duyğusu ilə elmin və gəncliyin xidmətindədir. Hələ bir dəfə «yoruldum» dediyini eşitməmişik. Elmdə qərəzsiz, işdə xeyirxah və zəhmətkeş, xalqını və dilini sevən bir insan!..

Rəhilə xanım bir filoloq kimi ana dilinin tarixinə qəlbində böyük məhəbbət yaşadır. Dilimizin tarixinin təhrifi hallarına barışmazdır. Yaxşı əsərlərdən açıq ürəklə danışır. Son dərəcə mülayim və mehriban olsa da, gördüyü nöqsanları deməkdən çəkinmir. Bu keyfiyyət böyüklük əlamətidir, insanlığın və elmin inkişafı üçün çox gərəklidir.

Dilçilik institutuna gəlməzdən əvvəl bəzən Rəhilə xanımla gec-gec görüşsəm də, onun özünəməxsus səs tonu ilə dediyi «Qəzənfər» səsi həmişə qulağımda olub. Vaxt oldu ki, mən də doktorluq müdafiəsinə hazırlaşmalı oldum. Üçlük məni bir akademikə calamaq istəyirdi. Amma mən səbəbini anlamasam da, Rəhilə xanımın səsini, sözünü eşitmək istəyirdim. İkinci dəfə opponentim oldu, müdafiə etdim, illər keçdi, amma hələ də ona deyə bilməmişəm ki, onun opponentliyinə necə nail ola bilmişəm. İş o yerə çatmışdı ki, az qala, müdafiədən imtina etməli idim (istəmədiyimi zorla yeritmək istəyirdilər). Amma elə bir əsas da yox idi. Elə qəlbimə yer eləmişdi, vəssəlam. Nəhayət, məcbur olub razılaşdılar.

Rəhilə xanım xoşbəxt adamdır. Ə.Dəmirçizadə kimi, M.Şirəliyev kimi böyük alimlərlə çiyin-çiyinə işləyib, onlardan sonrakı və daha sonrakı nəsillərlə birgə çalışıb, həmişə də həmkarlarının böyüklü-kiçikli xeyirxahı olub. Neçə nəslin müəllimi, yolgöstərəni olub. Və həmişə də ətraf aləmin ehtiramını qazanıb.

O öz əlaqələrinin genişliyi ilə də diqqəti cəlb edir. Moskvanın və digər mərkəzi şəhərlərin türkoloq alimlərinin Rəhilə xanımla dostluq əlaqələri dilçiliyimizin inkişafı üçün faydalı olub.

Rəhilə xanım bir tədqiqatçı olmaqla yanaşı, həm də yüksək səviyyəli müəllimdir, usta pedaqoqdur. Bir neçə dəfə N.Tusi adına APİ-də filologiya fakültəsinə dövlət imtahan komissiyasının sədri vəzifəsinə dəvət etmişəm. Nə qədər səbirli və təmkinli olduğunu, tələbələrə qayğısını dəfələrlə müşahidə etmişəm. Elmi əziz tutub, savadı qiymətləndirib, daim tələbənin tərəfində olub, lakin savadsızlıq hallarına da göz yummayıb, tələbələri təmkinlə, bir ana kimi başa salmağa çalışıb.

Daha neyləmək olar?! Zəhmətkeş alim, gözəl pedaqoq, xeyirxah insan, gözəl ailə başçısı, qayğıkeş elmi rəhbər,[prezident təqaüdçüsü], Şöhrət ordenli... Rəhilə xanım belə doğulub, yaşamalı olduğu həyatı belə yaşayıb. Həsədi, gərəksiz duyğu və düşüncələri

yaxın buraxmayıb. Yaşadığı bir insan ömrünü şərəflə yaşamaqdadır.

Yaşa, Xanım! Daim Nəsimi adına Dilçilik İnstitutunun koridorlarında gözəl səsini eşidək!..

10.04.2003

DİALEKTOLOGİYA ELMİNİN VETERANI

Bir vaxtlar Nəsimi adına Dilçilik İnstitutunun adı gələndə ilk növbədə ***dialektologiya*** sözü yada düşərdi. Azərbaycan dialekt və şivələrinin tədqiqi ön planda idi. Ən çox məhsul verən də bu sahə idi. Bu ənənə 20-ci illərdən – Azərbaycanı tədqiq və tətəbbö cəmiyyətinin fəaliyyətindən başlamışdı. Tədqiq və tətəbbö cəmiyyəti daxilində böyük dramaturq və yazıçı Ə.Haqverdiyevin rəhbərliyi ilə tarix-etnoqrafiya bölməsi nəzdində dialekt və şivələrimizin tədqiqinə ciddi fikir verilir, şivə materialları sel kimi toplanırdı. N.İ.Aşmarinin Azərbaycan dilçilik elminin başqa sahələrini qabaqlayan «Nuxa şəhəri türk xalqı şivələrinə bir nəzər» (1926) kitabı da o dövrün məhsuludur. Çoxcildli dialektoloji lüğətin çapına başlamışdılar. Çox təəssüf ki, kadrların qəfil tufana rast gəlməsi və II Dünya müharibəsi bu işləri xeyli geri saldı. Bir də 50-ci illərdə dirçəliş başladı. Sovet hökuməti kifayət qədər pul buraxır, dialektoloqlarımız Dərbənddən Naxçıvana, Borçalıdan Lənkərana qədər bir-bir bölgələri gəzib material toplayırdılar. Bu materiallar neçə-neçə kitabın meydana çıxmasına yol açdı, dilçiliyimizdə silsilə dialektoloji monoqrafiyalar meydana çıxdı.

Quruluş kadrları da ciddi şəkildə tərbiyə edirdi. 50–60-cı illərin yetirmələri zəhməti hər şeydən üstün tutmuş, daha yaşlı nəsildən öyrənməklə elmi araşdırmalara daim məsuliyyətlə yanaşmışlar. Bu nəslin tədqiqatçı ziyalılarının, görkəmli alimlərinin zəhmətlə yaşayan nümayəndələrindən biri də Sefi Maxış oğlu Behbudovdur.

Sefi Behbudov 45 ilə yaxındır ki, öz ömrünü Nəsimi adına Dilçilik İnstitutuna bağlayıb, 43 ildir ki, Azərbaycan dialekt və şivələrinin tədqiqi ilə məşğuldur. Çətin bir sahənin – Azərbaycan dilinin keçid şivələrinin tədqiqindən başlaması zəhmətli olsa da, ilk gündən ona çox şey öyrətmişdir. Qərb və cənub qrupu dialekt və şivələri arasında keçid şivə hesab olunan Zəngilan şivələrinin tədqiqi prosesində konkret mövzu ilə yanaşı, dissertasiya işini lazımi keyfiyyətdə ortaya çıxarmaq üçün istər-istəməz qərb və cənub qrupunun xüsusiyyətlərini də öyrənməli olmuşdur. Sefi müəllimin fəal iştirakı ilə bəlkə də yüksək mükafatlara layiq görülə bilən,

bütün türkoloji aləmdə yeganə olan son dərəcə nəfis Azərbaycan dialektoloji atlası meydana çıxmışdır. Sefi müəllimin fəal iştirakı ilə Dərbənd, Təbriz, Kərkük dialektləri, Yuxarı Qarabağ şivələri öyrənilmiş, sanballı «Azərbaycan dialektologiyası» əsəri hazırlanmışdır. Çox təəssüf ki, bunların bir çoxu şöbənin seyfində yatır və hələ də işıq üzü görməmişdir. Sefi müəllim respublika jurnallarında və bir sıra xarici mətbuat orqanlarında yüzə qədər elmi məqalə çap etdirə bilmişdir.

Tanıyanlar yaxşı bilirlər ki, Sefi müəllim hazırlıqlı və son dərəcə zəhmətkeş bir insandır. Keçmiş SSRİ-nin bir çox şəhərlərində elmi konfranslarda maraqlı məruzələr etmişdir. Akademik M.Şirəliyevin, filologiya elmləri doktoru R.Rüstəmovun, filologiya elmləri doktoru M.İslamovun rəhbərliyi altında şöbənin yaradıcılıq işlərində fəal iştirak etmiş, onlardan sonrakı dövrdə bir müddət şöbəyə rəhbərlik edərək keçmiş ənənələri qorumağa çalışmışdır. Keçən 40 ilin müddətində şöbənin hazırladığı elə bir kollektiv əsər yoxdur ki, orada Sefi Behbudovun əməyi olmamış olsun.

Sefi müəllim dialektoloq kimi məşhur olsa da, bu sahəni ürəkdən sevsə də, yalnız bu sahə ilə məşğul olmamış, daim yeni dilçilik əsərlərinə mətbuatda öz münasibətini bildirmiş, ədəbiyyatşünaslıq məsələləri ilə məşğul olmuş, şairlərimizin yaradıcılığına maraqlı əsərlər həsr etmişdir.

Bizim dialektologiya elmimiz az vaxtda çox inkişaf etsə də, əksər tədqiq və araşdırmalar təsviri xarakterdədir və tarixi aspektdə çox az iş görülmüşdür. Son vaxtlar ikicildlik dialektoloji lüğət hazırlanıb çap olunsa da, illərdən bəri toplanmış zəngin şivə materialı öz çapını gözləyir. Azərbaycan dialekt leksikası içərisində omonimlər, sinonimlər, antonimlər mühüm yer tutur. Ayrı-ayrı şivələrin leksikası müəyyən dərəcə öyrənilmiş olsa da, ümumiləşdirmələr aparılmamış, Azərbaycan dilinin yayıldığı bütün əraziləri əhatə edən şivə materialları sinonimlik, omonimlik, antonimlik baxımından sintez edilməmiş, bu sahələri əhatə edən ümumiləşdirici lüğətlər hazırlanmamışdır. Belə lüğətlərə dilimizin tarixini, onun zənginləşmə imkanlarını üzə çıxarmaq baxımından böyük ehtiyac vardır. Budur, bu sahədə də, demək olar ki, ilk işi dialektologiya elmimizin veteranı Sefi Behbudov görmüşdür – çoxillik

zəhmətdən sonra «Azərbaycan dili şivələrinin omonimlər lüğəti» kimi qiymətli bir əsər ortaya çıxarmışdır. Bu cür lüğətlər Azərbaycan dilinin dərin qatlarından xəbər tutmağa imkan yaradır. Kitabda zəngin material toplanmışdır. Bu cür əsərlər xalqın etnik mənsubiyyətini araşdırmaq, onun dilinin təşəkkül və formalaşmasında iştirak edən türk tayfalarının rolunu öyrənmək baxımından çox faydalıdır.

Sefi müəllim bu kitabı dünyasını dəyişmiş Azərbaycan dialektoloqlarına ithaf etmişdir. Əslində, düz eləyir, çünki bu kitabda onların hamısının payı vardır. Bunun özü də Sefi müəllimin öz elminə məhəbbətindən irəli gəlir.

Kitabın çapa getdiyi bu günlərdə Sefi müəllimin 70 yaşı tamam olur. Dostlarına ithaf etdiyi bu kitab onun öz yubileyinə də bir hədiyyədir.

18.04.2003

HƏYATIN ŞAİR ETDİYİ ADAM
(Nəcim İsmayıloğlunun "Yaşat Azərbaycanı" (Bakı, 2003) kitabına ön söz

Oxucunun ələ alacağı bu kitabın müəllifi Haqverdiyev Nəcim İsmayıl oğlu (Sinə Tumaslı) özünü şair hesab etmir. Şöhrət düşkünü də deyil. Elə bir təhsil də almayıb ki, qafiyə nə olduğunu bilsin. Ömür boyu kolxoz işində çalışıb, suya, işığa, kənd təsərrüfatı texnikasına qulluq edib, əkin-biçinlə məşğul olub. Ən mühümü də odur ki, İnsanı sevib, Vətəni sevib, namusla yaşamağı, insan kimi yaşamağı hər şeydən üstün tutub, haqsızlığın, ədalətsizliyin, məsuliyyətsizliyin, qeyrətsizliyin, vətənsizliyin düşməni olub. İnsan kimi yaşayıb, öz halal çörəyinin sahibi olub. Mən onu tanıyandan bu cür tanımışam.

Nəcim təbii istedad sahibidir, xalq içərisində yetişən o kimsələrdəndir ki, yüksək təbi olur, misralar dilindən düzüm-düzüm süzülür. Danışığı şeirdir. Nitqinə qəlbinin odunu-alovunu qatır. Yorulmaq bilmədən davam edən, sel kimi axıb gələn ehtiraslı sözlərinə, bu sözlərin arasıkəsilməz axınına təəccüb edirsən. Qazdıqca qazılır. Danışdıqca ardı gəlir. Elə bil, qəlbində dərin dərya gizlənib. Elə bil, qəlbinin dərinliklərindən vulkan püskürür.

Az-çox kitab da oxuyub, xalqının tarixinə bələddir. Təhsili olmasa da, dünyagörüşü var, zəmanə hadisələrindən yaxşı baş açır. Hadisələrə münasibətdə həssasdır, ictimai aləmin dərkində sərbəst və ayıqdır, məntiqi mühakimələri ilə cəmiyyətin dərin və ziddiyyətli qatlarına enə bilir.

Gözəl təbi var. Əgər ilk gənclik illərindən müsaid şəraitə düşsə idi, müharibənin od-alovu içərisində ailəni dolandırmaq və kolxoz təsərrüfatına kömək üçün müxtəlif peşə məktəblərinə qaçmalı olmasa, sakit və dinc bir şəraitdə ali məktəblərdən birinə daxil olub oranı bitirsə idi, ardıcıl olaraq elm, bilik, poeziya ilə məşğul olsa idi, indi Nəcimin imzası ən məşhur poeziya ustalarının adları arasında olardı. Təəssüf ki, Nəcim ömür boyu bu imkanlardan məhrum olub, motor arxasından yorunuq dönəndə öz təəssüratını şeirlə ifadə edib, bir sevincin, bir bədbəxtliyin şahidi olanda öz duyğu və düşüncələrini ağ kağıza tökub. Heç onların çapına da

çalışmayıb. Arabir bir-iki şerini bir qəzetdə dərc etdirsə də, yazdıqlarının çapı ilə maraqlanmayıb. Yazdıqlarının bir qismi ermənilərə qalıb – Vətənlə birlikdə. Bir qismini «Bu qaçqınlı günlərim» (2003) kitabında toplayıb. Bu kitab isə onun oxucularla ikinci görüşüdür.

Bu günlərdə mən onun yerlilərindən bir qaçqına rast gəldim. Boynu sıpa boynu kimi idi, dönmürdü. «Yer-yurd haqqında nə düşünürsən?» dedim. Çox alçaq cavab verdi: «Allah atalarına rəhmət eləsin. Ayağımız toz görmür, zığ-palçıq görmür. Oturmuşuq bu tərtəmiz yerdə (yataqxanada olurdu). Ot biçmirik, kərənti çalmırıq. Nəyimə lazımdır o torpaqlar mənim?» – dedi. Dəhşətə gəldim. İnsan nə qədər nankor və yaramaz olarmış!..

Amma Nəcimi şair edən vətən dərdidir, torpaq dərdidir, hakim zümrənin riyakarlığı, xalqa düşmən mövqeyi, öz mənafeyini hər şeydən üstün tutması, yerliçilik toxumu səpməklə, balaca bir xalqı yüz yerə parçalamaqla öz hakimiyyətini, ağalığını uzatmaq cəhdi – ürək ağrılarıdır, qəlb çırpıntılarıdır, düşmən zümrənin yaratdığı sarsıntılardır; xalqın əxlaqının pozulmasıdır, bir qrup adamın həqiqət axtarışına çıxanlara iyrənc və riyakar hücumlarıdır, zəncirli köpəklərin xalqın üstünə buraxılmasıdır, «qaçqın» adını daşıyan bir qrup yaramazın da bu sahədə mənliksiz nökərçiliyidir, adını ziyalı qoyub öz mənafeyi naminə xalqa nifrət və həqarətlə yaşayan insan cildinə girmiş məzhəbsizlərin düşmən mövqeyidir. Bunlar insanı qurd basmış it leşindən çox iyrəndirir.

Şair olmaq istəməyən Nəcimi bunlar şair edib. Əli heç bir şeyə çatmır. Bir tilsimi də yoxdur ki, riyakar, yaramaz, əxlaqsız adamları bir-bir damğalaya bilsin. Ürək ağrılarını misralara düzür. Gücü buna çatır. Bildirmək istəyir və əslində, bütün qüsurlarına baxmayaraq, çox tutarlı şəkildə bildirir ki, ziyalı təhsili, alim diplomu, şair bileti almasa da, əzablı ömrünü sağlam düşüncələrlə keçirib, zəhmətlə yaşayıb, bir parça çörəyin qulu olan adamlara nifrətlə yaşayıb, kişi kimi yaşayıb.

Onun düzüm-düzüm düzdüyü misralarda qüsurlar çoxdur. Qafiyə qüsuru da var, heca qüsuru da. Kəlmələrin yazılışında, durğu işarələrinin qoyuluşunda da. Amma Siz bunların heç birinə fikir verməyin. Siz misralardakı, bəndlərdəki fikirlərə diqqət yetirin. Elə bilin ki, Nəcim yazmır, sizinlə danışır. Bunu danışıq kimi qəbul edin. Onda o qüsurların heç birini görməzsiniz. Amma Nəcimin ürək çırpıntılarını, arzu və istəklərinin sonsuzluğunu hiss edərsiniz, onun saf duyğularının şahidi olarsınız.

Onun həssas qəlbinin dediklərinə adi şeirlərində də rast gələcəksiniz, faciəvi hadisələri qələmə aldığı poemalarında da. Nəcim ilə danışın. Onun dərdlərini bölüşməyə çalışın.

25.09.2003

UZAQ GƏLƏCƏYİN ADAMI

Həsən Həsənov – 100

Əslində, mən onu qiymətləndirmək, onun həqiqi qiymətini vermək iqtidarında deyiləm. Çünki onun ictimai-siyasi, ədəbi, elmi fəaliyyətinin qızğın çağlarında mən uşaq idim. 50-ci illərin sonlarında – onunla tanış olduğum dövrdə isə onlar artıq siyasi meydandan çəkilmişdilər, ideyaları öləziməkdə idi, cəmiyyətin ağzı başqa səmtə düşmüşdü.

Bibim Şabanla getmişdik. Elə bir işimiz də yox idi. Dedi gedək görüşək. Dedi gedək tanış ol. Yaxın qohumdur. Böyük adamdır. Yaxşı adamdır.

Gəlişimizi eşidib bizi Lenin muzeyinin geniş foyesində qarşıladı. Muzeyin direktoru idi. Ağ çesuça kostyum geymişdi. Saçları, qaşları da ağ idi – bütövlükdə ağa bürünmüşdü. Yay olduğu və çox yüngül geyindiyi üçün mənə aralıdan nədənsə boyca balaca göründü. Amma sonralar gördüm ki, hündür və gözəl qaməti ilə seçilən, hər bir hadisəyə yüksəkdən baxmağı bacaran bir insandır.

Həsən müəllim – Həsən Məhəmməd oğlu Həsənov ölkənin ən çətin günlərində – Böyük Vətən müharibəsinin gətirdiyi aclıq, səfalət, qırğın və faciələrlə dolu bir zamanda Vətənin, xalqın diriliyi, mühafizəsi üçün əlindən gələni etmiş, Azərbaycan KP MK-nın ideoloji şöbə müdiri və bir qədər sonra MK-nın ideoloji katibi kimi Mir Cəfər Bağırovla birlikdə çətin və üzüntülü bir həyat yolu keçmişdir. Müharibə dövründə İranda olmuş, demokratik qüvvələrin qanadlanmasında misilsiz iş görmüşdür.

Eşitmişdim ki, 30-cu illərin ortalarında Moskvada Ali Partiya məktəbində oxuyarkən oradan M.C.Bağırova belə kadrlarla fəxr edə biləcəyi barədə teleqram vurmuşlar.

Sonralar bir neçə dəfə görüşmək imkanım olub. Yoldaşı Həlimə xanım, qardaşı Zülfüqar vəfat edəndə görüşməli olmuşuq. Bir

neçə dəfə onun təşəbbüsü ilə görüşmüşük: necə yaşadığımızı yoxlamaq üçün qardaşı arvadı Sürəyya ilə bizim Yasamaldakı kasıb evimizə gəlib, məni Tahirlə birlikdə evinə qonaq çağırıb. Vaqifin toyunda bir yerdə olmuşuq. Zülfüqargildə bir neçə dəfə görüşmüşük. Daha geniş söhbətimiz Şüvəlandakı bağında olub.

Həsən müəllimin böyüklüyü onun müdrikliyində idi – son dərəcə müdrik adam idi və hadisələrə çox geniş nəzərlə baxırdı. Mən bunu bildiyim üçün birlikdə olduğumuz anlarda həmişə müşahidə aparırdım. Məhəmmədəli müəllim (Məhəmmədəli Kərbəlayı Aslan oğlu Məmmədov) vəfat etmişdi. Bütün qadınları və kişiləri göndərib gecəni tabutun yanında tək qalmışdım. Dəfnində Həsən müəllim də iştirak edirdi. Dəfndən sonra artıq əl-ayaq çəkilirdi. Mən də icazə alıb evə getmək istəyirdim. Birlikdə çıxdıq. Zaman müəllim bizi yola salırdı. Həsən müəllim əl tutdu:

– Deyərlər, axırıncı qəminiz olsun.

O vaxtdan o «deyərlər» sözü yadımdan çıxmır. Həsən müəllim o sözü deməyə də bilərdi, lakin onda o müdrik Həsən Həsənov olmazdı. Onlar realist idilər, özlərini və qarşıdakını aldada bilməzdilər.

Bəzən diz-dizə otururduq. O dəqiqə də institutdakı vəziyyəti soruşardı:

– Korlanır, – deyirdim. - Qəbul yaman pisləşib. Tapşırıq baş alıb gedir və ən pisi də odur ki, yuxarıdakılar bilə-bilə göz yumurlar.

Böyük arzu və istəklə həqiqi xalq dövləti yaratmaq, rüşvətsiz təmiz bir aləm yaratmaq istəyənlərin tipik bir nümayəndəsi kimi, Həsən müəllim böyük təəccüb və təəssüflə:

– Neujeli?! – deyirdi, – gözlərində təəssüf hissi sezilir, lakin baxışında, sifətində bir yenilməzlik qalırdı.

Bir çoxları tələbə qəbulunun bu cür keçirilməsindən böyük ləzzət alırdı. Mən bu axının içərisində olsam da, daxilən çox narazı və narahat idim. Düşünürdüm ki, kaş kristal bir intizam, təmizlik ola idi, hər şey yalnız bilik və zəhmətlə ölçülə idi. Ona görə də bu cür böyük adamların suallarına heç nəyi gizlətmədən cavab verirdim. Başqa vaxtlarda dediyim sözlərə Mirzə İbrahimovun da eyni dərəcədə təəccüb və heyrətlə təəssüf etdiyini, daha artıq təəssüf etdiyini görmüşdüm. «Daha artıq» ona görə ki, Xruşşov işə başla-

dığı dövrdə artıq Həsən müəllim vəziyyətin necə olacağını geniş dünyagörüşlə analiz edir və hər cür vəziyyətin mümkünlüyünü qəbul edirdi. Deyirdi ki, N.S.Xruşşovun hakimiyyət başına gətirilməsi Sovet hökumətinin ən böyük nöqsanıdır. Mirzə müəllimdə isə bunlarla yanaşı, bir yazıçı emosionallığı da var idi.

Vaqifin toyu idi. Həsən müəllim də, Mirzə müəllim də iştirak edirdilər. Masabəyi ayrı adam idi. Amma Həsən müəllim daim ayaq üstə idi və hər çıxışdan sonra mikrofonu alıb çıxışlara düzəliş verirdi. Düşünürdüm ki, bu onun respublika mədəniyyətinə, Yazıçılar İttifaqına hökumət nümayəndəsi kimi rəhbərliyi dövründə qazanmış olduğu vərdişlərin nəticəsidir.

Söhbətlərimizdən başa düşürdüm ki, bu nəsil xalq üçün yaranmışdır və bunlar xalq mənafeyinə zidd olan heç bir işə güzəşt etməmişlər. Daim zəhmət adamlarının taleyi ilə maraqlanmış və onların tərəfində durmuşlar. 50-ci illərdən artıq əllərində heç bir ixtiyar olmadığından yaratdıqlarının pozulmaqda olduğuna hədsiz təəssüf edirdilər və yenə də əhalinin, kəndin vəziyyətini düşünürdülər. Qonşumuz (və böyük hörmət bəslədiyim, bir neçə yaş kiçik olsa da, Həsən müəllimin uşaqlıq yoldaşı) Fərman müəllim danışırdı ki, hər dəfə Bakıya gələndə Həsənlə görüşür və söhbət zamanı hər dəfə Həsən kəndin ən əlsiz-ayaqsız adamı olan Nərimanı soruşur.

-Yaxşıdır, ailəsi, uşaqları, inəyi, qoyunu, toyuq-cücəsi – hər şeyi var, fermada işləyir, çobandır, pis dolanmırlar – deyirdim. – Amma hər dəfə Nərimanı soruşması məni təəccübləndirirdi. Axır ki, bir dəfə özümü toplayıb dedib:

-Qağa, sən allah, bu Nəriman, bilirəm ki, nə sənin qohumundur, nə mənim, nə də onunla bir əlaqən var. Bu nə işdir ki, sən hər dəfə kənddən danışanda birinci Nərimanı soruşursan?

Həsən bir qədər üzümə baxıb dedi:

-Bilirsən, Fərman, o dediyim Nərimanı mən çox yaxşı tanıyıram. Kəndi də yaxşı tanıyıram. Bilirəm ki, Soltanlıda ən əlsiz-ayaqsız adam Nərimandır. Əgər Nərimanın vəziyyəti babatdırsa, əgər Nəriman dolana bilirsə, demək, kənd də dolanır. Ona görə mən hər dəfə səndən ilk növbədə Nərimanı soruşuram.

Bu, yenə müdriklik və xalq sevgisi əlaməti idi.

Həsən müəllim həqiqətən kəndi yaxşı tanıyırdı. Uzun illər şə-

hərdə yaşamasına, şəhərdə işləməsinə baxmayaraq, hamı yadında qalmışdı. Və ən təəccüblüsü də bu idi ki, 15-20 yaşlarında kənd cavanlarının üzünə baxan kimi – istər qız olsun, istər oğlan, fizianomiyasından dərhal təyin edirdi ki, filankəsin uşağı, filan ailənin törəməsidir.

Dövrünün sənət adamlarına ən çətin dövrdə xeyli müddət rəhbərlik etmişdi, hər birinin yaradıcılığına dərindən bələd idi. S.Vurğunun istedadını yüksək qiymətləndirirdi:

– «Xanlar» pyesi hazır idi. Çağırdım MK-ya, xeyli arxiv materialı tökdürdüm qarşısına. Düşünürdüm ki, bir neçə gün məşğul olar. Amma çox sürətlə tanış olub kabinetə gəldi:

– Ayə, ay Həsən, daha nəyiniz var? – dedi. Əsərə xeyli əlavələr etdi.

70-ci illərin əvvəlləri idi. Şüvəlandakı bağına getmişdim. Bağında heç bir təmtaraq yox idi. Adi hasar, rəngsiz bir neçə balaca otaq, sahələrdə üzüm və əncir, həyətdə şam ağacları… Böyük vəzifə sahibinin bağına heç bir cəhətdən oxşarı yox idi. Bel götürüb yer belləyir, ağaclara su verirdi. Yeməyini uşaqlarının xalası hazırlayırdı. Onu da bağ işlərinə cəlb etmişdi. Üzüm kolunun bir qanadı əzilsə, su gec verilsə, əsəbiləşirdi. Çox vaxt bağda qalırdı. Adi suvaqlı balaca bir tikilidə yaşayırdı. Fikirləşirdim ki, o böyüklükdə vəzifə sahibi istəsə idi, çoxmərtəbəli evlər tikdirərdi. Heç nə tikdirməmişdi – yerin başında iki balaca rənglənməmiş bağ evi. Yüksək hafizə sahibi idi. Dedim ki, bir az keçmişdən, dədə-babalarımızdan danış, qeyd edim, gələcəkdə lazım olar. Dedi ki, hamısını yazmışam, lazım olanda oxuyarsan («Dilimiz-tariximiz» kitabını çap etdirərkən çox axtardıq, bu yazını tapa bilmədik. Bu günlərdə Arif Həsənov – MEA-nın müxbir üzvü, Həsən müəllimin böyük oğlu – bildirdi ki, qeydləri tapıb. Lakin hələ də tanış ola bilməmişəm). Dedim, deyirlər ki, Bağırov sağdır, haradasa uzaq sürgündə gizli saxlayırlar. Dedi ki, yalan sözdür. Xruşşov düşməni idi, sağ saxlamazdı.

Məni daha çox düşündürən bir məsələni xüsusi soruşdum:

– Niyə belə elədiniz, – dedim, – Ukrayna, Belorusiya, Moldaviya birləşdi, nə üçün Azərbaycanı birləşdirə bilmədiniz?

Həsən Həsənov, Mirzə İbrahimov müharibə vaxtı Cənubda

çox olmuş, misilsiz işlər görmüşdülər, bunu bilirdim. Niyə nəticəsi olmamışdı, bunu da bilirdim. Amma yenə soruşdum.

– Mənim yanımda Mir Cəfər düz bir saat ağlaya-ağlaya Stalinlə telefonla danışdı. Stalin tələb edirdi ki, İrandan təcili çıxmaq lazımdır. Bağırov çox xahiş etdi ki, İosif Vissarionoviç, hər şey hazırdır, tam hazırdır, bizə üççə gün möhlət ver. Dedi olmaz, təcili çıxın. ABŞ nota verib ki, İrandan çıxmasanız, müharibəni davam etdirməli olacağıq. Rus əsgəri isə yorulub. Mən müharibəni davam etdirə bilmərəm.

Həsən müəllim bu sözləri, elə bil, mənə indi deyir. Olduğu kimi yadımdadır. Düşünürəm ki, Stalini və ya Bağırovu təqsirləndirənlər ya işin içindən xəbərsizdir, yaxud da tarixi şəraiti qəsdən təhrif edirlər. ABŞ-da artıq Ruzvelt yox idi, daha irticaçı Trumen hakimiyyətə gəlmişdi və ABŞ nüvə silahı istehsalına başlamaq üzrə idi, böyük müharibədən çıxmış ölkəni yenidən dəhşətli müharibəyə sürükləmək olmazdı.

Ölüm yatağında olarkən də özünü son dərəcə təmkinlə aparırdı. Mən bir dəfə onun şikayət etdiyinin şahidi olmadım. Görürdüm ki, hər şeyə, hətta ölümün gəlişinə də müdrikliklə baxır. Əlində, qollarında güclü keyimə və ağrılar olsa da, təbəssümlə baxır, lakin əllərinin, qollarının ovulmasından, az da olsa, bir rahatlıq duyurdu. Əllərini ova-ova düşünürdüm ki, iradəsini heç bir şey poza bilməyib, ölüm yatağında da əvvəlki kimi gözəl görünür.

Bunlar öz mənafeyini düşünməyə vaxt tapmamış, tarixdə görünməmiş bir nəslin nümayəndələri idilər. Tarix həyatını harın adamların əleyhinə və eyni dərəcədə xalq naminə mübarizəyə həsr edən belə bir nəsil görməmişdi. Bunlar XX əsrin yox, uzaq gələcəyin adamları idilər...

O günlərdə məni yenə pambığa göndərmişdilər. Toz-torpaq içərisində evə çatmağımla vəfat etdiyi barədə xəbər tutmağım bir oldu.

Özümü güclə çatdırıb illərlə yaşadığı evdən qaldırılan tabutuna yapışa bildim…

Lakin Həsən Həsənov – hər əsrin yetirmədiyi böyük ürək sahibi, xalq naminə misilsiz rəhbər və təşkilatçı, mədəniyyət xadimi - bu gün də canlı şəkildə gözlərimin önündədir.

22.01.2004

NƏ TEZ 50?

Həqiqətdə də Ona bu yaşı vermək çətindir. Amma zaman bizdən asılı olmadan irəliləyir və onu yalnız şəkillərdə dondurub saxlamaq olur.

Kübra Fərrux qızı Quliyeva!

Tanışlığımızın tarixi o qədər də çox deyil. Amma elə bil, əsrlərin yoldaşı olmuşuq. Sadə, səmimi, işgüzar. Arabir hirslənən. O da hamı kimi dirilik, yaşayış üçün lazım olan əməllər ardınca qaçır, gənc nəslin təhsili, tərbiyəsi ilə məşğul olur, ali məktəbdə dərs deyir, proqram, dərs vəsaiti, tövsiyə və dərsliklər hazırlayır, tərcümə işi ilə məşğul olur. Arabir də ürək çırpıntılarını şerə çevirib vərəqlər üzərinə tökür. Böyük bir ailəyə başçılıq edir.

Kübra xanım, hər şeydən əvvəl, bizim həmkarımızdır, keçən 60 ilin ərzində çoxsaylı və nəhəng alimlərin yazıb-yaratdığı, zəngin irs və iz qoyduğu Nəsimi adına Dilçilik İnstitutunun böyük elmi işçisidir – bizim Azərbaycan dialektologiyası şöbəsinin əməkdaşıdır.

Düz 50 il bundan əvvəl dünyaya göz açıb. Bakıda doğulub-böyüyüb. 1971-ci ildə orta məktəbi, 1977-ci ildə Azərbaycan Dövlət Universiteti şərqşünaslıq (türk dili) fakültəsinin türk filologiyası şöbəsini bitirib. Üç il Quba rayonunun Qımıl-Qışlaq səkkizillik məktəbində ana dili və ədəbiyyat müəllimi işləyib. 1981-ci ildə Bakıya qayıdaraq Nəsimi adına Dilçilik İnstitutunda işə girib, baş laborant (1981–1984), kiçik elmi işçi (1984–1986), elmi işçi (1986–1993) vəzifələrində çalışıb. 1993-cü ildən Azərbaycan dialektologiyası şöbəsinin böyük elmi işçisidir.

Kübra xanımı Dilçilik İnstitutuna elmi marağı çəkib gətirmişdir. Onu leksika məsələləri – dilimizin qədim leksik qatları daha çox maraqlandırır. Müəllimlik etdiyi dövrdə Quba və Dərbənd dialektlərində qədim arxaik elementlər onu daha çox maraqlandırmış, fürsətdən istifadə edərək bu sahəyə dair zəngin material toplamışdır. Dilçilik İnstitutu mühitinə düşərkən qeyd edilən sahədə tədqiq və araşdırmalarını davam etdirərək 1989-cu ildə «Azərbaycan dilinin Quba-Dərbənd dialektlərində qədim türk leksik

qatı» mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Təbii ki, AMEA-nın başqa institutları kimi, Nəsimi adına Dilçilik İnstitutu da yaradıcı adamların institutudur və öz əməkdaşlarından yaradıcılıq tələb edir. Kübra xınım da həm bu mühitin tələbləri əsasında, həm də öz təpəri ilə yaradıcılığını ardıcıl davam etdirmişdir. İndi o, 100-ə qədər elmi və elmi-publisistik əsərin müəllifidir. 1994 – 1997-ci illərdə doktoranturada olub. «Azərbaycan dili dialekt və şivələrinin qədim leksikası» mövzusunda doktorluq dissertasiyası hazır olmaq üzrədir. Dilimizin qədim tarixi, dialekt və şivələrimizin qədim leksik layı ilə bağlı bir mövzuya həsr olunmuş bu maraqlı əsər fikri cəmləşdirib yekunlaşdırılmaq xoşbəxtliyini gözləyir.

Qeyd etdiyimiz kimi, tarixi leksikologiya aspektində tədqiqat K.Quliyevanı özünə daha çox çəkir. Ona görə də axtarışları daha çox qədim leksika məsələlərinə aiddir və bir çox hallarda etimoloji xarakterdədir. Bu cəhət istər-istəməz qədim lüğəvi vahidləri qohum dillərin materialları ilə müqayisəyə aparır. «Karacaoğlan ve Şah İsmayıl Hatayının halk şiiri uslubunda yazdığı şiirleri arasında benzerlik», «Türk ədəbi dili və Azərbaycan dilinin dialektlərində paralel işlənən bir sıra fellərin semantikası» kimi bir sıra məqalələrini türk və Azərbaycan folklorunun, türk və Azərbaycan dillərinin müqayisəli tədqiqinə həsr etmişdir. «Karacaoğlanın şiirleri üzerine bir kaç not daha» kimi türk dilində yazdığı maraqlı məqalələri vardır. Rus dilində xeyli məqalə çap etdirmişdir.

O, türk dilinin Azərbaycanda tədrisi məsələləri ilə ardıcıl maraqlanır. «Türk dilinin tədrisi prosesində ortaya çıxan bir sıra obyektiv və subyektiv çətinliklər», «Azərbaycanda türk dilinin tədrisində ortaya çıxan problemlər» məqalələri metodiki baxımdan çətinliklərin törəmə səbəblərini aydınlaşdıran yazılardır.

Azərbaycan dialektologiyası şöbəsi son vaxtlar «Azərbaycan dialektologiyası» seriyası ilə «Azərbaycan dilinin Meğri şivələri», «İraq-türkman ləhcəsi» kimi monumental kitablar hazırlayıb çap etdirmişdir. Nəfis şəkildə çap olunmuş bu kitablardan ikincisində «Leksika», «Lüğət» kimi böyük bölmələr K.Quliyevanın qələminin məhsuludur. «Leksika» bölməsini o, professor Q.Paşayevlə birgə yazmışdır.

Ali və orta məktəblərdə pedaqoji fəaliyyət Kübra xanımın həyatının böyük bir qolunu təşkil edir. Hazırda o həm də Azərbaycan Dövlət İqtisad Universitetinin dosentidir. Bir sıra proqram və dərs kitablarının müəllifidir. «Türkcə okuma kitabı» iki dəfə, «Türk dili» (Türkiye türkcesi. Fen ve ekonomi fakültelerinde yüksek oğretimin bakalavr kademesi içün) proqramı 1996-cı ildən bu günə qədər 8 dəfə çap olunmuşdur. Başqa proqramları da vardır.

K.Quliyeva bir tərcüməçi kimi də fəaliyyət göstərir. «Anadolu aşıqları» (1993), M.Altunbayın «Azadlığa uçan ilk türk» (1994), İrfan Ülkünün «Qızıl ulduzdan hilala doğru» (1994) kitablarını və bir sıra başqa əsərləri Azərbaycan dilinə çevirib çap etdirmişdir.

Həssas və zərif şeir duyğusu vardır. Şeirlərini mərkəzi mətbuatda, şeir toplularında çap etdirmiş, bir sıra şeir kitabları tərtib və redaktə etmişdir. 2000-ci ildə oxucular «Duyğu yarpaqları» şeir kitabı ilə tanış olmuşlar. Xarici mətbuatda, «Güneysu», «Dolunay», «Beşparmak» jurnallarında çap olunmuş əsərləri, mərkəzi mətbuatda çap olunmuş publisistik yazıları vardır. Təyyarə bələdçiləri üçün hazırladığı «Azərbaycan – rus – ingilis dillərində danışıq lüğəti», «Türkcə iqtisadi terminlər lüğəti» kitabları çap prosesindədir.

K.Quliyeva Alma-Ata, Ufa, Türkiyənin Ankara, Adana, Ərzurum, İzmir şəhərlərində keçirilən beynəlxalq simpozium və konfranslarda maraqlı məruzələr etmiş, təşəkkür və fəxri fərmanlar almış, məruzələri çap olunmuşdur.

Kübra xanım bir qadın üçün mümkün olan uğurlu və səmərəli həyat yolu keçmiş, el üçün, xalq üçün, gənclik üçün əlindən gələni etmiş, ardıcıl olaraq pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Şöbəmizin əməkdaşları və yaxın dostları adından Kübra xanımı ürəkdən təbrik edirik, ona uzun ömür və yeni yaradıcılıq uğurları arzulayırıq.

14.05.2004

DAĞLARIN GÖZÜNÜN YAŞINA BAXMA...

Hüseyn Arif – 80

Bizi Qurbani görüşdürüb – Dirili Qurbani. 83-cü ildə Qurbani ilə bağlı axtarışlara başladım və həmin ilin 13 oktyabrında Cəbrayıl Rayon Partiya Komitəsinin orqanı olan «Kolxozçu» qəzetində «Aşıq Qurbani və məzarı» adlı məqaləm dərc olundu. İlk dəfə burada Qurbaninin məzarının Diri dağının döşündə olduğu ətraflı şəkildə əsaslandırılırdı. Oktyabrın 22-də rayonda saz bayramı keçirilmiş, Hüseyn Arifin gəlişi münasibətilə «Kolxozçu» qəzeti yubiley nömrəsi buraxmış və məqaləni yenidən dərc etmişdir (O dövrdə mən Neftçalada tələbələrlə pambıq toplanışında idim). Hüseyn tələb edib ki, Qurbaninin qəbrini ziyarət etmək lazımdır. Yolların pis olduğunu, o yerlərə gediş-gəlişin çox çətin olduğunu desələr də, əl çəkməyib. Yük maşını ilə getməli olublar. Dərə, təpə, uçqun, qorxulu yollar… Şair lap əldən düşüb, az qala yola çıxdığına peşman olub, zarafat eləyib: «Buralarda bir qəbir tapın, deyək budur, öldük». Amma gedib çatıb. Bir qrup rayon işçisi də onunla birlikdə bu əziyyəti çəkməli olub. Hüseyn qəbri ziyarət edib və son bəndini verdiyimiz məşhur şerini söyləyib:

Nə qədər canında can var, Hüseyn!
Vətənə borcunu qaytar, Hüseyn!
Axtar babaları, axtar, Hüseyn!
Bir gün nəvələr də səni axtarar.

Bu hadisədən az sonra V.İ.Lenin adına APİ-də Hüseynlə görüş keçirilirdi. Şair haqqında istedadlı ədəbiyyatşünas alim və tənqidçi İsrayıl Mustafayev söz deməli idi. Yuxarıdakı bəndi ona xatırlatdım (daha doğrusu, çıxışa başlamamış soruşub qeyd etmişdi), nitqini həmin sözlərlə bitirdi. Hüseyn Arif çıxış edərkən dedi:

– Sizin alimlər də bizə çox kömək edirlər. Qəzənfər müəllim Qurbanin məzarının axtarışları ilə məşğul olub, yaxşı bir məqalə yazıb. Biz o izlərlə gedib məzarı ziyarət etdik…

Gözləmirdim, çünki bilavasitə tanışlığımız yox idi. Rektor çevrildi ki, «Səni deyir?»

1984-cü ildə aşıqlar qurultayı ərəfəsində, demək olar ki, bütün qəzetlərdə Qurbani haqqında yazılarım dərc olunurdu. Məni aşıqlar qurultayına dəvət etdi.

Qurultayı xalq yazıçısı Mirzə İbrahimov açdı. Hüseynin məruzəsindən sonra çıxışlar başladı. Bir qədər sonra yaşlı aşıqlar icazəsiz-filansız səhnəyə çıxmağa başladılar. Dövlətin onlara baxmadığını, əməklərinin qiymətləndirilmədiyini, orden-medal almadıqlarını deyirdilər. Mirzə müəllim ha çalışdısa da, onları sakitləşdirə, oturda bilmədi və axırda «Hüseyn, bu aşıqlarını sakitləşdir!» deməli oldu. Hüseyn qalxdı; iki dəfə «Keçin oturun! Keçin oturun!» deməsi ilə aşıqların bir-bir düşüb yerlərində oturmaları hamıda heyrət doğurdu.

O zaman Həsən Əziz oğlu Həsənov MK-nın katibi idi və Hüseynin xatirini çox istəyirdi. Hüseyn onun köməyi ilə klassik Azərbaycan aşıqlarını rus oxucularına tanıtmaq üçün rus dilində onların kitablarını (hər biri 3 - 4 müəllif vərəqi həcmində) çapa hazırlayırdı. Qurbaninin tərtibini də mənə tapşırmışdı. Bu iş yaxşı baş tutdu və Hüseyn rus dilində xeyli kitab buraxdırdı.

Bununla əlaqədar Aşıqlar Birliyinə tez-tez getməli olurdum. Aşıq Aydın Çobanoğlu Hüseynin Aşıqlar Birliyində müavini idi. Tələbələrimdən İslam Salmanov da orada işləyirdi. Biz tez-tez görüşürdük. Bir məqsədim də ora gələn aşıqlarla görüşüb, Qurbani haqqında yeni materiallar əldə etmək idi.

Hüseynlə çox yaxın olmuşduq. Bir gün – 84-cü il iyunun əvvəlində yenə Aşıqlar Birliyinin yerləşdiyi (indiki Türk səfirliyi olan binada) üçüncü mərtəbədə oturmuşduq. Hüseyn pəsdən oxuyur, yavaş-yavaş saz çalırdı. Bu zaman ucaboylu, qəşəng bir qız, qucağında iri bir gül dəstəsi daxil olub dedi:

– Hüseyn müəllim, bir neçə günlüyə kəndə gedirəm. Gəldim ki, Sizi təbrik edim.

Hüseyn sazı bir tərəfə qoyub, qalxıb gülü ala-ala soruşdu:

– Nə münasibətlə?

– Ad gününüzdə mən burda olmayacağam.

Hüseyn «Lap yadımdan çıxmışdı» deyib gülü stolun üstünə

qoydu və qızı özünə sıxmaqla təşəkkürünü bildirdi. Qız getdi. Hüseyn kövrəlmiş halda:

– Yetimdi. İşə düzəltmişəm,– deyərək gəlib əyləşdi.

Bir qədər sonra:

– Sən də bir şey yaz, yubileyim yaxınlaşır, – dedi.

Mən Hüseynin əlimdə olan kitablarını nəzərdən keçirib «Şairin sənət dünyası» adlı bir məqalə yazdım. O dövrdə qəzetlər indiki kimi tüğyan etmirdi, cəmi bir neçə qəzet vardı. Öyrənmişdim ki, qəzetlərin hamısında Hüseyn haqqında yazılar var. Qərara almışdım ki, məqaləni İrəvana – «Sovet Ermənistanı» qəzetinə göndərim. Amma Hüseyni danışdırmaq üçün dedim:

– Bax Hüseyn müəllim (mən qağa demirdim, müəllim deyirdim), «Bakı» qəzetində İsmayıl müəllimin (İsmayıl Şıxlının) yazısı dərc olunub, o biri qəzetlərdə də öyrənmişəm ki, məqalələr var. Bəs mən yazımı hara verim?

– Bir müəllim qəzetinə zəng elə,– dedi.

Telefonu qaldırıb nömrəni yığdım, dostumuz, yaxşı bir insan olan Məhyəddin Əbdülov götürdü. Salamdan, nə var-nə yoxdan sonra soruşdum ki, Hüseyn Arif haqqında səndə yazı yoxdur ki?

– Var,– dedi. Dostun yazıb.

– Hansı dostum?

– Tofiq Hacıyev. Professor…

(Tofiq müəllim Hüseyn haqqında çox təsirli məqalə yazmışdı.)

Dedim:

– Hüseyn müəllim, orda da məqalə var.

– Kim yazıb? - soruşdu.

– Tofiq müəllim, professor Tofiq Hacıyev.

- Tanıyıram, - dedi.-Yaxşı alimdir, amma hərdən səhvlər edir.

«Səhvlər edir» sözləri nə isə orijinal bir şeydən xəbər verirdi, ona görə də bir növ üzə duran kimi oldum, nə cavab verəcəyi ilə maraqlanıb soruşdum:

– Bax, məsələn, nə səhvi var, Hüseyn müəllim?

Dərhal öz yaşıdı olan şairlərdən birinin adını çəkib dedi:

– (…dən) də yazır, o, şairdimi ki?..

Məqaləni yola saldım və bir həftə sonra (ad günündən iki gün keçmiş – 17 iyun) dostum, tələbə yoldaşım – qəzetin məsul katibi Əsgər Əsgərovdan qəzet və məktub aldım. Məqaləyə əlavə etmiş-

di ki, burada – Ermənistanda da Hüseyn Arifi yaxşı tanıyır və sevirlər, hamı onu ürəkdən təbrik edir.

Çox yaxın olmuşduq. Zəng edirdi ki, «Ay gözəl oğlan, səni görmək istəyirəm». Saat beşdə dekanlıqdan çıxırdım, görüşürdük, gəzirdik, bir yerdə çay içirdik, söhbət edirdik.Duzlu zarafatları vardı. Öz ifadəsi ilə desək, «Mehdixan qağa»dan məzəli əhvalatlar danışırdı

– A Söyün, bir isbattı gap elə.

– Sən çağırmısan, sən gap elə.

– A Söyün, sən bilərsən, partiya qabaqdı, qamsamol?

– Partiya tarixindən sən dərs deyirsən, sən bilərsən. Əlbəttə, partiya!

– Elədisə, bəs niyə qamsamola əvvəl keçirlər?

Gülüşürdük. «Baldızımdır» deyə-deyə şəkili arvadların hamısını işə keçirirdi…

Bir dəfə Yazıçılar İttifaqının qarşısında – bağda gəzdiyimiz zaman Süleyman Rüstəmin İttifaqın qapısında dayanıb papiros çəkdiyini gördük. «Yaxşı adamdır, gedək onu bir az danışdıraq» dedi. Mənim də ürəyimdən idi. Getdik, görüşdük. Süleyman Rüstəm keçmişdən, S.Vurğunla, M.Rahimlə münasibətlərdən maraqlı əhvalatlar danışdı. Şirin yumorla danışırdı. Bir dəfə Məmməd Rahimi cırnatmaq üçün S.Vurğunun məruzəsinə bir neçə tənqidi cümlə saldığını, başqa bir neçə bu cür məzəli əhvalat söylədi.

Məmməd Rahim haqqında bir məzəli əhvalat da söylədi:

-Bir gün Məmməd Rahim qaranəfəs gəldi ki, Süleyman, Süleyman, bu... oğlu Rəsul dünən 113 min manat qonorar alıb.

-Nə bilirsən, alanda yanında idin?

-Yox, -dedi, - bu gecə oturub misralarını saymışam.

Xudahafizləşib ayrılddıq.

Bağda gəzirdik. Hüseynlə ayaqlaşmaq üçün iti-iti getdiyimiz zaman qəfil dayanıb bir şey deyirdi, az qalırdım ətalətdən yıxılam. Gəzdiyimiz zaman Hüseyn rüşvətxor ali məktəb müəllimləri haqqında İlyas Tapdığın şerini aktyor kimi söyləməkdən ləzzət alırdı. Özü də gözəl deyirdi, amma deyirdi ki, İlyas bu şeri çox gözəl söyləyir.

Bir gün 9 Yanvar bağının yanından maşınla harasa gedirdik. Yazıçılardan biri yol keçirdi. Hüseyn dedi:

– Gedir, yenə keflidi.

Mən yazıçı ilə çox yaxın idim, onu yaxşı tanıyırdım. Amma Hüseyni danışdırmaq üçün soruşdum:

– O da içir?

– Vedriynən!– dedi. Hazırcavablığı mənə ləzzət verirdi.

Qorbaçov içkini qadağan elədiyi dövrdə bir gün çox əziyyət çəkdik. Hüseyn zəng elədi ki, ay gözəl oğlan, tez görüşək. Saat 1-də dərslərə nəzarəti müavinə tapşırıb dekanlıqdan çıxdım. Görüşdük. Əllərini açdı – qızartılar vardı:

– Bu saat rayondan gəlirəm, iki yaxın adamım ölüb, içməsəm ölləm, – dedi (Ölənlərdən birinin adı yadımda deyil, birinin çox istədiyi tarixçi Əmirxan müəllim olduğu yadımdadır).

Çıxdıq, hansı yeməkxanaya üz tutduqsa, «İçki deyənin qulağını kəsirlər» dedilər. Mən özüm düşdüm ki, ayə, qorxmayın, yoxlamaya gəlməmişik, bizə bir balaca məzələnmək lazımdır, olmadı, dedilər tapılmaz. Birdən yadıma düşdü ki, bizdə – evdə neçə putulka konyak var. Soruşdum ki, «Konyak içərsənmi?» Bir qədər ehtirasla dedi ki, «Nə fərqi var!»

Hüseyni təbiət xoş saatda yaratmışdı. Xoşbəxt adam idi. Təsadüfən o gün səhər işdən əvvəl yaxşı bazarlıq etmişdim – təzə ət, göy-göyərti. Amma yenə Hüseyni danışdırmaq istədim:

– Gedək bizə, içki, konyak olacaq, amma yeməyə bir şey tapmayacağıq.

– Yumurta bişirərik, qayğanaq!

– Əşşi, qayğanaq nə vaxt bişər, onu iki saata kim bişirəcək?

– Yox, yox, qayğanaq tez bişir, narahat olma.

Mən yenə israr elədim:

Qayğanaq çətin bişər.

– Gedək, – dedi, mən bişirərəm, görərsən.

Gəldik, yemək hazır idi. Bilmirəm, Hüseynin gəlişindən idi, nədən idi, o gün yemək mənə də ləzzət verdi və o dad damağımdan getmir. Elə bil, hava da işıqlı və gözəl idi. Süfrəni hazırlayınca Hüseyn sakit oturmur, ora-bura keçir, müxtəlif hərəkətlər edirdi. Böyük oğlum Cavanşir (gərək ki, dördüncü sinifdə oxuyurdu) Hüseynin hərəkətlərinə göz qoyurmuş. Yavaşca pıçıldadı ki, «Papa, bu içki içib?» «Yox – dedim, hələ yox».

Yemək gəldi. Müşahidə etmişdim ki, Hüseyn bir-iki qədəhdən

artıq içmir. Bu gün də elə oldu. Bir-iki qədəhdən sonra yaxşılaşdı, tam sakitləşdi. Cavanşir dedi:

– Papa, bax indi yaxşıdır.

Dedim, elədirsə, onda dur maqnitofonu gətir, danışdır, yadigar bir-iki şeir yaz saxla.

O zaman Hüseyn «Arvadların kitabına inanma» şerini təzə yazmışdı və müxtəlif yerlərdə çıxış edərkən o şeri mütləq əzbər deyirdi. Duzlu bir şeir idi. Bu şeri, bir də bir başqa şeri dedi, Cavanşir yazdı.

Bir gün dedim ki, gəl gedək Ermənistana, Göyçə tərəfə, orada Cil kəndində məşhur aşıq var – Aşıq Müseyib. Onunla görüşək, ondan «Qurbani» dastanını almaq istəyirəm. Dedi ki, bu yaxınlarda Gədəbəydə böyük saz bayramı olacaq, gedərik Gədəbəyə, oradan da Cil kəndinə.

Vaxt gəldi çatdı. Bir səhər tezdən ikimiz mənim maşınımla çıxdıq yola. Əvvəl Beyləqana (o vaxtkı Jdanova) getdik. Katiblə görüşdük. Yola düşüb Qasım İsmayılov (indiki Goranboy) rayonu yaxınlığında bir piti yeyib tərpəndik Gədəbəyə. Raykom katibi Aydın Quliyev gözəl bir oğlan idi. Hüseyni böyük sevinclə qarşıladı. Şəhərin girəcəyində böyük plakatlarda Hüseynin sözlərini yazıb yol qıraqlarına vurmuşdular. Saz bayramına böyük hazırlıq gedirdi. Amma hələ bir-iki gün sonra olacaqdı. Danışdıq ki, vaxt var ikən gedək Cil kəndinə, Aşıq Müseyibi görək, qayıdaq bayrama çataq.

Səhəri gün tezdən yola düşdük. Şəhərin əsas hissəsindən aralanan kimi dəhşətli bir yol başladı: daş, kəsək, çala-çuxur. Maşını addım-addım sürürdüm. Yolu necə gedəcəyimi fikirləşirdim. Birdən Hüseyn çığırda:

– Dayan! Dayan!

Mən nə hadisə baş verdiyini soruşmamış dedi:

– Mənim aşığım! Mənim aşığım!

Maşından düşdü. Aşıq İsfəndiyar Rüstəmovu görmüşdü. Görüşdülər. Mən də düşüb tanış oldum. Hüseyn:

– Cilə gedirik, gəl gedək,– dedi.

– Onda qoy gedim maşınımı götürüm.

Məlum oldu ki, İsfəndiyarın maşını «Qaz-24»dür. Dedim:

– Daha nə üçün iki maşın? Bir maşın bəsdir. Səninki ilə gedək.

İsfəndiyarın maşını ilə getməli olduq.

Günəşli, aydın bir gün idi. Göyçə gölü narın-narın dalğalanırdı. Gölün lap yaxınlığında əkin sahələri başlanırdı. Bitki təzəcə çıxmışdı, hələ qəhvəyi rəngi ilə xoş təsir bağışlayan şumu örtə bilməmişdi. Kolxozçular tarlada idi. Kolxozun sədri Mazanov da tarlada idi. Hüseyni görüb özünü yetirdi. Adamlar da tökülüşüb gəldilər. Bu görüş qəriblikdə olan adamların vətən övladları ilə görüşündən doğan bir sevinc kimi xüsusi bir sevinc yaratmışdı adamların üzündə. Bir daha Hüseynin ruhuna təşəkkür edirəm. Bizim o gedişimiz olmasa idi, mən bu çox qədim Oğuz yurdunu heç vaxt görməyəcəkdim.

Bir qədər söhbətdən sonra Mazanov bizi apardı evinə. Aşıq Müseyibi tapdırıb gətirtdim. Amma imkan vermədilər. Maqnitofonu da işə sala bilmirdim. Çox elədim ki, aşıqla biz qalaq, uzaq yoldan gəlmişəm, aşığı danışdırmalıyam, mümkün olmadı ki olmadı. Mazanov bizi maşina yığıb Pəri bulağına yola düşdü.

Pəri bulağına da xeyli yol varmış. Həm də dağ-daş arası ilə. Nəhayət, çatdıq. Yaşıl örtüyə bürünmüş gözəl dağ döşü. Bulağın ətrafı və axdığı yerlər dizdən yuxarı lilpardı. Kabab, motal pendiri… Lilpardan qırıb təmizləyib bulağın gözündən su içdim. Sərin yerdə adam susamır. Amma mən qəsdən xeyli içdim ki, yayda Bakıda istidən qovrulanda və o bulaq yadıma düşəndə təəssüf etməyim ki, o zaman niyə su içmədim. Bir də ki bunlar - bu lilparlar Hüseynin qəhrəmanları idi. Mən ona bulağı, lilparı, lilparla necə su içdiyimi göstərib misralarını da xatırlatdım:

Gəl çıxaq seyrinə uca dağların,
Çəmən olan yerdə xalça nə lazım?!
İçək bulaqların bumbuz suyundan,
Lilpar olan yerdə dolça nə lazım?!

Əvvəl elə bildim ki, aşığın əlindəki dolu boğmalı stəkan çaydır. Sonra başa düşdüm ki, konyakdır. «Bizim işimiz var axı», – dedim. Dedi ki, «Narahat olma, mən içəndə yaxşı danışıram».

Qayıtdıq kəndə. Aşıq Müseyibdən bir misra da ala bilmədim. Mən Qurbanidən dedim, o, Xəstə Qasımdan. Mən Qurbani soruş-

dum, o, Tufarqanlıdan cavab verdi. Nəhayət, dedi ki, gərək gedib yata.

Heç nə ala bilmədim (Sonralar Aşıq Müseyib variantını tam şəkildə Elxan Məmmədov mənə verdi, yenə təşəkkür edirəm). Hüseyn də bir balaca əsəbiləşdi, mən də. Qaranlıqlaşırdı. Maşina minib, xudahafizləşib Gədəbəyə yola düşdük.

Yağış başlamışdı. İsfəndiyar maşını çox böyük sürətlə sürürdü. Gölməçələrdən keçəndə su maşından iki-üç metr yuxarı qalxırdı.

– İsfəndiyar, məqsədin bizi qırmaqdır? – dedim. Cavab vermədi. Azərbaycanla Ermənistan sərhədində çayı keçəndən iki dəqiqə (düz iki dəqiqə!) sonra sel çayı götürdü. İkicə dəqiqə geciksə idik, çayı keçə bilməzdik – İsfəndiyar bilirmiş, ona görə belə sürürmüş.

Gəldik Gədəbəyə. Gecəni İsfəndiyargildə qaldıq. Mən çox dilxor idim. Bir belə yolu Aşıq Müseyibdən «Qurbani» dastanını almaq üçün gəlmişdim, amma bir misra şeir də ala bilməmişdim. Birdən İsfəndiyar bunu duyub dedi:

– Fikir eləmə, məndə «Qurbani» dastanının yaxşı bir variantı var.

Mən çox sevindim və həmin variantın əlyazmasını aldım.

Səhəri saz bayramı idi. Bayram bir neçə hektar sahəni əhatə edən bir düzdə təşkil edilmişdi. At çapan kim, dəvə minən, çörək salan, yun darayan, hana toxuyan kim. Gədəbəyin bütün keçmişi burada idi. Adamların hər tərəfdən əhatə etdiyi bu meydanın başında bir metr hündürlüyündə taxta döşəmə düzəldilmiş, güclü mikrofonlar qoyulmuşdu. Aydın Quliyev danışdı, akademik Firidun Köçərli danışdı, Hüseyn Arif danışdı. Hüseyn katibə üz tutub «Müəllimə də bir söz ver» dedi. Danışıqlar-çıxışlar bununla qurtardı və oyunlar başladı.

Mehmanxanaya qayıtdıq. Hüseyn tez-tez mənim çıxışımı tərifləyirdi. Ad çəkirdi – «Filankəs olsa, belə danışa bilməzdi» deyirdi. Əslində isə, mən cəmi 6 -7 dəqiqə danışmışdım və danışarkən Hüseynin Aşıqlar Birliyindəki fəaliyyətindən, onun aşıq məzarlarını tapıb bərpa etməsindən, aşıqların əsərlərinin nəşrinə, təbliğinə qayğısından, el sənətinə məhəbbətindən daha çox danışmışdım. Hüseyn tərifdən ləzzət alırdı.

Səhəri Gədəbəyin yaxınlığında – dağ döşündə, raykomun qonaq evində yaxşı bir məclis qurulmuşdu. Raykom katibi Aydın

Quliyev, icraiyyə komitəsi sədri (o oturmurdu, ancaq yemək daşıyırdı), bir-iki şöbə müdiri, Hüseyn və mən. Məclis başlayanda sazı qoltuğunda Aydın Çobanoğlu gəlib çıxdı. Az sonra Aşıq Solmaz Kosayeva gəlib çıxdı. Solmaz xanım Hüseynin yanında, Aydın ayaq üstdə – duetlər söyləndi, tostlar deyildi. Gündüz saat 2-də məclis başlamışdı, bir də baxdıq ki, saat 9-a işləyb. Tənəffüs üçün qonaq evinin həyətinə çıxdıq. Yaşıllıq və meşə göz oxşayır. Haradansa çəkib gətirdikləri bulaq suyu o qədər güclü və soyuqdur ki, adamın barmağını qıra bilər...

7 saata qədər oturmuşduq. Hamı taraz vəziyyətdə idi.

Mən içki içmirdim. Ümumiyyətlə içmirdim. Həm də biz həmin axşam çıxmalı idik, yolumuz uzun idi. İçə də bilməzdim.

Hüseyni bir tərəfə çəkib dedim:

– Hava qaralır. Yolumuz uzaqdır. Dərə-təpə çoxdur. Bəlkə, icazə alıb tərpənək?

Hüseyn bir qədər bozaran kimi oldu və dərhal dedi:

– Bir balaca içən kimi səfehləyirsən.

Gülmək məni tutdu. Amma onsuz da daha heç kim oturmadı. Bir qədər sonra xudahafizləşib yola düşdük.

Qaranlıqlamışdı. Azca yol getmişdik, Hüseyn maşını saxlatdı, «Mən bir az yatım» deyib arxa oturacağa keçdi, yığıldı və yatdı.

Sürüb gəldim Yevlaxa, oradan qalxdım Ağdama. Ağdamın içərisindən (kolbasa zavodunun yanından) keçərkən qalxıb oturdu, soruşdu ki, «Hara gəldik?»

– Çatırıq,– dedim.

10 – 12 km aşağıda qaynanamgilə – Sürəyya Kərimovagilə gəldik. Saat ikiyə işləyirdi. Hamı yatmışdı. Darvazanı döydük, durdular.

Hüseyni görüb çox sevindilər. Süfrə açdılar. Bir də gördülər ki, Hüseyn ağacın qanadlarını əyib tut yeyir (tutun yaxşı vaxtı idi). Təzədən ay işığında çadır tutdular, tut çırpdılar, iri buludlarda gətirdilər. Bir qədər tut yeyib dedi:

– Elə burda, bu həyətdə bir yer düzəltsinlər, yatım.

– İkimərtəbə evi qoyub çöldə yatacağıq?.. Hansı otaq yaxşıdır, orada yatacağıq.

Tezdən çay içib gəldik Ağcabədiyə. Katiblə görüşüb getdik Beyləqana. Raykom katibi cavan bir oğlan idi, tapşırmışdı ki,

«Hüseyni buraxmayın, məni gözləsin». Özü Bakıya getmişdi. Gecəni qalmalı olduq. Mehmanxanada yaxşı otaq hazırlamışdılar.

Rayonumuz yaxın idi. Dedim:

– Bəlkə, gedək bizim kəndə? Anamı görmək istəyirəm.

– Sən get, mən bir az yatım-dincəlim, yorulmuşam, – dedi.

Mən kəndimizə – Soltanlıya gedib gecəni anamla keçirdim. Erkən Hüseyn yuxudan durmamış, Beyləqanda idim. Katib də gəlib çıxdı. Görüşdük, çay içib düşdük yola. 5-ci gün günortaüstü çatdıq Bakıya.

Mən bu yol səfərində bir şeyi müşahidə etdim: Hüseyn son dərəcə təmiz və təmənnasız bir insandır. Neçə katiblə görüşdük. Hamısı Hüseyni məhəbbətlə qarşılayırdı. El sevgisi də bir yana. Hüseynin bir adamdan bir təmənnası olduğunu hiss etmədim.

89-cu ilin oktyabr ayının ortaları idi. Keçmiş 26-lar bağında görüşdük, dedi ki, Səlvər Aslanovun (APİ-nin rektoru) yanından gəlirəm, institutda yubileyim olmalıdır. Səlvər müəllim bir neçə nəfəri təklif etdi, mən razı olmadım, dedim ki, Qəzənfər müəllim aparacaq.

Dedim, yaxşı eləmisən, narahat olma, gözəl bir yubiley təşkil edəcəyik.

Hazırlıq görməyə başladıq.

Noyabrın 1-də V.İ.Lenin adına APİ-nin akt zalı ağzına qədər dolu idi. Tələbələrimiz gözəl geyinmişdilər. Saysız gül dəstələri gətirmişdilər. Başqa fakültələr də iştirak edirdi. Bütün rəhbərlik salonda idi. Giriş nitqi söyləyib Hüseynə söz verdim. Hüseyn institutun rəhbərliyinə, tələbə və müəllimlərimizə təşəkkürünü bildirib «Yaş 60-dır» şerini oxudu. «Oxudu» deyəndə, arabir kağıza baxıb əzbər söyləyirdi. Şeir böyük şeir idi. Təsirli şeir idi. Bütün zalı titrətdi, həyəcana gətirdi. Aşağıdakı misraları söyləyəndə Hüseyn özü də, bütün zaldakılar da kövrəldi. Əksəriyyətin gözündə yaş görmək olardı:

Ay ata, ay ana, baş qaldırın siz…
Ay oğul, hardasan, başına dönüm…
Görən Aşıq Alı niyə gecikdi?..

Bu misraları xatırlayanda indinin özündə də hər dəfə kövrəlirəm.

Sonra özünü ələ aldı və şeri nikbin bir sonluqla başa çatdırdı:

Həmişə bahardı Hüseyn Arif!
Həmişə bahardı Hüseyn Arif!

Mən xeyli görüş keçirmişdim və görüş keçirdiklərimi idarə edə bilmişdim. Yəni görüş müəyyən ssenari əsasında qurulurdu. Hüseynlə mümkün olmadı. Hüseyn istədiyi kimi oldu və çox təbii alındı. Çoxlu maraqlı çıxışlar oldu – lentini əziz bir yadigar kimi qoruyub saxlayıram. Deyəsən, arxivdə də qalıb, çünki Hüseynlə bağlı verilişlərdə istifadə olunur. 3 saata qədər çəkiliş oldu. Onun bir saatdan bir az artığını montaj edib dövlət televiziyası ilə bir neçə dəfə verdilər. Amma bir şey məndə həmişə təəssüf doğurur: mən bütöv çəkilişi alıb saxlamadım. Daha doğrusu, o vaxt bunun nə qədər vacib olduğunu fəhm edə bilmədim, elə bilirdim ki, Hüseyn Arif əbədi yaşardır. Suallar verib danışdırmışdım, çox maraqlı və duzlu (özü demişkən) söhbətləri vardı

Bağda gəzdiyimiz zaman «Ölürəm» deyən bəzi yoldaşları təqlid edib deyərdi: «Adam bir dəfə xəstələnər, bir dəfə də ölər. Zəhləm gedir hər gün «ölürəm» deyən adamlardan».

Elə də oldu. Eşitdim ki, xəstələnib, rayonda xeyli yatıb, vəfat edib.

Təzəcə yol açılmış Cənubi Azərbaycandan gəlmiş səkkiz nəfər gənc şairlə görüş keçirirdim. Özlərini «Muğan şairləri» adlandırırdılar. Dəfnindən təzəcə qayıtmış Zəlimxan Yaqubu da dəvət etmişdim. Zəlimxan çıxış edərkən Hüseyn Arifin dəfni haqqında məlumat verməsini xahiş etdim. Göydə bir anlıq quşların da sanki qanad saxladığını söylədi. Ayağa qalxıb şairin xatirəsini hüznlə yad etdik.

İndi o vaxtdan 12 il keçib. Hüseynin Nizami muzeyində təşkil olunmuş 80 illik yubileyində (26 oktyabr) bu xatirələrdən bəzi epizodlar söylədim və üç-dörd gün sonra bunları qələmə almağı özümə borc bildim.

Hüseyn öz sağlığında xalqımızın təfəkküründə əfsanələşən şairlərdəndir. Ona görə də ölməzdir.

Boş vaxtlarımda Hüseynin aşağıdakı misralarını yada salmaqla xoş duyğular keçirirəm:

Bir ovuc torpaqdan dönən deyiləm -
Bir ovuc torpağa dönənə kimi.

Təkcə sevinc olsa, kim olacaqdım?
Qəm məni Hüseyn Arif eylədi.

Neçə yol qayanı yel ayaqlayıb,
Qaya yerindədir, yeldən nişan yox.

Hüseyn Arifəm, sənət aşiqi,
Məndən şeir istə, möhür istəmə.

Dağların gözünün yaşına baxma,
Şairlər çəkəni dağlar çəkməyib.

Aman, allah, katibələr qocaldı,
Qoca nazir qocalmır ki, qocalmır!

Getməz qulaqlardan Hüseyn Arif
Son aşıq sazını çalana kimi.

30.10.2004

AMEA-NIN MÜXBİR ÜZVÜ, PROFESSOR NİZAMİ CƏFƏROVUN AÇIQ MƏKTUBUNA CAVAB

Hörmətli Nizami müəllim!

Açıq məktubunu oxudum. Sonunda yazırsan ki, yəqin bu məktubla sizin xətrinizə dəydim, qanınızı qaraltdım.

Yox, xətrimə də dəymir, qanım da qaralmır. Mən bundan çox-çox ağır yazılar gözləyirdim. Çünki bizim cəmiyyətdə xeyli müddətdir ki, artıq heç bir müqəddəs şey qalmayıb. Kim nə istəyir, yazır. Həqiqəti danışırsan, səni söyüşlə qarşılayırlar.

Niyə mənim xətrimə dəymir? Ona görə ki, elə belə bir dissertasiyanın meydana çıxması əvvəldən - müdafiə vaxtından mənim xətrimə elə dəyib ki, artıq bu cür yazılar mənə zərər vermir və mən bu cəmiyyətdən hər şey gözləyirəm.

Mən əsəri oxuyan kimi, bildim ki, bu konsepsiya sənindir (Biz dostuq, həm də sən məndən xeyli cavansan, odur ki icazə ver, Siz-Biz eləməyim, sənə elə ərklə "sən" deyim). Hətta əsərdəki

üslub da sənindir. Fikirdən əlavə, üslub da. Fikirləşdim ki, ya bunu sən redaktə etmisən, ya da bu oğlan sənin üslubunu təqlid edir. Alimin orijinal üslubu olar.

Sənin çox "ciddi" bir alim (bunu bir neçə dəfə qeyd etmisən), "istedad" sahibi hesab etdiyin bu oğlan müdafiə edə bilmədi. Dissertasiyanın məzmununun lazımsız yerləri barədə danışdıqdan sonra mən ona bir neçə sual verdim: "De görək, ümumxalq Azərbaycan dili nə vaxt formalaşıb?" Dedi "Bilmirəm". "Bizim görkəmli tarixçi və dilçilər - Ə.Dəmirçizadə, M.Şirəliyev, Y.Yusifov, Q.Qeybullayev ümumxalq Azərbaycan dilinin təşəkkül tarixi barədə nə fikirdə olublar?" Dedi "Bilmirəm". Dedim: "A yoldaş, bəs sən öz ana dilinin (əgər bunu ana dilin hesab edirsənsə) təşəkkül tarixini bilmirsənsə, bütün bu türk dilləri haqqında necə ümumiləşmiş əsər yazırsan?" Cavab vermədi.

Mən onun zərərli ideyalarını öz əsərindən gətirdiyim faktlarla bir-bir izah etdim. Bu məqamda ona çox təkid etdilər ki, durub mənə cavab versin. Çox təkid etdilər. Amma o durmadı, imtina etdi. Mən onun bu cəhətini qiymətləndirirəm. O heç bir cavab verə bilməzdi. Və cavab vermədi də. O, yaxşı başa düşürdü ki, onu mən başa düşmüşəm. Yəni bir o bilirdi ki, nə yazıb, bir də mən bilirdim ki, o nə yazıb.

Sənə deyim ki, mən heç vaxt haqqı nahaqqa verməmişəm. Heç kimin də müdafiə edib alim olmasının mənə zərəri yoxdur. Amma bir var ki, dissertasiya zəifdir, dissertant savadsızdır, mənasız bir yazı yazıb, bir də var ki, onun yazdığı yazı xalqın tarixinin əleyhinədir, zərərlidir. Yadigar Əliyevin əsəri bu ikinci qrupdandır. Tam mənası ilə dilimizin və xalqımızın, bütün türk xalqlarının tarixini təhrif edən əsərdir. Özü də deyim ki, şüurlu təhrifdir.

Qəzetə ona görə çıxmalı oldum ki, sonra lentlə tanış oldum və gördüm ki, çıxışımın əsas hissələrini kəsiblər.

Amma sən gərək əvvəldən əsərin üstünə özünü məsləhətçi kimi yazdıra idin. Çünki oxuyan kimi üslub və ideya aydın olur.

İndi gələk Yadigar Əliyevə bəraət qazandırmaq istədiyin "ideyalarına".

Sən məni sənin yetirmənin yazdığını anlamaqda "naşı" hesab edirsən. Başa düşürəm, ayrı əlac yoxdur, gərək birtəhər keçirəsən.

Sənin başdan ayağa bütün əsas "dəlilin" bundan ibarətdir ki, bu Yadigar bala məndən çox-çox yaxşı, istedadlı və ciddi alimdir.

Bunların heç biri mənim üçün maraqlı və qorxulu deyil. Mənim bu dissertasiya ilə bağlı dörd mühüm iradım var. Həm də bunlar elə-belə elmi-nəzəri, texniki qusur deyil. Bunlar türk tarixinə qarşı düşünülmüş son dərəcə zərərli, təhqiredici və düşmənçiliyi aydın duyulan fikirlərdir. Elə fikirlərdir ki, onları bu vaxta qədər nə rus, nə fars, nə də erməni deyib.

Yazım uzanmasın deyə, sənin dediklərini xırdalamaq yox, yığcam şəkildə o fikirləri qeyd etmək istəyirəm.

1. Y.Əliyevin fikrincə, XI-XVII əsrlər arasında Yer üzərində "türki" adlanan vahid bir türk dili olub. O dilin daşıyıcıları XI-XVII əsrlər arasında dörd regional qrupa ayrılmışdır: "Orta əsrlər dövrü ümumtürk ədəbi dilinin - "türki"nin dörd regional təzahür forması (oğuz türkisi, qıpçaq türkisi, karluq türkisi, uyğur türkisi) müəyyən edilir…" (Avtoreferat, s.6) Müəllifin izahından və elə cümlədən də aydın olur ki, bunlar (oğuz türkisi, qıpçaq türkisi, karluq türkisi, uyğur türkisi) dil deyil, dil birdir - "türki"dir, bunlar bir dilin regional təzahürləridir. Lap bir cümləsini də verirəm: "Lokallaşmış etnokulturoloji mərkəzlərin hər birində funksional olan ədəbi-kommunikativ sistem orta türk dövrü ədəbi dilinin - türkinin regional təzahür formaları sayılır". (s.5)

Bu o deməkdir ki, məsələn, indi Azərbaycan dili Azərbaycanın şimal-şərq, şimal-qərb, cənub-şərq və cənub ərazilərində də işlənir. Y.Əliyev "türkilərin" demir, "türkinin" - deyir, yəni vahid bir dildən danışır. Amma həmin türkinin daşıyıcıları bütün türk ərazilərini əhatə edir.

Sən mənə irad tutmaq istəyirsən ki, mən "türki" anlayışını başa düşməmişəm. "Türki" bu dörd regionun dördünü də əhatə edirsə, burada başa düşməməli nə var ki?

Mənə məktubunda Y.Əliyevin bu fikrini müdafiə etmək üçün yazırsan: "Əgər siz güman edirsinizsə ki, I minilliyin sonu, II minilliyin əvvəlindən XVII əsrə qədər ümumtürk ədəbi dili (türki) olmayıb, onda gərək eyni müvəffəqiyyətlə düşünəsiniz ki, Avropada latın dili olmayıbmış".

Heç belə müqayisə olar? Bu o deməkdir ki, bütün Avropa xalqları latınlardan əmələ gəlib, latınlar olmasa, onlar da -

Avropa da olmazdı. Belə fikir olmaz axı. Avropanı indiki şəkildə nizama salan türk-hunlar olub və heç kəs iddia edə bilməz ki, bütün Avropa xalqları latınlardan əmələ gəlib. Əslində, latınlar da adi bir xalq olub və türklərlə yerli hindavropalıların birləşməsindən yaranıb. Latınlar Troya qəhrəmanı türk Eneyin nəsilləridir və türk olmasına baxmayaraq, Sezar onunla fəxr edərmiş. Müqayisə caiz deyil.

Müdafiəni bir az da gücləndirir, məktubda yazırsan: "türki"nin məhz qədim türk ədəbi dilinin birbaşa varisi olduğunu, XIII əsrdən sonra onun ("türki"nin) regional (Şərq, yaxud Türküstan, Şimal-Qərb, yaxud qıpçaq, Cənub-Qərb, yaxud oğuz) formalarının mövcudluğunu və həmin regional formaların nəinki XVII, hətta bəzən XIX əsrin sonu, XX əsrin əvvəllərinə qədər gəldiyini bilmirsinizsə (və bütün bunları bilənləri təhqir etməyə qalxırsınızsa), Sizə nə deyim…"

Mənim də daha oxucuya deməyə sözüm qalmır. Y.Əliyev yenə şükürlü imiş, XVII əsrədək deyirdi. Burda gəldi çıxdı XX əsrə. Amma şübhəsiz, mən köklü türk dillərindən danışıram, xırda azsaylı xalqlardan yox. Həm də mən heç kimi təhqir etmək fikrində olmamışam və etmərəm də. Yadigar çox şeyi çoxlarından yaxşı başa düşür və mərifətli oğlandır. Mən sadəcə onun fikrinin fakta əsaslanmadığını, ona görə də zərərli olduğunu demişəm. Amma bu sözlərdən aydın olur ki, Yadigar bu "ideya"nı sizdən köçürüb. Bu "ciddi tədqiqatçını" bəlaya salmısan, mən də düşüb üstünə sağa-sola çırpmışam. Amma bunu da bilmək olmur ki, bu cür "ideya" onun qanında var, yoxsa küyə düşüb. Hər ikisi pisdir.

Dərinləşdirə-dərinləşdirə gedirsən və oxucu üçün mövqeyin tam aydın olur: "Beşincisi, əgər siz güman edirsinizsə ki, sadaladığınız türk dillərinin müstəqil ədəbi formaları qədim dövrdə, eləcə də orta əsrlərdə mövcud idi, onda Sizin ədəbi dil anlayışından ümumiyyətlə xəbəriniz yoxdur".

Qədim dövrü demirəm. Amma o dövrdə də ədəbi dillər olmamış deyil. Əgər IX - XI əsrlərdə o cür məsnəvilər yaranıbsa, onların getdiyi yolun əvvəli də olub. Orta əsrlər isə danılmazdır. Qazi Bürhanəddinin, Nəsiminin, Füzulinin dili, o tərəfdə Nəvainin, bu tərəfdə Yunus İmrənin dili eyni dil deyil və həm də tam ədəbi dillərdir. Türk türk ola-ola "Dastani-Əhməd Hərami"ni

tapır, deyir ki, bu, azəri dilindədir, özü də XIII əsrə aiddir, demir ki, həm də türk dilindədir. Məhdimqulunun dili Vaqifin dili ilə eyni dil deyil. Erməni dili hindavropa ailəsinə aiddir, 5-ci əsrdə tarix kitabı çıxarıb ortalığa, erməni razı olarmı ki, deyəsən erməni dili XVIII əsrə qədər rus dilindən fərqlənməyib. Bəs nə üçün türkə gələndə çıxarırsan XX əsrə? Ədəbi dil nədir ki, mən onu bilməyim? Əlişir Nəvainin dili ədəbi dil deyil? Ədəbi dildirsə, Füzuli ilə heç bir fərqi yoxdur? Siz birlikdə bu cür ideya ilə nəyi sübut etmək istəyirsiniz, mən onu başa düşmürəm.

Beləliklə, XVIII əsrə qədər nəzərdə tutulan vahid "türki" ideyası uydurmadır. Türk xalqları ən azı 1-ci minilliyin ortalarından xalq kimi formalaşmağa başlayıb və 2-ci minilliyin əvvəllərindən bizim günlərə qədər tam müstəqil inkişaf yolu keçiblər. Qohum olduqları üçün (rus və ukrain dilləri kimi) oxşar əlamətləri də saxlayırlar. Xırda türk xalqlarından söhbət getmir.

Bizim Azərbaycan dilinin şanlı tarixi var. Feodalizmin ilkin inkişafı dövründə ümumxalq dili kimi formalaşıb. "Dədə Qorqud" onun VI-VIII əsrlərə aid misilsiz abidəsidir. Dilimizin yazılı nümunələrini XIII əsrə aid edirik. Amma min il (III - XIII əsrlər) xalq dili ədəbi dilsiz olmazdı. O, başqa məsələdir ki, onun düşmənləri çox olub, bütün mövcud sənədlərini məhv edib və ya gizləyiblər, yandırıblar. 704-cü il Bərdə hadisələrini yadına sal. Hamılıqla yığılıb bu dilin tarixini üzə çıxarmaq əvəzinə, onun tədqiq olunmuşlarını da heçə çıxarmaq istəyirlər. Qeyd etməliyəm ki, indiyə qədər türk (Azərbaycan) dilinin və tarixinin əleyhdarları bir növ üstüörtülü işləyirdilər. Amma indi artın açıq hücuma keçmişlər. O mənada yada salıram ki, bu, dövlətin dilidir, qorumalı və öyrənməliyik. Vaqifin dili elə Füzulinin dilidir. İki əsr ərzində dilimizin nə fonetikasında, nə leksikasında, nə də qrammatik quruluşunda anlaşılmaz dəyişikliklər baş verməyib və verə də bilməzdi. Yalnız üslub fərqləri var. Və bir də təbii olaraq hər bir dil səlisləşmə, zənginləşmə yolu ilə inkişaf edir. Nəsiminin elə misraları var, elə bil, bu gün deyilib. Dil - dildir, ondan Qurbani də istifadə edib, eyni dövrdə Füzuli də. Bir tərəfdən deyirsən ki, V əsrdə Azərbaycan xalq dili formalaşmışdı, o biri tərəfdən də deyirsən ki, XIX əsrə qədər "türki" adlı bir (lap ədəbi

olsun) dil var idi. Xalq dili varsa, onun ədəbi forması elə hamının (bütün xalqın) qəbul etdiyi formadır.

Deyirsən ki, Y.Əliyev çox ciddi tədqiqatlar aparıb və qədim dövrü səndən (yəni məndən) yaxşı bilir. Bu məqamda Yer üzündəki türkləri yunanlarla müqayisə edib yazırsan: "Yer üzündə bir yox, bir neçə qədim türk ədəbi dili olub(sa), onda gərək eyni müvəffəqiyyətlə düşünəsiniz ki, həmin Yer üzündə bir neçə qədim yunan, qədim rum ədəbi dili də olubmuş". Ekvator boyu yayılmış bu qədər türkü yunanlarla müqayisə etmək olar? Yunanların nə ərazisi, nə sayı var ki, onları türklərlə müqayisə edirsən?

Yazırsan: "…Siz gərək bileydiniz ki, dünyada heç bir dilin diferensiasiyası ədəbi (yazılı) dillər səviyyəsində deyil, ləhcələr, xalq danışıq dilləri səviyyəsində gedir"

Bəs mən elə bunu deyirəm də. Sənin yetirmən deyir ki, XVII əsrə qədər "türki" adlı vahid bir dil olub, həmin əsrə çatanda tənəzzülə uğrayıb, məhv olub. Yerdə 300 il qalır: 18, 19, 20-ci əsrlər. 300 ildə dil yaranar? Yaranmazsa, deməli, hazırda Yer üzündə yalnız türk ləhcələri var, heç bir türk dili yoxdur. Bu cür inkarçılıq sizə nə verir? Mən deyirəm ki, türk xalqları var, hər birinin də öz tarixi, öz ədəbi dili var. Bunlar son 300 ilin məhsulu deyil, uzun yolun nəticəsidir. Onlardan biri də Azərbaycan dilidir ki, ümumxalq dili şəklinə 1500 il əvvəldən düşüb. "Dədə Qorqud" bunun abidəsidir və çox kamil abidəsidir, onun da son təkmil forması ən azı 1500 il əvvələ aiddir. Bu dil Qazinin, Nəsiminin, Kişvərinin, Füzulinin, Şah İsmayılın, xalq şeirinin süzgəcindən keçib, cilalana-cilalana bizə çatıb. Siz niyə olanı götürmürsünüz, olmayanı uydurursunuz? Axı bu olanlar bizim xeyrimizədir!

Yazırsan ki, "Y.Əliyev öz tədqiqatını kifayət qədər möhkəm elmi-nəzəri əsaslar üzərində aparmışdır". Elə mənə xoş gəlməyən odur ki, Y.Əliyevin tədqiqatının heç bir elmi-nəzəri zəmini və əsası yoxdur. Hər şeyi bir tərəfə qoyaq. Bizim sovet dövrü yaxşı elmimiz və klassik alimlərimiz olub - Ə.Dəmirçizadə kimi. Y.Əliyev o cür alimlərə əsaslanmaq əvəzinə, kimə əsaslanır? Sən özünü dil tarixçisi sayırsan ki, hələ bir Y.Əliyev kimi alimlər də yetirəsən?

Mən onu çoxdan bilirəm ki, sənin heç bir fakta əsaslanmayan

konsepsiyan var və onu elmi-nəzəri təhlil əsasında yox, fikirləşib qurmusan.

Ümumxalq dili varsa, o, asanlıqla ədəbiləşə bilər. Əsas xalqdır, tayfa dillərinin təmərgüzləşib xalq dilinə çevrilməsi. Ə.Dəmirçizadə, M.Şirəliyev, Y.Yusifov, Q.Qeybullayev və başqaları ilə yanaşı, sən özün də bir yazında bu nəticəyə gəlmisən ki, bizim xalq və onun dili artıq V əsrdə mövcud idi. Belə olan surətdə XVIII əsrə qədər uzanan "türki" nədir?

Bu tərəfdə - qərbdə, Azərbaycanda türk mənşəli bir xalq var, özün deyirsən, o biri tərəfdən də müdafiə edirsən ki, VI-X əsrlərdə bir dənə "qədim türk ədəbi dili" olub. Yəni Azərbaycan ərazisində yaşayan türklərlə Altayda yaşayanlar bir ədəbi dildə danışıb, yazıb?

Mən demirəm ki, hər bir türk dilinə qədim tarix yaradaq. Deyirəm ki, hər bir türk dilinin öz tarixi var və hər bir türk xalqı öz tarixini araşdırır. Nə qədər qədim türk xalqı olsa, bir o qədər yaxşıdır və bunun türkü istəməyənlərdən başqa, heç kimə zərəri yoxdur. Lakin bu əsərdəki kimi, biz heç bir fakta əsaslanmadan bütün türk xalqlarını regionlara səpələyib hamısının bir dildə - "türki"də danışdığını iddia etsək (necə ki dissertasiyada edilir), bu həm yanlış, həm də zərərli olar. Bizim respublikamız Azərbaycandır. Dilimiz Azərbaycan dilidir. Azərbaycan dili türk dilləri ailəsinə daxildir. Bu ailənin bu günə qədər neçə təsnifi verilib. Yaxşı, əgər XVIII əsrə qədər bu dillər yoxdursa, 300 ildə də dil yaranmazsa, bu dünya türkoloqlarına nə düşüb ki, dünyanın ən geniş yayılmış dil ailələrindən biri kimi, türk dilləri ailəsindən danışır və onu təsnif edirlər. S.Y.Malova mən deməmişdim ki, bu dillərin təsnifini versin.

Ə.Dəmirçizadə M.Kaşğarinin "Divan"ını nəzərdən keçirərək bu qənaətə gəlib ki, M.Kaşğari müqayisəli-tarixi metodu X1 əsrin türk dillərinin müqayisəsi əsasında avropalılardan səkkiz əsr əvvəl kəşf edib. Bu, yaxşıdır, yoxsa aşağıdakı sözlər:

"…Siz ciddi dil tarixçisi olmadığınıza görə, "Qədim Azərbaycan dilindən" danışırsınız… Əslinə qalanda, orta əsrlərin sonu, yeni dövrün əvvəllərinə qədər (XVII-XVIII əsrlər) bu və ya digər müasir (milli) türk ədəbi dilindən danışmaq düzgün deyil…"

Afərin! Bundan aydın fikir olmaz. De, qoy hamı eşitsin, bilsin ki, mən nə üçün bu qədər uzun danışıram.

Mənim "ciddi" dil tarixçisi olmadığımı çoxdan bilirəm. Azərbaycan dili tarixinin qədimliyinin əleyhdarları məni qəbul etmirlər. Bir mən yox, millət də onları qəbul etmir. Bu, aydındır. Amma sənin konsepsiyan bu sözlərlə lap kəlləçarxa vurdu. Öz yazdığını bir də oxu: "III-V əsrlərdə Azərbaycan dili formalaşır - bu proses türk tayfa dillərinin mərkəzləşməsi hesabına gedir. VII - XI əsrlərdə Azərbaycana gələn türk tayfaları artıq müxtəlif tayfalarla deyil, müəyyənləşmiş xalq mövcudluğu ilə qarşılaşır". Bəlkə peşmansan bu sözlərə görə? Xalq və xalq dili varsa, onun şifahi və yazılı formalarının olması çətin və uzunmüddətli deyil. Yəni deyirsən, V əsrdə formalaşan xalq dilinin XVIII əsrə qədər ədəbi forması olmayıb?

Mən başa düşmürəm ki, bəs bu zalım uşaqları - Nəsimi, Füzuli kimilər hansı dildə yazıblar? Yəni deyirsən ki, onlar nə yazıblarsa, eyni dərəcədə çuvaşa, başqırda, qırğıza, uyğura da aiddir? Allah sizə insaf versin! Vallah, daha artıq sözüm yoxdur.

Deyirsən ki, "M.P.Vaqifin dili M.Füzuli dilinin davamı deyil, Azərbaycan xalq dilinin milli ədəbi dil səviyyəsinə qalxmasının nəticəsidir". Düz deyil, Vaqifin dili elə Füzulinin dilinin davamıdır. Yalnız üslub fərqləri var. "Milli" dedikdə, - bir var xalqın xarakterinə uyğun, özünəməxsus dili, bir də var, xalq dilindən sonrakı mərhələ. Birinci termini dilin bütün inkişaf mərhələlərinə aid etmək olar, ikincisi kapitalizmin inkişafı ilə bağlıdır. Deyəsən, bu ikinci mənada işlədirsən. Vaqifin dövründə Azərbaycan xalqı xanlıqlara parçalanmışdı. Odur ki milli dil ya Vaqifdən əvvəl başlayıb, ya da sonra. Bizim fikrimizcə, ölkənin mədəni-iqtisadi, ərazi birliyi dövründə - XVI əsrdə başlamış, ləng gedən bu proses Vaqif dövründə daha da ləngimiş, sonralar sürətlənmişdir. Bu mənada M.P.Vaqifin dili elə M.Füzuli dilinin davamıdır

Yəni deməyim odur ki, dil katastrofik inkişaf yolu keçmir ki, bir əsrdə tam dəyişə. Dil elə həmin dildir, istifadə edənlərin üslubu fərqlidir. Yenə deyirəm, dil yalnız səlisləşmə, təkmilləşmə, zənginləşmə yolu ilə irəliləyir.

Bütün bunlar birinci məsələ.

2.Mənim ikinci çox ciddi iradım ondan ibarətdir ki, Y.Əliyev XI əsrə qədər Azərbaycanda türk görmür, Azəçrbaycan ərazilərinə türklərin XI əsrdən yayıldıqlarını iddia edir.

Deyəsən, onun əsərinin bəzi yerlərinə sən də baxmamısan. Odur ki yazırsan ki, allahın olsun, Yadigar harada deyib ki, XI əsrə qədər Azərbaycanda türk olmayıb?

Mənimlə bir söhbətində dostum professor Məhəmmədəli Qıpçaq da and-aman elədi ki, Yadigar elə söz yazmayıb.

Budur, avtoreferatın 31-ci səhifəsində yazdığı sözləri olduğu kimi verirəm:

"Türkinin işlənmə diapazonu əvvəlki yekcins monotürk mühitindən qeyri-türk mühitlərinə doğru irəliləyir. Türki Qərbi Avropada, Rusda, Balkanlarda, Kiçik Asiyada, İraqda, İranda, Hindistanda, Çində fərqli linqvoetnik mühitlərə nüfuz edir".

Bunu diqqətlə oxuyan hər kəs onun nə demək istədiyini başa düşə bilər. Amma aydın olsun deyə, bəzi ifadələrini izah edirəm.

X1 əsr nəzərdə tutulur. Türkinin "əvvəlki yekcins monotürk mühiti" o deməkdir ki, türklər kompakt halda bir yerdə, Altay zonası və ətraf ərazilərdə yaşayırlar; "qeyri-türk mühitlərinə yayılır" o deməkdir ki, elə yeni mühitlərə yayılır ki, orada türk yaşamır, hansı xalq (erməni, fars, ləzgi, talış və s.) desən var, ancaq türk yoxdur; bu fikri son fraza ilə bir də möhkəmlədir: "fərqli linqvoetnik mühitlərə nüfuz edir"; bu yenə o deməkdir ki, türklər özlərindən fərqli dil mühitlərinə, fərqli etnik mühitlərə yayılır; cümlənin içərisində konkret olaraq haralara yayıldığını göstərən toponimlər də var. Bizi İran və İraq maraqlandırır. Deməli, türklər Altayda toplu yaşadıqları halda, X1 əsrdə türk olmayan ərazilərə, fərqli türksüz mühitlərə, yəni İrana, İraqa yayılır.

İndi burada İran və İraqı aydınlaşdıraq. İran deyəndə nəyi, haranı nəzərdə tutur? Azərbaycanı nəzərə almasaq, türklər XI əsrdə İranın harasına girə bilərdilər? Deməli, "Azərbaycan" əvəzinə "İran" deyir. İraq ərazisindəki türklər isə Azərbaycanın sol qolunun kəsilib İraqa verilən hissəsidir.

A kişi, Attila Dunayın deltasında dəfn olunub (er.453-cü ili), Frakiyanı, Orlean şəhərini, İtaliyanın bir sıra şəhərlərini işğal edib, Konstantinopola qədəpr yaxınlaşıb. Bura Qərbi Avropa

deyil? Rusdan keçməyib? Balkanlardan çox uzaqdır? Nə üçün bunlar unudulur?

Mənim elə bir savadım olmasa da, sözü başa düşürəm və bəlkə 100-dən artıq adamın qolundan tutub yazısına kömək etmişəm.

Bu da mənim Allahım! Di arxayın ola bilərsən. Mən əlimdə fakt olmasa, danışmaram, yazmaram. İraq-türkman əhalisinin öz türk tarixləri barədə yazıları var, türklərin orada 1-ci minilliyin əvvəllərindən olduğunu qeyd edirlər, amma düz bilmirlər, əslində, onlar Azərbaycanın köküdür, şumerlərin qalıqlarıdır və tarixləri çox uzundur.

3.Y.Əliyev "Kitabi-Dədə Qorqkd"un XI əsrə aid olduğunu söyləyir: "…behişt mənasında *uçmaq* sözü həm XI əsr oğuz türkisində - "Kitabi-Dədə Qorqud"un dilində, həm də… "Divani-lüğət-it-türk"də müşahidə olunur". (s.5)

Bu, təsadüfi deyil. Müəllif "məntiqlə" danışır: madam oğuzlar Azərbaycana XI əsrdə gəlib, Azərbaycanda "Kitabi-Dədə Qorqud" haradan ola bilərdi? Deməli, həm yuxarıdakı fikrini bir də əsaslandırır, həm də deyir ki, bu vaxtdan (XI əsr) o tərəfə abidən olmayıb. Dövlətin tədbiri bir yana, hələ Ə.Dəmirçizadə 50 il bundan əvvəl deyib ki, "Dədə Qorqud" Səlcuq oğuzlarının deyil, çox qədimdən Azərbaycanda olan yerli oğuzların dastanıdır. Homerin poemaları ilə müqayisə göstərdi ki, "Dədə Qorqud"un 1300 yox, azı 3300 il yaşı var və həm də Orta Asiyada yox, Ön Asiyada - yunanların qonşuluğunda yaranıb. Onun dedikləri xalqın mədəniyyət tarixinə xidmətdir, yoxsa onu baltalamaqdır? Və eyni zamanda məqsəd nədir?

Yazı uzanır, odur ki, qısa verirəm sizin fikri: "Azərbaycan elminin bu vaxta qədərki nailiyyəti" deyəndə Siz Altay dağları ətəklərində mövcud olan qədim türk xaqanlığını "yaradan tayfaların Azərbaycandan getdiyi" "kəşfinizi" nəzərdə tutursunuzsa, … Azərbaycan elmi ictimaiyyətinə hörmətsizlik edirsiniz".

Ruslar 5-ci sinif şagirdləri üçün xəritə buraxıblar, təkrar nəşr olunur. O xəritəni mən yazının son nömrəsində verdim, amma bir az yaxşı görünmür. Orda 8 min il əvvəl əhalinin harada olduğu, 5 min il əvvəl haraya qədər yayıldığı göstərilir. İnsan Ön Asiyada -

Aralıq dənizi hüdudlarında, Avropanın, Asiyanın və Afrikanın qovuşduğu ərazidə yaranıb, sonralar belə adlandırılan hindavropalılara, türklərə, semitlərə və başqa ailələrə məxsus protodillər burada təcrid olunub və Yer kürəsinə buradan yayılıb. Türklər qərbə (etrusklar) və ekvator boyu şərqə buradan yayılıb. Rusların 5-ci sinif şagirdləri bunu dərk edir, başa düşür, amma bizim doktorlar və doktor olmaq istəyənlər bunu dərk etmir (və ya dərk etmək istəmir). Bu, kəşf deyil, dünya elmindən öyrənib gəncliyə düz yol göstərməkdir. İndi mən neyləyim ki, sən də, yetirmən də bunun belə olmasını istəmirsiniz? Ön Asiyada e.ə.III-II minilliklərə aid onomastik leksika (antroponimlər, etnonimlər, toponimlər) Orta Asiyada yalnız bizim birinci minillikdə özünü göstərir. Bax gör əhali haradan hara gedə bilərdi? Qeybullayev ona görə böyükdür və heykələ layiqdir ki, o, Ön Asiya onomastik leksikasının bütün layını Orta Asiyada qaldırıb - 2, 3 min il sonra fərqi ilə.Altay türkün beşiyi deyil. Altayın Altay adını da türklər Ön Asiyadan aparıblar. 8 min il, 5 min il əvvəl Azərbaycanda türklər və ümumən insan məskunlaşmış olanda Altayda hələ heç adam yaşamırdı (xəritəyə bax).

Məktubda yazırsan: "Siz "tənqid" etdiyiniz əsərin mahiyyətini anlamaq üçün tələb olunan elmi-nəzəri ədəbiyyatdan - baza materialından ümumən bixəbərsiniz". Doğrudur, bixəbər idim, Yadigar Əliyevin yazdıqlarından bir qədər öyrəndim. Amma nə qədər öyrənsəm də, sənin dediyin belə bir "nəticə"ni çıxara bilmədim: "Sovet dövləti kimi, "türki" tənəzzül edəndə həqiqətən məhv olur, bir sistem olaraq aradan qalxır, yəni heç bir dilə, şivəyə parçalanmır. Bununla belə sovet quruluşunun bir sıra standartları müstəqil postsovet dövlətlərində mühafizə olunduğu kimi, "türki"nin (onun regional formalarının) müəyyən struktur modelləri də milli türk ədəbi dillərində qorunub saxlanır".

Mən bu sözləri oxuyanda çox şükür elədim. Ona şükür elədim ki, mən olsa-olsa baza ədəbiyyatından xəbərsizəm. Amma bu sözlərdən aydın olur ki, sən lap dilin inkişaf qanunlarından bixəbər imişsən. Necə yəni bir əsrin içərisində türki ölüb getdi və tamam sıradan çıxdı? Necə yəni onun bəzi strukturları qaldı? Özün başa düşürsənmi nə deyirsən? Sənin dediyindən belə çıxır ki, "türki" qapandı, məhv oldu, hansı baza əsasında isə türk dilləri

yarandı, amma "türki"nin "müəyyən struktur modelləri" də bu dillərə daxil oldu. Bu, yeni nəzəriyyədir? Bu cür dil yaranar? Hər bir dilin inkişaf yolu var. Dilin daxilində şivələr yetişir. Yavaş-yavaş dialektlər yaranır. Dialektlər ləhcə səviyyəsinə gəlir, ərazi etibarilə fərqli mühitlərə düşür, yüz illər yox, min illər ərzində müstəqil dillərə çevrilir. Yer üzərində vahid dil yarandığından qırx min il ərzində fərqlənmə yolu keçən, dil ailələrinə ayrılan ulu dilin əsas strukturları bütün dil ailələrində qalır. Bax gör qohum sayılmayan (əslində, bu sözlər son minilliklərə və şərti şəkildə aiddir, çünki bütün dillər bir kökdəndir və hamısı qohumdur) dillərdə nə fərq var? Söz birləşməsi, sadə cümlə, mürəkkəb cümlə, sintaktik bütöv, sintaktik əlaqələr - az-çox fərqlə bütün dillərə məxsusdur. Müəyyən dərəcə fərqli yol keçən dillər də var. Bir əsrdə, XVII əsrdə türki öldü, yeni dillər yarandı? Nə qədər mənasız söhbətdir! "Türki"nin özü də mənasızdır, onun təsəvvür etdiyiniz bu "inkişaf" və "ölmə" yolu da. Oğlanın savadına gəldikdə, etiraz etmirəm, o, çox böyük mütəxəssisdir, amma heç bir şey öyrənmədiyi üçün adi suallara da cavab verə bilmədi və "kəşfləri" də türk tarixi, Azərbaycan dili tarixi üçün əsassız və hədyandır. Adam obyektiv olar, on dəfə peyğəmbər üçün ağlayanda, bir dəfə də Yezid üçün ağlayar. Hər şeyi birtəhər gənc kadrın lehinə yozmaq olmaz. Sən onu yanlış bir konsepsiya ilə əyri yola salmısan, bu cür sözlərlə çıxarmaq istəyirsən. Bunlar elə-belə məsələlər deyil. Milli məsələdir. Ayrı söhbət olsa, mən sənin kadrına beşəlli hörmət edərəm. Amma milli məsələyə gəldikdə dostluq da yox olur, başqa şeylər də. Bu oğlan hardan öyrənib ki, orta əsrlərdə başqırd, çuvaş, qazax, tatar dillərində yazı olmayıb? Bu xalqlar gözüyumulu gəliblər dünyaya? Puqaçovla birlikdə uzun müddət azadlıq müharibəsi aparan Başqırd xalqının qəhrəman oğlu, Ufada hekəli olan Salavat Yulayevin şeirləri əsər deyil? Mən bunların tədqiqi ilə məşğul olsam, çoxlu fakt verərdim. Vaxım yoxdur. Bir var, "Kutadğu bilik" kimi nadir və qədim əsərlər, bir də var sonrakı dövrdə yaranmış cari ədəbiyyat. Sənin yetirmən birincisini öyrənib, ikincisini yox. O da hamıya məlumdur.

4.Y.Əliyev yazır: "İnkişafın sonrakı stadiyasında… (yəni X1 əsrdən sonra - Q.K.) mədəni tarixi proseslərin məkanı

Türküstana keçir və Volqaboyuna (oradan Şərqi Avropaya), Xəzərin şərqinə, İrana, oradan da Bizansa yayılır".(s.8)

Y.Əliyev avtoreferatda iki yerdə - iki cümlədə "Azərbaycan" sözü işlədə bilərdi. Onların hər ikisində (birini yuxarıda vermişik, avt. s.31) *Azərbaycan* sözü əvəzinə "İran" işlədir. Niyə? Yəni bizim bu şanlı vətənimizin adı o qədər təhqiramizdir ki, dilinə gətirmək istəmir? Azərbaycanın çox böyük tarixi var. Yer üzərindəki az-az ölkələrin 5 min illik tarixi var ki, onlardan biri də Azərbaycandır. Bunu məqalədə izah etmişəm, bir də qayıtmaq istəmirəm. Amma məni ağrıdan odur ki, bu, təsadüfi yox, şüurlu bir prosesdir.

Mətbuata, televiziyaya baxın: "Dədə Qorqud" gözdən salınır, Nizami haqqında lazımsız sözlər deyilir. Tariximizin heç kimlə müqayisə edilməz müqəddəs şəxsiyyəti Şah İsmayıl gözdən salınır. C.Məmmədquluzadə, Ü.Hacıbəyov və b. haqqında nalayiq fikirlər söylənilir. Bu, bizim ədəbiyyat və mədəniyyət tariximiz. Xalqımızın tarixi İqrar Əliyev tərəfindən 50 il yanlış izah edilib. İndii də dilimizin tarixi. Gətir çıxart o yerə ki, sənin dünənə qədər nə dilin, nə ədəbiyyatın, nə mədəniyyətin, nə də tarixin olub. Azərbaycan 7 yerə parçalanıb: yarısı İraq ərazisində, yarısı İran, bir payı Türkiyə, bir payı Gürcüstan, iki payı Ermənistan, bir hissəsi Rusiya ərazisinə qatılıb. Heç olmasa, bu qalan balaca parçanı qorumalıyıq.

Xalqların tarixini zorla qısaltmaq yox, faktların verdiyi imkanlar əsasında olduğu kimi dərinləşdirmək faydalıdır. Camaatın çoxu elə bilir ki, dünya elə indi yaranıb. Daha düşünmür ki, X1X əsrdə Mirzə Fətəlinin başa düşdüyünü onlar başa düşməkdən çox uzaqdırlar. Başa düşmürlər ki, Nəsimi dönməzliyi və yüksəkliyi onların 99 faizində yoxdur. Başa düşmürlər ki, ikinci Nizami təfəkkürü 850 ildə hələ görünməyib. Başa düşmürlər ki, Şah İsmayıl əqidəsi və saflığı 500 ildir, bir daha müşahidə olunmur.

Babaların xidmətini danmaq və azaltmaq olmaz."Türk" adlandırdığımız insan yer üzünün hindavropalılarla, samilərlə bərabər ən qədim insanıdır.Tarixi düzgün vərəqləyən hər kəs görə bilər ki, quldarlıqdan bu yana cəmiyyət tarixinin inkişafında türklərin xidməti daha çoxdur.Amma bir bədbəxtlikləri var ki, hakimlərinin

beynində quldarlıq əlamətləri hələ də güclü şəkildə qalmaqdadır.

Beləliklə:

"Türki" adlı 7 əsrlik vahid dil anlayışı uydurmadır.

Yer üzərində insandan türk qolu ayrılandan Azərbaycan türk yurdudur.

"Kitabi-Dədə Qorqud" XI əsrin abidəsi deyildir, Azərbaycanda yaranmışdır və aşınmalarla ən azı 3300 illik tarixi vardır.

Yazılı mənbələr əsasında Azərbaycanın azı 5000 illik dövlətçilik tarixi vardır və heç bir qonşu dövlətin tarixini onun tarixi ilə müqayisə etmək olmaz.

Beləcə…

Mənə xoş oldu ki, biz fikir mübadiləsi etdik və bir sıra məsələlər daha da aydınlaşdı.

Hörmətlə:
Qəzənfər KAZIMOV
Filologiya elmləri doktoru, professor
05.11.07

RASƏTİN “FEDKA” POEMASI VƏ ŞİKAYƏT MƏKTUBU

Sənədlərlə və Qasımov Rasətin "Fedka" poeması ilə tanış olduq.

Söhbət ondan ibarətdir ki, Məhərrəmov Fyodr (vəsiqəsində belə yazılıb) Əhməd oğlu poemada baş qəhrəmanın simasında öz surətini görüb və qəhrəmanın xarakteri ilə bağlı mənfi xüsusiyyətləri özünə çıxıb. Əvvələn, bu, bədii əsərdir, adam əsərdə öz surətini görürsə, deməli, əsər real həyatdan götürülüb. Əsərdə Şuşa, şuşalılar və şəhərin işğalı ilə bağlı xatırlamalar vardır, ola bilər, bu cəhət də Fyodrın əsərdə öz surətini görməsinə təsir edir. İkincisi, lap bütün bunlar prototip yaxınlığı üçün əsas versə də, əsərdə elə bir təhqiramiz söz və ya epizod yoxdur.

Gələk iddiaçı tərəfindən misal göstərilən misralara.

İddia ərizəsində Fyodrın "şərəf və layəqətinin alçaldılması" ilə bağlı misralar dırnaqda verilmişdir. Biz onları olduğu kimi saxlamaqla yalnız nömrələyirik.

İddiaçı şərəf və ləyaqətlə bağlı iradlarını aşağıdakı 8 bənd-parçada görür.

1.Bığlarından Stalinə oxşayır,
Qarnından Çörçilə.
Yerişindən, elə bil ki, Ruzveltdir.

Bu bənddə Petka Stalinlə, Çörçil və Ruzvelt ilə müqayisə edilir. Çox nahaq yerə. Bu, şairin müqayisə vasitələrini düzgün seçə bilmədiyini göstərir. Stalini, Çörçili, Ruzvelti Petka kimi adamlarla müqayisə etmək Petkanı yox, o böyük şəxsiyyətləri təhqir etməkdir. Onlar çox nəhəng tarixi şəxsiyyətlərdir və hər üçü həqiqətən bəşərin nəhəng övladlarıdır. Stalin - bu sadə gürcü oğlu o böyüklükdə Sovet torpağını faşizm taunundan xilas etdi, amma

Petka kimi adamlar Şuşanı döyüşsüz təslim ediblər. Ruzvelt ABŞ-ın üçüncü dəfə xalq məhəbbəti ilə seçilən yeganə prezidenti olub, ayaqları şikəst idi, Petkanın yerişini onun kolyaska yerişi ilə müqayisə etmək olmaz. Burada müqayisə edilən şəxs yox, müqayisə obyektləri təhqir edilmişdir.

2. Babalı deyənlərin boynuna,
Deyirlər,
Guya
92-də,
Mayın 3-də,
Ya bəlkə də 4-də
Şuşada bəzi adamlar
Nəyisə dərk ediblər,
Maşınları yükləyiblər,
Yüklərini bərk ediblər,
Mayın 5-də
Əl-ələ tutub
Şuşanı tərk ediblər.
Mayın 6-da
Bakıya yetişiblər.
Mayın 7-də
Başçının tapşırığıyla
"hop" eləyib
Bizim binadakı
Mənzillərə düşüblər.
Mayın 8-də nə olub -
bilirsiniz.
Ay lotular, görürəm,
bığaltı gülürsünüz.

Bunlar düz deyil?

Mayın 8-də nə olub - onu biz bilmirik. Amma bu parçada həqiqətdən kənar bir misra da yoxdur. Bu, bir həqiqətdir ki, Şuşanın əhalisi Şuşanı döyüşsüz tərk edibdir. O vaxta qədər nə vuruşublarsa, o, ayrı məsələ. Amma ermənilər Şuşanı Şuşa əhalisi ilə döyüşə-döyüşə almayıb, əhali şəhəri boşaltdıqdan sonra qorxa-qorxa şəhərə daxil olublar. Başçı o zaman harada idi? Niyə

əhalini səfərbərliyə almırdı? Qadınları və uşaqları çıxarmaq olardı (əslində, heç o da lazım deyildi), 16-17 yaşdan yuxarı bütün kişilər silahlanıb şəhəri qorumalı idi. Əgər Şuşanın kişi əhalisi (hələ Həcər kimi qadınları demirəm) silahlanıb şəhərin keşiyində dursa idi, bütün Ermənistan tökülüb gəlsə idi, şəhəri ala bilməzdi. Amma müəllif düz deyir: Şuşa əhalisi hansı yaramazın göstərişi ilə isə şəhəri tez tərk edibdir.

Böyük bir ordu düşmənlə vuruşub, qırılıblar, cəmi 8-9 adam salamat qurtara bilib, qaçıb Şah İsmayılın yanına gəliblər. Şah İsmayıl vəziyyəti öyrənən kimi göstəriş verib ki, onların hamısını edam etsinlər. "Axı sənin yolunda vuruşublar, sənə pənah gətiriblər" dedikdə belə cavab verib: "Torpağı düşmənə verib qaçmaq olmaz. Onlar gərək o torpaqda ölə idilər və mən gərək onların meyitlərini aparıb o torpaqlarda basdıram".

Şuşalılar da vuruşublar, şəhid olan da, əlil olan da çox olub. Amma Şuşa Şuşa şəhərinə layiq şəkildə qorunmayıb, hakimiyyət davasının qurbanı olub. Şair də bunu deyir, lakin çox zəif deyir. Vaxt gələcək, Şuşanın kimlərin xəyanəti ilə işğal olunduğu daha ətraflı izah olunacaqdır.

3.Və o vaxtdan
Bizim binanın qaçqınları
Şuşa dərdini
Unutsunlar deyə
hərə
bir şeyə salıb meylini.
Kimi binanın zirzəmisinə,
Kimi binanın damına,
Kimi binanın həyət-bacasına.
…Petka da liftə.

Burda nə var ki! O vaxtdan hərə bir işlə məşğuldur. Şuşa əldən gedib, amma oğul var, uşaq var, hərə bir işlə məşğul olmalıdır. Petkaya da liftə yiyələnmək düşüb. O birilərindən elə şikayət yoxdur. Amma hiss olunan budur ki, Petka liftdən düzgün istifadə etmir, "yersiz gəldi, yerli qaç" eləyir, binanın yerli sakinlərinin mərtəbəsində lifti bağlayıb, 5 gündən 3 gündən bir

sırtıq bir uşağı göndərib pul yığdırır və s. Burda təhqir yox, dövlət idarələrinin laqeydliyi, məsuliyyətsizliyi və vətəndaşların haqsız incidilməsi var və bu işdə qaçqın olmasına baxmayaraq, Petka kimilərin də günahı çoxdur - zorakılıq elementləri var.

Budur, həmin uşaq:

4.Uşaq, deyəsən, əsl şuşalıydı.
Dedi:
On yeddi min deyir
Petkanın xalası.
Dodağım qaçdı,
Uşağın cavabı keyfimi açdı.
Bakıda əmələ gələn
Bir xarı çiçək…
Dedim bəlkə
Xalama sataşır,
Xalası göyçək.

Bu hərəkətdən utanmaq, uşağı pis yola saldıqlarından xəcalət çəkmək əvəzinə, bunu mətbuata çıxaran insanı məhkəməyə verirlər. Düşünmək lazımdır.

5.Petkaya söz demək olmur.
Məlum olur ki,
Nizami Bəhmənov da şuşalıdır,
Ramil Usubov da,
Hələ desən,
İlham Əliyev də.
İndi igidsən,
Petkanın
Qapıya qaçırdığı uşağa
Pul vermə.
Və sonra
Arxayın otur evdə.

Su boğaza çıxanda adam, deyir, balasını da ayağı altına almaq

istəyər. Görün həmyerlilər, qohumlar bir binaya toplaşıb, yerli bir sakinin canını necə boğazına yığıblar! Binəqədi polis rəisi şuşalı, qaçqınların başçısı şuşalı, buna göz yuman Ramil Usubov da onlarla həmfikir. Bəs bu insan neyləsin? İlham Əliyevin belə xırda qonşu münaqişələrindən xəbər tutmağa, təbii ki, vaxtı yoxdur. Heç yerdə də ərizəyə, şikayətə baxılmır. Bəs bu insan neyləsin? Köçüb getsin, yoxsa ölsün? Qaçqına dövlət hörmət edir. Bu o deməkdirmi ki, onlar düşdükləri ərazidə fironluq etməlidirlər? Qanunla qaçqın olan kəs başını aşağı salıb öz kargüzarlığı ilə məşğul olmalı və hər dəqiqə fikirləşməlidir ki, o öz vətəninə necə qayıda bilər. Daha düşdüyü yerdə qaçqın statusundan sui-istifadə etməməli, bütün qohum-əqrəbanı, yerliləri bir fağırın üzərinə qaldırmamalıdır.

6.Başçının yası düşmüşdü,
Və Başçı
Min bir fikrin içində.
Allah bilir,
hansı günün,
hansı ayın,
hansı ilin içində
üz-gözündə dərdi, səri
qarşılayırdı
gəlib-gedənləri.
Petkanın
Ofisində
Samovar qaynayırdı.
Üzünə
baxmaq olmurdu
Petkanın.
Petkanın gözlərində
Cin oynayırdı.

Bu misralarda heç bir məna olmadığı kimi, heç bir təhqiramiz kəlmə də yoxdur. "Gözlərindən cin yağmaq" vulqar ifadə deyil.

7.On dörd ilə yaxındır

Mənim deyə bildiklərimdən
Yüz qat artığını
Hər gün erməni deyir.
BMT-də,
ATƏT-də,
AŞ PA-da
Petkanın -
Bu gədənin sifətinə.

Şuşa çox asanlıqla işğal olundu. Bunu bərkə düşəndə ermənilər də deyir, ATƏT də, o biriləri də. Müəllif burada heç bir şeyi saxtalaşdırmayıb. Əgər burada həqiqətən Fyodrdan danışılsa idi, bütün bu əsərdə bir o "gədə" sözünə görə mən şairin yerinə üzr istəyərdim. Əslində, mətbuatda dövlət başçılarının əleyhinə işlədilən təhqiramiz ifadələrin yanında burada elə bir təhqir yoxdur.

8.Füzuli Bəhbəhovu,
Nəsimii Bəhbəhovu,
Nizami Bəhbəhovu - Fedka,
İsası Fedka,
Musası Fedka

Burada heç fikir yoxdur. Füzuli, Nizami, Nəsimi sözlərinin dalbadal işlədilməsi də göstərir ki, müəllif konkret prototip nəzərdə tutmayıb.

Nəhayət, bu məsələdə çox mühüm bir məqam var - o da iddiaçının adı ilə bağlıdır. İddiaçının adı vəsiqəsində belədir: Məhərrəmov Fyodr Əhməd oğlu!

İddiaçının adı Fyodrdır, poema "Fedka" adlanır. Ruslar Fyodor da deyir, Fedya da. Pyotr da deyir, Petya da, Petka da. Bu adlarda heç bir vulqar element yoxdur.

Amma bütövlükdə iddiaçının adı maraq doğurur: Məhərrəmov Fyodr Əhməd oğlu!

Bu cür şuşalı adı olar? Deməli, bu adamın atası, babası azərbaycanlı olub, anası ya rus, ya da erməni. Və onlar uşaqlarına Fyodr (Fyodor) adı qoyublar, ana atadan ad seçməkdə üstün

olub, nəsli xristian adı ilə adlandırıb. Qəhrəmanın (Fedkanın) adının Fyodr Məhərrəmovun adına uyğun gəlməsinin məsələyə nə dəxli var? Poema qəhrəmanı "Fedka" adlandırılıbsa, müəllifin "İsası Fedka, Musası Fedka" deməsində heç bir qeyri-təbii hal və təhqir yoxdur. Fedka adlı şəxsin peyğəmbəri bu göstərilənlərdir.

Bir cəhəti də qeyd etmək istəyirik ki, Məhərrəmov Fyodr Əhməd oğlu öz şikayət ərizəsinə başqalarını da qatmaq istəyib. Bu onun hüququ deyil. Hər kəs öz şərəf və ləyaqətini qorumalıdır. Əvvələn, əsərdə başqaları haqqında da təhqiramiz heç nə yoxdur; ikincisi də, onlar belə bir şey duymuş olarlarsa, özləri iddia ərizəsi ilə müraciət edə bilərlər.

Nəhayət, fikrimizi ümumiləşdirərək qeyd edirik ki, bir poema kimi zəif yazılmış bu əsərdə konkret olaraq Məhərrəmov Fyodr Əhməd oğlu ilə əlaqədar heç bir təhqiramiz fikir, söz, ifadə yoxdur. Müəllifin yazdıqları hamının bildiyi zərərli, lakin ədəbdən kənar olmayan məsələlərdir. Belə bir iddia ərizəsi vaxt almaqdan başqa heç bir şeyə xidmət etmir. Odur ki iddia ərizəsini geri götürmək və bu çətin dünyanı qeylü qalsız yaşamaq məsləhətdir.

Prof.Q.Ş.KAZIMOV
04.03,08

SƏNƏT XƏYALLAR ÜSTÜNDƏ QURULUR
(Xəyalları göy üzündə gəzən şair)
VAQİF BAYATLI - 60

Şəhriyarın *Nə günə qalıbdı görün şerimiz, İndi yan keçirik görüb şeri biz* - sözləri göstərir ki, böyük və uzun ənənəsi olan sənət aləminin müəyyən zaman kəsiyindəki real mənzərəsini həmişə düzgün qiymətləndirmək olmur. Keçmiş ideallaşdırılır, hazırkılar gözə solğun görünür. Zaman keçdikcə hər şey öz yerini alır. Söhbət 60-cılardan sonrakı nəslin fəaliyyətindən, dəqiq desək, əvvəllər Vaqif Cəbrayılzadə kimi tanıdığımız, indi Vaqif Bayatlı Odər imzası ilə orijinal poeziya nümunələri yaradan Vaqif İsib oğlu Cəbrayıllıdan gedir (Cəbrayıl həm rayonunun, həm də babasının adı olsa da, burada ***-lı*** şəkilçisi ***-ov*** əvəzidir).

Vaqif o şairlərdəndir ki, tədricən deyil, mətbuata ilk gəlişi günlərindən diqqəti cəlb edib, özünü bir şair kimi təsdiq edib. Şübhəsiz, onilliklər keçdikcə saçları da ağarıb, poeziyası da kamilləşib, müdrikləşib. Yaradıcılığının gözə çarpan ən mühüm keyfiyyətlərindən biri poeziyasının orijinallığıdır. Vaqifin özünəməxsus üslubu var və öz üslubuna görə heç kimə bənzəmir. Yaradıcılığında ikinci mühüm keyfiyyt fikir dərinliyi ilə bağlıdır. Vaqif qafiyələr düzəltmək yolu ilə getmir, hər misrasında fikir söyləməyə çalışır, bəzən bir qədər mücərrəd olsa da, buna ustalıqla nail ola bilir. Üçüncü mühüm keyfiyyəti fikri çılpaq şəkildə deyil, zəngin poetik rənglərlə boyamasıdır. Hətta bəzən o qədər rəngləyir, qanadlandırır ki, oxucu üçün əsas fikri tutmaq bir çox hallarda çətin olur. Odur ki Vaqif Bayatlının şeirlərini gülə-gülə, birbaşa və tələsik oxumaq olmaz, düşünə-düşünə, şairin

poetik fikrini tutmağa çalışaraq oxumaq lazımdır. Elə poeziya sənəti üçün də ən üstün cəhətlər bunlardır: şair yeni söz deməlidir, yeni fikir söyləməlidir, onun üslubu olmalıdır və öz fikirlərini poetik şəkildə ifadə etməyi bacarmalıdır.

Vaqifi fərqləndirən çox mühüm bir cəhət də onun mövzularıdır. Əslində, geniş mənada onun mövzular aləmi də bizim böyük şairlərimizin yaradıcılığında əsas yer tutan mövzulardır - vətən, torpaq, xoş günlər arzusu, mübarizlik, qul olmamaq ideyası, vətənə sədaqət, yüksək arzular və əməllərlə yaşamaq, allah məhəbbəti, insana məhəbbət və s. Amma Vaqif bunları poetik qəlib içərisində elə əridir ki, bunların hər biri onun poeziyasında yeni orijinal mövzular kimi özünü göstərir.

Allaha məhəbbət, alın yazısı, tale kitabı, ruh aləmində daha əvvəldən mövcud olmaq ideyaları Nizamidən bu günə qədər bütün şairlərimizi düşündürmüşdür. Vaqif Bayatlını da düşündürən daha çox bunlardır. Hətta o dərəcədə ki, bəzən bunlar onu tamamilə fərqli bir şair kimi düşünməyə imkan verir. Əslində, fərqlidir də. Vaqif hər sözünü Tanrıya üz tutaraq başlayır, bütün Yer hadisələrini, göyüzünü Tanrının iradəsi ilə hərəkət edən varlıq kimi təsəvvür edir. Çox qəribədir ki, Nizami, Füzuli kimi nəhəng şairlərimiz öz əsərlərini Allah, Tanrı adı ilə başladıqları kimi, Vaqif də, məsələn, yaxınlarda nəşr etdirdiyi "Yupyumru bir eşq ilə" ("Çinar-çap", 2008) kitabını daha çox bu cür şeirlərlə başlamışdır. Əslində, bunlar həm odur, həm də onlar deyil. Vaqifin öz deyim tərzi, Tanrını dərk etmə və ona tapınma üsulları vardır: "Tanrım, Sən bütün Kainatın tək ibadət yeri - göyüzündə diz çöküb alın qoymağa Möhürdaşıtək Yer üzünü və sonsuz ibadəttək Eşqi yaratmısan… İlahi İbadəti, İlahi Eşqi bütün Kainata buradan yaymısan". Bu elə əvvəlki fəlsəfədər, dini keyfiyyətdə heç bir fərq yoxdur, yalnız Eşqə ibadət üstün tutulur. Bayatlıda başqalarından fərq Tanrıçılıq ideyasının hər kəlmə təzahürüdür. Bu cəhətdən onun yaradıcılığını Homerin "İliada" əsəri ilə müqayisə etmək olar. Bu əsərdə Troya müharibəsinin təsviri ilə bağlı bütün hadisələr real, mümkün olan hadisələrdir. Lakin Homer cərəyan edən hadisələri Zevslə, onun arvadı Hera ilə, göy allahları ilə bağlayır. Maraqlıdır ki, əsər üzrə film çəkilərkən bütün dini fəaliyyət, allahların rolu bir tərəfə

qoyulmuş, reallığı əks etdirən gözəl bir əsər yaranmışdır. Vaqifin də yaradıcılığında bu dini layı, Tanrıya tapınma, alın yazısı, Tanrı iradəsi məsələlərini bir yana qoysaq, bugünkü həyatımızın təsvirini, bizim bütün əzablarımızın səbəblərini, dərdlərimizi aydınlaşdırmış olarıq.

Vaqif demir ki, allah bizi və bizim vətəni qorusun. Sözünü belə deyir: "İlahi, mən indi bilirəm, insanın, həm də onun vətəninin özünü harada və necə görməyi əsas deyil, əsas Sənin onu harada və necə görməyindir". Amma bütün hallarda fikirlər bu cür mütilik təbliğ etmir. Aşağıdakı fikir daha sərrastdır: "Adamların çoxu həm Allahlı, həm də Allahsız olur. Əslində, bu cür allahlı olmaq elə Allahsızlıqdır. Allah bütövlük, tamlıq sevir. Biz özümüz bütöv olanda Allah da bizi bütöv görəcək, Azərbaycan da bütöv olacaq". Bu arzu, bu istək, bu ideya Vətənin diriliyidir, birliyidir.

Tanrıdan uzaqlaşdıqca insanlar
Qanadsızlaşır, qəddarlaşır onlar.
Qəddarlaşır onların
Yerişi, yolu, izi də,
Çəkilib insanlardan
Göyüzünün o üzünə
Qəm çəkir Tanrı özü də.

Əsl poetik fikir budur. İnsana bundan artıq nə demək olar? İnsanların insanlıqdan uzaq əməlləri Tanrını da qəm çəkməyə, küsməyə vadar edir. Bu sözlər təsirlidir, çünki insanların Tanrını qəmləndirən, küsdürən əməlləri ilə az-az yox, aramsız şəkildə, hər an rastlaşırıq.

"Əsl döyüşçüyə səngəri qəfəs!" deyən şairin poeziyasında mübarizəyə çağırış ruhu daha güclüdür. Bir tərəfdən alın yazısı, o biri tərəfdən "qul olmamaq" ideyası. "Nəfəsi ölümdən geri almağa ölümün üstünə yürüşdü ancaq". Torpağı, ana vətəni qorumaq, onu düşmənin yuxusuna girməyə belə qoymamaq ideyası:

Heç bir Türkün gözü bağlana bilməz,
Düşmən yuxusuna yurdumuz girsə,
O an duyuq düşüb onu vurmasaq,

Düşmən zamanında haqlana bilməz.

Şair həyatın ziddiyyətlərini, böyük adamların faciələrini, qəhrəman oğulların dar ağacları ilə birgə doğulduqlarını doğru deyir. Vətən uğrunda vuruşan, namusla yaşayan insanlar daha çox öz vətən övladlarından zərər çəkir. Vaxtilə Nizami də deyirdi:

İsa ki insanlıq elmində təkdi,
Hər bir yəhudidən cəfalar çəkdi.

Bu ideya yeni və orijinal formada Vaqifin şeirlərindən də güclü bir xətt kimi keçir:

Böyük oğullar doğulan gün
Doğulur göyüzündə
Böyük oğulların qanadları da.
Doğulur yeraltında
Böyük oğulların
Balaca dar ağacları,
Balaca cəlladları da.
Böyük oğulla doğular dəliliyi, dəlixanası,
Doğular həbsxanaların ən qaranlığı, ən nəmlisi…

Şairin aşağıdakı sözləri ilə Vətən qanı olan heç kim razılaşmaya bilməz: "Azərbaycan onu allah istəyəntək qaldırmağa çalışan böyük və fədakar insanlarının qədrini nə qədər biləcəksə, dünya da Azərbaycanın qədrini bir o qədər biləcək".

"Yurdu yurdun, haqqı haqqın o tayında qalan xalq" deyə şair Vətənin ikiyə bölünməsini ürək ağrısı ilə yad edir, sərhəd tikanları üzərinə ayaqyalın çıxdıqları üçün insanların ürək ağrılarının bir anlıq azaldığını göstərir, tarixin keşməkeşlərini yaxşı bilir: "Hələ neçə dəfə birləşib ayrılacağıq təzədən", "ayrılanda elə biləcəyik birik, bir olanda elə biləcəyik ayrıyıq". Bunlar tarixin anlaşılmaz ziddiyyətlərinin real duyumu, ifadəsidir.

"Özlərini asanlar tək günah eləmirlər, həm də ayaqlarının ucuyla son təkanı verib donuq dünyanın çarxını hərəkətə gətirməyə çalışırlar" - doğru deyilir: həqiqətlər, üsyanlar həm də

cəmiyyəti oyatmaq, insan naminə qaydaları yeniləşdirmək tələbini ortaya qoyur.

Vaqifin şeirlərini oxuduqca klassiklərin yaradıcılığında özünü göstərən bir sıra mühüm ideyaların onun əsərlərində yenidən və yeni şəkildə doğuluşunu görürsən. Qəm yükü, dərd Vaqifin də sevdiyi, bütün ağırlığına dözməyə hazır olduğu mənəvi yükdür - lap Füzulidə olduğu kimi:

Ver bütün qəmləri də,
Ver, ver bütün qəmləri -
Son qəmi güldürənəcən
Məni qəmə möhtac elə.

Şair günahlardan, onların bağışlanmasından danışır:

"Dostlar, şükür, günahlarımız da dupduru!" deyir, "Bəlkə də bizi Tanrının yanına ancaq bağışladığımız günahlar qaldıracaq" deyir. Günahların da çəkisi var. Elə günahlar var ki, onları hətta Tanrı dərgahına qalxmaq üçün də bağışlamaq olmaz. Dini baxımdan yanaşsaq, o cür günahları bağışlamağı Tanrı özü bağışlamaz və səni dərgahına yaxın da qoymaz. Bu, Vətən torpağının parça-parça düşmənə verilməsidir, həm də xəyanətlə verilməsidir. Xəyanəti Tanrı necə bağışlamalıdır? Böyük insanların xəyanəti bağışlaması onların böyüklüyünə dəlalət etmir.

"İlahi hamını həm qul, həm də sultan ola bilmək üçün yaradır. Yazıq o kəslərə, yaradılışın, Allahın əksinə gedib ancaq qul olmağın yolunu tuturlar". Bizim zəmanəmizin ən böyük bədbəxtliklərindən, bəlalarından biri budur. Qul olanların sayı-hesabı yoxdur və pis cəhət budur ki, bunlar qul olmaq istəməyən tək-tək işıqlı insanları da qul etməyə çalışırlar.

Vaqif şairdir, ona görə haraları gəzib dolaşsa da, nələrdən yazsa da, şairin baş mövzusu məhəbbətdir. Bütün kainat məhəbbət üzərində qurulub. Varlığın, diriliyin əsas qanunu, diriliyinin səbəbi eşqdir:

Bu dünyadan xəlvət, kəsə
Qalxaq, sivişək sənlə.
Min illər, milyon illər
Göz-gözə, nəfəs-nəfəsə

Qalaq, sevişək səninlə.
Milyon illər göy üzündə
Yan-yana yatan dağlar tək
Gedək eşq yuxusuna.

Eşq var isə, şair var isə qəm yükü, kədər də var. Bu dünya təkcə eşq üzərində qurulmayıb, "yarı dərd, yarı eşq kitabıdır bu dünya". Bir də ki şair var. "Şair çəkəndən sonra dərdmi qalar dünyada?" Şairin fikrinə görə, Eşq yolunda ölüm ölümsüzlükdür və ümumən Vaqif Bayatın fəlsəfəsinə görə "Doğum bəndəylə, ölüm allahla görüş anıdır" və "Allah olan yerdə nə ölüm?" "O an ancaq, ancaq başqa bir dünyaya yürüş anıdır". Özü də şair çox qəribə təsəvvür edir: "Yerüzündə hamıdan çox dərd bağlayan adamları göyüzündə hamıdan çox çiçək açan görürəm".

Poeziyanın ən mühüm ideallarından biri elə budur: insanda nikbin ruh yaratmaq, onun əbədiliyi fikirləri ilə insanı yaşatmaq, insani sevgi ilə yaşatmaq. Vaqifin poeziyası buna qadirdir. Yaxşı ideyadır. Elə din də min illərdir belə təbliğat aparır. Bir tərəfdən də istismar dünyasına köməkdir. Amma daha ayıq şairlər də olub:

Qətran Təbriziyə şah bir bağ bağışlayır. Qətran öz qadınını da götürüb bağa baxmağa gedir. Qadın baxır, heyran olur və deyir: "Lap behiştdir". O zaman Qətran deyir:

İn behişti-bər zəmin əst, an behişti-bər sipehr,
İn nəqd əst, an be nisyə, an nihan, in aşikar.

Bu, yer üzünün behiştidir, o (sən dediyin) - göylərin,
Bu nağddır, o - nisyə, o, gizlidir, bu - aşkar.

Göylərdə - ilahi məskəndə gül-çiçək içərisində yaşamaq ideyasının təbliğinə baxmayaraq, Vaqifin şeirləri dişsiz də deyildir. O, lazım olanı çox ustalıqla deyə bilir. Yer üzünün haqsızlıqlarına üsyan edən şair qəlbi belə misralar buraxır efirə: "Bir damla göz yaşı kimi, dupduru bütün yer üzü". Gərək diqqətli olasan ki, şairin incə istehzasını duya biləsən. "Görürəm, Tanrım, görürəm, sən durulardan durusan". "Üzündə bir damla qəm yox", "Səni elə hey dünyanı bələkdəki bir körpətək səssiz-səmirsiz dinləyən görürəm", "Hər an səni sevmək də, səni aldatmaq da asan". "İlahi, nə yaxşı

ki, dupduru hər şey, hər yan". "Yalnız "Dünya gözümdə söndükcə sən görünürsən, İlahi"… Bundan artıq nə demək olar? Kainatı, yeri, göyü, insanları yaradan Tanrı onların işlərinə qarışmır, bələkdəki körpə kimi səssiz-səmirsizdir. Qəbirdə yatan ölülərin öz kəfənlərini yanında üşüyən ölülərin üstünə necə örtdüyünü görmür.

Beləcə, Vaqif hər şerində təzə söz deyir, təzə obraz yaradır, yeni müqayisə vasitələrindən istifadə edir. Çox obrazlı deyir:

Bilirəm, Tanrım, bilirəm,
Məni dünyadan insantək
Yenə itirirsən, niyə?
Yeni dünyaya sevgitək,
Söztək yetirirsən, niyə?

O biri aləmə sevgi tək, söztək getmək ruh kimi getməkdir. Amma şair insan kimi qalmaq, insan kimi yaşamaq istəyir. Bu, insanın qeyri-fantastik, real arzusudur.

Hökm deyil ki, şairi Mənsur kimi, Nəsimi kimi dar ağacına çəksinlər. Elə dərdlər var ki, onlar dar ağaclarından da dözülməzdir. Əsl şair bunlara dözümlü olduğunu sübut edənlərdir. Vaqif də allaha - Tanrıya doğru ayaqyalın yüyürdüyü, yol getdiyi halda bu dar ağacları, cəllad qılıncları işə salınanda ruhən dincəldiyini çox maraqlı ifadə edə bilmişdir:

Şükür, İlahi, şükür,
Min ildi, milyon ildi,
Bağlayıb yollarımı
Bir-birinin ucuna,
Gəlib çatdım axırı
Sənin dar ağacına.
Kəndirin dartıldıqca,
Boynum dincəlir, Allah,
Boynum dincələn görüb
Tez vururlar boynumu,
Çiynim dincəlir, Allah.

Şair keçmiş quruluşun tənqidi, məddahların ikiüzlülüyü,

şəhidlərin ölməzliyi barədə silsilə şeirlər yazmışdır. Vətən sevgisi Bayatlının baş mövzularındandır:

Bu dünyaya göy payıtək
Göydən gəlib Azərbaycan.
Onun adında bir olub
Həm Od olmaq, həm Ər olmaq,
Həm Bəy olmaq, həm də Bəycan.

Vaqifin kitablarını sevdirən bir cəhət də şeir parçalarından əvvəl gələn müdrik kəlamlarıdır. Bir sıra hallarda, çox qısa, lakonik şəkildə əvvəlcə əsas ideyasını nəsr şəklində verir. Sonra kədərli mahnı kimi şeir parçası gəlir. Bunlar daha tutarlı şeirlərdir: "Diktatorlar düşünürlər ki, dövlətin ancaq bir dik başı ola bilər, qalan dik başlar isə nə dövlətə, nə də o baş yiyəsinə lazımdır". Və ya: "Ağıllılar sizə göründükləri qədər ağıllı, ağılsızlar da siz düşündüyünüz qədər ağılsız deyillər". "Doğular, elə doğulan kimi də bələyini dolayar biləyinə, kəfənini dolayar boynuna Türk oğlu". "Cəlladlar yorular, başlar yorulmaz". "Bütün alınlar yan-yana Allahın şer kitabıdır". "Ölümün ən böyük azadlıq olduğun öyrən". "Əl çalır şeytan sürüsü, ən baş şeytan başa çıxır". "Bu dünya yenidən başlana bilər". "Qəbiristanlıqlar ölüyə həsrət, Dəlixanalar dəliyə həsrət" və s.

Bunların hamısının dərin mənası var. Yəni şair demək istəyir ki, ölülər öz əcəli ilə ölənlər deyil, dəlixanada yatanlar həqiqi dəlilər deyil.

Poeziyasını fərqləndirən mühüm əlamətlər sırasında məcazlar sisteminin, bütün müqayisə vasitələrinin yeniliyini, orijinallığını da qeyd etmək olar.

Orijinal müqayisələri: *tabut kimi sakit bir qoca, arı çiçəyə qonan tək uç qon dar ağacına*; fikrin metaforik ifadəsi: *qəm uçqununun seli, kişnəyə-kişnəyə qaldı dağlar, atlarla ötüşən cığırlar, qəminin külünü bizim göyə tökmək istəyir, ay işığındandı fırçasının köynəyi, donu, öpürəm telindən, ey üç kəlmə söz, qəmin dibinə düşmək* və s.

Vaqifin mübaliğələri də çox mübaliğəlidir: "*Bəlkə də tanrımız ancaq bizimçün, göyüzünün sonunacan ulamaqçün belə sonsuz ya-*

ratmış göyləri". Niyə, nə olub Azərbaycana? Bəlkə şair onun 8 yerə parçalanmasına görə deyir bu sözləri? Bəlkə Qarabağı nəzərdə tutur? Bəlkə sərvətinə min yerdən göz tikildiyi, xalqına çatmadığı üçün deyir bu sözləri? Hər halda, görür ki, deyir, gördüyünü deyir. Bu cür halları nəzərə aldıqda şair düz deyir: "*Bu dünyada hər şeir bizə dünyanın necə yarandığını xatırladır".*

Vaqif Bayatlı Odəri çoxdan görmürdüm. Özünü görməsəm də, iç dünyasını gördüm, duydum, tanıdım. Deyir ki, "Sənət xəyallar üstə qurulur, ancaq lap sonda həqiqətdən üstün həqiqət yaranır". Xəyalları göy üzündə gəzən şairin İnsan naminə qəbul etdiyi həqiqətlərin hər biri hər bir şerində üzə çıxır.

Tapındığı böyük Tanrı qələmini daim nura boyasın!

14.10.08

60 YAŞIN HESABATI

Prof.AĞARƏHİM RƏHİMOV - 60

Bu zəmanənin çox böyük çətinlikləri var. İqtisadi çətinliklər bir yana - dözülməz olsa da, birtəhər dözmək olur. Deyir, "Elnən gələn vay toy-bayramdır". Ən böyük çətinlik mənəvi çətinliklərdir. Əzilmiş xalq toy-bayramla məşğuldur. Hər şeyin mizanı itib. Bir vaxt marksizmdə deyilirdi ki, bu gün yaxşı hesab olunan sabah pis ola bilər və əksinə. Elə bir zamandır ki, xalq üçün çalışmağın, insanlara yaxşılıq etməyin, xeyirxahlığın özü də çətindir. Daha böyük çətinlik isə bu cəmiyyətdə namusla yaşamaq, namusla işləməkdir. Bunun üçün sən böyük iradə sahibi olmalısan, sənin böyük dözümün olmalıdır. Namusla, vicdanla yaşamaq, işləmək istəsən, hər yerdən zərbə görəcəksən. Heç kəs qolundan tutub sənə kömək etməyəcək. Heç kəs sənin sözünü deməyəcək, yuxarıdan aşağıya daim zərbələr altında qalacaqsan. Deyəcəklər dəlidir.

Mən bu sözləri deyərkən bir çox yoldaşlarla yanaşı, bu gün 60 illiyinə toplandığımız dostum Ağarəhim Rəhimovu da düşünürəm. Görkəmli pedaqoq, cild-cild bədii əsərlərin müəllifi, bacarıqlı təşkilatçı. Gözəl bir universitet yaradıb. Kollektiv çox rahat işləyir, - heç kimdən heç bir təmənna güdmədən. Tələbələrimiz çox rahat təhsil alır. Amma bu rahatlığın o biri başında, əks qütbündə Ağarəhim müəllimin daim çarpışmada olan əsəb sistemi, tarım çəkilmiş əsəb telləri durur. İgid lazımdır bu çarpışmalara dözə. Dəfələrlə o yerə gəlib ki, özünün dediyi kimi, az qalıb universitetin qapısına bir qıfıl vurub çıxıb gedə.

İnsanları, onların qabilliyyətlərini, daxilindəki işığı və ya zülməti birdən-birə görmək olmur. Gərək əlverişli mühit ola ki, insanın daxili enerjisi üzə çıxa.

90-cı illərin əvvəlləri idi, Ağarəhim müəllim doktorluq dissertasiyası müdafi edirdi. Mən müdafiə şurasının katibi idim. Səliqə və məntiqlə öz pedaqoji yeniliklərini qeyd edirdi. Sakit və təmkinlə. Həmişə gördüyümüz müdafiələrdən bir qədər fərqli - öz sözünün üzərində israrla dayanmaqla, öz iddiaları ilə. Buna baxmayaraq, o zaman heç kimin ağlına gəlməzdi ki, Ağarəhim müəllimdə çox yüksək təşkilatçılıq qabiliyyəti var və o gələcəkdə belə gözəl bir ali məktəb yarada bilər, yaxşı yoldaşların köməyi ilə onu xalis ali məktəbə çevirə bilər. O zaman heç kimin ağlına gəlməzdi ki, Ağarəhim müəllim güclü daxili potensial estetik imkanlara malikdir və az sonra cild-cild bədii əsərlər ortaya qoyacaqdır.

Bunların hər ikisi oldu. Lakin necə oldu ki, bunlar oldu?

Bizim fikrimizcə, hər şey mühitdən, şəraitdən asılıdır. İnsanı mühit yetişdirir. Sabir 40 ilə qədər qəzəl yaradıcılığı ilə məşğul olub və bir şair kimi tanınmayıb. Beş ilin içərisində "Mola Nəsrəddin" mühiti Sabiri Sabir eləyib. Ağarəhim müəllim belə bir universitet yaratmaqla, ictimai əlaqələrini genişləndirdi, bir fərd kimi yaşamaqdan qurtarıb ictimai adama çevrildi, aşağılarla, yuxarılarla daimi təmas nəticəsində cəmiyyətin içi görünməyə başladı - iri böyüdücü altında görünən kimi.

Deyirlər, eyni yaşda olan insanların bilik dairəsi əsasən eyni olur. Lakin o biliyi istiqamətləndirmək məsələsində insanlar fərqlənir. Biri istedadını oğurluğa, quldurluğa, yaltaqlığa,

ikiüzlülüyə sərf edir, başqa yaramaz əməllərə, sinizmə aludə olanlar da çoxdur. Bunun əksinə olaraq, hərçənd azdır, amma geniş düşünənlər də var. Onlar düşünürlər ki, pul da, mal da, oğurluq da, vəzifə də, yaltaqlıq da, saxta şöhrətlər də ötəridir, öləridir. Xeyirxahlıq, yaxşı əməllər qalır dünyada. Gərək bir iz qoyasan. Bu dünyada bir iz qoymayan adam ölən dəqiqədən çox əvvəl ölmüş olur. Odur ki zəhmət və istedaddan səmərəli istifadə etmək lazımdır. Bu dünyanı canavarsayağı yaşayanlar ikiayaqlı olsalar da, mahiyyətcə elə müqayisə obyektinin özü kimidir. Ağarəhim müəllim elm və sənət yolunu seçdi və çox böyük uğurlar qazandı. Özü də bilir ki, bir damla istedada 99 damla zəhmət təri qarışmasa, heç bir şey əldə etmək olmaz. Odur ki o zəif və şikayət dolu cismi ilə daim qələm əlində əlləşməkdədir və öz gələcəyi üçün, bu günümüzü gələcəyə aparmaq, gələcək nəslə çatdırmaq üçün fədailik edir.

Bizim cəmiyyətin ixtiyar sahibləri, elə bil, at belindədir. Çap, tala, sonra imkan olarsa, yenə davam etdirərsən, olmazsa, çapıb aradan çıxarsan. Yəni demək istəyirəm ki, xeyli vaxtdır xalq, millət anlayışları və bununla birlikdə insaf, mürüvvət anlayışları da unudulub. Bu cür sözləri indiki halda dilə gətirmək, elə qurulub ki, bir çoxlarının nəzərində bütövlükdə dəlinin sayıqlaması təsiri bağışlayır. Niyə, balam, bu xalq yazıq deyil? Bəs bizim ziyalılığımızın mənası nədir? Yazdıqlarımız, aşkara çıxarmaq istədiyimiz tarix, xalq nəzərə alınmırsa, kimin nəyinə lazımdır? Bəs niyə bizə "cəmiyyət" deyirlər? Vəhşi heyvanlar da öz qəbiləsinin tənsibini çəkir, onu qoruyur. Nə oldu bizə? Sovet dövründə gözəl xalq kəlməsi, xalq mənafeyi vardı, indii biz irəli gedirik, yoxsa geri?

Hamısının səbəbi idarəçiliklə bağlıdır. Hər kəs ona tapşırılan vəzifəni ləyaqətlə həyata keçirsə, xalq da xalq olar, millət də millət. Fərdi mülkiyyət mənəviyyatı öldürüb və fərdiləşdirib, "hər kəs özü üçün" şüarını bayrağa çevirib.

Belə bir vaxtda xalq üçün iş görən adam böyük adamdır.

Belələri var və onlardan biri də Ağarəhim müəllimdir. Mənbə var imiş, istedad var imiş, Ağarəhim müəllimdə zəhmətə, çətin işə dözüm var imiş. Bunlar Ağarəhim müəllimi düz yola apardı, bəlkə də belə demək doğru olar ki, Ağarəhim müəllim dünyanı çox geniş

mənada düşündü, vicdanını, istedadını, əməyini düzgün istiqamətləndirə bildi. Krişnada deyilir ki, insan xeyirxah işlər gördükdə allah fədaisinə çevrilir, görmədikdə yerdə çürüyüb məhv olur. Ağarəhim müəllimin xeyirxah işləri onun bu məktəbi, elmii əsərləri, bədii yazılarıdır.

Ağarəhim müəllim, hər şeydən əvvəl, görkəmli pedaqoq alimdir, monoqrafiya və dərsliklərin, saysız məqalələrin müəllifitdir. Yaxşı pedaqoqun daxilində hikmət, humanizm və işıq yuva salmış olur. Çünki pedaqogika yüksək adamların kəlamları üzərində qurulmuşdur. Lakin bununla yanaşı, onun daxilində potensial yazıçı humanizmi də vardır və bu humanizm pedaqoji istedad və humanizm ilə möhkəm birləşmişdir. Odur ki onun əsərləri əxlaq, mənəviyyat kitablarıdır. Hər şeydən əvvəl, müasir gənclik üçün tərbiyə məktəbidir. Onun başlıca təsvir obyekti bizim bugünkü həyatımızdır, bu günün ən aktual məsələləridir. Bədii əsərlərinin baş qəhrəmanı, demək olar ki, gənclikdir. İllərdən bəri gənclərlə işlədiyi üçün onların həyat tərzinə, problemlərinə dərindən bələddir.

Keçmişdə - sovet dövvründə dövlət xalqın və xüsusilə gəncliyin əxlaqi-mənəvi keyfiyyətlərinə diqqət yetirir, konkret desək, insan əxlaqını qoruyurdu. Amma indii televiziya əksəriyyət etibarilə əxlaqsızlığın təbliği ilə məşğuldur və çox qəribəldir ki, bu sahənin təbliğatçıları sürətlə "yüksəlir", asanlıqla böyük titullar, ad-san qazana bilirlər. Heç şübhəsiz, televiziya dövlət nəzarətindədir və televiziya işçiləri "ilhamı" yuxarılardan alır. Beləldirsə (ayrı cür ola da bilməz), bəs məqsəd nədir? Bəlkə bu yolla "sivil" mədəniyyətə gedirik?

Bu nöqtədə Ağarəhim müəllimin bədii əsərləri böyük gücə malikdir. O, gəncliyə bugünkü həyatı, onun yaramaz cəhətlərini, mənəvi iflas hallarını göstərərək demək istəyir ki (və çox aydın şəkildə deyir ki), bax vəziyyət belədir, təmiz yaşamaq, namusla yaşamaq, insan kimi yaşamaq istəyirsənsə, ayıq ol və özünü qoru, bu girdaba düşmə. Girdab isə həqiqətdə çox dərindir.

Hələ də bizim Qarabağ mövzusu ilə əlaqədar əməlli bədii əsər görünmür. Qarabağın, Şuşanın düşmənə təslim edilməsinin əsas səbəbləri hələ də bədii əsərlərdə öz əksini lazımi şəkildə tapmayıb.

Ağarəhim müəllim bu sahədə də öz vicdan borcunu yerinə ye-

tirib. Bu mövzuya neçə dram əsəri, neçə hekayə, povest həsr edib. Təkcə "Canavar balası" hekayəsi bir romandır, bir dastandır. Milli xəyanətin kökləri açılır bu əsərdə. Yusif kişinin çörək verib böyütdüyü erməni balası kimilər hələ də ölkəmizdə on minlərcədir.

Ağarəhim müəllim 60 illik yubileyi günlərində haqqında yazılanlara, deyilənlərə təvazökarlıqla yanaşır, təriflərdən ehtiyatlanır. Yubiley hesabatdır, gərək gördüyün işlər ola və onları ortaya qoyasan. Ağarəhim müəllimin ortaya qoymağa zəhmət bəhrəsi var və kifayət qədərdir. Onları lap üzağlığı ilə ortaya qoya bilər. Sovet dövrünün ən təmiz universitetindən də təmiz Bakı Qızlar Universiteti, pedaqoji mövzularda monoqrafiya və dərsliklər, 10 cildlik bədii yaradıcılıq - pyeslər, romanlar, hekayələr, povestlər, esselər, ssenarilər. Sevinmək üçün fakt var, zəhmət göz qabağındadır.

Bir insan kimi də qiymətlidir, səmimidir, öz sözünün ağasıdır. Gözəl bir metodu var: tədrisdə əyinti gördümü, çox sakitcə çağırıb deyəcək, "Xudahafis". Daha başqa sözə ehtiyac yoxdur. Onun bu cür mövqeyini bəzən kəskinlik kimi qiymətləndirirlər, amma mən indiki halda bunu yeganə düzgün yol hesab edirəm.

Pedaqoq, yazıçı, təşkilatçı və hər şeydən əvvəl, öz ürəyini cəmiyyətin bəlaları ilə döyüşlərdə əridən gözəl dost Ağarəhim müəllim!

Biz Sənə bu döyüşlərdə daha möhkəm ürək arzulayırıq. 60 yaşın mübarək olsun!

14 noyabr 2008

ƏNVƏR NƏZƏRLİNİN "DİVAN" YARADICILIĞI
və ya
83 illik ömrün qəm yükü, fərəhi

Klassik ədəbiyyata nəzər saldıqda insanda belə bir duyğu yaranır ki. Nəsiminin, Füzulinin, bəlkə Füzuliyə bərabər olduğunu hələ öyrənmədiyimiz və Füzulinin müasiri olan Ruhi Bağdadinin, sonralar S.Ə.Şirvaninin, lap elə Sabirin, Vahidin lirik yaradıcılığından, oxuyub başa çatılması çətin olan

qəzəllərindən sonra bu sahədə yeni söz demək, yeni məcazlar sistemi yaratmaq, kiçik həcmli şeirdə - qəzəl janrında yeni fikir söyləmək, poetik kəşflər etmək çətin olar. Amma oxuyursan, baxırsan ki, insan təfəkkürü, insanın poetik xəyalı o qədər geniş və dərindir ki, hər dəfə bütün deyilmişlərdən fərqli yeni söz demək mümkündür və mənbə tükənməzdir. Mən bunu hələ də bu cəmiyyətin böyük qəzəl şairi olduğunu yaxşı bilmədiyi (mənim fikrimcə) Ənvər Nəzərlinin "Məhəbbət tərənələri" (Bakı, "Mars Print", 2006) adlı 626 səhifəlik nəfis şəkildə çap olunmuş divanını nəzərdən keçirərkən anladım. Yenə təəccübləndim və təəccübümün səbəbi o oldu ki, belə zəngin yaradıcılığı olan şəxs mətbu təbliğatdan, özünü təbliğdən, belə demək olarsa, qaçıb, gizlənib, ağlagəlməz bir guşədə gizli qalmış qızıl parçası kimi gözə görünməyib və, məsələn, şəxsən mənim üçün üstü qəfil açılıb, parıltısı göz oxşayan çox qiymətli bir əşya kimi meydana çıxıb. Üçüncü mühüm məsələ də odur ki, tarixən qəzəl yazan çox olub, amma çoxları Füzuli tilsimindən, Seyid Əzim cazibəsindən çıxa bilməyib, yeni söz söyləməkdə çətinlik çəkib, çünki elmi dünyagörüşü zəif olub, daha çox Füzuliyanə qafiyələr düzəltməklə məşğul olub. Amma axı biz tanıyırıq bu Ənvər Nəzərlini - bu Ənvər müəllimi, ərəb, fars, rus dillərini gözəl bilməklə yanaşı, daim yüksək vəzifələrdə işləyib, bəşərin bəlalarının köklərinə dərindən bələddir, dünyanı gəzib dolanmış, siyasətdən baş açan müdrik bir şəxsiyyətdir. Yəni onun əsərlərinin mayasında Füzulinin dediyi "elmsiz şeir qayətdə bietibar olur" qorxusu yoxdur, olmamalıdır. Ənvər ruhən klassiklərə çox yaxındır, onları çox yaxşı bilib, yaxşı mənalandırmağı bacarıb, odur ki onların dediklərini təkrara çalışmayıb, yeni söz deməyə səy göstərib və müvəffəq olub da. Onun divanını ilk dəfə tədqiq edən, ona geniş ön söz həsr edən hörmətli akademik Vasim Məmmədəliyev yazır: "Ənvər Nəzərli hünər bağçasında təravətli güllər yetirməklə yanaşı (Füzulinin dediyini deyir - *Q.K.*), əruz şerinin digər janrlarında da gözəl nümunələr yaratmışdır. Onun xeyli məsnəvisi, müxəmməsi, mürəbbeləri, nəzirələri, təzminləri, təxmisləri, rübailəri, münacat, nət, mərsiyə, növhə və digər əsərləri vardır. …qəzəlləri məşhur xanəndələrin ifasında şənlik məclislərində, radio və televiziyada səslənir, onlara sürudlar,

təsniflər, mahnılar bəstələnir. Şairlər onun şeirlərinə təxmis və nəzirələr yazır, özünə şeir ithaf edirlər" və bütün bunlar elə edilir ki, bu görkəmli şair və dövlət xadimi görünmür, hansı bir Ənvərinsə əsərləri kimi qulağımızda səslənir, ötüb keçir.

Bu kitabda Ənvər Nəzərlinin yalnız qəzəlləri toplanmışdır. Onun bundan əvvəl 1998-ci ildə "Məhəbbət gülşəni - həsrət çələngi" adlı ilk divanı da çap olunmuş, Vasim müəllim ona da "Böyük ocağın ləyaqətli varisi" adlı maraqlı ön söz yazmışdır. Nəzərlinin divanı sosial-ictimai məzmun, həm də dil-sənətkarlıq baxımından xüsusi tədqiqə layiqdir. "Məhəbbət tərənələri" adlı divanın içərisinə girib çıxmaq o qədər də asan deyil. Çünki klassik Şərq poeziyasında olduğu kimi, Şərqin bütün fəlsəfi, dini, sosioloji görüşləri, ən qədim və ən yeni fikir və ideyalar bu divandakı şeirlərdə cəmləşmiş, Ənvər müəllimin öz şeir texnikasına müvafiq şəkildə əks olunmuşdur. Hər şeydən əvvəl, çox aydın görünür ki, Ənvər müəllim ömür boyu həqiqi allah fədaisi olmuş, bu cızıqdan bir addım kənara çıxmamışdır. Aydın olur ki, Ənvər müəllim daim haqqın tərəfində durmuş, məzlumun müdafiəsinə, ayılmasına çalışmışdır. Aydın olur ki, Ənvər müəllim həqiqi və ilahi eşqin ən dərin qatlarına enə bilmiş, öz şerinin mayasını məhəbbətdə görmüşdür. Aydın olur ki, Ənvər müəllim bir küncə qısılıb ictimai haqsızlıqlara göz yuman adamlardan olmamış, daim öz əməli işi və poeziyası ilə sosial ədaləti müdafiə etmişdir. Yenə aydın olur ki, ən mühüm məsələdə - bədii dil və sənətkarlıq məsələlərində daim ustadlardan öyrənsə də, onlara təsirli nəzirələr, təxmislər yazsa da, heç vaxt onları təkrar etməmiş, fikir, düşüncə, müqayisələr, məcazlar sistemi baxımından orijinal olmuşdur. Bunların hər birini ayrılıqda tədqiq etmək mümkündür. Lakin kiçik bir qəzet yazısı ilə yox.

Məsələ burasındadır ki, bu cür mütəfəkkir bir şəxs bütün klassiklərdə olduğu kimi, dünya gözəlliklərini nə qədər yüksək poetik dil ilə qələmə alsa da, bu dünyanı fani hesab edir, "bəqa mülkünü" üstün, uca, daimi və əbədi sayır. Deyərdim ki, bunlar klassik ədəbiyyatın, Şərq poeziyasının təsiri ilədir, amma xeyr, əksər qəzəllərindən keçən bir xətt kimi, onun bəqa mülkünün varlığına və əbədiliyinə inamından irəli gəlir:

Əsl gözəllik aləmi, Ənvər, bəqadadır,
Bir gün gedər fənaya bu dünya gözəlliyi.

Şairin fikrincə, "Müsafir evidir bizim bu dünyamız" və "əbədi aləmə yol burdandır". Hətta "yolun buradan olduğunu" bilə-bilə, bəzən fəna mülkünə düşdüyünə peşmandır:

Unudub baqini uydum bu dəni dünyaya,
Öz əlimlə özüm öz ömrümü qarət elədim.

Məndən olsaydı əgər, bu cahana gəlməz idim,
Çəkib əl bağı-behiştdən, bu yana gəlməz idim.

Buradan ikinci bir məsələ ortaya çıxır: şair bütün varlığın həyatının hələ təsəvvür edilməsi çətin olan bir zamandan ruh aləmində planlaşdırıldığı qənaətindədir. Füzuli də vaxtilə bu cür düşünüb və Məcnunun dili ilə zəmanə çərxinə müraciətlə belə deyib:

Ey çərx, bu əqd olanda möhkəm,
Bəlkə yox idin arada həm sən.

Yəni ey çərx, ey fırlanan, dönən, dolanan, Leyli ilə Məcnunun kəbini qərarlaşdırılanda sən bəlkə hələ yaranmamışdın. Budur, elə Ənvər müəllim də belə düşünür:

Mən öz nigarım ilə, ey dil, əhdü peymanı
Fənayə gəlmədən əvvəl bəqadə eyləmişəm.

Məcnun hələ Leylanı görəndən də çox əvvəl
Mən Yusif olub, eşqi-Züleyxaya düşmüşəm.

Amma şair bu yola - bəqa mülkünün izinə birdən-birə deyil, tədricən, kamilləşə-kamilləşə düşdüyünü də etiraf edir, bir müddət fani dünyanın gözəlliklərinə uyduğuna peşman olduğunu bildirir:

Bilmədim eşqin əzəl qayəsi, mənası nədir,

Uyaraq surətə, mənada xəsarət elədim.

Şair bu fani aləmə gəlməyin özünün də məqsədli olduğu, imtahan üçün göndərildiyi gümanındadır:

İmtahandır bu həyat aşiqə, Ənvər, onu bil,
Bilməsəydim bu çətin imtahana gəlməz idim.

Ənvər müəllimin bu istəyinə, bəqa mülkünün əbədiliyinə, xoş günlərin orada olacağına inamına baxmayaraq, ona bu fani dünyada daha çox yaşamağı, yazıb-yaratmağı, bu fani dünyanın gözəlliklərindən daha çox zövq almağı arzu edirəm. Bilmək olmaz. Ağlım kəsmir ki, bəqa mülkündə ayrıca Azərbaycan xalqı ola, yəqin ki, orada beynəlmiləl cəmiyyət olacaq və o cəmiyyət milli hisslərdən məhrum olmuş olacaqdır. Ənvər müəllimdə isə indiki halda milli hiss çox güclüdür, o daim Azərbaycan xalqının firavan həyatı uğrunda çalışmış və bu xalqa müstəqillik, qələbə, gözəl günlər arzulamışdır.

Ənvər müəllim qəzəl janrının texnikasına dərindən bələddir, bir sıra şair olmaq istəyənlər kimi, qəzəl yazıb qəzəlin qolqabırğasını qıranlardan deyil. Bu sahəyə elmi-nəzəri baxışı olan şairdir. Qəzəlin texniki cəhətdən pozulduğu hallar ona xoş gəlməmiş və Füzuli kimi o da bu sahədə şeir mülkünü abad etməyə səy göstərmişdir:

Naşı əllər qəzəlin mülkünü bərbad eləyib,
Bu zəif təb ilə, Ənvər, onu abad edirəm.

Ənvər müəllimin əqidəsinə görə, "Eşqdən başqa, aləmdə nə varsa, əfsanədir" ("Əfsanədir aləmdə nə var eşqdən özgə") və "Bir məhəbbət nuru var hər zərrəsində aləmin, Bu dünya ülvi bir eşq ilə xəlq olunmuşdur". Külli-aləmin eşq üzərində qurulduğu doğrudur və Ənvər müəllim də bunu poetik şəkildə iqrar edir. Amma bu aləm, şairin fikrincə, bütövlükdə fanidir və ümidimiz o dünyayadır. Bununla belə, madam bu dünyaya göndərilmişik, bu imtahandan yaxşı çıxmalıyıq, sevdiyimiz gözələ sədaqətdə sapmalar olmamalıdır. Burada ilahi gözəlliklərlə təbii və obyekiiv

gözəlliklər, gözəllər qarışır. Vasim müəllimin qeyd etdiyi kimi, Ənvərin "vəsf etdiyi gözəl əğyara meyil göstərmir, ona tərəf gözucu belə olsa baxmır" ("Sədaqətində sənin bir qubar görməmişəm"), odur ki aşiq də ondan bu mənada şikayətlənmir, çünki gözəlin aşiqə tərəf yönəltdiyi qəm yükü yalnız bununla bağlı deyil - hicran var, görüş vaxtının uzanması var, gözəlin öz gözəlliyi ilə aşiqi oda yaxması var - onsuz da çətinliklər çoxdur. Amma aşiq bütün qəm yükünü çəkməyə daim hazır olmalıdır, səbatlı olmalıdır və hətta öz canından keçsə də, qəm yükündən keçməməlidir: "Çıxdı can, çıxmadı candan yenə eşqin, gözəlim", - deyən şair hər cür cəfanı özünə münasib bilməlidir və bilir də:

Sıxdın məni, yıxdın məni, yaxdın məni axır,
Öldür, daha sındırma pərü balımı, zalım.
Hər cövrü-cəfa varsa ver, Ənvər çəkəcəkdir,
Ölsəm də dəyişməm yenə amalımı, zalım.

Ənvərəm, hazıram eşqinlə şəhid olmaq üçün,
Təki sən əmr elə, ey Şahi-zaman, gözləyirəm.

Buyurubsan canımı eşqinə qurban eləyim,
Tiri-müjganın əgər versə macal, eyləyərəm. Və s.

Bu cəhətdən şairin aşağıdakı beytləri həm orijinaldır, sərrast deyilmişdir, həm də bir qədər yumorludur:

Nəqdi-can verdim alıb möhnəti-hicran qəmini,
Yarı şad etmək üçün yaxşı ticarət elədim.
Ahəstə dedim dərdi-dilim, duymadı kimsə,
Əflakə yetişsin deyə naləm, zilə çəkdim.

Şairin gözəli də gözəldir, elə gözəl ki, ona söz deməyə nitqi, yaxınlaşmağa qədəmi olmayan ətraf aləm, heç olmasa, ona tərəf boylanmaqla təsəlli tapır:

Boylanır əhli-çəmən həsrət ilə yara sarı,
Verməyib çünki Xudavənd nəbatata qədəm.

Onu da qeyd edək ki, ilahi eşqin tərənnümçüsü olsa da, şair real eşqin nəşəsindən də keçmir, bu həyatın gözəllikləri Ənvər üçün heç vaxt yad olmayıb:

Röyada görüb yarın üzün bəxtəvər oldum,
Məqsudə əlim çatdığı əsnada itirdim.

Sevgili də əzazil deyil. Onun yara qovuşmaq arzusunu bəzən ikiqat yerinə yetirmək iqtidarındadır, şairi bəzən ikiqat sevindirmək imkanına malikdir:

Bayram edərəm, söylədim, ey gül, bizə gəlsən,
Bayram günü gəldin, iki bayrama yetişdim.

Ənvərin də sevgili obrazı müjgan ilə aşiqin qəlbini yaralayır, onun aşiqi də öz eşqi yolunda Məcnun kimi, Fərhad kimi divanələr arasındadır. Eyni zamanda Məcnun sayağı "Harda bir divanə görsə el, məni yad eyləyər" - deyən şairin qəhrəmanı divanələr arasında olmağı ilə fəxr edir:

Ənvər, mənə divanə deyir indi görənlər,
Bəxt oldu müsaid, bu gözəl nama yetişdim.

Lirik qəhrəman ağlı ilə deyil, ağlın sözü ilə deyil, qəlbin gözü ilə yaşayır, ağlı qəlbinə yox, qəlbi ağlına hökm edir - "ağıl qəlbin kölgəsidir":

Əqlimiz kölgəsidir qəlbimizin eşq içrə,
Könlümə əqlimi, Ənvər, demə sultan eləyim.

Aşağıdakı misralar Füzuliyana deyilmişdir, amma orijinaldır:

Gəlməsən ərşə çıxan naləvü əfğanımdan,
Göz yaşımda batacaq külli-cahan, gözləyirəm.
Daş yağır başıma əflakdan, Ənvər, çünki
Fələyin sinəsini ah ilə dağ eyləmişəm.

Ənvər müəllimin tədqiq olunmağa layiq epitetləri, müqayisələri, metaforaları, xalq deyimi şəklində zəngin ifadələri vardır. Bunların əksəriyyəti yeni və orijinaldır. Aşağıdakı beytlərdəki müqayisələr kimi:

Ley vuran quşlar misalı parə-parə düşmüşəm,
Yusifi-Kənan olub qul tək bazara düşmüşəm.
Məndən küsüb o şahım, bilməm nədir günahım,
Quldan küsərmi sultan, bilmirmi padşahım?

Danışa-danışa şair bu "fəna" mülkünün səfasını etiraf etməli olur. "Səni, Ənvər, bu gözəllər yıxacaqlar axır" deyən şair bu fani dünyadakı həyat yoldaşını tez itirməyindən hədsiz kədər içərisindədir:

Aləmi sənsiz, əzizim, şəbi-yelda bilirəm.
Eşqsiz bir ürəyi qupquru səhra bilirəm.

Ənvər, o yar bəqa mülkünə köç eyləyəli,
Nə qalan tək qala bildim, nə ölüb qurtardım.

Ənvər müəllim bu qənaətdədir ki, şeir bazarı halal olmalıdır, ona məddahlıqla haram qatmaq, ürəkdən gəlməyənləri dilə gətirmək olmaz. Söz gələcək üçündür və onu mizan-tərəzi ilə çəkmək lazımdır:

Şeir bazarı halal olmasa, Ənvər, nə xeyir,
Çəkirəm hər sözü, mizan-tərəzim var mənim.

Bunlar hamısı klassikadan gələn və Ənvər Nəzərli adlı şairin yaradıcılıqla davam və inkişaf etdirdiyi məsələlərdir. Bu əsərlər klassik poeziyaya dərindən bələd olan, ondan məharətlə bəhrələnən, lakin daim orijinal olmağa çalışan və buna ustalıqla nail olan bir şairin yaradıcılığıdır və Azərbaycan ədəbiyyatında layiqli yer tutan əsərlərdir. Mühüm və çox mühüm bir cəhət də budur ki, ənvər müəllim yalnız klassik mövzularla

məhdudlaşmayıb, o, qəzəl janrına aşiqin bütün keçmiş cari dərdlərini gətirməklə yanaşı, bu günki insanın, Azərbaycan vətəndaşının həqiqi dərdlərini də gətirmiş, həm də çox ustalıqla, çox sərrast şəkildə gətirmiş və Azərbaycan xalqının zurna-balaban altında zorla aralanan dodaqlarını deyil, yetim köynəyi altında parçalanan qəlbini göstərmişdir.

Qəzəl belə bir lirik janrdır ki, adətən güldən, bülbüldən, təbii və ya ilahi məhəbbətdən danışar. İctimai motivlər də olub. Amma Ənvər müəllim müasir sözü, bu saat insanı düşündürən sözü bu formada - qəzəl formasında çox sərrast şəkildə deyə bilmişdir. İxtisarla verdiyimiz "Nə lazım" rədifli qəzəlinə diqqət yetirmək kifayətdir:

Yalvarmaq ilə tərk eləməz darını donquz,
Tutmaq dilə bu erməni cəlladı nə lazım.

Babəklə, Cavanşirlə daha bəsdir öyündük,
Hər söz başı çəkmək bu qədər adı nə lazım.

Övlad Vətənsiz, Vətən övladsız olmaz,
Getsə Vətən əldən əgər, övladı nə lazım.

Millət əgər ümmidini üzsə gələcəkdən,
Şad olması xəlqin dili-naşadı nə lazım.

Dövranı gədalar sürür hər yanda kef içrə,
Xar eyləmək Ənvər kimi ustadı nə lazım.

Bu onun fikridir. Bəs biz nə deyirik?

Biz də deyirik ki, bunlar həqiqi dərdlər, həqiqi yaralardır, bugünkü millətin ən ağır dərdləridir. Sənin torpağını parça-parça sənin öz əlinlə zəbt edələr, nəhayət, gəlib oturalar sənin ürəyinin başında, sən də həyasız-həyasız oxuyansan ki, "Mən Babək, Korğlu nəvəsiyəm". Və utanmayasan, xəcalət çəkməyəsən, sənin televiziyan bütün günü çalıb-oynamaqla məşğul ola. 15 il danışıqlar aparasan, görəsən ki, bir addım da irəliləyiş yoxdur, özünü və xalqı aldada-aldada durasan. Sən aşkar görəsən ki, sənin

millətin yas içindədir, zurna-balaban çaldırıb onu güldürməyə, iyrənc hərəkətlərlə onu ələ salmağa çalışasan. Ümidini hər şeydən üzmüş bir xalqı oyuna qoyasan.Bizi də, bu qocanı da düşündürən bunlardır.

Ənvər müəllim ensiklopedik biliyə, ecazkar yaddaşa malik bir şəxsdir. Onun son vaxtlar "Kredo" qəzetində ardıcıl çap olunan xatirə yazıları bir aləmdir. O yazılarda bizim keçmişimizlə bağlı çox maraqlı fakt və hadisələr toplanmış və obyektiv söz sahibinin qələmindən çıxmışdır.

Mən Ənvər müəllimin - Ənvər Əşrəf oğlu Nəzərlinin tərcümeyi-hal yazısını vermədim. Bir də təfərrüatı ilə qeyd etməyə ehtiyac duymuram ki, o, 13 yanvar 1926-cı ildə Şamaxı şəhərində anadan olub, atası və əmisi repressiya qurbanlarıdır. Deməyə ehtiyac yoxdur ki, Ənvər müəllim böyük yoxsulluq içərisində ADU-nun şərqşünaslıq fakültəsini bitirib, Lomonosov adına Moskva Dövlət Universitetində təkmilləşmə kursu keçib, Bakının məktəblərində fars dili, Azərbaycan dili və ədəbiyyat dərsləri deyib, kiçik yaşlarından fəhləliklə məşğul olub, 1959-cu ildən Azərbaycan KP MK-da məsul vəzifəyə irəli çəkilib, uzun illər Qırmızı Aypara Cəmiyyətinin, Respublika Sülh Şurasının, Asiya-Afrika ölkələri Həmrəylik Komitəsi Azərbaycan təşkilatı Rəyasət Heyətinin üzvü olub, "Xalqlar dostluğu", "Şərəf nişanı" ordenləri ilə, əlavə beş medalla, Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanları ilə, bir sıra fərqlənmə nişanları ilə təltif edilib, Azərbaycanın kütləvi informasiya vasitələri işçiləri Həmmkarlar İttifaqı Rəyasət Heyətinin Fəxri Fərmanına və "Ustad sənətkar" adına layiq görülüb, adı "XX əsr şair və yazıçıları ədəbiyyat ensiklopediyası"na düşüb. Deməyə elə bir ehtiyac yoxdur ki, atası Məşədi Əşrəf Seyid Əzimin məktəbində oxuyub, Sabirlə, Səhhətlə dostluq edib (Hacıbaba Nəzərli də bu nəsildəndir); ilk şeri 1937-ci ildə (on yaşında ikən) "Yeni Şirvan" qəzetində dərc olunub. Bunları bir də təkrar etmək istəmirəm. Çünki bunlar geniş şəkildə Vasim Məmmədəliyevin kitaba yazdığı ön sözdə var. Mən onu demək istəyirəm ki, indi Ənvər müəllim 83 yaşlarındadır və bu yaşı başa vurmaqdadır. Hər adama qismət olmayan bütün 80 illik keçmişi öz səlis və sərrast hafizəsində yaşatmaqdadır,

imkan düşdükcə kağıza köçürməkdədir, keçmişin yaxşısından, pisindən - olanlarından danışmaqdan doymur, oturub-durduğu böyük adamların, sadə insanların hamısı haqqında şirin xatirələri var və beş-on dəqiqə söhbətinə qulaq assan, səni indi bizə yuxu kimi gələn sovet quruluşunun enişli-yoxuşlu günlərinə aparar. Amma hərdən qocalıqdan, dostlardan, yoldaşlardan, həmdərdlərdən ayrı düşməyindən də şikayətlənir və bütün yuxarıdakı bəqa mülkü barədə ideyalarına baxmayaraq, bu qənaətdədir ki, insanlar ağıllı olsalar, pis niyyətlər kəsilsə, insan nəfsinin hüdudu olsa, bu dünya daha yaşamalı dünyadır:

Yada saldıqca ötən günləri fəryad edirəm,
Tərk edib dəhri gedən dostlarımı yad edirəm.
Bizi xəlq eyləyən Allah kimi tək-tənhayam,
Sönməyən eşq ilə söz möcizi icad edirəm.

Hərdən də bir deyir:

Verməyibdir hələlik xalq mənim qiymətimi,
Qədrimi bəlkə də bir gün bilə, mən yazmalıyam.

Bu dünya kimin qədrini bilib ki, Sizin qədrinizi də bilə, Ənvər müəllim!

Biz hamımız gələcək üçün çalışırıq. Allah Sizə daha çox ömür versin!

27.12.08

PROFESSOR ELMƏDDİN ƏLİBƏYZADƏYƏ AÇIQ MƏKTUB

Elməddin müəllim, Mahmud Kaşğarinin "Divan"ında qəribə bir müraciət forması müəyyənləşdirmisən: "Oğuzlar böyük üçün sən, kiçik üçün siz deyirlər". Gəl elə o oğuzları yad eləyək, məndən böyük olsan da, bu yazıda onların dili ilə - "sən" sözü ilə danışaq. Bizdən kiçik olub, ideyalarımızı bəyənməyənlərə "Siz" deyərik.

Bu il, belə demək olar ki, həm çox işləmişəm, həm də az iş görmüşəm. Ona görə az iş görmüşəm ki, yeni yazılarım nisbətən az olub. Amma mart ayından bu günə qədər keçən əsrin son rübündə çap olunmuş kitablarımdan altısını kompüterdə yazdırmışam, hər birini 3-4 dəfə oxuyub imlasını düzəltmişəm, yüngül redaktə etmişəm və onlardan bir qismini birləşdirib nəzərdə tutduğum 10 cildliyin dördünü çap etdirmişəm. Özümə söz vermişdim ki, başqa heç nəyə baxmayacağam - bu il ancaq öz işimlə məşğul olacağam. Çünki ömür də insanlar kimi vəfasızdır və həm də bizdən sonra bizim işimizi heç kəs görməyəcəkdir.

Amma bizi idarə edən qüvvələr də var - İsa Hüseynov Teymurləngin dili ilə deyir ki, bu təbiətin yağışı var, ildırımı var, tufanı var… Eyni zamanda xeyirxah qüvvələri də var.

Məxləs. Bir qədər yorulmuşdum, əlimdəkiləri bir tərəfə atdım. Başqa bir işlə məşğul olmaq istədim. Birdən sənin "Azərbaycan dilinin tarixi" kitabın (1-ci cild, Azərbaycan Tərcümə Mərkəzi, Bakı, 2007, 660 s. Elmi redaktorları: prof.F.R.Zeynalov, prof.Y.M.Seyidov, f.e.n. A.Məmmədov, rəyçilər: prof.M.İsmayılov, prof.F.Zeynalov, prof.C.Qəhrəmanov, prof.Y.Seyidov, f.e.n.A.Məmmədov) əlimə keçdi. Axı mən də belə bir kitab yazmışam. Vərəqlədim ki, görüm nə kimi məsələlər qoymusan. Bir qədər də vərəqlədim, gördüm, yox, vərəqləməklə olmaz. Bu kitabı oxumaq lazımdır. Allah sənə insaf versin, öz işlərimi bir tərəfə qoyub, bir neçə günə bu kitabı oxumalı oldum.

Elə təzəcə qurtarmışdım ki, allahdan olan kimi, ikinci cildini verdin - əsasən eyni rəngdə, eyni formada, eyni redaktorlarla, eyni rəyçilərlə, 2008-ci il çapı, 640 səhifə.

Baxdım, amma mənə elə gəldi ki, əsəri yazmaq zəhmətindən çox, onun çapı üçün mənəvi əzab çəkmisən. İki cildlik 1983-cü ildə hazır olub, prof. Fərhad Zeynalov əsəri oxuyub, redaktə edib, üstünə yazıb ki, "Redaktə etdim, çapa gedə bilər" (25.IV.83), amma ha illah eləmisən, çap etdirə bilməmisən. Hətta 1987, 1988, 1989-cu illərdə rəsmi olaraq "Elm" nəşriyyatında çap planına da düşüb, amma "nəşriyyatın texniki imkanının olmamasından" çapı mümkün olmayıb. Başa düşürəm, səbəbi ayrı olub. Amma çox sağ ol, unutmamısan, Fərhad müəllimi yenə redaktor kimi saxlamısan. Nəhayət, bu keçən illərdə (2007, 2008) kitabın iki cilddə işıq üzü görməsində Hacı Vüqar Südef oğluna, Rəsulov Sərdar Muxtar oğluna, Vəliyev Yusif Sultan oğluna minnətdar olmaqda haqlısan.

Mən səni zəhmətkeş bilirdim, amma bu qədər təsəvvür etmirdim. Bu başdan deyim ki, bu kitabda sənin gördüyün işi bəlkə də böyük bir kollektiv və ya bir institut bu qədər səbrlə, bu qədər təmkin və səliqə ilə görə bilməzdi. Sənin bu kitabdakı hər bir fəslin bir sanballı monoqrafiyadır. "Orxon-Yenisey kitabələri və Azərbaycan dili" bir monoqrafiyadır, "Kitabi-Dədə Qorqud" haqqında yazdıqların bir monoqrafiyadır, Mahmud Kaşğarinin "Divan"ı və müasir Azərbaycan dili məsələləri bir monoqrafiyadır. Qalanını sadalamıram. Bir kitabda neçə kitab işləmisən.

Onu deyim ki, əsərində poetika məsələləri çox geniş yer tutur. Məsələn, ümumi giriş sözün ki var - "Tarix, ədəbi şəxsiyyət və dil" - daha çox poetika məsələləridir. Bu cəhəti Orxon-Yenisey abidələrindən danışanda da gözləmisən, "Dədə Qorqud"dan, Kaşğari "Divan"ından danışanda da. Bütün hallarda işi təbii olaraq yönəltmisən dil məsələləri üzərinə. "Ümumi giriş sözü" adlandırdığın ilk hissədə Azərbaycan dilinin türk dilləri ailəsində yeri məsələsinə də nəzər salmısan. P.M.Melioranskinin, S.Y.Malovun, V.V.Radlovun, N.A. Baskakovun bu barədə fikirlərini qeyd edirsən. Təbii ki, onların türkologiya aləmində xidmətləri böyükdür. Amma bir çox məsələləri də onlar

dolaşdırmışlar. Məsələn, S.Y.Malovdan sitat gətirirsən: "Qərbi türk dilləri ilkinliyinə görə özlərinin ən qədim Şərqi əsillərindən o qədər də gənc deyildir".(12) Üstündən keçirsən. "Qərbi türk dilləri" deyəndə daha çox kimlər yada gəlir? Azərbaycan dili, türk dili, qaqauz dili, Krım tatarlarının dili və s. S.Y.Malov bunların hamısına eyni ölçü ilə baxır. O, ayrı cür də baxa bilməzdi ona görə ki, əvvələn, Azərbaycan tarixini bilmirdi, ikincisi də, türklərin şərqdən qərbə yox, qərbdən şərqə yayıldığını bilmirdi. Dostum, sən onun fikri ilə bir qədər razılaşırsan, ona görə ki onun dediyində Azərbaycan dilinin Orxon-Yeniseylə bağlılığı var, bu da sənə əl verir ki, Azərbaycan dilinin köklərini Orxon-Yeniseydə axtarasan. Axtarmaq olar. Amma başqa cür: Azərbaycan türklərinin onlardan ayrılıb gəldiyi təsəvvürü ilə yox, onların Azərbaycandan ayrılıb getmələri düşüncəsi ilə. Artıq tarix göz qabağındadır: türklər Altaya Ön Asiyadan - Azərbaycandan getmişlər və son vaxtlar şəxsən bizim apardığımız müşahidə və faktlar göstərdi ki, xaqanlığı yaradan Aşina tayfası Azərbaycandan getmişdir. Bu, uzun əhvalatdır (bizim "Ahşina və Azərbaycan" məqaləmizə baxmaq olar), amma qısa deyirəm: Orxon-Yenisey türkləri xaqanlıq yaradanda burda - Azərbaycanda ümumxalq Azərbaycan dili mövcud idi. Bunlar Sergey Yefimoviçə məlum deyildi, heç indii özümüzünkülər bunu dərk və ya qəbul etmək istəmir, Malov necə edə bilərdi? Ona görə də deyir ki, Azərbaycan dili "ən yeni türk dillərindəndir". Amma S.Y.Malovda da günah yoxdur, bunu bizim filologiyamız aşkara çıxarmış olsa idi, Malov da bilərdi və belə deməzdi.

Yığcam şəkildə verdiyin "Azərbaycan xalqı və dilinin soy kökü - mənşəyi" bölməsində bir sıra məsələlərə toxunursan. Prof.-Ə.Dəmirçizadənin tənqidi də var. Professorun "Kitabi-Dədə Qorqud"u təhlil edərək Azərbaycan xalqının və onun dilinin X-XI əsrlərdə "yenicə təşəkkül tapdığı" barədə fikrinin düz olmadığını yüz faiz düz deyirsən və aşağıdakı fikrin də tam doğrudur: "…Dədə Qorqud kitabı"nın zəngin dili və üslubu bu fikrin tam əksini söyləyir; yəni xalqın, onun dilinin "ilk təşəkkül tapdığı dövrdə" onun türk dilində bu cür yetkin sənət abidəsi ola bilməzdi…" (136) Yenə deyirəm: tam doğru fikirdir. Mən son vaxtlar yazdığım yazılarda dəfələrlə qeyd etmişəm ki, çoxlarının

Azərbaycan yazılı dilinin "ilk nümunəsi" saydıqları Həsənoğlu qəzəlləri də, "Dastani-Əhməd Hərami" də, Qazi Bürhanəddin də ilk nümunə ola bilməz, bunlar uzun inkişaf yolunda olan ədəbi dilin müəyyən mərhələsindən bizə çatan əsərlərdir. "Dədə Qorqud" da o cümlədən.

Amma biz professoru da çox günahlandıra bilmərik. Onun dövrünə bax: hamı bar-bar bağırır ki, Azərbaycan dili Səlcuqların XI əsr gəlişindən sonra təşəkkül tapıb; hamı bağırır ki, Həsənoğlu ilk təbii işartıdır və s. Amma professorun son qənaətləri də var və tutarlı qənaətlərdir. Yazır ki, "Dədə Qorqud" Səlcuq oğuzlarının deyil, Azərbaycanın yerli türk-oğuzlarının dastanıdır və yazır ki, Azərbaycan xalqı və onun dili artıq VI əsrdə mövcud idi. Bunlar onun dövrü üçün çox böyük fikirlər idi. İndiki dövrdə sən "Dədə Qorqud"un yazıya alınma tarixini deyilənlərdən 6-7 əsr əvvələ aparırsan. Tam haqlısan. Amma "Dədə Qorqud" kök etibarilə bundan da qədimdir.

Çox maraqlı bir fəslin "Başlanğıc. Qədim mifik təsəvvürlərdə insanın doğuluşu" fəslidir. Burada mühüm bir ideyan var: "Bibliya"da "kainatın və insanın yaranması" kimi ciddi məsələdə əksini tapan bir sıra mühüm müddəalar, ilahi-dini məzmun-rəvayət və söhbətlər məhz şumer qaynaqlarından gəlir" (141) Deyirsən və çox geniş müqayisələr aparmaqla fikirlərini də lazımi şəkildə sübut edirsən və həm də haqlı fəxr edirsən ki, şumerlər - dünyanın bu ilk böyük mədəniyyət yaratmış xalqı bizim babalarımızdıvr. Bunların hamısı mənə ləzzət verdi. İstəməyən istəməsin. Fakt göz qabağındadır, özləri bilərlər.

Burada mühüm bir məsələni aydınlaşdırmaq istəyirsən: "Kainatın və insanın yaranması" məsələsini. Bunun üçün məlum şumer mifini gətirirsən, yaradılış haqqında fikirlərin "Bibliya"ya və dünya xalqlarının miflərinə, hətta Orxon-Yenisey abidələrinə şumerlərdən süzüldüyünü göstərirsən. Buna şübhə yoxdur. Lakin bir mühüm məsələ var ki, elmi baxımdan onunla razılaşmaq olmaz. Yazırsan: "Beləliklə, hər iki qaynaq (şumer və "Bibliya" - *Q.K.*) - başlanğıc, əslində, bir nöqtəni vurur, müasir elmin bilmək, həll etmək istədiyi çox mühüm, ciddi bir problemin üzərinə işıq salır. Qədim "Kainatın və insanın yaranması", Nuhun insanlığı xilası və "Bibliya"nı da bura əlavə etsək, hər üç nöqtə-fikir, mif,

fərziyyə - nə deyirsinizsə-deyin, bizi düşündürür, belə bir qənaətə gətirir ki, görünür, qədim əcdadlarımız bizdən ağıllı və tədbirli olublar. İnsanlığın soy kökünü, mənşəyini meymuna bağlamayıblar. …mötəbər qaynaqlar, faktlar, söylənilən ilahi fikirlər bir-birini tamamlayır, deyilənlərin həqiqət olduğuna inam yaradır: bəşər övladı, insan oğlu bir kökdən, bir ailədən doğulub, törəyib, dünyaya yayılıb; ilk başlanğıc məkanı da, sonuncu da Şumer bölgəsi olub, Azərbaycan isə onun bir guşəsi…" (150)

Az qalıram yenə deyəm ki, allah sənə insaf versin! Bir belə elmi söz deyə-deyə gəlib insanın mənşəyini Adəm ilə Həvvaya bağlamaq sənin elminin özünə də zərər vurur. Yəni sən bilmirsən ki, Adəm və Həvva məsələsi insanın yaratdığı nağıldır? Arxeoloji materiallar var, insanın insanlaşma prosesini elm 6 milyon il müddətinə müəyyənləşdirir - pilə-pillə. Zakir demişkən, "Adəm harda idi, Həvva kim idi?" İnsanın mənşəyini meymuna bağlamaq o demək deyil ki, insan elə bizim gördüyümüz bu meymunlardan əmələ gəlib. Yer üzündə elə bir münbit mərhələ yaranıb ki, meymunabənzər varlıq iki istiqamətdə - insanlaşmaya və meymunlaşmaya doğru inkiqşaf edib. Heç olmasa, onurğalı heyvanları nəzərdən keçirmək lazımdır: görün onların quruluşunda insandan bir misqal fərq varmı: baş həmin başdır, göz, qulaq, burun, diş, dil, ağız, ağ ciyər, qara ciyər, mədə, bağırsaq, cinsi alətlər, ayaq, baldır - nə fərq var? Guya insanın əsas fərqi onun düşünmək, danışmaq qabiliyyəti ilə bağlıdır. Sən nə bilirsən ki, heyvanlar düşünmür, ağlamır, gülmür? Hər şeyin nisbəti var. Keçi yatdığı yeri əvvəlcə dırnaqları ilə qaşıyıb təmizləyir, sonra yatır. Şir dağ kəlini yıxmaq üçün onun burnundan və onurğa sütunundan yapışır. Bunları hardan bilir o? Bunlar aşkar göstərmirmi ki, insan Yer kürəsinin özünün və öz təkamülünün məhsuludur. Bu qədər elmin ola-ola, sən nə üçün bu nağıllara inanırsan? Amma səndə də günah yoxdur: böyük alimlər bəzən qatı dindar olurlar.

İnsanın mənşəyini Şumerlə bağlamaq da düz olmaz. Şumerlər o əraziyə e.ə.6-cı minilliyin ortalarında gəliblər. Onlar gələnə qədər ətraf aləmlə yanaşı, İkiçayarasının özünün də əhalisi vardı. O doğrudur və tam haqlısan ki, bütün insanlar, bütün dillər və bütün dinlər bir kökdəndir. Amma sən "insan bir ailədən

doğulub" deyəndə cənnətdən "qovulan" Adəmi və onun bir qabırğasından "düzəldilən" Həvvanı nəzərdə tutursansa, daha sözüm yoxdur. Yəni sən doğrudan bilmirsən ki, bu cənnət, cəhənnəm əhvalatları da insanın yaşamaq arzusundan doğan bir mifdir? Dini kitabların özündə deyilir ki, ruh bədəndən ayrılandan sonra yaddaşını itirmiş olur. Ruh yaddaşını itirmiş olursa, onun yaşamağının tərk etdiyi bədənə nə xeyiri var?

İran-Turan müharibələrindən danışarkən Turanın türk dünyası olduğunu doğru deyirsən, bu o qədər aşkar faktdır ki, heç kim onu inkar edə bilmir. Və çox doğru deyirsən ki, e.ə. VII, VI əsrlərdə Alp Ər Tonqanın (Əfrasiyabın, Astiaqın) şərəfinə yazılmış ağılar "XI əsrdə yazıya alınmış olsa da, m. ö.VII, VI əsrlərin məhsuludur, buna heç bir şəkk-şübhə ola bilməz". (1,169) Düz deyirsən, amma gəl gör xaricilər heç, özümüzünküləri başa sala bilərsənmi? Heç düşməsinlər, sən tarix yazırsan, həm də yazdığın həqiqi tarixdir, gerçək tarixdir. Yazmaq lazımdır.

Alim olanların bir çoxu elə bilir ki, iki min il əvvəl bu xalqın nə ağlı olub, nə də dili. Ağıl da, dil də bu alimlər doğulan ərəfədə yaranıb.

Azərbaycanın əsas türk əhalisinin saklardan, skiflərdən, hunlardan ibarət olduğunu söyləyirsən və qeyd edirsən ki, "Azərbaycanda hunlar hələ miladdan əvvəl yayılmışlar; hunların qərbə tərəf yürüşü miladdan əvvəlki əsrlərə təsadüf edir". (191) Bunlar doğrudur. Bəs Azərbaycanın yerli əhalisi? Ən azı e.ə.3-cü minillikdən məlum olan kutilər, lullular, sular, turukkilər, kassitlər, mağlar, utilər, müklər? Hunlar və isgitlər burdan gedib qayıdan tayfalardır. Əsas kök yerli əhalidir - Mannanın, Madanın qədim köklü tayfaları. Onları unutsaq, Azərbaycan xalqının etnogenezini düzgün müəyyənləşdirə bilmərik.

Bir mühüm məsələ də Azərbaycan türklərinin xaqanlıq tərkibində (Tuqyu-türk xaqanlığı) hesab edilməsidir. Türk xaqanlığının mövcud olduğu dövrdə Azərbaycan Sasanilər dövləti tərkibində olmuşdur. Xaqanlığın sərhədləri şimaldan - Albaniyanın başı üzərindən keçib gedirdi və Azərbaycan ora daxil deyildi. O dövləti yaradan aşinalılar vaxtilə Azərbaycandan getmiş bir tayfa idi. Azərbaycanın yerli türk əhalisi bir xalq kimi onlardan əvvəl mövcud idi. Xəzərlər hərdən Albaniyaya basqın

etsələr də, Albaniyanı Xaqanlığa qata bilməmişlər. İbn Məskuyənin yazdığı doğrudur: "Ənuşirəvan söyləyir ki, şimal rayonlarında yaşayan türklər bizə yazırlar ki, biz ehtiyac içərisindəyik, əgər bizə bir şey verməsəniz, sizinlə vuruşmağa məcburuq". Hərdən vuruşmuş, ölkəni qarət etmiş, çox zaman da məğlub olmuşlar. Onların bir qisminin Albaniya ərazisində dövlətin razılığı ilə yerləşdirildiyi hallar da var. Ənuşirəvan etiraf etmişdir ki, "Əlli üç min türkün bir hissəsini Bərcanda olan hərbi hissənin yanında, bir hissəsini Allanda, bir hissəsini də Azərbaycanda yerləşdirdim və hüdud boyunca ehtiyac görünən yerləri onlara payladım". (198)

Ərəblərin bizim tarixə vurduğu zərəri və zərbəni düzgün qeyd edirsən: "VII əsrdən başlanan ərəb istilası Azərbaycanda çox qarışıqlıq törətdi. Ərəblər ölkədə bütün yerli xəlqi mədəniyyətin kökünü kəsərək Azərbaycan tarixinin qədim keçmişini bugünədək şübhə və dolaşıqlıq içərisində qoydular". (200) Bu cəhətdən lənətə layiqdirlər… "İstila öz işini görürdü; türk xalqları zorla müsəlmanlaşdırılır, mədəniyyət abidələri məhv olur, xalqın maddi-mənəvi sərvətləri daşınıb aparılırdı; əsasını miladdan əvvəlki çox uzaq dövrlərdən alan türk yazı mədəniyyəti batırılır, ərəb əlifbası zorla qəbul etdirilirdi". Tarixi faciələrimizin əsası bunlarla bağlıdır və bunlar türk tarixini sevməyənlərin əlinə onu yanlış izah etmək üçün böyük kozur vermişdir. Böyük Nizami demişkən, yerdə qırıntılar qalmışdır və o qırıntılar hesabına biz öz tariximizi düzgün yazmalıyıq. Sənin bu böyük kitabın da bu məqsədə xidmət edir.

Oğuzların qırğız çöllərində yaşayıb, XI əsrdə gələrək Cənubi Qafqaz əhalisini türkləşdirməsi barədə nağılın yanlış olduğunu düz deyirsən. Bu bayatı artıq tam köhnəlmişdir. Arran dili haqqında fikrin də tam doğrudur - Arran dili Azərbaycan (şimal) türklərinin dilidir. Azərbaycan sözü haqqında fikrinə etiraz etmirəm. Bu sözü çox müxtəlif şəkildə izah edirlər, tarixi də, düz deyirsən, çox qədimdir. Amma azəri sözü haqqında Ə.Kəsrəvinin və V.Millerin fikirlərinə nahaq uyursan, onlar bilə-bilə bu sözü İran tayfalarından birinin adı kimi izah etmişlər. Azəri sözü Azərbaycan sözündəndir, Azərbaycan sözünün ixtisar şəklidir, Azərbaycan sözünün əsasında nə durursa, onun əsasında da o

durur. Bir də bilmirəm niyə Azərbaycanın şimalında və cənubunda geniş yayılmış qədim türk utilərlə dünən-srağagün yaranmış bir ovuc udinləri eyniləşdirirsən? Nəhayət, Azərbaycan xalqı və onun dilinin (xalq dilinin) təşəkkül tarixi haqqında yazırsan: "Azərbaycan" adının "doğuluşu" və formalaşması təxminən miladi tarixin əvvəllərinə aiddir; dilin ölkənin adı ilə adlanması sonrakı dövrlərlə bağlı olsa da, kökləri bu torpaqda daha dərindir və miladi tarixdən əvvəlki dövrlərə gedib çıxır; istər ümumi şəkildə "türk", istər "oğuz", istərsə də "Azərbaycan" sözlərilə bağlı olan anlayışlar *artıq m.ö. VII -VI əsrlərdə xalq və onun dili mənasında* (kursiv mənimdir - *Q.K.*) mövcud idi, formalaşmışdı; Alp Ər Tonqanın ölümünə ağılar bu dövrün məhsulu idi".(226) Hər halda, eramızın V əsrindən gec olmayıb.

Kitabını oxuyanlar təxminən 70 səhifəlik yazıda Orxon-Yenisey kitabələri, əlifbanın qrafikası və mənşəyi, fonetik xüsusiyyətləri, kitabələrin dil və üslub məsələləri, lüğət tərkibi və sintaktik quruluşu barədə - bir çox hallarda müasir Azərbaycan dili ilə müqayisədə - zəngin məlumat alacaqlar. Bunlar böyük zəhmətin nəticəsidir. Böyük bir fəslin "Kitabi-Dədə Qorqud"un dilinə həsr olunmuşdur. Burada da dastanın əlifba, orfoqrafiya məsələlərinə, yazıya alınma tarixinə geniş yer vermisən. Tədqiqatın canını dastanın poetikası təşkil edir (səslərin poeziyası, paronimlər, təcəssümlər, epitetlər, təşbehlər, mübaliğələr, təkrarlar, bədii suallar, frazeoloji vahidlər, atalar sözləri və məsəllər, andlar, alqışlar, qarğışlar, ağılar, oxşamalar və s.). Dastana artırmaları və yad qatları da düzgün müəyyənləşdirmisən. Bu nəticəyə gəlirsən ki, "Dədə Qorqud kitabı" VI-VII əsrlərin abidəsi, onun dili təxminən VI-IX əsrlərin Azərbaycan dilidir". "Kitab"ın Homerin poemaları ilə bizim tərəfimizdən aparılan müqayisəsi göstərir ki, o, çox qədimdir. Amma onun son formalaşma dövrü və şifahi ədəbi dilimizə xidməti barədə eyni fikirdəyik.

Çox mühüm bir cəhəti müşahidə etmisən: "Dədə Qorqud"un dilində ***v*** ilə deyilən bir sıra sözlər Orxon-Yenisey abidələrində ***b*** ilə deyilir:

DQ-da: *av, var, verdim, evə, evərəyin, sevindi* və s.

O.-Y-də: *ab, bar, bertim, eb, sebinip* və s.

Q - x, q - h səsləri haqqında da belə misalların var. Bunlar hələlik heç kimin şərh etmədiyi bir məsələ ilə bağlıdır. Bu cür hallar Azərbaycan dilinin Şərqi türk dillərindən fərqini və qədimliyini göstərən ən mühüm əlamətlərdəndir. Bunları sistemli şəkildə aşkara çıxarmaqla Azərbaycan dilinin qədimliyini, çox qədim türk tayfa dilləri əsasında təşəkkül tapdığını və bu uzun yolda heç bir assimilyasiyaya uğramadığını göstərən faktlardandır. Bu, dilin fizioloji-akustik cəhəti ilə bağlı məsələdər. Dil də daim "öz işini" asanlaşdırmaq istiqamətində inkişaf edir. Kipləşən samitdən sürtünən samitə keçid dilin inkişafının mühüm keyfiyyətlərindəndir. Sürtünən samitlərin tələffüzü asandır. Azərbaycan dilinin qədim abidəsində bu halın olması göstərir ki, Azərbaycan dili kök dildir, sabit inkişaf yolu keçmişdir. Ondan ayrılıb gedənlər o inkişaf yolunu keçə bilməmişlər.

"Azərbaycan dili yeni ictimai-siyasi şəraitdə" adlandırdığın fəsildə (VII fəsil) yeniliklərin çoxdur. Bizim XI-XII əsrin farsdilli şerimizdə, xüsusilə Xaqaninin və Nizaminin əsərlərində türk ruhunu, türk söz və ifadələrini dil tarixi baxımından sistemli şəkildə əhatə etmisən. Bu barədə məqalələr, kitablar var, amma sən onları artıq lazımi axara yönəltmisən. Y.N.Marrın Səid Nəfisidən verdiyi aşağıdakı sözlər Nizamidə türk ruhu barədə tutarlı dəlildir: "Nizami fars şairi deyil, o, Azərbaycan mühitində yaşamış, yazıb-yaratmışdır və onun şeirləri farslara qəribə gəlir". Elə Həmid Araslı da yaxşı deyib: "Nizami əsərlərini fars dilində yazmasına baxmayaraq, həmişə bir azərbaycanlı kimi düşünmüş, öz obrazlı ifadələrini həmişə xalqdan, canlı xalq dilindən almışdır. Təsadüfi deyildir ki, farslar Nizami və Xaqani şeirlərindən danışanda "buyi-türk miayəd" - deyirlər". Sənin bu fəsildə ən böyük xidmətin XIII əsrin əvvəlinə aid "Qisseyi-Yusif" (1218) və həmin əsrin sonlarına aid "Dastani-Əhməd Hərami" məsnəvilərini dil, üslub və sənətkarlıq baxımından geniş təhlilin, tədqiqindir. Sən çox doğru deyirsən ki, "Qisseyi-Yusif"in müəllifi Əli bu əsəri 1218-ci ildə tamamlasa da, 12-ci əsrin şairidir və Nizaminin müasiridir. Budur, Allah ömür verib, XXI əsrdən 8 ili yola salırıq. Sənin də, mənim də əsas yaradıcılığımız isə XX əsrdə keçib. İndii biz hansı əsrin adamıyıq? Əli də o cür. Mən də bu əsərin dilinə bələdəm. Mən də orada başqa bir türk dilinin sistemli

elementlərini, Azərbaycan dilinə yad olan cəhətlər görmürəm. Ona görə də "Qisseyi-Yusif"in dili Azərbaycan-türk dilidir; oradakı arxaik söz və ifadə şəkillərini nəzərə almaqla, bu dil XII-XIII əsrlər və ondan qabaqkı Azərbaycan dili ilə də, müasir Azərbaycan dili ilə də tam səsləşir" - fikrinlə tam razıyam. Fikir verməmiş olmazsan ki, aşağıdakı misralar "Dədə Qorqud"la necə gözəl səsləşir:

Hilalə bənzər sənin qaşların var,
Saf yincüyə bənzər sənin dişlərin var.

Sənin aşağıdakı fikrini başqa şəkildə dəfələrlə mən də demişəm. Amma hələ də bizim cəmiyyət buradakı fikrin tam doğru olduğunu qəbul etmək iqtidarında deyildir: "Qisseyi-Yusif"in dili min illər boyu inkişaf yolu keçmiş və XII-XIII əsrlərdə zirvəyə yüksəlmiş ədəbi dil nümunəsidir (kursiv mənimdir - Q.K.). Poemanın dili göstərir ki, o dövrdə Azərbaycan-türk dilinin sabit qrammatik qanunları vardı, onun cümlələri səlis, ifadələri yerində idi. Ad, adamlara əsl-nəsəbinə görə müraciət şəkilləri müəyyən idi". Elə bilirlər ki, bunlar bizim ədəbi dilimizin cücərtiləri, ilk nümunələri imiş. Bu cəhətdən gəldiyin nəticə də tam doğrudur: "XII - XIII əsrlərədək, təxminən min il və bir qədər də artıq müddət ərzində farsdilli tayfalarla əlaqə-ilişkənliyə, bu və ya başqa münasibətlərə və beş yüz ilə yaxın bir vaxtda qatı ərəbçilik siyasətinə baxmayaraq, "Qisseyi-Yusif" poemasının dili göstərir ki, Azərbaycan dili öz varlığını qoruyub saxlamış, yad təsirlərə qarşı güclü mübarizə aparmışdır".

Hər iki məsnəvinin dil və üslub, fonetik və bəzi poetik xüsusiyyətlərini, "Dədə Qorqud"la və müasir dilimizlə əlaqə və münasibətlərini, arxaizmlər, alınmalar, söz yaradıcılığı məsələlərini tədqiqata cəlb etmisən.

660 səhifəlik birinci kitab İbn-Mühənnanın "İbn-Mühənna lüğəti" adı ilə daha çox məşhur olan "Kitabi-tərcümani farsi və türki və moğuli" əsərinin və Həsənoğlu qəzəllərinin təhlili ilə bitir. "Kitabi-tərcüman"ı Azərbaycan dilinin tədqiqi tarixinə aid edirsən, P.M.Melioranskinin dediklərinə və əsərin dil materialına əsaslanaraq XIII əsrin bu qiymətli abidəsini Azərbaycan dili

abidəsi kimi tədqiq edirsən. Əsərin bir sıra morfoloji, sintaktik və leksik xüsusiyyətlərini ilk dəfə geniş şəkildə nəzərdən keçirmiş, lüğət materialını nitq hissələri üzrə qruplaşdırmaqla, Azərbaycan dilinin XIII əsr mənzərəsi barədə əlavə təsəvvür yaratmağa nail olmusan. Bura qədərki dövrü ümumiləşdirərək yazırsan: "Beləliklə, XII-XIII əsrlər, dövrün mürəkkəb şəraiti və ziddiyyətlərinə baxmayaraq, növbəti dövrlər üçün güclü zəmin hazırlamışdır. Azərbaycan yazılı ədəbi dili xeyli şaxələnmiş, canlı dil elmi-qrammatik təhlil obyekti olmuş, onun şeir, poema dili, üslubi sahələri yaranmış və gələcək inkişafının əsas xətti müəyyən edilmişdir".

İkinci kitabın da (640 səh.) qiymətlidir, lakin yolu uzun və qaranlıq olan birinci kitabın mübahisəli görünən bir sıra məsələlərinə baxmayaraq, vəzncə ikincidən daha ağırdır. Demirəm buradakı iş asandır, demirəm burada zəhmət azdır. Xeyr, burdakı zəhməti də ancaq bir kollektiv çəkə bilərdi: Nəsiminin, Kişvərinin, Şah İsmayıl Xətainin, Füzulinin, Qövsi Təbrizinin, M.P.Vaqifin, M.F.Axundovun, Həsənbəy Zərdabinin, F.Köçərlinin, C.Məmmədquluzadənin, M.Ə.Sabirin dövrü. üslubu, dilimizin inkişafı sahəsində xidmətləri, xalq dilinə münasibəti, əsərlərinin dil və sənətkarlıq xüsusiyyətləri, hər birinin poetikası haqqında tədqiq və araşdırmalar dilimizin tarixinin tədqiqi sahəsində böyük mükafatlara layiqdir. Hələ üstəlik folklor dilinin, hələ əlavə olaraq Aşıq Ələsgər yaradıcılığının tədqiqi. Bilən bilir ki, bunlar asanlıqla başa gələn araşdırmalar deyil. Doğrudur, bizim ədəbiyyatımız bunlardan ibarət deyil. Qazi Bürhanəddindən başlamış, bu günə - Şahin Fərzəlinin, Ənvər Nəzərlinin yeni, müasir "Divan"larına qədər klassik ədəbiyyatımız, onun daha humanist nəsr, poeziya, dramaturgiya kimi zəhmli qolları davam etməkdədir, amma səndən və məndən bunların hamısının tədqiqi tələb olunmur. Həyat davam edir, gənclik var, gələcək nəsillər var. Sən öz vəzifəni artıqlaması ilə, ləyaqətlə yerinə yetirmisən. Sənin yazdıqların səndən sonrakıların beynini keçmişin dil və sənət aləmi ilə zərrə-zərrə doldurub. Böyük xeyirxahlıq yolunun yolçusu olmusan.

Vətəni sevən övladı vətən də sevməlidir.

Vətənin xoşbəxt gələcəyi naminə…

Qəzənfər KAZIMOV
Professor
31.12.08

MİKAYIL AZAFLININ YENİ HƏYATI
və ya
QOCA QARTALIN "QOCA AZAFLIYAM..." KİTABI

Sağlığında öz layiqli qiymətini ala bilməsə də, Mikayıl Azaflı o xoşbəxt insanlardandır ki, xalqın yaddaşında ozan, ustad aşıq, saz-söz ustası, el sənətkarı - şair kimi yaşayır. Qurbani kimi, Ələsgər kimi, indi onu da "aşıq" adlandırırıq. Aşıqlar isə şifahi

ədəbiyyatın nümayəndələri hesab olunur. Mənə elə gəlir ki, bu cür qiymətləndirmə ilə bu silkə mənsub olan sənətkarlar öz həqiqi qiymətini ala bilmirlər. Əslində, Mikayıl Azaflının son nümayəndələrindən olduğu bu ədəbiyyatı şifahi ədəbiyyat nümunəsi saymaq məntiqsizdir. Onların keçdiyi yol böyük yoldur. Bu yolun başlanğıcında adlarını bilmədiyimiz çox qədim ozanlar durur, onların bizə çatan son və çox qədim nümayəndəsi Dədə Qorqud dayanır. Sonralar bu yol Mola Qasım, Qurbani, Xəstə Qasım, Valeh, Alı, Ələskər sənəti ilə inkişaf edib. Bu sənət XV-XVI əsrlərdə ədəbiyyata Şah İsmayıl Xətaini verib, XVIII əsrdə M.P.Vaqifi, XIX əsrdə Q.B.Zakiri, XX əsrdə S.Vurğunu, O.Sarıvəllini, H.Arifi və nəhayət, Z.Yaqubu verib. Bu üslub şifahi ədəbiyyatla yazılı ədəbiyyat arasında mövqe tutan orta üslubdur. Bu üslubun nümayəndələrinin yaratdığı sənət əsərləri xalq ruhuna son dərəcə yaxındır və xüsusilə yazı-pozunun nisbətən az olduğu keçmiş dövrlərdə onların əsərləri asanlıqla öz müəllifini itirib şifahiləşə bilirdi. Xalq bayatılarının çoxu bu yolla əmələ gəlmişdir. Bunlar əsl el sənətkarı, el şairləridir. Onların şeirlərinin çoxunu, yazılı ədəbiyyat nümunələrindən fərqli olaraq, xalq əzbər bilir.

İkinci bir cəhət də budur ki, bəzən dil tarixinin tədqiqi prosesində belə sənətkarların dilinə o qədər də etibar edilmir. Həqiqətdə isə xalq dilinin sənətkarın dövrünə məxsus təbii mənzərəsi onların əsərlərində əks olunmuş olur. O, başqa məsələdir ki, klassik ədəbiyyatın nümayəndəsi dünya şöhrətlidir və ya onun əsərləri savadlılıq nümunəsi kimi, ali ifadə formaları ilə zəngindir.

Aşıqlıq onların yüksək saz havaları bilməsi, bəstəkarlığı, saz çalıb-oxuma sənətkarlığı ilə bağlıdır. Bizim böyük saz ustaları ozanlardan gələn bu qabiliyyəti daim mühafizə etmişlər - saz çalıb-oxumaq, oynamaq, şeir demək. Mikayıl Azaflı XX əsrin ikinci yarısında xalqın yetişdirdiyi görkəmli el sənətkarıdır, şairdir, eyni zamanda görkəmli saz ustasıdır.

Adətən, el şairlərinin əsərləri az çap olunur. Sovet dövründə də bu ənənə davam edib, odur ki Mikayıl Azaflının əsərləri də öz sağlığında tam toplu şəkildə işıq üzü görə bilməyib. Bu günlərdə Musiqili Komediya Teatrında yüksək səviyyədə təqdimatı

keçirilən770 səhifəlik "Qoca Azaflıyam…" kitabı (Bakı, "Nurlan", 2008; tərtib edənlər: prof.Qəzənfər Paşayev və Maral Azaflı, redaktorlar: prof. Məhərrəm Qasımlı və Gülarə Azaflı, rəyçilər: xalq şairi Zəlimxan Yaqub və f.e.n. Elxan Məmmədli, naşir: prof. Nadir Məmmədli) ədəbi ictimaiyyətə böyük hədiyyədir. Kitab İraq-türkmən folklorunun Azərbaycanda və bir sıra Şərq ölkələrində geniş yayılmasında xüsusi xidmətləri olan dostum və adaşım professor Qəzənfər Paşayevin geniş ön sözü ilə çap olunmuşdur. Belə bir kitabın işıq üzü görməsində maddi kömək göstərdiyinə görə xeyriyyəçi ziyalı Namazalı Məmmədov təşəkkürə layiqdir.

Kitab Mikayıl Azaflının, demək olar kit, bütün poetik irsini əhatə edir. Q.Paşayev ön sözdə Mikayıl Azaflının keçdiyi enişli-yoxuşlu həyat yolunu ətraflı işıqlandırmış və ilk dəfə olaraq sənətkarın yaradıcılığının bir sıra mühüm xüsusiyyətlərini aydınlaşdırmışdır.

Mən Azaflı ilə keçən əsrin 80-ci illərinin əvvəllərindən tanış idim. Kəlbəcərdə - İstisuda tanış olmuşduq. El sənətinin tarixinə dair xeyli söhbət etmişdik. Onun özünəməxsus bilik və ifadə tərzi, yaxşı yaddaşı vardı. Aşıq yaradıcılığına aid bir şey soruşduqda konkret cavab verərdi: "Ustadıma onun öz ustadı deyib ki, bu hadisə belə olub". O zamanlar mən Qurbani ilə daha çox maraqlanırdım. Mənə Qurbaninin "Şah Xətai" adlı bir gəraylısını da vermişdi. Sonralar gördüm ki,prof.V.Vəliyev də həmin şeri Azaflıdan alıb. özünün "Qaynavr söz çeşməsi" kitabına daxil edib.

Mən bilirdim ki, Mikayıl kişi şeirlər yazır, onun gəraylıları, təcnisləri, qoşmaları var. Amma mən təsəvvür etməzdim ki, Mikayıl Azaflı belə bir zəngin yaradıcılığa malikdir. Onun bütün əsərlərini ortalığa çıxarmaqla Qəzənfər müəllim və Maral xanım bu kişiyə yeni həyat bəxş edib, onu əbədiyyətə qovuşdurub. Mikayıl Azaflı üçün bundan böyük mükafat təsəvvür etmirəm. Çünki adətən el sənətkarı vəfat etdikdən, onun əsərləri itib-batdıqdan, əldən-ələ gəzib korlandıqdan sonra əl-ayağa düşüb qırıq-quruq nə ələ gəldi toplamaq bizim vərdişimizdir. Amma Qəzənfər müəllim və sənətkarın qızı Maral xanım Azaflının yaradıcılığını, ədəbi irsini bakirə halda toplayıb çap etdirməklə şairə heykəl ucaltmışlar. Q.Paşayev ön sözdə yazır: "Aşığın şeir

bağçasında yer alan bir-birindən gözəl gəraylılar, təcnislər, qoşmalar, müxəmməslər, divanilər, vücudnamələr, cahannamələr, sicilləmələr, ustadnamələr, ithaflar, nəzirələr, bağlama-qıfılbənd deyişmələr, şeirlə məktublaşmalar, bayatılar, hətta rübai və qəzəllər, poema və dastanlar saz-söz pərəstişkarlarını məftun edir. Bu onun həm klassik aşıq sənətinə dərindən bələd olması, həm də yazılı ədəbiyyatımızı yaxşı bilməsi ilə böağlı idi".

Azaflının bir kitablıq gəraylısı, bir kitablıq qoşması, tərtibçilərin "təsnif" adlandırdığı xeyli başqa formalı şeirləri var. Bunların, demək olar ki, hamısı orijinal şeirlərdir və klassik aşıqlarımızdan iqtibaslara təsadüf edilmir.

Azaflı dünya görmüş adamlardan idi. Bu dünyanın acılarını da çox yemiş, şirinindən də dadmışdı. Bu dünyanın işləklərindən çox zaman narazı idi. "İlham alar təbiətdən, Şeir, dastan düzər aşıq", "Xəyalların qanadında Min çiçəyə qonar şair" - deyə aşığın və şairin ürək dərdlərini geniş mənada duyan sənətkar çox qoca olan bu dünyanın hələ də ağıllanmadığını dəfələrlə qeyd etmişdir:

Neçə əsr, il dolandın,
Nə yaxşı, nə yaman qandın.
Hamıdan qabaq yarandın,
Ağlın yoxdu hələ, dünya.

Mikayıl Azaflının çox çətin janr olan təcnis yaradıcılığı çox zəngindir. Adi qoşma-təcnislərlə yanaşı, təcnisin gəraylı təcnis, cığalı gəraylı təcnis, cığalı qoşma təcnis, dodaqdəyməz qoşma təcnis, cığalı hərf və ya əvvəl-axır təcnis, bir hərf (d hərfi) üzrə dodaqdəyməz təcnis, dodaqdəyməz cığalı təcnis, dil tərpənməz təcnis, qıfılbənd təcnis, ikiayaqlı təcnis, ikibaşlı təcnis, gedərgəlməz təcnis, dilsiz (dodaqdəyməz, diltərpənməz) təcnis, baş və ya qara təcnis, divani dodaqdəyməz təcnis, nöqtəsiz təcnis (ərəb əlifbası ilə yazılanda nöqtədən istifadə edilmir), nəfəsçəkmə kimi növlərində şeirlər yazmış, struktur-forma tələbləri ilə bərabər, mənaya da ciddi diqqət yetirmişdir. Bunlar bir nümunə kimi onun yaradıcılığının nə qədər əlvan olduğunu aydın göstərir. Aşığın "A yaşa-yaşa" dodaqdəyməz qoşma təcnisindən iki bənd:

Gənclik illər təki hey keçər gedər,
Silsilə dağları ay aşa-aşa.
Xəyallarda keçən tarix seyr edər,
Əllidən keçəndə a yaşa, yaşa.

Aşıqlar qəhərdən a dad qazanar,
İgidlər cahanda ad, ad qazanar.
Alçaqlar, nakəslər a dad qazanar,
Yaltaqlar can satar ay aş, ay aşa.

Birinci bənddə cinaslar aydındır: gənclik çətinlikləri aşa-aşa keçər, 50-ni keçəndə yaşamaq çətinləşir, keçən günlərin xəyalları ilə yaşayırsan. İkinci bəndin son misrasında yaltaqların çörək (aş) üçün can satdıqları söylənilir. İkinci bəndin ikinci misrası da aydındır: igidlər ad qazanar. Amma ikinci bəndin birinci və üçüncü misralarını düşünmək lazım gəlir. Birinci misrada madam qəhər var, deməli, burada dad - "dad eləmək", "zülmdən dad çəkmək" mənası verir. Üçüncü misrada "dad qazanmaq" alçaqların, nakəslərin dad qazanması, kef çəkməsi mənasında güman edilə bilər. Buradan göründüyü kimi, cinas qafiyələrin bir qismi asan başa düşülsə də, bir qismi kütləvi oxucu üçün çətin ola bilər. Ümumən bütün şairlərdə belədir. Heç şübhəsiz, şairin övladları bu təcnislərə bələddir, çoxu onların gözü önündə yazılıb, odur ki onlara qeydlər şəklində izah vermək yaxşı olarda.

Təcnislər içərisində bir "təxmis-təcnis" də var:

Yar alar qəlbimi, o qan-qan deyər,
Oxladı ox atan, ox anan məni.
Yaralar qəlbimi o qan-qan deyər,
Oxladı ox atan oxa nan məni.

Bir cəm badə getdi bir cəmin üstə,
Bir Cəm badə getdi bir Cəmin üstə,
Bircəm badə getdi bircəmin üstə,
Oxladı o xatan, o xanan məni.

Əvvəl rədif misralara diqqət yetirək: birinci bəndin ikinci misrasında, yəqin ki, sevgilinin atasının, anasının oxlamasından, aşiqi imtahana çəkməsindən, incitməsindən söhbət gedir.

Dördüncü misrada ox atanın (yəqin ki, sevgilinin) aşiqi oxa yem (nan) etməsindən, yəni aşiqi hədəfə çevirməsindən danışılır. İkinci bəndin son misrasında törədilən xatanın aşiqi oxlamasından bəhs olunur. Bunlar aydındır. Birinci bəndin ilk misrasında "yar qəlbimi alar və başa düş - qan deyər", üçüncü misrada əzazilləşərək "qan-qan deyər" mənası anlaşılır. İkinci bəndin ilk misrasında cəm sözü bəlkə də dəstə mənasındadır: bir yığın badə bir dəstə adamın üstünə aparılar. İkinci misrada Cəm şəxs adıdır - Cəmşidi-Cəmə işarədir və misranın ümumi məzmunu "bir adamın başqa bir adama görə bada getməsi"dir. Üçüncü misrada bircə balanın bircə bala üstündə bada getdiyi başa düşülür. Biz bunları bu cür yoza bildik. Çətinliklər göstərir ki, gələcək çaplarda təcnislərə izah lazımdır. Digər tərəfdən, təxmis elə şeir formasıdır ki, iki misrası başqa şairdən götürülür, şair müvafiq şəkildə ona əvvəldən üç misra əlavə edir. Məsələn, Füzulinin Həbibi qəzəlinə təxmisi kimi:

Ta cünun rəxtin geyib, dutdum fəna mülkün vətən,
Əhli-təcridəm, qəbul etmən qəbavü pirəhən.
Hər qəbavü pirəhən geysəm misali-qönçə mən,
"Gər sənincün qılmasam çak, ey büti-nazikbədən,
Gorum olsun bu qəba, əynimdə pirahən kəfən".

Şairin kimin şerini təxmis etdiyini qeyd etmək olardı.

Hiss olunur ki, Azaflı təcnis yaradıcılığı texnikasına yüksək dərəcədə bələd olmuş və təcnis yaradıcılığına xüsusi səy göstərmişdir. Eyni zamanda gözəl müxəmməsləri var. 16-lıq şəklində yazılmış bu müxəmməslərin misralarını aşıqlar asanlıqla 8 hecalı şer kimi bölüb oxuyurlar. Adi müxəmməslərlə yanaşı, qoşayarpaq cığalı müxəmməsləri, vücudnaməsi, divaniləri, sicilləmələri, ustadnamələri, cahannamələri vardır. Aşıq Valeh, Aşıq Ələsgər, Mola Cümə, Xaltanlı Tağı, Mikayıl Azaflı yaradıcılığında cahannamələrin yaxşı nümunələrinə rast gəlsək də, onun ilk nümunəsini Qurbani yaratmışdır.

Mikayıl Azaflı bir vaxtlar "Dövlət Təhlükəsizlik Komitəsinin qara siyahısına düşmüş" və 1961-1964-cü illərdə həbsxana həyatı keçirmişdir. Həbsxanada bir sıra şeirlər yazmışdır. Tərtibçilər

həmin şeirləri "Zindan şeirləri" adı altında vermişlər. Zindan şeirləri aşığın kədər və iztirablarını, haqsızlıqdan şikayətlərini, dostlardan, qohumlardan ayrı düşdüyünü, "dünyada ədalətin olmadığını" göstərən şeirlərdir:

Azaflı nə desin belə dünyaya,
Olubdur qanunlar tələ dünyaya.
Tarix söylədi ki, hələ dünyaya
Bir doğru ədalət, divan gəlmədi.

Azaflı Şəhriyara, Səməd Vurğuna, Qarslı Aşıq İslama, Hüseyn Bozalqanlıya, prof. Yusif Yusifova, Aşıq Ələsgərə, baş çoban Musa Dünyamalıyevə, Aşıq Alıya, Aşıq Şəmşirə, Aşıq İmrana, qızı Marala, Aşıq Pəri məclisinə, Mülkülü Həsənə, Cahan Əfruza, Əli Kafkasiyalıya, Osman Sarıvəlliyə, Aşıq Mirzəyə, Qəzənfər Paşayevə və bir sıra başqa şəxslərə ithaflar yazmışdır. Qarşılıqlı olaraq Aşıq Şəmşirin, Maral, Dilarə, Minayə, Gülarə Azaflıların, Həsən Mirzənin, Aşıq Kamandarın, Eldar İsmayılın, Abbas Zərgərin və başqalarının da ona ithafları vardır. Bunlardan əlavə, Azaflı görkəmli aşıqların, şairlərin ünvanına mərsiyələr yazmışdır. Kitabın böyük bir hissəsini Mikayıl Azaflının Aşıq Əhmədlə, İbrahim Əsrikli, Narınc Xatun, Aşıq Paşa, Qəmkeş Allahverdi, Hüseyn Arif, Zəlimxan Yaqub, Müzəffər Şükür, Aşıq Soltan, Musa Mehman, Mustafa İsgəndərzadə, Rasim Kərimli, Mola Əhməd, Aşıq İslam, Cavan Səməd və başqaları ilə deyişmələri tutur. Tərtibçilərin "bənzərsiz şeirlər" adlandırdıqları şeirləri, qəzəlləri, mənzum məktubları, poemalırı da göstərir ki, kitab çox zəngindir və Azaflı məhsuldar yaradıcılıq yolu keçmişdir.

Qeyd edim ki, mənim nəzərimdə, nədənsə, ozan sazı, ozan sözü və musiqisi indiki aşıq musiqisindən fərqli təsir çalarına malikdir. Eşitməmişəm, görməmişəm, amma mənə elə gəlir ki, ozanlar indiki aşıqlar kimi, cır zəngulələr vurmayıb, onların səslərində bir inilti, bir kədər - ağır xalq kədəri, əks halda, bir qəhrəmanlıq, vüqar, bir igidlik, daha xoş duyğular ahəngi olub. Mən bunları bir qədər türk aşıq musiqisində, bir qədər də Orta Asiya türklərinin musiqisində duymuşam. Amma təsəvvür

etdiyim qədər də yox. 1989-cu ilin 1 noyabr gecəsi Pedaqoji Universitetin böyük zalında Hüseyn Arifin 60 illiyini keçirəndə (Hüseynin bir çox qəribə işləri kimi, bu işi də qəribə idi - deyirdi ki, 60 illiyini keçirir, amma 65 yaşında idi) Mikayıl Azaflını da dəvət etmişdik. Hüseyn Arif onu "El ağsaqqalı, Alının, Ələsgərin canlı yadigarı" adlandırdı.

Mikayıl kişi xeyli ağırlaşmışdı (bu məclisdən sonra cəmi 11 ay yaşaya bilmişdir), söz verdim, ağır-ağır səhnəyə qalxdı, yenicə yazdığı və Hüseynə həsr etdiyi, üzərində bir daha işləyəcəyini bildirdiyi şerini oxudu (şeir kitabda gözümə dəymədi, görünür, Azaflının belə itib-batan şeirləri hələ çoxdur):

İstərəm hər zaman şerin, sənətin
Əsrlər dolansın, ay Arif Hüseyn!
Ellərin qəlbində sözün, söhbətin
Canlara calansın, ay Arif Hüseyn!

Əsərin parlasın ziyalar təki,
Dünyan dünya olsun dünyalar təki,
Gövhərli, mərcanlı dəryalar təki
Təbin dalğalansın, ay Arif Hüseyn!

Azaflı sevmədi naqis ötəni,
Əsl vətən oğlu sevər vətəni.
Haqdan, ədalətdən, düzdən dönəni
Odlara qalansın, ay Arif Hüseyn!

Saz çaldı, Şah İsmayıl Xətai adına bəstələnmiş şəqai havası üstə Hüseynin sözlərini oxudu:

Aşıq qardaş, bu dünyada,
Biri gülməz, biri gülər.
Var-yoxunu dost-qardaşla
Biri bölməz, biri bölər…

Düzü, bu saz, bu söz məndə xüsusi bir təsir buraxdı. Hələ də o təsiri unutmamışam. Hələ arada bir dedi də ki "Zəlimxan

müəllim, öz sazım döyül". Məndə ozan duyğusu, ozan səsinin təəssüratı yarandı. Çox qəribədir ki, qəbri üstündə dediyi şeirdə Aşıq Kamandar da onu ozan adlandırır:

Ziyarətə gəldik, ey ozan lələ,
Adın zirvədədi, sözün zirvədə.
İllər qanadlanıb, keçsə də vədə,
Əbədi adın var el fərağında.

Mən onu bu məclisdə "aşıqlar aşığı" adlandırdım. Aşıq Kamandar bunu eşidib dostum və adaşım Qəzənfərdən incimiş, bir müddət onu dindirməmişdi. Dostum da elə-belə boş buraxan deyil, kişini qısnayıb ki, de görüm niyə incimisən? Məcbur olub deyib ki:

-Mən dura-dura, sən Azaflını aşıqlar aşığı adlandırmısan.

-A kişi, harda demişəm, kimin yanında demişəm?

-APİ-də, Hüseyn Arifin yubileyində demisən.

Adaş görüb ki, bir çox hallarda olduğu kimi, yenə bizi (məni və adaşı) qarışdırıblar. Deyib:

-A kişi, o mən deyiləm, o ayrı Qəzənfərdir.

Kamandar məni də tanıyırdı, filarmoniyada keçirdiyim Qurbani gecəsində ona söz vermişdim, 40 dəqiqəyə qədər çalıb-oxumuşdu. Yalnız bundan sonra Qəzənfərlə barışmalı olub.

İndi nə Kamandar var bu dünyada, nə də Azaflı. Amma hər ikisinin sənəti yaşayır. "Qoca Azaflıyam" kitabı Mikayıl Azaflıya dirilik vermişdir. Həmişə xeyirxah əməllərlə, dəyərli kitablarla cəmiyyəti sevindirən filologiya doktoru, professor Qəzənfər Paşayev yəqin bir gün Aşıq Kamandara da üz tutar.

03.01.09

QƏDİM BİR XALQIN SİNƏ DAĞI - ARAZ AĞRISI

Şair Əli Rza Xələflini elmi-ədəbi ictimaiyyət "Kredo" qəzetinin baş redaktoru, şair və son dərəcə məhsuldar və istedadlı publisist kimi yaxşı tanıyır. Biz bu dəfə onun poeziya sahəsində uğurlarından danışacağıq. "Kredo"nun dalbadal üç nömrəsində (27 dekabr 2008, 5,10 yanvar 2009) dərc etdirdiyi "Araz ağrısı" poeması ona yeni böyük uğur qazandırdı və bizi bu poema haqqında bir neçə söz deməyə vadar etdi.

"ARAZ AĞRISI" əsəri Azərbaycanın Qarabağ faciəsinə həsr olunmuş bir dastandır. Şair bu dastanla bütün tanıdığı və tanımadığı adamlara üz tutaraq haray qoparır, Vətənin hələ köz bağlamamış yaralarının üstünü açır, o yaraların irinlərini dartıb-dağıdır, onları yenidən qanadır. Sənin böyük tarixin ola, adın dünyanı təlatümə gətirən "türk" ola, böyük və qəhrəman keçmişin ola, indi bir vaxtlar sənin əllərin altında nökərçilik edən, qab yalayan, sənin xalqından sayca on dəfələrlə aşağı və az olan mənfur erməni qonşuların əlində yesir olasan. Vətənin parça-parça ola. 7-8 yerə parçalana. Sonra da iş o dərəcəyə çata ki, sənin ürəyini üzməyə, ürəyini dartıb qoparmağa və səni birdəfəlik məhv etməyə çalışalar və sən də yalan və axmaq vədlərlə təsəlli tapasan, yatasan. Sənin "başbilənlərin" Milli Məclisində oturub odlu-odlu danışa, "danışıqlar"da baş verən "qələbələrdən", ermənilərin "çıxılmaz vəziyyətindən" danışalar.

Bütün bunların şahidi Arazdır. Araz öz sinəsində su axıtmır, qan axıdır, qəm yükü daşıyır, çünki o, bütün faciələrin, bütün satdınlıq və yaramazlıqların, vətənə xəyanətin şahididir. Hər şeyi gözləri ilə görüb. Bizim çoxumuzun bilmədiklərini də bilir. Xəyanətin kökünü bilir. Lakin bu dastanda o, yanıb-yaxıldığını, od tutub paralandığını, su əvəzinə sinəsində qaynar qurğuşun daşıdığını, çox böyük və ağır kədərini ifadə edə bildiyi halda, əsl səbəbi, xəyanətin kökünü və xəyanətkarı dəqiq nişan verə bilmir. Bir tərəfdən də bu hal, bu dilsizlik onun daxilən qovrulmasına,

içəridən od tutub yanmasına, külə dönməsinə səbəb olur. Amma deyə bildikləri də var. Adam qəhərləndikdə hər şeyi deyə bilməsə də, boğula-boğula əsas faktları deyə bilir. Əli Rza Xələfli 15 ildən artıq bir müddətdə dönə bilmədiyi, ayaq basmadığı, lakin ürək döyüntüləri ilə əsla yaddaşından bir an belə çıxarmadığı Diriyə, Xələfli kəndinə, Xudafərin körpülərinə, bu körpülər altında inləyən və qəm yükü daşıyan Araz çayına bir od kimi, bir alov kimi qayıda bilmişdir. Yana-yana, od püskürə-püskürə qayıtmışdır.

Əziz adamını itirmiş ana kimi, şairin ürək çırpıntıları gah bayatıya çevrilir, gah ağı kimi səslənir, gah mərsiyə şəklini alır, gah da dəhşət içərisində haray qoparır, təbdən-təbə düşür. İlan kimi qıvrılıb açılır. Əjdaha kimi od püskürür. Lakin bu püskürtü hələlik özümüzü yandırır, o alovu qəbul etməyə sinəsi olanlara çatır, xəyanətkarların qalın dərisinə təsir etmir, onların xəyanət və bəd əməllərini bürüyən zirehindən içəri keçə bilmir. Onlara əslində yalnız donuz gülləsi təsir edə bilər. Xəyanətin başında duranlar az vaxtda o qədər sərvət toplayıblar ki, yerə yaysan, Qarabağ boyda ərazini tutar.

Lirika közərmiş şiş kimidir. Elə bil, hər bənddə oxucunun qəlbinə soxub-çıxarırsan. Hər qəlbi yox, Qarabağ dərdi ilə şişib irinləyən qəlbləri teyləyir.

Poema dörd beytlik qəzəldən ibarət proloqla başlayır. Proloq təsdiq edir ki, bu cəmiyyətdə zülmətlərin içərisində qara ilan sürünür, quru və yaş eyni səviyyədə doğranılır, bir çoxlarının niyyəti hiylə niqabına bürünmüşdür, cəmiyyətdə aydınlıq yoxdur və nəhayət:

Aqilə tor qurulur, mərdə daşlar atılır,
Haqqa təpik vurulur, düzə başlar atılır.

Faciə də buradan doğur. Həqiqəti dilə gətirmək olmur. Haq deyən başlar kəsilib düzə-biyabana atılır.

Nizami də, Füzuli də, başqa klassiklərimiz də çətinə düşəndə, ağır bir işə başlayanda məcazi saqiyə, ilahi badəyə, ilahi eşqə üz tutmuşlar. Əli Rza bu məqamda "qismətim" dediyi şeir təbi, taleyin bəxş etdiyi gücü, poetik ilhamı ilə sövdalaşır, nəzərdə

tutduqlarını poeziya şəklinə salmaq üçün qüdrətdən güc diləyir. Məqsədi də aydındır: göylərə ucalmaq, "siçanlar gəmirən ümid ağacını" qorumaq, "hiylə torlarını, tilsimləri dağıtmaq", "adam daşlar"dan, "yekə başlar"dan aralanmaq və kölgəsini onların üstündən çəkməklə həşərat sürüsünü insanlara tanıtmaq, "lənəti çiynində daşıyanlara" ucadan baxmaq və gülmək!

Bundan sonra şair Araz üstə gəlib çıxır. Təkcə Muğan düzünü, Araz sahilini - Qarabağı deyil, Babəkin kəsilmiş iki qolundan biri kimi Təbrizi də yada salır. Poeziyanın dilindən duya bilirik ki, Arazın lal suları əsarətdə olan dağların, qapısı çırpılan bağların ağrısını gətirir, "Şuşaya, Laçına sahibsiz yollar"ın dərdini yaxası cırılan çinar yarpağına büküb gətirir. Müəllif tədricən mətləbə keçir. Bayatıya bənzər gəraylı ilə "Baş üyüdüb un yeyən, Ömür yeyən, can yeyən" illərdən danışır.

Şair bir anlıq "məlul-məlul, qıvrıla-qıvrıla axan" nəfəsi kəsilmiş Arazdan əsarətdə olan yerlərin vəziyyətini öyrənmək istəyir. Lakin onun ritorik sualları cavab tələb etmir, əksinə, suallar özü vəziyyəti aydınlaşdırır: "Dirinin qandallı ayaqlarında Qançır yaraların qanı axırmı?" "Balıqlar üzürmü üzüyuxarı? Mənim həsrətimdən nə deyir orda?"

Namərdlərin möcüzəsi" elədir ki, bu tilsimləri qırmaq çətindir. Şair az qala asi olur:

Mən tanıyan allahın da
Səsi batıb, ünü yatıb.
Min bir fəsad, günahın da
Dişi, ağzı qana batıb.

Qədim türkün Tanrısına, ulu mağların vətəninə gedən yol - Muğan indi didərginlər məskənidir. Poemanın daxili qafiyəli (16-lıq şəklində düşündükdə) bir parçası ilə şair ulu mağlara tərəf həsrətlə boylanır, onların tarixi şücaətlərini xatırlayır.

"Ana ağrı çəkəndə övlad gələr dünyaya, Qıvrılırsan ağrıdan, fəryad gələr dünyaya" - misraları ilə şair 38 beytlik bir qəsidə-mərsiyə başlayır, bu dünyanın hər iki üzünün - yaxşı və yaramaz cəhətlərinin təsvirini verir. Bir tərəfdə yeni insan - oğul doğuluşu, o biri tərəfdə cəmiyyətin doğurduğu əzablardan qıvrılan insanın

fəryadı - hər ikisi bu dünyanın insanlara bəxş etdikləridir. Bu hissədə fəlsəfi ümumiləşdirmələr çox güclüdür: "Min acını yeyirik bir şirinin xətrinə", "Quzğunların caynağı Vətən sökər, parçalar", "Türkə quyu qazılar, tərpənmirsə qançəkər, Bəs eləməz bir Araz, Fərat gələr dünyaya", "Hakim qorxmaz qanundan, qanun qorxar hakimdən, Şaha qanun deyilsə, hər zad gələr dünyaya", "Nəsilləri bağlayan incə tellər qırılsa, Vətən yurdu kor qalar, bir yad gələr dünyaya". Lakin bu dünyanın ümid yerləri də var, haqqın qoruduqları da var: "Versə ellər əl-ələ, bünyad gələr dünyaya", "Alp-Ər-Tonqa dirilər, Turan qalxar, oyanar, Yeni Tuğra ay-ulduz, barad gələr dünyaya", "Sükut buzu çat verər, türkün çölü kişnəyər, Olum-ölüm üz-üzə, həyat gələr dünyaya", "Qələm haqqa söykənsə, şair sözə tapınsa, Qaranlıqlar dağılar, nicat gələr dünyaya", "Zamanı kim dəyişib yeni aləm yaratsa, Onu tarix qo-ruyar, milad gələr dünyaya"…

Yenə şair xəyalı uzaq keçmişə gedir. Gözləri önündə ulu Zər-düşt, ulu Hürmüzd canlanır, onların vuruşduğu Əhrimənlər canlanır, Muğan yetirməsi olan ulu Zərdüştün haray səsləri eşidilir, "Ana göyün, ata yerin" (əksinə olmalı idi - ata göyün, ana yerin) arasında doğulmuş bu ulu peyğəmbərin "yağı-şərin vurduğu yaradan" ağladığını qeyd edir:

Kişnəyən at, ulayan çöl,
Zərdüşt ruhu, Zərdüşt ünü.

Şair Araza baxır, parçalanmış Vətəni görür - Qarayazını, Təbrizi, Kərkükü, Dərbəndi xatırlayır, ölkəsi belə bir gündə olduğu üçün "Bir dərd daşı kimi göylərdən düşdüyünü" düşünür, "Bədbəxtlik yağışı yağır üstümə" deyə özünü bir növ Arazın yerində qoyur:

Alnıma yazılan dərddi, kədərdi,
Axıram dağların göz yaşı kimi.

"Goreşən sürüsü leş sökür hələ, Sümüyü çeynəyib yağı yalayır" deyən şair "yerində çala-çuxurlar görünən evlərin" ruhlarının yelə

qarışdığını, küləklərin əsarətdə olan dağları haraya çağırdığını ətürpədici bir dillə təsvir edir:

Yalquzaq küləklər gədiklərindən
Çağırır haraya o dağ, bu dağı.

(Əgər "o dağ, bu dağı" sözləri arasında vergül olmasa idi, yalquzaq küləklərin açdığı gədiklərdən o dağın bu dağı haraya çağırdığı anlaşılardı). Elə bunun ardınca gələn "Ağlar" gəraylısı da bu yerlərdə həyatın sönmüş olduğunu, ocaq daşlarının illərdən bəri isinmədiyini, südü kəsilmiş ana kimi sızladığını, uşaq kimi ağladığını bildirir:

Kül soyuyub közü yoxdu,
Sacayağın sözü yoxdu.
Bu sükutun özü oxdu,
Daş inildər, ocaq ağlar.

Yenidən Araza müraciət başlayır. Şair Qarabağın vəziyyətini bu məqamda simvolik müqayisə-obrazlarla çox təsirli bir dil ilə, eyni zamanda real bir şəkildə təsvir edir: Araz Xəzərə qovuşub Xəzərdə fırtına görmək istəyir, amma "gülərüz Xəzər onu Kürlə birlikdə qucağına çəkir, onun bu görüşdən məst olmasına" səbəb olur, yəni Arazın xəbər verdiyi "əsir dağlar" uğrunda mübarizə yoxdur, keçmiş qeyrət yoxdur, keçən hər il "qeyrəti kəsir", onun Xəzərə qovuşduğu hər yerdə, hər tərəfdə çal-çağırdır:

Deyirsən bu illər qeyrəti kəsir,
Doğrayır namusu burda çal-çağır.

Bu məqamda başlayan 40 beytlik "Araz gülər" qəsidəsi Arazın həm təbii-tarixi taleyini, həm də müasir kədərini əks etdirir. "Özünü çırpa-çırpa qayalara, daşlara, Gəlib çatar Muğana, hamarda Araz gülər" misraları Arazın təbii-coğrafi vəziyyəti ilə bağlıdırsa, "Taleyi tüstülənər, korun-korun közərər, Bəxti oyun içində, qumarda Araz gülər" misraları minilliklər boyu Cənubun və Şimalın başına gətirilən müsibətləri yada salır.

Qəsidənin misraları "Göy suları göynədən tikanlı məftilləri", "Çadır evli bir gəncin bəxt üzüyünün necə itdiyini", "Qızılgüllər əvəzinə qərənfillərin danışdığını", "Koğuşunda od yanan çinarları", "Hərracda olan vətən mülkünü", "Xudafərin üstündə yad əllərin qiymət kəsdiyini", "İblisin mələk donunda olduğunu", belə bir məqamda "tanrının da gücünün tükəndiyini" göz önünə gətirir. Şair: "Xətaidə gor çatlar" ifadəsi ilə çox şeyi xatırladır, Qurbanidə olduğu kimi, "Fələklə əlləşməyə bir qabil meydan" arzusu ilə çırpınır. Araz sahilində boy atan "güllərin rənginin də, ətrinin də kədər qoxuduğunu" bildirir. "Vətənə sürünür qara ilanlar, Şahmarın qabığın soyasan gedə" deyir. Və ümumiyyətlə, "Gedə" rədifli qoşma şairin Cənub və Şimal arzularını ifadə edir:

Çağlayan suların rəngi dəyişə,
Bitə yanaqlarda lalə, bənövşə.
Diriyə gün doğa, aydınlıq düşə,
Həsrətin gözünü oyasan gedə.

"Sənin yaşın, yoxsa dərdin uludu" dediyi Arazın timsalında Azərbaycanın tarixi taleyini vərəqləyən şair ümidlərini itirmir, yuxuda Suqovuşanı görüb xeyirliyə yozduğunu, tarixin min bir qanlı müharibələri içərisində daim Xudafərini qoruduğunu, yad əllərdən xilas edə bildiyini və yenə qoruyacağını-qoparacağını inamla bildirir:

Dərdinə su verib böyüdən zaman,
Səni kərpic-kərpic üyüdən zaman,
Məni ələsə də bu dən-dən zaman,
Neçə namərd əldən üzmüşəm səni.

Amma şair bunu da unutmur ki, "Haqqın qapısında əjdaha yatıb", "Haqqın taleyini qumara qoyan fərman sahibləri səni anlamaz". Və:

Xəyanət əlləri daşlara çalıb
Arazın bəxtini o yan tayında.
Ağlar xatirələr baş-başa qalıb

Bəlalı Dirinin Gəyən tayında.

Gəraylılar və qoşmalar bir-birini əvəz edə-edə həqsızlığın köklərini araşdırmağa başlayır, amma subyekt ümumi söylənir: "Namərd xəri başa çəkər, Nəri dolana-dolana", "Ürəyimi nişan alıb, Səri dolana-dolana".

"Araza gözündən od-alov əkən" qoca Söhrab Tahir yada düşür, onun sözdən düzəltdiyi qala yada düşür, gənc rəssam Qafar Sarıvəlli yada düşür. "Sözümün rəngində bir qan dadı var", çünki "Mənim misralarım Arazdan gəlir" deyən şair rəssamdan da Arazın suyunu qırmızı çəkməyi xahiş edir, - "Qan seli çalxanır daşların üstə". Son dərəcə obrazlı deyir və doğru deyir ki, "Bu dünya liməlim qan kasasıdı, Bir himə bənddi ki, çat versin tamam". "Leşsökən, goreşən, diş qıcayan var, Bu odlar diyarı didim-didimdi". Kimi deyir? Daxili düşmənləri, yoxsa ətraf aləmi? Bu zəmanə kimi, şairin fikirləri də bəzən ziddiyyətlidir. Füzuli demişkən, düşmən o qədər qəvidir ki, şair onun gücünü şərh edəndə dəhşətə gəldiyi kimi, türkün keçmişini vərəqləyəndə onun tarixi qələbələrini də xatırlamaya bilmir və bunlar ona ümidlər verir, parlaq sabahlar vəd edir: "Gəlin ağrı çəkir, oğuldu, oğul", "Sevgi beşikdədir, qeyrət keşikdə", "Bir gün qaranlığa çəkilər təhər", "Qarabağ atının verdiyi qulun Bu gün qulundursa, sabah ürgədir", "Cəsarət oğuzun əmanətidir", "Haqqın özü türkün zəmanətidir" və s.

Yağı həmləsinə bir sipər olaq, Əl-ələ dayanaq, kürək-kürəyə! - yaxşı sözlərdir, amma şairin özünün dediyi "yaltaqlar" bu saat çox böyük gücdür: *"İgidə dayaq ver, yaltağa yalaq"*. Xeyr, onlar yalaq ilə kifayətlənmir, aş qazanı onların qabağındadır və ölkəni bu günə qoyanlar elə onlardır. Əllərindəki nəm dəsmalla hər şeyi silməyə hazır olanlar var!

Bəzən şair köhnə xəyallarla yaşayır:

Türkün yatağanı boyun əyməsin,
Sabah civarımız Səddi-Çin olar.

Olmaz. O dövr getdi. İndi türkü o günə salıblar ki, dünya boyda olan Vətənindən qırılıb qalmış əl boyda torpağını da

qorumaq iqtidarında deyil. Qarabağın timsalında düşmən onun ürəyinin başında oturub, oranı od qoyub yandırır ki, bu ölkəni birdəfəlik məhv eləsin. Bunu bilən bizim həriflər isə mümkün qədər yerdə qalan hissəni talamaq, sərvət toplamaq planındadır. Sonra qaçmaq və ya əbədilik bu qalan parçanın feodalı olmaq da olar! Amma tarix də tarixdir! Xanmurapiyə qalmayan dünya heç kimə qalmayıb. Qalsa da bir quru ad qalacaq və o da daim lənətlə yad ediləcək.

Elə şair özü özünə cavab verir:

İndi köhlənlər yemir
Çöldə bitən yovşanı.
Arabayla qovurlar
Qaçaraqda dovşanı.

Artıq nə Alp-Ər-Tonqa vaxtıdır, nə də Attila. İndi ikiüzlülük, yaltaqlıq, vətənsizlik, əclaflıq zamanıdır, elə ona görə də "Böyük Turan dardadı". Düz deyir:

Torpaqdı, şəhiddi, bir də ki şair,
Hər üçü üz-üzə, göz-gözə durub.

Dursun. Vətən sevər şəhidlər nədən ötrü öldüklərini də bilmədən getsin, şair ömür boyu yanğılı-yanğılı danışsın, torpaq da daxili düşmənlərin köməyi ilə parça-parça yad əllərə verilsin. Görək axırı nə olacaq.

Bunu da düz deyir:

Burda hakim kimdi, mühakim kimdi,
Günahkar axtaran günah daşıyır.
Burda haqqın özü, gözü hakimdi,
Burda anlar özü zaman yaşayır.

İndiki imkan bu qədər deməyi mümkün edir. Doğrudur, yalnız haqqın gözü hər şeyi düz görür, amma o haqq nə vaxt dillənəcək və nə vaxt dillənib ki! Zəif şəkildə olsa da, ikinci misrada günahkar göstərilir, amma tam elə də deyil, günahkar yalnız mühakimə etmir, basıb haqlının gözlərini çıxarır. "Tanrı da

düzəltmir bəndə əyəni!" Mən də olsam düzəltmərəm. Sənə torpaq vermişəm, gül kimi Vətən vermişəm, nə üçün satırsan? Nə üçün əhalini üz-üzə qoyub ölkəni parçalayırsan?

Bu günün vəziyyətini ağlamaqda olan şairi bir tərəfdən də Azərbaycanın tarixi - bu tarixin tədqiqi məsələləri düşündürür. Hər millətə nəsib olmayan bir qədim və şanlı tarix yaşamış Azərbaycanın tarixinin də bugünkü Qarabağ kimi hərraca qoyulduğu, təhrif edildiyi şairi kədərləndirir. Deyir və bilir ki, "Müqəddəs kitabdır Vətən tarixi", onun düzgün yazılmasında hər alim bir əsgər olmalıdır. "Vətən tarixindən danışan kəsin Özü də, sözü də gərək pir olsun". "Mənim tariximi yazan alimin Boynunda Babəkin haqq-sayı var". Bunları mən də bilirəm, o da bilir. Amma o bunu da düz başa düşür ki, "Soyunu, kökünü bilməyən alim Vətən tarixinə verməz qəlbini". Azərbaycan elmi ictimaiyyəti bunu heç vaxt nəzərə almayıb. Ona görə Azərbaycan tarixi Azərbaycanın özü kimi parça-parçadır. Bunlar bizi zərrə-zərrə yeyir, sona çatdırır:

Hər tükün özü də canlıdır, inan,
Yoxsa kədər onu ağartmazdı heç.

Şəhidləri xatırlayır, oğul itirən ataları xatırlayır, onların timsalı kimi Zauru yada salır:

Dostum Səxavətin oğlu Zaurun
Ağrısı mənimlə göz-gözə gəzir.
Torpaq itkisi də, oğul dərdi də
Hərəsi bir yandan məni göynədir.

Hə, budur, ayrı əlac yoxdur, "Gözlə, gələrəm"! Şair neyləsin, mərdlik dövrü deyil ki, Bayron kimi özünü döyüşlərə atıb sinəsini güllə qabağına verə. Daxili düşmənin özü onun axırına çıxar. Amma yenə ümid, ümid yaxşı şeydir, ümid də ölsə, gərək həmin an şair də, elə hər birimiz də ölək. "Gözlə, gələrəm":

Bəxtimə əkilən çinar qardaşım,
Gövdələr, budaqlar, gözlə, gələrəm!

Mənim ömür payım - kitab yaddaşım,
Qələmlər, varaqlar, gözlə, gələrəm.

Yaddaş tufanından yağar bir dolu,
Taparam xatirə ağacı, kolu.
Ot-alaf bassa da cığırı, yolu,
A yollar, yolaqlar, gözlə, gələrəm.

Ula, ulamağın canımdan keçsin,
Səsin qana dönsün, qanımdan keçsin,
Ağzı yanmış qurdum yanımdan keçsin,
Közərən ocaqlar, gözlə, gələrəm…

Bir daha Söhrab Tahirə üz tutur, son şahı məhv etsələr də, nicat yaranmadığını yada salır, - Azərbaycan yenə parça-parça qaldı; Asif Ataya müraciətlə indiki söz bazarında ağrıdan, acıdan başqa bir şey qalmadığını bildirir: "Burda qiymətli mal dərddi, kədərdi", "Burda yaxşı-yaman göz-gözə durub, İlanlar dil açır, əqrəb göz yeyir". Şair çox yaxşı ümumiləşdirmişdir: "Burda tarix susub, zaman qudurub". Haray çəkir, müqəddəs adamlara üz tutur:

Tənqidçi qardaşım, əzizim Asif!
İti nəzərlərin görər, oxuyar.
Tale vətənimin bəxtindən kəsib,
Görürsən ki, təzə Təbriz toxuyar.

Söhrab Tahir Arazla bağlı şairdir, bunu bilirik. Asif Ataya da müdriklik timsalı kimi diqqət yetirmək olar. Təqribən ardıcıl gələn: "Sözündə bir nizam, özündə inam, Şəmsizadə adı, ünvanı birdi", "Müdriklər müdriki, kəlamı dərin, "Kutadku bilik"di - Yusif Xas Hacib", "Sözə könül verdi - aşiq heykəli, Özü Sührəverdi - "İşıq heykəli", "Kaş ki, diriləydi Xətai özü, Əliçi ölkəni özü görəydi", "Dostluqda bir idi, sənətdə aləm, Əhmədli Hüseynin səsi şirindi", "Dostum Oruc Bayram, xatirə qalır, Xəyal o günlərə aparır məni", "Yazmağa təşbehlər necə də gücsüz Yadulla əminin iztirabını" kimi adların, beytlərin və adları

çəkilən şəxslərin tərifi oxucunu bir qədər əsas xətdən uzaqlaşdırır. Həşr-qiyamət içində olan adam hər gördüyünə dərdini dediyi kimi, şair də dərd çəkməyə qabil adamları Araz dərdi ilə kökləmək istəyir. Amma bunlar Azərbaycan dərdinə, Qarabağ, Təbriz dərdinə can verməyə hazır olan eyni səviyyəli, eyni epoxalı insanlar da deyil. Şah İsmayıl hara, digər adları çəkilənlər hara? Yenə "Küsdüm əfsanəsi"nə haqq qazandırmaq olar. Küsdüm gülü daim günəşə, işığa boylanar, günəşlə gülər, qarşısını bulud alanda boyun bükər, küsər, inləyər. Küsdüm gülü Qarabağ ellərinin timsalı kimi uğurla tapılmış simvoldur, şairin nə demək istədiyini çox aydın və obrazlı ifadə edir:

Muğan səhrasında ümidlər yeyən,
Qarabağ elləri - küsdüm gülləri.
Aylara, illərə gileylər deyən,
Gözləyər xəbərə gələn dilləri.

Zal dərdini -Zal kişinin ölümünü də şair bu dərdlərə qatmışdır:

Həmin gün sinəmə çökmüşdü dağlar,
O gün Zal dədəni yola salırdım.
Qələmim dərdliydi, sözlərim ağlar,
Dərdin bazarından ağı alırdım.

Zal dədə əbədi mənzilə getdi,
Mən ki qonağıyam hələ dünyanın.
Araz ağrısından göyərdi, bitdi
Bir "Zal ağacı" da belə dünyanın.

Qəbiristan əhlinə müraciətlə bir çoxlarına ibrət dərsi vermək istəyir: "Qəbirlər şəhəri sükut içində, Varlılar küçəsi, kasıb evi var", "Şişman qəbirlər var, ağzından sıxsan, Laxta qan qarışıq torpaq tökülər" - bunlar acgöz insanların qazandıqlarıdır, real həqiqətlərdir. Əsərin ümumi ruhu ilə pis bağlanmır.

Yusif Nəğməkarla, Oruc Bayramla bağlı hissələrdə müəllif çadır şəhərciklərinin vəziyyətinin təsviri ilə Araz ağrısını əlaqələndirmək istəmişdir. Amma artıq çadır şəhərcikləri də yoxdur. Qaç-

qınlar rahat evlərdə yaşayır və Qarabağ ağrısını, doğma torpaqları "rahat-rahat" unuda bilərlər. Torpaq neçə il işğal altında olar? Bu müddətdə nə qədər nəsillər dəyişib! Qarabağın köklü insanlarının çoxu xəyanət yuvasına lənətlər oxuya-oxuya bu dünyanı tərk ediblər. Böyüməkdə olan nəsil isə Qarabağın nə olduğunu haradan biləcək ki? Bunları, deyəsən, şairə göndərilən məktubun müəllifi də bilir, ona görə də cavabda "Ümidinə zülmət gördüm gözündə", "Bizə qənim, sözə qənim dünyanın" kimi misralar var. Və yenə:

Dərdlər də insana, adama bənzər,
Axtarar, ulayar, tapar tayını.
Fikir səhrasında dolaşar, gəzər,
Tikər göz yaşında qəm sarayını.

Ağrılar, acılar da insan kimidir, - doğru deyir. "Qarabağ yarası qan verməsəydi, Təbriz ağrısı darıxardı" - hər şeydə "yoldaşlıq" olmalıdır.

Poemanın sonuna doğru tədricən "Heydərbabaya salam" tipli xatırlamalar artır və hətta bir məqamda Şəhriyarın poeması tipli beşliyə keçilir:

Yaxşılardan az-az qalan biriydi,
Qardaşların ən böyüyü, piriydi,
Gordu baba, Tumas Ata, Diriydi,
Yaxşı insan, halal adam, özü dağ,
Yolun azmaz, eyləsən də düzü dağ.

Şəhriyarsayağı olsa da, aşağıdakı bənd müasir mənzərəni çox təbii əks etdirir:

Dayıoğlu, sözə qiymət verən yox,
Bədxahları yusalar da, sərən yox.
Namərdlərə sinəsini gərən yox,
Bu məmləkət cıdır olub hədyana,
Qorxuram ki, sərhəd yana, həd yana.

Doğrudan da, məmləkət bu qədər dərdlərlə bərabər, eyni zamanda hədyan üçün cıdır meydanına çevrilib və hər sahədə hədyan sahibləri sağa-sola at çapırlar.

Daha ayrı əlac yoxdur. Hiss olunur ki, şair Qarabağ dərdini Təbriz dərdinə qatıb Araz vasitəsilə dənizə axıdaraq haray qopardıqdan sonra əlacı xəyallarda, arzuda görür. Dostu Qəşəmə müraciətlə deyir:

Xudafərin üstə gözlərin gülər,
Nəvəni bağrına basar Qarabağ.
Mənim də qələmim, sözlərim gülər,
Dönər gülüstana onda qara bağ.

Xeyr, bunlarla bitirmək olmaz. Bütün deyilənlərlə yanaşı, yenə nə isə deyilməlidir, hər şey axıracan açılmalıdır. Odur ki, nəhayət, şair oxucunu dolayı yollardan keçirərək mətləb üstünə gətirir və son sözünü deməli olur. Bir nankorun "Qarabağa bir təşbeh de" sualına cavab şəklində Qarabağ faciəsinin, Araz ağrısının köklərini açır və həm də çox sərrast açır:

Dedim sualına ən yaxşı cavab,
Qarabağa təşbeh inəkdir, inək.
Baxışında tənə qaytaran cənab
Büzüşdü, deyəsən, tutdu dəyənək.

Bu inək Qarabağ olmasa əgər,
Bu şöhrət atını minə bilməzdin.
Hər kəs xislətini şumlayıb əkər,
Əkdiyini bilsən, dinə bilməzdin.

Nə deyim, "xozeyin", yediyin yağı,
Zaman bu inəyin döşündən sağır.
Yesə də içindən dərd Qarabağı,
Adından, sanından şan-şöhrət yağır.

Kürsüdü, sərvətdi bu maral inək
Qarabağdan şöhrət, ad sağanlara.

Dəyənək olsa da, hənəkdi, hənək,
Bir yağlı ilgəkdi səs boğanlara.

Şair həqiqət üstünə gəlir: inək ot yeyər, alaf yeyər, amma "bu Qarabağ inəyi" kağız yeyir, özü də bu kağızın üzəri müxtəlif versiyalarla doludur:

Alverdi, papkadı, missiyalardı,
Kimin nə vecinə ürəklər yanır.
Qarabağ inəyi versiyalardı,
Ehtiyat kart kimi əldə saxlanır.

Heç bunları tənqid dilinə çevirmək də lazım gəlmir. "Ehtiyat kartı!" - nə qədər sərrast deyilib. Həm xalqı aldatmaq vasitəsi, həm də gizli niyyətlərə yol tapmaq vasitəsi.

Bunları geniş mənada düşünəndə bu qərara gəlirsən ki, vətən, doğma yurd, vətənpərvərlik anlayışları mənasız sözlərə çevrilib və bu sözlərin ifadə etdiyi anlayışlar qalıbsa, o da dünyanı başa düşməyən qara camaatda qalıb və belə məsələlərdən danışmaq artıq kinayə doğurur. Amma yox! Vətənsizlik, Nəsimi demişkən, cahil adamlara məxsusdur.

Şair həmişə nikbin olmalıdır. Elə biz hamımız. Bu dünyanın işlərini bilmək olmaz. Teymurləng düz deyir: bu dünyanın ildırımı var, tufanı var, zəlzələsi var. Ordunu saxlamağa bir manatı olmayan, borc alıb İrana hücum edən İskəndər Daranın xəzinəsindən 9 tona qədər qızıl götürür. Bu qədər sərvətlə özünü saxlamaq mümkün olsa idi, Dara özünü qoruyardı, öz adamları tərəfindən başı kəsilməzdi.

Beləliklə, Əli Rza Xələfli bu böyük əsəri ilə çox ciddi ictimai-siyasi məsələlərə toxunmuşdur. Azərbaycanın, Qarabağın başına gətirilən müsibətlərin köklərini açmağa çalışmış, əlində ixtiyar olanların başqa məqsəd güddüklərini, əlində imkan olmayanların isə gücsüz olduqlarını, buxovlanmış olduqlarını göstərmişdir. Nəhayət ki, biz poeziyada Qarabağ mövzusuna həsr olunmuş sanballı bir əsərə rast gələ bildik. Əsərin məzmunu çox zəngindir. Lirika bu əsərdə siyasi kəskinliyi ilə neştər kimidir, ürəyə işləyir, insanı düşündürür, çarələr axtarışına səfərbər edir.

Həm də Əli Rza heç vaxt sözü çılpaq demir. Söz onun qələmindən burula-burula, min çalara düşərək çıxır. Və özü də yaxşı bilir ki. söz üzərində işlədikcə o daha çox cilalanır:

Sözün zərgərisən, nə yatmır dilə,
De, edam eyləyim gədik başında.

Dedəkləri əksəriyyət etibarilə metaforikdir:

Yediyi ümidə, inama hələ
Yavanlıq yerinə söz bükənlər var.
Qalmışdım dodaqla diş arasında,
Təmkini çeynəyib, qəzəb yeyirdim.
Acı yurdsuzluğun buz bulağından
Ömür qədəhində həsrət içirik.

Həm də bunlar dərin mənası ilə diqqəti çəkir: "yediyi inama, ümidə yavanlıq yerinə söz bükmək" o deməkdir ki, illərdən bəri heç bir irəliləyiş yoxdur və gəlib-gedənlər ancaq söz oynatmaqla məşğuldur. Aşağıdakı misralar nə qədər kəskin və sərrast deyilmişdir:

Şam kimi əriyən ürək yağından
Piltələr yandırıb, zülmət keçirik.

Amma:

Şah tuta, pərvaza cır calayanlar
Qaş olub, baş olub gözün üstündə.

Bəlkə belə də oldu və əslində olmalıdır, geci-tezi var:

Zülməti dişində çeynəyib yeyən
Səhər dan yerində göylər qızarır.

Bu qızartını görən insanlar xoşbəxt olacaqlar.

* * *

Əli Rza Xələfli uzun həyat yolu keçmiş təcrübəli publisist, qəlbində böyük vətən sevgisi olan şair, qabaqcıl maarif xadimidir. Qəlbində daim Qarabağın - doğma yurdun həsrətini gəzdirir. "Həsrət körpüsü" (2003) kitabı da bu duyğu ilə yazılmış qiymətli şeir kitabıdır. 80-ci illərin əvvəllərindən mətbuatda çalışır. "Kredo" qəzetinin baş redaktoru olana qədər neçə qəzetin əməkdaşı, şöbə müdiri, redaktor əvəzi, redaktoru vəzifələrində işləyib. "Karvan körpüdən keçir"(1997), "Baş daşımın yazıları"(1998), "Yurdun övladları" (2000) bədii-publisistik, "Sözə doğru" (2003) ədəbi-tənqidi, "Ocağımın işığı" (2001), "Həsrət körpüsü" (2003) şeir və poemalar kitablarının müəllifidir. Bir sıra dəyərli və faydalı kitabların tərtibçisidir. "Arzulara dəyən güllə" (2008) monoqrafiyası Qarabağ hadisələrinə, xalqımızın qəhrəman oğullarının Vətən yolunda necə canlarından keçdiklərinin təsvirinə həsr olunmuşdur. "Qızıl Qələm" və "Araz" Ali Ədəbi mükafatlar laureatıdır. "Qılınc və Qələm" yaddaş mükafatına, ədəbi yaradıcılığına və "Kredo" qəzetindəki fəaliyyətinə görə Beynəlxalq Rəsul Rza mükafatına layiq görülmüşdür.

Əli Rza Xələfli həqiqətən şairdir. Təkcə poeziya aləmində deyil, publisistikada da şairdir. Onun publisistikası da həqiqi poeziya nümunələridir. Öz obrazlılığı, öz müqayisələri, dünyaya uca göylərdən baxa bilmə qüdrəti ilə.

"Araz ağrısı" poeması şairin qəlb ağrıları, ürək yanğısı ilə yazılmış, gəncliyi vətənpərvərlik ruhunda tərbiyə edən təsirli lirik poemadır. Əsər yüksək mükafata layiqdir.

Can sağlığı və yeni yaradıcılıq arzuları ilə...

15.01.09

CƏMİL ƏLİBƏYOV VƏ ONUN ÖMÜRNAMƏSİ - "ZƏMANƏLƏRLƏ ÜZ-ÜZƏ"

Hörmətli redaktor! Təqribən ay yarım əvvəl (bəlkə bir az da az) "Nurlan" nəşriyyatında Azərbaycan mədəniyyəti tarixində böyük iz buraxmış, yazıçı və publisit, jurnalistika sənətinin görkəmli nümayəndəsi Cəmil Əlibəyovla görüşdüm. Onu deyim ki, mən gendən-genə Cəmil müəllimi çox yaxşı tanıyırdım, vaxtaşırı bədii əsərləri ilə tanış olmuşam. Onun nəsrindəki poeziya daim mənim ehtiyat düşüncələrimdədir. Bu əsərlər haqqında yazmaq fürsətim olmasa da, onlar haqqında həmişə yüksək təəssüratda olmuşam. Amma indinin özündə də Cəmil müəllimin məni tanıyıb-tanımadığı və ya mənim və mənim kiçik yazılarım barəmdə nə bildiyini, nə dərəcədə bildiyini təsəvvür etmirəm, çünki indi biz də yaşlı nəslin nümayəndələrindən hesab olunsaq da, Cəmil müəllim bizdən daha əvvəlki nəslin

nümayəndəsidir və bu görüşə qədər elə bir füorsət düşməyib, təsadüf gətirməyib ki, biz onunla şəxsən tanış olaq, oturaq dərdləşək və ya yaradıcılıq söhbətləri edək. 1989-cu ilin 18 noyabrında "Kommunist" qəzetinin 70 illiyi münasibətilə keçirdiyimiz görüşdə (görüşü mən aparmırdım) onunla görüşüb-görüşmədiyimiz yadıma gəlmir. Amma çox qəribədir: mən nəşriyyata girən kimi, Cəmil müəllim qalxdı və biz 50 ilin dostları kimi qucaqlaşıb öpüşüb görüşdük. Mən bu zaman onun səsinin - səs tellərinin zədələnmiş olduğunu bildikdə çox mütəəssir oldum və hədsiz təəssüflər etdim.

Cəmil müəllimin əlindəki kitaba baxdım - kiməsə avtoqraf yazmışdı: "Zəmanələrlə üz-üzə" adlı ömürnaməsi idi. Baxdım, vərəqlədim, böyük zəhmətin və axtarışların məhsulu olan bu kitab haqqında xoş sözlər dedim.

Götürdü bir vərəqə telefon nömrəsini, ev ünvanını yazıb verdi və bildirdi ki, mənə kitab saxlayacaq, gedim götürüm.

Düzünü deyim ki, "Yaxşı" desəm də, getmək istəmədim. Gedim, qapının zəngini basım, ailəni narahat edim, kitab üçün gəlmişəm, - deyim. Kitab üçün bunları eləmək, zəhmət vermək, bir ailəni narahat eləmək istəmədim.

Bu yaxın günlərdə dostum, Qarabağa, onun tarixinə və tarixi toponimlər aləminə çox qiymətli bir əsər həsr etmiş Aydın Qarabağlı zəng elədi ki, Cəmil müəllim sənə kitab göndərib. Sabah akademiyada görüşək, kitabı verim.

Mən Cəmil müəllimin diqqəti və böyüklüyü qarşısında xeyli düşünməli oldum və gedib kitabı aldım. Cildini qaldırdıqda iri formatda olan bu kitabın forzesini tamam yazılı gördüm.

Cəmil müəllim yazmışdı:

"Çox hörmətli Qəzənfər müəllim!

Təsadüfi görüşdən çox məmnun qaldım. Dilçiliyimiz haqda cildlər mənə ruh verdi. Siz bu mürəkkəb, min bir əndişəli zəmanədə dilimizin keşiyində iradə ilə dayanmısınız! Çox sağ olun!!

Ömürnaməni Sizə töhfə edəndə bu gümanda oldum ki, ötən əsrin bəhrəsi olan bizlər oxşar həyat yolu ilə irəli getmişik: tikanlı

çəpərləri ayaqlaya-ayaqlaya, məhrumiyyətlərə dözə-dözə, xalq üçün nə isə bir iş görmək amalı ilə!

Siz dilçilərin yazıçı əhlinə bilvasitə və bilavasitə böyük xidmətiniz odur ki, Ana sözlərimizi almas kimi cilalayıb bərq halında, parıltılı halda bizim istifadəmizə vermisiniz!

Mənim yazı masamın üstündəki dilimizin mənzərəsini təmsil edən kitablardan istifadə etdikcə daim sizlərə borclu olduğumu xatirə gətirirəm!

Əgər kitabı vərəqləyərkən dil xətalarına rasit gəlsəniz, bunu "həştaddandır" xalq ifadəsi ilə əfv edin"

Sizin Cəmil Əlibəyov.
2008

Kitabı gətirdim evə. Çay içib vərəqləməyə başladım. Kitabın arasından dörd vərəqlik bir yazı çıxdı. Cəmil müəllimin əl xətti ilə yazılmışdı.

Əvvəl istədim Aydın müəllimə zəng vurub, kitabın içərisində Cəmil müəllimin bir yazısının gəldiyini, onu qaytarmaq lazım olduğunu bildirim. Sonra fikirləşdim ki, əvvəl bir oxuyum görüm nədir.

Oxudum. Məlum oldu ki, aydın və səlis xətlə yazılmış bu yazı bizim jurnalistika tariximizdə xüsusi yeri və əməyi olan RƏŞİD MAHMUDOV haqqında xatirə-yazıdır. Cəmil müəllim bu yazını 18 oktyabr 2008-ci ildə yazıb. Görünür, hansı qəzetəsə göndərmək istəyirmiş və ya bəlkə yeni hazırladığı bir kitaba salmaq istəyirmiş? Çox fikirləşməli olmadım. Rəşid Mahmudov Azərbaycan jurnalistlər nəslinin çox görkəmli nümayəndələrindən olmuşdur. Elə Cəmil müəllimin özü kimi. Onun haqqında yazı bu saat Azərbaycan elmi ictimaiyyətinə, sənət aləminə daha çox xidmət edən "Kredo" qəzetində getsə, daha yaxşı olar, Rəşid müəllimin ruhu şad olar, xəbərdarlıq etmədən həmin yazını bu qəzetə verdiyim üçün bəlkə heç Cəmil müəllim özü də inciməz. Odur ki Cəmil müəllimin Rəşid Mahmudov haqqında hərarətlə, isti ürəklə yazdığı bu məqaləni öz əlimlə kompüterə köçürüb "Kredo"ya təqdim etməyi lazım bildim:

PƏRVANƏ FƏDAKARLIĞI

Ötən yüzilliyin ortalarından üzü bəri Azərbaycan jurnalistikasında sevilən, seçilən, sayılan qadir bir publisist var:

RƏŞİD MAHMUDOV!

Rəşid müəllimin əmək kitabçasından xəbərdar olanlar haqlı söz sahibi kimi məni qınaya bilərlər. Axı o təkcə görkəmli, önəmli jurnalist deyildi, xalqına işıq, xoş həyat, irəliləyiş bəxş edən müdrik müəllim, mahir təşkilatçı, praqmatik alim idi. Bu da hələ hamısı deyil. Ən ümdəsi - o o nadir insanlardandır ki, insaniyyətin bütün müzəyyən cəhətlərini öz şəxsiyyətində ehtiva etmişdir.

Və mən bu uzun ömür yolumdan bəhs edən "Zəmanələrlə üz-üzə" kitabımda yüzlərlə dostum arasından cəmi bir neçəsinin bir amilə görə - ailəvi dost olduğumuza görə fərqləndirmişəm, buna rəğmən ki, on illərin sınağından sonra ailəvi dost əqrabaya-qohuma çevrilir, əbədiləşir. Rəşid müəllim haqqında həmin kitabda yazılıb:

"Biz ailəvi dost idik. O, jurnalist təhsili aldıqdan sonra "Azərbaycan gəncləri" qəzetində, mənimlə bir şöbədə işləməyə başlamışdı. Zəhmətkeş, yazı fədakarı və şirin, xoş ünsiyyətli, mehriban bir insandır" (səh.326).

İndiki peşə həmkarlarıma, ümumiyyətlə bu cür insanların qəhədə çıxdığından, əsl insan-dost haqqında, səriştəsiz çağdaş gənclərə aydın olsun deyə, şərhə ehtiyac görürəm.

Dostluğun min bir şərti var - mənim nəzərimcə dost seçimi üçün ən vacib ölçü-meyar odur ki, dostlar bir-birinin aynası olmuş olsun gərək! Bu cəhətdən Rəşidlə mən bənzər əqidəyə, həyata baxışa, dünyanın naz-nemətlərindən pəhriz saxlamağa, eyni zamanda gözəlliyi sevə bilmək pərgarlığına görə eyni adamlar olmuşuq. Hər ikimizin ailəsi də uşaqdan böyüyə bu təbiətdə idi. Mənim qaynatam İsrafil Nəzərov deyirdi ki, İsmayıllı ilə Qarabağın arasından Kür boyda bir çay keçir. Sizin aranızda o da yoxdur, xasiyyətcə çox oxşarsınız. Onlar uzun illər bir yerdə işləmişdilər və dünyasını dəyişəndən sonra Rəşidin öz müəllimi, redaksiya başçısı haqqında yazdığı məqaləni mən təkcə qədirbilənlik cəhətdən yox, publisistikanın və insanlığın ən dəyərli yazısı hesab edirəm. Ailəvi dostluğumuzun davamlılığına

gəldikdə, bu yaxınlarda Azərbaycan Yazıçılar birliyində mənim 80 yaşa dolmağım münasibətilə keçirilən təntənəli mərasimdə professor-şair Hikmət Mahmudovun parlaq nitqini dinləmək kifayət edərdi… Dostluğumuz belə yaranıb, belə yaşayır.

O, böyük zəhmətkeş idi. Gənc Rəşid o zamanın çox nüfuzlu qəzetinə elm-bilik işığı gətirmişdi. Tam kamil jurnalist təhsili aldıqdan sonra Allah rizası ilə təyinatı bizim qəzetə verilmişdi. Mən təbliğat-təşviqat şöbəsinə baxırdım, xahişimi nəzərə alıb bizimlə işləməyə razılıq verdi. Rəşid (o zaman qəzetdə ali təhsillilər yox idi) redaksiyaya elm-bilik mücrüsü gətirmişdi. Şöbə müdirinin canı siyasi məqalələr yazdırmaq üçün səriştəliləri qapı-qapı gəzməkdən qurtardı. Hamısını Rəşid edirdi: yazılanları mürəkkəblə çimizdirir və özü yazıb başqasının imzasını qoyardı. Bunlar ağır zəhmət hesabına başa gəlirdi.

"Azərbaycan gəncləri" qəzeti həftədə üç dəfə çıxırdı. Qəzet çap olunan günləri işdən tez - 9-10-da gedirdik. Təzə əməkdaş bu ənənəni pozdu. Redaksiyanın gözətçisi bir dəfə gileyləndi. Dedi ki, sizin işçinin saatı xarab olub, vaxtı düz göstərmir. Təəccübümü sezib əlavə etdi: Saat 12-yə, 1-ə qədər onu gözləməli oluram, yazır-pozur. Yadına salanda ki, gecə yarıdır, mən qapıları bağlayacam, gülüb deyir: Açarı ver, mən bağlayım, səhər gəlib qapını özüm açaram.

Mən özüm də onun əlindən çıxan vərəqləri görəndə heyrətlənirdim…

Bax, belə deyək: bu zəhmət harada işləməsindən asılı olmayaraq, onu ucaltdı və hamının - yuxarıların da, aşağıdakıların da istəklisi etdi.

Şirin, xoş ünsiyyətli insandır. Mən bu yaxınlaradək həmişə onun nurlu sifətinin haləsindən, həmişə gülər gözlərindən istilik, mehribanlıq əxz etmişəm. Bu da allah vergisidir. Həm də əsil-nəcabət bəxşişidir. Mən bu qənaətimdə ona istinad edirəm ki, hələ oğlumun bir yaşı olmamış, Rəşidin rəyi ilə istirahət üçün İsmayıllını, Qalacığı seçmişdik və bir ay ərzində Mahmudovlar ailəsi ilə yaxınlaşmağımız bir töhfə idisə, bu mahalın adamları ilə ünsiyyət nəticəsində bütöv bir aləmi - nəcib insanları dövrəmə yığa bilmişdim. Rəşid bu mühitin, bu bənzərsiz təbiətin və ən mühümü - İsmayıl müəllimin tərbiyəsinin bəhrəsi idi.

Dostluqla bağlı bir hikmət də var: dostluq üç almadır, gah ikisi məndə, biri səndə, gah da ikisi səndə, biri məndə. Biz bu almaları elə bölüşdürə bilmişdik ki, həmişə üçü də bizim ikimizdə olardı. Ədəbi işçi çox çəkmədi ki, bizim peşənin ən yüksək mövqeyinə yüksəldi. Partiyanın Mərkəzi Komitəsində Azərbaycan mətbuatına rəhbərlik ona etibar edilmişdi, mən də redaksiyalardan birinə başçılıq edirdim. Hər hansı mühitdə: ictimai yerdə, kabinetdə, küçədə Rəşid məni görcək hərarətlə bağrına basar, xoş bir zarafatla böyük-kiçik maniəsini dərhal aradan qaldırardı.

"Azərbaycanfilm" kinostudiyasında neçə il idi ki, işləyirdim. Az-az görüşürdük. Bir gün telefon zəngi çalındı. Rəşid idi, dedi: "Axşam evə gedəndə bura dönərsən". Getdim. Adətimiz üzrə mehriban görüşdük. Və yenə zarafat müqəddiməsi oldu: "Kinonun aktrisaları səni cavanlaşdırıb, bəsdir, qayıt öz peşənə". Təklifini də dedi: "Mən neçə ildir, "Kommunist"dəyəm, bəsdir, getmək istəyirəm. Gəl bura, birinci müavin işləyərsən, mən işimi həll edib gedərəm, qəzeti çıxardarsan. "Gənclər"dəki kimi".

Dedim, mən fəxr edirəm ki, sən Azərbaycanın "Kommunist" kimi birinci qəzetinin redaktorusan. Mənə sən tərəfdən özgə bir pay lazım deyil. İsrar elədi, dedim ki, məni buraxmazlar. Neçə ildir, işləyirəm. Hər dəfə təklikdə görüşəndə xahişimi təkrarlayıram: "Öz peşəmə getmək istəyirəm, lap adi müxbir". Katib həmişə sözümü eşitmirmiş kimi, pəncərədən bayıra baxır: "Hələ orda işin çoxdur". Məni buraxmazlar.

Zəmanə dəyişdi, bu dəfə məni həmin qəzetə zorla göndərdilər. Redaktor kimi bir neçə nömrə buraxmışdım ki, Rəşid zəng çaldı, dedi: Mənim təklifimə baxsaydın, indii yaxşı kadrlar yığmış olardın. Çətinlik çəkməzdin bu mürəkkəb dövrdə.

Dedim:

-Kollektivlə tanış olan kimi, ürəyimdəkiləri açdım. Dedim ki, məndən əvvəlki redaktorlar bu işi məndən yaxşı görüblər, onlara minnətdaram. Çalışarıq ki, sihzinlə etimada layiq işləyək…

Bax dostum Rəşid Mahmudov belə şəxsiyyətdir. Onu pərvanəyə oxşatmaqla sözümü bitirmək istəyirəm. Rəşid Mahmudov işıq fədakarı idi, insanlara bəxş etdiyi işıq-hərarət onu xalqa sevdirmişdir. Güman edirəm ki, övladının, nəvələrinin

parlaq simasında, əqrabasının nüfuzu timsalında bu işıq onu tərk etməyəcək və Ulu Tanrı onun əbədiliyi üzərində də daim gur işıq yandıracaqdır.

Cəmil ƏLİBƏYOV
18.X.2008

Kitabla tanış olmağa başladım. Cəmil müəllim kitaba "Zəmanə ilə üz-üzə" yox, "Zəmanələrlə üz-üzə" şəklində ad qoyub. "Zəmanələr" deyəndə nəyi düşünüb? Gördüm ki, çox düzgün ad seçib - kitab azı 300 illik bir dövrü əhatə edir. Kitabda iki kökün - Əli ağa Əlibəyovun və Qazi Mirzə Əli Axundzadənin şəcərə tarixinin araşdırılması fonunda müəllif "…üç yüz ildən üzü bəri mövcud tarixi sənədlərə, xatirələrə və canlı müşahidələrə əsaslanaraq, üç qurumun: xanlıq-bəylik, sosializm və yenicə qədəm qoyduğumuz istiqlal dövrünün xarakterik cəhətlərini mənsub olduğu soy adlarının timsalında səciyyələndirir və içindən keçənləri səmimiyyətlə oxucularla bölüşür".

Memuar ədəbiyyatının çətinlikləri var. Əvvələn, müəllif düz deyir, bu cür yazılar daha çox "ömrün payız çağında qələmə alınır". Digər tərəfdən, erkən hər şeyi açıb tökmək, başına gələnləri "olduğu kimi açıb danışmaq" çətindir. "Mən əsrin taleyini yaşamışam, onun uğurları da, uğursuzluqları da mənimdir. Mənim kimi çoxlarını zəmanələr özünə "kölə" eləyib. Ancaq bu cür "köləlik" üçün peşmançılıq çəkmirəm, ona görə ki heç bir çətinlik qarşısında təbiətimi, əqidəmi dəyişməmişəm, mütiləşməmişəm. Ən başlıcası - xalis qanlı azərbaycanlı kimi özümü qoruyub saxlamışam, kommunist kimi ilk növbədə Azərbaycan vətəndaşı olmuşam". Biz hamımız cəmiyyət daxilində yaşayırıq və hamımız bu cəmiyyətin övladı, köləsi (kölə - bir mənada oğul deməkdir) olmalıyıq. Amma bir namuslu oğul var, bir də mənliyi olmayan kölə. Mən tanıdığım bütün hallarda Cəmil müəllim bir insan kimi, mənim sevdiyim həqiqi kommunistlər kimi şərəfli ömür yolu keçib, Vətənə xidmət edib.

Hərənin bu dünyaya öz münasibəti var. İki şeyi qarışdırmaq düz deyil. Birisi müstəqil Vətən anlayışıdır - bunu istəməyən olmaz. İkincisi, yaşadığın quruluşun formasıdır. Sosializm əsl insan cəmiyyəti idi, mən o quruluş əleyhinə yüz cür iftiralar

eşitsəm də, bu qənaətdəyəm ki, o öz qanunları ilə ideal quruluş idi, onun son 40 ildəki bir növ gizli nöqsanları indii açıq şəkildə tüğyan eləməkdədir, bizim geri qayıtdığımız quruluş cəmiyyəti həqiqi köləliyə aparan quruluşdur, oğruların, əyrilərin, satqınların, yaltaqların, yaramazların quruluşu və həqiqi istismar quruluşudur.

Burada lap özünüzə müraciət etməli oluram. Yenə deyirsiniz: "Hətta gözümü açanda bəy, o dünyaya yığışmaq ərəfəsində kommunist olmuş olsam da, başqa cür, yaxşı yaşama naminə üçüncü bir silkə girə bilməmişəm…" Heç girmək də lazım deyil. Siz həqiqi kommunist adı ilə, hətta xətrinizə dəyməsin, fəxrlə qeyd etdiyiniz "bəy" adınızdan da çox fəxr etməlisiniz. Çünki bəy kimi ancaq bəy olardınız və çox olsa, öz nəslinizə, bir balaca da xalqa xidmət edərdiniz. Amma kommunist kimi, həm də həqiqi kommunist kimi siz böyük vəzifələrdə bu xalq üçün çox böyük işlər görmüsünüz və Sizin yazıçılığınız da, jurnalistlik fəaliyyətiniz də, ictimai xidmətləriniz də bu quruluşun verdiyi imkanlarla bağlıdır. Sizin atanızı bəy olduğu üçün tutmaq istəyiblər, məcbur olub xaricə gedib, çox zaman "bəy oğludur" deyə ictimai dairələrdə çətinlikləriniz olub, bəs mən neyləyim ki, elə siz ata qayğısından kənarda qaldığınız yaşda mənim də atam müharibədə həlak olub? O cəmiyyət mənə öz gücümə aldığım təhsildən və yaramaz adamların əli ilə verilən töhmətdən, elmi irəliləyişimə mane olmaqdan başqa heç nə verməyib? Amma mən yüz də desələr, Stalinin böyüklüyü qarşısında pərəstiş etmişəm - həqiqi pərəstiş. Bizim "rəhbərlər" əl boyda Qarabağı qoruya bilmədi, amma Stalinin böyük iradəsi təkcə o boyda SSRİ-ni deyil, bütün dünyanı faşizm taunundan xilas etdi. Hitlerin kəllə qutusunun bir parçasını Stalin sənədlərə büküb arxivdə saxlatdırıb. İndii onun heykəllərini uçururlar, insan qədirbilməzdir. Təbiət ona (elə ilk növbədə rusların özlərini deyirəm) o gözəllikdə dövlət, o gözəllikdə quruluş vermişdi, Yeltsen, Qorbaçov kimi savadsız və korlar onun axırına çıxdılar. Siz həqiqi kommunist adı ilə fəxr edə bilərsiniz və gələcəkdə o quruluşun həsrətini daha çox çəkəcəklər, çünki, dediyim kimi, həqiqi köləlik indii başlanır.

Yazırsınız: "Ədil bəyin - ucunun harada döndüyü görünməyən qoyun sürüləri, kişnərtisi qurdları üşəndirən at ilxısı, dərəni ağzı-

nacan dolduran dəvə karvanı, neçə qaramal naxırı, Haramı düzündə qışlağı, Ermənistanda - Salvart yaylağı, kəndimizdəki bağ-bağatlı torpağı, ev-mülkü, bütün var-yoxu əlimizdən alındı, o güzərandan mənə acı və xumarlı xatirələr qaldı: bir damla fərəh, bir dərya kədər!" Əşi, neynirsiniz onları? Özünüz də yaxşı bilirsiniz ki, həzrət Əlinin bir arıq dəvədən başqa heç nəyi olmayıb. Yaxşı ki alıblar! Onları almasa idilər, Siz o boyda roman və povestlərlə, o qədər publisistik yazı ilə, o boyda ictimai vəzifələrlə tarixdə qalmaz, ədəbiyyat, mətbuat aləmindəki boş "dərələri, düzləri" doldura bilməzdiniz. O qoyunları da yeyəcəkdilər, o atları, dəvələri də minib işlədib öldürəcəkdilər, Sizə onlardan heç nə qalmayacaqdı. İndii qalan var və çox əsaslı şeylərdir. Siz deyənləri indi başqaları edir və özü də halallıqla yox, haram yolla. Bir rayonu özəlləşdirənlər, 150 hektar yer tutanlar, milyardlarla pul toplayanlar var, elə bilirlər ölməyəcəklər. Nahaq kədərlənirsiniz. Sosializm quruluşunun yaxşı cəhətlərindən biri o idi ki, belə şeylərə imkan vermirdi, insan mənəvi cəhətdən xoşbəxt idi, rahat yaşayırdı, kişi kimi yaşayırdı.

"Adım məktəb jurnalına düşməmiş siyasət dəftərinə salındı… Bununla da taleyimin qırx düyünü başladı - "düşmən Ədil bəyin oğludur". Bu, hər zaman - birinci sinifdə oxuyanda, ali təhsil alanda, iş yerlərində də başıma qaxınc oldu, gözümə qaranlıqlar çökdürdü". Mənə elə gəlir, inciməyin, bir qədər şişirdirsiniz. Oğul ataya cavabdeh deyil - şüarı var idi. Bəziləri kimi, repressiyanı gücləndirirsiniz. Yaxşı yaşamısınız. Gileylənməyin. Düşmən oğlu saysaydılar, "Kommunist" qəzeti kimi baş qəzetə redaktor və ya "Azərbaycanfilm" studiyası kimi böyük təşkilata rəhbər qoymazdılar.

"Ömrüm boyu məni kölgə kimi girləmiş təqiblər özümə görə deyildi, keçmiişimə görəydi… Mənim şəxsi faciəm, habelə yazıçı xoşbəxtliyim onda olub ki, bəy oğlu olmağım başıma min bir müsibət gətirdiyindən həyəcanlanan qələmdən yapışaraq ürəyimi boşaltmışam. Təsəvvür eləyin: Partiya və dövlət - sinfi mənsubiyyətimə görə mənə düşmən gözü ilə baxıb… şərqşünaslıq ali təhsilimdən uzaqlaşdırıb, redaksiyada məsul vəzifədən kənarlaşdırıblar, ancaq nəyə görə isə (xalqıma, dövlətə, peşəmə sədaqətimə görə) yenə irəli çəkiblər. Bu, altmış il davam edib.

Sonra da… 90-cı illərdən başlayaraq Kommunist partiyasının hökmranlığı dövründə yuxarılara yaxın olduğuma görə başlanan təqib… davam etdi". Bu axırıncı sözlərə inanıram. Elə adamlar var ki, onların istəmədiyi adama salam verdiyin üçün sənlə əlaqəni kəsərlər. Bu, normal davranış deyil. Amma 60 illik təqib yenə bir qədər şişirtmədir. Kimi vəzifədən çıxarıb yenidən vəzifəyə qoymayıblar ki? Hamının həyatında o ziqzaqlar olub. Amma bax aşağıdakı sözləri düz yazırsınız: "Son iyirmi ili yaşamasaydım, heç olmazsa, bundan əvvəlki illər ərzində qazandıqlarımı itirməzdim. Bilirsiniz nəydi o qazanclar? O zaman mənim aləmimdə insanların hamısı gözəldi: təbiət ancaq rəngarəng, dilrüba mənzərələrdən ibarətdi; cəmiyyətdə ədalət arzusunu qovuşmaq inamı vardı". Bəli, düz düşünürsünüz. İndii o gözəllikləri köklü-köməcli məhv etmiş, o inamları dibindən baltalamışlar. Amma son iyirmi il, düz hesablamırsınız, Sizin üçün daha faydalı olub. 60 ildə topladığınız elmi, biliyi, təcrübəni, öyrəndiyiniz həyatı daha ətraflı qələmə almaq və gələcək nəslə çatdırmaq imkanı qazanmısınız. Təəssüf etməyə yer yoxdur.

Müəllif bu cür bir növ siyasi mətləblərdən qurtarıb, bizi nəslin qədim şəcərəsi ilə, 300 illik, bəzən 500 illik tarixlə tanış edir. İlk növbədə Əsilzadələr Məclisinin verdiyi Şəhadətnaməni açıqlayır və onunla fəxr etdiyini bildirir: "ŞƏHADƏTNAMƏ. Bu sənəd Cəmil Adil oğlu Əlibəyovun Əsilzadələr Məclisinin üzvü olduğunu təsdiq edir. Bundan belə bu sənəd sahibinin bütün nəsli Azərbaycanın Əsilzadələri cərgəsində hesab olunur. Əsilzadələr Məclisinin sədri: C.M.İbrahimbəyov. Bakı, 15 iyul 1999-cü il. Möhür". Bir vaxt bunları demək həqiqətən çətin olardı. Amma mən ümumən siniflərin əleyhinəyəm. Arxiv sənədləri əsasında ulu əcdadlarının tarixini vərəqləyə-vərəqləyə gəlir və doğma kəndi Dədəli, onun məhsuldar torpaqları, öz ətrafındakı düzənlərə bir damcı su verməyən Mərakeş dağlarından fərqli olan dumanlı, çiskinli, yağışlı, tufanlı, başı göylərə ucalan dağları haqqında geniş məlumat verir. Dostum, unudulmaz Fərman Kərimzadənin "Xudafərin körpüsü" romanı ilə yaxşı tanış olduğumuz Dədə bəy - Şah İsmayılın görkəmli sərkərdələrindən olan bu bəy haqqında və Şah İsmayılın qəbaləsi ilə bu yerlərə onun necə sahib olduğu barəldə xəbər tuturuq. Ata babası Əli ağa Hüseyn ağa oğlu bir

müddət 2-ci Şah Təhmasib dövründə qulluq edib (1722-1732), Nadir şahın ölümündən sonra Dədəliyə qayıdıb, ömrünü Dədəlidə keçirib,mülkün idarəsi ilə məşğul olub.

Ana baba kəndini, Alxanlını yada alır, ana babası, Zəngəzurdan üzü bəri bütün qəzanın qazısı olmuş Qazi Mirzəli Axundzadəni xatırlayır, fanatizmin güclü olduğu bir dövrdə onun maarif və mədəniyyət sahəsində xidmətlərini, maarifçi şeirlər yazdığını, 1883-cü ildə Qarğabazar məktəbinin açılışında nitq söylədiyini, Cəlil Məmmədquluzadənin öz iti qələmi ilə ona necə dəstək verdiyini açıb göstərmişdir.

Yenə keçmişi başa düşməyənlərin fikirləri: "Yaxşı kolxozumuz vardı. Yəqin şirin-şirin "kolxozumuz" deyəndə cavanlar çiyin çəkəcəklər. Onlar, lap elə o vaxtlar kolxozdan ətcan tutanlar da, kolxoz haqqında danışanda ağız büzənlər, bizlər "konslager" sözünü hiddətlə qarşıladığımız kimi".

Neynək, qoy ağız büzsünlər, çityin çəksinlər, gedib otursunlar xırda baqqal dükanlarının qabağında, ondan alıb buna, bundan alıb ona satsınlar, gözlərin sata bildiklərinin qəpik qazancına tiksinlər. Traktoru yox, malası yox, kombaynı yox. Tutduğu sahələri də otlağa çevirsin, biyabana çöndərsinlər. Bunların fərqini çoxları tez dərk eləməzlər.

Təcili cərrahiyyə əməliyyatına getməli olduğum üçün bu maraqlı, mənə daha çox söz demək imkanı verən kitabla söhbətimi burada kəsməli və Cəmil müəllimə uzun ömür arzulamaqlı, onun böyük zəhmətinin nəticəsi olan bu kitabının nəslin şəcərəsi barədə uzaq gələcəyə xoş müjdələr aparacağını bildirirəm.

06.02.09

V

MƏKTƏB, TƏDRİS VƏ DƏRSLİK

MÜXTƏLİF QEYDLƏR DƏFTƏRİ

Ə.Haqverdiyevin arxivindən

Əbdürrəhim bəy Haqverdiyevin arxivində yazıçının pedaqoji fəaliyyəti ilə əlaqədar bir sıra sənədlər saxlanılır. Bu sənədləri diqqətlə nəzərdən keçirdikdə məlum olur ki, Sovet dövründə Ə.Haqverdiyevdə pedaqoji işə böyük maraq olmuş, o, deyəcəyi dərslərə həmişə səylə hazırlaşmış, o zamankı proqramın vacib və yerinə yetirilməsi zəruri olan tələblərinə ciddi əməl etmişdir. Yazıçının Azərbaycan dili dərslərinə hazırlaşarkən aparmış olduğu bir sıra qeydlərdən onun təkcə dil dərslərinə deyil, həm də ümumi pedaqoji işə marağını müəyyənləşdirmək olur.

Ə.Haqverdiyevin pedaqoji işə münasibətini və bu sahədəki əməli işini aydınlaşdırmaq üçün yazıçının arxivindəki «Türk (Azərbaycan – *Q.K*) dili proqramı» və müxtəlif qeydlər dəftəri müəyyən material verir. Proqramın izahat hissəsində dərsə necə hazırlaşmaq haqqında göstərişlər vardır. Müxtəlif qeydlər dəftərindəki bir sıra yazılar, aşağıda görəcəyimiz kimi, həmin göstərişlərə uyğun gəlir. Bu uyğunluq yazıçının bir neçə dərsə hansı istiqamətdə və necə hazırlaşdığını aydınlaşdırmaq üçün də müəyyən imkan verir. Darülfünunun hami fakültələrində təhsil alan qeyri-azərbaycanlı tələbələr üçün tərtib edilmiş yuxarıda adını çəkdiyimiz proqram girişdən, üç hissədən, birinci və ikinci il üçün xırda hekayə mövzularından və izahatdan ibarətdir. Proqramın I hissə-

si «Yeni türk əlifbası dərsləri», II hissəsi «Danışıq öyrədən (leksikon) dərslər», III hissəsi «Türk dilinin sərfi» (morfologiyası) adlanır. Proqram, həftədə dörd saat olmaqla, iki tədris ili üçün tərtib edilmişdir. Göründüyü kimi, qrammatika dərsləri ilə yanaşı, qiraət dərsləri də nəzərə alınmış, buna görə də I və II il üçün kiçik hekayə mövzuları müəyyən edilmişdir. Proqramın izahat hissəsində deyilir: «Həmin proqram üzərilə dərs aparıldıqda hər dərsə mütabiq təcrübə və yazı dərsləri tərtib etmək müdərrislərin öhdəsinə qoyulur». Buradan aydın olur ki, dərslik və dərs vəsaiti olmadığı üçün əsas yük müəllimin üzərinə düşmüşdür. Ə.Haqverdiyevin müxtəlif qeydlər dəftərindəki yazılar göstərir ki, o, proqramın bu tələbini yerinə yetirmək üçün xeyli əmək sərf etmişdir. Dəftərin 8-ci səhifəsindən başlayaraq əvvəlcə: ***o t a q, t a v a n, d ö ş ə m ə, d i v a r, k a ğ ı z, q ə l ə m, k i t a b, o, m a s a, b u, n ə, n e ç ə, ə l, b a r m a q, a y a q, a d a m, ş ə x s, q a d ı n...*** tipli çoxişlənən sözlər verilmiş, onların ardınca kiçik hekayələr tərtib edilmişdir. Həmin hekayələrdən birisi belədir:

– Nə istəyirsən, xanım?
– Yaxşı qəhvə varmı?
– Bəli, çox yaxşı qəhvəmiz var.
– Girvənkəsi neçəyədir?
– Qəhvənin girvənkəsi üç manat yarımdır.
– Mənə bir girvənkə qəhvə ver.
– Baş üstə, buyurun. Çay da istəyirsinizmi?
– Yox, mən dünən çay aldım. Beş girvənkə şəkər ver.

Proqramın yenə də izahat hissəsində göstərilir ki, Azərbaycan dilini bilməyən tələbələrə bu dili öyrətməkdə məqsəd darülfununu bitirdikdən sonra onlardan Azərbaycan mühitində çalışmaq istəyənlərə Azərbaycan dilindən aldığı məlumatı get-gedə artırmaq əsasını və bacarığını verməkdən ibarətdir; bu isə həmin dilin qrammatikasını və adi danışıq kəlmələrini öyrətmək vasitəsilə ola bilər.

Müxtəlif qeydlər dəftərindən gətirdiyimiz misallar sübut edir ki, Ə.Haqverdiyev həmin məqsədin yerinə yetirilməsi üçün işə yaradıcı surətdə yanaşmış, Azərbaycan dilində daha çox və daha zəruri olan sözlərdən lüğətlər və kiçik hekayələr – rabitəli mətnlər

tərtib etmiş, dərs prosesində əvvəlcə sözləri, sonra da həmin sözlərlə əlaqədar qurmuş olduğu mətni yazdırmış və izah etmişdir. Lakin o bununla da kifayətlənməmiş, yeni dərsi daha da yaxşı mənimsətmək və eyni zamanda tələbələrin həmin dərsi necə mənimsədiklərini yoxlamaq üçün özünün əvvəlcədən hazırlamış olduğu sual və tapşırıqlardan istifadə etmişdir. Qeydlər dəftərində hekayələrdən sonra oxuyuruq: «Bir il neçə aydır? Həftə, gün, saat... İl neçə gündür? Sənin yaşın neçədir? Mənim yaşım on səkkizdir» Yaxud:

– Kitabınızı örtünüz. Siz nə edirsiniz?

– Mən kitabımı örtürəm.

– Bu tələbə nə eləyir?

– Bu tələbə kitabını örtür.

– Mən pəncərəni örtürəm?

– Yox, siz pəncərəni örtmürsünüz. Siz qapını örtürsünüz.

Bütün bunlar göstərir ki, Ə.Haqverdiyev bəzi müəllimlərin istifadə etdikləri yalnız sırf qrammatik qayda və qanunları əzbərlətməkdən ibarət olan boş və mənasız üsuldan yan keçmişdir. O, Azərbaycan dilini bilməyən tələbələrin həmin dildən sərbəst istifadə edə bilmələrinə, onlarda bu dilə dair adi danışıq vərdişi yaranmasına nail olmaq üçün həssas bir pedaqoq kimi, deyəcəyi dərslərə əvvəlcədən ciddi hazırlıq görmüş və məqsədinə nail olmaq üçün müxtəlif üsullara əl atmışdır.

Bunu da qeyd etmək lazımdır ki, Haqverdiyev təkcə Azərbaycan dilinin praktik şəkildə mənimsədilməsi ilə məşğul olmamış, darülfünunda Azərbaycan ədəbiyyatı, şərq poetikası və dil tarixi fənlərindən xeyli müddət mühazirələr söyləmişdir (Bu barədə «Yazıçı və dil» kitabımıza baxmaq olar). Prof. C.Xəndan görkəmli ədib haqqında xatirəsində yazır ki, tələbələrin ən çətin suallarına Əbdürrəhim bəy Haqverdiyev cavab verərdi.

Ə.Haqverdiyev inqilabdan əvvəl məktəblərin dözülməz vəziyyəti ilə əlaqədar, bu sənəti sevməmiş və müəllimliklə çox az məşğul olmuşdu. Öz bacısı oğlunun şəhər məktəbinə müəllim təyin olunmasını eşitdikdə, 1916-cı il 14 dekabr tarixli məktubunda yazmışdı: «Sənin şəhər məktəbində müəllim olmaq arzun məni ümumiyyətlə sevindirmir. Mən üç il müəllimlik etmişəm və bunun cəhənnəm əzabı olduğunu bilirəm».

Yeni dövrdə – sovet dövründə isə partiya və hökumətin məktəb quruculuğu sahəsindəki misli görünməmiş fəaliyyəti, məktəb işinin ümumxalq işinə çevrilməsi qocaman ədibi ruhlandırmış və onun bu sənətə möhkəm bağlanmasına səbəb olmuşdur.

23.05.1965

«İZAHLI DİLÇİLİK LÜĞƏTİ»

Dilçilik elmi pedaqoji institutların filologiya fakültələrində, Azərbaycan Dövlət Universitetində tədris edilən əsas fənlərdəndir. Bundan əlavə, Azərbaycan dilinin praktik qrammatikası digər institutlarda, orta və orta ixtisas məktəblərində mühüm tədris fənləri sırasında öyrədilməkdədir. Bu fənnin öyrənilməsi isə ən adi, zəruri dilçilik terminlərinin öyrənilməsi ilə başlayır. Doğrudur, son zamanlar çap olunmuş bir sıra dərsliklərdən, dərs vəsaitlərindən dilçiliyin və xüsusən Azərbaycan dilçiliyinin müxtəlif sahələrinə dair terminlər haqqında müəyyən məlumat almaq mümkündür, lakin getdikcə daha sürətli inkişaf nəticəsində dərinləşən, hər tərəfə qol-qanad açan, yeni sahələrlə zənginləşən və nəticədə çox müxtəlif terminlərin yaranmasına və ya mövcud terminlərin mənaca dəqiqləşməsinə, konkretləşməsinə səbəb olan dilçiliyin inkişaf yolunu hərtərəfli izləmək, hər bir terminə dair qısa və dəqiq məlumat almaq üçün bu kitablar kifayət etmir. Bunun üçün bütün və ya əksər dilçilik terminlərini özündə cəmləşdirən bir lüğətə böyük ehtiyac vardır. Belə bir lüğət izahlı şəkildə qurulmuş olarsa, onun daha çox faydalı olacağı aşkardır. Pedaqoji elmlər namizədi, Ə.Fərəcovun yaxınlarda çapdan çıxmış «İzahlı dilçilik lüğəti» (Bakı, «Maarif», 1969) bu cəhətdən dilçiliyimiz üçün qiymətlidir.

«İzahlı dilçilik lüğəti»ndə, başlıca olaraq, orta və ali məktəblərdə öyrədilən dilçilik terminlərinin izahı nəzərdə tutulmuşdur. Lakin müəllif bununla kifayətlənməmiş, tədris prosesi ilə bilavasitə bağlı olmasa da, öyrənilməsinə zəruri ehtiyac olan bir sıra terminləri də lüğətə daxil etmiş və qənaətbəxş izahat da vermişdir. Məsələn, lüğətdən hələ XVIII əsrdə Dekart və Leybnis tərəfindən ideya şəklində irəli sürülmüş «beynəlxalq dil», 1880-ci ildə alman katolik pateri Şleyxer tərəfindən «Volyanuk» layihəsinin («dünya

dili») çap edilməsi, Varşava həkimi L.L.Zeminqof tərəfindən 1887-ci ildə yaradılmış esperanto, Lui de Bofron tərəfindən 1907-ci ildə yaradılmış ido kimi süni dillər haqqında maraqlı məlumat almaq mümkündür.

Lüğət Azərbaycan dilçiliyi terminləri ilə məhdudlaşmadığı kimi, ayrı-ayrı terminlərin izahı da yalnız Azərbaycan dili çərçivəsində verilməmişdir. Burada hər bir termin əvvəlcə ümumi dilçilik baxımından izah edilmiş, sonra da Azərbaycan dilçiliyində onun mənası və əhatə dairəsi aydınlaşdırılmışdır. Yığcam elmi izahla yanaşı, Azərbaycan dilinə dair konkret misalların verilməsi təsəvvürü daha da dəqiqləşdirir. Lüğətin mühüm cəhətlərindən biri də hər bir terminin rus, ingilis, fransız, alman, ispan dillərindəki qarşılıqlarının verilməsidir.

Müəllif terminlərin əsas mənalarının izahında diqqətlidir. O, lüğət yaradıcılığı işinin qarşısında duran böyük məsuliyyəti axıra qədər diqqət mərkəzində saxlayaraq, oxucunu düzgün istiqamətləndirməyə, terminin müasir inkişaf mərhələsində aldığı mənanı aydınlaşdırmağa çalışmışdır. Lakin müəllif dilçilikdə hələ dəqiq həll edilməmiş və ya haqqında müxtəlif rəylər olan məsələləri də unutmamış, kitabın həcmi kiçik olsa da, belə məsələlər barəsində də səhih və qısa məlumat verməyi zəruri saymışdır.

Lüğətdə verilmiş «Rusca terminlərin azərbaycanca qarşılığı», «İngiliscə terminlərin azərbaycanca qarşılığı» kimi bölmələr də maraqlı və əhəmiyyətlidir.

Lüğətin müəyyən nöqsanları da vardır ki, bunların bir çoxu dilçiliyimizin özündən irəli gəlir. Bəzən lüğətdə sistemin pozulmasına rast gəlmək olur. Məsələn, sözün mənşəyi və vurğunun növləri qarışıq izah edilmişdir. Modal sözlə ara söz paralelizm kimi verilir, halbuki, məsələn, xəbərlə fel arasında bərabərlik olmadığı kimi, bunları da bərabərləşdirmək, «belə birləşmələr morfologiyada modal sözlər və ya modal birləşmələr adlanır» – demək tam doğru olmaz, çünki ara sözlərin ifadə imkanları genişdir. Modal sözdən ayrıca bəhs edildiyi və belə sözlərin varlığı təsdiq edildiyi halda, bunlar köməkçi nitq hissələrinə daxil edilmir. «Atributivləşmə» – əşya məzmunlu sözün «sifət funksiyası daşıyan sözə çevrilməsi» (səh.14) kimi izah edilir və sifətlə təyin eyniləşdirilir, substantivləşmə anlayışı düzgün izah edilmir. «Sanki», «elə bil»,

«guya» modal sözləri bəzən dərs vəsaitlərində olduğu kimi, bağlayıcı adlandırılır. «Qoşma heç bir şəkilçi qəbul etmir» (səh.24) deyildikdə xəbərlik şəkilçisi unudulur. Adlıq halın qoşma ilə əlaqəsi göstərilmir. «İki saitin… bir hecada birləşməsi diftonq adlanır» – deyə əsasən doğru tərif verildiyi halda, «Azərbaycan dilində ***ov, oy, ev, ey*** kimi diftonqlar işlənir» (səh. 35) şəklində doğru olmayan nəticə çıxarılır. Yiyəlik halda olan ***biz, siz, onlar*** sözləri əvəzliyin ayrıca növü – «yiyəlik şəxs əvəzliyi» adı ilə verilir, «bura», «ora» kimi düzəltmə zərflər işarə əvəzliyi hesab edilir. Semasiologiya ilə leksikologiyanın tədqiqat obyekti dəqiq fərqləndirilmir. «Qeyri-müəyyən miqdar sayı» miqdar sayının deyil, sayın bir növü kimi verilir. «Azərbaycan dilində 23 samit» (səh.84) olduğu göstərilsə də, «k» hərfinin funksiyaları dəqiq aydınlaşdırılmır və ya 120-ci səhifədə bu məsələ izah edilsə də, dilarxası kar ***k`*** (***kartof, kolxoz*** və s. sözlərdə) samitlər sırasına daxil edilmir. «Semasiologiya… düz istiqamətdə inkişaf etmişdir» (səh. 86) – cümləsi sonrakı cümlələrlə məna və məntiqi cəhətdən ziddiyyət təşkil edir. 90-cı səhifədə sintaqmlar xətlərlə düzgün göstərilməmiş, 106-cı səhifədə uzlaşmanın cinsə, kəmiyyətə və hala görə olduğu qeyd edilməklə, şəxsə görə uzlaşma əsas olduğu halda, II plana endirilmişdir. «Leksem» sözü azərbaycanca «leksema» kimi getmiş, bəzi misallar təkrar olunmuş (səh. 32, 54), bəzi lazımsız məsələlər geniş izah edilmişdir və s.

Qüsurları müəllif asanlıqla islah edə bilər.

Bu faydalı kitabda hələlik 400-ə qədər dilçilik termini izah edilmişdir. Orta məktəb şagird və müəllimləri, ali məktəb tələbələri üçün nəzərdə tutulmuş bu əsərin həcmini genişləndirərək, gələcək nəşrdə dilçilik elmi ilə bağlı olan bütün əsas terminləri əhatə edə bilən bir kitab hazırlamaq olar və müəllif başlamış olduğu bu uğurlu işi daha çox irəlilədə və dilçiliyimizə daha çox fayda verə bilər.

25.06.1970

DİLÇİLİK PROQRAMLARI

Azərbaycan dilçiliyinin və ümumi dilçiliyin bəzi sahələrinə dair proqramların hazırlanması və nəşri tarixi həmin proqramların aid olduğu fənlərin tədrisi tarixi ilə bağlıdır. Bir sıra proqramlar əvvəllər nəşr edildiyindən son vaxtlar çətin tapılırdı, bəzi sahələrə dair proqramların olmaması isə tədrisin düzgün qurulmadığını göstərirdi.

V.İ.Lenin adına APİ-nin həyatında yubileylər ilindəki mühüm yeniliklərdən biri məhz ayrı-ayrı fakültələrdə tədris edilən müxtəlif elmlərə dair fənn proqramlarının yenidən hazırlanması və yeni nəşrləridir. Yalnız bunu qeyd etmək kifayətdir ki, filologiya fakültəsində dərs deyən mütəxəssis alimlər tərəfindən keçən dərs ilində ondan artıq fənnə aid proqram tərtib edilmiş və çap olunaraq istifadəyə verilmişdir.

Bu proqramların bir qismi əvvəlki nəşrlərin təkmilləşdirilmiş variantı, bir qismi isə tamamilə yenidir. «Dilçiliyə giriş» proqramı tərcümə, qalan bütün proqramlar orijinaldır. Yalnız «Ümumi dilçilik» proqramı layihə şəklində buraxılmışdır.

«Dilçiliyə giriş» proqramı nəzəri və praktik hissələrdən ibarətdir. Nəzəri hissə elə tərtib olunmuşdur ki, bu fənn ilə əlaqədar əksər məsələləri əsasən əhatə edir. Proqramın praktik hissəsi də yaxşı qurulmuşdur. Konkret dil faktları üzərində işlədici xarakterdədir. Lakin burada bir cəhəti qeyd etməliyik ki, «Dilçiliyə giriş» fənni birinci kursda keçildiyindən və həmin dövrdə tələbələr başqa dillərə o qədər də bələd olmadıqlarından, proqramın praktik hissəsində çalışmaların daha çox rus dili, flektiv dillər üzərində qurulması nəticəsində tələbələri düzgün istiqamətləndirmək məsələsi yenə müəllimin üzərinə düşür. Bundan əlavə, «Dilçiliyə giriş» fənninə aid dərslik və dərs vəsaitlərində dilçiliyin tarixi və xüsusən müqayisəli-tarixi dilçilik haqqında məlumat verildiyi halda, bunların barəsində proqramda heç bir xüsusi qeyd yoxdur. Görünür, bu, dilçilik tarixinin ayrıca bir fənn kimi ixtisas fənləri sırasına daxil edilməsi ilə əlaqədardır.

«Dilçiliyin tarixi» fənni kimi, «Dilçiliyin tarixi» proqramı da yenidir. Bu fənnin tədrisi tələbələrin görüş dairəsini daha çox ge-

nişləndirəcəkdir. Proqramda dilçilik elminin yaranma və inkişaf yolu doğru planlaşdırılmışdır. Mühüm nöqsanlarından biri budur ki, bəzi məsələlərə, məsələn, riyazi dilçilik haqqında xüsusi qeydə rast gəlmək olmur, Azərbaycan dilçiliyinin tarixinə aid heç nə yoxdur. Yeri gəlmişkən demək istərdik ki, Azərbaycan dilçiliyinin tarixinə dair xüsusi proqram hazırlamağın və filologiya fakültələrinin tədris planına belə bir fənni daxil etməyin vaxtı artıq çatmışdır.

«Türkologiya» proqramı (tərtib edəni dosent Ə.Şükürovdur) dilimizin türk dilləri ailəsində yerini, müqayisəli-tarixi metodun mahiyyətini, dünyanın dörd qitəsində yayılmış türk xalqlarının dilini öyrənmək və çox geniş ərazidə yayılmış dil ailələrindən biri haqqında kifayət qədər təsəvvür almaq üçün tərtib edilmiş bir proqramdır.

Yeni proqramlardan biri də dosent A.Məhərrəmovun tərtib etdiyi «Qədim türk yazılı abidələrinin dili»dir. Bu proqramda türk dillərinin bütün abidələri deyil, Orxon-Yenisey, qədim uyğur abidələri və ərəb əlifbası ilə yazılmış abidələrin bir qismi (V-XI əsrlər) əhatə olunmuşdur. Çin, ərəb, fars, qədim yunan və bizans mənbələri proqramda nəzərdə tutulmamışdır.

Proqramda türk dillərinin təsnifi, mənbələri haqqında yığcam məlumat nəzərdə tutulmuş, qədim abidələrin lüğət tərkibi, fonetikası və morfologiyasına daha geniş yer verilmişdir. Sintaksis məsələləri proqramda çox az yer tutur. Bu, mövcud ədəbiyyatda da hələlik belədir. Lakin proqramda sintasis haqqında məlumatın «Morfologiya» bəhsində verilməsi, saitlər, samitlər, heca və vurğu məsələlərindən sonra əlifba haqqında məlumat nəzərdə tutulması kimi qeyri-dəqiq cəhətlər də vardır.

Prof.Ə.Dəmirçizadənin tərtib etdiyi «Azərbaycan ədəbi dili tarixi», «Azərbaycan dilinin tarixi qrammatikası» proqramları bir neçə dəfə çap olunmuşdur və müəllifin bu sahələrdə uzun müddətdən bəri apardığı tədqiqatın, təcrübənin nəticələridir. «Azərbaycan dilinin tarixi qrammatikası» proqramına tarixi morfologiya və tarixi sintaksis ilə yanaşı, tarixi fonetika məsələləri də daxil edilmişdir. Görünür, müəllif mövcud dərs vəsaitlərini və ümumiyyətlə, köhnə ənənəni nəzərə alaraq, tarixi fonetika və qrammatika məsələlərini bir ad altında birləşdirmişdir. «Azərbaycan

ədəbi dili tarixi» proqramında isə ədəbi dilimizin təşəkkülü, inkişaf mərhələləri verilmiş, ədəbi dilin inkişafında üslubların rolu diqqətlə nəzərdən keçirilmişdir. Proqramdan aydın olur ki, ədəbi dilimizin inkişafında uzun müddət əsas rolu bədii üslub oynamışdır. Digər üslublar isə nisbətən sonralar yaranmış və müxtəlif qollar üzrə zənginləşərək ədəbi dilin hərtərəfli inkişafına səbəb olmuşdur. Proqramda yeri gəldikcə, dilin qrammatik quruluşuna, dilin öz qanunları əsasında söz birləşmələri tərtibi məsələlərinin inkişafına da diqqət yetirilir, lüğət tərkibinə nisbətən bunlara geniş yer verilir. «Azərbaycan ədəbi dili tarixi» proqramında lüğət tərkibinin tarixi aspektdə öyrənilməsi müasir dilimizin lüğət tərkibinin öyrənilməsi səviyyəsində nəzərdə tutulmur. Qeyd etməliyik ki, dilin fonetik sistemi, qrammatik quruluşu tarixi aspektdə kifayət qədər öyrənildiyi halda, lüğət tərkibi bir növ unudulur. Tarixi leksika və frazeologiya məsələləri, nədənsə, yada düşmür. Əslində, tarixi leksikologiya bir kurs kimi tarixi fonetika və tarixi qrammatika ilə yanaşı, «Azərbaycan dilinin tarixi» fənninin üzvi tərkib hissələrindən biri kimi tədqiq və tədris edilməlidir.

Dilçilik proqramları Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi elmi-metodik şurasının Azərbaycan dili bölməsində təsdiq edilmiş və V.İ.Lenin adına APİ-nin mətbəəsində buraxılmışdır. Proqramların bəzilərinin sonunda izahat vərəqəsi vardır. Daha sonda istifadə ediləcək əsas ədəbiyyatın siyahısı verilmişdir ki, bu, proqramların əhəmiyyətini daha da artırır.

Proqramlardan respublikamızın bütün pedaqoji institutlarının filologiya fakültələri istifadə edə bilər.

22.07.1970

MƏKTƏB VƏ ƏDƏBİ TƏLƏFFÜZ

Tələffüzün ümumiləşməsi, vahid yazı qaydaları ilə yanaşı, vahid tələffüz qaydalarına da əməl etməyin zəruriliyi indi bu və ya digər şəkildə hamını düşündürən məsələlərdəndir. İlk addım kimi, ədəbi tələffüzün əsaslarına dair bir sıra qiymətli əsərlər də yazılmışdır. Lakin bu məsələ ilə əlaqədar çətinliklər hələ çoxdur. Milli mədəniyyətin yüksəlişi ilə bağlı olaraq, ədəbi tələffüzlə müxtəlif dialekt və şivələrə məxsus tələffüz tərzi arasında ümumi və ortaqlı cəhətləri artırmağa, dilimizin şifahi qolunun min ildən artıq bir dövr ərzində davam edən inkişaf yolunu yad təsirlərdən qorumağa, müəyyən mənada istiqamətləndirməyə çalışırıq. Buna görə də vahid və ümumi tələffüz qanunlarına nail olmaq üçün aparılan seçmə və əvəzetmə əməliyyatı tədqiqatçıdan maksimum obyektivlik tələb edir. Tədqiqatçının şivəsinə uyğun olan, ona təsadüfən xoş gələn tələffüz formasını zorla sabitləşdirmək olmaz. Ümumişlək xüsusiyyətə malik olub, hamı tərəfindən bəyənilən formaların seçilməsi bu işin uğurlu inkişafını təmin edə bilər.

Tələffüz əsaslarının elmi şəkildə dəqiqləşdirilməsi nə qədər çətindirsə, onun böyüməkdə olan nəslə nəzəri və xüsusən praktik şəkildə mənimsədilməsi yollarının düzgün müəyyənləşdirilməsi də o qədər mürəkkəb və əhəmiyyətlidir. Məlumdur ki, orta məktəblərin bir çoxunda bu sahədə vəziyyət dözülməzdir. Məktəblərin çoxunda orfoepiya məsələlərinə böyük laqeydlik vardır. Bunun bir səbəbi ədəbi tələffüz qaydalarının son dərəcə zəif təbliği, bu sahəyə dair vəsaitin məhdud olmasıdırsa, digər səbəbi müəllimlərin öz şivə «tilsimini» qıra bilməmələri, daha doğrusu, buna müqavimət göstərmək siqnalının daxili bir zərurət kimi onlarda hələ oyanmamasıdır. Bu sahə ilə məşğul olan yoldaşlara məlumdur ki, bəzi məktəblərdə ədəbi tələffüz, orfoepik rejim barədə iş məktəbin müəllimlərinin heç ağlına da gəlmir. Bunlar bir yana, bir çox fənn müəllimləri dərslikdəki adi terminlərin düzgün tələffüzünə dair vərdişlər də yaratmırlar. Bunu V.İ.Lenin adına APİ-nin filologiya fakültəsində oxuyan tələbələrin bir qisminin timsalında da müşahidə etmək mümkündür. Tələbələrin xeyli hissəsi ***mübtəda*** sözünü «mübtadə» və ya bəzən daha eybəcər şəkildə – «müfdadə» şəklin-

də tələffüz edirlər. Şübhəsiz, günah həmin tələbəyə bu termini ilk dəfə öyrədəndədir. Burası da məlumdur ki, ilk vərdişi sonralar unutdurmaq, islah etmək çətin olur, xeyli vaxt alır.

Bu cür çətinlikləri nəzərə aldıqda aydın olur ki, dil-ədəbiyyat müəllimlərinin orfoepiya təlimi metodikasına dair köməyə ciddi ehtiyacları var. Elə buna görə də biz pedaqoji elmlər namizədi, dosent Nadir Abdullayevin bu yaxınlarda çapdan çıxmış «Orfoepiya təliminin metodikasına dair göstərişlər» (Bakı, V.İ.Lenin adına APİ nəşri, 1974. Redaktoru prof. Ə.Fərəcovdur) əsərini faydalı və bu ehtiyacı qismən ödəyən bir əsər hesab edirik.

Orfoepiya məsələləri fonetika ilə daha sıx bağlıdır. Ona görə də əsərin mühüm fəsillərindən birini «Fonetika tədrisinin ədəbi tələffüzlə əlaqədar məsələləri» təşkil edir. Orfoepiyaya Azərbaycan dili tədrisində həm ayrıca yer verilmiş, həm də o, Azərbaycan dilinə aid hər bir dərsin qarşısında duran mühüm məsələ kimi nəzərdə tutulmuşdur. Odur ki müəllif hər bir sait və samitin, fonetik hadisə və qanunun ədəbi tələffüzlə bağlı cəhətlərinə xüsusi fikir vermiş, orfoqrafiya ilə düzgün tələffüz arasındakı fərqli cəhətlərin dəqiq izahına çalışmış, bu fərqlərin praktik şəkildə mənimsədilməsi üçün düzgün istiqamət vermişdir. Burada bəzən yanlış və ya mübahisəli mülahizələrə də təsadüf olunur. Məsələn, müəllifin fikrincə, «səslər şifahi nitqin ən kiçik mənalı vahidləridir» (10), halbuki sözlərin mənalı hissələrə bölünməyən ən kiçik mənalı vahidləri morfemlərdir. Müəllif «q» səsinin kar qarşılığı olan «k`» səsinin rus dilindən alınmış bir sıra sözlərdə işləndiyini, ***Oqtay, saqqal, məqsəd*** kimi sözlərdə «q» samitinin «k`» kimi tələffüzününün «fonetik şəraitlə bağlı» olduğunu göstərir və belə bir qənaətə gəlir ki, bunlar dilimizdə «belə bir fonemin» (**k`** foneminin – *Q.K*) olmasına əsas verə bilmir». Halbuki bu fonemin varlığı çoxdan qəbul olunmuşdur və onun ayrıca işarəsinin olmaması xeyli vaxtdır ki, əlifbamızın qüsuru kimi qeyd edilir. ***Vicdan, əcdad, səcdə*** kimi sözlərdə «c» səsinin «j» kimi tələffüzü geri uyuşma deyil, dissimilyasiya nəticəsi kimi izah oluna bilər, kipləşən «d» səsi yarımkipləşən «c» səsini öz məxrəcindən çıxarır və sürtünən səsə çevirir. «Hanbal» sözü «Hambal» şəklində tələffüz edilirsə, bu, «b» səsinin əvvəl gələn «n» samitini məxrəccə özünə yaxınlaşdırması ilə izah edilməməli, mənşəcə «hammal» şəklində olan bu sözdə dissi-

milyasiya (MM> MB) nəticəsi kimi qeyd olunmalıdır. ***Qüdrət, şüa, sübut, rüsvay, sütun, qüvvət***… sözlərinin ***qudrət, şua, subut, rusvay, sutun*** şəklində tələffüzü sözləri lorulaşdırır. ***Termometr, kompas, simfoniya*** sözlərində «o», ***kabel*** sözündə «a», ***Tula*** sözündə «u» səsi uzun deyil, vurğulu tələffüz olunur. Belə qeydləri artırmaq da olardı. Lakin bunlar müəllifin bu əsərindən daha çox, dilçiliyimizlə, orfoepiya prinsiplərinin hələ tam dəqiqləşdirilməməsi ilə əlaqədardır.

Kitabda morfologiya tədrisinin ədəbi tələffüzlə bağlı məsələləri də yaxşı işlənmişdir. Burada saitlərin, samitlərin, bəzi qrammatik formaların tələffüzü və onların necə öyrədilməsi barədə qeydlər tədris prosesində rəhbər tutulmalıdır. Doğrudur, orfoepiyadan bəhs edilən bəzi əsərlərdə olduğu kimi, burada da ikinci şəxsin cəmini bildirən ***-sınız*** və ***-sız*** formalarından ikincisinə ədəbi tələffüzdə geniş yer verildiyi göstərilir; lakin, əslində, istər ədəbi, istərsə də qeyri-ədəbi tələffüzdə birinci forma üstün rola malikdir. Bəzi nəzəri ədəbiyyatın ardınca gedərək, dos. N.Abdullayev də ***quru idi, quru imiş, yaxşı idi, yaxşı imiş, alası idim, ala idim, olmalı idi*** – sözlərini ***quriydi, quriymiş, yaxşiydi, yaxşiymiş, alasiydim, aleydim, olmaliydi*** şəkillərində tələffüz etməyi düzgün sayır. Göstərilən tələffüz forması sabitləşərsə, gec-tez orfoqrafiyanı da öz ardınca aparmalıdır. Deməli, biz bilə-bilə dilimizdəki ahəng qanununu pozuruq. Əgər ümumi tələffüzdə bu forma geniş yayılmış olsa idi, yenə dözmək olardı. Orfoqrafiya sərhədlərini pozaraq, canlı tələffüzü yazıya gətirən yazıçı və şairlərimizin dilində də bu formaya rast gəlmirik. Çünki təbii tələffüzə əsaslandıqlarından onlarda bu cür süni tələffüz təsəvvürü yoxdur. Bu cür sözlərin ***quruydu, quruymuş, yaxşıydı, yaxşıymış, alasıydım, alaydım, olmalıydı*** şəklində tələffüzü mədəni, yatımlı, asan olmaqla yanaşı, ümumi tələffüz və ahəng qanununa da uyğundur. Ona görə də yazıçılarımız bu formadan bədii dildə geniş istifadə edirlər.

Orta məktəbdə orfoepiya təliminin yollarına dair qeydlər «Göstərişlər»in əsas hissəsini təşkil edir. Bu hissə metodiki cəhətdən daha əhatəli və genişdir. Şagirdlərdə ədəbi tələffüz vərdişlərinin yaranması üçün fonetik təhlilin, orfoepik çalışma və cədvəllərin, nümunələr üzərində işin, texniki vasitələrin, orfoepik rejimin

rolu xüsusi nəzərə alınmış, bunların hər biri konkret misallar əsasında şərh olunmuşdur.

Müəllif düzgün qeyd edir ki, şagirdlər günün az hissəsini məktəbdə, çoxunu evdə, ailə üzvləri arasında keçirir və ona görə də onların tələffüz vərdişlərinin təşəkkülündə valideynlərin rolu böyükdür. Buna görə də müəllif ədəbi tələffüz barədə müəllimlərin valideynlərə «sadə bir şəkildə məlumat verməsini» məsləhət görür. Lakin nəzərə alınmalıdır ki, bəzi ailələrdə, kəndlərdə, rayonlarda şivə tələffüzü elə qatı və güclüdür ki, «sadə bir şəkildə söhbət» ciddi nəticə verə bilməz. Ümumiyyətlə, bu iş uzunmuddətli bir prosesdir və savadla, təhsillə, mədəniyyətin inkişafı ilə bağlı məsələdir. Birdən-birə bu sahədə hər şeyi düzəltmək olmaz və dilin öz təbii inkişafı da buna imkan vermir.

Dil-ədəbiyyat müəllimləri üçün faydalı olan bu vəsaitdən digər fənlərin müəllimləri və valideynlər də istifadə edə bilərlər. Lakin bu əsərin və ümumən bu cür metodiki ədəbiyyatın real faydasından o zaman ətraflı danışmaq olardı ki, onlar 500 nüsxə deyil, geniş tirajla çap oluna və hökmən respublikamızın bütün ümumtəhsil məktəblərinə çatdırıla idi.

09.01.75

«VII – VIII SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİ DƏRSLƏRİ»

«Maarif» nəşriyyatı son illərdə bir sistem şəklində orta məktəb dərsliklərinə aid metodik göstərişlər çap etməkdədir. Göstərişlərin nəşrində əsas məqsəd tədrisin vəziyyətini daha da yaxşılaşdırmaq və dərsliyə əlavə şəklində müəllim üçün köməkçi vəsait hazırlamaqla bu iş üçün real zəmin yaratmaqdır. VII–VIII siniflərdə Azərbaycan dili dərslərinə dair belə bir vəsaitin buraxılması da həmin məqsədlə bağlı olub, dilimizin sintaktik quruluşunun tədrisi ilə məşğul olan orta məktəb müəllimlərinin əməyinin daha səmərəli təşkili üçündür

V.İ.Lenin adına APİ-nin dosenti Əhəd Əhmədov tərəfindən hazırlanmış bu vəsait qrammatikanın ən çətin və mürəkkəb bir hissəsini – sintaksis və durğu işarələri bölməsini, nitq mədəniyyəti, üslubiyyat, dil haqqında ümumi məlumat kimi mühüm bölmələri əhatə edir.

180 səhifəlik bu əsər mükəmməl bir vəsait olub, dərsliyə daxil olan bütün mövzu və materialları əhatə edir. Vəsaitdə dərsliyin tərtibi prinsipləri dəqiq və ardıcıl şəkildə izah edilmişdir. Müəllif ilk növbədə ayrı-ayrı mövzuların tədrisində əsas məqsədin nədən ibarət olduğunu aydınlaşdırmağa çalışmışdır. Lakin bu, vəsaitin hazırlanmasının başlıca məqsədi deyildir. Müəllifin əsas işi hər bir mövzunun tədrisi zamanı müəllimlərin hansı üsullardan istifadə edə biləcəyini, asan və əlverişli yolun nədən ibarət olduğunu müəyyənləşdirmək və əyani surətdə göstərməkdir. Bu məsələ pedaqoji-metodiki baxımdan ən əlverişli üsulları müəyyənləşdirmək tələbatı ilə yanaşı, nəzəri materialı dərindən bilmək tələbini də ortaya qoyur. Bu başdan deyə bilərik ki, dos. Ə.Əhmədov bu əsərlə dilimizin sintaktik quruluşunun incə cəhətlərinə yaxşı bələd olduğunu nümayiş etdirə bilmişdir. Bunu hər bir mövzunun, materialın şərhi prosesində müəllifin dəqiq missallarından, əsas və əlavə məsələlərə münasibətindən, zəruri məsələləri ön plana çəkə bilmə imkanlarından aldığımız təəssürat əsasında deyə bilirik. Ə.Əhmədov ayrı-ayrı mövzuların məqsədi və tədrisi ilə bağlı ən elastik üsulları qeyd etməklə kifayətlənməmiş, VII-VIII siniflərin «Azər-

baycan dili» dərsliyində əhatə olunan mövzuların tədrisi üçün zəruri olan bir çox yeni çalışmalar, tapşırıqlar tərtib etməklə dərsliyi bir növ tamamlamış və həqiqi mənada müəllimə kömək edə biləcək bir vəsait hazırlamışdır. Vəsaitdə verilmiş imla və ifadə yazı mətnləri də diqqətlə seçilmişdir. Mətnlər bilikləri yoxlamaq və vərdişə çevirmək imkanı ilə yanaşı, estetik cəhətdən keyfiyyətli olması ilə də diqqəti cəlb edir.

Vəsaitin əvvəlində VII-VIII siniflər üzrə proqram və dərsliyin xüsusiyyətləri yığcam şərh edilmişdir. Həm dərsliyə, həm də vəsaitə diqqət yetirdikdə aydın olur ki, VII-VIII siniflərin «Azərbaycan dili» dərsliyi dilçiliyin və pedaqogikanın son nailiyyətləri əsasında xeyli dəqiqləşdirilmiş və təkmilləşdirilmişdir. Bu hal təkcə sintaksisə aid mövzuların düzülüş sistemində, tərtibi prinsiplərində, nəzəri məlumatın və çalışmaların verilmə üsullarında deyil, yeni proqrama uyğun olaraq, dərsliyə «Nitq mədəniyyəti və üslubiyyat», «Dil haqqında ümumi məlumat» kimi təzə materialların daxil edilməsində də özünü göstərir. Müəllif yığcam şəkildə olsa da, köhnə və yeni dərsliklərin müqayisəsini vermiş, son nəşrdəki üstünlüklərin, yeni cəhətlərin izahına çalışmışdır. Bunlar da özlüyündə yeni dərslikdən yeni tələbata müvafiq şəkildə istifadə etmək üçün orta məktəb müəllimlərinə yol göstərən zəruri materialdır.

Proqrama, dərsliyə, metodiki göstərişlərə diqqətlə nəzər saldıqda orta məktəb müəllimlərinin öhdələrinə düşən işin xeyli yaxşılaşmış, asanlaşmış olduğu görünür. Nəyi, neçə saatda, necə öyrətmək kimi məsələlər, hətta hansı dərsdə hansı tapşırıqlardan necə istifadə etmək kimi məsələlər də aydındır və müəllimin bu barədə fikirləşməsinə ehtiyac qalmamışdır. Əvvəlki siniflərdə keçilmiş materialların təkrarına dərslikdə və vəsaitdə eyni nisbətdə yer verilmişdir.

Vəsaitdə sintaksisin əsas obyekti olan söz birləşməsi və cümlənin əlaqəli tədrisi məsələləri ön plandadır. Müəllif təsdiq edir ki, dərslikdə söz birləşməsi ilə sözün, söz birləşməsi ilə cümlənin oxşar və fərqli cəhətlərinin izahı düzgün qurulmuşdur. Ona görə də vəsaitdə söz birləşmələri ilə cümlələri fərqləndirən cəhətləri müəllimlərin diqqətinə daha aydın çatdırmağa çalışmışdır. Cümlənin tərifi və bu tərifdə əhatə olunan xarakter əlamətlər ətraflı şərh

olunmuşdur. Bunlar müəllimlərin diqqətini əsas məsələyə yönəltmək üçün çox faydalıdır. Lakin qeyd etməliyik ki, ümumiyyətlə, müasir dilçiliyimizdə cümləyə verilən tərifler qənaətbəxş deyildir və son vaxtlar mətbuatda dərc olunan məqalələr də bunu göstərir. Bu sahədə, yəni cümlənin tərifinin az-çox dəqiqləşdirilməsi istiqamətində uzun illərdən bəri nəşr olunan VII-VIII siniflərin «Azərbaycan dili» dərsliyi xeyli iş görmüşdür. Gözümüzün önündə cümlənin tərifi bir neçə dəfə dəyişdirilmişdir. Bir vaxt cümlənin tərifi «*Bir və ya bir neçə sözün birləşməsi*» şəklində xarakterizə edilirdi. Aydın oldu ki, bir sözün birləşməsi olmaz və ona görə də tərifdəki bu hissə «*bir sözə və ya bir neçə sözün birləşməsinə*» şəklində dəqiqləşdirilirdi. Burada bir sözdən ibarət olan cümlələr ön planda idi və bu, doğru deyildi, ona görə də bir müddət sonra tərifdə yer dəyişikliyi edildi və tərif «*bir neçə sözün birləşməsinə və ya bir sözə*» şəklində quruldu. Bunlar dərk olunan məntiqsizliyin tədricən aradan qaldırılması istiqamətində olub zəruri düzəlişlər idi. İndi dərslkdə təkmilləşdirilmiş tərif belədir: «***Bitmiş fikri ifadə edən bir neçə sözün birləşməsinə və ya bir sözə cümlə deyilir***». Bu tərif əvvəlkilərdən təkmil olsa da, bunun özündə də aşkar məntiqsizlik vardır: «*bitmiş fikri ifadə edən bir neçə sözün birləşməsinə…*» hissəsinə diqqət yetirdikdə belə çıxır ki, cümlə hər biri ayrılıqda bitmiş fikir ifadə edən sözlərin birləşməsidir. Əslində isə demək istəyirik ki, «s*özlərin birləşərək bitmiş fikir ifadə etməsinə…*» cümlə deyilir. Bizə belə gəlir ki, bu nöqsan lap əvvəllərdən gəlir və bu, əslində Dionisinin verdiyi tərifin (*«Bitmiş fikri ifadə edən sözlərin birləşməsi nitqdir»*) qeyri-dəqiq tərcüməsindən irəli gəlmişdir. Tərifdəki «bir neçə söz» də, bizcə, artıqdır. Bunu əvvəlki əsrlərdə demək, bəlkə də, düzgün olardı. Lakin bizim dövrümüzdə müasir dilin inkişaf səviyyəsi cümləni bir neçə sözlə xarakterizə etməyə əsas vermir. Burada sadəcə olaraq «sözlər birləşməsi» ifadəsi yerinə düşər ki, bu da həm bir neçə, həm də istənilən qədər sözün birləşməsi anlayışlarını ifadə edə bilər.

Vəsaitdə bəzən müəllif nəzəri materialı dəqiqləşdirmə yolu ilə getmişdir. Dərslikdə birinci növ təyini söz birləşmələrinin verilməməsini müəllif digər söz birləşmələrindən fərqli olaraq, birinci növün tərəflərinin cümlədə bir üzv ola bilməməsi ilə əlaqələndirir. Lakin qeyd edilənlərdən aydın olur ki, o, nəzəri dilçiliyimizdəki üç

növ təyini söz birləşməsini qəbul edir və düzgün sayır. Yeri gəlmişkən, qeyd edək ki, «təyini söz birləşmələri», «birinci növ təyini söz birləşmələri»… kimi terminlər çox uzun olmaqla bərabər, həm də mahiyyəti zəif şəkildə ifadə edir. Hər üç növün birinci tərəfləri azçox təyinetmə xüsusiyyətinə malik olsa da, üç növdən yalnız birincisinin birinci tərəfi müstəqil təyin kimi çıxış edə bilir. Birinci növ isə birləşmələr sırasından çıxarılmışdır. Tutaq ki, vəsait müəllifinin dediyi kimi, dərslikdən çıxarılsa da, söz birləşmələrinin bir növü kimi, birinci növ təyini söz birləşmələrinin varlığı da nəzərdə tutulur. Bəs birləşmənin bu növünün adı necə olmalıdır? Bir halda ki, ikinci və üçüncü növ təyini söz birləşmələrinin adları dəyişdirilmişdir (qeyri-müəyyənlik bildirən və müəyyənlik bildirən təyini söz birləşmələri), bəs nəzərdə tutulan I növü necə adlandırmaq mümkün olacaqdır? Bəlkə, birinci növə daxil olanlar birləşmə hesab olunmur? Belə olarsa, biz yenidən mərhum Z.Tağızadənin bir vaxt söylədiyi fikrə qayıtmış olarıq.

Müəllifin vəsaitdə nəzəri materialı dəqiq saf-çürük edə bilmə qabiliyyəti ayrı-ayrı mövzuların tədrisi məsələlərinə keçilərkən özünü daha aydın göstərir. Məlumdur ki, ikinci növ təyini söz birləşmələrinin tərəfləri arasında sintaktik əlaqələr məsələsində fikirlər çox müxtəlifdir. Ə.Əhmədov bu sahədə ən ağlabatan yol seçmişdir. Burada onun sözlərini qeyd etmək kifayətdir: «…kitabda qeyri-müəyyənlik bildirən təyini söz birləşmələrinin tərəfləri arasında, əsasən, idarə əlaqəsi olduğu göstərilir. Lakin bu birləşmələrdə tərəflər arasına heç bir söz artırmağın mümkün olmaması və birinci tərəfin ikinci tərəfə şəkilçisiz bağlanması yanaşmanın əsas əlaqə forması olduğunu sübut edir». (s.32) Şübhəsiz, müəllif ikinci növün tərəfləri arasında «əsas əlaqə yanaşmadır» – deyərkən ikinci əlaqəni də nəzərdə tutur ki, bu da idarə deyil, uzlaşma ola bilər.

Vəsaitdə feli sifət, feli bağlama və məsdər tərkiblərinə dair nəzəri məsələlər aydın şərh olunmuşdur. Lakin müəllif diqqəti bir cəhətə xüsusilə yönəltməli idi. Əvvəlki dərslikdə təriflər belədir: «Feli sifət tərkibi feli sifətlə başqa sözlərin birləşməsindən əmələ gəlir»… Feli sifətlə başqa sözlərin birləşməsi dedikdə «kitabı oxuyan» tipli birləşmələrlə yanaşı, «oxuyan şagird» tipli birləşmələr də nəzərdə tutula bilər. Lakin bunlardan ikincisi feli sifət bir-

ləşməsi olmaz. Odur ki feli birləşmələrin yaranması üçün feli sifət, feli bağlama və məsdərin tabe edən tərəf kimi çıxış etdiyini daha aydın nəzərə çarpdırmaq lazım idi.

Ümumiyyətlə, məktəb dərsliklərində bir sıra təriflərin dəqiqləşdirilməsinə, köhnə təriflərdən əl çəkməyə ehtiyac vardır. «Cümlədə kim və ya nə haqqında danışıldığını bildirən cümlə üzvünə mübtəda deyilir». «Sorğu məqsədilə işlədilən cümləyə sual cümləsi deyilir». «Baş üzvlər və ya baş üzvlərlə birlikdə ikinci dərəcəli üzvlər də iştirak edən cümləyə bütöv cümlə deyilir». «İki və daha artıq sadə cümlənin məna və tələffüzcə bir bütöv halında birləşməsindən əmələ gələn cümlələrə mürəkkəb cümlə deyilir» və s. kimi təriflərdə dəqiq olmayan cəhətlər çoxdur və bunların islahı lazımdır. Mübtədanın tərifi mübtədadan çox, məntiqi subyektin xüsusiyyətlərini əks etdirir. Cümlədə kim və ya nə haqqında danışıldığını bildirən söz olar, lakin o, mübtəda olmaya da bilər. Sual cümləsinin tərifi zahirən yenidir, lakin əvvəlki təriflər bundan daha elmi idi. Biz «sorğu» dedikdə bir metodiki termin başa düşürük və sorğudan dərs prosesində istifadə olunduğunu bilirik. Xalq arasında biri digərindən bir şey soruşduqda bunu ***sorğu*** adlandırmırıq. Birisi çox sual verdikdə «Filankəsi nə sorğu-suala tutmusan?» – deyirik ki, burada da «sorğu» sözü «sual» sözü ilə birlikdədir. Ona görə də tərifdə «sorğu» sözü yerinə düşmür, mənanı məhdudlaşdırır. Bütöv cümlənin tərifi də elmi cəhətdən birtərəflidir. Belə çıxır ki, bütövlük yalnız çüttərkibli, orta məktəbdə deyildiyi kimi, şəxsli cümlələrə aiddir. Lakir artıq çoxdan məlumdur ki, bütövlük və yarımçıqlıq eyni dərəcədə təktərkibli – şəxssiz, qeyri-müəyyən şəxsli, ümumi şəxsli cümlələrə də aiddir. «Onun uşaqlara acığı tutub» – cümləsi nəyə əsasən bütöv sayılmaya bilər? Burada bütün üzvlər yerindədir. Bu cümlə şəxssizdir və bunun mübtədası olmaz. Mübtədanın olmaması və buraxılması anlayışları isə başqa-başqa şeylərdir. Əgər bu cümləni : – ***Onun kimə acığı tutub? – Uşaqlara*** – şəklinə salsaq, ikinci cümlə («Uşaqlara» cümləsi) şəxssiz cümlə əsasında əmələ gəlmiş yarımçıq cümlə olacaqdır. Burada xəbər buraxılmışdır. Əgər bu yarımçıqdırsa, onun əsaslandığı cümlə bütövdür.

Mürəkkəb cümlənin tərifində isə «sadə» sözü yerinə düşmür. Çünki mürəkkəb cümlənin tərkib hissələri sadə olmaqla bərabər,

mürəkkəb də ola bilir. Tərifdəki «tələffüzcə» sözü də yerində deyildir. Tələffüz qrammatik quruluşu əhatə edə bilmir.

Bunları biz yeri gəlmişkən qeyd edirik. Tərifləri dəqiqləşdirmək vəsait müəllifinin işi deyildir. O öz işini davam etdirərək, sözlər arasında əlaqə üsulları, cümlə üzvləri, əlavələr, sadə cümlədə sözlərin sırası, şəxssiz cümlələr, adlıq cümlə, bütöv və yarımçıq cümlələr, həmcins üzvlər, xitab, ara sözlər və ara cümlələr, nida, cümlənin əvvəlində ***bəli, yox, xeyr*** sözləri, vasitəsiz və vasitəli nitq və s. kimi mövzuları diqqətlə nəzərdən keçirmiş, onların səciyyəvi xüsusiyyətlərini qeyd etməklə hər bir mövzunu yeni və maraqlı çalışmalarla izah etmək yollarını göstərmişdir. Onun göstərdiyi yol, ayrı-ayrı mövzuların tədrisi ilə bağlı göstərişlər müəllim üçün həqiqi kömək olacaqdır. Müəllif bir mühüm cəhətə də diqqət yetirə bilərdi: matrisadan çap olunduğu üçün dərslikdə hələ bir neçə il davam edəcək texniki qüsurları müəllimlərin nəzərinə çatdıra bilərdi. Məsələn, dərsliyin 44-cü səhifəsində təyinin tərifindəki texniki səhv kimi düşən yersiz bir vergül («***Cümlədə isimlə ifadə olunan, hər hansı bir üzvü izah edən…***») mənanın tamamilə dəyişilməsinə səbəb olmuşdur. Belə çıxır ki, təyin ancaq isimlə ifadə olunur və hər hansı bir üzvə aid ola bilir. Halbuki vergül olmadıqda məna tam dəqiq ifadə edilmiş olur: ***isimlə ifadə olunan hər hansı bir üzvü izah edən...*** Beləliklə, söhbət təyinin isimlə ifadə olunmasından deyil, isimlə ifadə olunmuş üzvə aid olmasından gedir. Səhifə 55-də qara şriftli sözlər düzgün seçilmədiyindən ***Dilbər, uşaq, Şərif, meyvə*** kimi sözlər zərflik kimi izah olunmuşdur və s.

Bizcə, proqram materiallarının dəqiqləşdirilməsində də qeyri-dəqiqlik vardır. Doğrudur, həmcins üzvlərin tədrisi ilə bağlı olaraq, xüsusən durğu işarələrinin işlədilməsinə dair ətraflı məlumat lazımdır. Lakin bu heç də o demək deyildir ki, həmin məsələni proqramda, dərslikdə və göstərişlərdə olduğu qədər şişirtməyə ehtiyac vardır. Həmcins üzvlərin tədrisinə on iki saat vaxt ayrılmışdır. Bu, sadə cümlənin növlərinə verilmiş saatdan az qala iki dəfə çoxdur. Halbuki təfərrüat şəklində verilmiş bir çox səhifələri kiçik bir abzasa sığışdırmaq olardı və mətləb daha asan yadda qalardı.

Dərslikdə ***bəli, yox, xeyr*** sözləri həm yarımçıq cümlə, həm də cümlənin əvvəlində işlənərək təsdiq və ya inkar mənalar ifadə edən sözlər kimi izah edilmişdir. Bunlar yarımçıq cümlə yaratmaq

xüsusiyyətinə malik deyildir və ona görə də vəsaitdə düzgün olaraq bunlardan yalnız ikinci halda söhbət açılmışdır.

Ə.Əhmədovun diqqətlə işlədiyi bölmələrdən biri də mürəkkəb cümlə və onun tədrisi məsələləridir. Bu mövzu sintaksisin ən çətin, daha çox məntiqi təfəkkür tələb edən sahələrindən biridir. Tabesiz və tabeli mürəkkəb cümlələrin tədrisi yolları barədə müəllifin göstərişləri onun nəzəri materialı, xüsusən şagirdlərin yaş və bilik səviyyəsinə uyğun olaraq nəyi çatdırmaq lazım gəldiyini yaxşı təsəvvür etdiyini göstərir.

Müəllif bir sıra əlavə çalışmalar tərtib etmişdir ki, bunların üzərində işləməklə şagirdlər mürəkkəb cümlənin mahiyyətini daha yaxşı dərk edə bilərlər. Onu da demək lazımdır ki, müəllif əsərdə mübtəda və tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrin budaq cümləsi bağlayıcı sözlərlə baş cümləyə bağlanan tipindən də danışmış və onların tədrisi məsələsinə də toxunmuşdur. Mübtəda və tamamlıq budaq cümlələrinin bu tipi haqqında şagirdlərə məlumat verilməsi vacibdir. Ona görə də dərslikdən çıxarılmasına baxmayaraq, budaq cümlələrin bu tipi barədə vəsaitdə məlumat verilməsini faydalı hesab edirik.

Yazılı və şifahi ədəbi dil, nitq mədəniyyəti, ədəbi dilin üslubları, üslubiyyatda sinonimliyin rolu, dilin mənşəyi, Azərbaycan əlifbasının tarixi, dilçilik elminin bölmələri barədə dərslikdə və vəsaitdə verilmiş ilkin qeydlər şagirdlərin dünyagörüşünü zənginləşdirmək, bilik dairəsini genişləndirmək baxımından faydalıdır.

Ümumiləşmiş şəkildə qeyd edə bilərik ki, dos. Ə.Əhmədovun «VII-VIII siniflərdə Azərbaycan dili dərsləri» adlı əsəri orta məktəbin Azərbaycan dili müəllimləri üçün qiymətli vəsait olub, nəzəri-metodiki cəhətdən yüksək səviyyədə işlənmiş olduğundan dərslik ilə yanaşı, müəllimlərin stolüstü kitabı olacaqdır.

06.04.1977

IV–VIII SİNİFLƏRİN «AZƏRBAYCAN DİLİ» PROQRAMLARI

Partiya və hökumətimizin ümumtəhsil məktəbləri haqqında son qərarları ilə əlaqədar IV–VIII siniflərin «Azərbaycan dili» proqramına yenidən baxılmış, Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun müvafiq şöbəsi tərəfindən hazırlanmış yeni layihə yaxınlarda çap olunaraq («Azərbaycan dili və ədəbiyyat tədrisi», 1979, № 2) müzakirəyə verilmişdir. Əvvəlki proqramın təkmilləşdirilmiş bu yeni variantı öz zənginliyi, əhatəliliyi, ardıcıl və sistemli qurulması ilə diqqəti cəlb edir. Proqramdakı bir sıra yeniliklər şagirdlərin qarşısına daha konkret tələblər qoymaqla yanaşı, müəllimin işini ciddi şəkildə istiqamətləndirir, əsas diqqəti nəyə yönəltmək lazım olduğunu müəyyənləşdirməyə daha geniş imkan verir.

Məlumdur ki, proqramdan çox şey asılıdır. Proqram nə qədər əhatəli, ardıcıl və sistemli qurulmuş olsa, aid olduğu sahələrdə bir o qədər çox fayda verər. Böyüməkdə olan nəslin bilik hüdudu proqram vasitəsilə müəyyənləşdirilir. Proqramın yeniləşməsi dərsliklərin də təzələnməsini və təkmilləşdirilməsini tələb edir. Bu cəhətləri nəzərə alaraq, biz yeni layihə haqqında öz mülahizələrimizi qeyd etmək istərdik.

Təbiidir ki, layihədə materialların siniflər üzrə bölgüsü əvvəlki ənənəyə əsaslanır. Dilin tərkib hissələrinin, orta məktəb üçün seçilmiş təcrübi və elmi-nəzəri məsələlərin ardıcıllıqla öyrənilməsi proqramın əsas istiqamətini təşkil edir. Yalnız IV sinifdə müəyyən mənada ümumi sistem və ardıcıllıq pozulmuşdur. Bu sinfin proqram materiallarının düzülüşündə qəti bir sistem görünmür. Əyani olmaq üçün həmin sinif üzrə əsas mövzuların layihədəki düzülüşünə nəzər salaq:

«İctimai həyatda dilin rolu» (1 s.), «İbtidai siniflərdə keçilmişlərin təkrarı» (15 s.), «Sintaksis və durğu işarələri» (33 s.), «Fonetika» (20 s.), «Leksika» (12 s.), «Söz yaradıcılığı» (28 s.), «IV sinifdə keçilmişlərin təkrarı və ümumiləşdirilməsi» (10 s.).

Göründüyü kimi, burada elə bir ardıcıllıq yoxdur. Şagirdlər dil haqqında məlumatdan sonra əvvəlki illərdə keçilmişlərin təkrarı-

na qayıdır, birdən-birə sintaksisə, sonra yenidən fonetikaya, əlifbaya, nəhayət, leksikaya, söz yaracılığına keçir. Bizcə, bu halın səbəbi IV sinfin ara pillə kimi nəzərdə tutulmasıdır.

IV sinif sanki I–III siniflərlə V–VIII sinifləri qovuşduran və ayıran pillədir. I – III siniflərdə keçilənlərdən IV sinfə də pay qalır. Eyni zamanda, əsas ardıcıl biliklər sistemi V sinifdən başlansa da, bəzi bəhslərin öyrənilməsi IV sinfin öhdəsinə düşür. Qısa desək: ibtidai siniflərdə keçilənlər tamamlanır, yuxarı siniflərə aid materiallar IV sinifdən başlanır. Ona görə də bu sinfin materiallarının düzülüşünə daha diqqətli olmaq lazım gəlir. IV sinfin proqramı V–VIII siniflərdə keçilənlərlə aşağıdakı şəkildə əlaqədardır: burada fonetika keçilib qurtarır və sonrakı siniflərdə onun bu və ya digər məsələsi yalnız əlavə çalışmalarla yada salınır; leksikologiya (***leksika*** yox, ***leksikologiya*** adlandırmaq düzgündür) başlanır və V sinifdə tamamlanır; söz yaradıcılığı keçilir və V sinifdə ayrı-ayrı nitq hissələrinin tədrisi prosesində genişləndirilir; sintaksis və durğu işarələri haqqında məlumat verilir, bu mövzu VII-VIII siniflərdə geniş şəkildə tədris olunur. Burada şagirdlərin sonrakı fəaliyyəti üçün bir uyğunsuzluq vardır. Bu uyğunsuzluğu aradan qaldırmaq üçün IV sinfi elə planlaşdırmaq olar ki, müəyyən nöqtədə ibtidai sinif materiallarının bitdiyi, geniş, sistemli məlumatın başlandığı bilinsin. Bunun üçün ibtidai siniflərdə keçilmişlərin təkrarından sonra «sintaksis və durğu işarələri» bölməsini verməklə kitabın birinci hissəsini bitmiş hesab etmək olar.

İkinci hissəni dil haqqında məlumatla başlamaq, fonetika, leksikologiya və frazeologiya məsələlərini əhatə etmək olar. Bu hissəyə imkan daxilində fonetikaya verilən saatları («sintaksis və durğu işarələri» bölməsi hesabına) bir qədər artırmaq lazımdır. Leksikologiya və frazeologiya məsələlərini də IV sinifdə başlayıb tamamlamaq mümkündür. Bu bölmədən layihəyə əsasən V sinfə 15 saatlıq material saxlanılmışdır ki, həmin material da şivə və ixtisas sözlərini, alınmaları, frazeologiya haqqında yığcam məlumatı əhatə edir.

Proqramdakı bəzi terminlərin dəqiqləşdirilməsinə ehtiyac vardır. Tabeli mürəkkəb cümlənin komponentləri layihədə bəzən «baş hissə», «budaq hissə» kimi qeyd olunmuşdur. Bunlara nəzəri və əməli sahədə hamı artıq «baş cümlə», «budaq cümlə» şəklin-

də vərdiş etmişdir. Proqramda gah «feli birləşmələr», gah da «tərkib» terminləri işlədilir. Bunlardan birini – birincisini saxlamaq yaxşı olardı. Feli birləşmələrin (tərkiblərin) sintaksisdə deyil, morfologiyada – fel bəhsində öyrənilməsi nəzərdə tutulmuşdur. Lakin burada da mövzu tam əhatə olunmur: feli sifət birləşməsi haqqında anlayış xüsusi nəzərdə tutulduğu və ona 2 saat vaxt verildiyi halda, feli bağlama, məsdər birləşmələrində bu cəhət görünmür. Bunlara sintaksisin əvvəlində, ismi birləşmələrlə yanaşı, «feli birləşmələr» adı altında yer vermək daha obyektiv olardı (ismi birləşmələri isə müəyyənlik və qeyri-müəyyənlik birləşmələri kimi deyil, əvvəlki şəkildə növlər üzrə qruplaşdırmaq pis olmazdı).

Yeni proqramda ***sözdəyişdirici şəkilçilər*** əvəzinə, ***qrammatik şəkilçilər*** termini işlədilir. Bu barədə bir qədər düşünməyə dəyər, çünki əslində bütün şəkilçilər qrammatik xüsusiyyətə malikdir və belə olmasa idi, sözdüzəldici şə kilçilərdən morfologiyada bəhs etmək lazım gəlməzdi.

Proqramın «Sintaksis» hissəsində belə başlıqlar vardır: «Hər iki baş üzvün iştirak etdiyi sadə cümlələr» (s.19), «baş üzvlərdən yalnız birinin iştirak etdiyi sadə cümlələr» (s.7). Bunlarla bərabər, elə oradaca ***cüttərkibli və təktərkibli cümlələr*** terminləri də işlədilir. Bu terminləri proqrama daxil etmək məsləhətdirsə, elə başlıqlar da bunlardan ibarət ola bilərdi. Həmin hissələrdə bir sistemsizlik və pərakəndəlik də müşahidə olunur.

«Hər iki baş üzvün iştirak etdiyi sadə cümlələr» başlığından dərhal sonra cümlənin məqsədə görə növlərinin təkrarı nəzərdə tutulur. Belə güman oluna bilər ki, cümlənin məqsəd və intonasiyaya görə növləri yalnız sadə cüttərkibli cümlələrə aiddir. Cümlənin məqsəd və intonasiyaya görə bölgüsü hər cür (həm sadə, həm də mürəkkəb) cümlələri əhatə etdiyindən ya sadə cümlə problemindən əvvəl, ya da mürəkkəb cümlənin tədrisindən sonra verilə bilər.

Ümumiyyətlə, proqram və dərslikdə yığcam şəkildə cümlənin təsnifi barədə danışmaq olar. Cümlənin tədrisinə başlayarkən onu əvvəlcə məqsəd və intonasiyaya görə, sonra da quruluşca təsnif etmək, sadə cümlənin özünün də cüttərkibli və təktərkibli (təktərkiblini də növlərə ayırmaqla), müxtəsər və geniş, bütöv və yarım-

çıq olmaqla müxtəlif növlərə ayrıldığını göstərmək lazımdır. Sonra bunların hər biri haqqında lazımi məlumat verilə bilər.

Mövzulara verilən saatlarda və bəzi mövzuların əhatə dairəsində dəqiqləşdirmələrə ehtiyac vardır. Dəqiq götür-qoy etməklə bəzi təkrarları da aradan qaldırmaq olar. IV sinfin əvvəlində – keçilmişlərin təkrarı hissəsində «q»-nın «ğ»– ya, «k»-nın «y»-ya keçməsinə üç saat vaxt verilmiş, fonetika bölməsində təzədən bu sahəyə saat ayrılmışdır. Təkrar hissədəki saatı azaldıb, fonetikada genişləndirmək daha faydalı olardı. Yenə həmin sinifdə bəzi saitlərin uzun tələffüzünə 2 saat vaxt verilməsi vacib deyildir. Əvəzliyin məna növlərindən (V sinif) qeyri-müəyyənlik bildirən əvəzliklər, nədənsə, qeyd olunmamışdır. Feli sifətlərin fel və sifətə oxşar və fərqli cəhətləri göstərildiyi halda, bu cəhətlər feli bağlama (fel və zərf xüsusiyyəti) və məsdərdə (fel və isim xüsusiyyəti) unudulmuşdur. Qoşmaların məna növlərinə cəmi bir saat vaxt ayrılmışdır. Müxtəlif hal əlaqələrini və zəngin məna xüsusiyyətlərini nəzərə aldıqda bu vaxt çox azdır.

«Bağlayıcı» bölməsində məna növlərindən danışılarkən yalnız natamam şəkildə tabesizlik bağlayıcıları əhatə edilmişdir. «Nida» mövzusuna verilmiş iki saatı bir qədər artırıb təqlidi və vokativ sözlərə dair nümunələr də vermək olar. «Əvəzlik» bölməsində ***o, bu*** sözlərinə mübtəda və təyin vəzifələrində üç saat vaxt verilmiş, VIII sinifdə isə həmin sözlər mübtəda vəzifəsində işləndikdə onlardan sonra vergül qoyulmasına iki saat vaxt ayrılmışdır.Vaxta qənaət edib, bunları VIII sinifdə asanlıqla birləşdirmək olar.

Layihədə bəzi texniki qüsurlar da (siniflər üzrə əsas mövzuların nömrələnməsində, saatlarda və s) vardır. Bəzi tələblər yerinə düşməmişdir. Məsələn, VIII sinfin proqramında «şagirdlər bilməlidirlər» tələbi 4-cü yox, 5-ci mövzudan sonra verilə bilər, çünki burada nəzərdə tutulan məlumatı şagirdlər «dil haqqında məlumat» mövzusundan öyrənə bilərlər.

Qeyd etməliyik ki, əvvəlki ənənəyə əsaslanan yeni proqram ümumən «yüz ölç, bir biç» prinsipi əsasında diqqətlə hazırlanmışdır. Bizim mülahizələrimiz isə bu uğurlu işi daha da təkmilləşdirmək məqsədi daşıyır.

14.09.1979

«AZƏRBAYCAN DİLİ» – 7

Azərbaycan SSR Maarif Nazirliyinin plan-proqram şöbəsi, ETPEİ və «Maarif» nəşriyyatı son illərdə orta məktəb dərsliklərinin yüksək keyfiyyətdə hazırlanması üçün xüsusi qayğı göstərir; yeni dərsliklərin, o cümlədən dil dərsliklərinin tərtibi və nəşri prosesində sovet məktəbinin qarşısında duran vəzifələr, şagirdlərin mənəvi-estetik tərbiyəsi və hərtərəfli inkişafı daha diqqətlə nəzərə alınır. Maarif Nazirliyi nəzdində dərslik komissiyası, xüsusilə ETPEİ-nin əlaqədar şöbələri Ə.Əfəndizadə və Y.Kərimovun rəhbərliyi ilə dərsliklərin geniş və həqiqi işgüzar müzakirələrini keçirir. Bir qayda olaraq dərslik müzakirələrində müəlliflərlə yanaşı, «Maarif» nəşriyyatının işçiləri, orta məktəbin qabaqcıl müəllimləri iştirak edir, müəllim sözü, müəllim arzusu, bilavasitə orta məktəbin şərait və tələbləri diqqət mərkəzinə qoyulur. Buna görə də indiki dərslikləri müəyyən mənada on il əvvəlki bəzi dərsliklərlə müqayisə etmək qeyri-mümkündür. Bu hal rus məktəbi üçün «Azərbaycan dili» dərsliklərinə daha çox aiddir. Bir neçə ildir ki, ETPEİ tərəfindən rus məktəbinin II – X sinifləri üçün ilk dəfə olaraq kompleks proqram hazırlanmış, müzakirə və çap edilmişdir. Proqramla yanaşı, demək olar ki, bütün siniflər üçün dərsliklər də təzələnmişdir. Yuxarıda qeyd olunan üçlük dərslik müəlliflərinin qarşısına ciddi tələblər qoyur, hazırlanacaq yeni dərsliklərin keyfiyyətinə nəzarət edir. Təbii olaraq, yeni dərsliklər hazırlanarkən rusların, qardaş xalqların, xarici ölkə alimlərinin ən yaxşı ənənələri, bizim öz keçmiş ənənələrimiz müəlliflərə kömək edir. «Maarif» nəşriyyatı bir sıra texniki çətinlikləri ləğv edə bilməsə də, dərsliklərin nəşrinin yaxşılaşdırılmasına səy edir. Rus məktəbinin I-IV sinifləri üçün «Azərbaycan dili» dərsliklərinin rəngli şəkillərlə, ofset üsulu ilə buraxılması təqdirəlayiqdir. Xeyli vaxtdır ki, məktəb dərslikləri I növ kağızda buraxılır.

Dərsliklərin elmi-pedaqoji baxımdan yüksək keyfiyyətdə hazırlanmasında gənc və istedadlı mütəxəssislərin işə cəlb edilməsi də mühüm rola malikdir. Rus məktəbinin VII sinfi üçün yeni «Azərbaycan dili» (1984) dərsliyi bütün bu qayğıların dəyərli nəticəsidir. Müəlliflər – V.İ.Lenin adına APİ-nin dosenti N.Ə.Ab-

dullayev və ETPEİ-nin əməkdaşı V.T.Qurbanov dərsliyi tamamilə təzələmiş, yüksək keyfiyyətli bir dərslik yaratmışlar. Dərsliyin elmi redaktoru prof. Y.Seyidovdur.

Rus məktəbi üçün «Azərbaycan dili» dərsliklərinin birinci vəzifəsi rus məktəbi şagirdlərinə Azərbaycan dilini praktik şəkildə öyrətmək, onların bu dildə danışmaq vərdişlərini inkişaf etdirmək, lüğət ehtiyatını zənginləşdirməkdir. Buna görə də dərslik müəllifləri bütün əvvəlki siniflərdə (II-IV) keçilmiş materialları diqqətlə hesaba almışlar. Yeni «Azərbaycan dili» dərsliklərinin mühüm bir üstünlüyü bu cəhətə əsaslanmalarındadır. Bunsuz mətnlərin tədrici mürəkkəbləşdirilməsi də, leksik minimumun təqribi müəyyənləşdirilməsi də qeyri-mümkün olardı və dərsliklərdə istər-istəməz anlaşılmazlıqlara, yersiz təkrarlara yer verilərdi. Bu hal əslində dərslik komissiyasının qarşıya qoyduğu ümumi tələblərdən doğur. Elə buna görə də seçilmiş mətnlər yeniliyi, orijinallığı və tamamilə yeni təlim materialı olmaq keyfiyyətləri ilə diqqəti cəlb edir. Ayrı-ayrı dərslərdə (dərslik 40 dərsdən və sinifdənxaric oxu materiallarından ibarətdir) dialoq nitqinə geniş yer verilmiş, keçmiş biliyin təkrarı, qrammatik materialların mənimsədilməsi, nitq inkişafı və lüğət ehtiyatının zən-ginləşdirilməsi ilə yanaşı, şagirdlərin kommunist tərbiyəsi, mənəvi-siyasi inkişafı, elmi yetkinliyi, hərtərəfli bir şəxsiyyət kimi formalaşma imkanları və s. mühüm məsələlərə də xüsusi diqqət yetirilmişdir. Dərslikdə partiya, sülh, vətən, ana dili, görkəmli sənət adamları, gənclərin həyatı və mübarizəsi, xalq təsərrüfatı, fəsillər, məhsul və əmək nəğməsi, əmək adamları, müharibə və dostluq, təbiət və onun gözəllikləri, keçmişin unudulmaz hadisə və adamları, valideyn sevgisi və s. haqqında yığcam və gözəl hekayələr, şeirlər toplanmışdır. Əsas mətnlər sadə və anlaşıqlı, proqram tələblərinə, şagirdlərin yaş və bilik səviyyəsinə uyğundur. Bədii parçalar əksərən görkəmli sənət adamlarının yaradıcılığından seçilib götürülmüşdür. Lakin burada bəzən nisbətin pozulduğu da müşahidə edilir. Səməd Vurğundan 12 müxtəlif bədii parça verilmişdir. Səməd Vurğunun böyüklüyünə söz yoxdur, lakin göründüyü üzrə, burada hüdud pozulmuşdur. Digər tərəfdən, dərslikdə hələ ədəbi ictimaiyyətin şair kimi tanımadığı şəxslərin şeirlərinə də təsadüf edilir. Bu kitabda özü şeirdən əl çəkmiş nasirlərimizin şeirlərinə də rast gəlmək olar.

Doğrudur, məşhur şairlərimizin yaradıcılığında yaxşı məktəb şeirləri, Sabirin, Səhhətin, Şaiqin şeirlərinə müvafiq yadda qalan uşaq əsərləri çox azdır. Lakin bununla belə, bu sahədə axtarışlar aparmaq, həqiqi şair yaradıcılığına nəzər salmaq, həqiqi şair pasportunu daşıyanlarla işləmək, onları işlətmək lazımdır; çünki şeir yalnız təlim materialı olaraq qalmır, o həm də bizim sənət adamları ilə rus məktəbi şagirdlərini – gəncliyin böyük bir qolunu tanış etməyin mühüm bir yoludur.

Aşağı siniflərdə olduğu kimi, bu sinifdə də müəlliflər Azərbaycan dilini praktik şəkildə yaxşı bilən şagirdlər üçün əlavə oxu mətnləri və çalışmalar tərtib etmişlər. Bunlar bir qədər mürəkkəbliyi ilə əsas mətnlərdən seçilir və buna görə də şagirdlərin dili mənimsəmə imkanlarını genişləndirmək üçün faydalıdır.

Bəzi mətnlərdə az da olsa, üslubi qüsurlar nəzərə çarpır: «Cəmilə xalanın kiçik oğlu əsgəri xidmətdə idi. Bir poçtalyon ona üstü möhürlü bir məktub gətirdi» (s.48) – cümlələrindən ikincisində «ona» sözünün kimə – Cəmilə xalaya və ya onun oğluna aid olduğu yalnız sonrakı cümlələrdən başa düşülür. Burada «əsgəri xidmətdə» birləşməsi də ağırdır. «Mahmud baba», «Akademik Mustafa Topçubaşov» mətnlərinin bir sıra cümlələrindən belə çıxır ki, Mahmud baba da (Mahmud Eyvazov), Mustafa Topçubaşov da hazırda sağ-salamatdır.

Dərslikdə çalışmalar xüsusi sistem təşkil edir. Əvvəlki dərslərdə öyrədilmiş qrammatik materialın təkrarı, yeni materialların mənimsədilməsi, nitq inkişafı, Azərbaycan dilindən rus dilinə və əksinə tərcümələr, imla və ifadə yazı vərdişləri məsələləri hər bir paraqrafda nəzərdə tutulmuşdur. Əvvəldən axıra qədər yazı ilə ədəbi tələffüzün fərqli cəhətləri əməli misallarla, nümunələrlə izah edilir. Ardıcıl olaraq əvvəlki siniflərdə keçilmişlər yada salınır, yeni materiallarla genişləndirilir və dərinləşdirilir. Lakin bəzi çalışmalarda bir qədər ümumilik vardır. «Azərbaycan dilində hansı sözlərin tələffüzü düzgün yazılışından fərqlənir?», «Krasnodon qəhrəmanlarının – Oleq Koşevoyun mübarizə dostlarının adlarını yazın» – kimi cümlələrdə tələb çox genişdir. Sinonim cərgələrə, antonim qarşılaşdırmalara aid bəzi tələbləri icra etmək Azərbaycan məktəbi şagirdləri üçün də çətinlik törədə bilərdi. Bu cür nöqsanlara baxmayaraq, ümumilikdə çalışmalar düşündürücü, öyrə-

dici xarakterdədir və leksik-qrammatik materialların mənimsədilməsi üçün geniş imkan yaradır.

Rus məktəbinin VII sinfində rus dili dərslərində söz birləşmələri və cümlə (sadə cümlə) bəhsləri öyrənilir. Rus məktəbi üçün «Azərbaycan dili» dərsliyində də eyni materialların öyrədilməsi planlaşdırılmışdır. Qrammatik materialların bu cür müvafiq şəkildə nizama salınması həm bilavasitə dərslikdə müqayisələr aparmağa imkan verir, həm də şagirdlərin müstəqil mühakimə yürütməsinə şərait yaradır. Elə buna görə də dərslikdə bir sıra qrammatik materialları yenidən şərh etməyə ehtiyac olmamış, müəlliflər düzgün olaraq, rus dili dərsliyinə əsaslanmağı məsləhət görmüşlər. Yalnız zərurət olduqda Azərbaycan dilinin spesifik quruluş xüsusiyyətlərinə dair məlumat və nümunələr verilmişdir. Nəzəri-qrammatik izahat elmi cəhətdən səlis və yığcamdır, az hallarda mübahisə doğura bilən qeydlərə təsadüf edilir. «Baş üzvlərdən başqa, ikinci dərəcəli üzvlər də iştirak edən cümləyə geniş cümlə deyilir» – şəklində tərif verilirsə, izah edilməlidir ki, geniş cümlədə hər iki baş üzvün mütləq mövcudluğu vacib deyildir. Heç müxtəsər cümlələrin də mütləq hər iki baş üzvün iştirakı ilə qurulması vacib deyil. Əks təqdirdə, təktərkibli müxtəsər və geniş cümlələr unudulmuş olur. «Mətn daxilində baş üzvlərindən biri və ya hər ikisi buraxılmış cümləyə yarımçıq cümlə deyilir» - tərifi də yarımçıq cümlələri tam əhatə etmir və ikinci dərəcəli üzvlərin buraxılması yolu ilə yaranan yarımçıq cümlələr kənarda qalır. Rus məktəbi üçün rus dili dərsliklərində bu cəhət izah edilmişdir. Ümumən hiss olunur ki, rus məktəbi üçün rus və Azərbaycan dili dərsliklərinin əlaqəsini gücləndirmək və müqayisələr üçün daha çox imkan yaratmaq lazımdır.

Müəlliflər leksik minimumu da proqram tələblərinə uyğun müəyyənləşdirə bilmişlər. Şagirdlərin fəal lüğət ehtiyatına daxil olması nəzərdə tutulan sözlərin düzgün seçilməsi və çalışmalarda müxtəlif üsullarla təkrar-təkrar işlədilməsi kitabın üstün cəhətlərindəndir.

Rus məktəbinin VII sinfi üçün yeni «Azərbaycan dili» dərsliyi öz yüksək keyfiyyətləri ilə əvvəlki dərslikdən fərqlənərək, milli dilimizin rus məktəbi şagirdlərinə öyrədilməsi baxımından qarşıda duran tələblərə layiqincə cavab verəcəkdir.

21.08.1984

XÜSUSİ SEMİNARLARIN TƏDRİSİ TƏCRÜBƏSİNDƏN

I.Xüsusi seminar məşğələlərinin düzgün elmi əsaslarla, pedaqoji tələb və prinsiplərə uyğun şəkildə aparılması tələbələrin ayrı-ayrı konkret problemlərlə əlaqədar biliyini artırır, bacarıq və vərdişlərini, mühakimə qabiliyyətini inkişaf etdirir, elmi və ictimai-siyasi dünyagörüşünün formalaşmasında mühüm rol oynayır. Məşğələlər dilçilik elminin bu və ya digər sahəsinə dair mühüm bir problemin dərindən və hərtərəfli təhlili üzərində qurulur. Eyni zamanda, burada əsas məqsəd tələbələrin fərdi nitq və mühakimə qabiliyyətini, onların müstəqil fikir söyləmə və tədqiqatçılıq vərdişlərini inkişaf etdirməkdir. Odur ki xüsusi seminarların keyfiyyətli və müasir tələblərə müvafiq təşkili hazırlıqlı mütəxəssis kadrların yetişdirilməsi işinə ciddi köməkdir.

Xüsusi seminar məşğələləri nəzəriyyə ilə praktikanın birləşdiyi nöqtədir. Məşğələlər nəzəri biliyi dərinləşdirmək və möhkəmləndirmək məqsədi güdür, elmi-nəzəri fikirləri təcrübi yolla yoxlamağa imkan verir. Tələbələr bu prosesdə elmi-tədqiqat üçün lazım olan material və avadanlıqlarla tanış olur, onları öyrənir.

Xüsusi seminar məşğələləri tələbələrin materialist dünyagörüşünün formalaşmasında mühüm rol oynayır.

Elmin, texnikanın inkişafı, tədricən mürəkkəbləşməsi ilə əlaqədar, xüsusi seminar məşğələlərinin əhəmiyyəti ilbəil artır, genişlənir. Buna görə də məşğələlərin səviyyəsini daim elmin, konkret olaraq, nəzərdə tutulan sahə ilə əlaqədar söyləsək, dilçiliyin inkişaf səviyyəsi ilə ardıcıl olaraq əlaqələndirmək lazım gəlir.

Məşğələlərin təşkili prosesində tələbələrin hərtərəfli inkişafını və xüsusən müstəqilliyini təmin etmək vacib məsələlərdəndir.

II.Müxtəlif fənlərin tədrisi qarşısında ciddi tələblər qoyulduğu müasir şəraitdə xüsusi seminar məşğələlərinin təşkilində mühüm nöqsanlar müşahidə olunur:

1.Xüsusi seminarlar elmdə yaranan ən qabaqcıl meyil və mülahizələrlə, yeni fikirlərlə zəif əlaqələndirilir, yeni meyillərin tələbələrə tənqidi çatdırılması ləng gedir. Adətən, təkrar olunan mövzular üzərində iş aparılır ki, bu da tələbələrdə maraq doğurmur.

2.Seminarların aparılmasında müasir qabaqcıl metodlardan az istifadə edilir; başqa sözlə desək, bu sahədə bir ümumiləşdirmə yoxdur – xüsusi seminar məşğələlərinin aparılması metodikası işlənməmişdir, ona görə də seminarların müxtəlif alimlər tərəfindən təşkilində bir müxtəliflik müşahidə edilməkdədir.

3.Xüsusi seminar məşğələlərindən istifadə yolu ilə yuxarı kurs tələbələrini elmi tədqiqatın yeni metodları ilə tanış etmək olar, lakin bu iş xüsusi seminarların təşkilində az nəzərə alınır.

4.Kafedralar tələbələrin müstəqil işlərinin, elmi yaradıcılığı inkişaf etdirmələrinin qayğısına az qalır – zira hər kəs öz dərs yükünü ödəməklə öz vəzifəsini bitmiş hesab edir.

5.Xüsusi seminarların aparılmasında müvafiq yeni texnika və avadanlıqdan, əyani vasitələrdən, demək olar ki, istifadə edilmir.

6.Xüsusi seminar məşğələləri çox vaxt lazımsız otaqlarda aparılır; xüsusi fənn kabinetləri yoxdur və bu hal tədrisin keyfiyyətinə mənfi təsir göstərir.

7.Tələbələr böyük qrup halında işlədiklərindən ayrı-ayrı mövzular üzrə işin fərdi yerinə yetirilməsinə nəzarət, tələbənin hazırlığının keyfiyyət dərəcəsini yoxlamaq imkanı az olur və bir çox tələbələr bundan sui-istifadə edirlər.

8.Xüsusi seminar məşğələlərini istehsalatla əlaqələndirmək (bizim istehsalatımız əsasən orta məktəbdir), demək olar ki, yada düşmür.

III.Bizim Azərbaycan dilçiliyi kafedrasında xüsusi seminar məşğələləri illərdən bəri «Müasir Azərbaycan ədəbi dili» fənni üzrə fonetika, leksikologiya, morfologiya və sintaksis məsələlərinin təkrarı üzərində qurulmuşdur. Seminarların bu istiqamətdə təşkilinin xüsusi məqsədi vardı: tələbələri dövlət imtahanına – ixtisasla bağlı imtahana hazırlamaq və onları dilçiliyin orta məktəblə bağlı sahəsi üzərində daha çox işlətmək, daha çox

düşündürmək. Bu cəhət ümumi məqsədə müvafiq olsa da, seminarların bu cür qurulması elmi-metodiki baxımdan nöqsanlıdır. Xüsusi seminarların illərlə müasir dil mövzuları üzrə davam etdirilməsi həm də illərlə sübut edir ki, bu istiqamətdə iş keyfiyyətsizdir, xüsusən ona görə ki tələbələr I, II və III kurslarda müasir dilin ayrı-ayrı sahələrinə dair aldıqları dərin və sistemli biliyi yenidən və səthi şəkildə təkrarlamış olurlar. Bu cür təkrar isə onları qətiyyən maraqlandırmır, onların fikrini bir yerə cəmləmək, onları işlətmək çətin olur və iş ümumən formal xarakter daşıyır. Həm də bəzən müasir dil mütəxəssisindən sonra xüsusi seminarların dərs yükünü doldurmaq üçün qeyri-ixtisas sahiblərinə həvalə edilməsi onun effektini daha da azaldır.

Xüsusi seminarlar üçün bu cür yayğın mövzu deyil, problematik mövzular müəyyən edilməlidir. Ali məktəb qaydalarından bəhs edən kitabda deyildiyi kimi, son kurslarda tələbələrə ixtisas fənninə dair tədris-tədqiqat xarakterli kiçik kompleks tapşırıqlar vermək lazımdır; tələbələr müstəqil şəkildə zəruri ədəbiyyat müəyyənləşdirməli, qarşıya qoyulan məsələ ilə bağlı plan tutmağı bacarmalı, zəngin material toplamalı, həmin materialı elmi şəkildə şərh edərək tam, mükəmməl, müfəssəl hesabat yazmalıdır.

Şübhəsiz, bütün müasir dil kursunun təkrarı yolu ilə bu vəzifəni yerinə yetirmək olmazdı. Ona görə də biz ilk təşəbbüs olaraq, hələ 1975-ci ildə «Dildən xüsusi seminar» («Yazıçı və dil», V.İ.Lenin ad.APİ nəşri,1975) adlı dərs vəsaiti hazırladıq və çap etdirdik.

Bundan sonra mövzu məsələsi tədricən nizama salındı. İndi filologiya fakültəsinin son kurslarında «Fel», «30-cu illərin şeir dili», «Nizamidə türk sözləri», «Bədii dilin xüsusiyyətləri», «Dialekt və şivələrdə söz yaradıcılığı» və s. kimi mövzularda, daha konkret məsələlər üzrə məşğələlər aparılır. Bu cür mövzular üzrə məşğələlər aparmaqla tələbələri daha çox maraqlandırmaq, daha çox işlətmək və onlarda tədqiqatçılıq bacarığı yaratmaq mümkündür.

Dildən xüsusi seminarlar üçün mövzular elə dəqiqləşdirilməlidir ki, tələbənin tədqiqat və öyrənmə üçün seçdiyi material ona bir şey versin, o, ümumiləşdirmə apara bilsin, tədqiqatçılıq vərdişi qazanmaq üçün faktlar ona yol göstərsin. Mövzuları elə seçmək, elə dəqiqləşdirmək lazımdır ki, tələbə kiçik şeylərlə əlləşə-əlləşə qalmasın, o, bir sıra tutarlı faktların təhlili fonunda dilin ümumi

nəzəri-estetik problemləri ilə məşğul ola bilsin, faktlardan aldığı təəssürat onu ayıltsın, bütün aşağı kurslarda aldığı bilikləri sintez edə bilsin.

Bunun üçün müəllim çox işləməli, tələbəni ayıq nəzərlə istiqamətləndirməyi bacarmalı, onun yönünü əsas faktlara və elmi ümumiləşdirmə istiqamətinə çevirməyə nail olmalıdır.

1984

DAHA KEYFİYYƏTLİ DƏRSLİKLƏR UĞRUNDA

Azərbaycan dili tədrisinin təkmilləşdirilməsi problemlərinə həsr olunmuş bugünkü konfrans təkcə ona görə faydalı deyildir ki, milli dilin qayğısına qalır, onun tədrisi keyfiyyətini məktəb islahatının tələbləri səviyyəsinə qaldırmağı təbliğ edir; təkcə ona görə aktual və zəruri deyildir ki, Azərbaycan dilinin elmi əsaslarla düzgün və yüksək səviyyədə tədrisi bütün başqa fənlərin öyrədilməsi üçün də bir açardır; həm də ona görə böyük razılıq hissi ilə qarşılanır ki, gələcək yüzilliyin həyat qurucuları olan minlərlə gəncin tərbiyəsindən, mədəni inkişafından söhbət gedir.

Ali məktəblərimizin filologiya fakültələri orta məktəb üçün hazırlıqlı kadrlar yetişdirməklə öz işini bitmiş hesab etmir. Tədrisin iki komponentini – müəllim və şagirdləri lazımi vəsait və materiallarla təmin etmək üçün bir əlimiz daim orta məktəbin üstündə olmuşdur. V.İ.Lenin adına APİ-nin əməkdaşları – prof. Ə.Dəmirçizadə, prof. A.Abdullayev, prof.Ə.Fərəcov, bu qeydlərin müəllifi və başqaları rus və Azərbaycan məktəbləri üçün «Azərbaycan dili» dərslik və proqramlarının hazırlanmasında fəal iştirak etmişlər.

Orta məktəb üçün dərslik tərtibi zərgər işidir. Yüzlərcə sözdən, ifadədən, cümlədən, çalışma formasından biri seçilir. Ən mürəkkəb qaydalar ən sadə misallarla izah edilir. Bu hal müəllifdən müdriklik tələb edir. Dionisinin verdiyi tərif iki min ildən artıqdır ki, hökm sürür, cümlənin müasir tərifinin əsasında durur. Şagird üçün dərslik hazırlamaq monoqrafiya yazmaqdan çətin və

mürəkkəbdir. Məktəb islahatı isə bu sahədə proqram və dərslik müəlliflərindən daha çox şey tələb edir.

Yaxşı haldır ki, məktəb islahatı ərəfəsində orta məktəbin «Azərbaycan dili» dərslikləri ciddi şəkildə yenidən işlənmiş və yeniləşdirilmişdir. Məktəb islahatı başlananda biz artıq islahata hazır vəziyyətdə idik. Lakin bu heç də o demək deyildir ki, yenidən işləmək, təkmilləşdirmək üçün iş qalmamışdır. Dərsliklərin məzmunu və tərtibi ilə bağlı işlərimiz çoxdur. Hər bir dərslik inkişaf etməkdə olan nəslin dünyagörüşünə, estetik tələblərinə uyğun olmalı, dərslik üzərində işləyərkən dövrün tələbləri nəzərə alınmalıdır.

Azərbaycan məktəbinin VII - VIII sinifləri üçün «Azərbaycan dili» dərsliyi M.Şirəliyev və M.Hüseynzadənin yarım əsrlik əməyinin məhsulu olub, saysız nəsillərin tərbiyə və təhsilinə xidmət etmiş, vaxtaşırı dəyişmiş, elmin, metodikanın yenilikləri ilə daim zənginləşdirilmişdir.

Dərslik sonuncu dəfə 1983-cü ildə bizim iştirakımızla yeniləşdirilmişdir. Bu dəfə nəzəri materiallar, çalışmalar sistemi tam yenidən qurulmuşdur. Çalışma və tapşırıqların elmiliyinə, praktik roluna, şagirdlərin biliyini, dünyagörüşünü, vətənpərvərlik və beynəlmiləlçilik hisslərinin inkişaf etdirilməsi prinsiplərinə daha artıq diqqət yetirilmişdir. Cüttərkibli və təktərkibli cümlələr, cümlə üzvləri, söz-cümlə, xüsusiləşmələr, tabesiz və tabeli mürəkkəb cümlələr, durğu işarələri və s. tamamilə yenidən işlənmişdir.

Dərslikdə ilk dəfə sintaktik təhlil qaydaları verilmişdir. Bunlar tədris və mənimsəmə işinə köməkdir. Xalqımızın mədəniyyət tarixi, Kaşğari və Kazım bəy kimi görkəmli alimlərin yaradıcılığı ilə bağlı illüstrasiya və çalışmalar şagirdlərin elmi dünyagörüşlərinin inkişafı baxımından faydalıdır.

Məktəb islahatına qədərki müddət ərzində bəzi dərslik və proqramlar nisbətən ağırlaşmış olduğu halda, dil dərslikləri sabit qalmışdır. İndi də bu dərsliklərin məzmununda elə bir ağırlıq hiss olunmur. Azərbaycan dilinin yalnız şagirdlərin şifahi və yazılı nitqini inkişaf etdirmə vasitəsi deyil, tarix, riyaziyyat, kimya və s. fənlərlə yanaşı, həm də bir elm kimi tədrisi nəzərə alınarsa, biz hətta, deyərdim ki, bəzi dərslikləri bəsitləşdirmişik.

Məzmunla yanaşı, dərsliklərimizin nəşri, tərtibi məsələlərinə

də fikir verməliyik. Mətbəələrimiz işin öhdəsindən pis gəlir. Şagirdləri cəlb etmək, kitabı onlara sevdirmək üçün kitabın özü nəfis, gözəl və möhkəm olmalıdır, adi zəruri şriftlər belə bizim mətbəələrdə tapılmır. Rəssam işi də o qədər ürəkaçan deyil.

Bir sıra dərsliklərin həcmi çox azdır. Qayda üzrə hər sinif üçün dərsliklərin həcmi 9 -10 ç.v. olduğu halda, iki sinif üçün nəzərdə tutulan 7-8-ci siniflərin «Azərbaycan dili» kitabı cəmi 10 ç.v. həcmindədir. Halbuki eyni siniflər üçün rus dili dərsliyi 17,5 ç.v. həcmindədir.

Heç bir dərslik, şübhəsiz, asanlıqla başa gəlmir. Maarif Nazirliyinin göstərişi ilə son vaxtlar dərsliklərin müzakirəsinə mütəxəssis alimlərlə yanaşı, orta məktəbin qabaqcıl müəllimləri də cəlb edilir, onların fikir və mülahizələri nəzərə alınır. Bu sahədə əsas ağırlıq ETPEİ-nin, bu institutun Azərbaycan dili şöbəsinin üzərinə düşür. Burada keçirilən müzakirələri nəzərə almadan dərsliklərin keyfiyyətindən danışmaq olmaz. Şöbənin müdiri Ə.Əfəndizadə dərsliklərin müzakirəsinə tam məsuliyyət hissi ilə yanaşır.

Dərsliklər nəşr olunduqdan sonra da onların müzakirələri davam edir. Fərq burasındadır ki, müzakirələr mətbuat səhifələrinə, elmi seminar və müşavirələrə, tələbə və məzun auditoriyalarına köçürülür.

Bizim 7-8-ci siniflərin «Azərbaycan dili» dərsliyi haqqında Ə.Şükürov, F.Əhmədov, Ə.Sadıqov, V.Qurbanov, Ə.Abbasov, E.Həsənova və başqalarının maraqlı rəyləri dərc olunmuş, «Azərbaycan dili və ədəbiyyat tədrisi» məcmuəsində çap olunan onlarca məqalədə bu və ya digər mövzunun tədrisindən bəhs edilərkən dərsliyin ümumi keyfiyyəti barədə fikirlər söylənmişdir. Keçən ilin dekabrında Azərbaycan SSR Maarif Nazirliyinin ETPEİ ilə birgə keçirdiyi üç günlük seminar-müşavirədə B.Əhmədov, M.Həsənov, Ə.Sadıqov, Ə.Əliyev, X.Vəliyeva və başqalarının məruzələri sintaksis məsələlərinə həsr olunmuş, Ə. Əfəndizadə, Ə.Rəhimov, Y.Əfəndiyev, F.Ələkbərov, F.Parənci, V.Əliyev və başqalarının çıxışlarında sintaksis məsələlərinə toxunulmuşdur. Professor Bəşir Əhmədov bir sıra məqalələrində sintaksisin ən incə məsələləri barədə maraqlı fikirlər söyləmişdir.

Şübhəsiz, bu cür müzakirələr – məruzə və çıxışlar, qeyd və təkliflər, məqalə və rəylər, oxucu məktubları dərsliklərimizin daha da

təkmilləşdirilməsinə kömək edəcəkdir. Lakin bəzən dəqiq oxucu köməyi əvəzinə, tənqid xatirinə tənqid də müşahidə olunur. Bu cəhətdən bütün deyilənləri burada saf-çürük etmək qeyri-mümkün olduğundan biz konkret bir-iki misalla kifayətlənəcəyik.

35 illik stajı olan müəllim (Aliyə xanım Təhmasib) konfransda gileyləndi ki, şagirdlər ismi birləşmələri başa düşmürlər, «almanın qırmızısı», «şagirdin ikisi» tipli birləşmələrin ikinci tərəfini əsas tutaraq, belələrinə nə üçün «ismi birləşmə» deyildiyini anlaya bilmirlər, müəllim də çətinlik çəkir. Görünür, şagirdlərlə yanaşı, müəllimlərin də bir qismi dərsliyi oxumur. Oxusa, ismi birləşmələrin: «***Əsas tərəfi adlardan (isim, sifət, say və əvəzlikdən) ibarət olan birləşmələrə ismi birləşmələr deyilir***» tərifi əsasında heç bir çətinlik qarşısında qalmazdı.

Lənkəran RXMŞ-nin metodisti, filologiya elmləri namizədi Əlirza Əliyev dərslikdə bir sıra nöqsanların olduğunu qeyd etmişdir. («Azərbaycan dili və ədəbiyyat tədrisi», 1984, 1). Müəllifdə, nədənsə, bir yolla dərsliyin boynuna nöqsan yükləmək meyli hiss olunur. Məsələn, yazır: «Çalışma mətnlərdəki bəzi cümlələrdə qrammatik qanun-qaydaların pozulması hallarına təsadüf edilir ki, bu da nəzəri materialların izahı ilə dil nümunələri arasında müəyyən uyğunsuzluğa gətirib çıxarır. Məsələn, 85-ci səhifədə «Həmcins üzvlərdə şəkilçilərin və hissəciklərin ixtisarı» mövzusunun izahında deyilir ki, həmcins üzvlü cümlələrdə, əsasən, hal və cəm şəkilçiləri, ***idi, imiş*** hissəcikləri, ***ilə*** qoşması ixtisar olunur. Lakin elə həmin səhifədə verilmiş üç cümlədə bəhs olunan qaydaya əməl edilməmişdir». Biz 85-ci səhifədə «Sonuncusu saxlanmaqla, həmcins üzvlərdə təkrar olunan bəzi qrammatik şəkilçilər və hissəciklər ixtisar oluna bilir» – «ixtisar olunur» yox, məhz «ixtisar oluna bilir» yazmışıq – bunlar tamamilə başqa-başqa şeylərdir: «ixtisar olunur» – hökmdür, «ixtisar oluna bilir» o deməkdir ki, ixtisar olunmaya da bilər. Və ya başqa bir qədər daha çox təəccüb doğuran misal. Müəllif yazır: «Xüsusiləşmiş üzvlü cümlələr» mövzusunda (səh.99) deyilir: «Xüsusiləşmiş üzvlər yazıda cümlənin baş üzvlərindən vergüllə ayrılır». Buradan belə nəticə çıxır ki, cümlənin yalnız ikinci dərəcəli üzvləri xüsusiləşir, başqa cümlələr isə (müəllif «baş üzvlər» demək istəyir – *Q.K.)* xüsusiləşə bilmir. Bir-iki səhifədən sonra (s. 101) oxuyuruq: «Bütün kənd camaatı, xüsusən gənc-

lər məhsul yığımında böyük əmək sərf etdilər»– cümləsində xüsusiləşmiş mübtəda özündən əvvəlki mübtədanın ümumi mənasını konkretləşdirir. «Bu ziddiyyəti aradan qaldırmağa ehtiyac duyulur». Görünür, bəzən bütöv kitabı yox, ayrı-ayrı mövzuları yox, tək-tək cümlələri yox, hətta tək-tək sözləri də axıra qədər oxumağa adamın hövsələsi çatmır. Dərslikdə həmin cümlə «Xüsusiləşmiş üzvlər yazıda cümlənin baş üzvlərindən vergüllə ayrılır» yox, «başqa» üzvlərdən vergüllə ayrılır şəklindədir…

Maarif Nazirliyi məktəb islahatı ilə əlaqədar dərsliklərin müsabiqə yolu ilə yazılması təşəbbüsünü irəli sürmüşdür. Müsabiqə ilə əlaqədar bütün faydalı mülahizələri nəzərə alacağıq.

1986

YENİ PROQRAMIN SİNTAKSİS BÖLMƏSİ

Respublika Prezidentinin «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» fərmanı ayrı-ayrı nazirliklərin, xüsusilə Təhsil Nazirliyinin qarşısında müəyyən tələblər qoymuşdur. Ona görə də Təhsil Nazirliyi son dövrlərdə orta məktəblərdə Azərbaycan dilinin tədrisi, dərslik və proqramların vəziyyəti, müəllimlərin və məktəblərin ana dili tədrisinə münasibəti və s. məsələləri öyrənməyə, bu sahədə müəyyən təşəbbüslər həyata keçirməyə çalışmışdır. Bütün görülmüş və görüləcək işlər, ana dilinin tədrisi vəziyyəti barədə yoxlamaların nəticələri təhsil nazirinin «Azərbaycan Respublikası Prezidentinin «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» fərmanının tələbləri baxımından ümumtəhsil məktəblərində Azərbaycan dili və ədəbiyyatın tədrisi vəziyyəti və onun yaxşılaşdırılması tədbirləri barədə» adlı məqaləsində («Azərbaycan müəllimi» qəzeti, 16–22 avqust 2002) əhatə olunmuşdur. Bu hesabat-yazıdan aydın olur ki, 1999-cu ildə təsdiq edilmiş baza tədris planına əsasən təlim Azərbaycan dilində olan ümumtəhsil məktəblərinin V–XI siniflərində Azərbaycan dilinin tədrisinə həftədə 22 saat, təlim qeyri-Azərbaycan dilində olan məktəblərdə 17 saat vaxt verilir. Azərbaycan dili seçmə fənn kimi götürüldükdə isə saatların miqdarı həftədə 32-yə çatdırılır. «Azərbaycan dili» proqramları 1993-cü ildə təsdiq olunmuşdur, sonrakı dövrlərdə, xüsusilə 1999-cu ildə üzərində müəyyən dəyişikliklər edilmişdir. Təhsil nazirinin 5 iyul 2001-ci il tarixli 798 nömrəli əmri ilə işçi qrupu yaradılmış, həmin qrup yeni proqram hazırlamış, proqram layihə şəklində 5-11 iyul tarixli «Azərbaycan müəllimi» qəzetində dərc olunmuşdur.

Ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi ilə 18274 nəfər müəllim məşğul olur. Təhsil Nazirliyi 2001–2002-ci ili keyfiyyət ili elan etmişdir. Nazirliyin məlumatına əsasən bu il məktəblərdə Azərbaycan dili tədrisinin keyfiyyəti yüksəlmişdir, Zaqatala rayonunda Azərbaycan dilinin məktəblərdə mənimsənilmə faizi 98, Lənkəran rayonunda 98,8, Xətai rayonunda 98,7, Səbail rayonunda 98, Bərdə rayonunda 99,7 faiz olmuşdur. Heç

şübhəsiz, bu rəqəmlər Sovet dövründə şişirdilmiş şəkildə təqdim edilən pambıq rəqəmləri kimi saxta və uydurma rəqəmlərdir. Azərbaycan məktəblərində ümumən tədrisin keyfiyyəti indiki qədər heç vaxt aşağı olmamışdır. Müəllimlərin maaşının azlığı, müəllim kadrlarının keyfiyyətsiz buraxılışı, məktəblərdə rüşvətxorluq, şagirdlərin minimum dolanışıq imkanlarına malik olması üzündən daim küçələrdə olması, ictimai-siyasi vəziyyətin pisliyi, qaçqın və köçkünlərin ağır vəziyyəti o rəqəmlərin tam mənası ilə məsuliyyətsiz adamların tərtib etdiyi saxta rəqəmlər olduğunu göstərir. İki məktəbin nümunəsi əsasında respublikada təlimi rus dilində olan məktəblərdə Azərbaycan dili tədrisinin keyfiyyətcə yüksəlişindən bəhs edilir. Halbuki rus məktəblərində Azərbaycan dili tədrisinə son dərəcə qeyri-ciddi yanaşılır. «Bərdə rayon məktəblərində III rübün yekunlarına görə V-XI siniflərdə şagirdlərin mənimsəməsi 99,7 faiz qiymətləndirildiyi halda, vəziyyətin öyrənilməsi zamanı aparılan yazı işlərinin (imla, ifadə, inşa) nəticəsi rübün nəticəsindən xeyli aşağı (72 faiz) olmuşdur» (yenə orada). Güman edirik ki, yaxşı yoxlanılsa, bundan çox aşağı olardı. Ona görə ki məktəblərdə dərslər keçmiş həvəslə keçilmir. Oxumaq istəyən şagirdlər gündəlik dərslərə etibar etmir, öz hesablarına müəllim tutur və fərdi şəkildə öyrənirlər. «Aparılan yazı işlərinin təhlili göstərdi ki, bu məktəblərdə şagirdlər orfoqrafik, durğu işarəsi və qrammatik səhvlərə daha çox yer verirlər». Belə də olmalıdır. Bunun bir səbəbi məktəblərin ümumi vəziyyətidirsə, digər mühüm səbəbi orfoqrafiya qaydalarının olmamasıdır. Çox şeyi bu fənni tədris edən müəllimin özü də bilmir və daim suallar qarşısında qalır. Elə buna görə də «Bəzi məktəblərdə yazıların aparılması, yoxlanılması və səhvlər üzərində işin təşkilində normativlər gözlənilmir. Müəllimlər səhvləri növlərinə və tiplərinə ayırmaqda çətinlik çəkirlər». (Yenə orada) Seçmə işləri düzgün aparılmadığından riyaziyyat qrupunun şagirdləri Azərbaycan dili və ədəbiyyat qrupunun şagirdlərindən Azərbaycan dilini, ədəbiyyatı daha yaxşı mənimsəyirlər. Nazirliyin təhsil, mətbuat və nəşriyyat şöbəsinə yeni ifadə, imla məcmuələri hazırlayıb çap etmək tapşırılmışdır. Orfoqrafiya qaydaları olmadan bunların necə tərtib olunacağını düşünmək çətindir.

«Ümumtəhsil məktəblərinin V–XI sinifləri üçün Azərbaycan

dili fənni üzrə proqram»ın «Azərbaycan müəllimi» qəzetində çap olunmuş yeni variantı çox qüsurludur. Əlifba, orfoqrafiya məsələləri ilə yanaşı, bu sahələrin özünü sintez şəklində daha çox göstərdiyi sintaksis bölməsi daha qüsurlu tərtib olunmuşdur. (5–11 iyul 2002). Təbii ki, hər bir proqram yenidən işlənərkən qarşısına qoyulan əsas məqsədlə yanaşı, uzunmüddətli ənənələri, eyni zamanda hazırkı dövrdə abituriyent testlərini də nəzərə almalıdır. «Azərbaycan dili» dərsliklərində verilmiş məlumat başdan-başa testləşdirilmişdir və orta məktəbi yeni bitirənlərlə bərabər, keçmiş məzunlar da ali məktəblərə həmin testlərlə hazırlaşır. Ona görə də proqramda dəyişiklik edilərkən yüz ölçüb bir biçmək lazımdır, tez-tələsik hər cür dəyişikliyə yol vermək olmaz. Doğrudur, dərsliklər vaxtaşırı yeniləşdirilməli, əsaslı şəkildə yenidən işlənməli, elmin yeniliklərini əhatə etməklə mövcud qüsurlardan təmizlənməlidir, lakin «yenilik» naminə proqram və dərslikləri korlamaq olmaz.

Biz proqramın «Sintaksis» bölməsi üzərində dayanmaq istəyirik. Bu hissədə əsas yenilik bundan ibarətdir ki, bir mövzu «yenidən» işlənmiş, iki mövzu bütövlükdə proqramdan çıxarılmışdır. ***Cüttərkibli və təktərkibli cümlə*** anlayışı ləğv olunmuş, sadə cümlənin növləri bir qədər fərqli verilmişdir; xüsusiləşmələr, bütöv və yarımçıq cümlələr ixtisar edilmişdir. Qalan məsələlər, demək olar ki, olduğu kimidir.

Cüt və təktərkiblilik sadə cümlənin əsas quruluş formalarıdır. Əslində, «təktərkiblilik» anlayışı formal və qeyri-məntiqi bir şeydir. Fikir predmeti olmadan cümlə qurulmur. Lakin fikir predmeti cümlədə öz ifadəsini tapa bilmədikdə təktərkiblilik yarana bilir. Proqramda «təktərkibli» və «cüttərkibli» terminləri «şəxs» anlayışı və onun müxtəlif çalarları ilə əvəz edilmişdir. Sadə cümlənin növləri aşağıdakı ardıcıllıqla, qeyd etdiyimiz adlarla verilmişdir:

Şəxsli cümlələr;
Müəyyən şəxsli cümlələr;
Qeyri-müəyyən şəxsli cümlələr;
Ümumi şəxsli cümlələr;
Şəxssiz cümlələr;
Müxtəsər və geniş cümlələr;
«Söz-cümlə»;

Adlıq cümlə.

Bu bölgü 50-ci illərin sonlarında EA-nın nəşr etdiyi «Azərbaycan dilinin qrammatikası» (II hissə,1959) kitabındakı bölgünün təhrifindən ibarətdir. Ona görə «təhrif» deyirik ki, orada yenə müəyyən prinsip var idi, lakin burada o prinsip də gözlənilməyib. «Şəxsli cümlə» dedikdə baş üzvlərin hər ikisi bilavasitə iştirak edən: ***İnsan əzəmətlidir. Fillər böyükdür. Yarpaqlar titrəşdi. Torpaq nəmdir*** – tipli cümlələr nəzərdə tutulur. Bunlar əvvəlki proqram və dərslikdəki «cüttərkibli cümlələr»dir. Dərslikdə bu cür cümlələri «şəxsli cümlə» adlandırmağın mümkünlüyü də qeyd edilmişdir. Proqramın yeni tərtibində «müəyyən şəxsli cümlələr» dedikdə mübtədası I və II şəxslərin tək və cəmində olub, bilavasitə işlənməyən: ***Ovçuluğa meyil saldım.*** (*S.V.*) ***Qəm çəkmə, gülüm.*** (*İ.Ə.*) ***Gəl çıxaq seyrinə uca dağların.*** (*H.A.*) ***Baxın! Baxın! Yaxşı baxın, diqqətlə baxın!*** (*C.M.*) – tipli cümlələr nəzərdə tutulur. İndi siz görün orta məktəb şagirdinə elmi necə öyrətmək məsləhət görülür: mübtədası bilavasitə iştirak edən cümlələr «şəxsli cümlə», mübtədası iştirak etməyib təsəvvür olunanlar «müəyyən şəxsli cümlə» adlandırılır. Belə çıxır ki, mübtədası xəbərlik və ya şəxs şəkilçiləri ilə təsəvvür olunanlar öz yerində olanlardan daha aydın imiş, daha müəyyən imiş. Ona görə «təhrif» deyirik ki, 59-cu il kitabının müəllifləri bu cür cümlələri «müəyyən şəxsli» deyil, «təktərkibli müəyyən şəxsli cümlələr» saymış və belə də adlandırmışlar. Onlar bu cür cümlələri təktərkiblinin o biri növlərinə nisbətən mübtədası müəyyən olan cümlə hesab etmişlər. Bu cür baxış rus qrammatikalarından gəlir və müəyyən dərəcə məntiqidir. Lakin biz deyirik ki, «təktərkibli» adlanan cümlənin mübtədasını bərpa etmək olmaz. Yuxarıdakı tipli cümlələr təktərkibli deyil, cüttərkiblinin bir növüdür. Biz 20 ildən artıqdır, bu sahədə professor Bəşir Əhmədovla mübahisədəyik. O bu cür cümlələri «təktərkibli müəyyən şəxsli cümlə» hesab edir, biz cüttərkibli cümlənin bir növü. 1983-cü ildən dərslik və proqramda cüttərkibli cümlə kimi verilir. Yeni proqramı hazırlayanlar «təktərkibli» terminini atıb sadəcə «müəyyən şəxsli cümlə» terminini saxlamaqla məsələni dolaşdırmışlar. «Təktərkibli cümlə», «cüttərkibli cümlə» terminlərindən imtina edilirsə, «müəyyən şəxsli cümlə» başlığı vermək ol-

maz və bu sahəyə aid olan cümlələr şəxsli cümlə daxilində öyrənilə bilər.

Mübtəda III şəxsdə də buraxıla bilir: *Mən onun kəndə getməyini istəmirdim.* ***Amma getdi*** – cümlələrindən ikincisində mübtəda yoxdur və əvvəlki cümləyə əsasən təsəvvür olunur. Fərq buradadır ki, I və II şəxslərdə subyekt konkret olaraq ***mən, sən, biz, siz*** sözləridir, III şəxsdə isə bütün canlı və cansız varlıqlar əhatə olunur, ona görə də buraxılmış mübtəda mətnə əsasən bərpa olunur. Çox maraqlıdır ki, EA-nın çap etdiyi sonrakı «Müasir Azərbaycan dili» kitablarında «təktərkibli müəyyən şəxsli cümlə» anlayışından əl çəkiblər, amma 50-ci illərin sonlarında, 60-cı illərdə onu oxuyanlar, sintaksisi o kitabdan öyrənənlər sonrakılara baxmaq istəmir və ona görə də o anlayışı unutmurlar. EA-nın həmin nəşrində (1959-cu il) söz-cümlələr də təktərkibli cümlənin bir növü kimi verilib, sonralar ondan da əl çəkiblər. Bu yeni proqramda adlıq cümlələrdən əvvəl söz-cümlənin verilməsi də o xatirələrin unudulmaz yadigarıdır. Söz-cümlə üzvlənməyən cümlə tipidir, onu sadə cümlənin qeyd edilən növləri ilə bir cərgədə vermək olmaz.

Biz ali məktəbdə 40 ilə yaxındır ki, sintaksisin tədrisi ilə məşğuluq, orta məktəblə də daimi əlaqəmiz vardır. «Təktərkibli» və «cüttərkibli» anlayışları «yenilik» və «çətinlik» mülahizələri ilə proqramdan çıxarılır, lakin azca zəhmət çəkən, oxumaq istəyən heç bir gənc, istər şagird olsun, istər tələbə, cüttərkibli və təktərkibli cümlə anlayışlarının dərk olunmasında çətinlik çəkməyib.

Proqramda deyilir ki, «Məktəblərimizin istifadəsinə verilən yeni «Azərbaycan dili» proqramı orta məktəblərin dil və ədəbiyyat müəllimlərinin yığıncağında geniş müzakirə edilib təkmilləşdirildikdən sonra Azərbaycan Respublikası Təhsil Nazirliyinin elmi-metodiki şurasının Azərbaycan dili və ədəbiyyatı bölməsində müzakirə və qəbul edilmişdir». Biz o şuranın 70-ci illərdən üzvüyük. Amma çox təəssüf edirik ki, o şuranın bu məsələlərlə bağlı müzakirələrinə dəvət ala bilməmişik.

İkinci məsələyə – xüsusiləşmələrin proqramdan çıxarılması məsələsinə baxaq. Bu məsələ durğu işarələri ilə daha çox bağlıdır. Xüsusiləşmə bir qədər çətin, lakin maraqlı (savadsız üçün «dəhşətli») bir mövzudur. İki müxtəlif quruluş xüsusiyyəti var. Bir qismi qoşmalı xüsusiləşmələrdir. *Məsələn,* ***Ailəsinin dağılmasına bax-***

mayaraq, *Məsum nikbin idi* (*Ə.V.*) – cümləsində ***ailəsinin dağılmasına baxmayaraq*** sözləri xüsusiləşmiş qarşılaşdırma zərfliyidir. İkinci formasını «dəqiqləşdirici xüsusiləşmiş üzvlər» adlandırmışıq – əvvəl küll verilir, sonra onun bir cüzü daha aydın nəzərə çarpdırılır; məs.: *Müstəqillik yoluna qədəm qoymuş respublikalar,* ***xüsusən də Azərbaycan*** *böyük çətinliklərlə üzləşməli oldu* – cümləsində ***xüsusən də Azərbaycan*** sözləri xüsusiləşmiş mübtədadır. Müşahidə etmişik ki, tələbə və şagirdlərin oxumaq istəyənləri bunları çox asan qavrayırlar və təhlil zamanı elə bir çətinlikləri olmur. Orta məktəbin tənbəl və az savadlı müəllimi bunlarda çətinlik çəkir. Biz kimin tərəfində dururuq? Kimi meyar seçirik? Və ya kimi seçməliyik?

Xüsusiləşmələrin dildə böyük rolu var. Fikri aktuallaşdırmanın bir formasıdır. Rus qrammatikalarında xüsusən birinci tip xüsusiləşmələr sadə cümlə ilə mürəkkəb cümlə arasında keçid sayılır, o cür cümlələrin 1,5 həcmdə predikativliyə malik olduğu, yəni sadə cümlənin digər növlərinə nisbətən 50 faiz artıq predikativlik gücü olduğu göstərilir. Bu cəhət onu mürəkkəb cümləyə yaxınlaşdırır. Yaxşı, tutaq ki, yuxarıdakı cümləni (***Ailəsinin dağılmasına baxmayaraq, Məsum nikbin idi***) təhlil edirik: ***Məsum*** – mübtəda, ***nikbin idi*** – xəbər. Bəs ***Ailəsinin dağılmasına baxmayaraq*** sözlərinə nə deyəcəyik? Müəllim buna nə cavab verəcək? «Xüsusiləşmə» anlayışını çıxartdıq, zərfliyin məna növləri içərisində qarşılaşdırma zərfliyi də yoxdur. Bəs müəllim nə etməlidir? Təhlili yarımçıq saxlamalıdırmı?

Bütöv və yarımçıq cümlə anlayışlarının proqramdan çıxarılması daha zərərlidir. Əvvələn, şagirdlər müxtəsər şəxssiz cümlələri, söz-cümlələri və məlumatları olmadığı üçün bir sözdən ibarət yarımçıq cümlələri həmişə qarışdıracaq, müəllim həmişə sual qarşısında qalacaq. Digər tərəfdən, yarımçıq cümlə bütün başqa cümlə növlərinə nisbətən ən elastik, nitq inkişafı üçün ən yararlı, rasional fikrin intensiv ifadəsi üçün ən zəruri və ən çox işlənən cümlə növüdür. Əksinə, biz deyərdik ki, şagirdlərə yarımçıq cümlədən istifadə məqamlarını daha geniş öyrətmək lazımdır.

Dərslik yenidən işlənərkən bu üç mövzunun ixtisarı çox az vaxt ala bilər. Amma biz şəxsən bu qənaətdəyik ki, Azərbaycan dili proqramındakı bu «yenilik» məktəbin və təhsilin xeyrinə de-

yildir. V-IX siniflərin «Azərbaycan dili» proqramları klassik üslubda qurulub, illərlə sınaqdan çıxıb. Bu cür ixtisarların müsbət effekti olmayacaqdır.

05.07.2002

«AZƏRBAYCAN DİLİ»NİN YENİ NƏŞRİ

Sintaksisin tədrisi ümumtəhsil məktəblərində Azərbaycan dili tədrisinin ən mühüm həlqəsini təşkil edir. Fonetika, leksika və morfologiya ilə birlikdə bu sahənin öyrənilməsi dilin quruluşu haqqında tam təsəvvür yaradır. Həm də məlumdur ki, bu sahə çətinliyi və mürəkkəbliyi ilə fərqlənir. Ünsiyyətin əsas vahidi olan cümlə və onun quruluş modelləri burada öyrənilir. Ona görə də dilimizin sintaktik quruluşu daim diqqət mərkəzində olmuşdur. Akademik M.Ş.Şirəliyev və professor M.H. Hüseynzadə 1938-ci ildən 1994-cü ilə kimi bu dərsliyin müəllifləri olmuşlar. Bu müddət ərzində dərslik dəfələrlə yeniləşdirilmişdir. Lakin həmin yeniləşdirmə bu və ya digər mövzunun ixtisarı, yaxud sadələşdirilməsi istiqamətində deyil, ciddi elmi əsaslara söykənmişdir. Məsələn, 50-ci illərə qədər tərkiblər də budaq cümlə hesab olunurdu. Bu dövrdən başlayaraq onların budaq cümlə kimi tədrisi dayandırılmışdır, feli sifət, feli bağlama və məsdər tərkibləri o vaxtdan cümlənin mürəkkəb üzvü kimi təhlil və tədris edilir. Dilçiliyimizdə yaranan yeniliklər ilk növbədə bu dərslikdə öz ifadəsini tapmışdır.

Biz 1983-cü ildə dərsliyə müəllif kimi daxil olarkən onu, demək olar ki, hər cəhətdən tam yeniləşdirməli olduq. Bu cür yeniləşmə bir də 1994-cü ildə olmuş, vəfat etdikləri üçün onun uzunmüddətli müəllifləri olan M.Şirəliyev və M.Hüseynzadənin adları cəbhə hökuməti tərəfindən müəlliflər sırasından çıxarılmış, dərslik həmin il «Türk dili» adı ilə çap olunmuşdur. Dərsliyin bu sonrakı çaplarında bir sıra mövzuları prof.Y.Seyidov işləmişdir.

Keçən tədris ilində Respublika Təhsil Nazirliyinin yaratdığı

komissiya V–XI siniflər üçün yeni «Azərbaycan dili» proqramı hazırlamış, proqram müzakirə və çap edilmişdir. Proqramda ən mühüm yeniliklərdən biri Azərbaycan dili sistemli kursunun tədrisinə verilən vaxtın artırılmasıdır. Əvvəlki illərdə fonetika, leksika, söz yaradıcılığı, morfologiya və sintaksis məsələləri V–VIII siniflərdə tədris edildiyi halda, indi IX sinif də bu sistemə daxil olur. Ona görə də əvvəllər 7–8-ci siniflərdə keçilən sintaksis mövzuları indi 8–9-cu siniflərdə tədris olunur. Bir daha qeyd edirik ki, bu, çox faydalı bir yenilik sayılmalıdır.

Və ikinci bir cəhət bundan ibarətdir ki, bu il 8–9-cu siniflər üçün iki «Azərbaycan dili» dərsliyi çap olunmuşdur. Birinin müəllifi prof. Y.Seyidov və T. Əsədovadır. Bu dərslik birinci dəfədir çap olunur. O biri dərslik bizim dos.F.Şahbazlı ilə çap etdirdiyimiz dərslikdir. Dərsliklər Təhsil Nazirliyinin qrifi ilə çap olunmuşdur və eynihüquqludur.

Bu sonuncu dərslik 65 ildir ki, təkmilləşə-təkmilləşə cəmiyyətə xidmət edir. Təriflər, qaydalar dəfələrlə – on illərlə sınaqdan çıxmış və cilalanmışdır. Nəzəri məlumat şagirdlərin yaş və bilik səviyyəsinə uyğun qurulmuşdur. Biz daim diqqət mərkəzində saxlamışıq ki, müəllim və şagirdlər üçün zəruri nəzəri məlumatı yığcam və asan çatdırmaq mümkün olsun. Müəllim məlumat qıtlığından çətinlik çəkməsin. Dərslik qayda üzrə ən qabaqcıl müəllim və şagirdlər üçün planlaşdırılmışdır. Çalışmışıq ki, (bu, illər boyu mümkün olmuşdur) nəzəri məlumatın hər bir elementi praktik olaraq xüsusi çalışmalarla möhkəmləndirilsin. Ayrı-ayrı mövzulara aid son çalışmalarda ümumiləşdirmələr aparılmış, mövzu ilə bağlı biliklər sintez edilmişdir. Çalışmalar əksərən seçmə nümunələr üzərində qurulmuş, mövzu ilə bağlı bilikləri yoxlamaq, ümumiləşdirmək və yekunlaşdırmaq üçün bütöv mətnlər verilmişdir.

Müəllimlər üçün mühüm və faydalı bir cəhət də budur ki, ilk dəfə olaraq, dərsliyin sonunda 8–9-cu siniflərin Azərbaycan dili proqramı verilmişdir. Müəllimin proqram axtarışına ehtiyac qalmamışdır. Proqramda mövzular üzrə saatların bölgüsü də vardır.

İllərlə sınaqdan çıxdığı üçün nəzəri məlumat və çalışmalar sistemli və təminedicidir. Nümunələr daha çox yeni nəsil nümayəndələrinin – 60-cılar nəslinin əsərlərindən seçilmişdir. Ona görə də ədəbi dilimizin müasir sintaktik strukturunu yaxşı əks etdirir.

Proqram yenidən işləndiyi və bir sıra dəyişikliklər edildiyi üçün dərslik də, demək olar ki, yenidən işlənmiş və proqramın tələbləri baxımından tam təzələnmişdir.

Təlimin «asanlaşdırılması» məqsədilə yeni proqramda cüttərkibli və təktərkibli cümlələr, cümlə üzvlərinin xüsusiləşməsi, yarımçıq cümlələr, mürəkkəb quruluşlu (qarışıq tipli) tabeli mürəkkəb cümlə mövzularının verilməsi məsləhət görülməmişdir. Ona görə də bu mövzuları dərslikdən çıxarmalı olmuşuq. Sadə cümlənin növləri şəxsə görə təsnif edilmişdir – müəyyən şəxsli, qeyri-müəyyən şəxsli, ümumi şəxsli və şəxssiz cümlələr şəklində. Proqramda qoyulan və dərslikdə zəruri şəkildə həyata keçirilən bu dəyişikliklərin nəticələri barədə müəllimlər öz sözlərini deməlidirlər.

Azərbaycan dilinin məktəblərdə həm də seçmə fənn kimi tədris olunduğu nəzərə alınaraq proqramın «b» variantı ilə əlaqədar nəzəri məlumat və çalışmalar zənginləşdirilmişdir.

Bir sıra mövzuların yeri dəyişdirilmişdir. Məsələn, vasitəsiz və vasitəli nitq mövzusu mürəkkəb cümlə sintaksisi və üslubiyyat məsələləri ilə daha sıx bağlı olduğu üçün mürəkkəb cümlədən sonra verilmişdir.

Dərslikdə rabitəli nitqin inkişafı məsələləri geniş yer tutur. Şagirdlərin imla, ifadə və inşa yazmağı öyrənmələri üçün maraqlı mətnlər və çalışmalar verilmişdir. Bunların əksəriyyəti yenidir.

Üslubiyyat məsələləri ilə yanaşı, şagirdlərin üslublar haqqında lazımi məlumat almaları üçün xüsusi çalışmalar tərtib edilmişdir. Əməli yazıları öyrətmək diqqət mərkəzində olduğundan dərslikdə ərizə, protokol, etibarnamə və s. əməli yazı nümunələri, akt, tərcümeyi-hal və s. yazmaq üçün çalışmalar verilmişdir.

Hər sinfin əvvəlində və sonunda təkrar üçün nəzərdə tutulan çalışmalar, suallar və tapşırıqlar yenidən işlənmiş, zənginləşdirilmişdir.

Təbii ki, dərslikdə nəzəri və praktik mətnlərin sadə, aydın, anlaşıqlı olmasına xüsusi diqqət yetirilmişdir.

Dərsliyin yeni nəşrinin tərtibi, poliqrafik keyfiyyətləri barədə xüsusi danışmaq lazım gəlir. Dərsliyin bu yeni buraxılışı onun heç bir əvvəlki çapı ilə və ümumən heç bir başqa dərsliklə müqayisə edilə bilməz. Başlıqlar, çalışmaların nömrəsi, təriflər, çalışmalara

aid əlavə tapşırıq və çalışmalar nəfis şəkildə xüsusi fərqləndirilmişdir. Rənglər son dərəcə ehtiyatla, o qədər səliqə ilə vurulmuşdur ki, artıq rəng fonu ilə şagird gözlərini zərbə altında qoymayacaqdır. Rəssam işi yüksək səviyyədədir. Dərslikdə onun ilkin yaradıcıları olmuş akad.M.Şirəliyev, prof.M.Hüseynzadə ilə yanaşı, prof. Ə.Abdullayevin, Kazım bəy, M.Kaşğari kimi nəhəng alimlərin şəkilləri verilmişdir. Cavanşir, Babək, Dədə Qorqud və başqalarının şəkilləri rabitəli nitqin inkişafı, vətənpərvərlik hisslərinin gücləndirilməsi məqsədi daşıyır. Dərsliyin bu nəşrində nəzəri məlumat verən hissə ilə çalışmalar sistemi ustalıqla fərqləndirilmişdir. Sxemlər təbii və lazımi simmetriya ilə işlənmişdir. Kitabın cildinə baxdıqda hiss edirsən ki, bizim dərsliklər artıq Avropa standartlarına uyğundur. Düzünü deyim ki, mən nə qədər kitab çap etdirmişəmsə, bu qədər gözəl tərtib olunmuş kitab görməmişəm. Bunun üçün mən, yeri gəlmişkən, «Təhsil» nəşriyyatının rəhbərliyinə və bütün əməkdaşlarına minnətdarlığımı bildirirəm. Xüsusən son aylar məktəbləri dərsliklərlə təmin etmək üçün onların gecə, gündüz, şənbə, bazar bilmədiklərinin şahidi olmuşam. Nəşriyyat tərəfindən çap edilən dərsliklərin bədii-texniki keyfiyyətinə söz yoxdur. Ən mühümü də budur ki, indi bir çox özəl nəşriyyatların çap etdiyi kitablardakı saysız texniki və imla qüsurlarına bu nəşriyyatda qətiyyən yol verilmir. Nəşriyyatın lap Sovet dövründə olduğu kimi, son dərəcə məsuliyyətli redaktor və korrektorları vardır ki, onlar böyük əmək sərf edir və hər bir hərfin, hər kəlmənin üzərində əsirlər. Bu nəşriyyat əsl dərslik nəşriyyatıdır və bu sahədə son dərəcə təkmilləşmişdir.

Şübhəsiz, dərslik nə qədər kamil olsa da, qüsursuz da deyildir. Lakin indiki halda bu dərslik müəllim və şagirdlərin zövqünü tam təmin edəcək şəkildədir. Respublikamızın qabaqcıl dil və ədəbiyyat müəllimləri ömür boyu bu dərsliklə işləmişlər. Yenə də işləyəcəklər. Hər bir yeni tədris ili, yeni çap ərəfəsində biz onu elmin müvafiq yenilikləri ilə zənginləşdirməyə çalışacağıq. Hörmətli dil və ədəbiyyat müəllimlərimizin mülahizə və qeydlərini gözləyir və bu başdan onlara öz təşəkkürümüzü bildiririk.

29.09.2003

Q E Y D L Ə R

I. DİLİN TARİXİ. DİALEKTOLOGİYA. TÜRKOLOGİYA

"Dil, tarix, poeziya" kitabındakı (2005) bir neçə məqalə birinci cildə daxil edilmiş, bir neçə məqalə isə sadəcə cildlərin heç birinə salınmamışdırr. Bunların əvəzinə, cildə 2007-2009-cü illərdə yazılmış bir sıra məqalələr əlavə edilmişdir. Qalan yazılar "Dil, tarix, poeziya" kitabından olduğu kimi verilmişdir.

Məqalələrin ilkin çap yerlərini qeyd edirik.

Kİ-SİKİL, yoxsa QIZOĞUL və ya qədim abidənin dilinin tədqiqi. V.Məmmədovun «Dastani-Əhməd Hərami» poemasının dili və üslubu» (Bakı, 2001) kitabına ön söz kimi çap olunmuşdur, s. III – XVII.

Nüvədi yanğısı və ya toponimlərin yeni ömrü. «İki sahil» qəzetinin 16 mart 2002-ci il nömrəsində dərc olunmuşdur. Əhmədəli Əliyevin «Azərbaycan dilinin Meğri şivələri» (Bakı, «Elm», 2003) kitabında ön söz kimi verilmişdir (s.35-50); «Vedibasar» qəzeti, 17-31 oktyabr, 1-15 noyabr, 16-30 noyabr, 1-15 dekabr 2003.

Azərbaycan dilinin Azərbaycanın qərbində yerləşən qərib ləhcəsi. «İraq-türkman ləhcəsi» (Bakı, «Elm», 2004, s.3-22) kitabında ön söz kimi verilmişdir; s.3-22.

Tədqiqi mümkün olmayan şivələrin tədqiqi: Azərbaycan dilinin Çəmbərək və Karvansaray şivələri. Şövkət Kərimovun «Azərbaycan dilinin Çəmbərək və Karvansaray şivələri» (Bakı, «Nurlan», 2004) kitabında ön söz kimi çap olunmuşdur (s.8-19).

Dilçi-etimoloq.V.İ.Lenin ad.APİ-nin «Elmi əsərlər»i, 1969, N 6, s.28 -34.

Müasir Axısqa dilinin tədqiqi. İ.Kazımovun «Axısqa türklərinin dili» (Bakı, «Elm»,1999) kitabına ön söz, s.1 - 13.

Mahmud Kaşğari "Divan"ının onomastik leksikası. Cahid Kazımovun "XI yüzilliyin tarixi-onomastik leksikası" əsərinə ön söz. Bakı, "Elm", 2009.

II. DİLİMİZİN QURULUŞU: ORFOQRAFİYA, ORFOEPİYA, LEKSİKA, MORFOLOGİYA, CÜMLƏ VƏ MƏTN PROBLEMLƏRİ

Orfoepiyamız öyrənilir. «Ədəbiyyat və incəsənət», 19 sentyabr 1970.

Bir dərslik haqqında. «Azərbaycan gəncləri», 7 dekabr 1972. Kiçik bir yazı olsa da, bu yazı mənim üçün əzizdir. Çünki professor Ə.Dəmirçizadə oxumuş və ona xoş təsir bağışladığını bildirmişdi.

«Əsas»ın işlənməsinə əsas vardır. «Gənc müəllim», 28 mart 1974.

Bağlayıcısız tabeli mürəkkəb cümlələrin struktur-semantik xüsusiyyətləri. F.Cəlilovun «Mürəkkəb cümlə sintaksisi» (Bakı, «Maarif», 1983) kitabına ön söz, s. 3-6.

Xalq poeziyasında daşlaşan tariximiz. H.Mirzəyevin «Aşıq poeziyasında yaşayan adlarımız və tariximiz (Bakı, 1997) kitabına ön söz, s. 3 - 5.

Mətn dilçiliyi problemləri. Əfqan Abdullayevin «Aktual üzvlənmə və mətn» (Bakı, Xəzər Universiteti Nəşriyyatı, 1998) kitabına ön söz, s. 5 - 21..

Tariximizə, dilimizə məhəbbətlə. M.Nuriyevanın «Tariximizin söz yaddaşı» (Bakı, 1998) kitabına ön söz, s.5 - 6.

Ədəbi dilimizin sintaksisinə yeni baxış. (prof.H.Mirzəyevlə). – «İki sahil», 18 dekabr 1998.

Mətn dilçiliyinin aktual problemləri. «Mətn sintaksisinin problemlərinə bir nəzər» adı ilə ixtisarla «Türkologiya» jurnalında (Bakı, 2002, № 1-2, s. 90 -92) çap olunmuşdur.

-sa,-sə şəkilçisi, onun praforma və derivatlarının, qrammatik və üslubi xüsusiyyətlərinin tədqiqi. G.Abdullayevanın «Azərbaycan dilində -sa,-sə şəkilçisi, onun qrammatik və üslubi xüsusiyyətləri» (Bakı, «Elm», 2000) kitabına ön söz, s. 3-13.

Mətnin qurulma texnikası və semantik strukturu.N.Novruzovanın «Mətn sintaksisi» (Bakı, «Təhsil», 2002) kitabına ön söz, s. 5-12.

Dilimizin bu günü. «İki sahil», 13 iyul 2002. «Xudafərin», 28

dekabr 2002 (Müsahibəni «İki sahil» qəzetinin müxbiri Emin Hacılı aparıb).

«Orfoqrafiya qaydaları»nın yeni layihəsi haqqında. İlk dəfə "Dil, tarix, poeziya" kitabında çap olunmuşdur.

Nizami Cəfərov. «Azərbaycanşünaslığa giriş». Yazıdan «Azərbaycan dilinin tarixi» kitabında (Bakı, 2003) istifadə edilmişdir.

Müraciət bildirən sözlər. İlk dəfə "Dil, tarix, poeziya" kitabında çap olunmuşdur.

Ağamusa Axundov. «Dil və ədəbiyyat» iki cilddə. Bakı, 2003. «Təhsil problemləri» qəzeti, 1 - 10 dekabr 2003.

Rasim Qaraca ilə balaca bir dil söhbəti. «Bakı-Xəbər» qəzeti, 19-20 iyun 2004.

III. ƏDƏBİ DİL, BƏDİİ DİL, TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

Bədii ədəbiyyatda xüsusi adların komik təbiəti. «Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları», Bakı, APİ nəşri, 1987, s. 237-241.

Füzulidən praktikum. İlk dəfə "Dil, tarix, poeziya" kitabında çap olunmuşdur.

T.İ.Hacıyev və K.N.Vəliyev. Azərbaycan dili tarixi (oçerklər və mətnlər). İlk dəfə "Dil, tarix, poeziya" kitabında çap olunmuşdur.

Sənətkarın qüdrəti. «Sovet Ermənistanı», 4 iyun 1983.

Müasirlik ruhu ilə. «Ədəbiyyat və incəsənət», 6 mart 1987.

Xalq sevgisi ilə. «Zaman» qəzeti, 26 fevral 1998.

Fizika ilə lirikanın vəhdəti. Vüqar Əliyevin «Çırağımı sevənlərə» (Bakı, Kür,1998) kitabına ön söz, s. 3-11; «Şərqin səsi», iyul 1998, № 15.

Ürək dərdi, Vətən yanğısı. Oqtay Zəngilanlının «Bir tənhalıq axtarıram» kitabına (Bakı,1999) ön söz, s. 3-10.

Reyhan ətirli şerlər. «Ədəbiyyat qəzeti», 22 yanvar 1999; Y.Nəsirlinin «Əgər ki yıxılsam, çinar göstərin» kitabında (Bakı, Şərq-Qərb nəşriyyatı, 2000), s. 295-306, 512-520.

Özü nisgilli, taleyi xoşbəxt şair. «Cümə» – «Xalq qəzeti»nin əlavəsi, 29 yanvar – 4 fevral 1999.

Dəliliyin xeyiri. «İki sahil», 2 fevral 1999.

Dünyamızın dərdləri. «İki sahil», 3 mart 1999.

Xalq naminə, haqq-ədalət naminə. «Günay» (19-25 fevral 2000) qəzetində çap olunmuşdur.. Müsahibəni Əli Səmədov aparmışdır.

Kövrək duyğular. Yasif Nəsirlinin «Əgər ki yıxılsam, çinar göstərin» (Bakı, Şərq-Qərb nəşriyyatı, 2000) kitabına ön söz, s. 3-32

Şairin poeziya dili. «İki sahil», 2 mart 2001; «Ünsiyyət» qəzeti, xüsusi buraxılış, aprel 2001.

Poeziyanın şirin dili haqqında. «İki sahil», 2 oktyabr 2001; «Azərbaycan müəllimi», 4 oktyabr 2001.

Mirzə İbrahimov və dilimiz. «İki sahil», 5 dekabr 2001.

Malik Rəcəbin «Həyat burulğanı»nda romanı və sosial-ictimai düşüncələr. «Kredo» qəzetinin 2005-ci il fevral nömrələrində çap olunub.

Dünyanı daha aydın görən şair. «Kredo» qəzetinin 15, 22, 29 may 2004-cü il nömrələrində dərc olunmuşdur.

Bir həyat romanında bir neçə roman və ya Hidayətin «Burdan min atlı keçdi» əsəri barədə düşüncələrim. «İki sahil», 16, 17 iyul 2004.

Dədə Qorquda müraciətlə «Dədəm Qorqut» poeması.. «Kredo», 9 oktyabr 2004; «Qafqazın səsi», 27 oktyabr – 2 noyabr 2004.

Gennən baxıb yanan könül. «Kredo», 6 noyabr 2004.

Uzun ayrılıqdan sonra. «Ədəbiyyat qəzeti»ndə (24 dekabr 2004, N 51) və «Unudulmaz şair» adı ilə «Kredo» (12 noyabr 2004) qəzetində çap olunmuşdur.

Şair Fərqanəyə məktub. «Kredo», 27 noyabr 2004.

IV. MÜASİRLƏRİMİZ: DOĞMA VƏ YAXIN ADAMLAR

Alim ömrü. «Xalq qəzeti», 30 oktyabr 1998.

Mənəvi xəzinəmizin yorulmaz toplayıcı və tədqiqatçısı.. «Düşüncə» - prof. M.Həkimov – 70. Xüsusi buraxılış, may 1999.

Yetmişə bir qalanda. «İki sahil», 8 iyun 1999.

«**İllər onu özü ilə gələcəyə aparır**». «Ulus» qəzeti, 28-31 avqust 1999.

Bu da mənim nəğməm. «Allahverdi Verdizadə», Bakı, Çaşıoğlu, 2000, s. 57-67.

50 ilin işığında. «İki sahil», 2 fevral 2000.

Əziz dost, unudulmaz yoldaş. «Türk bilimi araştırmaları», 9 sayı, Sivas, 2000, s. 27-29.

Mənim tanıdığım Yasif. Yasif Nəsirlinin «Əgər ki yıxılsam, çinar göstərin» (Bakı, Şərq-Qərb nəşriyyatı, 2000) kitabına ön söz.

İnsan təbiəti və dilçilik. «Tədqiqlər -1»., AMEA-nın Nəsimi ad. Dilçilik İnstitutu, 2002, s. 10 - 12.

Kolxoz rəhbəri. Əlisahib Əroğul. Torpaq ətirli insan. Bakı, 2002, s. 56 -64.

İki il. Qiyasəddin Qeybullayev. «Kredo», 27 noyabr 2004.

Bu da bir tale, bu da bir yazı. Prof. Rəhilə Məhərrəmova – 80, Bakı, «Nurlan», 2003, s. 65 - 68.

Dialektologiya elminin veteranı. Sefi Behbudov. «Azərbaycan dili şivələrinin omonimlər lüğəti» (Bakı, «Nurlan», 2003) kitabına ön söz, s. 3-4.

Həyatın şair etdiyi adam. Nəcim İsmayıloğlu (Sinə Tumaslı), «Yaşat Azərbaycanı», Bakı, 2003, s. 5-7.

Uzaq gələcəyin adamı. «Kredo», 4 dekabr 2004.

Nə tez 50? . «Tədqiqlər – 2», Azərbaycan MEA-nın Nəsimi ad. Dilçilik institutu, Bakı, 2004, s. 313 - 316.

Dağların gözünün yaşına baxma . «Kredo», 20 noyabr 2004.

AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərovun açıq məktubuna cavab. "Kredo", 17 noyabr 2007.

Rasətin "Fedka"poeması və şikayət məktubu. İnternetdə olub, ilk dəfə çap olunur.

Sənət xəyallar üstündə qurulur. "Ədəbiyyat qəzeti", 17 oktyabr 2007.

60 yaşın hesabatı. BQU-nun "Elmi əsərlər"ində (Bakı, 2008, № 3) çap olunub, s.15-18.

Ənvər Nəzərlinin "Divan" yaradıcılığı. "Kredo", 10 yanvar 2009.

Professor Elməddin Əlibəyzadəyə açıq məktub. "Elm" qəzeti, 18 fevral 2009 və sonrakı nömrə; "Kredo", 28 fevral, 5 mart 2009.

Mikayıl Azaflının yeni həyatı və ya qoca qartalın "Mən Azaflıyam" kitabı. "Azaflı yaradıcılığına salınan işıq" adı ilə bir qədər ixtisarla "Azərbaycan" qəzetində (13 yanvar 2009) çap olunmuşdur.

Qədim bir xalqın sinə dağı - Araz ağrısı. "Kredo", 31 yanvar 2009.

Cəmil Əlibəyov və onun ömürnaməsi - "Zəmanələrlə üz-üzə". "Kredo", 7, 14 fevral 2009.

V. MƏKTƏB, TƏDRİS, DƏRSLİK

Müxtəlif qeydlər dəftəri. «Azərbaycan müəllimi», 23 may 1965.

«İzahlı dilçilik lüğəti». «Gənc müəllim», 25 iyun 1970.

Dilçilik proqramları. «Azərbaycan müəllimi», 22 iyul 1970.

Məktəb və ədəbi tələffüz. «Gənc müəllim», 14 mart 1975.

«**VII-VIII siniflərdə Azərbaycan dili dərsləri**». «Azərbaycan müəllimi», 22 iyun 1977.

IV-VIII siniflərin Azərbaycan dili proqramı. «Azərbaycan müəllimi», 14 sentyabr 1979.

«**Azərbaycan dili» – 7. «**Azərbaycan müəllimi», 14 sentyabr 1984.

Xüsusi seminarların tədrisi təcrübəsindən. «Azərbaycan dili». Respublika elmi-metodik konfransının materialları, 1984, s. 148 - 152.

Daha keyfiyyətli dərsliklər uğrunda. Konfransda edilmiş çıxışın mətni. Mətn ixtisarla «Məktəb islahatı və pedaqoji təhsil». (Bakı, APİ nəşri, 1986) məcmuəsində çap olunmuşdur.

Yeni proqramın sintaksis bölməsi. İlk dəfə "Dil, tarix, poeziya" kitabında çap olunmuşdur.

«Azərbaycan dili»nin yeni nəşri. «Azərbaycan» qəzeti, 5 oktyabr 2003. IV Bakı Kitab Bayramında (26 may 2004) keçirilmiş Respublika müsabiqəsində «Azərbaycan dili» dərsliyi (8-9-cu siniflər üçün, 2003) «İlin uğurlu dərsliyi» diplomuna layiq görülmüşdür. Bax: «Ədəbiyyat qəzeti», 26 may 2004; «Respubli-

ka», 3 iyun 2004; «Xalq qəzeti», 4 iyun 2004; «Paritet», 3 - 4 iyun 2004; «Azərbaycan müəllimi», 11 iyun 2004 və s.

KİTABIN İÇİNDƏKİLƏR

Bir neçə söz 7

I. DİLİN MƏNŞƏYİ VƏ TARİXİ. DİALEKTOLOGİYA. TÜRKOLOGİYA

Kİ-SİKİL, yoxsa QIZOĞUL və ya qədim abidənin dilinin tədqiqi 8
Nüvədi yanğısı və ya toponimlərin yeni ömrü 20
Azərbaycan dilinin Azərbaycanın qərbində yerləşən qərib ləhcəsi. 31
Tədqiqi mümkün olmayan şivələrin tədqiqi. Azərbaycan dilinin Çəmbərək və Karvansaray şivələri 51
Dilçi-etimoloq 64
Müasir Axısqa dilinin tədqiqi. 73
Mahmud Kaşğari "Divan"ının onomastik leksikası. 82

II, DİLİMİZİN QURULUŞU: FONETİKA, ORFOQRAFİYA, ORFOEPİYA, LEKSİKA, MORFOLOGİYA, CÜMLƏ VƏ MƏTN PROBLEMLƏRİ

Orfoepiyamız öyrənilir. 87
Bir dərslik haqqında. 92
«Əsas»ın işlənməsinə əsas vardır. 95
Bağlayıcısız tabeli mürəkkəb cümlələrin struktur-semantik xüsusiyyətləri. 98
Xalq poeziyasında daşlaşan tariximiz. 102
Mətn dilçiliyi problemləri. 105
Tariximizə, dilimizə məhəbbətlə. 119
Ədəbi dilimizin sintaksisinə yeni baxış. 122

Mətn dilçiliyinin aktual problemləri. 126
-sa,-sə şəkilçisi, onun praforma və derivatlarının,
qrammatik və üslubi xüsusiyyətlərinin tədqiqi. 133
Mətnin qurulma texnikası və semantik strukturu. 144
Dilimizin bu günü. 151
«Orfoqrafiya qaydaları»nın yeni layihəsi haqqında. 158
Nizami Cəfərov. «Azərbaycanşünaslığa giriş».. 163
Müraciət bildirən sözlər. 167
Ağamusa Axundov. «Dil və ədəbiyyat» iki cilddə.. 170
Rasim Qaraca ilə balaca bir dil söhbəti. 183

III. ƏDƏBİ DİL, BƏDİİ DİL, TƏNQİD VƏ ƏDƏBİYYATŞÜNASLIQ

Bədii ədəbiyyatda xüsusi adların komik təbiəti. 187
Füzulidən praktikum. 192
T.İ.Hacıyev və K.N.Vəliyev. Azərbaycan dili tarixi
(oçerklər və mətnlər).. 196
Sənətkarın qüdrəti.. 200
Müasirlik ruhu ilə. 203
Xalq sevgisi ilə. 206
Fizika ilə lirikanın vəhdəti. 211
Ürək dərdi, Vətən yanğısı... 217
Reyhan ətirli şeirlər.. 223
Özü nisgilli, taleyi xoşbəxt şair. 227
Dəliliyin xeyiri.. 231
Dünyamızın dərdləri. 235
Xalq naminə, haqq-ədalət naminə. 239
Kövrək duyğular. 242
Şairin poeziya dili. 246
Poeziyanın şirin dili haqqında. 256
Mirzə İbrahimov və dilimiz. 261
Malik Rəcəbin «Həyat burulğanında» romanı və
sosial-ictimai düşüncələr. 271
Dünyanı daha aydın görən şair. 289
Bir həyat romanında bir neçə roman və ya Hidayətin
«Burdan min atlı keçdi» əsəri barədə düşüncələrim. 298

Dədə Qorquda müraciətlə «Dədəm Qorqut» poeması. . . 320
Gennən baxıb yanan könül.. 326
Uzun ayrılıqdan sonra. 331
Şair Fərqanəyə məktub.. 342

IV. MÜASİRLƏRİMİZ: DOĞMA VƏ YAXIN ADAMLAR

Alim ömrü. 348
Mənəvi xəzinəmizin yorulmaz toplayıcı
və tədqiqatçısı. 351
Yetmişə bir qalanda. 354
«İllər onu özü ilə gələcəyə aparır». 359
Bu da mənim nəğməm. 362
50 ilin işığında. 373
Əziz dost, unudulmaz yoldaş. 377
Mənim tanıdığım Yasif 380
İnsan təbiəti və dilçilik. 388
Kolxoz rəhbəri. 391
İki il. Qiyasəddin Qeybullayev. 400
Bu da bir tale, bu da bir yazı. 404
Dialektologiya elminin veteranı. 408
Həyatın şair etdiyi adam. 411
Uzaq gələcəyin adamı. 413
Nə tez 50? 418
Dağların gözünün yaşına baxma. 421
AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərovun açıq məktubuna cavab. 432
Rasətin "Fedka" poeması və şikayət məktubu. 446
Sənət xəyallar üstündə qurulur. 453
60 yaşın hesabatı.. 461
Ənvər Nəzərlinin "Divan" yaradıcılığı. 465
Professor Elməddin Əlibəyzadəyə açıq məktub. 475
Mikayıl Azaflının yeni həyatı və ya qoca qartalın

"Mən Azaflıyam" kitabı.....486
Qədim bir xalqın sinə dağı - Araz ağrısı.....494
Cəmil Əlibəyov və onun ömürnaməsi - "Zəmanələrlə üz-üzə".....510

V. MƏKTƏB, TƏDRİS, DƏRSLİK

Müxtəlif qeydlər dəftəri. 520
«İzahlı dilçilik lüğəti». 523
Dilçilik proqramları. 526
Məktəb və ədəbi tələffüz. 529
«VII-VIII siniflərdə Azərbaycan dili dərsləri». 533
IV-VIII siniflərin Azərbaycan dili proqramı. 540
«Azərbaycan dili» – 7. 544
Xüsusi seminarların tədrisi təcrübəsindən. 548
Daha keyfiyyətli dərsliklər uğrunda.. 551
Yeni proqramın sintaksis bölməsi. 555
«Azərbaycan dili»nin yeni nəşri. 561
Qeydlər 565

Qəzənfər Şirin oğlu Kazımov

SEÇİLMİŞ ƏSƏRLƏRİ

VII cild

Bu cildə prof.Q.Ş.Kazımovun "Dil, tarix, poeziya" (Bakı, "Nurlan", 2005, 600 səh.) kitabı və bir sıra yeni məqalələri daxildir.